**Zabil Həsrət oğlu Bayramlı**

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN QURULUŞU VƏ İDARƏ OLUNMASINDA TÜRK QIZILBAŞ ƏYANLARININ ROLU

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
28 yanvar 2015-ci il tarixli 79 saylı əmri ilə
dərs vəsaiti kimi təsdiq edilmişdir.

**Bakı-2015**

**Elmi redaktor:** AMEA-nın müxbir üzvü, əməkdar elm xadimi,
tarix elmləri doktoru, professor **Y.M.Mahmudov**

**Rəyçilər:** Tarix üzrə fəlsəfə doktoru, dosent **M.Q.Abdullayev**
Tarix üzrə fəlsəfə doktoru, dosent **B.Ş.Şabiyev**

**B-19. Zabil Həsrət oğlu Bayramlı. AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN QURULUŞU VƏ İDARƏ OLUNMASINDA TÜRK QIZILBAŞ ƏYANLARININ ROLU. Bakı-«AVROPA»-2015. 348 səh.**

Kitabda Azərbaycan Səfəvi dövlətinin quruluşu, dövlətin etnik mənsubiyyəti, əsgəri təşkilatı, dini təsisatları, idarə sistemində Türk Qızılbaş əyanlarının yeri və rolu ilk qaynaqlar, rəsmi sənədlər tədqiqata cəlb edilərək araşdırılmasına cəhd göstərilmişdir. Burada bir sıra yeni problemlərdən ilk dəfə geniş planda bəhs edilir.

Dərs vəsaiti tələbə, magistr, doktorant, tarixçi mütəxəssislər və geniş oxucular üçün nəzərdə tutulmuşdur.

B $\frac{4702060106-34}{8032-2015}$ *Qrifli nəşr*

© *«AVROPA»nəşriyyatı-2015*

# MÜNDƏRİCAT

Giriş ........................................................................................ 3

**I Fəsil. Azərbaycan Səfəvi dövlətinin idarə quruluşu ........... 21**

§1. Dövlətin etnik mənsubiyyəti, quruluşu və hakimiyyətin həyata keçirilməsində Türk Qızılbaş əsilzadələrinin rolu ........... 21
§2. Ali dövlət hakimiyyət orqanları və türk əyanları .................. 77
§3. Dövlət və saray təşkilatı .................................................... 117
§4. Əsgəri təşkilat................................................................... 137

**II Fəsil. Dini divan ..................................................................... 164**
§1. Dini təsisatlar.................................................................... 164
§2. Xəlifət əl-xüləfa institutu.................................................... 190

**III Fəsil. Türk Qızılbaş əmirlərinin inzibati idarə sistemində yeri ....................................................................................... 204**
§1. İnzibati quruluş................................................................. 204
§2. İdarəetmə sistemi.............................................................. 275

**Nəticə ......................................................................................... 306**
**Biblioqrafiya .............................................................................. 325**
**Xəritələr...................................................................................... 344**

# GİRİŞ

XX əsrin sonlarından Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra xalqımızın çox zəngin tarixi keçmişini, xüsusilə də Azərbaycan tarixinin orta əsrlər dövrünün bir çox problemlərini yenidən araşdırıb öyrənilməsi böyük əhəmiyyət kəsb etmişdir. Bu ilk növbədə ondan irəli gəlir ki, Azərbaycan Sovetlər İttifaqının tərkibində olduğu dövrdə nə Vətən, nə də xarici tarixşünaslıqda Yaxın və Orta Şərq xalqlarının, Güney Qafqazın orta əsrlər tarixinə həsr olunmuş elmi-tədqiqat əsərlərində türk və müsəlman xalqlarının zəngin dövlətçilik təcrübəsinə və ənənələrinə heç də həmişə obyektiv şəkildə yanaşılmamış, bəzən yanlışlıqlara və təhriflərə yol verilmişdir. Bunu əsas götürərək hazırki müstəqillik dövründə xalqımızın tarixinin hərtərəfli şəkildə araşdırılıb öyrənilməsi, tarixi həqiqətlərin üzə çıxarılaraq obyektiv şəkildə işıqlandırılması tarixçi alimlərimizin qarşısında duran əsas vəzifələrdən biridir

Azərbaycan tarix elminin qarşısında duran vəzifələrə uyğun olaraq orta yüzillərin yerli və Qərb ədəbiyyatlarındakı tarixi gerçəklikləri özündə əks etdirən faktların müqayisəli təhlili əsasında Azərbaycan Səfəvi dövlətinin idarə quruluşunun, dövlətin milli mahiyyətinin tədqiq edilməsi, tarixi reallıqların açıqlanması da günümüzün aktual məsələlərindəndir.

XVI yüzilin əvvəllərində Səfəvi dövləti Azərbaycan cəmiyyətinin mükəmməl bir siyasi təşkilatı kimi meydana çıxmış, mərkəzi hakimiyyət orqanları təşkil edilmiş və onların arasında səlahiyyət bölgüsü həyata keçirilmişdir. İnzibati-ərazi bölgüsü prinsipləri əsasında yerli idarə orqanları yaradılmış və nəticədə ali hakimiyyətin bütün ölkə ərazisində həyata keçirilməsi təmin olunmuşdur. Azərbaycan Səfəvi dövlətinin qurulmasında ona arxa olmuş türk qızılbaş əyanları hərbi-siyasi qüvvə kimi həm mərkəzdə, həm də yerlərdə dövlətin özülünə, dayağına çevrilmişdir ki, bu da əslində xalqımızın əski çağlarından mövcud olan dövlətçilik ənənələrindən irəli gəlirdi. Azərbaycanda Səfəvilərin idarəçilik və dövlət quruluşu türkün oğuz boyundan olan Baharlı və Bayandurlu

sülalərinin hakimiyyəti dövründəki idarəçilik sistemindən formaca o qədər də fərqli deyildi və adları çəkilən sülalələrin hər üçünün dövründə mövcud olmuş idarəçilik sistemi araşdırılıb təhlil olunduqda, onların qədim Türk dövlətçilik təcrübəsindən geniş şəkildə bəhrələndiyi aydın görünür. Eyni zamanda Türkistan və Osmanlı dövlətçilik ənənələrindən də istifadə olunduğu nəzərə çarpır.

Ancaq bu günə qədər Azərbaycan Səfəvi dövlətinin quruluşu və onun idarə olunmasında Türk-Qızılbaş əyanlarının roluna aid ayrıca tədqiqat işi aparılmadığına görə bu problem lazımi səviyyədə öyrənilməyibdir. Buna görə də, Azərbaycan Səfəvi dövlətinin idarə sisteminin araşdırılması, bu dövlətin mahiyyəti və xüsusiyyətlərinin öyrənilməsi tarixşünaslığımızın aktual məsələlərindəndir. Tədqiqat zamanı Azərbaycan Səfəvi dövlətinin idarə quruluşunda Qızılbaş-Türk əyanlarının XVI əsrdə olduğu kimi, XVII yüzillikdə də aparıcı mövqeyi, sarayda, orduda, diplomatik danışıqlarda türk dilinin işlənməsi ilə bağlı məsələlərin aydınlaşdırılması dövlətin milli mahiyyətinin öyrənilməsində başlıca istiqamətverici amil kimi əsas götürülmüşdür. Səfəvi dövlətinin etnik kimliyi məsələsinin hələ indiyədək tarixşünaslığımızın gündəmindən düşmədiyini nəzərə alaraq XVI əsrin əvvəlində meydana çıxmış bu dövlətin elə yaranışından Azərbaycan türklərinə məxsusluğunun ilkin qaynaqlar əsasında təsdiq edilməsi, bu dövlətin XVII əsrdə də özünün türk mahiyyətinin qoruyub saxlaması gerçəkliyinin inkaredilməz dəlillərlə sübuta yetirilməsi tarixşünaslığımızda bu dövlətin XVI əsrin sonu-XVII əsrin əvvəllərindən farslaşaraq İran dövlətinə çevrilməsi haqqındakı yanlış fikir və mülahizələrin təkzib edilməsi üçün çox ciddi elmi əsas yaradır.

Türk əyanlarının dövlətin strukturunda rolu, türk dilinin dövlət dili kimi işlədilməsi, təkcə dövlətin mahiyyət məsələsini üzə çıxarmır, həm də Azərbaycan türklərinin bir xalq olaraq qədim və zəngin dövlətçilik təcrübəsinə malik olduğunu göstərir.

Qeyd etdiyimiz kimi, günümüzə qədər mövzu ayrıca bir problem kimi araşdırılmamışdır. Doğrudur, istər Azərbaycan, istərsə də xarici tarixşünaslıqda Səfəvi dövlətinin tarixinə həsr olunmuş bir çox əsərlərdə dövlət quruluşu qismən də olsa tədqiq

edilmiş, lakin bu əsərlərdə idarə sistemində Türk-Qızılbaş əsilzadələrinin rolu diqqətdən kənarda qalmışdır.

AMEA-nın müxbir üzvü O.Əfəndiyevin tədqiqatları (20; 155; 156) Azərbaycanın XVI əsr sosial-iqtisadi və siyasi tarixinin konseptual məsələlərini hərtərəfli şəkildə əks etdirir. Onun əsərləri Azərbaycan Səfəvi dövləti tarixinin öyrənilməsi üçün çox böyük elmi əhəmiyyətə, dəyərə malikdir. Müəllif 1981-ci ildə nəşr olunmuş monoqrafiyasında Səfəvi dövlətinin yaranması, onun ictimai-siyasi, iqtisadi quruluşu, beynəlxalq əlaqələrini ilk qaynaqlardan əldə etdiyi zəngin faktiki materialları təhlil edərək araşdırmış, düzgün elmi məntiqi nəticələr əldə etmişdir. Onun qeyd olunan əsərindəki «Səfəvilər dövlətinin siyasi-inzibati quruluşu» adlı sonuncu bölüm mövzunun araşdırılıb düzgün elmi nəticələr əldə edilməsində xüsusi əhəmiyyət kəsb etmişdir.

AMEA-nın müxbir üzvü Y.Mahmudovun «Səyyahlar Azərbaycana gəlir», «Odlar yurduna səyahət», «Səyyahlar, kəşflər, Azərbaycan», «Ağqoyunlu və Səfəvi dövlətinin Qərbi Avropa ölkələri ilə qarşılıqlı əlaqələri (XV əsrin II yarısı – XVII əsrin əvvəlləri)» (34, 35, 36; 171) adlı əsərlərində Azərbaycan Səfəvi dövlətinin sosial-iqtisadi həyatı, siyasi tarixi, mədəniyyəti ilə bağlı məsələlər işıqlandırılmaqla yanaşı, beynəlxalq əlaqələri də hərtərəfli tədqiq olunmuşdur. Müəllifin əsərlərində Səfəvi dövlətinin quruluşu, saray həyatı, Qızılbaş əyanlarına aid dəyərli məlumatlar vardır. Kitabın yazılmasında Y.Mahmudovun əsərlərindən geniş şəkildə istifadə olunmuşdur.

Ş.Fərzəliyevin 1983-cü ildə nəşr etdirdiyi «Azərbaycan XV-XVI əsrlərdə» (24) adlı əsərində «Əhsən ət-təvarix» xüsusi tədqiqat obyekti kimi seçilsə də, dövrün bir çox unikal mənbələrindən də istifadə olunmuşdur. Əsər Azərbaycanın XV-XVI əsrlərdə sosial-iqtisadi həyatı və siyasi tarixinə həsr edilmişdir. Müəllif XVI əsrdə Azərbaycan Səfəvi dövlətinin quruluşu ilə bağlı bir sıra məsələləri də işıqlandırmışdır.

S.M.Onullahi «XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi» (49) adlı əsərində dövrün Şərq və Qərb mənbələrindən əldə etdiyi zəngin materialları təhlil etmiş, şəhərin ictimai quruluşu, sosial

münasibətlər, iqtisadi tarixi, mədəni həyatının mühüm məsələlərini araşdırmışdır. Əsərdə Təbriz şəhərinin idarə quruluşu da işıqlandırılmışdır.

Ə.Ə.Rəhmaninin «Azərbaycan XVI əsrin sonu və XVII əsrdə (1590-1700-cü illər)» (194) adlı əsəri adından da göründüyü kimi Azərbaycanın sosial-iqtisadi, siyasi tarixi və mədəni həyatına həsr olunmuşdur. Ancaq müəllif sovet dövrünün bir çox tarixçiləri kimi bu dönəmdə mövcud olan «yanlış irançılıq konsepsiyasından» uzaqlaşa bilməmiş, XVI əsrin sonlarında İran etnik elementlərinin hakimiyyətdə güclənməsi, yəni dövlətin iranlılaşması kimi saxta bir fikirlə razılaşmaq zorunda qalmışdır. Müəllifin əsərinin «Dil və ədəbiyyat» fənərciyində dövrün avropalı səyyahlarından Şarden, Tavernye, Sanson və İran tarixçisi Nəsrulla Fəlsəfinin XVII əsrdə türkcənin Səfəvilərin rəsmi danışıq və saray dili olduğunu qeyd etdiklərini yazması, onun birinci fikrinin yanlışlığının bəlli göstəricisidir. Əsərinin qeyd olunan bəhsində türk dili əvəzinə azərbaycan dili ifadəsi işlətməsi, Osmanlı türkcəsinin Azərbaycan türkcəsindən fərqli olduğunu qeyd etməsi də XVII əsrin tarixi gerçəklikləri ilə səsləşmir.

Süleyman Əliyarlının redaktorluğu, gərgin elmi araşdırmaları və zəhməti sayəsində 1996-cı ildə nəşr olunan «Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci illərə qədər» (3) dərsliyində «Səfəvi imperatorluğu (XVI-XVII yüzillər)» fəslinin «Səfəvilərin hakimiyyətə gəlməsində sosial-siyasi bidətçiliyin yeri, Qızılbaş təlimi» bölümündə səfəvişünaslıqda Qızılbaş ideologiyası, hərəkatı, onlara arxa olan zümrələr haqqında yeni elmi konsepsiyanın əsası qoyulmuşdur. Görkəmli tarixçi 2012-ci ildə nəşr etdirdiyi "Tariximiz açıqlanmamış mövzuları ilə" kitabında yazır: "...mən elmi əsərlərimi yuxarı məqamlarda-yüksək görəv sahiblərinin buyruqlarına tabe tutmaq və bununla da nə isə qazanmaq istəyindən həmişə uzaq olmağa çalışmışam" (21a, 6). Və elə bu amalla ömrünü tarixi gerçəkliklərin üzə çıxarılmasına həsr edən, yaratdığı milli tarix məktəbinin əməkdaşlarının hamısının gənəşik və güvən yeri olan ustad tarixçimiz demək olar ki, tariximizin bir çox gərəkli problemləri üzrə yeni elmi konsepsiya yaratmağa müvəffəq olmuş-

dur. Ustadımın səfəvişünaslığa aid yeni elmi konsepsiyası ilə yanaşı, onun əski türk dövlətçilik tarixi ilə bağlı araşdırmaları əsərin yazılmasında elmi istiqamət kimi qəbul edilərək, istifadə olunmuşdur.

Mövzu ilə bağlı bəzi məsələlər R.Mehdiyev, R.Məmmədov, Ş.Məmmədova, B.Ş. Şəbiyev, N.S.Musalı, T.N.Nəcəfli, M.X.Nemətova, S.B.Aşurbəyli, H.Ciddi, M.X.Heydərov, S.A.Məmmədovun əsərlərində də (174a; 39; 41; 200b, 46a, 47a, 47; 144; 145; 154; 168; 169; 172) öz əksini tapmışdır.

Qərb tədqiqatçılarından V.F.Minorski «Təzkirət əl-müluk» əsərinə şərh və əlavələrində dövlət və idarə quruluşu ilə yanaşı, bəylərbəyiliklərdən də qısa bəhs etmişdir (103). Alman alimi Röhrbörn isə «Səfəvilər dövründə əyalətlərin quruluşu» (100) adlı yazısında ilk qaynaqlara əsasən Azərbaycan bəylərbəyilikləri, onların inzibati, hərbi və iqtisadi hüquqları ilə bağlı məsələlərə müəyyən qədər toxunmuşdur. Təəssüflə demək lazımdır ki, müəllif əsərində müəyyən qüsurlara da yol vermişdir. Vilayətlərdə sədr ilə şeyx ül-islamın sinonim kimi işlənməsini göstərməklə yanaşı, o, vilayət sədrləri haqqında ümumiyyətlə çox az, səthi məlumat vermişdir.

Rocer M.Seyvori də yazılarında (210; 211) Səfəvilərin idarə quruluşu haqqında olduqca az məlumat vermişdir. Amma onun xəlifət əl-xüləfa haqqında məlumatı çox maraqlıdır. O, mürşüd-i kamilin naibi olan xəlifət əl-xüləfanı haqlı olaraq «yarım kral» adlandırır. Bu təşkilatda Qızılbaş türklərin, türkmanların aparıcı rola malik olması haqqında ətraflı məlumat versə də Türk və Türkman tayfalarının eyni kökdən olmasını nəzərdən qaçırmışdır.

Bir çox rus tədqiqatçıları Səfəvi dövlətinin tarixinə aid araşdırmalarında dövlət quruluşu, əyalət və şəhər idarə sisteminə yeri gəldikcə toxunmuşlar. Xüsusilə İ.P.Petruşevskinin əsərlərində (180; 181) Azərbaycan Səfəvi dövlətinin idarə sistemi ilə bağlı daha maraqlı qeydlər vardır. Lakin müəllifin məqsədi idarə sistemini tədqiq etmək olmasa da, əsərlərində idarə quruluşuna dair elmi əhəmiyyətə malik bir çox məsələlərin şərhi verilmişdir. 1949-cu ildə nəşr olunmuş monoqrafiyasında Səfəvilər dövründə xəlifət əl-xüləfa, əmir əl-üməra institutları ilə bərabər Azərbaycan, Şirvan, Qarabağ,

Çuxur-Səd bəylərbəyilikləri və onların idarə quruluşu barədə də qısa məlumat verilir. Bu məlumatlar Azərbaycan Səfəvi dövlətinin idarə quruluşunu öyrənmək üçün çox böyük elmi əhəmiyyətə malikdir.

V.V.Bartold və A.P.Novoseltsevin tədqiqatlarında (16; 176) Səfəvi dövləti tarixinin müəyyən məsələləri öz əksini tapmışdır. P.P.Buşev, M.S.İvanov, K.K.Kutsiya, Ş.A.Mesxia və N.N.Tumanoviç və İ.K.Pavlovanın əsərlərində (150; 151; 161; 162; 167;174; 205; 176a) də Səfəvi dövlətinin quruluşuna aid məlumatlara təsadüf edilir. Ancaq qeyd etdiyimiz kimi, Səfəvilər dövrü ilə məşğul olan tarixçilərdən heç biri sırf dövlət quruluşunda Qızılbaş-Türk əyanlarının rolu mövzusunu tədqiq etmədiyindən bu məsələyə əsərlərində az yer vermişlər. Lakin onların əsərlərində dövlətin quruluşu ilə bağlı tədqiq edilən məsələlər mövzunun işlənməsi üçün istiqamətverici əhəmiyyətə malik olmuşdur.

Türkiyə tarixçilərindən Faruk Sümər «Safevi devletinin kuruluşu və gelişmesində Anadolu türklerinin rolu» adlı əsərini (67) Səfəvi dövlətinin yaranmasında və inzibati idarə quruluşunda Qızılbaş-Türk etnosunun həlledici roluna həsr etmişdir. Tarixçilikdə Azərbaycan Səfəvi dövlətinin tarixi ilə bağlı olan «yanlış konsepsiya» Faruk Sümərin əsərində ciddi elmi dəlillərlə təkzib edilir. O, yazır: «Səfəvi dövlətinin «milli bir İran dövləti» olduğu görüşünün indi ciddi elm adamları arasında tərəfdarı qalmamışdır» (67, 2). F.Sümərin əsəri tədqiq etdiyimiz mövzu ilə birbaşa bağlı olub, səfəvişünaslıqda ciddi elmi əhəmiyyət kəsb edir. Lakin o, əsərində dövlətin mərkəzi idarə quruluşunda türk əsilzadələrin rolu ilə bağlı məsələlərə ötəri toxunur. Həm də Dərbənddən Həmədana, Xəzərdən Kayseri və Sivasa qədər Oğuz-Səlcuq etnosunun yayılma arealını nəzərə almamış, burada eyni dilə, düşüncə və təfəkkürə sahib olan türkləri İran və Anadolu türklərinə bölüb, dövlətin yaranmasında Anadolu türklərinin rolunu şişirtməklə nöqsanlara da yol vermişdir.

Kitabın yazılmasında müasir İran tarixçilərinin də əsərlərindən istifadə olunmuşdur. Nəsrullah Fəlsəfi I Şah Abbasın həyat və fəaliyyətinə, daxili və xarici siyasətinə həsr etdiyi əsərində (133; 134; 135) «Təzkirət əl-müluk»dan əldə etdiyi materiallara istinad

edərək Səfəvi dövlət quruluşu haqqında məlumat vermiş, ancaq mərkəzi və yerli idarələrdə türk əsilzadələrinin roluna toxunmamışdır. Lakin o, tarixi gerçəkliklə hesablaşmış, Səfəvi dövlətinin meydana gəlməsi və quruluşunda türk etnosunun üstün mövqeyini qəbul etmişdir. N.Fəlsəfi və Bastani Parizi (84) istisna olmaqla, Səfəvi tarixini araşdıran İran tarixçilərinin çoxunun, o cümlədən Əhməd Tacbəxş, Nizaməddin Mücir Şeybani, Məhəmməd Cavad Məşkurun əsərlərində (78; 137; 124) millətçilik mövqeyi, «İrançılıq konsepsiyası» üstünlük təşkil edir.

İ.P.Petruşevski, O.Ə.Əfəndiyev, Ə.Ə.Rəhmani, M.X.Heydərov, S.M.Onullahi, Ş.F.Fərzəliyev, Ş.K.Məmmədova, N.S.Musalı (181; 185; 20; 193; 194; 168; 169; 49; 24; 41; 46a) Səfəvilər dövrünün qaynaqlarını araşdırıb, onların haqqında ətraflı məlumat verdikləri üçün biz ayrı-ayrı mənbələr haqqında geniş söhbət açmağı lüzumsuz sayırıq. Buna görə də, ancaq mövzu ilə birbaşa bağlı olan mənbələrin qısa icmalını verməklə kifayətlənirik.

Səfəvilər dövrünün farsdilli narrativ qaynaqlarından Sədrəddin Sultan İbrahim əl-Əminin «Fütuhat-i Şahi» adlı əsərində (115) Səfəvilərin şəcərəsi, I Şah İsmayılın uşaqlıq illəri, onun hakimiyyət uğrunda mücadilələri, hakimiyyətə keçdikdən sonra hərbi yürüşləri (1514-cü ilə qədər), apardığı döyüşlər haqqında müfəssəl və elmi əhəmiyyətli məlumatlar vardır. Qaynaqda Səfəvi dövlətinin yaranması, I Şah İsmayılın dövlət hakimiyyətini möhkəmləndirmək uğrunda mücadiləsi tədqiq olunan mövzu üçün xüsusi elmi əhəmiyyət kəsb edir.

Tarixçi Xondəmirin (1475-1536) «Həbib-üs-siyər fi əxbar-i əfrad əl-bəşər», «Name-yi nami» adlı əsərlərində (88; 94) də mövzu ilə bağlı məlumatlar az deyildir. Onun «Həbib-üs-siyər» əsərində dövlətin mərkəzi idarəçiliyi barədə geniş məlumat verilməsə də vəzir, sədr, qazı, şeyx ül-islam, xəlifət ül-xüləfa, kələntər, darğa barədə müəyyən qədər material vardır. Xondəmirin «Name-yi nami» əsərində verilmiş fərmanların surəti araşdırılan mövzu ilə bağlı olub, böyük elmi əhəmiyyət kəsb edir. I Şah İsmayılın 1522-ci ildə Kəmaləddin Behzadı Təbrizdəki saray kitabxanasına kələntər

təyin etməsi haqqında fərmanın surəti də bu qaynaqda öz əksini tapmışdır.

XVI əsrin tarixi qaynaqları içərisində «Şah Təhmasibin təzkirəsi» (56) adlı əsərin də xüsusi yeri vardır. 1524-1560-ci illərdə Səfəvi dövlətində baş vermiş hadisələri əks etdirən həmin əsərdə dövlətin inzibati quruluşu, vilayətlərə hakim təyinatı ilə bağlı elmi əhəmiyyətli məlumatlar üstünlük təşkil edir.

Xacə Zeynalabidin Əli Əbdi bəy I Şah Təhmasibin qızı Pərixan xanıma ithaf etdiyi «Təkmilətül-əxbar» adlı əsərini (28; 117) 1570-ci ildə Ərdəbil şəhərində yazmışdır. Ümumtarix əsəri olan bu kitab dünyanın yaranmasından, yəni Adəmdən 1570-ci ilə qədər geniş bir dövrü əhatə edir. Əsərdə I Şah İsmayıl və I Şah Təhmasib dövründə mərkəzi və yerli idarələrdə müxtəlif vəzifələrə təyinatlar, Qızılbaş əmirlərinin dövlət idarələrində roluna aid qiymətli materiallar vardır.

Mir Yəhya bin Əbdüllətif Qəzvinin (1481-1555) Bəhram Mirzəyə ithaf etdiyi "Lübbət - təvarix" (138) adlı ümumtarix əsəri dörd bölmədən ibarət olub birinci bölüm Həzrəti Peyğəmbər və Həzrəti Əliyə, ikinci bölüm islam öncəsi şahlarina, üçüncü bölüm islam dönəmi şahlarina, dördüncü bölüm isə Səfəvilərə həsr edilmişdir. Dördüncü bölümdə Səfəvi sülaləsi, Səfəvi dövlətinin yaranması, I Şah İsmayıl və I Şah Təhmasib dövrünün (1540-cı ilə qədər) siyasi tarixi hadisələri haqqında qiymətli məlumatlar verilmişdir. Mənbənin sonuncu bölümü Həmidrza Məhəmmədnejad tərəfindən türk dilinə tərcümə olunmuş və 2011-ci ildə Ankarada nəşr edilmişdir (59a).

Xurşah ibn Qubad əl-Hüseyninin «Tarix-i elçi-ye Nizamşah» (95), Qəzvin qazısı Əhməd ibn Məhəmməd əl-Qaffarinin 1562-ci ildə yazıb qurtardığı və 1564/6-cı illərə qədərki hadisələri özündə əks etdirən «Tarix-i cahanara» (120) əsərlərində Azərbaycan və ona qonşu ölkələrin dövlət quruluşu haqqında maraqlı və həm də olduqca dəyərli məlumatlar vardır. Bu əsərlərdə dövrün bir çox dövlət məmurlarının qısa tərcümeyi-halı da verilmişdir.

Budaq Qəzvininin «Cəvahir əl-əxbar» adlı ümumtarix əsərində (85) də mövzu ilə əlaqədar maraqlı materiallar az deyildir. Əsər

Adəmdən 1576-cı ilə qədərki dövrü əhatə edir. Həmin əlyazmanın nadir nüsxəsi Saltıkov-Şedrin adına Peterburq Kütləvi Dövlət Kitabxanasında Dornun katoloqunda mühafizə olunur.

Mövzuya aid mühüm mənbələrdən biri də Azərbaycanın Rumlu elindən olan Həsən bəy Rumlunun «Əhsən ət-təvarix» (77) əsəridir. Bu əsərin sonuncu cildində 1494-1577-ci illər arasında baş vermiş tarixi hadisələr əks olunmuşdur. Mənbədə Səfəvilərin Osmanlı, Babur və Şeybanilərlə qarşılıqlı münasibətləri və münaqişələri təsvir olunmuşdur. Eyni zamanda Osmanlı, Babur və Şeybani dövlətləri və onların fəthləri haqqında da məlumatlar verilmişdir.

«Əhsən ət-təvarix»də Azərbaycan Səfəvi dövlətinin mərkəzi və yerli idarə quruluşunda müxtəlif vəzifələrdə olmuş Qızılbaş-Türk əsilzadələri haqqındakı məlumatların tədqiq olunan mövzu üçün mühüm elmi əhəmiyyəti vardır. Əsərin «ölüm hadisələri» bölümlərində illər üzrə vəfat etmiş əmirlər, din xadimləri haqqında da məlumatlar verilmişdir. Əsərin elmi əhəmiyyəti ondan ibarətdir ki, müəllifi şahidi olduğu hadisələrlə yanaşı, dövrün qaynaqlarından əldə etdiyi məlumatlara da geniş yer vermişdir.

Dövrün ən maraqlı qaynaqlarından biri də Mahmud Nətənzinin 1599-1600-cü illərdə yazıb bitirdiyi «Nəqavat əl-asar fi zikr-ül-əxyar» əsəridir (129). Mahmud Nətənzi «Nəqavat əl-asar fi zikr-ül-əxyar» əsərində siyasi hadisələri sadalamaqla kifayətlənməmiş, həm də onların səbəblərini dəqiq və yığcam aydınlaşdırmağa çalışmışdır. Bu əsərdə mövzu ilə əlaqədar elə materiallar vardır ki, onlar dövrün digər mənbələrində yoxdur.

Mövzu ilə bağlı ən dəyərli qaynaqlardan biri də Fəzli İsfahanının 1617-ci ildə bitirdiyi «Əfzəl ət-təvarix» əsəridir (118). Əsərin II cildi Şah I Təhmasibin hakimiyyətinin ilk günlərindən 1587-ci ilə qədərki dövrü əhatə edir. Hələlik bu əsərdən tədqiqatçılar az istifadə etmişlər və qaynaqda surəti olduğu kimi verilmiş fərmanların bəzisi arxivlərdə, muzeylərdə yoxdur. Müəllif əsərin bir hissəsini Qarabağda olarkən yazmışdır.

Qazi Əhməd Quminin (1546-1617) «Xülasət ət-təvarix» əsərində (119) də Səfəvilərin dövlət aparatı, əyalət və şəhərlərdə idarə

sistemi, yüksək vəzifəli şəxslər, o cümlədən vilayət bəylərbəyi, kələntərlər, darğalar, qazılar, sədrlər, şeyx ül-islamlar, möhtəsiblər barədə məlumat vardır. O, özü də müəyyən müddət qazı vəzifəsində işləmişdir. Qazı Əhməd ibn Mir Münşi Şərəf əd-Din 1546-cı ildə Qumda anadan olmuş, on yaşında ikən atası ilə birlikdə Məşhədə getmiş, orada səkkiz il yaşamış, xəttatlıq öyrənmiş, 1566-cı ildən sarayda yüksək vəzifələrdə çalışmışdır. 1605-ci ildən ömrünün sonuna qədər isə Hindistanda yaşamışdır. Vəfat tarixi dəqiq məlum deyildir.

Azərbaycanın mərkəzi idarələrində çalışan məmurlar, vilayət və şəhər hakimləri, dini təsisatlar barədə çox qiymətli məlumatlarla zəngin olan qaynaqlardan biri də İskəndər bəy Münşinin (1560-1634) «Tarix-i alamara-yi Abbasi» əsəridir (80). Bu əsər dövrün digər mənbələrindən fərqlənir. İskəndər bəy Münşi Səfəvi hökmdarlarından I Şah İsmayıl, I Şah Təhmasib, II Şah İsmayıl, Sultan Məhəmməd və I Şah Abbasın hakimiyyətləri dövründəki hadisələrin bəhsinə yekun vurduqdan sonra, dövrün müxtəlif dini və dünyəvi vəzifələrində çalışmış şəxslərin soykökü ilə yanaşı, qısa tərcümeyi-halını da vermişdir. İskəndər bəy Münşinin Azərbaycan Səfəvi dövlətinin idarə quruluşu ilə yaxından tanışlığı onun Təbriz, Ordubad və başqa şəhərləri gəzməsi, hadisələrin əksəriyyətinin iştirakçısı və müşahidəçisi olması ilə bağlıdır.

Görkəmli Azərbaycan tarixçisi İəgəndər bəy Münşi Türkmanın farsca yazdığı "Tarix-i alamara-yi Abbasi" adlı üçcildli əsərinin birinci cildi AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əfəndiyev və tarix elmləri namizədi Namiq Musalı tərəfindən Azərbaycan dilinə tərcümə olunub, ön söz və şərhlərlə 2009-cu ildə çap edilmişdir (29a).

I Şah Abbasın sarayında baş münəccim olmuş Cəlaləddin Məhəmməd Münəccim Yəzdinin «Tarix-i Abbasi» (131) əsəri I Şah Abbas (1587-1629) dövrünün çox böyük elmi əhəmiyyət kəsb edən mənbələrindəndir. Əsərdə 1576-1611-ci illərin tarixi hadisələri öz əksini tapmışdır. Mənbədə dövlətin mərkəzi və yerli idarələrində müxtəlif vəzifələrdə çalışan Qızılbaş-Türk əsilzadələri haqqında qiymətli məlumatlara təsadüf edilir.

Seyid Hüseyn bin Murtuza Hüseyni Astrabadi «Əz Şeyx Səfi ta Şah Səfi» (108) adlı əsəri dövrün qiymətli məxəzlərindən olub, adından göründüyü kimi Şeyx Səfiəddin İshaqdan (1252-1334) Şah Səfiyə (1629-1642) qədər geniş bir dövrün siyasi tarixi hadisələrinə həsr olunmuşdur. Əsərdə I Şah Abbas və I Şah Səfinin hakimiyyətinin ilk illərində dövlət quruluşunda müxtəlif vəzifələrdə çalışmış türk əsilzadələri haqqında dəyərli materiallara təsadüf edilir. Müəllif I Şah Abbas dövründə Hatəm bəy Ordubadinin və ondan sonra oğlu Talıb xan bin Hatəm bəy Nəsiri Ordubadinin baş vəzir olması, Talıb xanın I Şah Səfinin hakimiyyətinin altıncı ilində qətli barədə müfəssəl məlumat verir.

Cəlaləddin Məhəmməd Münəccim Yəzdinin oğlu Molla Kamalın «Zübdət ət-təvarix» (130) adlı əsəri dövrün siyasi tarixi hadisələri və dövlət quruluşunda Qızılbaş-Türk əyanlarının rolunu araşdırmaq baxımından dəyərli bir mənbədir. Əsərin h.1334-cü il nəşri müəllifi bəlli olmayan «Xülasət ət-təvarix» adlı mənbə ilə birləşdirilmişdir. Mənbədə I Şah Təhmasibin hakimiyyətə keçməsindən başlayaraq 1653-cü ilə qədər geniş bir dövrün siyasi tarixi hadisələri öz əksini tapmışdır və burada dövlət quruluşu haqqında da elmi əhəmiyyətli məlumatlar vardır.

Mövzü ilə bağlı mənbələrdən biri də II Şah Abbasın (1642-1666) daxili və xarici siyasətinə həsr edilmiş "Abbasnamə" adı ilə məlum olan əsərdir. Əsərin müəllifi Mirzə Hüseyn xan Qəzvininin oğlu Mirzə Məhəmməd Tahir Vəhiddir. O, h.1015 (m.1607)-ci ildə Qəzvində anadan olmuşdur. Mirzə Məhəmməd Tahir və onun kiçik qardaşı Məhəmməd Yusif Qəzvini ("Xolde bərin" adlı əsərin müəllifi) II Şah Abbas dövrünün çox böyük tarixçilərindən olmuşdular. Məhəmməd Tahir Vəhid II Şah Abbasın hakimiyyətinin əvvəllərində məclisnəvis vəzifəsində işləmiş və bir qədər sonra vaqiyənəvis vəzifəsinə təyin olunmuşdur. Baş vəzir Mirzə Tağı h.1055 (m.1645)-ci ildə öldürülüb yerinə Xəlifə Sultan təyin edildikdə, Mirzə Tahir Vəhid məclisnəvis vəzifəsində olmuşdu. Bir az sonra isə II Şah Abbasın rəsmi saray tarixçisi olur. Molla Kamal yazır ki, Mirzə Məhəmməd Tahir bacarıqlı, ağıllı və istedadlı olub, əvvəl baş vəzir Xəlifə Sultanın yanında yazı işləri ilə bağlı xidməti

vəzifədə olmuşdu. Onun ata-babası da sarayda çalışmışdılar. O, Şah yanında xidmətə qabil şəxs olaraq tezliklə sarayda vaqiyənəvis və məclisnəvis vəzifəsinə yüksəlmişdir(130,103). O, etimadədövlə Xəlifə Sultanın tapşırığı ilə II Şah Abbasın hakimiyyəti dövrünün tarixini yazmağa başlayır. Müəllifin çox ciddi səyi ilə yazıb tamamladığı əsərə "Abbasnamə" adı verilir. Şah Süleyman dövründə (1666-1694) Məhəmməd Tahir Qəzvini baş vəzir vəzifəsinə yüksəlir. Şah Süleymanın hakimiyyətinin son illərində Məhəmməd Tahir Vəhid qocalığına görə öz arzusu ilə tutduğu vəzifədən azad olur. Onun vəfatı tarixi dəqiq məlum deyildir. Təxminən h. 1110-1119 (m.1699-1707)-cu illər arasında dünyasını dəyişmişdir. Onun "Abbasnamə" (125;125a) adlı əsərində II Şah Abbasın hakimiyyətinin ilk günlərindən, yəni daha dəqiq desək, h.1052-ci ildən h. 1074(m.1642-1662)-cü ilə qədərki tarixi hadisələr təsvir edilmişdir. Ancaq II Şah Abbasın hakimiyyətinin son dörd ilinin tarixi hadisələrini müəllifin qələmə almamasının səbəbi məlum deyildir. Halbuki müəllif II Şah Abbasın vəfatından sonra da uzun illər yaşamışdır. Ancaq kitabda olan bu çatışmamazlıqlar onun elmi dəyərini azaltmışdır. Müəllif Şahın rəsmi tarixçisi olsa da, əsərində zamanın tələblərindən irəli gələn qüsurlara yol verməmiş, tarixi hadisələrin olduğu kimi təsvirinə cəhd göstərmişdir. Elə buna görə də, əsər dövrün araşdırılıb öyrənilməsində əvəzi olmayan mənbə təəssüratını oyadır. Həm də müəllif təsvir etdiyi hadisələrin birbaşa şahidi olmuşdur. Əsərdə qeyd etdiyi tarixi hadisələrin çoxunda birbaşa özü istirak etmişdir. İştirak etmədiyi hadisələr barədə isə saray tarixçisi olduğuna görə dövlət məmurları ona vaxtında məlumat vermişdilər. Bəzən II Şah Abbasın fəaliyyəti ilə bağlı olmayan bir çox məsələlərə də kitabda təsadüf edilir ki, bu məlumatları müəllif dövlət xadimlərindən əldə etmişdir. Müəllif əsərdə Səfəvi dövlətinin siyasi tarixi ilə yanaşı, qonşu dövlətlərlə, xüsusən də Hindistan, Türküstanla qarşılıqlı əlaqələrə geniş yer verir. Mirzə Məhəmməd əsərində bütün məsələləri obyektiv təsvir edərək yalnışlığa yol vermir. Əsər II Şah Abbas dövrünün ən qiymətli qaynağıdır.

Səfəvilər dövrünün tarixçilərindən Məhəmməd Yusif Qəzvininin «Xold-i bərin», Məhəmməd ibn Məsum Xacəki İsfahaninin «Xülasət-üs-siyər», Mirzəbəy Həsən əl-Hüseyni Cunabadinin «Rövzət-üs-səfəviyyə», Azərbaycan bəylərbəyi və Təbriz hakimi Rüstəm xana həsr edilmiş «Ketab-i colus-i Şah Səfi və ya tarix-i Bicən» əsərlərindən (128; 125; 126; 102; 87) də mövzunun araşdırılmasında istifadə olunmuşdur.

Azərbaycan Səfəvi dövlətinin idarə quruluşunu öyrənmək üçün Mirzə Səmianın 1725-ci ildə yazdığı «Təzkirət əl-müluk» əsərinin (132) xüsusi əhəmiyyəti vardır. Əsərdə verilən məlumatlardan aydın olur ki, qaynağın müəllifi dövlət təşkilati məsələlərinə mükəmməl bələd olmuşdur. Əsərdə Azərbaycan Səfəvi dövlətinin quruluşu, hakimiyyət orqanlarının statusu, məmurların səlahiyyəti, onların ləqəb və titulları haqqında ətraflı məlumat verilmişdir. Qeyd etmək lazımdır ki, «Təzkirət əl-müluk» əsərinin əlyazmalarından birinin fotoşəkli 1943-cü ildə məşhur şərqşünas V.Minorski tərəfindən Kembriç şəhərində nəşr edilmişdir. Həmin nəşrdə «Təzkirət əl-müluk» əsərinin əlyazmasının fotoşəklindən başqa, onun ingilis dilinə tərcüməsi və geniş izahı verilmişdir. 1956-cı ildə İran alimi Məhəmməd Dəbir Səyaqi həmin əsəri Tehranda yenidən nəşr etdirmişdir. Daha sonra İran alimlərindən Məsud Rəcəbniya V.Minorskinin həmin əsəri haqqında izahlarını «Səfəvi hökumətinin idarə təşkilatı» adı altında 1958-ci ildə Tehranda nəşr etdirmişdir (103).

Azərbaycan Səfəvi dövlətinin idarə quruluşu haqqında ətraflı məlumat verən qaynaqlardan biri də Mirzə Rəfianın «Dəstur əl-müluk» əsəridir. Doğrudur, bu əsər «Təzkirət əl-müluk»dan bir o qədər fərqlənmir. Lakin bu qaynaqların bəzən birində olan məsələyə digərində təsadüf olunmur. Elə buna görə də, idarə quruluşunu hərtərəfli tədqiq etmək üçün bu əsərlərin hər ikisindən istifadə olunmuşdur. Əsər və onun müəllifi haqqında İran alimi Məhəmməd Tağı Daneşpəjuh «Məcəlleyi Daneşkədeyi ədəbiyyat və ulume insani» jurnalında ətraflı məlumat vermişdir (97).

Rəsmi sənədlərdə də dövlət quruluşu barədə maraqlı materiallar vardır. T.Musəvi, A.D.Papazyan, Əbdülhüseyn Nəvai, L.Fekete

(45; 46; 186; 187; 109; 110; 111; 209) və başqa tarixçilərin nəşr etdirdikləri fərmanlar, hökmlər, rəsmi məktublardan da əsərin yazılmasında istifadə olunmuşdur.

Azərbaycan Səfəvi dövlətinin quruluşu, mülki və inzibati idarələri haqqında dövrün Osmanlı tarixçilərinin əsərlərində də məlumatlar verilmişdir. Onlardan Xoca Sədəddin Əfəndinin «Tac ət-təvarix», Mustafa Əfəndinin «Selaniki tarixi», Evliyə Çələbinin «Səyahətnamə» əsərlərini (68; 53; 63) göstərmək olar.

I Şah Abbas tərəfindən 1599-cu ildə ingilis Antoni Şerli ilə birlikdə Avropanın səkkiz xristian ölkəsinə səfir göndərilmiş Hüseyn Əli bəyin elçilər heyətinin tərkibindəki, Donjuani İrani ayaması ilə məlum olan məşhur Qızılbaş əyanı Oruc bəy Bayatın əsəri (79) də Qızılbaş tayfalarının dövlət quruluşunda yerini öyrənmək üçün qiymətli qaynaqlardandır. Onun hicri 1338-ci ildə Məsud Rəcəbniya tərəfindən nəşr olunan əsərindən də istifadə olunmuşdur.

Azərbaycan Səfəvi dövlətinin idarəçilik və quruluşunun forması, idarəetmədə türk əsilzadələrinin rolu dövrün avropalı səyyah, tacir, missionerlərinin də diqqətini cəlb etmiş, onlar öz gündəliklərində, hesabatlarında bu məsələlər haqqında məlumatlar vermişlər. 1561-1581-ci illərdə İngiltərədən Azərbaycan Səfəvi dövlətinə altı ticarət ekspedisiyası göndərilmişdir. Bu ticarət ekspedisiyalarının başçıları və nümayəndələrinin yazdıqları hesabatların, gündəliklərin Azərbaycana aid olan materialları rus, Azərbaycan dillərinə tərcümə edilmiş və çap olunmuşdur (34; 35; 36; 192). İngilis tacirlərinin hesabatları, gündəlikləri ilə yanaşı İngiltərə kraliçası Yelizaveta Tüdorun (1558-1603) Səfəvi sarayına göndərdiyi məktublarda araşdırılan problemlə bağlı maraqlı faktlara təsadüf edilmişdir.

Venesiya hökuməti məxfi tapşırıqla 1571-ci ildə Səfəvi sarayına Vinçenso Alessandri adlı elçisini göndərmişdi. O, təxminən iki il Səfəvi ölkəsində yaşamış və geri qayıtdıqda Venesiya hakiminə hesabatını təqdim etmişdi. Onun hesabatında Səfəvi dövlətinin iqtisadi həyatı, dövlət şurası, inzibati ərazi bölgüsü, əsgəri təşkilatına aid məlumatlar olduqca qiymətlidir. Vinçenso Alessandrinin hesabatının azərbaycan, rus və fars dillərinə tərcüməsi Azərbaycan və İranda çap olunmuşdur (34; 58; 107).

Avropa dövlətləri arasındakı çəkişmədən bacarıqla istifadə edən I Şah Abbasın ordusu ispanları 1601-ci ildə Bəhreyndən və 1614-cü ildə isə Hambrundan çıxarır. İran körfəzi təriqi ilə Səfəvi-Avropa dövlətləri arasındakı iqtisadi-diplomatik əlaqələr üzərindəki İspaniya nəzarətinə son qoyuldu. İran körfəzində öz üstünlüyünü saxlamağa çalışan İspaniya kralı III Filipp (1598-1621). 1614-cü ildə Səfəvi sarayına Don Qarsiya de Silva adlı elçisini göndərdi. O, şahla barışığa gəlib, Bəhreyn və Hambrunu geri almalı İran körfəzində İspaniyanın nüfuzunu möhkəmləndirməyə müvəffəq olmalı idi. Onun 1618-ci ildə Qəzvin şəhərində I Şah Abbasla apardığı diplomatik danışıqlar uğursuz olmuş və 1619-cu ildə İspaniyaya qayıtmışdır. Don Qarsiya de Silva müşahidələri əsasında geniş gündəlik tərtib etmişdir. Onun gündəliyi sırf təsviri səpkidə yazılsa da, Səfəvi dövlətinin sosial-iqtisadi həyatı, Səfəvi-Osmanlı münasibətləri, dövlət quruluşu, əsgəri təşkilata aid maraqlı məlumatlara da təsadüf edilir. Tədqiqat işində Don Qarsiya de Silvanın gündəliyinin İran çapından istifadə olunmuşdur (105).

Dövrün avropalı müəlliflərindən italiyalı səyyah Pyetro della Vallenin səyahətnaməsində Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarəçilik sisteminə aid zəngin faktiki materiallar vardır. Pyetro della Valle 1617-ci ildə Səfəvi ölkəsinə gəlmiş, uzun müddət Azərbaycan və İranda yaşamış, 1623-1626-cı illərdə Hindistana da səyahət etmişdir. Onun üç bölüm və yeddi hissədən ibarət olan epistolyar əsəri dəfələrlə italyan, alman, ingilis dillərində çap olunmuşdur. İran tarixçisi Şüaəddin Şəfa əsərin Azərbaycan və İrana aid bölümlərini fars dilinə tərcümə etmiş və 1969-cu ildə Tehanda çap olunmuşdur. Tədqiqat işində əsərin Tehran çapından istifadə olunmuşdur (86).

Alman səyyahı Adam Oleari (1599-1671) dövrünün görkəmli bilim adamı idi. O, 1627-ci ildə Leypsiq universitetini bitirmişdir. Tarix, coğrafiya, astronomiya və riyaziyyat üzrə ixtisaslaşmış, fəlsəfə magistri dərəcəsi almışdı. O, rus, türk, ərəb və fars dilini bilirdi. Holşteynə köçdükdən sonra Hersoq III Fridrix (1616-1634) onu Moskva və Səfəvi dövlətinə yola saldığı səfirliyə katib təyin etmişdi. 1633-1639-cu illərdə iki dəfə Moskvada olmuşdu. Holşteyn

səfirliyi Səfəvi dövlətinə göndərildikdə o, müşavir vəzifəsində idi. Adam Oleari Azərbaycan Səfəvi dövlətinin sosial-iqtisadi həyatı, siyasi tarixi, dövlət quruluşu, mədəniyyəti haqqında zəngin məlumat toplamış və bu məlumatlar əsasında 1643-cü ildə səyahətnaməsini yazmışdır. Səfəvi dövləti və Rusiyanın orta əsrlər tarixi üçün faktiki məlumatlarla zəngin olan bu səyahətnamənin rus dilinə tərcüməsinin 1870-ci il Moskva nəşrindən (139) tədqiqat işində istifadə olunmuşdur. AMEA-nın müxbir üzvü Y.Mahmudov orta əsrlərin bir çox avropalı elçi, tacir, missioner gündəlikləri ilə yanaşı, Adam Olearinin də səyahətnaməsinin Azərbaycana aid bölümlərini Azərbaycan dilinə tərcümə etmişdir (36).

Mövzu ilə bağlı dəyərli məxəzlərdən biri də Fransalı tacir Jan Battist Tavernyenin səyahətnaməsidir. O, 1632-1668-ci illərdə altı dəfə Şərq ölkələrinə səyahət etmiş və bu səfərlərində dəfələrlə Azərbaycan və İranda olmuşdur. Onun səyahətnaməsində Azərbaycan Səfəvi dövlətinin iqtisadi həyatı, maddi və mənəvi mədəniyyəti, dövlət və saray təşkilatı, mərkəzi idarə orqanlarının statusu, inzibati idarəetmə institutlarına aid zəngin məlumatlar verilmişdir. Ancaq onu da qeyd etmək lazımdır ki, Tavernye dövlət quruluşuna aid məlumatlarında müəyyən nöqsanlara da yol vermişdir. Elə buna görə də tədqiqat işində onun səyahətnaməsinə tənqidi münasibət öz əksini tapmışdır.

Jan Battist Tavernyenin səyahətnaməsinin Əbuturab Nuri tərəfindən fransız dilindən fars dilinə tərcüməsi h.1336-cı ildə Tehranda çap olunmuşdur (104).

Fransız səyyahı Jan Şarden (1643-1713) tacir olsa da, dövrünün mükəmməl təhsil almış bilim adamı, alim və filosofu idi. Antik tarixi və coğrafi ədəbiyyatları oxumuşdu və orta yüzilin Şərq mənbələri ilə də tanış idi. Türk və fars dilini bilirdi. O, 1664-cü ildə ticarət məqsədi ilə Şərqə səyahət etmiş və 1670-ci ilə qədər bir çox Şərq ölkələrində, o cümlədən Azərbaycan İran və Hindistanda olmuşdur. Ona İsfahanda «Şah taciri və zərgəri» ayaması verilmişdi. Səyyah şərqə 1671-ci ildə ikinci dəfə səyahətə çıxmış və bu səfəri 1677-ci ilə qədər davam etmişdir. Vətəninə qayıtdıqdan sonra

məzhəbi təqiblərə məruz qaldığına görə 1681-ci ildə İngiltərəyə köçmüşdür.

Şarden hər iki səfərini əhatə edən mükəmməl bir səyahətnamə yazmışdır ki, onun bu əsəri şərq xalqlarının orta əsr tarixinin öyrənilməsi baxımından əvəzi olmayan mənbədir. O, Şərq xalqlarının sosial-iqtisadi, siyasi tarixi, şəhər həyatı, dövlət quruluşu ilə bağlı məsələləri təkcə təsvir etməmiş, yeri gəldikcə antik və orta çağın qaynaqlarına istinad edərək müqayisəli təhlillərə, şərhlərə də geniş yer vermişdir. Şardenin səyahətnaməsində Səfəvi dövlətinin quruluşu, inzibati idarəetmə sistemi, əsgəri təşkilat, dini divan, yerli məhkəmə orqanları, dövlət quruluşunda Qızılbaş əsilzadələrinin yeri, dövlətin mədaxil və məxarici, mülkiyyət institutları, vergi və mükəlləfiyyətlər, dövlət dili haqqında zəngin faktiki materiallar vardır. Onun səyahətnaməsi İngiltərədə, Hollandiyada, Fransada, Almaniyada dəfələrlə çap olunmuşdur. Şardenin səyahətnaməsi fars dilinə də tərcümə edilmiş birinci çapı h.1335-1336-cı ildə, ikinci çapı isə h.1372-1375-ci ildə işıq üzü görmüşdür (112;113).

XVII əsrin avropalı səyyah, tarix, missionerlərindən Yan Streys, Engelbert Kempfer, Cemelli Kareri, Sansonun da əsərlərində (197; 96; 89; 106) Səfəvi dövlətinin quruluşu və idarəetmə sistemində Qızılbaş-Türk əsilzadələrinin roluna aid elmi əhəmiyyətli məlumatlara təsadüf edilmiş və bu məlumatlardan tədqiqat işində yeri gəldikcə istifadə olunmuşdur.

Beləliklə, kitab ilk mənbələr, dövrün Avropa ədəbiyyatlarından əldə edilən faktiki materialların müqayisəli təhlili əsasında yazılmış, yeni faktlar əsasında dövlətin yaranmasında, qorunub saxlanmasında türk etnosunun önəmli və üstün mövqeyi işıqlandırılmışdır.

Azərbaycan Səfəvi dövlətini qurub-yaradan Qızılbaş-Türk əmirlərinin ali hakimiyyət orqanlarında, inzibati idarəetmədə, inşa divanında  üstün və aparıcı rolu yeni faktlarla əsaslandırılmış, tarixi gerçəkliklərin üzə çıxarılmasına cəhd göstərilmişdir.

# I FƏSİL
# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN İDARƏ QURULUŞU

## §1 Dövlətin etnik mənsubiyyəti, quruluşu və hakimiyyətin həyata keçirilməsində Türk-Qızılbaş əsilzadələrinin rolu

Səfəvi sülaləsinin hakimiyyəti ilə formalaşmış və cəmiyyətin sosial-iqtisadi durumuna uyğunlaşan dövlət əslində klassik müsəlman dövləti olub, burada dini hakimiyyətlə dünyəvi hakimiyyət çulğalaşmışdı. Onları mövcud şəraitdə və xüsusən sülalənin hakimiyyətinin ilk illərində bir-birindən ayırmaq mümkün deyildi. Xətayinin «Mənəm həm pirü həm sultani-aləm», «Əzəldən Şah bizim sultanımızdır, Pirimiz, mürşidimiz, xanımızdır» (55, 50, 125) beytləri nəzəri cəhətdən şahlıqla ruhani hakimiyyətini birlikdə mövcudluq ideolojisinin təcəssümü olub, dövlətin teokratik prinsiplərə dayandığını göstərir. I Şah İsmayıl Xətayi dünyəvi başçı olmaqla paralel ruhani-mənəvi təşkilatlara da nəzarətçi və həm də mürşid-i kamil vəzifəsini özündə saxlayırdı.

Azərbaycanın XVI yüzilin əvvəllərində mərkəzləşmiş, hərbi siyasi baxımdan güclü, geniş ərazini əhatə edən bir dövlətə çevrilməsi onun iqtisadi tərəqqisi Avropanın irəlidə gedən dövlətlərinin başçıları və işgüzar adamlarının diqqətlərini dərhal özünə cəlb etmişdi. Elə buna görə də XVI yüzilin əvvəllərindən başlayaraq avropadan müxtəlif məqsədlərlə Azərbaycana gələn səyyahların ardı-arası kəsilmirdi. Xüsusi tapşırıqlarla Azərbaycana gələn səyyahlar hesabat səpgisində yazlıqları gündəliklərində ölkənin sosial-iqtisadi həyatı, maddi və mənəvi mədəniyyəti ilə yanaşı, onun ən xırda məsələlərini belə nəzərdən qaçırmırdılar. Avropalı səyyah Engelbert Kempfer Səfəvi dövləti, Şahlarının hüquq və səlahiyyətləri ilə ciddi maraqlanmış və gündəliyində bu barədə məlumatlar vermişdir. O, yazır ki, Səfəvi Şahı xüsusi imtiyazlara malik olub, Asiyanın başqa hökmdarlarından seçilir. Şah Süleyman (1666-1694) qeyri-məhdud hüquqlarından səltənətində heç bir maneə ilə qarşılaşmadan istifadə edir. O, istədiyi vaxt müharibə və sülh elan edə, müqavilələr bağ-

laya, ölkənin qanunlarını dəyişə, yeni vergilər haqqında göstəriş verə bilər. Ölkənin bütün vətəndaşları, həm də onların əmlakları üzərində Şahın xüsusi sahibkarlıq hüququ vardır. Təbəələri ona «vəlinemət», «aləmpənah», «cahanpənah» deyə müraciət etməklə, onu peyğəmbərin səlahiyyətli nümayəndəsi kimi qəbul edirlər (96, 14). 1683-cü ildə Səfəvi sarayında olmuş missioner Sanson da Şahın hakimiyyətinin qeyri-məhdudluğu haqqında məlumat vermişdir. O qeyd edir ki, ölkədəki hüquqlarına görə dünyanın heç bir ölkəsində ona bərabər hökmdar yoxdur. Təbəələri və onların əmlakları mütləq hakim olan Şaha məxsusdur. Şah həm də ölkənin dini idarələrinin də başçısıdır. Sanson təbəələrinin «din və imanım padşah» deyə ona müraciət etdiklərini qeyd etmişdir. Missioner eyni zamanda qeyd edir ki, təbəələri ona inanır və şahları tərəfindən yersiz cəza gözləmirlər (106, 166-169). Sanson Şahın hüquq və səlahiyyətlərini aydınlaşdırmağa çalışarkən onun mürşid-i kamillik statusunun mahiyyətini müəyyən edə blməmişdir. Qeyri-məhdud hakimiyyət statusunu özündə saxlayan Şahın mülki, hərbi, iqtisadi sahədə yuxarıda qeyd olunduğu kimi, çox geniş səlahiyyətləri var idi. Şah Süleyman dövlətin daxili və xarici ticarəti, mədaxil, məxaricini şəxsən özü yoxladıqdan sonra əcnəbi tacirləri gömrük vergisindən, Avropadan gəlib müvəqqəti Səfəvi ölkəsində məskunlaşan xristianları cizyədən və onların karxanalarını vergilərdən azad etmiş, elçilərin mərkəzin ən yaxşı binalarında yerləşdirilib şah xəzinəsindən təmin olunmaları barədə göstərişlər vermişdir (108, 168-169).

Fransalı Tavernye dövlət quruluşunun formasına görə Səfəvi dövlətini tipik  monarxiya kimi şərh etmişdir. Ona görə bu dövləti mütləq monarxiya olub, Şah təbəələrinin can və malının sahibi idi. Əgər Şah ölkənin ən böyük dövlət adamlarından birini öldürmək istəsə, heç bir qanun-qayda və məsləhət gözləmədən bu işi görə bilər və hansı ki, bu bizim Avropada da adi bir qayda hesab olunurdu. Dövlətin qanun keşikçiləri bunu yoxlamaz, heç kimin bunun səbəbini soruşmağa cürəti çatmazdı. Şah, hətta qardaşları, bacıları, oğulları, qızlarından da azacıq şübhələndikdə onları da heç bir təhqiqat aparılmadan ölüm cəzasına məhkum edə bilərdi (104, 569).

Səfəvi dövlətinin idarəçilik forması haqqında Tavernye ilə yanaşı, Adam Olearinin də səyahətnaməsində geniş məlumatlar vardır. Həm də Adam Oleari Tavernyedən fərqli olaraq dövrün qərb və şərq qaynaqlarına mükəmməl bələd olduğuna görə Səfəvi dövlət idarəçiliyinin qərb dövlət sistemləri ilə müqayisəli şərhini verməyə cəhd göstərmişdir. O, yazır ki, Səfəvi dövlətinin dünyəvi idarəçiliyinə gəldikdə o, Rusiyanın idarə quruluşuna olduqca uyğundur. Çünki hər iki dövlət bu haqda bütün tarixçilərin düzgün olaraq qeyd etdikləri kimi, monarxiya üsul-idarəsinin mövcud olduğu imperiyadır. Bu ölkələrdə hökmdarlar hakimiyyəti tam mənimsəyərək öz bildikləri kimi idarə edirlər. Heç kimdən məsləhət almadan və etiraz olmadan qanun verir və istədikdə onu ləğv edə bilirlər. Bütün təbəələrinin mülklərini, hətta canlarını da almağa qadirdirlər. Bunlara baxmayaraq təbəələri kölə kimi itaət edir və hətta onların qanı günahsız axıdılanda, qurbanlıq qoyun kimi səbirli və itaətli olurlar (139, 834; 36, 145-147). Ancaq bu dövrdə Rusiyada zemstvo məclisi adlı silki - nümayəndəli orqan vardı ki, o dövlətdə qanunvericilik və maliyyə nəzarəti funksiyasına malik olub, monarxın hakimiyyətini az da olsa məhdudlaşdırırdı. E.Kempferin də yazdığına görə, Səfəvi dövlətindən fərqli olaraq Rusiyada əcdadlarının qanun-qaydalarına bağlı olan boyarlar çarın özbaşınalığının qarşısını alırdı (96, 14). Adam Oleari Səfəvi dövlət idarəçiliyində ali hakimiyyətin irsiliyi məsələsini təhlil edərkən monarxiyanın başqa əlamətlərinə də toxunmuşdur. O, yazır ki, Səfəvi ölkəsində hakimiyyət irsi olub, atadan onun qanuni varisinə keçir. Qanuni varis olmadıqda cariyədən olan övladа və o da olmadıqda Şeyxavənd adı ilə tanınan Şeyx Səfi nəslinin nümayəndələrindən biri dünyasını dəyişən Şahın qohumu kimi hakimiyyətə gətirilə bilərdi (139, 836).

Şah sağlığında özünə varis təyin etdikdə, bu barədə rəsmi vəsiyyətnamə (məktub) tərtib olunurdu. Ancaq onun vəfatından sonra belə bir məktub ortaya çıxarılmadıqda taxt-taca varis məsələsini ali divan üzvləri və digər mötəbər Qızılbaş əmirlərindən ibarət genişləndirilmiş şura həll edirdi. O.Əfəndiyev qaynaq materiallarına istinad edərək yazır ki, 1577-ci il noyabr ayının 24-də II Şah İsmayılın vəfatından sonra əmirlər taxt-taca varis məsələsini həll

edərkən bir çox namizədlər irəli sürülsə də, nəhayət I Şah Təhmasibin böyük oğlu Məhəmməd Mirzənin namizədliyi üzərində dayanmışdılar (20, 127). Şahların tacqoyması məmləkətin böyük əmirlərinin iştirakı ilə təntənəli bir mərasimdə icra olunurdu. Şaha qızılla işlənmiş taxt hədiyyə edilir, hakimiyyətin simvolları olan qılınc və xəncər onun kəmərinə bağlanılıb, başına da şahlıq tacını qoyurlar. Bu mərasimdən sonra bütün məclis iştirakçıları növbə ilə onun qarşısında təzim edərək ayaqlarının önündə əyilib yeri öpürlər. Tacqoyma mərasiminin növbəti günü Şah dövlət və saray qulluqçuları, əyanlar, qulamlar, qorçu alayının müşaiyəti ilə şəhərə çıxaraq şahlığını xalqa təqdim edir. Yeni Şah hakimiyyətə keçdikdə, heç kimin təsəvvür etmədiyi yeni dəyişikliklər gözlənilir. Elə buna görə də bütün məmurlar öz vəziyyətlərinə şübhə ilə yanaşırlar. Dövlət qulluğunda olan hər kəs çalışır ki, Şahın məhəbbətini qazanıb vəzifələrini, mövqelərini qoruyub saxlaya bilsinlər (96, 30, 31). Engelbert Kempferin gündəliyində II Şah Səfinin (I Şah Süleyman) tacqoyma mərasimi haqqında ətraflı məlumat vardır. Onun yazdığı kimi, 26 oktyabr 1666-cı ildə II Şah Abbas vəfat etdikdə mərkəzi idarə əmirləri Ali məclisin iclasını çağırıb Həmzə Mirzənin namizədliyini irəli sürüb II Şah Abbasın onu sağlığında vəliəhd seçdiyini elan edirlər. Ancaq saray xacələri Şahın digər oğlu Səfi Mirzənin namizədliyini irəli sürdükdə baş vəzir sözsüz ki, sarayda qarşıdurmanın qarşısını almaq üçün onların qərarı ilə razılaşır. Nəticədə ali divan üzvləri ilə birlikdə 200 nəfər mötəbər əmir və əyanın iştirak etdiyi məclisdə tacqoyma mərasimi keçirilir. Münəccimlər tacqoyma üçün uğurlu saatı müəyyən etdikdən sonra şeyx ül-islam İsfahandakı digər böyük vəzifəli əyanları da məclisə dəvət edir. Tacqoyma mərasimi şeyx ül-islamın başçılığı altında icra olundu (96, 43-48). Engelbert Kempfer yazır ki, tacqoyma üçün lazım olan rəmzələr ayaqları qızılla işlənmiş söykənəcəksiz dördayaqlı səndəl, ənənəvi tac, qiymətli daşlarla bəzədilmiş əyri qılıncdan ibarət idi. Məclisdə II Şah Abbasın Səfi Mirzənin vəliəhd təyin etməsi barədə sağlığında yazmış olduğu «məktub» ali divan tərəfindən şeyx ül-islama təqdim edilir və bu məktub oxunaraq elan edilir ki, guya yeni Şah atası tərəfindən canişin seçilmişdir. Məktub

oxunub qurtardıqdan sonra şeyx ül-islam öz vəzifəsinə başladı. Şeyx ül-islam əvvəl məmləkətə Allahdan bərəkət dilədikdən sonra ölkəni layiqli Şahdan məhrum etmədiyinə görə Allaha şükür söylədi və tacqoyma başladı. Şahın taxt-tacının möhkəmliyi üçün Qurani Kərimdən ayələr və dualar oxudu. Şahın qılıncını sağ tərəfə çəkib, tacı mücrüdən çıxararaq Şahın başına qoydu. Şahı şeyx ül-islam gözəl bəzədilmiş sarayın ortasındakı qızıl taxta dəvət edərək orada əyləşdirdi. Şeyx ül-islam özü də onunla üzbəüz oturdu. Dizi üstə oturub Qurani Kərimdən ayələr oxumağı davam edərək nəhayət Şaha uca səslə belə bir dua elədi: «Səfi şahlığının qüdrət və nüfuzu xudavəndin onlara xüsusi mərhəməti olub, göy qurşağına çatar». Bu zaman mərasim iştirakçıları əl çalaraq «inşallah» dedilər və bu yolla öz alqış və təriflərini bəyan etdilər. Şeyx ül-islamın işi bitdikdən sonra o taxtın qarşısında yerə əyildi. Ona görə ki, bu, ölkədə şahın ayağı qarşısında yerə əyilmək ona ehtiram əlaməti hesab edilir. Buradakıların hamısı onun ardınca şahın qarşısında diz üstə çökərək torpağı öpüb sevinclərini izhar edərək onu təbrik etdilər (96, 48). Rəsmi məclis yekunlaşdıqdan dərhal sonra yeni şahın fərmanı əsasında saraya içəridən və dişarıdan mühafizəçilərin təyin olunması, çalğıçıların Şahın yaşı qədər, yəni iyirmi gün çalıb oxumaları, köhnə möhürün ləğvi və yeni Şahın adına möhür hazırlanması, yeni Şahın adına sikkə zərbi qərara alındı. Dərhal qızıl sikkələr zərb edilib Şah adından əyanlara hədiyyə edildi (96, 49). Qızıl sikkə zərbi ənənəvi olaraq tacqoyma mərasimi üçün səciyyəvi idi, çünki ölkədə tədavüldə, alqı-satqıda gümüş və mis sikkələrdən istifadə edilirdi. 1694-cü ildə Şah Sultan Hüseynin tacqoyma mərasimi zamanı İsfahanda olan Cemelli Kareri də yazır ki, Səfəvi ölkəsində sikkə qızıl və gümüşdəndir. Qızıl sikkə ancaq tacqoyma mərasimlərində saray əyanlarına hədiyyə edilmək üçün zərb edilir (89, 8).

Engelbert Kempfer Həmzə Mirzə ilə Səfi Mirzənin namizədliyi məsələsində əmirlərlə xacələr arasındakı kiçik münaqişənin təhlilindən aydın olur ki, mirzələrdən heç birinin vəliəhd olması barədə ataları II Şah Abbas tərəfindən, yaxud onun vəsiyyəti əsasında məktub tərtib olunmamış, hər iki Mirzə haqqında məktub sonradan, yəni Şahın vəfatından sonra yazılmışdır.

Tavernye Səfəvi dövlət idarəçiliyinin həyata keçirilməsi mexanizmini şərh edərkən hökmdarın bürokratik orqanlara məmurlar təyinatında qeyri-məhdud səlahiyyətlərindən geniş miqyasda istifadə etdiklərini bildirməklə gerçəkliyi olduğu kimi təsvir etmiş, ancaq müəyyən ziddiyyətlərə də yol vermişdir. O çox doğru olaraq yazır ki, Şah istədiyi vaxt əyalət hakimliyinə və başqa böyük vəzifələrə öz qulamlarını təyin edib onları hakimiyyətdə yüksək məqam sahibi edirdi. Səyyahın bu qeydlərindən aydın olur ki, Şah istədiyi vaxt vəzifədə olan şəxsi başqası ilə əvəz edə bilərdi. Ancaq o özünün doğru olan bu fikirlərini həm də təkzib edərək yazır ki, dövlət vəzifələri irsi olub atadan oğula keçir. Atalar öz vəzifələrini ailəsinin əlində irsən saxlamaq üçün sağlığında övladlarını işə cəlb edirlər. Onlar vəfat etdikdə vəzifələri irsən övladlarına keçir. Övladları kiçik yaşlı olduqda isə bu vəzifəni onlar həddi-buluğa çatana qədər qəyyumları idarə edirlər (104, 571). Ancaq ondan fərqli olaraq Adam Oleari mərkəzi və yerli bürokratik idarələrə təyinatlar, həm də bu orqanlarla Şah arasındakı münasibətləri təhlil edərkən vəzifələrin şəxs üçün irsi olmadığını bildirir. O yazırdı ki, geniş ərazini əhatə edən bu ölkə inzibati cəhətdən çoxlu vilayətlərə bölünmüşdü. Şah mərkəzi hakimiyyəti və paytaxtdan uzaq olan vilayətləri xan, sultan, kələntər, darğa, vəzir ünvanı ilə məlum olub hakimiyyət funksiyasını yerinə yetirən şəxslərlə idarə edirdi. Şah öz şəxsi mülahizəsi əsasında igidliyi və şücaətinə görə fərqlənən adamlara xan titulu verib onları vilayətlərə hakim təyin edirdi. Bu şəxsi keyfiyyətlərlə yanaşı, Şaha və vətənə xidmət sahəsində göstərilən fədakarlığa görə də böyük vəzifəyə keçmək olurdu. Elə buna görə də, bəzi adamlar savaşlarda həyatını təhlükə qarşısında qoymaqdan çəkinməyərək xan ünvanına layiq görülmüşdülər. Ancaq xan titulu qan qohumluğu xətti ilə irsən verilmir. Doğrudur, xanların övladları xüsusi ehtirama layiq olmaqla hətta ata mülklərinin də sahibi olurdular. Ancaq nə atalarının ünvanları, nə də vəzifələri onlara aid olmurdu. Bu ünvan və vəzifə xanların övladlarına göstərdikləri qəhrəmanlığa görə, yaxud Şahın onlara xüsusi ehtiramı olduqda verilə bilərdi. Şah hər hansı vilayətin hakimindən şübhələndikdə onu dərhal ölüm cəzasına məhkum edir və bütün

əmlakını da müsadirə etdirirdi (139, 884). Bu halda xanın övladı ata mülkü üzərində varislik hüququnu da itirirdi. Artıq XVI-XVII yüzilliklərdə Azərbaycanda dövlət idarəçiliyi özünün yeni mərhələsinə daxil olmuşdu. Bu mərhələdə istər mərkəzi, istərsə də yerli hakimiyyətdən iri mülk sahibləri olan əyanlar uzaqlaşdırılmış və onları qulluq müqabilində dövlətdən məvacib alan məmurlar əvəz etmişdilər.

Tavernyenin gündəliyində Səfəvi dövlət hakimiyyəti orqanlarının təşkili, onların quruluşu və aralarındakı səlahiyyət bölgüsü qaydaları da təsvir olunmuşdur. Səyyah yazır ki, ölkə əhalisini Avropa dövlətlərində olduğu kimi üç təbəqəyə bölmək olar ki, onlardan birinci şəmşir əhlidir ki, bura səltənət sarayının üzvləri əşrəflər-kübarlar, xanlar və yaxud vilayət hakimləri, bütün qoşun əhli daxildir. İkinci qələm sahibləridir ki, bura qazılar, qanun yazanlar və üçüncü təbəqə bizdəki kimi, tacirlər, sənətkarlar, zəhmətkeşlərdən ibarətdir. Onlarda ədəb, insanlıq, nəzakət çox olub bütün Asiya xalqları arasında fəzilətə, üstünlüyə malikdirlər və həm də nizamı, ədaləti sevirlər. Hər cəhətdən avropalılara, daha çox fransızlara oxşayırlar (104, 571). Mərkəzləşmiş Səfəvi dövlətinin mərkəzi və yerli idarə orqanları Tavernyenin qeyd etdiyi əvvəlki iki təbəqənin nümayəndələrindən ibarət idi. Mülki, hərbi və inzibati orqanlar, yəni dövlət aparatının çox şaxəli institutları getdikcə təkmilləşirdi. Dini və dünyəvi məhkəmə təsisatları, nizami ordu da yaradılmışdı. Səfəvi dövləti vahid siyasi təşkilat olub, hakimiyyəti bütün imperiyanın ərazisi və əhalisini əhatə etsə də, idarəetmə sistemində özünə qədərki Türk dövlətlərinə aid spesifik xüsusiyyətlərə malik olmuş və onun üçün səciyyəvi olan institutlar, əlamətlər dövrün digər şərq xalqlarının dövlətlərində mövcud olmamışdır. Səfəvi dövləti ərazisində bütün sosial zümrələrin mənafeyini ifadə edən siyasi orqan kimi fəaliyyət göstərmişdir.

O.Əfəndiyevin yazdığı kimi, Səfəvilər dövlətinin yaranmasında Azərbaycan türk etnosu həlledici rol oynamış və bu dövləti «konqlomerat imperiya» kimi şərh edən baxışlar doğru deyildir (20, 32,33). Fəth edilmiş bütün ölkələrdə, o cümlədən, Fars, Yəzd, Kirman, Xorasan, Astrabad, Mazandaran və Gilanda mülklərini

hakim statusu ilə idarə edən yerli sülalələrin hakimiyyəti devrilmiş, bu ölkələrdə inzibati ərazi bölgüsü prinsipləri əsasında vilayətlər yaradılmışdı. Səfəvi dövlət quruluşunun formasına uyğun olaraq mərkəzlə yerli idarəetmə aparatı arasında qarşılıqlı münasibətlər milli deyil, inzibati-ərazi bölgüsü prinsiplərinə dayanırdı. Digər tərəfdən ölkə daxilində əmtəə-pul münasibətləri başlıca iqtisadi əlaqə forması olub, valilik və vilayətlər vahid iqtisadi, inzibati-siyasi mərkəz ətrafında birləşmişdi.

Səfəvilər XV yüzillikdə Azərbaycanda hakimiyyətdə olmuş Türkman Baharlı və Bayandur sülaləsinin hərbi-siyasi özülünü təşkil edən Ərəşli, Zülqədər, Əfşar, Şamlı,Təkəli, Ustaclı, Qacar, Qaradağlı və başqa türk ellərinə, çoxçeşidli sosial zümrələrə arxalanıb onların əsgəri köməyi ilə hakimiyyəti ələ almışdılar. Məlum olduğu kimi, Səfəvi şeyxləri ilə Bayandur sülaləsi arasında qohumluq əlaqələri də mövcud olmuşdur. Belə ki, Səfəvi şeyxi Cüneyd (1447-1460) Bayandurlu hökmdarı Uzun Həsənin (1453-1478) bacısı Xədicə bəyimlə, şeyx Cüneydin oğlu Şeyx Heydər isə Uzun Həsənin qızı Aləmşah bəyimə evlənmiş, bu nigahdan da I İsmayıl və onun iki qardaşı doğulmuşdur. Beləliklə, Səfəvi şahlıq sülaləsinin yaradıcısı İsmayıl hakimiyyətə Ağqoyunlu hökmdar irsinin davamçısı kimi gəlmişdir.

Tarixə Baharlı, Bayandurlu, Səfəvi adı ilə düşən hər üç sülalənin özülü – dayağı Azərabycan olmuş və bu sülalələr hakimiyyətdə olduqları illərdə yaratdıqları dövlətin quruluşundakı cüzi fərqlərlə bir-birini tamamlamışdır. Ancaq Səfəvilər vaxtında oturaq əhalinin rolu artmış, Şirvan və Şəki hakimlərinin mərkəzdənqaçma cəhdlərinə tam son qoyulmuşdur.

I İsmayıl siyasi fəaliyyətə başlayana qədər dövrün ictimai-siyasi hadisələrini düzgün qiymətləndirən və nəticə çıxarmağı bacaran türk el əyanları arasında boya-başa çatmış, təlim-tərbiyə almışdır. Onlardan Şamlı Hüseyn bəy lələ, Zülqədər Dədə Abdal bəy sufilər Gilanı tərk etdikdən (1499) bir qədər sonra İsmayıla gənəşərək siyasi məram və məqsədlərinin planlı şəkildə həyata keçirilməsi üçün kiçik saray təşkilatı yaratdılar. Belə ki, Salman bəy Zülqədər – xəzinədar, Əbdi bəy Şamlı - təvaçi (hərbi dəstələri

əlaqələndirən məmur), Sarı Əli bəy Təkəli - möhürdar, Hüseyn bəy Əfşar – süfrəçibaşı təyin olundu. Ancaq ilk hərbi yürüşlər illərində yaradılan həmin mərkəzi idarəçilik aparatının özülü tədricən genişləndirilmiş və daha da möhkəmlənmişdir. Belə ki, Şirvan şahı Fərrux Yasərin(1462-1500) qoşunu məğlub edilib. Şamaxı tutulduqdan sonra, İsmayıl özünün əsas hərbi qüvvəsi ilə 1500-cü ilin sonunda qışlamaq üçün Şamaxıdan Mahmudabada gəlmiş və orada təbrizli Şeyx Məhəmməd Köcəcinin övladlarından, «illərlə türk səltənətinə vəzirlik edən», yəni Bayandurlu dövründə vəzir vəzifəsində işləmiş Əmir Şəmsəddin Zəkəriyyə Təbrizi Köcəcini ali divan vəziri təyin edib, ona «Kilid-i Azərbaycan» - Azərbaycanın açarı kimi dəbdəbəli bir ad vermişdir (77, 54, 66; 28, 33, 39; 138, 393, 394; 108, 35: 20, 41, 228).

İsmayılın başçılığı altında Şirvana daxil olan (1500) Ustaclı, Şamlı, Rumlu,Təkəli, Varsaq, Zülqədər, Əfşar, Qacar, Qaracadağ sufilərindən ibarət 7 minlik qoşunun əsgəri heyəti və bu qoşunun yüksək rütbəli zabitləri türk olub, qoşun başçılarından savaşlarda Xan Məhəmməd Ustaclı, Əvəz sultan Ustaclı, Hüseyn bəy lələ Şamlı, Əhməd bəy Sofi oğlu Ustaclı, Bayram bəy Qaramanlı,Çaşan Qaraca İlyas Bayburdlu, İlyas bəy Ayqut Uyğur oğlu Xunuslu, Sultanşah bəy Əfşar,Cəlal bəy və Qılınc bəy Qaramanlı, Lələ Məhəmməd Təkəli, Piri bəy Qacar, Dana bəy Əfşar və bir çox başqa türkmən bəyləri iştirak etmişdilər ki, onlardan Hüseyn bəy lələ və Dədə Abdal bəy Zülqədərə əmir əl-üməra, Ustaclı Məhəmməd və İlyas bəy Ayqut oğluna isə əmir-i əzəm (böyük əmir) rütbəsi verilmişdi. Elə bu vaxt Dədə Abdal bəy Zülqədər qorçubaşı və Mövlanə Şəmsəddin Gilani* də sədr vəzifəsinə təyin olunmuşdu (138, 394; 115, v.43a-b; 95, v. 5a; 128, 95, 107; 20, 41; 67, 20, 22; 77, 41, 42, 46, 47).

I Şah İsmayılın ordusu Qızılbaş-Türk elləri üzrə səfərbər edilən qeyri-nizami əsgəri alaylarından ibarət olub, hər elin əmiri öz

---

* Mevlana Şəmsəddin Gilani 1494-1499-cu illər arasında Lahican şəhərində İsmayılın farsca və ərəbcə dillərinin öyrətmənidir. (Abdullatif Kazvini. Safevi tarihi, s.33, 63-cü qeyd )

elinin qoşununa komandanlıq edirdi. Ordu birləşmələrinə isə şahın əmir əl-ümәra rütbəsi ilə təltif etdiyi əsilzadələr başçılıq edirdi. O. Əfəndiyevin yazdığı kimi əmir əl-ümәra hərbi rütbə və vəzifəsi Qızılbaş-Türk el əyanlarının inhisarında olub, bu vəzifəni tutanlar arasında eyni vaxtda vəkil mənsəbini də icra edənlərə təsadüf edilir (20, 227). I Şah İsmayılın hakimiyyətinin ilk illərində Hüseyn bəy Lələ Şamlı 1502-1509-cu illərdə həm divan əmiri, həm də vəkil idi (138, 407; 128, 123; 67, 47). O, 1509-cu ildə Təbrizdə divan əmiri və əmir əl-ümәra vəzifəsindən azad edilmiş, ulka və nökərləri Məhəmməd bəy süfrəçi Ustaclıya bağışlanmışdı. Məhəmməd bəy Ustaclıya elə bu vaxt Sultan titulu və Çayan (Çayan sultan) ayaması verilir (77, 50; 138, 407; 128, 187, 243). Bacarıqlı dövlət xadimi Hüseyn bəy Lələnin tutduğu vəzifədən azad edilməsinin, ulka və nökərlərinin alınıb özündən aşağı səviyyədə duran bir əyana verilməsinin səbəbləri tədqiqata cəlb etdiyimiz mənbələrdə göstərilməmişdir. Ancaq bu mənbələrdə onun yeni vəzifələrə təyin edilməsi və vəfatı haqqında məlumat verilmişdir. Hüseyn bəy Lələ Şamlı 1509-cu ildə Şirvan mahallarından birinə hakim, 1511-ci ildə isə Herata vali göndərilmiş və 1514-cü ildə Çaldıran savaşında öldürülmüşdür (77, 141; 108, 46; 67, 47). Çayan sultandan (1509-1523) sonra Div sultan Rumlu (1524-1527), Çuxa sultan Təkəli (1527-1531), Hüseyn xan Şamlı (1531-1534) əmir əl-ümәra və divan əmiri olmuşdu (128, 326, 331, 332; 77, 181, 253-254; 20, 227; 138, 410, 421).

Qeyd olunduğu kimi, İsmayıl hakimiyyətə keçənə qədər qoşununun yüksək hərbi zümrəsi hesabına yeni dövlət aparatının özülünü qoymuş, habelə, ilk döyuşlərdə ələ keçirilmiş bölgələrdə hakimlərlə təmsil olunan yerli idarəçilik forması yaradılmışdır. Bu dövlətin artıq qoşunu, sərkərdələri, odlu (top, tüfəng) və soyuq silahı, hərbi sürsatı ilə yanaşı, yaranmış olan hakim zümrəsi; vəzirləri, əmir əl-ümәraları, baş əmirləri, xəlifət əl-xüləfası, möhürdarı, bayraqdarı, süfrəçisi, sədri və s. vəzifə sahibləri vardı.

İsmayılın başlıca məqsədi Şirvanşahların və Ağqoyunluların XV yüzilin son illərində çökmüş dövlət hakimiyyətlərini aradan götürmək, Azərbaycan torpaqlarını güclü mərkəz ətrafında birləş-

dirmək, güclü Azərbaycan Səfəvi səltənətini qurmaq idi. İsmayıl Şirvanda Fərrux Yasər üzərində 1500-1501-ci illərdəki uğurlu qələbələrdən sonra Əmir Zəkəriyyə Təbrizi Köcəcinin məsləhəti ilə Gülüstan qalasının mühasirəsindən əl çəkib, Ağqoyunlu Əlvənd Mirzəni aradan götürmək üçün güneyə yollanmışdı (128, 115). Bu barədə İsgəndər bəy Türkman yazır: «mühasirə zamanı (Gülüstan qalası-Z.B.) qeyb aləmindən gələn səs Azərbaycan səltənət taxtı və şahlığın müjdəsini o həzrətə verdi… o həzrət böyük əmirləri yanına çağırıb dedi ki, sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı?» (80, 27; 128, 113). Bu məsələ böyük əmirlərin iştirakı ilə hərbi şurada da müzakirə edilmiş və güney hərbi yürüşü haqqında bir səslə qərar qəbul edilmişdir. İsmayıl 1501-ci ildə Şərurda Ağqoyunlu Əlvənd Mirzə üzərində də qələbə çalıb Azərbaycan Səfəvi dövlətinin yaradılması yolunda ağır sınaqlardan uğurla çıxır (28, 33; 103, 247; 20, 53, 54). Şərur qələbəsindən sonra 1501-ci ildə İsmayıl Təbrizdə hakimiyyətə keçdi və Azərbaycan Səfəvi dövləti rəsmən yarandı. Dövrün mötəbər mənbələrinin bu barədə verdiyi məlumatlar Azərbaycan adı ilə Səfəvi dövlətinin yaranmasını əsaslı surətdə sübut edir. "Lübbət-təvarix" də İsmayılın Şərur qələbəsindən sonra darossəltənə-ye Təbrizə gəlib "sərir-e səltənət-e Azərbaycan"- Azərbaycan şahlıq taxtından oturub oranı şahlığı ilə bəzədiyi yazılmışdır(138, 394). Məhəmməd Yusif Qəzvini də yazır ki, Şərur döyüşündən sonra İsmayıl darossəltəne-ye (paytaxt, mərkəz) Təbrizə üz tutdu və Azərbaycan şahlıq taxtına (təxte səltənete Azərbaycan) oturdu. Bütün Azərbaycan məmləkətində (dər təmam məmləkət-e Azərbaycan) onun adına xütbə oxundu, dinar və dirhəm zərb edildi (128, 121, 122) İsmayılın başçılığı altında türk qızılbaş əsilzadələri və onların hərbi-siyasi arxası olan 7-8 minlik türk ordusu 1499-1501-ci illərdə Şirvanşah və Əlvənd Mirzə üzərində qələbə çalıb, Azərbaycanı yenidən vahid mərkəzdə birləşdirib mərkəzləşdirilmiş Azərbaycan dövlətini yaratdılar. Ancaq çox böyük hərbi-siyasi gücə malik olan Bayandurlu Sultan Muradı aradan götürmədən mərkəzləşdirmə prosesini başa çatdırmaq mümkün deyildi. I Şah İsmayılın ordusu 1503-cü ilin baharında İraqi Əcəmə daxil oldu və Həmədan yaxınlığında Sultan Muradın qoşununu

məğlub edib Şiraz, Fars , Kirmanı tutdular. 1504-cü ildə Firuzkuh qalası ələ keçirildikdən sonra Firuzkuh, Dəmavənd, Xar, Simnan hakimi Kiya Hüseyn Çelavi və Sultan Muradın sığındıqları Osta qalası və Yəzdi fəth etdilər. Şah fəth etdiyi bu bölgələri sərhədləri hüduduna daxil edib şəhər və qalalara türk hərbi əyanlarından hakimlər təyin etdi. Yəzdin idarəsini Hüseyn bəy Lələ Şamlıya verdi.(138, 396, 398,400). Azərbaycan Səfəvilər səltənətinin qurucusu olan Şah İsmayılın dövlətinin hərbi-siyasi özülünü türk-qızılbaşlar təşkil edirdi. İsmayıl Əlvənd Mirzə və Sultan Murad üzərində qələbə çalıb, Azərbaycanda hakimiyyətə keçdikdən sonra, müharibələrlə tutduğu ölkələrə bir qayda olaraq Qızılbaş türk el və oymaqlarını köçürdüb yerləşdirərək fəth olunan torpaqlarda dövlətin hərbi-siyasi dayaqlarını da yaradırdı. Bu barədə Əbdi bəy Şirazi yazır: «Şiraz (Fars) vilayətini Zülqədər Keçəl bəy Hacılar (adı) ilə məşhur olan İlyas bəyə verdilər. O tarixdən Şiraz Zülqədər tayfasına mənsub oldu… Bu il (1508) Diyarbəkr vilayəti tayfanın (Ustaclı) nəsilbənəsil əmiri olan Xanməhəmməd Ustaclıya verildi»* (28, 36, 39). Xorasan üstündə Səfəvi-Şeybani çəkişmələrində Şeybani xan I Şah İsmayıla «…Tərəkəmə (Türkman-Z.B.) Ağqoyunlulara qohumluğuna arxalanaraq, hakimiyyət iddiasına düşmək, bəlkə o zaman mümkün olardı ki, mənim tək yeddi iqlim padşahı meydanda olmasın» deyə yazdığı sonuncu məktuba cavab olaraq Qızılbaş ordusu Xorasana daxil olur.

Mərv yaxınlığında Mahmudi kəndində (1510) döyüşdə Qızılbaş ordusu qələbə çaldı. Səfəvi ordusu Xorasan, Bədəxşan, Qəndəhar, Kabili tutdu. Türküstan da faktiki olaraq onlardan asılılığı qəbul etdi (43, 5-6). Bu qələbələrdən sonra I Şah İsmayıl h. 917 (1510-1511)-ci ildə Sovucbulaq və Rey hakimi Zülqədər Abdal bəy Dədəni

---

* I Şah İsmayıl 1508-ci ildə Zülqədər hərbi səfərindən geri qayıdarkən Bayandurların Diyarbəkrdəki valisi Əmir bəy Mosullu onu qarşılamış və qiymətli hədiyyələr təqdim etmişdir. Diyarbəkr Səfəvi torpağına qatılmış və ora Xanməhəmməd Ustaclı hakim təyin edilmişdir. (Yəhya bin Əbdüllətif Qəzvini. Lübbət-təvarix, s.405)

Mərvə, Bayram bəy Qaramanlını isə Bəlx, Əndixod, Şibirgan və Garcistana, Zeynal xan Şamlını Rey və Sovucbulağa hakim təyin edir (138, 409, 410; 128, 203; 108, 43; 67, 48). Bayram bəy Qaramanlı 1512-ci ildə özbəklərlə savaşda öldürülür. Zülqədər Abdal bəy Dədə də özbəklərin Məhəmməd Teymur xanın başçılığı altında 1513-1514-cü illərdə Xorasana hücumu zamanı Mərvin müdafiəsini təşkil edə bilmədiyinə və şəhərdən qaçdığına görə vəzifədən azad edilir (138, 414; 128, 203, 226, 227; 108, 48; 77, 138, 139; 67, 48). Özbəklərin hücumlarının qarşısı alındıqdan sonra 1513-1514-cü illərdə Zeynal xan Şamlı Herata, Div sultan ayamalı Əli bəy Rumlu Bəlx və onun ətrafına, Ağqoyunlu dövrünün böyük əmirlərindən olmuş Gülabi bəy bin Əmir bəy Mosullunun oğlu Əmir xan Mosullu Qayeyə, İlyas bəy Ayqut oğlu isə Reyə hakim təyin edilmişdir (28, 47; 138, 414, 415; 128, 227, 228, 484). Əbdi Şirazinin yazdıqlarından açıq-aşkar görünür ki, I Şah İsmayılın fəth olunmuş ölkələrdə Türk-Qızılbaş ellərinin yerləşdirilməsi tədbirləri onun hakimiyyətinin sonuna qədər davam etmişdir. Müəllif 1515-ci il hadisələrindən bəhs edərkən yazır: «Qayenin hakimi Əmir xan Mosullu ali taxtın ayağına gəlib, Xorasanın vəziyyətini və özbəklərin hücumunu ərz etdi. Bu zaman Div sultan Bəlxdən dərgaha gəldi və həmin əhvalatı (Şah İsmayılın) qulağına çatdırdı. Buna görə də Xorasanın idarəsini Amu Dərya çayının kənarından İraqın (İranın) Simnanına qədər… Təhmasibə (Təhmasib Mirzə) həvalə etdi. …Şahzadə Təhmasibin lələliyini Əmir xan Mosulluya verdilər…» (28, 36, 37, 47, 49-50; 128, 246, 247, 248). Təhmasib Mirzə Xorasan valisi,lələsi Əmir xan Mosullu isə Herata hakim təyin edilir. Bu vaxtdan etibarən bir qayda olaraq Xorasana valinin şahzadələrdən qoyulması və onun lələsinin isə Herat hakimi statusu daşıması ənənəyə çevrilir (128, 278, 279). Təhmasib Mirzədən sonra h. 928 (1522)-ci ildə Herata Sam Mirzə vali göndərilmişdi. Şamlı Durmuş xan isə Sam Mirzənin lələsi, həm də Herat hakimi olmuşdu (138, 420; 108, 49, 50; 67, 48; 43, 6). Şahın fərmanına (1522) əsasən Xorasan vilayəti Simnandan Amu-Dərya çayına qədər Sam Mirzəyə verilir, Herata hakim isə onun lələsi Durmuş xan Şamlı təyin edilir (128, 291). H. 929 (1522-1523)-cu ildə

Zeynal xan Şamlı Astrabada, Zeynəddin sultan Şamlı Nişapura, Əhməd bəy Əfşar da Fəraha hakim göndərilmişdi (128, 294).

1503-1510-cu illərdə İraqi-Əcəm, Fars, Gilan, Mazandaran, İraqi-Ərəb və bütün Xorasan fəth edildi. Azərbaycan Səfəvi dövlətinin şərqdə sərhədi Amu-Dərya çayına çatdı. I şah İsmayıl fəth etdiyi bir çox ölkələrdə, xüsusən də Gilanda məhəlli sülalələrin ciddi müqaviməti ilə qarşılaşmışdı. Rəşt valisi Əmir Hüsaməddin əvvəlki imtiyazının itirməsi ilə hesablaşmır, müstəqilliyini bərpa etməyə çalışırdı. I Şah İsmayıl valinin bu cəhdlərinin qarşısını almaq üçün 1507-ci ildə Rəştə qoşun göndərdi. Qızılbaş ordusunun qarşısında tab gətirməyəcəyini hiss edən Əmir Hüsaməddin Əmir Nəcmini qiymətli hədiyyələrlə Şahın hüzuruna göndərdi. Şah Əmir Nəcminin xahişini nəzərə alaraq Əmir Hüsaməddini əfv edir (128, 154; 108, 40). Bu zaman Lahicanda da qiyam baş vermişdi ki, nəticədə Lahican hakimi Karkiyə Mirzə Əli və Ranqu hakimi Karkiyə sultan Həsən öldürülmüşdü. Qızılbaş ordusu qiyamın qarşısını alıb, günahkarları cəzalandırdı. Ranquya Karkiyə Sultan Həsənin oğlu Sultan  Əhməd hakim təyin edildi (128, 155). Artıq Mazandaran və onun ətraf bölgələrindəki məhəlli hakimlər də vali statusu ilə Təbrizə tabe idilər. 1517-ci ildə Mazandaran valisi Ağa Məhəmməddə separatizm meyli baş verdiyinə görə I Şah İsmayıl Durmuş xan Şamlının başçılığı altında bir bölük qızılbaş əsgərini Mazandarana göndərir. Durmuş xan Şamlı Mazandarana daxil olduqda Ağa Məhəmməd müqavimət göstərməyin mənasız olduğunu görüb  tabe olur. Bu hadisədən sonra, 1517-1521-ci illərdə Sarı valisi Mir Əbdülkərim, Hezarcərib hakimi Seyid Hüseyn, Rüstəmdar hakimləri Məlik Kavus və Məlik Bəhmən Durmuş xana hədiyyələr göndərib Təbriz hökumətinə tabe olduqlarını, sədaqətlə xidmət edəcəklərini bəyan etdilər. Ancaq Mazandaran hakimi Ağa Məhəmməd öhdəsinə götürdüyü 3 min tümən vergini nəinki ödədi, əksinə yenə mərkəzə tabe olmadı. Şah Ağa Məhəmmədi tutduğu vəzifədən azad etdi və onun yerinə, Mazandarana da Mir Əbdülkərim təyin edildi. O, ildə 7 min tümən vergi ödəməli idi (128, 269-270, 282). I Şah İsmayıl bu bölgələrin məhəlli hakimlərinin mərkəzdənqaçma istəklərinin güclü olmasını nəzərə alıb on-

ların hüquqlarını azaltdı. Bu zaman Zeynal xan Şamılının Mazandaran və Rüstəmdara hakim təyin edilməsi burada mərkəzi hakimiyyətin nəzarətinin artırılması ilə səciyyəvi olsa da, yerli sülalələrin sahibkarlıq hüquqlarına toxunulmamışdı. Rəştdə atası Əmir Hüsaməddinin vəfatından sonra hakimiyyətə keçmiş Əmir Dibac bu vəziyyətdən istifadə edib, yenə də mərkəzə tabe olmaqdan imtina etmişdir. Durmuş xan və Zeynal xanın başçılığı altında Qızılbaş-Türk ordusu Gilana daxil olduqda Əmir Dibac Sultaniyəyə gəlmiş və günahlarının bağışlanmasını xahiş etmişdi. Şah onu babalarının vaxtı ilə Şahlığa sədaqətlə xidmət etmələrini nəzərə alıb bağışladı. Əmir Dibac ona verilmiş fərmana əsasən idarə etdiyi vilayətin gəlirindən beş min tümən hədiyyə verəcəyi və hər ildə də dövlət xəzinəsinə təyin olunmuş miqdarda xəracı vaxtında ödəyəcəyi barədə öhdəliyi üzərinə götürdükdən sonra Rəştə qayıtmağa icazə almışdı. Şah İsmayıl tərəfindən Müzəffər sultan ayaması alan Əmir Dibac 1534-cü ildə Səfəvilərə xəyanət edərək Sultan Süleymanla əlaqə yaratdığına görə ələ keçirilib edam olunur (77, 272, 273).

Böyük təhlükələrlə qarşılaşan I İsmayıl Azərbaycanı yenidən birləşdirib bir çox qonşu ölkələri də tutaraq güclü bir imperatorluq qura bildi. Eyni zamanda, bu imperatorluğun ərazisində yaşayan xalqları ortaq siyasi və ideoloji əqidə birliyinə qovuşdurdu. Olduqca cəsur, intizamlı, təşkilatçı və təhsilli bir hökmdar olan I Şah İsmayıl getdikcə uğurlar əldə edib türk tayfa əsilzadələrini mərkəzi, həm də yerli idarələrdə yerləşdirib, onlara geniş səlahiyyətlər verdi. İmperatorluqda türklərin maraqlarına uyğun sabit daxili siyasət kursu ənənəvi olaraq sosial dayaqlar yaratmaq siyasəti ilə müəyyənləşirdi. Türk-Qızılbaş tayfalarından Ustaclılar Əcəm İraqında, Kirmanda, Şamlılar Xorasanda, Təkəlilər İsfahanda, Həmədan və Əcəm İraqında, Zülqədərlər Farsda, Türkman (Mosullular)Bağdadda yerləşdirilib işğal olunmuş bölgələrdə davamlı dayaqlar yaradıldı. Adlarını qeyd etdiyimiz türk tayfa rəislərinə bu vilayətlərdə tiyul və vəzifələr verildi.

Oruc bəy Bayat əsərində 32 türk oymaq, tayfa və elin adını çəkərək dövlətin bütün vəzifələrinin də onların əlində olduğunu

göstərmişdir. Onun adlarını qeyd etdiyi bu 32 oymaq, tayfa və el arasında əhalisinin sayına görə ən iriləri Ustaclı, Şamlı, Əfşar, Türkman, Qacar, Zülqədər, Təkəli və Bayat idi (79, 67, 68). Oruc bəyin verdiyi məlumatlardan aydın olur ki, XVI əsrin sonu-XVII əsrin başlanğıcında yuxarıda qeyd edilən bu tayfalar dövlət quruluşunda siyasi nüfuz və güclərini qoruyub saxlamşdır. Əslində bu türk elləri, oymaqları əvvəl Qaraqoyunlu və Ağqoyunluların, sonra isə Səfəvilərin əsas hərbi-siyasi dayağı olmuşlar. Bu türk tayfaları haqqında İ.D.Mikluxo-Maklay yazır: «Qızılbaş adını alan tayfalar dil və soyca Qaraqoyunlu və Ağqoyunlu dövlətini yaradan Azərabycan tayfaları ilə qohum idilər. XV əsrdən başlayaraq tədricən Azərbaycan və İranın böyük hissəsinə sahib oldular» (175, 234-235). O, sözünə davam edərək yazır ki, Səfəvilər hələ Şeyx Səfiəddin (1252-1334) dövründən həmin türkdilli tayfalar arasında özlərinə müridlər toplayıb gələcəkdə hakimiyyəti ələ almaq üçün çalışmış və yalnız İsmayıl öz sələfələrinin arzusunu yerinə yetirmişdi. Bir fərqlə ki, Səfəvilərdən Şeyx Heydər (1447-1460) qarşısına təkcə Azərbaycanı birləşdirmək məqsədini qoyduğu halda, İsmayılın qızğın mürid və tərəfdarlarının məqsədləri daha böyük olmuşdur. Azərbaycanı (1501) birləşdirdikdən sonra məsləkdaşlarının böyük şiə dövləti yaratmaq istəyi ilə hesablaşıb bir çox ölkələri də tutdular (175, 234-235). O. Əfəndiyevin yazdığı kimi, Əlvənd Mirzənin üzərində qələbə İsmayılı Azərbaycanın hökmdarı etdisə, Muradın qoşunlarının qızılbaşlar tərəfindən darmadağın edilməsi isə Farsın və İraqi-Əcəmin bir hissəsinin qızılbaşların əlinə keçməsinə gətirib çıxarmışdır (20, 46).

Şah Təhmasibin (1524-1576) hakimiyyətinin ilk illərində Türk-Qızılbaş əsilzadələrindən Əli sultan Zülqədər Fars, Qaraca sultan Təkəli Həmədan, Burun sultan Təkəli Məşhədi – müqəddəs, Zeynal xan Şamlı Astrabad, Cəgirgə sultan Şamlı Səbzəvar hakimi idilər. İsfahan vilayətinin hakimliyi Cuhə sultan Təkəliyə verilmişdi. 1527-1528-ci illərdə Əfşar elindən Mustafa sultanın da Savənin tiyuldarı və Səbzəvar hakimi olduğu məlumdur. O, 1528-ci ildə bir çox qızılbaş əmirləri ilə birlikdə özbəklərlə Fizutkuhda savaşda öldürülmüşdü. 1522-ci ildən Bağdadın hakimi Əmir xan Mosullu-

nun qardaşı İbrahim xan Mosullu idi. Məhəmməd Yusif Qəzvini yazır ki, İbrahim xanın Luristanda Kalhur hakimi olan qardaşı Noxud sultan Mosullunun oğlu Zülfüqar qiyam qaldırıb 1528-ci ildə Bağdada hücum edərək əmisini öldürüb Ərəb İraqını ələ keçirir. Ancaq Qızılbaş ordusu qiyamı tez bir vaxtda yatırmış və 1529-cu ildə Məhəmməd sultan Şərəfəddin oğlu Təkəliyə xan titulu verilib, Bağdadın idarəsi ona tapşırılmışdı. Bu zaman Fars vilayəti yenə də Zülqədər əsilzadələri tərəfindən idarə olunurdu. 1526-cı ildə Əli Sultan Zülqədər vəfat etmiş, yerinə Murad xan Fars hakimi təyin edilmişdi. 1534-cü ildə I Şah Təhmasib Fars vilayətinin hakimiyyətini Qazı xan Zülqədərə vermişdi (108, 58, 59; 77, 189, 223; 28, 55, 58, 59, 69). 1526-cı ildə Herat hakimi Durmuş xan bin Əbdi bəy Şamlı vəfat edir, qardaşı Hüseyin xan Şamlı Herata hakim göndərilir. Bu zaman Şamlılardan Zeynəddin sultan da Əsfərayin hakimi idi. 1529-cu ildə I Şah Təhmasibin ordusu özbəkləri dəf etmək üçün Xorasana daxil olduqda onlar Mavərəünnəhrə çəkilir. Şah Herat hökumətini qardaşı Bəhram Mirzəyə verib, Qazi xan Təkəlini də ona lələ təyin edir (108, 58, 59, 60; 77, 189, 223). Herat 1531-1532-ci illərdə özbək Übeydulla xanın yeni hücumlarına məruz qaldıqda Qazi xan Təkəli şəhərin müdafiəsini təşkil edə bilməmişdi. Elə buna görə də I Şah Təhmasib 1532-ci ildə Heratı özbəklərdən geri aldıqdan sonra Qazı xanın əvəzinə Ağsıvar xan Şamlını Herata hakim təyin edir. O, həm də Xorasanın yeni valisi Sam Mirzənin lələsi idi (77, 260). Ağsıvar xan Şamlı və Sam Mirzə 1534-1535-ci ildə, yəni Osmanlı-Səfəvi dövlətləri arasında müharibə getdiyi bir vaxtda Şah Təhmasibin icazəsi olmadan Qəndəhara hücum təşkil etmişdilər. Ağsıvar xan Şamlı 1535-ci ildə Qəndəhar ətrafında Zahirəddin Baburun oğlu Kamran Mirzə ilə savaşda öldürülür (77, 201, 262, 263). Bu hadisədən istifadə edən özbəklər Xorasana hücum etdikdə (1535) Məşhəddə hakim Sivaslı Sufiyan xəlifə Rumlu idi. O, özbəklərə ciddi əks zərbələr vurmuş, onları Əsfərayin döyüşündə məğlub etmidi (77, 263, 273). Ancaq Səfəvi-Osmanlı müharibəsi və Ağsıvar xan Şamlının Səfəvi-Babur dövlətləri arasında münasibətləri pozmasından istifadə edən Übeydulla xanın qoşunları ardı-arası kəsilmədən Xorasana hücumlar təşkil edir, tərəflər

arasında qanlı savaşlar gedirdi. 1536-cı ildə Sufiyan xəlifə Rumlu savaşda öldürüldükdən sonra Übeydulla xan Heratı və Xorasanın bir çox qalalarını ələ keçirməyə müvəffəq oldu (77, 264, 272). Bu zaman Məhəmməd xan Şərəfəddin oğlu Təkəli Xorasan valisi Məhəmməd Mirzəyə lələ təyin edilib Herata göndərilmişdi. O, vəfatına qədər Herat əmir əl-üməraası olmuşdu (108, 58, 59, 60; 77, 189, 223; 82, 327)

H. 962 (1555)-ci ildə I Şah Təhmasib oğlu İsmayıl Mirzəni Əli sultan Təkəli ilə Herata göndərdi və Məhəmməd Mirzə isə Qəzvinə geri çağrıldı. Məşhədə isə Bəhram Mirzənin oğlu Sultan İbrahim hakim təyin edilir. Ancaq İsmayıl Mirzə Şahın şifahi və yazılı buyruqlarına əməl etməyib lələsi Məhəmməd xan Şərəfəddin oğlu Təkəli ilə hesablaşmadığına görə 1557-ci ildə Sevindik bəy qorçubaşı tərəfindən həbs edilib Qəhqəhə həbsxanasına salınır. Şah Herata yenə Məhəmməd Mirzəni göndərir (108, 79, 80, 82; 20, 105, 106). Qazax xan Təkəli atası Məhəmməd xan Şərəfəddin oğlu Təkəli öldükdən sonra (1557) Herat hakimi olmuşdu (77, 401). Ancaq zülmkar olduğuna görə I Şah Təhmasib ona qarşı Sultan İbrahim Mirzənin başçılığı altında ordu göndərir və 1565-ci ildə ələ keçirilib öldürülür (108, 89, 90). Həsən bəy Rumlunun məlumatına görə Heratda baş vermiş hadisədən, yəni hakimiyyətsizliyin yaranmasından Buxara hakimi İsgəndər xan dərhal istifadə edib h. 974 (1566-1567)-ci ildə Xorasana böyük oğlu Abdulla xanın başçılığı altında qoşun göndərdi. Ancaq I Şah Təhmasib Herat hökumətini oğlu Sultan Məhəmmədə həvalə edərək Xorasana yola salmış və ona Yeqan Şahqulu sultan Ustaclını da lələ təyin etmişdi. Onlar Xorasanda Qızılbaş ordusunu səfərbər edib Abdulla xanın hücumlarının qarşısını uğurla aldılar və Abdulla xan geri dönməyə məcbur oldu (77, 430, 431).

Həsən bəy Rumlu 1544-cü ildə baş vermiş hadisələrdən bəhs edərkən Həmzə sultan Qazağın oğlu Şahqulu sultanın Məşhəd hakimi olduğunu qeyd edir (77, 318). O, Məşhədə qədər Kirman və Astrabadda da hakim olmuşdu. 1551-ci ildə Çuxur-Sədə göndərilmişdi (28, 99). H. 951 (1544)-cü ildə Şahqulu sultan Əfşar Kirman, Əhməd sultan Şamlı isə Sistan hakimi idi (108, 70; 77, 308).

Məhəmməd Yusif Qəzvini h. 977 (1569)-ci ildə baş vermiş hadisələrdən bəhs edərkən Əfşar əsilzadələrindən Yaqub bəyin Kirman hakimi olduğunu qeyd edir. Bu zaman Xorasanda Cam nahiyəsinin hakimi İbrahim xan Zülqədərin oğlu Zeynal bəyin olduğunu görürük. I Şah Təhmasibin yerlərdə hakimiyyətin həyata keçirilməsinin üsul və metodları XVI yüzilliyin 30-40-cı illərində Gilanda, Astrabadda, Xuzistanda mərkəzdənqaçma hərəkatları ilə səciyyəvi olan güclü qarşıdurmalar şəraitində həyata keçirilirdi. Şahın qoşunu Xuzistanda (1541) baş vermiş qiyamı yatırmaq üçün 1542-ci ılıdə Dizfula doğru hərəkət etdikdə, buranın hakimi Əlaüddövlə Rənaşi Bağdada qaçmışdı. I Şah Təhmasib Xuzistandakı mərkəzdənqaçma hərəkatının qarşısını almaq üçün oranın idarəsini Əfşar əmirlərindən Əbülfəth sultan Əfşara tapşırdı (128, 351-353; 28, 86). Əbdi bəy Şirazi 1538-1539-cu il hadisələrindən bəhs edərkən yazır ki, Xoca Müzəffərin nəvəsi Məhəmməd Saleh Bitikçi Astrabadi cahilliyi üzündən üsyan edib Astrabadın Qızılbaş hakimi Sədrəddin xan Ustaclıya qarşı çıxdığına görə Dəli Şahverdi Kəngərli onu tutub bir kupə qoydu və Təbrizin Nəsriyyə məscidinin minarəsindən atdı. Beləliklə, Astrabadda Xacə Müzəffərin nəsli kəsildi (77, 283, 285; 28, 84). Müəllif daha sonra Astrabadın Qızılbaş hakimlərindən Şahəli sultan Ustaclı, Keçəl Şahverdi Çavuşlu, İbrahim xan Zülqədərin adını çəkir (28, 99, 107). Həsən bəy Rumlunun məlumatına görə Şahəli sultan Ustaclıdan sonra 1549-cu ildə Ustaclı elindən Keçəl Şahverdi bəyin Astrabada hakim göndərilməsi Yaka Türkmanların ciddi narazılıqlarına səbəb olmuşdu. Keçəl Şahverdi bəyin qohumu Şatır bəyin Yaka Türkmanın Oxlu obasından olan Aba tərəfindən öldürülməsi gərginliyi daha da artırmışdı. Keçəl Şahverdi bəy də Yaka Türkmanlarla savaşda öldürülmüşdü (77, 241, 242). Əbdi bəy yazır ki, 1558-ci ildə «Ali divandan Hacı Uveys bəy Məlik oğlu Bayat, Bayat qoşunu ilə Astrabadı idarə etmək üçün getdi» (28, 94, 107, 108). Üveys bəyin Bayat qoşunu ilə Astrabada hakim göndərilməsi, Bayat elinin müəyyən obasının Astrabada köçürülüb yerləşdirilməsini əks etdirir. Bu zaman I Şah Təhmasib Gilandakı mərkəzdənqaçma hərəkatının qarşısını almaq üçün Biye-Pası (Rəşt) da Biye-Piş (Lahican) hakimi Əhməd xana

tapşırmışdı. Ancaq 1568-ci ildə Biye-Pası Əmir Dibacın oğlu Cəmşid xana qaytarmaq istərkən, Gilanın məhəlli hakimləri arasında yenidən ciddi qarşıdurmalar, itaətsizlik baş verdi. Əhməd xan Şaha qarşı çıxıb onun göstərişlərini yerinə yetirmədiyinə görə Gilana yenə ordu yeridildi. Məğlub olan Əhməd xan ələ keçirilib həbs cəzasına məhkum edilir. Məhəmməd Mirzə Gilana hakim təyin olundu və faktiki olaraq vilayətdə hakimiyyət Qızılbaş-Türk əsilzadələrindən Allahqulu sultan oğlu Ustaclı, İsgəndər bəy Əfşar və Zeynal bəy Zülqədərin arasında bölündü (128, 283, 284, 505, 509).

II Şah İsmayıl (1576-1577) da işğal olunmuş bölgələrdə yerli dayaqların möhkəmləndirilməsinə ciddi fikir vermişdi. 1576-cı ildə hakimiyyət uğrundakı çəkişmələrdə Gilan valisi İmamqulu Mirzənin (I Şah Təhmasibin oğlu) lələsi və Biye-Piş əmir əl-ümərası Pirə Məhəmməd (Çavuşlu) Ustaclı İsmayıl Mirzənin tərəfdarı olduğu üçün İsmayıl Mirzə şahlığı ələ keçirdikdə Ustaclılardan yalnız ona toxunmamış, vəzifəsində qalmasına icazə vermişdi. Bu zaman Şahqulu sultan Yeqan Abbas Mirzənin lələsi və Herat bəylərbəyi idi. O, 1576-cı ildə Əsfərayin hakimi Hüsyen sultan Əfşar tərəfindən öldürülür. Həmin ildə Vəli xan Əfşarın Kirmanda hakim olduğunu görürük (128, 402, 491, 515, 528). 1577-ci ildə onu Kirmanda Mahmud sultan Əfşar əvəz edir (108, 97). O, Ustaclılardan xeyli əhalini Sistanda yerləşdirib, Şahqulu sultan Yeqanın oğlu Mürşüdqulu sultan Ustaclını Sərəxsdən geri çağırıb bura hakim göndərdi. Şahqulu sultan Yeqan Ustaclının digər oğlu İbrahim sultan da Qəzvin hakimi təyin edilir. Təkəlilərin bir qismini Reydə yerləşdirib, bura Şərafəddin oğlu Museyib xanı, Qum və Savəyə Türkmanlardan köçürüb buraya isə Əmir xan Mosullunu hakim təyin etmişdi. Şah Herat əyalətini Şirvan hakimi Araz xana versə də, o Arazı keçməmiş fikrini dəyişib bura Durmuş xan Şamlının nəvəsi Hüseyn xanın oğlu Əliqulu bəyi təyin edib, ona xan titulu və əmir əl-üməra rütbəsi də verdi. Murtuzaqulu xanı isə Məşhədə vali təyin edərək xeyli Türkman əhalisini də bu bölgəyə köçürüb yerləşdirmişdi (117, v.216a, 223b; 67, 114; 128, 530, 535). Beləliklə, Azərbaycan hüdudlarından kənardakı vilayətlərdə möh-

kəm dayaqlar yaratmaq, onun da daxili siyasətinin baş xətti olmuşdur. Ancaq dövlətin möhkəmləndirilməsi, mərkəzləşdirmə siyasətinin həyata keçirilməsi, siyasi-iqtisadi inteqrasiyanın genişləndirilməsi tədbirləri imperatorluğun cənub və cənub-şərq bölgələrində qeyri-türk əsilzadələrin çox ciddi qarşıdurmaları şəraitində davam edirdi. Belə ki, Lur hakimi Zülfüqar xan hələ 1529-cu ildə bütün Ərəb İraqını tutub Osmanlı sultanına tabe olduğunu elan etmişdi. 1535-ci ildə Heratda, Gilanda, 1540-cı ildə Rüstamdarda, 1541-ci ildə Xuzistanda Şah hakimiyyətinə qarşı ixtişaşlar baş vermişdi. 1538-ci ildə Astrabadı Məhəmməd Saleh adlı bir nəfər tutub, özünü hökmdar elan etmişdir (188, 258). Bütün bunlar dövlətin mərkəzləşdirmə siyasətinə qarşı baş vermiş ixtişaşlar olub, onun üsyan, yaxud da xalq hərəkatı kimi şərh olunması doğru deyildir.

Tədqiqatlarda iradəsiz bir hökmdar kimi göstərilən Məhəmməd Xudabəndənin də (1577-1587) dövründə imperatorluğun siyasi və əsgəri təşkilatı türk tayfa bəylərinin əlində idi. I Şah İsmayılın qoyduğu ənənəyə uyğun imperatorluğun bütün vilayətlərində türk tayfa bəylərindən möhkəm dayaqlar yaratmaq kimi sabit daxili siyasət kursunu dövlət yenə də bacarıqla həyata keçirirdi. 1577-ci ildə çağırılmış qızılbaş toplantısında Məhəmməd Xudabəndə hakimiyyətə gətirildikdən sonra Mirzə Salman etimadəddövlə, Mir Şəmsəddin Məhəmməd Kirmani sədr, Şahruh bəy Zülqədər möhürdar, Qazi bəy Zülqədər eşikağasıbaşı vəzifəsinə təyin edildi. Məmaliki məhrusə Qızılbaş-Türk əyanları arasında bölündü. Əli bəy Zülqədər Şiraz, Pir Məhəmməd xan Ərdəbil, Türkman tayfasının Mosullu obasından Əmir xan Təbriz hakimliyini aldılar. Əmir xanın məsləhəti ilə qardaşları İsmayıl sultan, Şahqulu sultan, oğlu Sultan Murad və İbrahim sultan Piyada Türkman əmirlik rütbəsinə layiq görüldü və onlara Azərbaycanda ulkalar verildi. Şahın buyruğu əsasında Məhəmməd xan Toxmaq Ustaclı Çuxur-Sədə əmir əl-üməra göndərildi. İmamqulu xan Qacar yenidən Qarabağ əmir əl-ümərası, Araz xan Rumlu isə Şirvan bəylərbəyi vəzifəsinə təsdiq edildi. Rumlulardan Ərdoğdu xəlifəyə və o cümlədən bir neçə nəfər başqa əyana Şirvanda ulkalar verildi. Belə ki, Türkmanlardan Məhəmməd xan Kaşana, Əbulməsum

sultan Savəyə, Heydər sultan Quma bəylərbəyi göndərildilər. Türkmanlardan Murtuzaqulu xan isə Məşhəddə, Təkəlilərdən Museyib xan Reydə, Vəli xan Həmədanda öz vəzifələrində qaldılar. Rumlulardan Dəli Budaq Xoy, Şamlılardan Əliqulu xan Herat, Əfşarlardan Vəli xan Kirmana bəylərbəyi təyin olundular. 1586-1587—ci illərdə də Vəli xan Əfşarın Kirman valisi olduğunu görürük. Bu zaman oğlu Bektaş xan isə Yəzd valisi və Əfşarlardan Yusif xan isə Əbərguh hakimi idi. (80, 227; 128, 611-617, 813, 814).

Xorasanın bəzi mahallarına Həmzə xan Ustaclı, Vəliqulu xəlifə Şamlı və Şahqulu sultan Qarınca oğlu Ustaclı hakim göndərildilər (128, 596). Səbzəvardə isə Qubad xan Qacar hakimiyyətdə idi (128, 602). Gilanda Biye-Pəs, Biye-Piş hakimləri Cəmşid xanla Əhməd xan arasındakı yeni çəkişmələr, onların hər birinin bütün Gilanı öz hakimiyyəti altında birləşdirmək üçün Qəzvinlə apardıqları danışıqların heç bir nəticəsi olmadı. Gilanda separatizmin qarşısını almaq üçün bura yeni Qızılbaş-Türk əmirləri göndərilir. Vilayət Salman xan, Hüseynqulu sultan, Mustafa sultan Şərəfli (Ustaclı), Ayqut bəy oğlu Mehdiqulu sultan Çavuşlu (Ustaclı), Əhməd sultan Asayış oğlu (Ustaclı), Tanrıverdi xəlifə Kəngərli, Pirə Məhəmməd Ustaclının qohumlarından Əbülqasım sultan, Şahverdi sultan Çavuşlu, Şahverdi sultan Cəlaloğlu Çəpni, Qarınca oğlu Şahqulu sultan Ustaclı (Salman xanın ləl əsi) arasında bölündü. Cəmşid xanın bütün əmlakı hədiyyə qismində Qəzvinə göndərildi (128, 628, 629). Bu əmirlərin hakim təyin olunduqları vilayətlərdə türk el və oymaqlarından ibarət güclü dayaqldarı da vardı. Məsələn, Zülqədərlər hələ I Şah İsmayılın dövründə Farsa köçürülüb yerləşdirilmişdi və Məhəmməd Xudabəndə dövründə də bu bölgənin aşağıdan-yuxarıya bütün vəzifələri onların bəylərinin əlində idi.

Ancaq I Şah Abbas imperatorluqda XVI yüzilliyin 80-ci illərində baş vermiş separatizmin qarşısını almaq və hakimiyyəti möhkəmləndirmək məqsədi ilə qeyri-türk el, oymaq əmirlərinə də dövlət idarəetmə orqanlarında vəzifələr vermişdi. Lakin onun sələflərindən fərqli olaraq qeyri-türk əsilzadələrini hakimiyyətə gətirməsi, dövlətin milli mahiyyətini dəyişə bilmədi. Ona görə ki,

dövləti quran da və onu qoruyub saxlayan, yaşadan da türklər idilər. Pyetro della Vallenin yazdığı kimi I Şah Abbasın dövründə də ölkənin əsilzadələri, əsgəri təşkilatı da onlardan ibarət idi (86, 50). Elə buna görə, Şah Abbas da ata-babalarının ənənəvi daxili siyasət kursuna etinasız qalmadı. Belə ki, o, imperatorluğun cənub-şərqində yerli dayaqlarını möhkəmləndirmək üçün Şirvandan bir çox oymaqlar köçürüb bu bölgələrdə yerləşdirdi. Eyni zamanda, Qarabağdakı Otuz iki, Qazaxlar, Şəmsəddinli oymaqlarından xeyli əhali Mazandaran və Farsa köçürülmüşdü. Şərqi Anadoludan 1612-ci ildə Azərbaycana köçən Silsüpürlər Savə, Rey və Firuzguh tərəfdə yerləşdirilmiş (67, 153, 154). Bütün bu faktlar sübut edir ki, XVI yüzillikdə olduğu kimi, XVII yüzillikdə də dövlətin daxili siyasət kursundakı ənənələr əsasən qorunub saxlanmaqla hakimiyyətin əsas dayaqları Qızılbaş-Türk elləri olmuşdu. F.Sümərin yazdığı kimi, Türk oymaqları əskisi kimi dövlətin ana dirəyi vəsfini daşımış və əhəmiyyətini mühafizə etmişlər (67, 49).

XVII əsrin 50-60-cı illərində Gürcüstanda dövlət hakimiyyətinə qarşı çıxışlar, mərkəzdənqaçma hərəkatları başlamışdı. Bunu hərbi yolla tam həll etmək mümkün olmadıqda, ənənəvi daxili siyasət kursuna uyğun köçürmələrlə yerli dayaqlar yaratmaq tədbirlərinə üstünlük verilmişdi. Məhəmməd Yusif Qəzvini yazır ki, II Şah Abbas (1642-1664) 1658-ci ildə Azərbaycan və Qarabağın elat əhalisinin bir qisminin Kaxetiyaya köçürülməsi haqqında göstəriş vermişdir. Şahın göstərişinə əsasən 15 min elat əhalisi həmin əraziyə köçürülüb və burada dövlət hakimiyyəti üçün davamlı dayaqlar yaradılmışdır. Mənbədə bu bölgəyə köçürülən elat əhalisinin xeyli hissəsinin qala və şəhərlərdə yerləşdirildiyi göstərilmişdir. Mənbədən aydın olur ki, müxtəlif ədəbiyyatlarda köçəri, tərəkəmə adı ilə verilən bu türkmən oymaqları bölgəni qorumaqla yanaşı burada qalalar, şəhərlər salır, əkinçiliklə, təsərrüfatla məşğul olurdular. Şah onlara Kaxetiyanı abadlaşdırmağı da tapşırmışdı (128, v.271a).

Qaynaq materiallarının tədqiq və təhlili sübut edir ki, I Şah Abbas və ondan sonra da hakimiyyətdə olmuş Səfəvi şahları dövründə Səfəvi dövlətini sosial, hərbi-siyasi baxımdan türklər

qurduğu kimi, onlar da qoruyub saxlayır və yaşadırdılar. Ancaq bir çox qərb və şərq ölkələri, xüsusilə İran tarixçiləri qaynaq materiallarını birtərəfli təhlil edərək, zəngin mədəniyyətə, dövlətçilik təcrübəsi, idarəetmə istedadına sahib olan xalqımızın tarixinin bəzi məsələləri ilə yanaşı, Səfəvilərin soykökü, Azərbaycan Səfəvi dövlətinin yaranması, onun müxtəlif təkamül mərhələlərində dövlətin mahiyyətini təhrif edərək saxtalaşdırmış, bu dövləti Azərbaycan yox, «İran», «Fars» dövləti kimi xarakterizə etmişlər. Lakin ciddi tarixçilərin əsərlərində bu cür yanlış fikirlər qəbul olunmur. Tarixçilikdə Səfəvi şahlarının soykökü ilə bağlı mübahisə doğuran məsələləri O.Əfəndiyev yenidən araşdırmış və o, mötəbər qaynaqlardan əldə etdiyi materiallar əsasında düzgün elmi məntiqi nəticələr əldə edə bilmişdir. Müəllif bu məsələ ilə bağlı fikirlərini yekunlaşdıraraq qeyd edir: «Səfəvilər sülaləsinin əzəldən kürd, yaxud İran (yəni fars) mənşəli olması haqqında ehtimal da mötəbər mənbələrin məlumatlarına əsaslanmır. Həm də Şeyx Səfiəddinin türk etnosuna mənsub olması çətin ki, şübhə doğura bilər» (20, 33-35). Səfəvilərin soykökünün türk olması haqqında Seyidağa Onullahinin də tədqiqatlarında tarixçilik üçün həm maraqlı və həm də yeni məlumatlar vardır. Müəllif XIV yüzillikdə yaşamış Təvəkkül ibn İsmayıl ibn hacı əl-Ərdəbilinin «Səffat əs-Səfa» adlı əsərinə istinad edərək yazır: «Şeyx Səfiəddin bu ləfz ilə buyurdu – Ey xüləfa camaatı, Xacə Səfiəddinə dua edin ki, rəhmətlik Şeyx Zahidin və mən türkzadənin (türk oğlunun) taxtını aparmışdır» (54, 90). Seyidağa Onullahi olduqca elmi əhəmiyyətli olan bu fikirə istinad edərək Səfəvilərin soykökünü kürdləşdirməyə, yaxud da farslaşdırmağa çalışan tarixçilərə tutarlı cavab verərək göstərir ki, Şeyx Səfiəddin türk olduğunu hər halda onlardan daha yaxşı bilərdi (54, 90).

Məhəmmədəli Tərbiyət öz əsərində Şeyx Səfiəddini Azərbaycanın məşhur ariflərindən olduğunu göstərməklə yanaşı, onun yeganə nüsxəsinin vaxtilə Ərdəbil kitabxanasında saxlanılan və «Qara məcmuə» adı ilə məlum olan əsərin müəllifi olduğunu qeyd etmişdir (38, 116). Adından da göründüyü kimi, əsəri Şeyx Səfiəddin öz doğma dilində, yəni türk dilində yazmışdır. O, türk dilində şeirlər də yazmışdır ki, bu barədə dövrün müxtəlif qaynaq-

larında məlumatlar verilmişdir. Doktor Hüseyn Məhəmmədzadə Sədiqinin hazırlayıb nəşr etdirdiyi Şeyx Səfiəddin Ərdəbilinin «Qara məcmuə» adlı əsərində şeyxin türk dilindəki şeirlərindən nümunələr verilmişdir:

Qoydu üz könlümə qəm ləşkəri hamun-hamun,
Qara baydağlı ələmlər ucu gülgun-gülgun,
Çağırırdım qatı avaz ilə:-Leyli, Leyli!
Dağ səs verdi cavabında ki:- Məcnun, Məcnun!
Gözlərimdən yana od tutladı duzəx-duzəx,
Cigərimdən yana qan qaynadı Ceyhun-Ceyhun,
Bu nə viranə könüldür, Səfi, ey vay-ey vay!
Sərvlər var idi bu bağidə mövzun-mövzun (57, 14).

İsgəndər bəy Münşi Türkmən yazır ki, Şeyx Səfiəddin gənc yaşlarında mükəmməl təhsil aldıqdan sonra mənəvi aləmlərin çətinliklərini dərk etmək üçün bir mürşid axtarmağa başlamış və elə bu istək onu dövrün böyük bilim adamı olan Şeyx Nəcibəddin Bozquş Şirazi ilə görüşmək üçün Şiraza aparmışdı. Ancaq Şeyx Səfiəddin Şiraza çatdıqda, artıq Şeyx Nəcibəddin Bozquş vəfat etmişdi. O, Şirazın böyük üləmalarından biri olan Mövlanə Rəziəddinin yanına gedib, onun yanında müqəddəs Qurani-Kərimin əz-Zilzal surəsinə qədər təfsirlərində iştirak edir. Sonra Şeyx Sədi Şirazi ilə də görüşüb söhbət edir, ancaq Şeyx Sədi ilə fikir mübadiləsi onun əziz xatirinə xoş gəlmir. Şirazın üləmalarından Əmir Abdulla Şeyx Səfiəddinin böyük fəzilət sahibi olduğunu gördükdə, ona deyir: «Ey gənc türk! Ciddi səyin, zahidlik və ucalığın sayəsində sənin üçün hasil olanlar bizim mərifət gözümüzə çatmayıbdır… Bu gün sənin gözündən pərdəni götürüb, məqsədinə tərəf yönəldən bir adam varsa, o da ilahi elmlərini bilən Şeyx Zahid Gilanidən başqa bir kimsə deyildir… Şeyx Səfiəddin fars şeyxləri ilə xudafizləşib vətənə tərəf döndü» (80, 12; 128, 26, 27).

XVI yüzillikdə yazılmış və müəllifi məlum olmayan «Aləm aray-i Səfəvi» adlı qaynaqda isə qeyd olunur: «Şeyx Zahid Gilani Şeyx Səfinin gəldiyini biləndə adı Şeyx Cəmaləddin olan böyük oğluna dedi ki, ey oğul, get büqün içərisində… cavan türk namaz qılır; ona de ki, ağam Şeyx Zahid səni çağırır… Bayram günü gör-

dülər ki, həzrət Şeyx Zahid qırx günlük ibadətdən sonra bayıra çıxıb cavan türkün (Şeyx Səfinin) əlindən tutaraq büqə gəldi» (116, 11-12). Dövrün qaynaqlarındakı bu məlumatlar Səfəvi şahlarının babalarının kökcə türk olduqlarını nəinki təsdiq edir və həm də tarixçilikdəki bu məsələ ilə bağlı mübahisələrin də əsassız olduğunu göstərir. V.V.Bartold da orta çağın unikal qaynaqlarındakı tutarlı faktlara istinad edərək yazır ki, Ərdəbil şeyxləri, şübhəsiz fars deyil, türk mənşəlidirlər (147, t.2.ç.1., 748). Bu fikiri əsasən qəbul edən İ.P.Petruşevski isə yazır ki, XVII əsrə qədər Qızılbaş dövlətini «Fars», «İran», «Yeni İran» adlandırmaq düz deyildir. Hansı ki, bu səhvə təkcə Avropa deyil, bir çox sovet tarixçiləri də yol verirlər (181. 70).

İsgəndər bəy Münşi Türkman I Şah Təhmasibin vəfatı əsnasında Ustaclı, Şeyxavənd və Türkman, Əfşar, Rumlulardan ibarət iki firqə arasındakı münasibətləri şərh edərkən «Türk ellərinin adlı-sanlı əmirləri, əyanları, ağsaqqalları uca taxt-tacın dayağı idilər» (80, 119) -deyə yazdıqları dövlətin milli mahiyyətinə onun tərəfindən verilən doğru, təkzibolunmaz qiymət olub, tarixi gerçəkliyi özündə əks etdirir. Həm də F.Sümərin yazdığı kimi Səfəvi Türk əmirləri arasında türkcə ad və ləqəb daşıyanlara çox sıx rast gəlinir. Onlar Osmanlı bəy və paşalarından və hətta digər Türk dövlətlərinin əmirlərindən daha çox türkcə ad və ləqəb daşımışlar. Hökumətin mərkəzinin Təbrizdən Qəzvinə, sonra da İsfahana köçürülməsinin Türk milli kültürü baxımından mənfi bir təsiri olmamışdır. Səfəvi türkləri özlərinin Türkman olduqlarını bilir və onun şürunu daşıyırdılar. Səfəvi dövlətini quran və yaşadan türklər Qızılbaş, yaxud da türk adlanırdı. Bu deyim təkcə dövlətin əsgəri baxımdan dayandığı türk ünsürü adını ifadə etmir, həm də onun qurduğu, yaşatdığı dövlətə «Dövlət-i Qızılbaş» və hakim olduğu yerə «Ölke-i Qızılbaş» deyilirdi (67, 149, 150, 151).

İ.P.Petruşevski XVI yüzilliyin əvvəllərindən I Şah Abbasın islahatlarına qədərki dövrdə dövlət aparatında və qoşunda rəhbər rolun azərbaycanlıların ixtiyarında olduğunu bildirməklə yanaşı, bir sıra başqa tarixçilər kimi, XVII yüzilliyin əvvəllərindən etibarən dövlətdə iranlılaşma prosesinin başlandığını və bunun XX əsrin I

rübündə başa çatdığını bildirərək yazır: «Şah Abbasın dövründən Qızılbaş dövlətinin milli fars dövlətinə çevrilməsinin ilkin şərtləri yaranır ki, bu ancaq Zaqafqaziya, Türkmənistan, Əfqanıstan itirildikdən sonra, XX əsrdə başa çatır» (181, 72). Əslində müəllifin bu fikri dövrün tarixi gerçəkliklərindən çox uzaqdır. Doğrudur, I Şah Abbas (1587-1629) imperiyada mərkəzdənqaçma hərəkatlarının qarşısını almaq üçün dövlət idarələrinə yeni əmirlər gətirdi, ancaq bunların bir çoxu kiçik yaşından müsəlman dinini qəbul etmiş, Səfəvi sarayında tərbiyə almış türkdilli gürcü, çərkəz uşaqları idilər. İstər onların və istərsə də bir çox fars əyanın idarəçiliyə cəlb olunması qızılbaşların hakimiyyətdə mövqelərinə əsaslı zərbə vura bilməzdi. I Şah Abbas əslində yeni daxili siyasət kursu ilə qeyri-türk əsilzadələrindən müəyyən sayda əmirin hakimiyyətə cəlb etməsi, onlarla bağlı mərkəzdənqaçma hərəkatlarının qarşısının alınması və dövlətin daha da möhkəmləndirilməsi məqsədini güdürdü.

Doğrudur, Oruc bəy Bayat yazdığı kimi, I Şah Abbas andiçmə mərasiminin növbəti günü şahlığın idarə olunmasının təmin edilməsi üçün zəruri olan Dövlət Şurasının yaradılması bəhanəsi ilə xanlara və əmirlərə müraciət edərək onları məsləhətləşmək üçün saraya dəvət etmiş və iyirmi iki nəfər Qızılbaş əsilzadə sarayda ölüm cəzasına məhkum olunmuşdu (165, 127, 128). İskəndər bəy Münşinin əsərində I Şah Abbasın hakimiyyətinin ilk illərindəki daxili siyasəti ilə bağlı materialların təhlilindən aydın olur ki, 1587-ci ildə Qızılbaş-Türk əmirlərinin qətlində I Şah Təhmasib dövründə baş vəzir olmuş və Qızılbaşlar arasında fitnəkarlıqla məşğul olduğuna görə edam edilmiş Mirzə Salmanın oğlu Mirzə Abdulla əsas rol oynamışdır. O, Abbas Mirzəni hakimiyyətə gətirən Ustaclı əmiri Mürşüdqulu xanı aradan götürmək, Qızılbaşların hakimiyyətinə zərbə vurub onu zəiflətmək üçün bir neçə Qızılbaş əmirini ələ alıb yuxarıda qeyd olunan əmirlərin qətli ilə nəticələnən fitnəkarlığı törədə bilmişdir. O, hakimiyyətdəki gərginlikdən istifadə edib, baş vəzir vəzifəsini tutmağa da cəhd göstərmiş, ancaq buna müvəffəq ola bilməmişdir. I Şah Abbas həyata keçirdiyi bu cəza tədbirləri ilə hakimiyyətin möhkəmləndirilməsinə tam müvəffəq ola bilmədi. Ona görə ki, bu zaman Gilan, Luristan, Mazandaran, Astrabad,

Kaşanda baş qaldırmış separatizm dövlətin möhkəmləndirilməsi, mərkəzləşmə siyasətinin həyata keçirilməsinin qarşısında ciddi çətinliklər yaradırdı. Məhəmməd Yusif Qəzvinin yazdığı kimi hələ 1580-ci ildə Kuhgiluyədə Elvar (Lurlar) arasında zühur edən qələndər özünü II Şah İsmayıl adlandırmışdı. Dediyinə görə Halvaçı oğlu Hüseyn bəyin evində yatarkən ev mühasirəyə alınmış və pəncərədən qaçıb canını qurtarmışdır. Guya qəsdçilər ona oxşar qulamı qətl edib əmirləri II İsmayılın ölümünə inandırmışdılar. O, bu yalan və böhtanla Luristandakı separatçıları öz ətrafına toplasa da, I Şah Abbas zamanı qiyam tam yatırılır. İkinci yalançı da İsmayıl adı ilə yenə Luristanda peyda olmuş, ətrafına lurları, kürdləri toplamışdı. Bu hüdudda mahal hakimi olan Solaq Hüseyn qiyamı tezliklə yatırmış, yalançını həbs edib Qəzvinə göndərmişdi. Talışda yenə İsmayıl adı ilə zührr edən yalançı insanlarda özünə inam yaratmaq üçün «babalarının» qəbrini ziyarət adı ilə Ərdəbilə getmiş və orada öldürülmüşdü. Dördüncü isə qurların içərisindən çıxmışdı. Fərah hakimi Əfşar Hüseyn xan qiyamçılarla savaşda öldürülür. Hüseyn xanın Təklə qorçularının yüzbaşısı olan qardaşı Əlixan bəy Fərah hakimi təyin edilmiş, o da qiyamçılara qarşı döyüşdə qətlə yetirilmişdi. Şah Fəraha Yeqan sultan Təkləni hakim statusu ilə göndərdi və ona qiyamın tezliklə qarşısını almağı tapşırdı. Ancaq o, Fəraha çatana qədər yalançı öldürülür (128, 639-646). Sonuncu üç qiyamın qarşısı I Şah Abbasa qədər alınsa da, bu qiyamların baş vermiş olduğu bölgələrdə yenə də mərkəzdənqaçma hərəkatı kimi səciyyəvi olan çaxnaşma davam edirdi. Elə buna görə də Şah bu bölgələrə qoşun yeritdi, məhəlli əmirlikləri, yerli sülalələr devrildikdən sonra, Gilan (1592) və Mazandaran (1596) xassə əmlakına çevrildi. Bu bölgələrdəki separatizmin qarşısı alındıqdan sonra Şah bir tərəfdən Gilana, Luristana, Mazandarana, Astrabada, Kaşana qızılbaşlardan hakimlər təyin edir, digər tərəfdən isə gələcək mərkəzdənqaçma hərəkatlarının qarşısını almaq üçün onların əsilzadələrinə hakimiyyətdə qismən də olsa, yer vermək zorunda qalmışdı. Ancaq bununla paralel özündən əvvəlki Qızılbaş hökmdarlarının ənənəvi daxili siyasətini də unutmadı. O, Özbək Abdulla xanın Xorasan yürüşlərinin qarşısını aldıqdan sonra, burada

əvvəlki Səfəvi şahlarının yerləşdirdiyi Türk-Qızılbaş Şamlı tayfasının güclənməsinə yaratdığı şəraitlə, I Şah İsmayılın daxili siyasətinə sədaqətini də nümayiş etdirdi. O, Hüseyn xan Şamlını Herata, Qorxmaz xan Şamlını Həmədana bəylərbyi vəzifəsinə təyin etdi (165, 127-137; 80, 381, 384; 188, 272). Göründüyu kimi, şahın rəyi və zamanın tələblərinə uyğun olaraq məmaliki məhrusənin tərkibindəki bütün inzibati idarəetmə hakimlər kökcə türk olan böyük əmirlərdən, qoyulmuşdu. I Şah Abbasın daxili siyasəti iranlılaşdırma işinə yox, dövlət hakimiyyətinin möhkəmləndirilməsinə xidmət etmişdir. Azərbaycan Səfəvi dövlətinin görkəmli dövlət xadimi I Şah Abbasın (1587-1629) Səfi Mirzə, Sultan Məhəmməd Mirzə , İmamqulu Mirzə, Təhmasib Mirzə adlı dörd oğlundan birinci gənc yaşında ölüm cəzasına məhkum edilmiş, ikinci və üçüncü şahzadə zəif görür, dördüncü isə öz əcəli ilə vəfat etmişdi. Buna görə də, darüssəltəne-ye İsfahanda böyük əmirlərin toplantısında Şah Abbasın təklifi ilə mərhum Səfi Mirzənin kiçik yaşlı oğlu Sam Mirzə vəliəhd təyin edilmişdi. Şah Abbas 21 yanvar 1629-cu ildə Mazandaranda vəfat edir. Onun vəsiyyətinə sadiq olan böyük əmirlər I Şah Abbasın vəliəhd barədəki vəsiyyətnaməsinə, etimaddövlə və qorçubaşının ona uyğun tərtib etdikləri rəsmi sənədə istinad edib, Sam Mirzəni Şah Səfi adı ilə 29 camadiyoləvvəl h. 1038 (1629)-cı ildə şahlıq taxtında oturtdular. (81,6,7;108,235; 130,78). Ancaq Şah Abbas kimi qüdrətli bir dövlət xadimindən sonra 2,8 mln. $km^2$ ərazini əhatə edən imperatorluğa başçılıq etmək o qədər də asan deyildi. Şah Səfi (1629-1642) taxta oturduğu andan çətinlikləri nəzərə alıb imperiya miqyasında sabitliyi qoruyub saxlamaq məqsədilə hökm etdi ki, Şah Abbasın dövründə kimə ki, vəzifə verilmiş, məvacib təyin edilmişdi onlara toxunulmayacaq (130,81). O, bütün sosial zümrələrin maddi maraqlarını əhatə edən fərmanlar, buyruqlar vermiş, onların etimadını qazanıb hakimiyyətini möhkəmləndirməyə çalışmışdır. "Zeyl-i tarix-i alamaray-i Abbasi" də qeyd edilir ki, I Şah Səfi hakimiyyətinin ilk ilində İraq, Xorasan, Qəndəhar, Mərv, Azərbaycan, Şirvan, Qarabağ, Gürcüstan, Fars, Kirman, Gilan, Bağdad, Ərəbistan, Kürdüstan, Sistan və digər ölkələrdən ibarət olan məmalik-e məhrusənin "tabe olan

ölkələr" bəylərbəylərinə, vilayətlərin adlı-sanlı əyanlarına tutduqları vəzifələrə və nüfuzlarına uyğun olaraq qiymətli xələtlər göndərildi. Eyni vaxtda seyidlərə, nəqiblərə, ülamələrə, müdərrislərə, nəcabətli adamlara, sərhəd qoşunları və qala qoruyucularının başçılarına ənam və hədiyyələr verildi(81,12-13). I Şah Abbasın hakimiyyətinin son illərində müharibələrin davam etməsindən mərkəzi aparatdakı məmurlar istifadə edib, qoşunun məvaciblərini neçə illər idi ki, ödəməyib xəzinəyə köçürmüşdülər. Şah Səfinin göstərişinə əsasən qoşunun ləngidilmiş məvacibinin dərhal ödənilməsinə başladılar. Hətta müxtəlif səbəbdən vəfat etmiş hərbçilərin məvacibləri ailələrinə ödənildi (81,13). Şah rəiyyətin ümumi vəziyyətini nəzərə aldı və onların xəzinəyə ödədikləri vergilərdən, qalmış 1500 tümən borc qalığının ləğvi qərara alındı(81,13; 108,236).

I Şah Abbasın dövründə ipək ticarəti dövlət nəzarətində olub, tacir və digər ipək alıcıları ipəyi divan məmurlarından təyin olunmuş qiymətə almalı idilər. Rəiyyət özbaşına ipək sata bilməzdi və belə bir hadisə baş verərdisə, həm alıcı, həm də satıcı bu əməliyyatdan xəzinəyə dəyən zərəri ödəməli olurdu. Şah Səfinin qoyduğu yeni qaydaya görə isə istər tacir və istərsə də qeyri alıcı ilə rəiyyət arasında qarşılıqlı razılıq əsasında sərbəst ipək alqı-satqısına icazə verildi ki, bu əməliyyata dövlətin maliyyə məmurları qarışa bilməzdilər. Rəiyyətin ipək alqı-satqısından qalan bir neçə min tümən borcu onlara bağışlandı, hətta bu zaman borcluların bəziləri vəfat etmiş və onların varisləri isə çox yoxsul olub bu borcu ödəməyə heç imkanları da yox idi(81,13). Beləliklə tacirlər və rəiyyətin rifahını yaxşılaşdırmaq üçün qərara alındı ki, ipək alqı satqısı tərəflər arasında sərbəst qaydada qarşılıqlı razılıq əsasında həyata keçirilsin (108, 236).

I Şah Səfi hakimiyyətinin ilk illərində yüksək vəzifələrdə çalışan dövlət məmurlarına toxunmadan həyata keçirdiyi bir sıra tədbirlərlə imperiya əhalisinin orta və aşağı zümrəsinin etimadını qazandıqdan sonra mülki, inzibati-hərbi idarələrdə vəzifələrə yeni təyinatlara dair fərmanlar vermiş, hakimiyyətini daha da möhkəmləndirməyə cəhd etmişdir. Onun göstərişi ilə h.1041(1632)-ci ildə baş vəzir Xəlifə Sultan tutduğu vəzifədən azad edilir. "Zeyl-i tarix-i

alamaray-i Abbasi" də qeyd edilir ki, ali divana h.1041-ci ildə vəzir yenə mərhum Hatəm bəy Nəsiri Ordubadinin oğlu Mirzə Talıb xan təyin olundu. Münşi əl-məmalik Mirzə Əbdülhüseyn türkcə yazmışdır: "Ginə (yenə) oldu vəzir Talıb xan"(81,91). Mənbədə Talıb xanı baş vəzir təyin edilməsi haqqındakı farsca qısa məlumatın türkcə bir cümlə ilə bitirilməsi Münşi əl-məmalikin bu barədə fərmanı türkcə yazdığının bəlli göstəricisidir. O, əbədiyyətə qovuşduqdan sonra bu vəzifəyə onun gənc yaşında olan, ancaq savadlı, qabiliyyətli böyük oğlu Talıb xan təyin edilmişdi. O, on il bu vəzifədə işləmiş və bəzən nöqsanlara yol verdikdə Şah onu görməməzliyə vurmuş və nəhayət tutduğu vəzifədən azad edilmişir. Bir müddət işsiz qalmış və dünya fatehi (I Şah Abbas ) vəfat etdikdən sonra yeni hökmdar (I Şah Səfi) onu vaqiyənəvis vəzifəsinə təyin etmiş və o, ali zümrəyə daxil olmuş(81,142-143) və getdikcə nüfuzu və vəzifəsi artmışdır. Və 1041 (1632)- ci ildə yenidən baş vəzir vəzifəsinə layiq görülür.

I Şah Səfi istər baş vəzir, istərsə də yüksək dövlət vəzifələrində çalışan bütün məmurların fəaliyyətinə ciddi nəzarət edir və vəzifə səlahiyyətini aşanlara, nöqsanlara yol verənlərə güzəştə getmirdi. Mənbədə göstərilir ki, baş vəzir Talıb xan h.1044(1635)-cü ildə evində yüksək təbəqədən olan məxsusi adamlarla söhbət edərkən Xorasan bəylərbəyi Həsən xan, eşikağasıbaşı Uğurlu xan Şamlı və Otar xan onun mənzilinə daxil oldular. Uğurlu xan və Talıb xanın damadı söhbət yasavulu Həsənbəy bərk sərxoş olmuşdu. Onların hər ikisi həmin gecə dövlətxana, hərəm, şahın yatdığı evin qaravolu növbəsində idilər. Sərxoş olduqları üçün keşikçibaşı Bəhram bəy Ustaclı ilə Talıb xanın damadı arasında mübahisə oldu. Mübahisə dərhal şaha da çatdırılır və onun göstərişi ilə Talıb xan, Uğurlu xan və Həsən bəy ölüm cəzasına mıhkum edilir. "Zeyl-i tarix-i alamaray-i Abbasi" nin verdiyi bu məlumatla tam razılaşmaq doğru olmaz. Ona görə ki, "Xülasət əs-siyər" də bu barədə verilmiş məlumatların təhlilindən aydın olur ki, görkəmli dövlət xadimi Talıb xan I Şah Səfinin şübhələndiyi yüksək vəzifəli əyanlara qarşı həyata keçirdiyi cəza tədbirlərinə etiraz etdiyinə görə edam edilmişdi. Ancaq bu hadisədə qətl olunanların ailəsinə Şah “mərhəmət”

göstərdi və əmlakları müsadirə olunmadı. Baş vəzir vəzifəsinə isə Mirzə Tağı (Sarı Tağı) təyin edildi. (81,145,146,148; 130, 89; 126, v. 74a)

Mənbələrin verdiyi məlumatlardan görünür ki, I Şah Səfi dövlətin ali mülki idarə sistemi ilə yanaşı, onun yüksək hərbi təşkilatına əyalət və mahallarda vəzifələrə əvvəlki Səfəvi şahlarının dövründəki kimi yenə türk əsilzadələrindən təyin etmişdi.

I Şah Səfinin hakimiyyətinin ilk illərində həyata keçirdiyi daxili siyasət kursu imperiya miqyasında sabitlik yaradılmasının, sərhədlərin təhlükəsizliyinin təmin edilməsinə xidmət edirdi. İmperiyanın bəzi bölgələrində hələ I Şah Abbas vəfat etdikdən separatizm yenidən baş qaldırmışdı ki, bütün bunların qarşısını almadan, yəni ölkəni içəridən möhkəmləndirmədən fəal daxili və xarici siyasətin də həyata keçirilməsi, sərhədlərin təhlükəsizliyinin təmin edilməsi çox çətin olardı. H.1039(1629)- cu ildə Gilanda özünü Cəmşid xanın oğlu adlandıran Qərib şah adlı biri zühur etmiş və o, "pozğun unsürlər", "lütlər", "qaragüruhçular" dan ibarət üç min nəfəri ətrafında birləşdirib bütün Gilanda iğtişaş törədib, Biye Piş, Biye Pas, Rüstəmdarı ələ keçirib, qətl və qarət törətməyə başlamışdı. Onlar  Rəşt istiqamətində hücum edib Biye Pası tutduqdan sonra Biye Pişə doğru hərəkət etmişdilər. İ.P.Petruşevski dövrünün ideoloji tələblərinə uyğun olaraq 1629-cu ildə Gilanda baş vermiş bu qiyamın "xalq üsyanı", "sinfi ziddiyətlərin kəskinləşməsinin parlaq təzahürü" hesab etməklə məsələyə tarixi gerçəklikdən yanaşmamışdır. Doğrudur, I Şah Abbasın vəfatından sonra Gilanda qiyamın baş verməsinə onun qeyd etdiyi kimi vergilərin ağırlığı təsir göstərmişdir. (188, 296, 297). Ancaq burada dövrün mənbələrində də qeyd olunduğu kimi bu hərəkatda vergi ödəyən əhali ilə yanaşı, "pozğun ünsürlər" və eyni zamanda separatist torpaq sahibləri də vardı. İ.P.Petruşevskinin özünün də " üsyançıların" Rəştə xəzinə anbarlarını dağıdıb iki yüz xarvar (50 min kq) xam ipəyi bölüşdürdükləri, hətta xəzinə anbarlarındakı (moskvalı və avropalı tacirlərə) aid malları da ələ keçirmələri haqqındakı qeydləri (188,297) qiyamda "pozğun ünsürlərin " üstünlük təşkil etməsindən xəbər verir. Gilanda divan vergilərinin təhvildarları, amillər, vəzir-

lər qiyamdan təşvişə düşüb canlarını ailələrini qorumaq üçün kənara çəkilmişdilər. Onların və digər imkanlı adamların, tacirlərin malları və s. qiyamçıların əlinə keçmişdi. Bu zaman Gilanda Biye Piş hakimi Bayramqulu sultan Mir Səfəvi vilayətin mərkəzi Dilmanda idi. Əksər Səfəvi qaziləri ailələrini götürüb Lahicandan Dilmana getmişdilər. Qərib şah boşalmış ölkəyə daxil olmuş və Rüstəmdara qədər adamlarını göndərib ona tabe olmalarını tələb etmişdir. Şah Səfi dərhal hökm verdi ki, Gilan hüdudlarında yerləşən bütün bölgələrin yəni Ərdəbil, Talış, Tarom, Xalxal və s. bölgələrin qorçu, qulam və məmurları Astara hakimi Sarı xan, Kəskən hakimi Georgi sultanın rəhbərliyi altında birləşib, bu fitnəkarları dəf etsinlər. Əmrə əsasən onlar birləşib Rəşt istiqamətində hərəkət etdilər. Kəhdom hakimi Məhəmmədi xan da onlarla birləşdi. Onlar Rəştə çatıb burada qiyamçıları məğlub etdilər. Qərib şah Lahicana sığındı (81,16). O, Ləştəneşa-Koçesfahandan keçib Səfidrud çayı sahilində gilanlılarla razılaşıb Tənkəbon ölkəsinə daxil olmaq fikrində idi. Bu zaman Gilanla Rüstəmdar arasındakı Tənkəbon hakimi Heydər sultan Qoyla Hisarlı (Rumlu obası) qalada nizam-intizam yaradıb, hasarları da möhkəmləndirmişdir. O, qaladan üç fərsəng aralıdakı çayın sahilində qiyamçıların qarşısını özünün bir dəstə qızılbaş qazısı ilə kəsdi. Qərib şah qazilərin əzəmət və igidliyindən ehtiyat edib çayı keçməyə cürət etmədi. Geri çəkildikdə onları təqib edən rumlular onun bir neçə nəfər döyüşçüsünü ələ keçirdilər. Bu zaman Dilmandan hərəkət edən Bayramqulu sultan Mir Səfəvinin qoşunu da yolüstü Qərib Şahın əsgərlərindən bir çoxunu qətl edir. Rəştdən gələn Səfəvi qaziləri də onlarla birləşdi və nəticədə çox itki verən Qərib şahın başçılıq etdiyi qiyamçılar Ləştəneşaya doğru qaçdılar. (81, 17). Özünü "xan", "sultan" adlandıran quldurlar və Qərib şah da burada tutulub İsfahana göndərildi və onlar dara çəkildilər. Gilanda özünü Qərib şahın qardaşı Cəmşid xanın nəvəsi adlandıran Adil şah adlı biri də peyda olmuşdu. Mazandaran və Gilan vəziri Mirzə Tağı (Sarı Tağı) Adil Şah və onun bir neçə nəfər tərəfdarını ələ keçirə bildi. Nəticədə Gilanda və Mazandaranda sakitlik tam bərpa olundu (81, 18; 108, 236-237; 130, 82)

I Şah Səfinin hakimiyyətinin ilk ilində Gilanla yanaşı, imperiyanın Cənub-Qərbində Kic-Mokran əyalətində də yerli hakim separatist mövqedən çıxış etməyə başlamışdı. Bu əyalət bir tərəfdən Nimruz və cəzire-ye Hörmüz və digər tərəfdən Kirman və başqa tərəfdən isə Sistan vilayəti ilə həmsərhəd idi. Hələ I Şah Abbas dövründə Kirman hakimi Gəncəli xan qızılbaş qoşunu ilə Kic-Mokrana daxil olub, hərbi-strateji əhəmiyyət kəsb edən məntəqələri tutmuş və nəticədə vilayətin valisi Məlik Şəmsəddin Səfəvi dövlətinə tabe olmuşdu. Mokran valisi Məlik Mirzə və ondan sonra həmin nəsildən məlik İxtiyarəddin İsfahana gəlmiş itaətlərini ərz etmiş və hörmətlə qarşılanmışdılar. Vilayətin havası qızılbaşlar üçün münasib olmadığına görə oradan türk tayfalarından qoşun yerləşdirilib dayaq yaradılması baş tutmadı. Bundan vilayət hakimi istifadə etmiş, Şah Səfi hakimiyyətə keçəndə tac qoyma mərasiminə gəlməmiş və hədiyyə də göndərmişdir. Şahın göstərişi ilə Sistan hakimi Məlik Cəlaləddin xanın oğlu Həmzə xan Sistan qoşunu ilə Mokrana daxil oldu. Məlik Mirzə hərbi qüvvəsinin azlığından ehtiyat edib Qəzvinə gəlmiş və şahdan Mokranın ona irsi hakimiyyət hüququ ilə verilməsini xahiş etmişdi. Bunun müqabilində tabe olacağını və hər il 300 təbriz tüməni məbləğində xərac ödəyəcəyini, həm də saraya hədiyyələr göndərəcəyini vəd etmişdi. Doğrudur, Şah onun xahişini sözdə nəzərə almış, ancaq Mokran əslində ona Kirman hakimi Əmir xan Qorçubaşının zamin durması şərti əsasında həmesale hüququ ilə verilmişdi (81,132-133).

I Şah Səfi hakimiyyətdə olduğu 14 il ərzində Gilan, Mazandaran, Kic-Mokrandakı separatizmin qarşısını almış, vergilər, rəiyyətin borc qalıqları, ipək ticarəti, vəzifələrə təyinatlar, məvacib, tiyul və soyurqallara aid verdiyi fərmanların vaxtında icra edilməsinə nəzarət edərək mərkəzi hakimiyyəti xeyli möhkəmləndirə bilmişdi. Ancaq xarici siyasətində uğursuzluğa da düçar olmuşdu. 1639-cu ildə Ərəb-İraqını Osmanlı dövlətinə güzəştə getməyə məcbur olmuş, Qəndəhar vilayətini isə Böyük Moğol dövləti ələ keçirmişdi. Şah Səfinin 12 səfər h.1052(1642)-ci ildə Kaşanda vəfatından çox keçmədi ki, Sarı Tağı ayaması ilə məşhur olan baş vəzir Mirzə Tağının rəhbərliyi ilə dövlət şurasının iclası çağırıldı. O

cümlədən hakimiyyətə namizəd irəli sürülməsi məsələsi ilə bağlı qızılbaş əmirlərinin də toplantısı oldu. Şah Səfinin 5 oğlu vardı ki, onlardan yaşca daha böyük olanı şahzadə Sultan Məhəmməd on yaşında idi. Ümumi razılıq əsasında onun namizədliyi dəstəklənir. Qızılbaş əmirlərinin rəyi ilə 16 may 1642-ci ildə (16 səfər 1052) Sultan Məhəmmədin ikinci Şah Abbas adı ilə Kaşanda tacqoyma mərasimi keçirildi. (125a, 3,7,15,16).

Molla Kamal yazır ki, II Şah Abbas hakimiyyətə keçdikdən sonra özünün ilk fərmanı ilə məmalik-i məhrusədə şərabxanaların bağlanması və şərab anbarlarının dağıdılmasını əmr edir. Bu hökmə əsasən Şirazda sərkare xassəyə aid olan şərab çəllləkləri yerə axıdılır. Həm də borc dəftərlərində illər üzrə qeyd olunmuş vergi qalıqları silinir, yəni rəiyyət və sənətkarlar 1642-ci ilə qədər Şahlıq xəzinəsinə qalan borclarından azad edilirlər (130, 98). O, hakimiyyətinin ilk günlərindən sarayı fitnəkar, özbaşına adamlardan azad edib xalqın rəğbətini qazanır. Bu istiqamətdə fəaliyyətini davam etdirib bütün nahiyələr üzrə əhalinin illərlə yığılıb qalmış 500 min tümən vergi borcunu onlara bağışladı və beləliklə, bütün məmləkət əhalisinin qəlbini ələ aldı. Rəiyyəti ağır işlərdən azad etdi. Bütün vilayət və mahal hakimlərinə fərman verildi ki, bundan sonra əhali ilə ədalətlə rəftar etsinlər (125a, 7,16)

II Şah Abbasın dövründə mərkəzi mülki, hərbi-inzibati idarələrdə, hakimiyyətin əyalətlərdə həyata keçirilməsində Qızılbaş-Türk əsilzadələri öz əvvəlki üstünlüklərini qoruyub saxlayırdı. Ancaq bu zaman əyalət hakimləri arasında çox nadir hallarda qulam hərbi əsilzadələrinə də təsadüf edilir ki, onlar türkləşmək zorunda qaldıqlarına görə qızılbaşların yerli idarəçilikdə mövqelərini zəiflətmir, bəlkə də möhkəmləndirirdilər. H. 1044(m. 1634-1635)-cü ildə qulam əsilzadələrindən Rüstəm xan Azərbaycan əyalətinə bəylərbəyi təyin edilmiş ancaq o, 1643-cü ildə tutduğu vəzifədən azad edilmişdi (128, v. 95, 98a, 134 a-b). Azərbaycana bəylərbəyi Qızılbaş-Türk əsilzadələrindən Şahbəndə xan Türkmanın oğlu Pirbudaq xan göndərilmişdi. Onu da qeyd etmək lazımdır ki, qulamlar içərisindən çıxmış məmurların dili türkcə olub, qızılbaşların yerli idarəçilikdə nüfuzuna təsir göstərmək iqtidarında

deyildilər. Dini divanda Şeyxavəndlə qohum olan seyidlər üstünlük təşkil edir, onlara nəzarət divanında da vəzifələr verilirdi. Qəti şəkildə demək olar ki, II Şah Abbasın dövründə bu dövləti yaradan hərbi-siyasi qüvvə onu qoruyub saxlayırdı.

Türk və ərəb dillərində mükəmməl təhsil almış Oruc bəy Bayatın yazdığına görə, İspaniyada olduğu kimi, Səfəvi ölkəsində də nəcabətli əyanlara – əsilzadə, yəni Avropada qraf, markiz, hersoq, Azərbaycan və İranda isə bəy, sultan, xan titulları verilirdi. Ancaq müəllif, Səfəvi ölkəsində bu rütbələrin daşıyıcılarının 32 türk-qızılbaş tayfa əyanları olduğunu göstərmişdir. Müəllifə görə, Şahın ən yüksək və şərəfli xidmətçiləri Ustaclı, saray nazirləri Şamlı, ədliyyə nazirləri (divanbəyi) Əfşar, hərbi rəislər Türkman, hersoqlar Bayat, Təkəli, Zülqədər, Çavuşlu, qraflar Asayışlı, Baharlı kimi Qaraqoyunlu tayfa əyanlarından idilər. Eyni zamanda, vilayət və şəhərlərə də hakimlər bu 32 türk tayfa və oymaqların nəcabətli ailələrindən çıxmış əsilzadələrdən təyin olunurdular. Müəllifin qeydlərindən məlum olur ki, I Şah Abbasın və ondan sonrakı Səfəvi şahlarının dövründə də bütün imperatorluğun əsilzadə sosial zümrəsi Türk-Qızılbaş əyanlarından ibarət olmuşdur (79, 67-69; 165, 31).

V.Minorskiyə görə, Səfəviləri hakimiyyətə gətirən və onların hakimiyyətinin qoruyucusu, dayağı olan Qızılbaş tayfa əsilzadələrinin XVI əsrin 80-ci illərində siyasi nüfuzunun güclənməsi Şah hakimiyyətinin özülünü zəiflətdiyinə görə, artıq dövlət özünün bütün gücü ilə ilk tərəfdarlarına qarşı mübarizəyə başlamışdı. I Şah Abbas islamı yeni qəbul etmiş və əksəriyyəti gürcü olan qulamların köməyinə arxalanaraq, Qızılbaş tayfa əsilzadələrini zəiflətməyə müvəffəq olub, hakimiyyətinin möhkəmləndirilməsində müəyyən uğur qazanmışdı (103, 19). Ancaq hadisələrin sonrakı gedişi göstərir ki, I Şah Abbas təkcə ali hakimiyyətin mərkəzi strukturlarında çalışan yaşlı Qızılbaş əsilzadələrinin hüquqlarını məhdudlaşdırmaqla dayanmamış, o. əhalisinin çoxu qeyri-türklərdən ibarət olan Gilanda, Mazandaranda, Luristanda məhəlli sülalələri ləğv etmiş və bir çox senyor mülklərində isə irsi hakimlərin hüquqlarını da tam məhdudlaşdırmışdı. Göründüyü kimi, I Şah Abbas öz daxili siyasətində dövlətin milli mahiyyətini dəyişmək fikrində olmamış, əslində

onun möhkəmləndirilməsi tədbirlərini həyata keçirmişdir. Onun özünün hakimiyyəti zamanı və ölümündən sonra da Türk-Qızılbaş əyanları dövlətin idarə olunmasında öz mövqelərini əsasən qoruyub saxlaya bilmişdilər. Dövrün qaynaqlarından İskəndər bəy Münşi Türkmanın «Tarix-i alamara-yi Abbasi» adlı əsərində türk və qeyri-türk tayfaları və onların mərkəzi və yerli idarələrdə qulluqda olan əmirlərinin sayı haqqında 1576, 1628-ci illər üzrə iki siyahı vardır. Bu siyahılar üzrə hərtərəfli müqayisəli təhlillər taixçilikdə bu günə qədər XVI əsrin sonu – XVII əsrin əvvəllərində Səfəvi dövlət quruluşunda türk soylu qızılbaşların sıxışdırılması və qeyri-türk elementlərinin rolunun artması ilə bağlı olan fikirin əksini göstərir və I Şah Abbasın kadr siyasətinin sadəcə dövlət hakimiyyətinin möhkəmləndirilməsi məqsədini güddüyünü isbat edir.

I Şah Təhmasibin hakimiyyətinin son ilinə aid olan siyahıda Şamlı, Ustaclı, Türkmən, Rumlu, Zülqədər, Əfşar, Qacar, Təklə, Xunusludan ibarət türk tayfaları mərkəzi və yerli idarələrdə çalışan əmirlərinin sayına, tutduqları vəzifələrin əhəmiyyətinə görə birinci yerdə dayanırdılar. Bu doqquz tayfaya cığataylar, yəni zahirən türk-moğol qəbiləsi, yaxud əslən Mərkəzi Asiyadan olan türk ailələri də əlavə olunmalıdır. Türk tayfalarından sonra Talış, Kürd (Ruzəki, Siyah-Mənsur, Pazuki, Ərdalan, Çəkəni, Lur (Abbasi) aşirətləri gəlir. Sonuncu yerdə isə Şeyxavənd (Səfəvi sülaləsinə qohum olan şəxslər) və Seyid Kəmunə ailəsi dururdu. İsgəndər bəy Türkmanın yazdığına görə böyük əmirlər, yüksək dərəcəli xanlar, böyük və kiçik sultanlardan I Şah Təhmasibin vəfatı zamanı ali divan dəftərində 114 nəfərin adı qeyd olunmuşdur ki, onların çoxu bu zaman təbil və bayraq sahibi olub, adıçəkilən mərhum həzərət Şah tərəfindən əmir rütbəsi ilə təltif olunmuşdular (80, 138). Ancaq İsgəndər bəy Türkman əsərindəki siyahıda mötəbər və yüksək rütbəli əmirlər istisna olmaqla, digərlərinin adlarını çəkmir.

İsgəndər bəy Münşi Türkmanın «Tarix-i alamara-yi Abbasi» və Məhəmməd Yusif Qəzvininin «Xolde-bərin» adlı əsərlərindəki siyahıya (1576) əsasən Qızılbaş tayfalarından ən böyüyü Şamlı eli olub, dövlətin yaranmasında və Səfəvi sülaləsinin hakimiyyətə gəldiyi ilk günlərdən qulluq təcrübəsinə, hüququna, sədaqətinə görə

oymaqların birincisi olmuş, onların içərisindən yüksək rütbəli əmirlər, xanlar çıxmışdır. Əlahəzrət cənnətməkan Şah İsmayılın hakimiyyətinin ilk günlərindən böyük əmirlər və yüksək rütbəli xanların çoxu Şamlı tayfasından idilər. Belə ki, Şah İsmayılın lələsi Hüseyn bəy, Əbdi bəy və onun Durmuş xan, Hüseyn xan adlı oğulları, Zeynal xan, Ağzıvar xan böyük mənsəb, tiyul sahibləri olub, digər tayfaların əsilzadələrindən fərqli olaraq daha geniş üstünlüklərə sahib olmuşdular. I Şah Təhmasibin ölümü əsnasında Şamlılardan siyahıda adları qeyd olunan əmirlərin beşinin də təbil və bayrağı vardı. Onlardan Vəli xəlifə Avçı müqəddəs Məşhədin hakimi olub, digər əmirlərlə müqayisədə qoşunu daha çox idi. Fulad xəlifə Həmədan vilayətinin hakimi, Astrabadda bəylərbəyi vəzifəsindən azad olunmuş Süleyman xəlifə isə sarayda idi (80, 138; 128, 407-408).

I Şah İsmayıl dövründə Ustaclı eli əsilzadələrindən bir çoxu böyük əmir olub, onlardan Diyarbəkr hakimi Xan Məhəmmədə (Ustaclı elindən Mirzə bəyin oğlu Məhəmməd bəy) I Şah İsmayıl xan titulu vermişdi və o, Ustaclıoğlu Məhəmməd xan adı ilə də tanınırdı. Qaynaqlarda adı gedən Qara xan onun qardaşı, Qılıc xan isə oğludur, Ustaclılardan Qara xan, Qılıc xan, Çayan sultan, Köpək sultan, Məntəşa sultan, Sədrəddin xan, Fərrux sultan, Abdulla xan və Çuxur-Səd hakimi Şahqulu sultan vəzifə və ölkə sahibləri olmuşdular (80, 138). Qorçubaşı Sarı Pirə (1514-cü ildə Çaldıran savaşında ölmüşdü), Qarınca sultan, Bədir bəy, Kürd bəy, Hadi bəy, Sofu oğlu Əhməd sultan (Kirman valisi), Həmzə sultan, Tacəddin bəy kimi əmirlər də bu eldən idilər (67, 45-46). I Şah Təhmasibin hakimiyyəti dövründə müxtəlif dövlət qulluğunda olmuş Ustaclı əmirlərinin sayı haqqında Faruk Sümər yazır: «Araşdırmalarımıza görə 1532-ci ildən 1576-cı ilə qədər olan zamanda bu oymaqdan bəy, sultan və xan ünvanlarını daşıyan otuzdan çox əmir görünür» (67, 87). Ustaclı tayfası əsilzadələrindən çoxunun I Şah Təhmasibin ölümü əsnasında əmir rütbəsi vardı və onlar təbil, bayraq, qoşun, tiyul sahibləri idilər. Onlardan yüzbaşı Həsən bəyin oğlu Hüseyn bəy əmisi Nəzər sultanın yerinə əmir olmuş (80, 138), I Şah Təhmasibin oğlu Sultan Mustafanın lələsi dövlət ərkanı və mülki

işlərdə söz sahibi olub, qoşunu da vardı. Teymur xanın oğlu süfrəçibaşı Murad xan «ümra-ye bozorge dərgah», yəni sarayın böyük əmirlərindən idi. Allahqulu Sultan (sabiq Gilan hakimi), Piri bəy Qoçulu da saray əmirləri idilər. Pirə Məhəmməd xan Çavuşlu Biye-Pişin əmir əl-ümərası, I Şah Təhmasibin oğlu şahzadə İmamqulu Mirzənin lələsi və həm də böyük əmirlərdən olub, qoşunu da vardı. Böyük əmir Məhəmməd xan Toxmaq (Çuxur-Səd əmir əl-ümərası), Şahqulu Sultan Yeqan (Herat hakimi və Xorasan əmir əl-ümərası, şahzadə Abbasın lələsi), Nəzər sultan Asayiş oğlu (Heratda yasaqkeş), Şahqulu sultan Yeqanın oğlu İbrahim sultan (Sərəxs hakimi), çərxçıbaşı Vəli xan (Şərəfli obasından olub, Xəfaf, Baxzər hakimi), Mahmud xan Sofi oğlu (Xorasanda Turşizin hakimi), Murad xanın atası Teymur xan (Bədiüzzamanın lələsi və Sistan hakimi), Ayqut sultan Çavuşlu (Şüştər və Dizful hakimi), Qarınca oğlu Şahqulu sultan (Şahın Tiflisdə nümayəndəsi) və Keçəl Şahverdinin oğlu Mustafa Sultan 1576-cı il siyahısında adları göstərilən Ustaclı əmirlərindən idilər (80, 139). İsgəndər bəy Türkman Münşi «Tarix-i aləmara-yi Abbasi»də I Şah Təhmasibin ölümü əsnasına aid olan siyahıda həyatda olan və yüksək dövlət vəzifələrində çalışan 26 Ustaclı əmirindən 15 nəfərin adını qeyd etmişdir (80, 138-139; 181, 109). Fəzli İsfahanın əsərində Ustaclı əmirlərində on doqquzunun, Məhəmməd Yusif Qəzvinin əsərindəki xüsusi siyahıda isə on beşinin adı verilir (67, 90; 128, 408-409). Onu da qeyd etmək lazımdır ki, Məhəmməd Yusif Qəzvini əsərində özü də işarə etdiyi kimi, bu siyahını İsgəndər bəy Münşi Türkmanın əsərindən olduğu kimi götürmüşdür.

Səfəvi sülaləsinin hakimiyyətə gəlməsində Türkmanların xüsusi yeri vardır. Onu da qeyd etmək lazımdır ki, Səfəvilərin hərbi-siyasi dayağı olmuş digər ellər də Türkman mənşəli olub, onlardan bir qismi bunu bilir və bu adla adlanırdılar. Türkmanın Mosullu və Pornak obaları mənsub olduqları elin adını daşıyırdılar. Məlum olduğu kimi, I Şah İsmayılın anası və ata anası Türkman Bayandur xanədanından idi. I Şah İsmayıl da Mosullu bəylərindən birinin qızı (Taclı xanım) ilə evlənmiş və bu izdivacdan Təhmasib ilə Bəhram

Mirzə[*] doğulmuşdur. I Şah Təhmasib də Türkman bəylərindən Musa sultan Mosullunun qızı Sultanım xanımla evlənmişdi. Sultan Məhəmməd və İsmayıl Mirzənin anası adı çəkilən Sultanım xanımdır (80, 125, 132; 67, 101; 133, c. I-II, 562). I Şah Təhmasibin vəfatı əsnasında Türkman Əmir xan Mosullu (I Şah Təhmasibin dövründə Xorasan və onun vəfatından sonra Azərbaycan əmir əl-ümərası olmuşdu), Məhəmməd xan Mosullu (bir neçə dəfə Sistan hakimi olmuş və 1576-cı ildə sarayda olub, qüdrətli əmirlərdən idi), Şahqulu xan Pornak (İsfahanda türkmanların «üməra-ye bozorg» - böyük əmirlərindən olub, II Şah İsmayılın dövründə Məşhəd hakimi və Xorasanın yarısının əmir əl-ümərası), Söhrab xəlifənin oğlu Süleyman xəlifə (Xorasanda Tun və Təbəs hakimi), Heydər sultan Çabuq Tərxan (Qum hakimi və «üməra-ye bozorg» - böyük əmir), Yadigar Məhəmməd Tərxanın oğlu Əbuməsum sultan (saray əmiri) Türkman əmirləri olub, adları siyahıda qeyd olunmuşdur (80, 139-140; 128, 409-410).

I Şah Təhmasibin vəfatı əsnasında Rumluların içərisində mötəbər əmirlərdən Araz xan Rumlu Şirvan əmir əl-ümərası idi. Hüseynqulu xüləfa isə sarayda xəlifət əl-xüləfa mənsəbinə sahib olub, bayraq və təbili olmasa da, ölkədə və onun hüdudlarından dışarıda, əsasən Şərqi Anadoludakı bütün sufilər ona tabe idilər. Dəli Budaq (sabiq Xoy hakimi) və Qurban sultan sarayın mötəbər əmirlərindən idilər (80, 140; 128, 410) Faruk Sümərin dövrün qaynaq materiallarına istinad edərək yazdığına görə, I Şah Təhmasibin ölümü əsnasında Rumlu əmirlərinin sayı doqquz nəfər olmuşdu (67, 87).

İsgəndər bəy Münşi I Şah Təhmasibin vəfatı əsnasında Zülqədər əmirlərinin Məhəmmədqulu xəlifə Qoroğlu (möhürdar, dövlət ərkanı və qoşun sahibi), İbrahim xan Hacıların əmisi oğlu Məhəmməd xəlifə (Astrabad hakimi), Qalxançı oğlu Vəli sultan (Şiraz hakimi), Təbət Ağa (Xorasanda Cam hakimi), Şahqulu xəlifə

---

[*] Xurşaha görə Təhmasib Mirzə və Bəhram Mirzənin anası, Uzun Həsənin nəvəsi Sultan Muradın qızı Fatma Sultanım bəyimdir.( Bax: Xurşah ibn Qubad əl-Hüseyni. Tarix-i elçi-yi Nizamşah, v.5a)

möhürdar (Lar hakimi, böyük əmir) və İbrahim xanın oğlu Mənsur bəydən (Xoy hakimi) ibarət olduqlarını qeyd etmişdir (80, 140; 128, 410).

İsgəndər bəy Münşi I Şah Təhmasibin ölümü əsnasındakı siyahıda Əfşar tayfasının böyük əmirlərindən Əmiraslan sultan Ərəşlinin böyük əmir, qoşun sahibi və I Şah Təhmasibin oğlu Sultan Əhməd Mirzənin lələsi olduğunu bildirir. Xəlil xan yüksək rütbəli əmir olub, Kuhgiluyə hakimi və Mahmud sultan (əmire bozorg) Savə hakimi, Yusifqulu sultan qardaşı Yaqub sultanın yerinə Kirman hakimi (Ancaq o, bu vaxt Kirmana getməmiş və II Şah İsmayıl zamanı qorçubaşı olmuşdur), İsgəndər xan Hezarçərib hakimi (sonra Kuhgiluyə hakimi olmuşdu), mötəbər əmir Yeqan sultan Xorasanda Fərəh və Əsfzar hakimi, Xosrov sultan Koroğlu isə Xorasanda bir yerin valisi idi (80, 140; 128, 402).

Qacar tayfasından Şahverdi sultan Ziyad oğlu Qacarın oğlu Yusif xəlifə İbrahim sultanın yerinə Qarabağ bəylərbəyi və Sultanəli Mirzənin lələsi təyin olunmuş, ancaq I Təhmasibin vəfatı əsnasında hələ Qarabağa getməmişdi. Mirzə Əli sultan sarayda böyük əmirlərdən olub, divanbəyi idi. Əli xəlifə Ağcalı Damğan və Bistam hakimi, Süleyman bəy Ziyad oğlu (Yusif xəlifənin qardaşı) və Süleyman sultan Şekəm oğlu isə artıq əmir idi (80, 140).

Siyahıda Təklə əmirlərindən Şərəfəddin oğlu Vəli Sultan, Solak Hüseyn və Ərdoğdu xəlifənin adları çəkilmiş, Gilan və Xorasanda kiçik ulka sahibləri olduqları göstərilmişdir (80, 140).

İsgəndər bəy Münşi Türk elləri sırasında qeyd etdiyi Xunuslu (Hinisli 1 nəfər) əmirlərindən isə I Şah Təhmasibin ölümü ərəfəsində yalnız Hüseyn xanın adı çəkilir və mötəbər əmir olduğu göstərilir (80, 141).

İsgəndər bəy Münşinin əsərindəki siyahı (1576-cı il) üzrə Qızılbaş-Türk tayfa əmirlərinin sayı:

Şamlı - 5 nəfər
Ustaclı - 26 nəfər
Türkman - 6 nəfər
Rumlu - 4 nəfər
Zülqədər - 6 nəfər

Əfşar - 7 nəfər
Qacar - 5 nəfər
Təklə - 3 nəfər
Hinisli - 1 nəfər

cəmi 63 nəfər

İsgəndər bəy Münşi I Şah Təhmasibin vəfatı əsnasındakı siyahıda qeyd olunan Qızılbaş-Türk elləri əmirləri ilə yanaşı, İç Oğuzun Çəpni boyundan Mahmud xəlifə, Calal oğlu Məhəmməd sultan və Dönməz sultan adlı 3 nəfər əmirin adını göstərmişdir ki, onlar bu zaman Qarabağda olub Ziyad oğluna tabe idilər. Müəllif siyahıda Xorasanda məskun olan Yaka Türkmanlarını Cağatay adı ilə vermişdir. Onlardan da 3 nəfər əmirin adı çəkilir. Yaka Türkmanın Gəraylı oymağının Xorasanda yaşadığı, Səfəvilərə tabe olduğu və əmirlərinin Mirzə Əli Xəlifə adlı əsilzadə olduğunu görürük. İbn Hüseyn Mir Hüseyn sultan Firuzcəngi Məşhədin sadiq bəndələrindən olub, Sərəxs hakimi, Hacı Məhəmməd sultan isə Savə hakimi idi. Siyahıda Şeyxavənd soyundan olan 2 nəfərin və 1 nəfər də seyidin adı çəkilir. Onlardan Məsum bəy Səfəvinin oğlu Sədrəddin xan Səfəvi saray əmiri, həm də Bəhram Mirzənin oğlu Sultan Hüseyn Mirzənin lələsi, onun qardaşı Seyid bəy isə böyük əmir olub, Astrabad hakimi idi. Siyahıda adı çəkilən Seyid isə Seyid Məhəmməd Kəmunənin oğlanlarından möhürdar vəzifəsində olan böyük əmir Seyid Süleyman idi ki, o, Seyid bəy Kəmunə ayaması ilə tanınırdı (80, 141; 128, 412).

İsgəndər bəy Münşinin Səfəvi dövlətinin idarəçilik və dövlət quruluşunda önəmli rola malik olmuş tayfalar və onların əmirlərinin siyahısı Səfəvi dövlətinin tarixini araşdırmış tədqiqatçılardan V.Minorski və İ.P.Petruşevskinin diqqətindən kənarda qalmamışdır. Öncə qeyd etmək lazımdır ki, hər iki tarixçinin Səfəvi dövlətinin sosial-iqtisadi və siyasi quruluşuna həsr etdikləri monoqrafiyaların elmi əhəmiyyəti az deyildir. Ancaq müəlliflərin hər ikisi 1576-cı il siyahısını təhlil edərkən müəyyən qüsurlara yol vermişlər. Belə ki, İsgəndər bəy Münşinin əsərindəki 1576-cı il siyahısı üzrə apardıqları təhlilə əsasən V.Minorski türk əmirlərinin sayının 59 nəfər, İ.P.Petruşevski isə 61 nəfər olduğunu qeyd etmişdir (103, 22; 181,

109). Halbuki apardığımız düzgün hesablamalar nəticəsində aydın olmuşdur ki, siyahıda göstərilən 114 nəfər əmirdən 84 nəfərin adı qeyd olunmuşdur ki, onlardan 72 nəfəri türk, 12 nəfəri isə talış, kürd, lurlardan ibarət olmuşdur.

İsgəndər bəy Münşi I Şah Təhmasibin ölümü əsnasında yerli idarələrdə yüksək vəzifələrdə çalışan əmirlərin siyahısı ilə yanaşı, dövlət və saray təşkilatındakı qulluqçuların da sayını göstərmişdir. I Şah Təhmasibin ölümü əsnasında mərkəzdəki yüzbaşılar, ərbablar, qorçular və digər mülazimlərin ümumi sayı cəmi 6000 nəfər idi. Onların 4500 nəfəri qorçu, 1500 nəfəri isə daş (dış, dışarı) qorçular, yasovullar, bukavullar, eşikağısı, yasovulbaşı, mirşikar, topçubaşından ibarət olub, mötəbər yasovullar və qorçular türk tayfalarının müxtəlif zümrələrindən idilər. Əslində Şahın 20 000 nəfər xassə mülazimləri, yəni qorçuları var idi ki, onların içərisində yüksək mənsəblilər əmir rütbəsinə malik olmasalar da, əmirlik dərəcəsinə qədər yüksəlmişdilər. Bu qorçulardan 100 nəfəri şücaətinə, cəsarətinə görə başqa qoşun növündən olan əsgərin 1000 nəfərinə bərabər idi (80, 141-142).

İsgəndər bəy Münşi əsərindəki ikinci siyahıda (1628) isə müxtəlif dövlət vəzifələrində çalışan əmirlərin sayının 92 nəfərdən ibarət olduğunu qeyd etmişdir. Birinci siyahıda olduğu kimi, ikinci siyahıda da təkcə türk deyil, bu dövrdə dövlət qulluğunda olan qeyri-türk tayfa əmirlərinin də sayını göstərmişdir. O, tayfalar üzrə əmirlərin sayı haqqındakı siyahıda Şeyxavənd boyundan yalnız bir nəfərin, qorçubaşı İsa xan ibn Seyid bəy ibn Məsum bəy Səfəvinin adını qeyd etdikdən sonra, bu zaman dövlət qulluğunda olmuş Qızılbaş-Türk əmirləri barədə yazır:

Şamlı tayfasından Zeynal xan Bəydili (Səfəvilər dövründə Bəydili, Abdallı, Ərəbgirli, Nəlqas Şamlı tayfasının obalarından idilər-Z.B.) Rey hakimi Həsən xan Abdallı Xorasan bəylərbəyi, Məhəmməd Zaman Xorasanın bəzi mahalı və Qur hakimi, Fəzləli sultan Bala Murğab hakimi, Haqverdi sultan Ərəbgirli Azərbaycan əmiri, Naqdi sultan Nəlqas eli (bu el Şamlı tayfasının tərkibində idi) əmiri (80, 1084), Bəydili Gündoğmuş Sultan Azərbaycanda mahal hakimi idilər (80, 1085).

Ustaclı əmirlərindən Möhbəli sultan Xorasanın Nisə mahalının hakimi, Maqsud Sultan Kəngərli Naxçıvan hakimi, Əbdülqasım sultan İraq-i Ərəbdə Hillənin hakimi idi (80, 1085).

Zülqədər Rüstəm sultan Sevgilinin oğlu Əmir xan Kirman hakimi, Qorxulu İbrahim sultan Xorasanda Sərəxsin hakimi, möhürdar Şahqulu Xəlifənin nəvəsi Dərgahqulu sultan Qorxulu Fars əyalətində bəzi mahalların hakimi, keçmiş Qarabağ əmirlərindən Səlim xan Şəmsəddinli Axısqa qalası hakimi, Eymur Kəlbəli sultanı oğlu Xəlil sultan Qarabağ əmirlərindəndir. Müstədam sultan Hacılar Astrabadın Came-Kəbud adlı mahalının hakimi idi (80, 1085).

Qacar Təhmasibqulu xan atası Əmirgünə xandan sonra onun yerinə Çuxur-Sədin bəylərbəyi, Peykər xan İyirmi dörd isə Qarabağ əmirlərindən olub, Bərdə hakimi idi (80, 1085).

Əfşar Qasım xan İmanlının oğlu Kəlbəli sultan Urmi hakimi, Hələbli Ərdoğdu xan Xorasanın Əsfzar və Fərah mahallarının hakimi, İsalı İmamqulu sultan Qavrud hakimi idilər (80, 1085).

Türkman Şahbəndə xan Pornağın oğlu Pirbudaq xan Azərbaycan bəylərbəyi, Həsən sultan Ördəkli Qapanat hakimi idi (80, 1085).

Siyahıda İspəhirli Şikari Sultan Ərdəbil və Sərab (80, 1085), Rumlu Heydər sultan Qoyləhisarlı Gilanın Tonakabon mahalı (80, 1085), Qaradağlı İlyas xəlifənin oğlu Bürhanəddin xəlifə Qaracadağ, Bayat oymağından Yarəli sultan Bəyazid qalası, Gedəəli sultan Maku, Bədr sultan Çuxur-Sədin bəzi mahallarının hakimi olduqları göstərilir (80, 1086).

Cəyirli Məhəmməd sultan Şəki, Qazağlar Şəmsi xan Axısqa, Bayburdlu Muradxan sultan Arasbar hakimi olub, Alpout oymağından Mənsur sultan isə Şirvanda ulka sahibi idi (80, 1086).

İsgəndər bəy Münşinin əsərindəki siyahı 1628-ci il üzrə Qızılbaş-Türk tayfa və oba əmirlərinin sayı:

Şamlı - 7 nəfər
Ustaclı - 3 nəfər
Zülqədər - 6 nəfər
Qacar - 2 nəfər
Əfşar - 3 nəfər
Türkman - 2 nəfər

İspərihli - 1 nəfər
Rumlu - 1 nəfər
Qaradağlı - 1 nəfər
Bayat - 3 nəfər
Alpaut - 1 nəfər
Cəyirli - 1 nəfər
Qazağlar - 1 nəfər
Bayburdlu - 1 nəfər
Şeyxavənd - 1 nəfər

cəmi 34 nəfər

Müəllif I Şah Abbasın ölümü əsnasında tərtib etdiyi bu siyahıda Qızılbaş-Türk tayfaları və onların əmirlərinin sayı ilə yanaşı Xorasandakı Yaka Türkmanlarından Qarabayat, Gəraylı, Cəlayir adlı türk tayfalarının əmirlərinin 12 nəfər olduğunu qeyd etmiş, ancaq onların Cığatay oymaqları olduqlarını yazmışdır. I Şah Abbasın dövründə Qarabayatlardan Bayram Əli sultan Nişapur, Təhmasibqulu sultan isə Xuzistanda Şüştər və Dizful hakimi idi (67, 157). O cümlədən siyahıda Qarabağdakı Otuz iki elinin Müqəddəm oymağı və Zunuz oymağından 6 nəfər böyük əmirin Azərbaycanın müxtəlif mahallarında hakim olduqları göstərilmişdir. Şərqi Anadoludan Azərbaycana köçmüş Silsüpür adlı qarışıq oymaqdan 1 nəfər, Şirvan tərəkəmələrindən də 1 nəfərin əmir olduqları qeyd olunmuşdur (80, 1087). Ancaq İsgəndər bəy sonuncuların Qızılbaş olmadıqlarına işarə etsə də, onların soyca türk olmaları bir həqiqətdir.

Siyahıda Türk-Qızılbaş əmirləri ilə yanaşı, 2 nəfər talış, 17 nəfər Lur və kürd, 3 nəfər isə əfqan mənşəli əmirin adı verilmişdir.

İ.P.Petruşevski ikinci siyahını (1628) təhlil edərək «ümumi sayı 90 olan əmirdən, yalnız Qızılbaş əmir 35 nəfər idi» - deməklə (181, 109) yenə də səhvə yol verir. Əvvəla, İsgəndər bəy Münşi sonuncu siyahıda əmirlərin sayının 90 yox, 92 nəfər olduğunu yazmışdır (80, 1084). İkinci isə siyahıda 92 əmirdən 76 nəfərin adı yazılmışdır ki, aparılan hesablamalar əsasında bu əmirlərdən 35 yox, 54 nəfərin türk olduğu müəyyən edilmişdir. Ancaq onu da göstərmək lazımdır ki, birinci siyahı kimi ikinci siyahı da yarımçıq

olmaqla, burada 1628-ci ildə mərkəzi və yerli idarələrdə müxtəlif vəzifələrdə çalışan əmirlərin ümumi sayı tam əks olunmamışdır.

İsgəndər bəy Münşinin 1628-ci il siyahısında göstərilir ki, I Şah Abbasın təşəbbüsü ilə Osmanlı dövlətinin yeniçəri hərbi institutun təcrübəsindən istifadə edilərək kiçik yaşlı gürcü, çərkəz uşaqları səfərbər edilmiş, onların təlim-tərbiyəsi peşəkar hərbiçilərə tapşırılmış və bu uşaqlar boya-başa çatdıqdan sonra onlardan qulam adı ilə məlum olan xüsusi nizami hərbi alay yaradılmışdır. F.Sümərin yazdığı kimi, I Şah Abbas qul və tüfəngçi təşkilatını yaradarkən Osmanlı yeniçəri əsgəri təşkilatını örnək olaraq qəbul etməsi heç bir şübhə doğurmur (67, 149). Siyahıda qulam hərbi təşkilatının yüksək hərbi zümrəsinə daxil olan 21 nəfəri əmir hərbi rütbəsi, xan və sultan titulu verildiyi göstərilsə də, onlardan yalnız 15 nəfərin adı yazılmışdır. Bu 15 nəfərdən (onlardan 3 nəfəri əmire bazorğ idi) 7 nəfəri xan və 8 nəfəri isə sultan titulu ilə müxtəlif vilayət və mahallarda bəylərbəyi və mahal hakimi vəzifəsində olmuşdur (80, 1088-1089). Qulam alayının əsgəri heyətinin əsasən qeyri-türklərdən ibarət olmasına baxmayaraq, I Şah Abbasın dövründə bu alayla yaxından tanış olmuş italiyalı Pyetro Della Vallenin yazdığı kimi, onların təlim və ünsiyyət dili türk dili olmaqla ayrı heç bir dili bilmirdilər (86, 81). Qulamlar Osmanlı dövlətindəki yeniçərilər kimi türk dilli idilər və bəzi tarixi əsərlərdə onların farslaşma zorunda qalmaları haqqındakı fikirlər ciddi elmi dəlillərə söykənmir. Türkiyə tarixçisi F.Sümərin unikal qaynaq materiallarına əsaslanaraq yazdığı kimi, qullar və oturaq əhaliyə mənsub tüfəngçilər Qızılbaşlara qarşı müvazinət ünsürü kimi yaradılsa da,köçəbə (yarımköçəri) Türk oymaqları əskidə olduğu qayda üzrə yenə də dövlətin ana dirəyi olub, öz nüfuzunu qouyub saxlamışdılar.Daha sonra F.Sümər qeyd edir: «Dövlət xidmətindəki taciklər (İranlı yaxud fars) heç bir zaman Səlcuqlu dövründə olduğu kimi, dövlətin siyasi həyatında mühüm rollar oynamamışdılar» (67, 149).

Qeyd olunduğu kimi, qeyri-türk soylu, ancaq türk dilli əmirlərin I Şah Abbasın islahatı ilə dövlətin idarəetmə orqanlarında işə cəlb olunmasını dövlətdə iranlılaşma prosesinin başlanması kimi

qəbul etmək əslində düzgün deyildir. Avropa dövlətləri tarixinin XVI-XIX əsrləri izlənilərkən hətta ayrı-ayrı ölkələrdə doğma dillərində danışmaq qəbahəti və idarəçiliyə başqa xalqlardan olan əsilzadələrin kütləvi cəlb olunması hallarına az təsadüf edilmir. Halbuki Qərb tarixçiliyində bu vəziyyət dövlətlərin milli mahiyyətini dəyişməsi kimi qəbul edilmir və yaxud bu məsələlərə heç toxunulmur.

İ.P.Petruşevski yazır: «I Şah Abbasa qədər bəylərbəyi yalnız Qızılbaş tayfalarının adlı-sanlı əmirlərindən, yaxud şahzadələrdən təyin olunurdu. I Şah Abbasdan etibarən bəylərbəyi vəzifəsinə yeni qulam hərbi əsilzadə nümayəndələrindən də təyin etməyə başladılar» (181, 118). Müəllifin bu fikiri tarixi gerçəkliklərə uyğun gəlir. Lakin onu da qeyd etmək lazımır ki, I Şah Abbasın özü 1605-ci ildə Türkman əmirlərindən Pirbudaq xanı Azərbaycana, 1607-ci ildə Qaramanlı əmirlərindən Zülfüqar xan Qaramalını Şirvana, 1606-cı ildə Qacar əmirlərindən Məhəmməd ibn Xəlil xan Ziyad oğlunu Qarabağa, 1606-cı ildə Qacarlardan Əmirgünə xan Qacarı Çuxur Sədə bəylərbəyi təyin etmişdi. XVII əsrin axırlarına qədər də belə olmuşdur. Beləliklə, Qızılbaş əmirlərinin Osmanlı yürüşlərinə son qoyulduqdan sonra yenə də Azərbaycan, Şirvan, Qarabağ və Çuxur Səddə yerli hakimiyyətləri bərpa olunur. Ancaq mərkəzləşmiş dövlət daxilində bəylərbəyilərin vilayətlərdə Qızılbaş tayfalarının hərbi qüdrətinə arxalanaraq öz hakimiyyətlərni möhkəmləndirmələri, onlarda irsi idarə meyllərinin güclənməsi Səfəvi şahlarının mənafeyinə uyğun deyildi. Buna görə də, XVII yüzillikdə Səfəvi hökmdarları vilayət aparatının dövlət asılılığını möhkəmləndirmək məqsədlə qulamlardan ibarət yeni hərbi əsilzadə nümayəndələrinin əyalətlərə bəylərbəyi təyin edilməsini təcrübədən keçirirdilər. Lakin bu təcrübə özünü doğrultmamış və bu dövrdə bir sıra qulam əyanlarının müəyyən vilayətlərdə qısa müddətli hakimiyyəti də Səfəvi dövlətinin milli mahiyyətinə təsir göstərə bilməmişdi. Düzdür, İsgəndər bəy Münşinin verdiyi məlumata görə qulamların yüksək hərbi zümrəsindən vilayət və mahal idarəçiliyində istifadə olunmuşdur və o, əsərində onlardan 15 nəfərinə xan və sultan titulu verildiyini yazmışdır. Digər tərəfdən qulam vilayət, yaxud mahala

hakim göndərildikdə o, əvvəlcə həmin izibati vahid ərazisində yaşayan Türk-Qızılbaş tayfa və oymaqlardan birinə mir-e el (el, tayfa başçısı - əmiri) təyin olunmasa, orada öz vəzifəsini icra edə bilməzdi. Məsələn, İmamqulu xanın qardaşı Davud xan qulamların yüksək rütbəli əmirlərindən olub, Məhəmmədqulu xan Qacarın yerinə Qarabağ bəylərbəyi göndərildikdə, oradakı Qacar eli və oymağının mir-e eli vəzifəsinə də təyin olunmuşdu. Çərkəz Qazaq xan isə Şirvan bəylərbəyi olduğu zaman, həm də orada Qaramanlı, Çavuşlu tayfasının əmiri idi. Şirvanda Dərbənd və Şabrana hakim göndərilmiş Fərrux sultan həm də oradakı Bayat və Rumlu tayfasının da əmiri olmuşdu. 1628-ci ildə Novruz Sultan isə Qarabağda Cavanşir, Otuz iki elinə əmir təyin edilmişdi. Göründüyü kimi, Qarabağ və Şirvana hakim statusu ilə göndərilmiş qulam hərbi əsilzadə nümayəndələri vəzifədə olduqları vilayət, yaxud mahal ərazisindək türk oymaqlarından birinin də əmiri olmuşdular. Ancaq İskəndər bəy Münşinin 1628-ci il siyahısında adlarını qeyd etdiyi 15 nəfər yeni hərbi əsilzadələrdən yalnız üç nəfəri (ikisi xan, biri sultan titulu ilə) müəyyən vaxtda Qarabağ, Şirvan, Dərbənd və Şabranda hökmranlıq etmişlər (80, 1089). Onu da göstərmək lazımdır ki, qeyri-türk olan qulamlar Azərbaycan türk dilini bilmədən, Qızılbaş tayfalarının adət və ənənələrinə bələd olmadan, yerli tayfaların hərbi qüvvələrinə arxalanmadan hər hansı vilayət və mahalda hakim vəzifəsində işləyə bilməzdilər. Əslində, orta əsr Osmanlı yeniçəriləri kimi, Səfəvi qulamları da islam dinini, Qızılbaş adət-ənənələrini qəbul etmişdilər. Onlar Azərbaycan türk dilində danışır və fars dilini bilmirdilər. Bu barədə 1617-1627-ci illər arası Səfəvi dövlətində olmuş Pyetro della Valle yazır: «…müxtəlif millətlərdən olan qulamlar vardır ki, öz aralarında türk dilində danışırlar və farsdan bir şey bilmirlər» (86, 87).

Əvvəlki yüzillikdə ollduğu kimi, XVII əsrdə də Azərbaycan Səfəvi dövlətinin hərbi dayağı yenə də Türkman, Qacar, Qaramanlı, Şamlı, Ustaclı və başqa türk elləri olub, vilayət bəylərbəyi və mahal hakimləri onların əmirlərindən təyin edilirdi.

Beləliklə, İsgəndər bəy Münşinin əsərində 1628-ci il siyahısı üzrə vəzifələrə təyinatla bağlı məlumatların obyektiv təhlili I Şah

Abbas dövründə Səfəvi dövlətinin milli mahiyyətinin dəyişməsi və burada Türk-Qızılbaşların hakimiyyətinin zəifləməsi haqqında bu günə qədər tarixçilikdə mövcud olan fikirlərin yanlış olduğunu təsdiq edir. Tarixçilikdə Azərbaycan Səfəvi dövlətinin milli mahiyyəti ilə bağlı mövcud olan səhv və qeyri-ciddi fikirlərin əksini göstərən qaynaqlar az deyildir. Təkcə onu göstərmək kifayətdi ki, XVII yüzilin 70-ci illərində fransalı səyyah Şarden yazır ki, Qızılbaşların nüfuzu o qədər güclüdür ki, hazırda çox mühüm dövlət vəzifələri və orduda rəhbərlik də onların əlindədir (112, c.3, 1192, 1193).

I Şah İsmayılın başçılığı altında əhalinin müxtəlif kateqoriyalarından olan əxilər, qazilər, sufilərin hərbi-siyasi mücadilələrində qurulmuş Azərbaycan Səfəvi dövləti beynəlxalq aləmdə iki yüzillk bir vaxt ərzində öz nüfuzunu gücləndirib artırmış, qoruyub saxlamışdır. Vahid dövlətçilik ənənəsi iqtisadi irəliləyişlə bağlı mülki, inzibati, hərbi idarəçiliyə, elmi-mədəni yüksəlişə geniş imkanlar yaratmışdır. Və Azərbaycan türk dili dövlət dili statusu qazanmış, I Şah İsmayılın Avropa monarxlarına Azərbaycan türk dilində yazdığı məktublar isə bu dili rəsmi diplomatiya dili səviyyəsinə yüksəldə bilmişdi. Artıq Səfəvilər zamanında rəsmi sənədlər də Azərbaycan türk dilində tərtib olunurdu. Mülki-inzibati, hərbi idarədə titul və rütbə ifadələri - məsələn, qorçu (qoruyucu); qorçubaşı (qorçuların başçısı); daş qorçular (sərhəd qorçuları); eşikağısı (sarayda mərasim qaydalarına baxan məmur); eşikağasıbaşı (sarayda mərasim qaydalarına baxan məmurların başçısı); süfrəçibaşı (sarayda süfrəyə baxan məmur); bəylərbəyi (bəylərin-bəyi, vilayət hakimi); tüfəngçibaşı (tüfəngçi hərbi dəstənin başçısı); topçubaşı (topçu hərbi dəstəsinin başçısı) və s. kimi terminlər meydana çıxmışır.

Mirzə Abbaslının «Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə» əsərindəki Bakı və Füruzguh qalalarının alınmasına aid miniatürlərdə top və tüfəng təsvirləri, «topçu» və «tüfəngçi» ifadələrinin dilimizdə XVI əsrin əvvəllərindən mövcud olduğunu isbat edir (43, 59, 64).

I Şah İsmayıl ana dilinə hörmət edir və bu dildə yazan şairləri, ozanları sevir, onları himayə edirdi. Elə buna görə də, dilinə, vətə-

ninə bağlı el şairləri, aşıqları da onu sevir və onun doğma dilinə, xalqına bağlılığını əsərlərində tərənnüm edirdilər. Onlardan I Şah İsmayılla eyni dövrdə yaşamış və onu özünün mürşid-i kamili adlandıran Dirili Qurban «Şah Xətayi» gəraylısında «Qoy var olsun türki zəban, Şah Xətayi, Şah Xətayi» misraları (33, 53), onunla eyni dövrdə yaşamış Tüfeylinin Şah İsmayıla xitabən «Qılmazam vallahi türki-tacidarım tərkini» (2, 311) deməsi Şah İsmayılın etnik kimliyinin bəlli aynası olub doğma türk dilinə sevgisinin də parlaq təzahürüdür. I Şah İsmayılın dövrünün tarixi gerçəkliklərini əsərlərində bəzən olduğu kimi əks etdirməyə cəhd göstərmiş, tarixçi İ.P.Petruşevski yazır ki, Səfəvilər sarayında və orduda bu vaxtlar Ön Asiyanın bütün türk dilli tayfalarına aydın olan Azərbaycan dili qəbul edilmişdir və bu ədəbi dil Azərbaycan sərhədlərindən kənarlara da yayılmışdı (181, 71). «Xolde-bərin»də Museyib xan Şərəfəddin oğlu Təkəli və Şahqulu bəy Ərəb oğlu Rumlunun gözəl təbə malik olduqları, doğma dillərində, yəni Azərbaycan türkcəsində şerlər yazdıqları haqqında verilmiş məlumat İ.P.Petruşevskinin qeyd edilən fikrinin doğrululuğunu təsdiq edir. Mənbədə göstərilir ki, II Şah İsmayıl dövründə Rey hakimi olan Museyib xan Şərəfəddin oğlu Təkəli bacarığına, musiqi duyumuna, yazdığı gözəl şerlərə görə türk əmirləri arasında seçilir və sevilirdi. O, xanədandan bir qız ilə evlənmək istəmiş, ancaq ümidi boşa çıxdıqda aşağıdakı rübaini yazıb Sultan Məhəmmədə göndərmişdi:

Ey şah-i cahan biəsər oldu əməgim
Dutdi qəm əli əlim ayağı ətəkim
Yüz yildəki xidmətimlə dərgahında
Solduş əməginə döndü axır əməgim (128, 616)

Mənbədə II Şah İsmayıl və Sultan Məhəmməd dövründə xəlifət əl-xüləfa vəzifəsində olmuş Şahqulu bəy Ərəb oğlu Rumlunun da türkcə yazdığı şerlərdən aşağıdakı rübai verilmişdir:

Könlüm quşun ol nərgizi fəttan apara
Kimdir ki, onun qəmzəsindən can apara
Şeytan şeytan dedikləri gər bu isə
Mən razıyam imanımı şeytan apara (128, 710-711).

Azərbaycan türk ədəbi dilinin bu iki orijinal nümunəsi xalq dilində olub lüğət özəyinə görə bugünkü dilimizdən fərqlənmir və sanki onun eynidir.

I Şah Təhmasibin Osmanlı şahzadəsi Sultan Səlimə, İngilis kraliçası Yelizaveta Tüdora yazdığı (1558-1603) məktublar türk dilində olub (3, 425), bu dilin XVI yüzildə dövlət, saray diplomatiya dili olmasının bəlli göstəricisidir.

Azərbaycan türk dili I Şah Abbasın da doğma dili idi və onun sarayında da əcnəbi ölkələrdən gəlmiş elçilərlə rəsmi diplomatik danışıqlar bu dildə aparılırdı. Bu barədə italiyalı səyyah Pyetro della Valle aydın məlumat verir. Bir müddət ispan donanmasında hərbi xidmətdə olmuş Pyetro della Valle dövrünün bilim adamı olan dostu Mario Skipanonun məsləhəti əsasında xüsusi tapşırıqla 1614-cü ildə İtaliyadan Fələstinə göndərilən diplomatik heyətlə yola düşüb İstanbul, Qüds, Dəməşq, Bağdad şəhərlərində olmuş və sonra isə Səfəvilər dövlətinə gəlmişdir. 1617-ci ildə Səfəvi sərhəddini keçən Pyetro della Valle Qızılbaş dəstəsi ilə qarşılaşdığını və onlara Qəsri-Şirin nahiyəsinin hakimi Kazım Sultanın başçılıq etdiyini göstərir. Yazır ki, bir müddət süvarilərlə yol getdik. Onların hamısı bir-biri ilə türk dilində danışırdı. Bu dil Səfəvi dövlətində fars dilindən daha çox işlənir, dövlət və hərb dilidir. O, bunun əsas səbəbini ordunun, əyanların, dövlət məmurlarının türk soyundan olmaları, aralarında bu dildə danışmaları, türk dilinin hərbi dil olması ilə izah edir. I Şah Abbas haqqında səyyah yazır ki, təbəələri ona çox inanır, başına and içir, Həmədanda bir nəfər digərinə müəyyən bir şey diləmək arzusunda olanda türk dilində «Şah Abbas muradını versin» deyirlər. İsfahan şəhərində olarkən türk dili məsələsi onu yenidən maraqlandırır. Yazır ki, burada türk dilində daha çox danışırlar, bu dil dövlət və başçıların dilidir. Səyyah türk dilinin bu üstünlüyünün başqa səbəblərini də göstərir. O yazır ki, Qızılbaş əsgərlərinin təmiz türk olması, qeyri millətlərin çoxluq təşkil etdiyi qulamların türkdən başqa dil bilməməsi, zabitlər və Şahın orduda göstərişi, əmrləri bu dildə verməsi türk dilini dövlət, saray, hərbi dil səviyyəsinə qaldırmışdır. I Şah Abbasın səyyahı türk dilində «xoş gəldin», «şəfa gəldin» deyə qarşılaması, divanxanada

danışıqların türk dilində getməsi, I Şah Abbasın sarayında türk dilinin əsas danışıq dili olmasının gerçək göstəricisi idi. Şahın özü də Pyetronun yazdığına görə, doğma türk dilini mükəmməl bilməsi ilə fəxr edirdi. Türk dili dövlət və saray dilidir (86, 21, 25, 50, 72, 87, 229-238). Pyetro della Valle ilə yanaşı, I Şah Abbasın sarayına Avropa dövlətlərindən göndərilmiş elçilərin çoxu eyni durumla qarşılaşmışdılar. İspaniyalı elçi Don Qarsiya de Silva Fiqeroa 1618-ci ildə I Şah Abbas tərəfindən qəbul edildiyi rəsmi məclislərin birində Osmanlı, Lahor, Özbək, Venesiya, İngiltərə elçilərinin iştirak etdiyini və burada danışıqların türk dilində getdiyini, bu dilin Səfəvi sarayında işlək dil olduğunu (105, 363) öz şəxsi müşahidəsi əsasında görüb yazmışdır. E.Kempfer də yazırdı ki, İsfahanda Səfəvi sarayında işlək dil türk dili olub, Səfəvi sülaləsinin də doğma ana dilidir. Türk dili saraydan dövlətin böyükləri və hörmətli adamların da evlərinə yayılmış və şahın mərhəmətini qazanmaq istəyənlərin hamısı bu dildə danışırlar. Bu gün iş belə bir duruma çatmışdır: «Kim istəyir başı bədənin üstündə salamat qala, onda türk dilini bilməlidir». Bu dil həddən çox ciddi, ahəngdar və əzəmətli olduğuna göə də sarayın danışıq dili olmuşdur (96, 167). Dövrün tarixi gerçəkliklərinin əsas göstərciləri olan belə məlumatlar Azərbaycan Səfəvi dövlətinin tarixini təhrif edən tarixçilərin diqqətindən kənarda qalmış, elmi dövriyyəyə cəlb olunmamışdır.

1636-1639-cu illərdə Qolştiniya elçilərinin tərkibində Səfəvi sarayına gəlmiş Adam Olearinin burada dil haqqındakı qeydləri demək olar ki, Pyetro della Valle və E.Kempferin bu barədə yazdıqlarının düzgünlüyünü təsdiq edərək tamamlayır. O, səyahətnaməsində Şamaxıda elçilərin türk dilində «xoş gəldin» deyə qarşılandığı və bütün Şirvan, Ərdəbil əhalisinin bu dldə danışdıqlarını qeyd edir. Gördüklərinə obyektiv münasibətini bildirən A.Oleari yazır: «Hazırda farslar çalışırlar ki, nəinki öz doğma dillərində, daha çox türk dilində danışsınlar». Şirvan, Azərbaycan, İraq, İrəvanda uşaqları daha çox türk dilində tərbiyə edirlər, xüsusən Şah türk dilində həvəslə danışır, İsfahanda Şah sarayındakılardan təsadüfən fars sözü eşitmək olur. Onun müşahidələrinə görə divanxanada rəsmi görüşdə, sarayda əcnəbi elçilərə verilən qonaq-

lıqda süfrə xeyir-duasının türkcə oxunması, dövlət nazirlərinin də türkcə danışmaları bu dilin gerçək dövlət dili statusunda olduğunu göstərir.* Adam Oleariyə görə qədim Persiya Səfəvilər dövrünəki mərkəzi Şiraz şəhəri olan Fars əyaləti idi və təmiz fars dilində yalnız bu əyalətdə yaşayan əhali danışırdı (139, 114, 554, 658, 813). Ancaq onun əsərində Fars əyaləti əhalisinin etnik tərkibi haqqında məlumat verilmir. Məlum olduğu kimi, I Şah İsmayılın dövründən başlayaraq bura Zülqədər və başqa türk elləri, oymaqları köçürülüb yerləşdirilmişdilər ki, onların da gerçək danışıq dili özlərinin doğma türk dili idi.

I Şah Səfinin (1629-1642) hakimiyyəti illərində Azərbaycanın Şərqlə yanaşı, Avropa ölkələri ilə əlaqələri getdikcə möhkəmlənirdi. Səfəvi sarayında rəsmi qəbullarda danışığın Azərbaycan türk dilində getməsi ilə yanaşı, bəzi sənədlər də bu dildə yazılırdı. I Şah Səfi 1635-ci ildə Venesiya hakiminə Baba Əli adlı bir nəfərlə məktub göndərmişdi. Bu məktubda göstərilir ki, bir neçə il əvvəl İstanbula elçiliyə göndərilən Ağarza İsfahani satmaq üçün apardığı ipəyi iki məmurla Venesiyaya göndərilibdir. İpək satılmış, vəsait Venesiya bankına qoyulmuş və Baba Əli həmin vəsaiti gətirmək üçün Venesiyaya göndərilmişdir. Baba Əli Şahın məktubunu Venesiya dojuna təqdim etdikdən sonra, vəsaiti götürmək üçün türk dilində aşağıda göstərilən məzmunda qəbz yazıb banka vermişdir: «Vəche təhrir in horuf budur ki, işbu min qırx üç tarixində Şah Səfi həzrətlərinin name-yi şəriflərilə Venedik divanına gəlib səadətli və izzətli doj həzrətlərinin hüzur şəriflərinə sunub zərrəbxanada Mirzə Əli Təbrizi və Baba Əli Ərdəbili əmanət qoyduğu axça iyirmi doqquz min doqquz yüz riyal quruş tələb elədikdə məzkur vokəla-yi doj moşarəleyh qanunları və məhəbbət üzrə məbləğ iyirmi doqquz min doqquz yüz riyal quruş verilsin deyib buyurdular zərrəbxanada olan bəyləri itaət edib biqüsur və bikəsir məbləğ məzkuri bizə

* Adam Oleari yazır ki, 16 avqust 1637-ci ildəİsfahanda şahın iştirakı ilə əcnəbi elçilərin şərəfinə təşkil olunmuş ziyafətdən sonra, böyük marşal (eşikağasıbaşı) türkcə "Süfrə haqqını, Şahın dövlətini, qazilər qüvvətini Allahdan diləyəlim" deyə, süfrə xeyir-duası verdikdən sonra, ziyafət iştirakçılarının hamısı Allah, Allah deyərək bu istəyin həyata keçməsini Allahdan arzu etdilər.

təslim elədilər. Biz də dəxi qəbz etdik və bu quruşdan qeyri çuxa bahasın eyni hesabla elədik bankda üç min iki yüz qırx dukat on altı suti on bir qəbati bizə vasil oldu və dəxi bir sandıq moğəvva ayna və çeşmək və doqquz tüfəng və bir kon sandıq puç inci… və bir kon sandıq xurde batəmam bizə vasil oldu və üzərində bir axça bir həbbe qaldı.

Əzəldən işbu təzokkore təhrir qılınıb və yədlərinə təməssuk üçün verilmişdir təhrirən fi şəhr rəcəb səne 1045… Əli» (209, 510).

Belə ki, bir sıra Şərq dövlətlərindən fərqli olaraq Səfəvilər dövlətində inşa divanında və bu ölkədə ədəbi-bədii yaradıcıləqda türk dilinin nüfuzu artmış, onun işlənmə dairəsi daha da genişlənmişdir. I Şah Abbas və I Şah Səfi dövründə türk dilindəki diplomatik yazışmalar, rəsmi sənədlər Səfəvi dövlətində XVI əsrdə olduğu kimi, XVII əsrdə də türk dilinin fars dilinə nisbətən daha çox işlək olmasından xəbər verir.

XVII yüzilliyin ortaları və ikinci yarısında Avropa ölkələrindən müxtəlif məqsədlərlə Azərbaycana gələn səyyahların, elçilərin xüsusi təlimat əsasında yazdıqları səyahətnamələr, hesabatlarda, dövlət dili haqqındakı zəngin məlumatlar tarixi gerçəkliklərin üzə çıxarılması üçün çox böyük əhəmyyətə malikdir. Fransa taciri Jan Battist Tavernye və Jan Şarden, almaniyalı bilim adamı Engelbert Kempfer fransalı missioner Sanson və Venesiyalı səyyah Cemelli Karerinin əsərlərində Səfəvi dövlətinin saray dili, ölkə əhalisinin ana dili, diplomatik danışıq dili haqqında zəngin faktiki material vardır. 1631-1668-ci illərdə Şərq ölkələrinə səfəri zamanı dəfələrlə Azərbaycan Səfəvi dövlətində olmuş Jan Battist Tavernye dövlətin ərazisi və sarayındakı ciddi müşahidələrinə istinad edərək yazır: «Səfəvilər öz dillərini üç qrupa bölmüşlər: fars - məlahət dili, türk - siyasət dili, ərəb - fəsahət dili, qəbahət dili isə sürünənlər və kəndlilərin tamlıqla istifadə etdikləri dildir». Müəllif fars dilinə «yüksək zümrələrin» dili qiymətini versə də, onun özünün qeyd etdiyi kimi, lüğət tərkibinin bir hissəsi ərəbcədən ibarət olan bu dili kənd əhli elə günə salmışdır ki, onu şəhərdə heç kim anlamır. Bunun digər səbəbi isə müəllifin özünün göstərdiyi kimi, dövrün elm dilinin ərəb və türkcənin dövlət-saray dili olması ilə əlaqədar

idi (104, 598). Sözsüz ki, Tavernyenin yazdığı kimi, bu dövrdə ərəbcənin elm və türkcənin dövlət-saray dili olması, İsfahan şəhər əhalisi, fəth edilmiş torpaqların, yəni İraq, Lur valiliyi, fars əyalətinin idarələrində türk dilinin rəsmən işlənməsi və bu durumun imperatorluğun cənub-şərqindəki inzibati vahidlərin də əhalinin mütləq əksəriyyətini təşkil edən farslara da təsirləri olmuşdu. Artıq onların da mövcud tələbata uyğun olaraq türk dilini öyrənib, bu dildə danışmağa ehtiyacları vardı. Türk, fars dillərini mükəmməl bilən və ərəb dilində yazıb-oxumağı bacaran fransalı tacir Jan Şarden XVII yüzilliyin 70-ci illərində Səfəvi ölkəsində olmuş və o da Tavernye kimi dil məsələsinə ciddi maraq göstərmişdir. O, yazır: «Səfəvi ölkəsinin əhalisi bir qayda olaraq üç dildən birində, yəni fars, türk ya da ərəb dilində danışırlar… Saray əhli, hərbiçilər, böyüklər, yüksək vəzifəlilərin xanımları evlərində türkcə söhbət edirlər. Ona görə ki, Şah və sülalə üzvləri bütün əhalisinin dili türkcə olan Azərbaycandandırlar» (112, c.3, 946). Şarden Türk və fars xalq danışıq dilinin yayılma arealını də müəyyən etməyə cəhd göstərmişdir. O yazır ki, Səfəvi dövlətinin şimal, şimali-qərb və mərkəzində yaşayan əhali türkcə və imperatorluğun digər nahiyələrinin əhalsi isə farsca danışır. Ancaq onu da göstərmək lazımdır ki, «Ölkənin dövlət dili türk dilidir…» (112, c.3, 947). İsveçdən Lui Fabritsiusun başçılığı altında Səfəvi dövlətinə göndərilən (1683-1684) elçiliyin katibi Enqelbert Kempfer yazırdı: «Səfəvi sülaləsinin ana dili olan türkcə sarayda geniş yayılmış dildir» (96, 167). Cemelli Kareri isə fars dili sözlüyünün zəngin olmadığını, elm və alim dilinin ərəbcə olduğunu, sarayda da türkcə danışıldığını qeyd etmişdir (89, 148). Dil məsələləri Sansonun da diqqətindən kənarda qalmamışdır. O, bu barədə yazır ki, təbəələri Şaha müraciət edərkən türkcə deyirlər: «Qurban olum, din imanım Padşah, başına dönüm» (106, 169).

Əvvəl qeyd olunan məktublarla, rəsmi sənədlərlə yanaşı, Səfəvi dövlətinin tarixi ilə əlaqədar olan XVII əsrin Avropa ədəbiyyatında türkcənin dövlət, saray, diplomatik danışıq dili olması haqqında kifayət qədər elmi əsası olan faktiki materiallar vardır ki, bütün bunlar Səfəvi dövlətinin tarixinə aid tarixçilikdə xüsusilə

çağdaş İran səfəvişünaslığında mövcud olan təhriflərə tutarlı elmi cavablardır. Bu faktiki materiallar Səfəvi dövlətinin yaranma və yüksəlişi tarixini təhrif edənlərin baxışlarının cəfəng olduğunu və irəli sürdükləri qurama konsepsiyalarının elmi arqumentlərə söykənmədiyini, elmi əsası olmayan söz yığınından ibarət olduğunu göstərir. F.Sümər çox haqlı olaraq yazır: «Səfəvi dövlətinin «milli bir İran dövləti» olmasını irəli sürənlər, buna digər bir dəlil olaraq, Səfəvi dövlətinin sasanilər zamanındakı hüdudlarına ulaşdırmış olduğunu da qeyd edirlər. Lakin hüdudlar heç bir zaman bir dövlətin milli dövlət sayılması üçün bir dəlil ola bilməz» (67,3).

Səfəvilər dövlətini quran İsmayıl parlaq zəka sahibi, istedadlı hökmdar və söz sahibi kimi tanınır. İsgəndər bəy Münşi Türkman yazır: «O həzrət (I Şah İsmayıl) şeir deməklə yüksək təbə sahib olub daha çox türkcə şeirə rəğbəti vardı. Təxəllüsü isə Xətayi idi» (80,44). O, Azərbaycan türkcəsinin poeziya dili kimi inkişafında əvəzsiz xidmət göstərmiş, müxtəlif janrlarda yazdığı şeirləri ilə türk söz xəzinəsini yüksək zirvəyə qaldırmış və bu dövrdə Azərbaycan türk şeirinin Füzuli, Həbibi kimi nəhəngləri də öz doğma dillərində yazıb yaratmağa başlamışdır. Azərbaycan türk xalqının əsrlər boyu əldə etdiyi yaradıcılıq ənənələri üzərində XVI-XVII əsrlərdə aşıq poezyasının yüksək zirvəyə ucalması və nəticədə Aşıq Qurbani, Aşıq Abbas Tufarqanlı, Sarı Aşıq, Xəstə Qasım, Aşıq Valeh kimi ustadların doğma dillərində yaratdıqları poetik irs türk dilinin bədii imkanlarını daha da zənginləşdirdi. Bu dilin siyasi və mədəni dəyərinin yüksəlişi ilə bağlı farsca və başqa dillərdə yaradılmış bir sıra əsərlər türkcəyə çevrildi. Nişati Şirazinin Təvəkkül ibn Bəzzazın «Safvət əs səfa» (1538), Məhəmməd Füzulinin, Molla Hüseyn ibn Əli əl-Kaşifinin «Rövzət üş-şühəda» adlı əsərini türkcəyə tərcümə etməsi, I Şah İsmayılın, I Şah Təhmasibin, I Şah Abbasın Azərbaycan mədəniyyətinn inkişafındakı böyük rolları Azərbaycan türk xalqının varlığının, Azərbaycan Səfəvi dövlətinin etnik kimliyinin gerçək göstəricisidir.

## § 2. **Ali dövlət hakimiyyəti orqanları və türk əyanları**

Səfəvi dövləti tarixinə həsr edilmiş bir çox əsərlərin dövlət quruluşunda «əmarət» institutunun rolu ilə bağlı bəhslərində əmirlərin saray əmirləri (üməraye dövlətxane-ye mübarək, yaxud ümərа-ye dərgah), qoşun əmirləri (ümərа-ye ləşkər) və sərhəd əmirlərindən (ümərа-ye sərhəd) ibarət üç zümrəyə bölündükləri və dövlət idarəçiliyində nüfuzlarına görə «yüksək əmirlərə» böyük, əzəmətli, alimiqdar, alitəbar kimi fəxri ünvanlarla müraciət olunduğu qeyd edilir. Bu əsərlərdə «əmarət» və xüsusilə qoşun əmirlərinin ikinci qrupa daxil olmaları ilə bağlı ziddiyyətli fikirlərə də təsadüf olunur. «Təzkirət əl-müluk» da Səfəvilərin dövlət və idarə quruluşunda əmirlərin rolu və statusları ilə bağlı məsələləri araşdırıb təhlil etməklə qeyd olunan bu ziddiyyətli məqamlara aydınlıq gətirmək mümkündür.

Mirzə Səmianın yazdığına görə Səfəvi dövlətində əmirlər iki zümrədən ibarət idilər ki, onlardan biri «ümərа-ye qeyri dövlət», yəni sərhəd əmirləri adlanırdı. Sərhəd əmirləri valilər, bəylərbəyilər, xanlar və sultanlardan ibarət dörd qrupa bölünürdülər. Valilər vəzifələrinə görə bəylərbəyilərdən yüksəkdə dayanır və bəylərbəyilər isə rütbələrinə görə xanlardan üstün idilər. Bəylərbəyinin başçılıq etdiyi inzibati vahiddəki hakimlərin hamısı ona tabe olmaqla onun məsləhəti əsasında vəzifəyə təyin olunur və vəzifədən azad edilirdilər. Hər bir əyalətdəki sultanlar da öz növbələrində həmin əyalətə başçılıq edən xanlara tabe idilər (132, 4, 12, 76-77).

Səfəvi dövlətində ali hakimiyyətin irsi mahiyyət kəsb etməsinə baxmayaraq, mərkəzi və yerli idarə orqanlarında vəzifə, titul, rütbələr atadan övlada irsən verilmirdi. Qısa zaman kəsiyində Səfəvi dövlətinin idarə quruluşunu dərindən öyrənən Adam Oleari yazırdı ki, igidliyi və digər şücaəti ilə seçilən insanlara xan titulu verilib vilayətlərə göndərilirlər. Şaha və vətənə sədaqətli xidmətlərə görə də böyük titul əldə etmək olur. Elə buna görə də, müharibə çağlarında yüksək məqama çatmaq arzusunda olanlar fədakarlıq göstərib, xan titulu qazanırlar. Məsələn, I Şah Abbas (1587-1629)

qacarlardan adi çoban oğlu olan Əmirgünəyə igidlik və fədakarlığına görə xan titulu verib Çuxur Sədə hakim təyin etmişdi. Yaxud I Şah Səfi (1642-1666) dövründə Şirvan hakimi Sərablı Ərəb xan da adi kəndli oğlu olub şəxsi keyfiyyətinə görə xan titulu ilə yüksək bir vəzifəyə göndərilmişdi. Ancaq əvvəl qeyd olunduğu kimi, titul və rütbə qan qohumluğu ilə ailənin digər üzvlərinə irsən keçmirdi. Baxmayaraq ki, xanların övladları xüsusi ehtirama layiq olub, hətta atalarının mülklərinə sahib çıxırlar, ancaq onlara nə atalarının vəzifəsi, nə də titulu şamil edilmir və bu məqam onlara özlərinin igidlik, fədakarlığına görə verilə bilərdi (139, 884, 887).

Ölkədə on üç bəylərbəyi və dörd vali vardı ki, onlardan Ərəbistan valisi şəxsi şücaəti və elinin nüfuzuna görə şan-şöhrətli olub, həm də yüksək rütbə sahibi idi. Ondan sonra ikinci yerdə duran Luristan valisi isə müsəlman olduğuna və dövlət qarşısında xidmətlərinə görə Gürcüstan valisi ilə müqayisədə etibarı daha çox idi. Nüfuzuna görə isə Gürücstan valisindən sonra dördüncü yerdə Kürdüstan valisi dayanırdı (132, 5).

Mirzə Səmia yazır ki, digər zümrəyə daxil olan əmirlər isə bir qayda olaraq mərkəzdə şahın xidmətində olan xüsusi vəzifə sahibləri olub, onlar «üməra-ye dövlətxane-ye mübarək» mübarək dövlətxana əmirləri adı ilə məlumdurlar. Onlardan qorçubaşı, qul-larağası, eşikağasıbaşı, tüfəngçiağasından ibarət dörd nəfər dövlətin əsas dayaqları hesab olunurdu. Qeyd olunan bu dörd nəfərlə birlikdə vəzir-i əzəm (baş vəzir), divanbəyi, vaqiyənəvis, yəni cəmi yeddi nəfər əski çağlardan bəri «üməra-ye canqi» adlanırdı. Bir çox qaynaqlarda moğollar və teymurluların dövründə dövlətin məşvərət, yəni gənəşik şurası «Canqi və məsləhət» şəklində verilmişdir ki, bu da Səfəvilər dövrünün qaynaqlarında da «canqi» istilahının gənəşiyə sinonim olaraq işlədildiyini deməyə əsas verir. Şah Sultan Hüseynin zamanında nazir, mustoufi əl-məmalik və əmir-e şikarbaşı da canqi əmirləri tərkibinə daxil olmuşdular. Əgər «Canqi», yəni Gənəşik şurası məmləkətin hər hansı bir tərəfinə sipəhsalar göndərmək istədikdə, bu məsələnin müzakirəsi ilə bağlı onların toplantısında sipəhsalar özü də mütləq iştirak etməli idi (132, 5; 103, 78; 77, 244).

Sanson yazır ki, məmləkətin bütün işləri Dövlət şurasında həll edilir ki, bu şura bərabər sayda məzhəbi, hüquqi və hərbi müşavirlərdən ibarətdir. Onlar ağıllı, təcrübəli adam arasından seçilmiş, hamısı bacarıqlı, düşüncəli, çevik, nüfuzlu və fəaldırlar (106, 170). Sansonun Dövlət şurası, yaxud dövlət heyəti adlandırdığı bu orqan «gənəşik şurası», yəni Ali məclis olub, dövlət əhəmiyyətli məsələlər bu məclisdə müzakirə edilir və əcnəbi ölkələrdən gələr səfirlər də şuranın üzvlərinin iştirakı ilə rəsmi qaydada qəbul olunurdular. Məclis baş vəzirin çıxışı ilə açılır və burada vəzifələrə təyinat, müəyyən yüksək vəzifəli məmurların maaşının artırılması, mükafatlara təqdimata, ərizə və şikayətlərə də baxılırdı (96, 33, 34).

Hakimiyyətin irsi xüsusiyyəti və hökmdarın qeyri-məhdud səlahiyyəti ilə yanaşı, mərkəzi idarə sistemində məşvərətçi orqan olan məclisi əla (ali məclis) fəaliyyət göstərirdi. Dövlət əhəmiyyətli mühüm məsələlərin on iki nəfər üzvü olan bu məclisdə müzakirəsinə baxmayaraq son sözü Şah deyir, yəni onun rəyi əsasında qərarlar qəbul olunurdu. Müqavilə bağlamaq, müharibə elan etmək, ölkə qanunlarında dəyişikliklər şahın qeyri-məhdud səlahiyyəti olub, bu məsələlərdə onun qarşısında heç bir maneə yox idi (107, 220-221; 89, 33, 34, 35).

Baş vəzir dövlət şurasının, yəni məşvərətçi orqan olan ali məclisin (məclisi əla) üzvü olub onun iclaslarında əmir-i əzəm statsu ilə iştirak edir və burada son sözü şah desə də, əslində iclası o aparırdı. Engelbert Kempfer bu barədə yazırdı ki, dövlət şurası iclası Şah salona daxil olub salam verdikdən sonra baş vəzirin ölkənin ümumi durumu ilə bağlı nitqi ilə açılırdı. O, iclasda ölkə əhalisinin yazdıqları müxtəlif ərizələri Şahın nəzərinə çatdırdıqdan sonra, Şaha əhalinin rifahı haqqında da məlumat verirdi. Baş vəzir müxtəlif adamların vəzifə tutmaq haqqındakı müraciətlərini, məvaciblər, mükafatlar və bir çox siyasi məsələləri məclisin müzakirəsinə çatdırırdı (96, 33-34). Bütün bunlar onun dövlətin idarə quruluşunda səlahiyyət bölgüsü baxımından Şahdan sonra ikinci yerdə dayandığını və faktiki olaraq əmir-i əzəm statusuna malik olduğunu təsdiq edir.

«Təzkirət əl-müluk» da göstərilir ki, ali divanın yüksək rütbəli baş vəziri dövlətin əsas dayağı olub, saray və məmaliki məhrusənin sərhəd əmirləri içərisində ən böyük əmir idi. Dövlət vergilərinin alınması, xəzinəyə ölkə üzrə ödənilən vəsaitlərin mədaxil-məxaric əməliyyatı onun divanında təliğə və hökmü əsasında qeydiyyata alınırdı (132,5).

Tavernye gündəliyində Səfəvi dövlətinin idarə quruluşu haqqında yazırdı ki, ölkənin birinci şəxsi «Etimadəddövlə» adlanır və bu osmanlılarda Vəziri-əzəm (baş vəzir) anlamında olub ona uyğundur. Fərq yalnız ondadır ki, Səfəvilərdə etimadəddövlə qələm əhli olur, yəni savadlı adamlar arasından seçilib bu vəzifəyə təyin edilir və ölkənin bütün mülki, maliyyə məsələlərinə baxır. Ancaq osmanlılarda «vəziri əzəm» şəmşir əhlidir və müharibədə qoşuna başçılıq edir. Kiçik bir təqsir və ya xəta üzündən başı bədənindən dərhal ayrılır. Ancaq Səfəvi hökumətinin idarə üsulu daha mülayim və mötədildir. Çünki vəzirləri adətən vəzifə başında ölürlər. Onların günahları olanda isə paytaxtdan kənar şəhərlərin birinə sürgün olunurlar. Və orada qeyri-rəsmi adamlar kimi yaşayırlar. Xülasə, etimadəddövlənin, yəni hər kəs ki, bu mənsəbə, məqama malikdir, onların qarşısında çox böyük çətinliklər olur. Onlar öz işlərində çox ehtiyatlı və diqqətli olmalıdırlar. Məclisi vüzərada etimadəddövlənin müəyyən məsələ barəsində qərarı qəti olmalıdır. Qərar qəti olmayanda sarayın yüksək məqamlı əyanları, xanımları xüsusilə şahın cavanlığından, sərxoşluğundan istifadə edərək etimadəddövlənin gündüz gördüyü işləri gecələr heç nə edirlər (104, 572).

Adam Oleari dövlət idarəçiliyində geniş hüquq və səlahiyyətlərə malik olan etimaddövlənin dövlət kansleri və şahın məxfi müşaviri olduğunu qeyd etmişdir (139, 542). Baş vəzirin hüquq və səlahiyyətləri Tavernye, Adam Oleari ilə müqayisədə Engelbert Kempferin gündəliyində daha geniş bir səpkidə təsvir olunmuşdur. Onun yazdığına görə baş vəzir çox yüksək vəzifə sahibi, ali divan yaxud mərkəzi dövlət divanın başçısı və vəzifəsinə görə həm də şahın naibi hesab olunurdu. Müqavilələrin təsdiqi və yaxud imzalanmaması onun səlahiyyətinə daxil idi. Zərbxanalarda sikkələrin zərbinə nəzarət edən baş vəzirin razılığı olmadan dövlət işlərində

dəyişikliklərin həyata keçirilməsinə və qərarların qəbul olunmasına icazə verilmirdi. Valilər, hakimlər, darğalar başçılıq etdikləri inzibati vahidlərdəki bütün məsələlərin həllində onunla məsləhətləşməli onun razılığı olmadan hər hansı bir işi təkbaşına həll etməməli idilər. Ölkə miqyasında qayda-qanuna baş vəzir nəzarət edirdi. Bütün vəkillərin, yerli hakimlərin mərkəzə göndərdikləri məlumatları, ərizələri Şaha baş vəzir məruzə edir, ölkənin ümumi durumunu da şaha o çatdırırdı» (96, 75-77). «Təzkirət əl-müluk» adlı qaynaqda baş vəzirin statusu haqqındakı bəzi məlumatlara səyyah gündəliklərində təsadüf olunmur. Qaynaqda qeyd olunduğuna görə dövlət vergiləri, xəzinənin bütün mədaxil və məxarici baş vəzir divanında qeydiyyatdan keçirdi. O cümlədən dövlət idarə orqanlarına məmurların vəzifələrə təyinatı ilə bağlı fərmanlar da baş vəzirin möhürü olmadıqda onlar şahın möhürü ilə təsdiqini tapa bilməzdi. Ezamiyyətə göndərilən bütün məmurların da əmr sənədlərinə əvvəlcə onun möhürü vurulurdu. Mülki, hərbi-inzibati sahədə çalışan bütün qulluqçuların məvacibləri də baş vəzirin yazılı göstərişindən sonra maliyyə məmurları tərəfindən hesablanıb müəyyən edilirdi. Ümumiyyətlə, ölkənin maliyyə divanı ilə bağlı bütün məsələlərə o nəzarət edir və sənədlər onun möhürü ilə təsdiq olunurdu. Məmaliki məhrusənin (yəni bütün ölkənin) bütün gəliri toplanıldıqda bu sahədə mövcud olan qaydaya əməl etməyən şəxsə baş vəzir öz tövsiyəsini edir və bu hal bir daha təkrar olunsa, dərhal Şaha məlumat çatdırır, Şahın bu barədə çıxardığı hökmü yerinə yetirirdi. Divan mühasibləri, bəylərbəyilər, sultanlar, vəzirlər (vilayət vəzirləri) mustoufilərin hesablarında qüsur, yaxud kəsir olduqda bu məsələyə baş vəzirin xidmətində baxılırdı. Dövlətin bütün maliyyə haqq-hesabına baş vəzir nəzarət etməklə yanaşı, bu işdə mövcud olan qüsurlar da ona çatdırılmalı idi. Divan-i məmalik (məmalik divanı) dəftərxanasının münşiləri, xasse-yi şərifə (divan-i xassə) münşiləri haqq-hesab əməliyyatlarını və buradakı nöqsanları baş vəzirin təliqəsi əsasında icra edirdilər. Hər iki divanın ümumi haqq-hesab sənədlərinə, xərc sənədlərinə, vergi yığanların və onun təhvildarlarının (təhvil götürənlər) təliqələrinə baş vəzir möhür vurub təsdiq edirdi (132, 6). Kempfer gündəliyində qeyd edir ki,

dövlətdə ən böyük vəzifə «ali divanın» rəisidir. Bu vəzifəni Şahın müavini hesab olunan baş vəzir aparır. O, eyni zamanda, ölkənin bütün rəhbər işçiləri, əyanlarına başçılıq edir. Elə buna görə də, bəzən «etimadəddövlə» adlanan baş vəzirə «məmləkətin pənahı və dayağı» da deyirlər (96, 33, 76). Yerli idarəçilik və daxili siyasətlə bağlı bütün məsələlərdə baş vəzirin müstəsna hüquqları vardı. Bu sahədə bütün qərarlar onun məsləhəti ilə qəbul edilir və icra olunurdu. Ölkədə baş verən bütün hadisələr barədə ona vaxtaşırı məlumatlar çatdırılırdı ki, bu barədə hər gün sarayda olan baş vəzir şaha hesabat verirdi. Həm də o baş vermiş hadisələrlə bağlı çətinlikləri aradan qaldırmaq üçün öz təkliflərini də şaha təqdim edirdi. Eyni zamanda, dövlət əhəmiyyətli məsələlərin müzakirəsi, başqa ölkələrdən gəlmiş elçilərin qəbulu ilə bağlı yığıncaqlarda giriş sözü ilə baş vəzir çıxış edərək bu barədə məlumatlar verirdi. Rəsmi yığıncaqlarda ölkədəki vəziyyətlə yanaşı, şikayətləri, müxtəlif məzmunlu rəsmi və qeyri-rəsmi məktubları da Şahın müzakirəsinə baş vəzir təqdim edirdi. Şahın bütün bu məsələlər haqqında fikir və mülahizələrini o əsas kimi qəbul edir və Şahın mülahizələri əsasında bütün məsələləri həll edirdi. Ancaq müəyyən məsələlərə o təkbaşına baxırdı. Belə ki, vilayət hakimlərinin göndərdiyi nümayəndələri şəxsən özü qəbul edib onları dinləyir və vilayətlərdəki çətinlik və sairə ilə bağlı işlər barədə adətən sərbəst sərəncamlar verirdi. Ancaq hakimlər, valilər, darğalar və s. ilə bağlı həlli çətin olan məsələlər ortaya çıxdıqda bu barədə şahın rəyini öyrənirdi. Adətən ölkə daxilində mülki, iqtisadi məsələlər divanbəyi, mustoufi, darğa, eşikağasıbaşı və s. yüksək rütbəli məmurlarla birlikdə müzakirə olunurdu. O, vilayət hakimləri, darğa və başqa dövlət məmurlarına nəzarət də edirdi (96, 32, 76). Divana mülazim və xidmətçi götürülən zaman baş vəzirin bu barədə hökmü tələb olunurdu. Eyni zamanda, saray dəftərxanası münşiləri, biyutat işçilərini işə mustoufi əl-məmalik, biyutat nazirini xassə mustoufisinin razılığı ilə baş vəzir təyin edirdi (132, 6).

Baş vəzir xarici ölkələrdən gələn elçiləri qəbul edərək onlarla ilkin danışıqları apardıqdan sonra bu nümayəndələri Şahın rəsmi qəbuluna təqdim edirdi. Eyni zamanda, müharibə və sülh məsələləri

ilə bağlı rəsmi yığıncaqlarda əsas dövlət məmuru kimi iştirak edərək rəyi nəzərə alınırdı. E.Kempfer yazır ki, müharibə və sülh məsələlərində Şah bir qayda olaraq baş vəzirin fikirlərini öyrənir (96, 33). Və bu məsələlərlə bağlı rəsmi müzakirələrdə baş vəzirin iştirakı xüsusi əhəmiyyət kəsb edirdi. Eyni zamanda, Şah bəzən xarici ölkələrdən gəlmiş elçilərlə danışıqları birbaşa baş vəzirə həvalə edirdi. Bu halda ona danışıqlar aparılanda geniş səlahiyyətlər verilirdi. Sansonun 1683-cü ildə I Şah Süleyman (1666-1694) sarayında Almaniya, Polşa, Rusiya elçiləri ilə aparılan danışıqlar haqqındakı qeydləri xarici siyasət sahəsində baş vəzirə verilmiş statusun qismən aydınlaşdırılmasına imkan yaradır. O yazır ki, Almaniya elçisi etimadəddövlə Şeyxəli xanın qəbulunda onunla Səfəvi-Osmanlı münasibətlərinə dair danışıqlar aparmışdır. Baş vəzir ona bildirmişdir ki, Səfəvilər Osmanlılarla müqavilə bağlamış, dinc şəraitdə yaşayır və şahın bu sahədə öz vədinə əməl etməsi ölkəmiz üçün çox faydalıdır. Arşevak de Abranel Almaniya imperatorunun məktubunu Şahın özünə təqdim etdikdən sonra Osmanlı-Səfəvi münasibətlərini pozmaq üçün vəzirlə yenidən apardığı danışıqlar baş tutmamışdır. Baş vəzir alman elçisinə bildirmişdi: «Şah əhd-peymanı pozmağı hünər hesab etmir». Almaniya elçisindən bir qədər sonra baş vəzir Polşa səfiri Solomon Skurkini qəbul etmiş və onunla da Osmanlılarla bağlı məsələ müzakirə olunmuşdu. Polşa elçisinin Bağdad, Bəsrə, Ərzurumun geri qaytarılması ilə bağlı əlverişli şəraitin mövcud olması ilə bağlı irəli sürdüyü mülahizələr vəzir tərəfindən yaxşı qəbul olunmamışdı. Rusiya elçisi isə Osmanlı dövlətinin aradan götürülməsi işində Səfəvilərdən yardım almaq məsələsi ilə bağlı yenə də baş vəzirlə danışıq aparmışdı. Baş vəzir ona cavabında bildirmişdi: «Osmanlı dövləti zəifləsə belə, Səfəvilər bu dövlətin yox olmasını istəmir. Baxmayaraq ki, Osmanlı dövləti bizim çox qüdrətli qonşumuzdur və hətta bəzən bizim üçün qorxu da törədirlər. Ancaq biz istəməzdik ki, qonşuluğumuzda Osmanlı dövlətinin əvəzinə qeyri-müsəlman dövləti, yəni xristian dövləti olsun. Xristian dövləti ilə qonşuluq bizim üçün çox çətin olar. Osmanlı dövləti Səfəvilərlə xristian dünyası arasında çox davamlı bir sədd yaratmışlar. Bu sədd xristian dövlətlərinin ölkəmiz üzə-

rində hücumlarının qarşısını alır». Bu danışıqların nəticələrindən narazı qalan xristian dövlətləri Solomon Skurkini yenidən Səfəvi ölkəsinə göndərmişdilər. O, xristian dövlət başçılarının şaha məktublarını təqdim etməli və Osmanlı dövlətinə qarşı onu müqavilə bağlamağa razı salmalı idi. Ancaq danışıqları yenə də baş vəzir aparmış və ona qəti olaraq bildirmişdi: «Şah ölkəsinin ərazisinin bir qismini güzəştə gedər, ancaq Osmanlı dövləti ilə müqaviləni pozmaz, nə də ona tabe olan ölkələrə hücum etməz» (106, 24, 175, 205).

Avropa dövlətləri Şərqdə geniş əraziləri əhatə edən ölkələri işğal etmiş və bununla kifayətlənməyərək müstəmləkəçilik bayraqlarını sancmağa yeni ölkələr axtarırdılar ki, bu işdə də Bəsrədə, Kufədə, Şirazda missioner məntəqələri müsəlman dövlətçiliyi və ideolojisini pozaraq onların yardımçısı rolunu oynayırdılar. Belə bir vaxtda Osmanlı və Səfəvi ölkəsinə giriş əldə etmiş İngiltərə müstəmləkə nazirliyinin missioner proqramı ilə fəaliyyət göstərən casusları elçi, yaxud başqa adla bu iki şərq ölkəsi arasında münasibətləri ənənəvi xarici siyastlərinə uyğun şəkildə pozmağa və yolları üzərindəki ən böyük maneə olan sultanlığı aradan götürməyə çalışırdılar. Ancaq şahdan geniş hüquqlar almış və bu məsələnin mahiyyətini az-çox dərk edən Şeyxəli xan Avropa elçilərinin fitvasına nəinki getmədi və həm də onlara qəti cavablar verdi.

Əcnəbi ölkə səfirlərinin ölkələrinə yola salınması ilə əlaqədar təşkil edilən rəsmi məclislərdə də baş vəzir şahdan sonra əsas rol oynayırdı. C. Kareri yazır ki, 1694-cü ildə Şah elçiləri Ala qapıda fərşlərlə döşənmiş xüsusi bir salonda qəbul etdi. O, salonun yuxarı başında əyləşmişdi. Salona daxil olan elçiləri mehmandarbaşı və eşikağasıbaşı Şaha təqdim etdilər. Bu zaman Şahın sol tərəfində bir neçə xacə dayanmışdı. Polşa səfiri Şaha təzim etdikdən sonra etimadəddövlə Şahın məktubunu ona təqdim etdi. Xüsusi zərfdəki məktubu səfir ehtiramla qəbul etdikdən sonra baş vəzir Şahın adından ona bir neçə cümlə söylədi və səfirə ölkəni tərk etməsinə icazə verildi. Eyni qayda ilə baş vəzir Vatikan elçisinə də Şah tərəfindən papa və Venesiyaya yazılmış məktubları verdi. Vida mərasimi çox qısa oldu və naharla başa çatdı (89, 121).

Şahın fərmanı və hökmləri ilə icrası həyata keçirilən mövcud qanunlar əsasında təsis edilən, fəaliyyəti tənzim olunan mərkəzi dövlət aparatı strukturunda ali nəzarət divanı və ona başçılıq edən baş vəzirin (vəzir-i əzəm) dövlətin maliyyə orqanlarının idarə olunmasında da çox geniş hüquqları vardı. Vəzir-i əzəm dövlət strukturunda Şahdan sonra yüksək vəzifə sahibi olub hüquq və səlahiyyətinə görə şahın naibi (müavin) hesab olunurdu. Mərkəzi dövlət aparatı strukturuna daxil olan bütün idarələrin, əyalət orqanlarının fəaliyyətinə tutduğu vəzifəyə görə nəzarət edən baş vəzir həm də xarici ölkə nümayəndələri ilə danışıqlar aparmaq, müqavilələr bağlamaq hüquqlarına da malik idi. Dövlətin qeyri-məhdud səlahiyyətə malik hökmdarının (şahın) naibi olan baş vəzirin təminatı haqqında məlumat verən Sanson yazır ki, o, hər ay xəzinədən xüsusi xərclərinə görə Fransa pulu ilə 540 min livr (1 tümən = 45 livr) yəni 1000 tümən məvacib alırdı (106, 44; 132, 5-7). Ancaq V. Minorskiyə görə baş vəzir şah tərəfindən müəyyən olunmuş məvaciblə deyil, müxtəlif qaynaqlardan yığılan rəsm ül-vüzara adı ilə məlum olan təqaüd hesabına maliyyələşdirilirdi (103, 84). Ancaq mənbələrdə məvacib müqabilində soyurqal verilməsi hallarına da təsadüf edilir. «Xolde bərin»də I Şah İsmayıl dövrünün baş vəzirlərindən Mirzə Şah Hüseynin Kaşanın «sahibi soyurqal»ı (128, 275) olması haqqındakı məlumat, baş vəzirin təminatında vahid qaydanın olmadığını göstərir.

Sanson dövlətin mərkəzi maliyyə idarəsinin strukturu haqqında məlumat verərək baş vəzirə tabe vəzarət divanın altı vəzirdən ibarət olduğunu qeyd edir. O yazır ki, vəzarət divanında birinci vəzir - mustofi əl-məmalik olub bütün maliyyə idarələrinin rəisi hesab olunurdu. İkinci vəzir - xassə-mustofi adlanır və sarayın xüsusi maliyyə müfəttişi olub həm də İsfahan müfəttişliyinə başçılıq edirdi. Üçüncü vəzir - vəzarət divanındakı dəftərxanaların darğası olub maliyyə idarəsi dəftərxanalarına nəzarət edirdi. Dördüncü vəzir - vəzir əl-müluk adlanırdı. Və şahın dəftərxanasını qoruyub saxlamağa başçılıq edirdi. Beşinci vəzir-xassə əmlakının maliyyə məsələləri üzrə baş vəzirin müavini olub sarayın mədaxil və məxaric işlərinə baxırdı və xassə vəziri adlanırdı. Altıncı vəzir –kələntər

(İsfahan şəhər kələntəri-Z.B) adlanmaqla İsfahanın ticarət işlərinə və tacirlərin maliyyə məsələlərinə baxırdı. Sanson bu vəzirlərin Fransadakı baş maliyyə idarəsi rəislərinə oxşadığını qeyd edərək göstərir ki, onların hər biri öz vəzifə xidmətlərindən əlavə bir neçə əyalətin işlərinə də nəzarət edirdilər (106, 45-46).

Baş vəzirə tabe altı vəzirdən başqa onun xidmətində iki katib var idi ki, onlar da «sahibi rəqəm» adlanırdı. Onlar hökm və fərmanları yazır və göndərilməsini təmin edirdilər (132, 7, 17). Baş vəzir, həm də ali divana rəhbərlik etdiyinə görə o, bəzən «sahib-i divan» da adlanırdı (24, 53). Baş vəzirlə sahibi divan qaynaqlarda sinonim kimi işlədilirdi. Belə ki, Məhəmməd Yusif Qəzvini I Şah İsmayılın dövründən danışarkən yazır: «vəzarət və sahebdivani» Əmir Zəkəriyyə Köcəciyə tapşırılmışdı (128, 123). Yəhya ibn Əbdüllətif Qəzvini I Şah İsmayılın 1503-1504-cü illərdə Ağqoyunlu Sultan Muradla savaşlarından bəhs edərkən Şərəfəddin Mahmudcan Deyləmi Qəzvinin Əmir Şəmsəddin Zəkəriyyə ilə vəzarət mənsəbində ortaq olduğunu qeyd etmişdir (138, 396; 128, 123). Azərbaycan torpaqlarının mərkəzləşdirilməsi uğrunda müharibələrin getdiyi bir dövrdə I Şah İsmayılın baş vəzir mənsəbini iki nəfərə tapşırması dövlət ərazisinin məmalik və xassəyə bölünməsi təcrübəsindən irəli gəlirdi. Ancaq bu mənsəb onların arasında xüsusi idarə səlahiyyəti ilə bölünməmiş və hər ikisi bərabərhüquqlu statusa malik olmuşdular.

Qeyd olunduğu kimi qaynaqlarda baş vəzir əmire divan, sahib-i divan və hətta vəkil ünvanı ilə yazıya alınmışdır. I Şah İsmayıl və I Şah Təhmasibin dövründə vəkil əslində vəzirə sinonim kimi də qaynaqlarda göstərilir. Eyni zamanda onu da göstərmək lazımdır ki, bu dövrdə vəkil titul, yaxud mənsəb kimi də baş vəzir vəzifəsinə əlavə edilirdi. I Şah İsmayıl h. 914-cü (1509) ildə Əmir Nəcməddin Məsudini baş vəzir təyin edib, ona vəkalət mənsəbi vermişdi. Şahın fərmanına görə heç bir əmirin divanda Əmir Nəcməddinin işlərinə qarışmağa ixtiyarı yox idi. Həm də bütün fərman və hökmlərdə o, bütün dövlət əmirlərindən fərqli olaraq ən yuxarıda möhür vurmalı idi. Ona ölkənin mülki və iqtisadi məsələlərinin həllində tam sərbəstlik verilmişdi. Əmir Nəcməddin

1510-cu ildə Təbriz şəhərinin 8 fərsəhliyindəki Xamnədə vəfat etmişdi. I Şah İsmayıl 1510-cu ildə Əmir Yarəhməd Xuzanini baş vəzir təyin edib, vəkalət mənsəbini də ona tapşıraraq, həm də ona «Nəcmi sani» (ikinci Nəcmi) ayamasını vermişdi. Nəcmi Sani isə 1512-ci ildə Buxara yaxınlığında Qicduvanda özbək əmirləri ilə savaşda öldürülmüşdü (88, 43, 502-503; 138, 407, 408; 85, v.288 a-b). Xandəmir yazır ki, hələ 1510-cu ildə Şah Xacə Seyfəddin Bitikçini xassə əmlakına vəzir təyin edib ona Şahın bütün fərmanlarına möhür vurmaq hüququ da vermişdi. Nəcmi Saninin vəfatından sonra isə "vəkaləti nəfsi nafisi humayu"nun (Şahın dəyərli ruhunun vəkili, yəni sahib-i ixtiyar) bütün işləri də Xacə Seyfəddin Bitikçiyə tapşırılmışdı. Divan işlərində geniş hüquqlar verilən Xacə Seyfəddin sahibi divan, yəni baş vəzir səlahiyyətini icra edirdi (88, 507, 527). Xandəmir yazır ki, 1514-cü ildə I Şah İsmayıl Mirzə Şahhüseyni «etimadəddövlə» «vəkil əs-sltənə» vəzifəsinə təyin etdi. Baş vəzir təyin olunması haqqındakı hökmdə ona dövlətin idarə olunmasında sərbəstlik verilməklə yanaşı, bütün vəzirlərin, əmirlərin, əyanların da ona tabe olmaları göstərilmişdi. Onun xəbəri və razılığı olmadan divanda ən xırda məsələlər belə həll oluna bilməzdi (88, 550, 558; 128, 243; 77, 150).Yəhya ibn Əbdüllətif Qəzvininin yazdığına görə əsgəri təşkilata əmirlərin təyin edilməsi də ona tapşırılmışdı (138, 417, 418). Mirzə Şahhüseyndən sonra Xacə Cəlaləddin Xandəmir Təbrizi (Xacə Cəlaləddin Məhəmməd Göcəci-Z.B.) 1524-cü ildə baş vəzir təyin edilmişdi (77, 184; 128, 317). Onunla ortaq vəzir, həm də «sahibi divan» olan Qazı Cahan Qəzvini 1525-ci ildə əmir əl-üməra Div sultan Rumlu tərəfindən həbs edilir (128, 334). Qazi Caha Qəzvinidən sonra ali divana nəzarət Mir Cəfər Savəçiyə tapşırılır (77, 189). 1532-ci ildə Mir Cəfər Savəçinin yerinə Əhməd bəy Nurkamal ali divana vəzir təyin edilir (77, 244). 1534-cü ildə Mir Qiyasəddin Xuzani İsfahani və Xacə Muinəddin Əli ali divanın vəzirləri oldular. Ancaq 1535-ci ildə baş vəzir vəzifəsinə əslən qəzvinli olan Qazı Cahan əl-Hüseyni təyin olunur (28, 74, 75). XVI yüzilin 50-ci illərində Köcəci nəslindən Əmir bəy Köcəcinin «vəzir-e divane ali» olması (108, 76; 77, 355) və ona qədər və ondan sonra baş vəzir vəzifəsinə təyinatlar

təhlil edildikdə məlum olur ki, baş vəzirlərin sırasında Təbriz əsilzadələri az olmamışdır.

Məsum bəy Səfəvi 1546-1547-ci illərdə Şeyx Səfi məqbərəsi vəqf əmlakının mütəvəllisi, 1559-1560-cı illərdə isə «Vəkalət-i Şah-i din-pənah», yəni divan əmiri olub, vəzir vəzifəsinə yüksəlmişdi. O, Şeyxavənd boyundan olub, həm də I Şah Təhmasibin oğlu Heydər Mirzənin də lələsi idi. Bir müddət baş vəzir vəzifəsində olmuşdu (80, 161; 28, 106; 20, 229, 230; 128, 401). 1573-1574-cü illərdə bu ali mənsəb Xacə Cəmaləddin Əli Tərizi ilə Mir Seyid Hüseyn Fərəhaniyə verilir və hər birinə 500 Təbriz tüməni məbləğində maaş təyin edilir. Onların hər ikisi bu vəzifədə bir il qaldılar (80, 161; 77, 458; 20, 230). Soy adlarından göründüyü kimi Xacə Cəmaləddin Təbrizli, Mir Seyid Hüseyn isə Fərah seyidlərindən idi. 1576-cı ildə isə mustoufi əl-məmalik Mirzə Şükürulla İsfahani ali divanın vəziri oldu (128, 556). II Şah İsmayıl elə həmin ildə onu tutduğu vəzifədən azad edib, I Şah Təhmasibin hakimiyyətinin son illərində nazir-i büyutat olmuş Mirzə Salman Cabiri İsfahanini ali divana baş vəzir təyin edir (128, 446, 449). Məhəmməd Xudabəndənin dövründə də baş vəzir olan Mirzə Salman qızını onun oğlu Həmzə Mirzəyə nişanlayıb, oğlu Mirzə Abdullanı da şahzadəyə vəzir təyin etdirib baş vəzir kimi mövqeyini möhkəmləndirmişdi. O, Qızılbaş-Türk əmirləri arasında narazılıq yaradaraq dövlət hakimiyyətini xeyli zəiflədə bilmişdi. Mirzə Salmanın Mirzə Nizam adlı oğlu da şahzadənin «həmsöhbət» və müşaviri idi. Xorasanda Qızılbaş-Türk əmirləri arasında fitnə-fəsad törədən Mirzə Salmanın siyasəti dövlətçilik üçün son dərəcə qorxulu idi, Herat hakimi Əliqulu xan Şamlının anası (Həmzə Mirzənin süd anası), Həmzə Mirzənin vəziri Hüseyn bəy və bir çox görkəmli qızılbaş əmirləri onun xəyanətinin qurbanı olmuşdular. Baş vəzirin fitnə-fəsadının mahiyyətini başa düşən qızılbaş gəncləri onu 1583-cü ildə Heratda Sultan Hüseyn mədrəsəsində ələ keçirdilər və ona ilk zərbəni Məhdi Ülyanın qohumlarından Təhmasib bəy Mosullu vurdu. Mirzə Salman və onun hər iki oğlunun əmlakı müsadirə olundu (128, 670-674).

İsgəndər bəy Münşinin yazdığına görə əlahəzrət I Şah Abbasın dövründə onun təlimatı əsasında altı vəzir-e əzəm olmuşdur. Belə ki, o, hakimiyyətə gəldikdə (1587) «vəzir-e divan-i ali» Mirzə Salmanın oğlu Mirzə Abdullaya vəd edilmiş, hətta bu barədə buyruq verilsə də, vaxtilə Mürşüdqulu xanın vəziri olub, Torbət qalasında qətl edilən Mirzə Əhmədin xidmətləri nəzərə alınıb, dövlət üzərində haqqı olduğuna görə onun oğlu Mirzə Şahvəli vəzir təyin edilir (80, 381). Mirzə Şahvəlini kiçik yaşlarından Mürşüdqulu xan öz himayəsinə götürüb təlim və tərbiyəsi ilə məşğul olmuş və onun vəzirlik mənsəbinə yüksəlməsində də Mürşüdqulu xanın rolu olmuşdur (80, 1090). 1588-ci ildə ali divana baş vəzir Mirzə Məhəmməd Kermani təyin edilir (80, 402). O, anası tərəfdən Təbrizin Köcəci seyidlərindən idi. 1588-ci ildə qətl olunur (80, 404). 1589-cu ildə Şah Qəzvinə gəlir və burada Mirzə Lütfulla Şirazini «vəzir-i divan-i ali» təyin edir (80, 409). I Şah Abbas hakimiyyətinin beşinci ilində Mirzə Lütfullanı tutduğu vəzifədən azad edib, onun yerinə yüksək mənsəbə həm fazil, həm də dəqiq mühakimə və gözəl əxlaq sahibi olub, uzun müddətdə mustoufi əl-məmalik vəzifəsində çalışmış Hatəm bəy Ordubadini təyin edir. Ona etimadəddövlə fəxri adı da verildi (80, 439). "Zeyl-i tarix-i alamara-yi Abbasi" də göstərilir ki, Hatəm bəy Ordubadi dövrünün məşhur alimi və ustadı rəhmətlik Xacə Nəsrəddin Tusinin (1201-1274) nəslindən olduğu hesab edilir və elə buna görə də Nəsiri soyadını daşıyırdı. Bu mənbədə də Hatəm bəy Ordubadinin savadlı, xeyirxah, insanpərvər, haqqın, ədalətin, düzgünlüyün tərəfdarı olduğu qeyd edilmişdi(81, 142).O, iyirmi il Azərbaycan Səfəvi dövlətinin baş vəziri vəzifəsində işləmiş, 1610-cu ildə Urmiyanın Dümdümə qalası yaxınlığında əhvalı pisləşdiyinə görə Təbrizə gətirilir və burada vəfat edir. Onu Məşhəddə dəfn etmişdilər (80, 827). Hatəm bəy Ordubadi vəfat etdikdən sonra onun yerinə etimadəddövlə vəzifəsinə oğlu Mirzə Əbutalıb təyin edildi (80, 807). O, 1610-1621-ci illərdə ali divan vəziri olmuşdu (80, 968). 1621-ci ildə bəzi etibarsız işlərinə görə vəzifədən azad edilmişdir (108, 249). Ondan sonra Şahəli Mirzə ibn Abdulla xan Ustaclının oğlu Salman xan beş il ali divanın vəziri oldu (80, 1090). Vəzir-i

divan-i ali və etimad əd-dövlə Salman xanın atası Şahəli Mirzə Ustaclı I Şah Təhmasibin bacısı oğlu idi (80, 1022). Salman xandan sonra «vəzarəte divan-i ali» vəzifəsinə təyin olunan Xəlifə sultan ibn sədr Mir Rəfiəddin Məhəmməd ibn Mir Şücaəddin məşhur seyid nəslindən olub, atası da Şah Abbasın yaxın qohumu idi (80, 1013, 1091). Beləliklə, bu faktlar I Şah Abbasın dövründə dövlətin iranlılaşması, yəni fars ünsürlərinin kütləvi şəkildə dövlət qulluğuna cəlb edilməsi haqqında bəzi elmi ədəbiyyatlarda mövcud olan fikirlərin tarixi gerçəkliklərdən çox uzaq olduğunu göstərir. İsgəndər bəy Münşinin əsərindən əldə etdiyimiz məlumatı yekunlaşdırdıqda məlum olur ki, I Şah Abbasın hakimiyyəti dövründə (1587-1629) altı nəfər ali divan vəzirindən üç nəfər türk əyanı, iki nəfər seyid, yalnız bir nəfər fars ünsürü olmuşdu.

I Şah Səfinin dövründə 1632-ci ildə etimadəddövlə Xəlifə sultan tutduğu vəzifədən azad edilir. Baş vəzir vəzifəsinə Xacə Nəsrəddin Tusinin nəslindən olan Talıb xan (Mirzə Əbutalıb) bin Hatəm bəy Ordubadi Nəsri təyin edildi. O, 1621-ci ildə baş vəzir vəzifəsindən azad edildikdən sonra 1632-ci ilə qədər vaqiyənəvis vəzifəsində çalışmışdı. Talıb xan 1635-ci ildə ölüm cəzasına məhkum edilmiş və ali divanın baş vəziri «Sarı Tağı» ayaması ilə məşhur olan Mirzə Məhəmməd Tağıya verilmişdir. O, 1645-ci ilə kimi Səfəvi dövlətinin baş vəziri olmuşdu (108, 249, 250; 130, 84, 89).

"Abbasnamə" də h. 1054 (m. 1644)-cü ildə mülki bürokratik aparatın başçısı baş vəzir Mirzə Məhəmməd Tağı haqqında verilən məlumatdan aydın olur ki, II Şah Abbasın hakimiyyətinin ilk illərində dövlət işləri üzərində nəzarəti baş vəzir və qorçubaşı Canı xan Şamlı ələ keçirmişdi. Tezliklə onların arasında yaranan ixtilaf mərkəzi hakimiyyəti getdikcə zəiflətməyə başlayır. Bu zaman Canı xana baş vəzirin ona qəsd hazırlaması barədə xəbər çatdırılmışdı. Bu xəbərdən ehtiyat edən Canı xan Şamlı baş vəziri aradan götürmək üçün Kuhgiluyənin sabiq bəylərbəyi Nağdı xan Şamlı, Şirvanın sabiq bəylərbəyi Ərəb xan Ağzıvaroğlu Şamlı, cəbbədərbaşı (dövlətin silah və sürsat ehtiyatının rəisi-Z.B.) Əbülfəth bəy, tirkamun qorçusu Abbasqulu bəy Ustaclı və Əlimirzə bəy Şeyxavənd-

lə gizli razılığa gəlib 20 şaban h. 1055(m. 1645)-ci ildə onu qətl etdilər. Şah qəsdçilərin digər cinayət də törədə biləcəkləri və yaxud qaçacaqlarından ehtiyat etdiyinə görə bildirdi ki, baş vəzirin günahkar olduğu müəyyən edilsə onlar bağışlanılacaq(125a, 33). II Şah Abbas çox yaxşı bilirdi ki, onların dərhal cəzalandırılması ara müharibələrinə səbəb ola bilər. Elə buna görə onları vədlərlə arxayın edib, vəziyyətə nəzarəti ələ aldıqdan sonra 22 şaban 1055 (m. 1645)-ci ildə qəsdçilərin dərhal öldürülməsi haqqında göstəriş verildi. Qorçubaşı Nağdı xan, Ərəb xan, Əlimirzə bəy Şeyxavənd, Abbasqulu bəy, Əbülfəth bəy qətl olundular. Şah qəsdçilərin mərkəzdə və yerlərdə vəzifələrdə olan yaxın qohumlarına da güzəştə getmədi. Nağdı xanın Şamlı Kuhgiluyədə bəylərbəyi olan oğlu Zeynal xan baş vəzirin öldürüləcəyini bildiyinə və mərkəzə vaxtında xəbər çatdırmadığına görə həbs edildi. Canı bəyin Xorasanda sərdar olan qardaşı Qara xanı da həbsxanaya saldılar. I Şah Abbas dövrünün məşhur qızılbaş əmirlərindən Əmirgünə xan Qacarın Ağası bəy ayaması ilə məşhur olan Gülabi bəy adlı oğlunun da qəsdlə əlaqəsi olması güman edildiyinə görə öldürülməsi barədə Qılıc bəy Ördəkliyə (Ördəkli Türkmən eli obasıdır-Z.B.) göstəriş verilmişdi. Şahın göstərişi ilə baş vəziri öldürənlərin əmlakları da müsadirə olundu (125a, 34,35). II Şah Abbasın qətiyyətli daxili siyasəti sayəsində ixtilaflara son qoyuldu, mərkəzi hökumət möhkəmləndirildi və hakimiyyətdə onun şəxsi nüfuzu daha da gücləndi. Şah dərhal yeni təyinatlar barədə fərmanlar verdi. Belə ki, I Şah Abbasın damadı, dövrünün məşhur bilim adamı Xəlifə sultan 23 şaban 1055-ci ildə (m. 1645) baş vəzir təyin edilir. O, I Şah Abbas və I Şah Səfi (1629-1642) dövründə də fasilələrlə baş vəzir vəzifəsində işləmişdi (125a, 33, 34). Onun Səfəvi Şahlıq sülaləsinə, yəni Şeyxavəndə qohumluğu dövrün digər mənbələrinin verdiyi məlumatlarla təsdiq edilir. İsgəndər bəy Münşi yazır ki, Xəlifə sultan ibn sədr Mir Rəfiəddin Məhəmməd ibn Mir Şücaəddin məşhur seyid nəslindən olub, atası I Şah Abbasın yaxın qohumu idi (80, 1013,1091). H. 1063 (m. 1653)-cü ildə Xəlifə sultan vəfat edir və onun mənsəbi nazir-i biyutat Məhəmməd bəyə tapşırılır(125a, 61). Məhəmməd bəy işində nöqsanlara yol verdiyinə görə h. 1071(m.

1661)-ci ildə vəzifədən çıxarılıb Quma sürgün edilir. Baş vəzir vəzifəsi dövrün təmiz və böyük seyidlərindən olan Mirzə Həbibullahın oğlu Məhəmməd Mehdiyə verilir (125a, 110). "Abbasnamə"nin verdiyi məlumatlardan aydın olur ki, II Şah Abbas dövründə bir qayda olaraq baş vəzir vəzifəsinə Səfəvi şahlıq sülaləsi, yəni Şeyxavəndə qohum olan əsilzadələr təyin edilirdilər.

Dövlət mərkəzlə yerli orqanlar arasındakı münasibətləri ciddi tabeçilik prinsipləri əsasında qurmağa cəhd göstərir, yerli hakimiyyətin fəaliyyəti baş vəzir və xüsusi idarə orqanları vasitəsi ilə nəzarət altında saxlanılırdı. Dövlət hakimiyyətinin mərkəzi və yerli orqanları arasında münasibətlərin tənzimlənməsində bölgə vəzirləri də müstəsna rola malik idi. Vilayətlərə təyin olunan vəzirlər baş vəzirin nəzarəti altında fəaliyyət göstərirdilər.

I Şah Təhmasib h. 975-ci (1568) ildə Xacə Ruhulla İsfahaninin Gilana vəzir təyin olunması haqqında fərman vermişdir. Bu fərman əyalət vəzirlərinin hüquq və vəzifələrinin öyrənilməsi üçün olduqca əhəmiyyətlidir. Fərmanda göstərilir: «…Böyük və xırda məsələlərdə onu tam ixtiyar sahibi bilib… əhalinin mühüm, həm də bütün xırda məsələlərini vəzir həll etməlidir. Divanın vergilərinin toplanmasına, həm də xərclənməsinə nəzarət edib, hər bir mahalın malcəhət, vocuhatından Şahın verdiyi hökm əsasında Gilanın kiçik vəzirlərinin də xəbərləri olması şərti ilə yüksək rütbəli əmirlərə məvacib verib, vergilərin qalanını sərkar-i xasse-yi şərifə göndərsin. Elə davranmalıdır ki, divan malı tələf olmasın və həm də heç bir rəiyyətə qarşı zor işlədilib, zülm edilməsin. Xasse-yi şərifə aid bəzi mahalların malcəhəti və bütün divan vergiləri yoxlanılsın və mahalların qanun-qaydaları da əsas götürüb, Gilanın bütün haqq-hesabı ədalət qanunları əsasında aparılsın. Vilayətin bütün iqtisadi məsələləri, yəni haqq-hesabı üzrə hörmətli seyidlər, əhali, əyanlar, kələntərlər, kətxudalar onu tam hüquqlu vəzir hesab edib, ona itaət etsinlər. Bütün ticarət və alver, itlaqat, həvalələr onun xətti və möhürü, rəqəmi ilə mötəbər bilib, bu işdə səhlənkarlıq etməsinlər. Özbaşına vergi almasınlar. Əziz oğlum Sultan Mahmud Mirzə və oğlumun lələsi, həm də Gilan bəylərbəyi olan Allahqulu sultan Ustaclı, yüksək əmirlər, darğalar xassə, yaxud başqa mahallarda

Xacə Ruhullanın əlindən möhkəm tutub hər bir hadisədən onu xəbərdar etsinlər. Vəzir də yüksək divanın qanunnaməsindən kənara çıxmamaqla haqq-hesabı, vergiləri ədalət qaydalarına əməl edərək toplasın. Vilayətin vergiləri bizə Gilanın baş maliyyə məmuru Xacə Maqsudun iştirakı ilə çatmalıdır. Vəzir hər il üçün vəzirlik haqqından əlavə pərvanəçə əsasında xasse-yi şərifədən yığılan malcəhətdən öz xərci üçün Təbriz pulu ilə 300 tümən götürsün». Fərman verildi. H.975-ci il zilqədə ayı (aprel 1568) (118, 254 a-b). Fərmandan göründüyü kimi, vilayət vəzirlərinə iqtisadi məsələlərdə çox geniş hüquqlar verilmiş, hətta Şahın oğlunun lələsi kökcə türk olan bəylərbəyi də bu məsələlərdə onunla hesablaşmalı idi. Fərman vilayət vəzirinin hüquq və vəzifələrini aydın şəkildə özündə əks etdirdiyinə görə onun geniş şərhinə ehtiyac qalmır.

Vilayət vəzirləri bəylərbəyi ilə yanaşı, baş vəzirə də tabe olub, vilayətin maliyyə məsələləri barədə ona hesabat verirdi. Baş vəzir vilayət vəzirlərinin fəaliyyətinə, vilayətlərdən dövlət büdcəsinə daxil olan mədaxilə nəzarət edirdi.

Alessandri dövlət şurası və onun tərkibi haqqında məlumatlarında bu şurada müşavir olan əmirlərin sırasında qorçubaşının da adını çəkir, həm də onun səltənət qorçularının başçısı olduğunu yazır (107, 443). Qorçubaşı dövlətin əsas və sanballı dayağı idi (128, 742). Dövlətin sanballı dayağı olan qorçubaşını Adam Oleari 10-12 min nəfər oxçunun rəisi kimi səciyyələndirilmiş və qorçu alayının I Şah İsmayılın dövründə yaradıldığını və onun cihadlarında yüksək fədakarlıq göstərdiklərini bildirmişdir (139, 893). Ancaq dövrün daha mötəbər qaynaqlarında qorçular haqqında məlumatlara XV əsrdən təsadüf edilir (77, 258). I Şah İsmayıl isə əslində ona qədər də mövcud olan oxçulardan ibarət nizami qorçu qvardiyasının təşkilatçısıdır. Bu qvardiyanın hərbi rəisi, yəni qorçubaşı dövlətin idarə quruluşunda da statusu baxımından çox mühüm vəzifə olub, I Şah İsmayılın hakimiyyətinin ilk illərindən təsis edilmişdi. Dövrün qaynaqlarında ona çox məsul işlərin tapşırılması hallarına rast gəlirik. Əbdi bəy Şirazinin əsərində I Şah İsmayıl tərəfindən qorçubaşı vəzifəsinə təyin olunan Dədə Abdal bəy Zülqədərin müəyyən cinayət məsələləri üzrə mühakimə aparmaq

səlahiyyəti ilə təmin edilməsinə toxunulur. Müəllif yazır: «h. 911 (4.IV.1505-23.V.1506)-cı ildə Şirvan Tabasaranında iştirak edənlər dindirildi və Sultan Heydərin öldürülməsinin tədqiqi qorçubaşı Dədə bəyə tapşırıldı…riyakarlardan çoxlu adam öldürüldü» (28, 38). Onu da qeyd etmək lazımdır ki, mənbələrdə I Şah İsmayılın dövründə Ərdəbil təriqət işləri ilə bağlı olan Abdal bəy adlı iki nəfərin isminə təsadüf edilir. İsgəndər bəy Münşi Türkmanın onlar haqqında yazdıqlarının təhlilindən aydın olur ki, qorçubaşı Abdal bəy Türk-Qızılbaş Zülqədər eli əyanı olub, «Dədə» ünvanın da daşıyıcısı o olmuşdu (80, 25, 31, 572; 138, 402). Adam Oleariyə görə, oxçular, yəni qorçular adi vaxtlarda vilayətlərdə sərbəst yaşayır və ancaq savaşlar baş verdikdə dərhal öz rəislərinin başçılığı altında birləşirdilər. Səyyah gündəliyində onların soykökü və sosial tərkibi ilə bağlı məsələlər barədə də məlumatlar verilmişdir. Adam Oleari yazır ki, biz orada olarkən qorçubaşı kökcə kəndli oğlu olan və I Şah Abbasın yanında əvvəllər adi xidmətçi kimi çalışmış Şamlı Cani xan idi (139, 893).

Dövlətin qorçulardan ibarət olan bütün hərbi qüvvəsinin başçısı olan qorçubaşı və onun statusu haqqında «Təzkirət əl-müluk» dakı müfəssəl məlumatlara dövrün digər qaynaqlarında təsadüf olunmur. Əsərdə göstərildiyinə görə «alicah» qorçubaşı dövlətin görkəmli əmirlərindən olub, məmaliki məhrusədəki bütün ellərin və oymaqların ağsaqqallarından idi. Dövlətin hərbi xidmətində olan bütün qorçuların həmesaləsi və tiyulu, məvacibləri alicah qorçubaşı tərəfindən təsdiq edildikdən sonra bu hərbi hissənin vəzirinin sərəncamı ilə ödənilirdi. Dövlət, saray, əyalətlərdə hərbi qulluqda olan bütün qorçuların məvacibi və tiyulu qorçubaşının təqdimatından sonra baş vəzirin təliqəsi əsasında verilərdi. Qorçulara aid olan bütün məsələləri qorçubaşı, təhqiqat aparıb, həll edirdi. Qorçubaşılar dövlətin əsas dayaqlarından olub, qorçular sırasına daxil olan hər kəsin hərbi qulluğa görə məvacib, tyiul, həmesale və mükafata aid olan sənədlərini imzaladıqdan sonra onlara möhür vurulurdu. Qorçubaşıların rütbə cədvəli onların vəzir və mustoufisi tərəfindən Şaha təqdim olunurdu. Yüksək rütbəli qorçu, yəni qorçubaşı da canqi əmirlərindən idi (132, 7). Sansona görə

qorçubaşı əvvəllər dövlətin ali strukturunda birinci, sonralar isə ikinci yerdə dayanırdı. Səyyah müəyyən vaxtlarda qorçubaşının dövlətin bütün silahlı qüvvəsinin baş komandanı, yəni sipahsalar da olduğunu yazmışdır. Qorçubaşı həmişə sarayda olur, ancaq o, sipahsalar vəzifəsinə təyin edildikdə paytaxtı tərk də etməli olur. O, paytaxtı sipahsalar kimi tərk edərkən, hər bir bölgədə ona şərait yaradılmalı, evlər hazırlanmalı və mühafizə dəstəsi ilə də təmin olunmalı idi (106, 47).

Əyalətdəki qorçubaşılar, onbaşı, yüzbaşı, minbaşılar mərkəzdəki qorçubaşıya tabe idilər. Qorçubaşı çox geniş hərbi funksiyaya malik idi. Budaq Qəzvini yazır ki, II Şah İsmayıl əmr etmişdi ki, heç kəs qorçubaşının işinə qarışmasın və qorçuların nə işi olsa, qorçubaşılara desinlər (85, v.399b). Göründüyü kimi, Şah İsmayıl dövründən qorçubaşı yüksək hərbi nüfuz və qüdrətə malik olmuşdur. I Şah Abbasın dövründə qorçuların hüquqlarının qismən məhdudlaşdırılması istisna olmaqla, qorçular və onların hərbi rəislərinin Səfəvi dövlətçiliyindəki müstəsna nüfuzları ciddi dəyişikliklərə uğramamışdır. Təsadüfi deyildir ki, İskəndər Münşi II Şah İsmayıl dövründə qorçubaşı Yusifqulu sultandan söhbət açarkən onu «ərkan-i dövlət» (dövlətin dayağı) adlandırmışdı (80, 140). XVII əsrdə də qorçubaşıların çox geniş hərbi hüquqları vardı. Enqelbert Kempfer qeyd edir ki, baş vəzirdən sonra üç növ qoşun komandirləri nüfuz sahibləridir – qorçular, qulamlar, tüfəngçilər. Orduda rütbəsinə görə birinci yeri qorçubaşı, ikinci yeri qullarağası, üçüncü yeri isə tüfəngçibaşı tutur (96, 87-89). Bu barədə Sanson maraqlı məlumat vermişdir. O, yazır ki, qorçubaşı dövlətdə ikinci şəxsiyyətdir. Ancaq əvvəllər dövlətin birinci şəxsiyyəti hesab olunurdu. Səfəvilərin hakimiyyətinin ilk illərində qoşunun baş komandanı qorçubaşı olurdu. İndi Şah istədiyi adama bu vəzifəni verir. İndi də qorçubaşı bir dəstə süvari qoşunun rəisidir ki, onlar qorçu adlanır… qorçubaşıların övladları atalarının yerini tutur… qorçubaşı həmişə mərkəzdə olur (106, 46). İskəndər Münşi də qorçuları «qorçuyan-i izam» (əzəmətli qorçular) adlandırmışdır (80, 164).

Qorçuların əksər hissəsi əyalətlərdə yerləşirdi. Əyalətlərdə yaşayan qorçuların da mərkəzdəki qorçubaşıya tabe olan qorçu-

başıları vardı. Qorçubaşı Padarın Şirvanın mədaxil və məxaricini yaxşı bildiyi üçün 1538-ci ildə Səfəvi silahlı qüvvləri ilə birlikdə Şirvana göndərilməsi barədə məlumata (77, 286; 118, v.102-104b; 96, 274) görə o, bir müddət Şirvan qorçularının qorçubaşısı olmuşdu. «Təkmilətül-əxbar»da Şirvanda Əhməd bəy Ustaclı adlı başqa bir qorçubaşının da adı çəkilir (28, 90). Bu faktlar əyalətlərdə də qorçubaşının olması qənaətinə gəlməyə imkan verir. I Şah İsmayılın hakimiyyəti dövründə Dədə Abdal bəy Zülqədərdən sonra qorçubaşı Qızılbaş-Türk əyanlarından Yeqan bəy Təkəli (1509-1510) və Sarı Pirə Ustaclı olmuşdu. O, Çaldıran savaşında (1514) öldürülmüşdü (128, 342; 108, 48; 20, 228). 1514-cü ildə Şiraz hakimi Xəlil sultan Zülqədər döyüş səhnəsini savaşmadan tərk etdiyinə görə h. 925 (1519)-ci ildə öldürüldü və yerinə hakim Əli sultan Zülqədər təyin edildi ki, o bu vəzifəyə gətirilənə qədər qorçubaşı idi (108, 50).

Əmir əl-ümərа və həm də vəkil mənsəbində olan Çuxa sultan Təkəli tutduğu vəzifədən istifadə edərək sərbəst fəaliyyət göstərdiyinə görə I Şah Təhmasib onun aradan götürülməsini qərarlaşdırmış və bu iş sabiq Herat hakimi Hüseyn xan Şamlıya tapşırılmışdı. Seyid Hüseyn bin Murtuza Astrabadı h. 937 (1531)-ci ildə Çuxa sultan Təkəlinin qorçubaşı Nəzər tərəfindən Qəzvində öldürüldüyünü yazmışdı (108, 60). Ancaq Nəzərin hansı türk elindən olduğunu qeyd etmir. «Şah Təhmasibin təzkirəsi»ndə 1531-ci ildə İsfahan yaxınlığında Şahın qərargahında Ustaclı, Rumlu, Zülqədər, Əfşar əmirləri ilə Təkəli əmirləri arasında baş vermiş savaş haqqında verilən məlumatda Təkəli Pərvanə bəyin qorçubaşı olduğunu görürük. Bu hadisə zamanı Şah Təkəli əmirlərinin qətlinə hökm vermiş və qorçubaşı Pərvanə bəy də öldürülmüşdü (56, 24). I Sultan Süleyman Qanuninin 90 minlik ordusunun 1534-cü ildə İbrahim paşanın başçılığı ilə Səfəvi məmləkətinə birinci yürüşü baş verdikdə qorçubaşı Şamlı elindən Oğlan Xəlifə adı ilə məşhur olan Məhəmməd Xəlifə idi (77, 248; 108, 63). Bu zaman qorçubaşı Məhəmməd Xəlifə Şamlının qorçu alayının Xorasanda olması və Osmanlı ordusu Azərbaycana daxil olduqda dərhal Şahla birgə Təbrizə dönməsi (108, 63) ölkəni içəridən-dışarıdan qoruyan

qorçuların Şahın əsas hərbi dayağı olmasından, qorçubaşıya da hərbi-siyasi məsələlərdə etimad göstərməsindən irəli gəlirdi.

Seyid Hüseyn bin Murtuza Hüseyni Astrabadi h. 953 (1546)-cü il hadisələrindən bəhs edərkən zamanın ən nüfuzlu əmirlərindən Sevindik bəy Əfşarın qorçubaşı olduğunun və onun qeyd olunan ildə Əlqas Mirzənin itaətsizliyini aradan qaldırmaq üçün Şirvana göndərilən mötəbər əyanların tərkibində olduğunu yazır (108, 72). Sevindik bəy Əfşar 1538-ci ildən 1562-ci ilə qədər qorçubaşı vəzifəsində olmuşdu (77, 286; 20, 228)

Əfşarlardan Qulu bəy Əfşarı II Şah İsmayıl qorçubaşı təyin etmiş (108, 97) və o, Sultan Məhəmmədin də dövründə (1578-1587) bu vəzifədə olmuşdu

I Şah Abbas taxta çıxdıqda (1587) Əbərqu (Əbərguh) hakimi olan Yusif xan Əfşar qorçubaşı vəzifəsinə təyin edilmişdi. Onun atası Qulu bəy Əfşar da Sultan Məhəmməd dövründə qorçubaşı olmuşdu (80, 381, 423) Yusif xanın bu vəzifəyə təyin olunmasında atası ilə yaxın olmuş Mürşüdqulu xan Ustaclının böyük rolu olmuşdu. Ancaq buna baxmayaraq Yusif xan Mürşüdqulu xan Ustaclını aradan götürmək istəyən əmirlərə qoşulmuş, ancaq onlar uğursuzluğa düçar olmuş və Yusif xan Əfşar da yaxalanmışdır. Fəqət Mürşüdqulu xan Ustaclının ricası ilə onu edam etməyib, həbs cəzasına məhkum etmişdilər. Qorçubaşı vəzifəsi isə Bədr xan Əfşara verilmişdi. O, 1588-ci ildə Astrabada hakim göndərildikdə ali divanda böyük mənsəb olan qorçubaşı vəzifəsinə Vəli xan Əfşar təyin edilir (80, 402). İskəndər bəy Münşinin yazdığına görə qorçubaşılıq ali divanda çox yüksək mənsəb olub dövlətin əsas dayağı idi. I Şah Abbasa qədər böyük və nizami qorçular silkində olan Allahqulu bəy Qapanoğlu Qacar yüzbaşı rütbəsinə yüksəlmiş və 1591-ci ildə qorçubaşı olmuşdu (80, 439). O, I Şah Abbasın hakimiyyətinin on doqquzuncu ilində də bu vəzifədə idi və Şahın buyruğu ilə Mərəndin Osmanlı ordusundan qorunmasına göndərilmişdi (80, 678). 1611-ci ildə Seyid bəy bin Məsum bəy Səfəvinin oğlu İsa bəy qorçubaşı təyin edilir. O, şahlıq sülaləsi ilə qohum olub, yüzbaşı rütbəsindən qorçubaşı mənsəbinə yüksəlmişdi (80, 859, 932). I Şah Səfi də dövlətin hərbi təşkilatında əsasən qorçulara

arxalandığına görə, bu əsgəri heyətin başçısı əvvəlki Səfəvi şahlarının dövründəki kimi, türk əsilzadələrindən təyin edilirdi. "Zeyl-i tarix-i alamara-yi Abbasi" də qeyd edilir ki, I Şah Səfinin hakimiyyətinin ilk illərində qorçubaşı Məsum bəy Səfəvinin nəvəsi və I Şah Abbasın qızı Zübeydə bəyimin əri İsa xan Səfəvi olub, o, ata xətti ilə Şeyx Cüneydin nəslindən idi (81,87; 130,79) Şeyxavənd soyundan İsa xan kimi nüfuzlu əyanın qorçubaşı vəzifəsində olmasından I Şah Səfi ehtiyat etmiş və hakimiyyətinə kölgə salacağından qorxub onun aradan götürülməsini qərara almışdı. O, bu işi Şeyx Zahid Gilanın nəslindən olan dövlət məmuru Çıraq xan Zahidiyə tapşırır (81, 87). Seyid Hüseyn bin Murtuza Hüseyni Astrabadi yazır ki, Çıraq xan qorçubaşı İsa xanla söhbətində onun Səfəvi nəslindən olduğuna işarə edərək böyük oğlu Seyid Məhəmməd xanın şahlığa layiq olmasını söyləmiş, ancaq İsa xan ona cavabında bildirmişdi ki, Səfəvilərlə əmizadə olsalar da, şahlıq Şah İsmayıl və Şah Təhmasib ailəsinə mənsubdur. Lakin bu söhbət şaha olduğu kimi çatdırılmamış, həm də Şaha İsa xan haqqında başqa yanlış məlumatlar da söylənilmişdi. (108, 243, 244). H. 1041(m.1632)-ci ildə Xızır Nəbi bayramında Şeyxavənd nəslindən olan bütün xanlar, əsilzadələr saraya dəvət edilir. Bu bayram günü şah sipəhsalar Rüstəm xan və Çıraq xan Zahidliyə göstəriş verir ki, qorçubaşını övladları ilə birlikdə qətl etsinlər. Onlar qorçubaşının evinə gedib onun oğlunun üçünün də hərbi vəzifədən azad edilib Ələmut qalasına göndərilməsi barədə Şahdan buyruq aldıqları adı ilə Çaharbağa gətirib orada öldürdülər (81,92; 130,84). Qorçubaşı vəzifəsi 1632-ci ildə Çıraq xan Zahidliyə tapşırılır. İsa xan Səfəvinin tiyulu, bütün əmlakı və evi müsadirə edilib ona verildi. İsa xan Səfəvi Çıraq xanın nəzarəti altında ibadətlə məşğul olmalı və gündəlik xərcləri üçün ona 100 tümən verilməli idi. Ancaq çox keçmədi ki, İsa xan Ərdəbil yaxınlığında ölüm cəzasına məhkum edildi və onun nəşi Kərbəlaya göndərilib, orada dəfn edildi (81, 92,93; 130,94). Qorçubaşı vəzifəsi bir qayda olaraq türk əsilzadələrinə aid olduğuna görə, Çıraq xan Zahidi bu vəzifədə çox qalmamış və 1633-cü ildə hərəkətlərində qüsurlara yol verməsi bəhanə edilmiş, edam olunmuşdu. Həmin ildə qorçubaşı vəzifəsi

Kirman hakimi, həm də möhürdar vəzifəsində olan Zülqədər türk tayfasının Söklən obasının böyük əmirlərindən Əmir xan Zülqədərə tapşırılır. O, uzun müddət siravi qorçu olmuş, kifayət qədər hərbi təcrübə qazanıb yüzbaşı rütbəsinə layiq görülmüş və sonra möhürdar, Xar-Simnan, və nəhayət Kirman hakimi kimi məsul vəzifələrdə çalışmış və nəhayət qorçubaşı hərbi vəzifəsinə yüksəlmişdir (81,98,99,259; 130,85). Molla Kamal 1638-ci ildə Osmanlı ordusu Bağdadı mühasirə edərkən Canı bəy Şamlının qorçubaşı olduğunu qeyd edir. O, 1645-ci ilə qədər bu vəzifədə olmuşdu (130,101).

"Abbasnamə"nin verdiyi məlumata görə 22 şaban 1055 (m. 1645)-ci ildə qorçubaşı Canı xan (Şamlı) öldürüldükdən sonra bu vəzifəyə yenə türk Şamlı elinin Biçərli obasından olan hərbi əsilzadə Murtuzaqulu xan təyin edilmişdi (125a, 35) Molla Kamal yazır ki, h. 1059 (m. 1649)-cu ildə qorçubaşı Murtuzaqulu bəy (xan) Şamlı sərxoşluq və bir çox başqa bəd əməllərinə görə edam edilir və bu vəzifə Qızılbaş-Türk əsilzadəsi Mehrab xanın oğlu Murtuzaqulu xan Qacara verilir (130, 101, 113). "Abbasnamə" də Murtuzaqulu xan Qacarın da pis əməllərinə görə h. 1074(m.1663)-cü ildə edam olunduğu və əmlakının da müsadirə edildiyi göstərilir. Onu Şahın göstərişi əsasında şəmşir qorçusu Hüseynqulu xan Şamlı qətl etmişdi. Şahın buyruğu əsasında Murtuzaqulu xan Qacarın Təbriz bəylərbəyinin canişini olan oğlu Mustafaqulu xan da həbs edilib Kelat qalasına göndərilmiş, əmlakı da müsadirə olunmuşdu (125a, 119,120). Mənbənin verdiyi məlumata görə qorçubaşı yenə də Qacar elindən təyin edilir (h.1074-m. 1663). Yeni qorçubaşı Qarabağ bəylərbəyi İmamqulu xan Qacar idi (125a, 21).

Qullarağası orduda rütbəsinə görə ikinci yeri tuturdu (96, 89). Ancaq Sansona görə, Şahın qulamlarının rəisi olan qullarağası ali dövlət strukturunda üçüncü yerdə dayanırdı (106, 48). «Təzkirət əl müluk»da «alicah» qullarağasının da canqı əmirlərindən olduğu qeyd edilmişdir. Əsərdə göstərilir ki, qullarağası qorçubaşıdan sonra işıqlı dövlətin dayağı və əmirlərinin ən böyüyü və Şahın şərəfli xassə qulamlarının hamısının ağsaqqalıdır. Bütün qulamların tiyul, həmesale məvacibi və mükafatları, barat, yəni məvacib qəbzləri və onların köçürülməsi onun təqdimatından sonra, ali divan vəziri

tərəfindən yazılı icazə ilə öz həllini tapırdı. Dövlət və əyalətdə qulluq, yüzbaşılıq, minbaşılıq vəzifələri və bütün qulların tiyul, məvacib və mükafatı qullarağasının yazılı müraciəti əsasnda baş vəzirin tərtib etdiyi təliqəyə görə verilirdi. Qulamlara aid bütün işləri həmin idarənin ağsaqqalı olan qullarağası araşdırıb həll edirdi. Qulamların qulluq məvacibləri, tiyul, həmesale və mükafatları haqqındakı hökm və sənədləri qullarağası təsdiq edib möhürləyirdi. Qulamların rütbə siyahısı, bu təşkilatın vəzir və mustoufisi tərəfindən Şahın hüzurunda şəxsən onun özünə ərz olunurdu (132, 7-8).

Dövlət şurası əmirlərindən olan eşikağasıbaşı dövlətin ən mötəbər qulluqçularından olub, onlara hətta elçilik kimi məsuliyyətli missiya da tapşırılırdı. Adam Oleari bu barədə yazırdı ki, onlardan İmamqulu xan hazırda Holşteyn hersoqunun sarayına göndərilmişdi. Adam Olearinin yazdığına görə Holşteynli elçilər İsfahana çatdıqları zaman Murtuzqulu xan adlı şəxs eşikağasıbaşı vəzifəsində idi ki, o, özündən əvvəlki eşikağasıbaşını çuğullayaraq edam etdirməyə nail olduqdan sonra bu vəzifəni tutmuşdu. O, çoban oğlu olub atası çadır, yaxud komada yaşayırdı. Bu qəbildən olan adamları burada türk adlandırırlar (139, 894). Hansi ki, əski çağlardan bəri kəndlər salmış əkinçiliklə, sənətkarlıqla məşğul olan, Şamaxıda da, Ərdəbildə də özünün yazdığı kimi onları "xoş gəldi" deyə qarşılayanlar da türklər idilər. Səfəvi ölkəsində şəxsən gördüklərini, öyrəndiklərini gündəliyində bəzən təhlil etmədən olduğu kimi yazıya alan səyyah müəyyən ziddiyyətlərə də yol vermişdir. Ancaq onun gündəliyindəki bu ziddiyyətli faktları tutuşdurub təhlil etməklə doğru elmi nəticələr əldə etmək mümkündür. Onun qeydlərində «çadır» yaxud «komada» yaşayanların türk olub dövlətdə yüksək vəzifələrdə çalışdıqları bildirilir. Əslində səyyahın gündəliyində «çadır»larda yaşayanlar kimi qeyd edilən ölkə əhalisi xüsusi imtiyazlarla təmin olunmuş və dövlətin əsas dayaqlarından ibarət olan yarımköçəri türk elləri idilər.

Sarayı içəridən qoruyan yasovullara və sarayı dişarıdan mühafizə edən cəzair alayına başçılıq edən eşikağasıbaşı saray məclislərində nizam-intizamın yaradılmasına birbaşa məsuliyyət daşıyırdı (96, 100).

Eşikağasıbaşı haqqında Mirzə Səmia yazır ki, o, bütün söhbət yasavullarının, divan eşikağasılarının, divan qapıçıları və ağalarının divan carçı və yasovullarının ağsaqqalıdır və Şah məclisində iştirak edən əcnəbi ölkə elçilərinin, əyanların, xidmətçilərin, qulluqçuların davranış qaydalarını müəyyənləşdirmək, nizam-intizamı qorumaq birbaşa onun səlahiyyətinə aid idi. Məclisdə qayda-qanunlara ciddi əməl olunması ilə bağlı məsələlərdə də eşikağasıbaşı birbaşa əmrlərə aid təlimat üzrə məsuliyyət daşıyırdı (132, 8). Tavernye yazırdı ki, bir neçə nəfər yüksək mənsəbli məmura başçılıq edən eşikağasıbaşı vəzifəsi Fransadakı təşrifat rəisinə bənzəyirdi (104, 576). Eşikağasıbaşını "baş marşal" adlandıran Adam Oleariyə görə isə onun tabeliyində qırx nəfər eşikağası çalışırdı ki, onlalr dörd-dörd, yaxud beş-beş növbə ilə yarım il müddətində sarayda xidmətlərini yerinə yetirirdilər. Onlar şah saryının giriş qapısını qoruduqlarına görə həm də qapıçı adlanırdılar. Əcnəbi ölkələrindən gələn elçiləri də eşikağasıbaşı rəsmi qəbul günlərində yerli qayda əsasında şaha təqdim edirdi. Bu məclislərdə şahın xidmətində olan yasavullar da eşikağasıbaşına tabe idilər (139, 894; 20, 239).

Eşikağasıbaşının əmri altında olanların məvacib, tiyul və həmesaləsi barədə, onun özünün təqdimatını baş vəzir qəbul etdikdən sonra bu barədə yazılı hökm verilirdi. Müəyyən xidmətçiləri əvəz etmək istəyənlərin məvacibi, həmesale, tiyulu, baratı eşikağasıbaşının icazəsi və möhrü ilə müəyyən edilirdi. Eşikağasıbaşı ona tabe olan mülazimlərin məvaciblərinə əlavələr barədə olan hökmləri, onların tiyul, həməsale, məvaciblərinin hökmlərini imzası və möhrü ilə təsdiqldəməli idi. Yüksək divan ləşkərnəvisi, vəziri və sərxəttnəvisi həmin eşikağasıbaşının idarəsinin musoufiləri idilər (132, 8, 9).

Söhbət və məclis yasavullarını da eşikağasıbaşı qulluğa götürür və maaşlarını da o müəyyən edirdi. O.Əfəndiyev yazır ki, yasavul mənşəcə monqol dilindəki «yasa» sözündən olub, «qanun-qayda» mənasını ifadə edir. Onların vəzifələri Şahın olduğu yerlərdə qanun-qayda yaratmaqdan ibarət olmuşdur (20, 238). Engelbert Kempfer yazır ki, eşikağasıbaşına tabe olan yasavulların «yasavulane söhbət» adlı rəisləri də vardı. Söhbət yasavulları rəsmi

məclislərdə eşikağasıbaşından sonra dayanırdı. Şah və ailəsi müəyyən məqsədlə sarayı tərk etdikdə yolboyu onların təhlükəsizliyini yasavullar təmin edirdilər. Söhbət yasavulbaşı və ona tabe olan yasavullar dövlətin təməlinin qoyulmasında I Şah İsmayıla dayaq duran əmirlərin nəslindən olub, türkdürlər (96, 105). «Təzkirət əl-müluk»da məclis eşikağasıları adlandırılan məclis yasavullarının əmirlərin və mötəbər əyanların övladları arasından seçildiyi göstərilir. Onlar məclislərdə Şahın fərmanı və hökmlərini məclis əhlinə çatdırırdılar. Qeyd edildiyi kimi söhbət və məclis yasavulları eşikağasıbaşına tabe olub onun nəzarəti altında fəaliyyət göstərirdilər (132, 27, 28; 103, 121). Həsən bəy Rumlu yazır ki, h. 969 (1562)-cu ildə Səfəvi sarayına Osmanlı ölkəsindən Van hakimi Xosrov paşa və qapıçıbaşı Əli Ağanın başçılığı altında 200 nəfərdən ibarət elçi heyəti gəlmişdir ki, İstanbula göndərilmiş Səfəvi elçisi Vəli bəy Ustaclı da onlarla qayıtmışdı. Müəllifin məlumatında Ustaclı elindən olan Səfəvi elçisi Vəli bəyin yasavulbaşı olduğu göstərilmişdi (77, 417). H. 971 (1563)-cü ildə Şamlı elindən Hüseyn bəyin yasavulbaşı, Sultan Məhəmmədin hakimiyyətinin son illərində isə Zülqədər elindən Həbib bəyin söhbət yasavulu olduğunu görürük (108, 89; 128, 752). Sarayın giriş qapısını qoruyan eşikağasılar yerli qaynaqlarda qapıçı adı ilə verilir və onlara eşikağasıbaşına tabe qapıçıbaşının başçılıq etməsi barədə məlumatlara təsadüf edilir. Sultan Məhəmmədin hakimiyyətinin son illərində Şahsuvar bəy Əfşar qapıçıbaşı, qardaşı Təhmasibqulu bəy isə adi qapıçı idi (128, 760).

I Şah İsmayılın dövründə Ülamə sultan Təkəli əvvəlcə yasavul, sonra da eşikağasıbaşı olmuşdu (67, 60). I Şah Təhmasibin hakimiyyəti dövründə Zülqədər elinin Qavurqalı obasından Şahqulu Xəlifə Qavurqalı uzun illər eşikağsıbaşı olmuş, h. 939 (1532)-cu ildə möhürdar təyin edildiyinə görə eşikağasıbaşı vəzifəsindən azad edilmişdi (108, 62). H. 961 (1554)-ci ildə I Şah Təhmasib tərəfindən I Sultan Süleyman Qanuninin sarayına sülh danışıqları üçün göndərilmiş Qaradağ sufilərindən olan Fərruxzad bəy də bir müddət eşikağasıbaşı vəzifəsində işləmişdi (108, 78). Onun 1554-cü ildə Osmanlı sarayına diplomatik danışıqlar məqsədilə göndərilməsi (77,

383) dövlət şurasının üzvü olan eşikağasıbaşının mərkəzi idarədə nüfuzlu vəzifə olduğunu təsdiq edir və dövlətin xarici əlaqələrində də önəmli rola malik olmasından xəbər verir. Dövrün qaynaqlarında eşikağasıbaşı vəzifəsinə Qızılbaş-Türk əsilzadələri ilə yanaşı, şahzadələrin də təyin olunmasına təsadüf edilir. Məhəmməd Yusif Qəzvini yazır ki, I Şah Təhmasib qardaşı Bəhram Mirzənin oğlu İbrahim Mirzəyə qızı Gövhər sultan bəyimi vermiş və ona ali divan eşikağasıbaşı vəzifəsini tapşırmışdı. I Şah Təhmasib vəfat etdikdə (1576) hakimiyyət uğrunda baş vermiş çəkişmədə Ibrahim Mirzə İsmayıl Mirzənin tərəfini saxlamış və onu hakimiyyətə keçməsi münasibətilə təbrik etmişdi. Elə buna görə də II Şah İsmayıl ona «qardaş» deyə müraciət etmiş və vəzifəsində saxlamışdı. İbrahim Mirzə 1576-ci ildə eşikağasıbaşı vəzifəsindən azad edilib möhürdar təyin edilir. Onun yerinə eşikağasıbaşı Şamlı elinin Biçərli obasından Hüseynqulu sultan olur (128, 403, 406, 514, 536). H. 988 (1580)-ci ildə Hüseynqulu sultan Şamlının oğlu Mehdiqulu bəy atasının yerinə eşikağasıbaşı təyin olunsa da, vəzifədə çox qalmır, həmin ildə Qorxmaz xan Şamlı eşikağasıbaşı olur (128, 611, 613, 615). Mənbələrdə I Şah Abbasın hakimiyyətinin ilk illərində Qazı bəy, Qorxmaz xan, Piri bəy Şamlı adlı türk əyanlarının eşikağası-başı olmalarına təsadüf edilir (108, 104, 113). I Şah Abbas 1592-ci ildə eşikağasıbaşı vəzifəsinə Şamlı elinin Ərəbgirli obasından Şamlı Məhəmmədqulu bəyi təyin edir (80, 547). İsgəndər bəy Münşi 1602-ci ildə bu vəzifədə Mehdiqulu xanın olduğunu yazır (80, 602). 1604-cü ildə isə Rumlu elindən Əlixan bəy eşikağasıbaşı idi (80, 656). Əlixan bəydən sonra eşikağasıbaşı vəzifəsi Şamlı elinin Kəramətli obasından Əliqulu bəyə (xan) verilmişdi. I Şah Abbasın göstərişi ilə 1611-ci ildə Mərkəzi Asiyadan Səfəvi sarayına gələn özbək padşahı Vəliməhəmməd xanın İsfahanda qarşılanması ona tapşırılmışdı. O, 1625-ci ildə vəfat edir. Onun vəfatından sonra eşikağasıbaşı vəzifəsinə Şamlı elinin Bəydili obasından Zeynal bəy təyin edilir (80, 1040). Zeynal bəydən sonra 1628-ci ildə bu vəzifəyə Mehdiqulu xanın oğlu Şamlı elinin Kəramətli obasından Əliqulu xan təyin edilmişdi (80, 1084; 130, 83).

I Şah Səfi dövründə (1629-1642) də bu vəzifəyə əsasən Qızılbaş-Türk əyanları təyin olunurdu. Şah Səfinin hakimiyyətinin əvvəllərində eşikağasıbaşı Zeynal xan Şamlının olduğunu görürük. Görünür o, I Şah Abbas tərəfindən 1628-ci ildə yenidən bu vəzifəyə təyin olunmuşdu. Zeynal xan 1630-cu ildə Osmanlı ordusu ilə Həmədan savaşında səhvə yol verdiyinə görə ölüm cəzasına məhkum edilmiş, eşikağası vəzifəsi Mehdiqulu xan Şamlının oğlu Uğurlu xana tapşırılmışdı. Şah Səfinin hakimiyyətinin dördüncü ilində qulam soyundan olan Fars əmir əl-ümərası İmamqulu xan qətl edildikdən sonra Kuhgiluyə hakimliyi də eşikağasıbaşına əlavə edilərək ona verilmişdir(81, 199, 266, 268). 1632-ci ildə Uğurrlu xan Şamlı eşikağasıbaşı idi (108, 247). 1634-cü ildə Uğurlu xan Şamlı saray dəftərxanasına nəzarətçi təyin edilir və eşikağasıbaşı vəzifəsi isə Şamlı elinin İnallı obasından İmamqulu xana verilir (108, 250; 130, 89). 1635-ci ildə Canı bəy Şamlı eşikağası idi (130, 91). 1637-ci ildə isə eşikağasıbaşı vəzifəsinə Şamlı elinin Biçərli obasından Murtəzaqulu bəy təyin edilir (108, 257). Molla Kamal da 1637-ci il hadisələrindən bəhs edərkən onun eşikağasıbaşı olduğunu yazır (130, 34). Molla Kamal 1643-cü ildə eşikağasıbaşı Heydər bəyin etimadəddövlə Sarı Tağı ilə çəkişdiyini və vəzifədən istefa verib Qum şəhərinə getdiyini qeyd etmişdi (130, 99). Heydər bəy 1629-cu ildə Şah Səfinin tacqoyma mərasimində iştirak etmişdi və Qaradağ sufilərindən Qızılbaş Əbulqasım bəy Evoğlunun oğlu idi (80, 1078; 130, 81, 99). Heydər bəydən sonra bu vəzifəyə Mirzəəli sultan Çələbi Evoğlunun oğlu Əliqulu bəy təyin edilir (130, 99; 108, 255).

Səfəvi dövlətinin saray təşkilatında təşfirat rəisi-eşikağasıbaşı da ənənəvi olaraq Qızılbaş-Türk əsilzadələrindən təyin edilirdi. "Abbasnamə"nın verdiyi məlumatlardan göründüyü kimi bu ənənəyə II Şah Abbas dövründə də əməl edilmişdi. Sarı Tağı ayaması ilə məşhur olan baş vəzir Mirzə Məhəmməd Tağıya qarşı qəsdin təşkilatçısı qorçubaşı Cani xan cəzalandırıldıqda Murtuzaqulu bəy (xan) Biçərlinin eşikağasıbaşı olduğunu görürük. O, h. 1055-ci (m.1645) ildə qorçubaşı vəzifəsinə təyin edildikdə, eşikağasıbaşı vəzifəsi Mehdiqulu xan Şamlıya verilir. Uzun illər

onun eşikağasıbaşı olduğunu görürük. Ancaq h. 1071 (m.1661)-ci ildə isə qısa müddətdə eşikağasıbaşı onun qardaşı Nəcəfqulu bəy olmuşdur (125a, 35,92,111). "Abbasnamə" də h.1074(m. 1664)-cü ildə eşikağasıbaşı Mehdiqulu xan Şamlının vəfat etməsi və bu vəzifəyə onun oğlu Uğurlu xanın təyin edilməsi faktına da təsadüf edilir (125a, 118)

Tüfəngçibaşı da dövlət şurasının üzvü olub tüfəngçi hərbi hissəsinin minbaşılarının, yüzbaşılarının, saray carçıları və qulluqçularının ağsaqqalı, yəni Tavernyenin qeyd etdiyi kimi rəisi və başçısı olub (104, 584), rütbəsinə görə, əsgəri təşkilatda qorçubaşı və qullarağasından sonra üçüncü yerdə dayanırdı (96, 89). Ona tabe olanların hamısının tiyul, həmesale,məvacib, barat və mükafatları barədə onun imzası ilə təsdiq edilən təqdimatı əsasında baş vəzirin yazılı hökmü verilirdi. Və bu hökm əsasında onların məvacibi ödənilirdi. Tüfəngçilərin və carçıların, minbaşıların, yüzbaşıların, carçıbaşıların qulluğa götürülməsi, onların tiyul, həmesale və məvacibləri alicah tüfəngçiağasının təqdimatı, baş vəzirin yazılı hökmü əsasında icra olunurdu. Tüfəngçilərə aid bütün problemləri də tüfəngçiağası həll edirdi. Tüfəngçilərin rütbə cədvəlini, həmin idarənin vəziri və mustoufiləri tüfəngçiağasının iştirakı ilə Şaha çatdırırdılar (132, 8-9).

"Abbasnamə"də göstərilir ki, Ağa Tahir adı ilə tanınan Mir Fəttah Şah Səfi dövründə adi tüfəngçidən Bağdadda tüfəngçiağasıbaşı vəzifəsinə yüksəlmişdi. Ondan şaha çoxlu şikayətlər daxil olmuş və II Şah Abbas etimadəddövlə və bir neçə dövlət məmuruna onun işi və fəaliyyətini yoxlamaq barədə fərman verir. Yoxlama əsasında Mir Fəttahın tüfəngçilərin əməkhaqlarından qeyri-qanuni mənimsəmə və oğurluq barədə faktlar aşkarlandı. Bu hadisədən sonra Mir Fəttahın qardaşı oğlu minbaşı Məhəmməd Səid və bir çox tərəfdarlarının onu müdafiə məqsədi ilə dövlətxana ilə üzbəüz toplaşması Şahı bərk qəzəbləndirir. Şah qullarağası Siyavuş xana onların hər ikisinin tutulub edam olunması barədə fərman verdi. Fərman dərhal yerinə yetirildi. Tüfəngçiağası vəzifəsi Qələndər sultan Cığataya tapşırıldı. (125a, 28, 29)

Nazir-i büyutat da dövlət şurasının üzvü olub, saray təşkilatlarında statusuna görə xüsusi yer tuturdu. Tavernyeyə görə nazir «görən» mənasını ifadə edir və saray təşkilatında ən böyük vəzifə olub, sarayın bütün büyutatına (beyt ərəb dilində ev, bina və təsərrüfat mənasındadır), şahın xassə əmlakına, ilxılarına nəzarət və başçılıq edirdi. Bu vəzifə Fransadakı saray rəisinin eynidir (104, 572, 573). Adam Oleariyə görə, Səfəvi ölkəsində gərəkyaraq-tədarükçü adlandırılan nazir sarayın təchizatı ilə məşğul olur və təminat məsələləri üzrə məsuliyyət daşıyırdı (139, 585). O, sarayın 33 karxanasına (müxtəlif anbarlarda ev təsərrüfatı obyektləri və karxanalar) başçılıq edirdi (20, 235). Naziri saray məmurlarının başçısı adlandıran Engelbert Kempfer onun saray emalatxanalarına rəhbərlik etdiyini və saray üçün ərzaq, geyim tədarükü məsələlərinə də baxdığını qeyd etmişdir. O eyni zamanda saray emalatxanalarına ustabaşı təyin edir və emalatxana işçilərinin məvaciblə təmin edilməsi ilə bağlı məsələlərə də birbaşa nəzarət edirdi. Ancaq saray emalatxanalarında  çalışanların məvaciblərinin azaldılıb-artırılması məsələlərində nazir Şahın bu barədə göstərişlərinə əməl edirdi (96, 97).

«Təzkirət əl-müluk»da dövlətin idarə quruluşundakı səlahiyyət bölgüsünə uyğun bir səpkidə nazir-i büyutatın hüquq və səlahiyyətlərinin dəqiq şərhi əks olunmuşdur. Qaynaqda göstərilir ki, hər ilin əvvəlində onun təliqəsi (rəsmi məktub) əsasında xassə idarəsinin büyutat müdiri sarayın 6 aylıq xərcini, nəqd və cins olaraq fərman üzrə nəzərdə tutulan vilayətlərdən qərara alınmış həmesalelər çıxıldıqdan sonra bir nəfər təhsildar və sahibcəmlərin məlumatları üzrə, təxminən müəyyən edirdi.Büyutat vəziri də, bu təxmini hesab layihəsini nazirə ərz edərək onun nəzərinə çatdırırdı. Büyutat vəziri nazirin möhürləyib təsdiq etiyi bu haqq-hesab layihəsini baş vəzirə də təqdim edirdi. Burada müşriflərin sarayın altı aylıq xərci ilə bağlı nəzərdə tutduqları məbləğ haqqında baş vəzir qərar verirdi ki, onun əsasında sahibcəmlər mədaxil qəbzi yazıb dövlət xəzinəsinin sahibcəminə verib nəzərdə tutulan vəsaiti alırdılar. Bu vəsaitlə sahibicəmlər sarayın ehtiyacına görə daxili bazarlardan ərzaq və sairə tələbat malları alırdılar. Onların satın aldıqları ərzaq mal-

larından bəzilərinin qiyməti ildə bir dəfə müəyyən edilərdi. Qəbul olunmuş qaydaya görə nazir-i büyutatın dəvəti ilə büyutat vəzirinin, möhtəsib əl-məmalikin, İsfahan mustoufisinin, əsnaf ağsaqqallarının toplantısında malların qiyməti, hökumətin xeyri nəzərə alınaraq təyin edilir və hər bir maldan nümunə də götürülürdü ki, onların da qiymətləri xüsusi möhürlü sənədlərdə öz əksini tapırdı. Qiymət sənədini büyutat işçiləri və nazir-i büyutat möhürləyib sahibcəmlərə tapşırırdılar ki, onlar sarayın xüsusi ehtiyacından ötrü bir il içərisində lazım olan qədər malı zikr olunan qiymətnamə üzrə təhvillərində olan vəsaitdən ödəyərək ala bilsinlər. Bir sıra mallar barədə isə sahib-i nəsəq hər ay hər bir əsnaf ağsaqqalından aldığı iltizamı möhtəsib əl-məmalikə verirdi və onun da bu iltizam əsasında tərtib etdiyi qiymət cədvəlini nazir-i büyutat təsdiq edirdi. Nazir-i büyutat isə qeyd olunan malların qiymətlərindən xəbərdar olduqdan sonra onu sahibicəmlərə təslim edirdi. Sahibcəmlər satın aldıqları mallara sərf etdikləri vəsait barədə möhürlü xərc sənədləri hazırlayırdılar ki, onun əsasında sahibcəmlərin ayağında qalan pullar silinir və bütün xərclər nazir-i büyutatın məxaric dəftərində qeyd olunurdu. Nazir-i büyutatın göstərişi ilə müşriflər gündəlik xərclər barədə yazılı hesabatları şaha ərz edir və verilən vəsiqə üzrə, şahın xüsusi idarəsinin ehtiyacları, məclis, qonaqlıqlar və təsadüfi xərclər barədə sənəd yazıb, büyutat nəzarətçisi möhürlədikdən sonra, hər ay gündəlik xərc siyahısına daxil edirdilər (132, 10). Gündəlik xərc siyahıları hər ay büyutat vəzirinə təqdim olunur, vəzir də sənədləri yoxlayıb imza etdikdən sonra nazir-i büyutat onları möhürləyib mustoufiyə təqdim edirdi. O da öz növbəsində sahibcəmlərdə qalan vəsaiti və xərcləri müəyyən edirdi. Vilayətlərdən müəyyən edilmiş ərzaq malları hər hansı bir səbəbə görə, büyutata vaxtında çatdırılmadıqda nazir-i büyutat bu barədə tərtib olunmuş sənədə möhür vurduqdan sonra onu baş vəzirə təqdim edirdi. Dərhal xəzinə, ya da başqa dövlət fondundan ərzaq malları tədarük olunur, qayda üzrə sərf edilirdi (132, 11).

Hər il büyutat işçilərinin dərəcələri, maaş və məzuniyyətləri nazir-i büyutat tərəfindən təsdiq olunurdu ki, bu onun vəzifə borcu idi. Saray üçün lazım olan ərzağı hər il vaxtında almalı idi ki, il

ərzində qiymətin dəyişməsi xəzinəyə əlavə zərər vura bilməsin. Hər il payızın əvvəllərində dövlət imarətlərində təmir işləri aparılması üçün memarbaşına xüsusi tapşırıq verir və hesabına pul köçürürdü. Tikinti işində çalışanların məvacib və mükafatlarını da möhürlədikdən sonra onu baş vəzir təsdiq edirdi. İlin əvvəlində, onun yazdığı təliqə və bu barədə baş vəzirin sərəncamı əsasında xüsusi məmurlar əyalətlərə gedir, saraya lazım olan malları alırdı. Sarayın hamamları və buz anbarlarının qaydaya salınmasına, mətbəx və sairə üçün qış odunu tədarük edilməsinə, tövlələr və dəvəliklərin ehtiyacı üçün arpa, saman tədarükünə də o nəzarət edirdi (132, 11, 12).

Nazir-i büyutat sarayın otuz üç karxanasının başçısı olub, eləcə də sahibcəmlərin və hətta əmir-axurbaşı, cəbbadarbaşının ağsaqqalı idi (132, 12). I Şah Təhmasibin dövründə Qazi lmad İsfahani, Ağa Camal Kirmani, Mirzə Salman Cabiri, Xacə Əbülqasım Fərəhani, Mirzə Əbülfət İsfahaninin nazir-i büyutat vəzifəsində çalışdıqları (128, 447) məlum olsa da, onların mənsubiyyətləri haqqında dəqiq söz demək mümkün deyildir. Ancaq I Şah Abbas dövründə nazir-i büyutat olmuş Zaman bəyin və I Şah Səfinin nazir-i büyutatlarından Zaman bəyin oğlu Hüseynxan bəyin, Məhəmmədəli bəyin Qızılbaş olması şübhə doğurmamalıdır (108, 233, 252, 258). I Şah Səfinin dövründə isə Şamlı əyanlarından Astrabad bəylərbəyi Hüseyn xan nazir-i büyutat vəzifəsində olmuşdu. (81, 271)

"Abbasnamə"də II Şah Abbasın hakimiyyətinin ilk illərində Məhəmmədəli bəy adlı şəxsin saray karxanalarının rəisi, yəni nazir-i büyutat olduğu qeyd edilir. H.1059 (m.1649)-cu ildə nazir-i büyutat Məhəmmədəli bəy vəfat edir və onun vəzifəsi müəyyir ül-məmalik Məhəmməd bəyə verilir. Müəyyir ül-məmalik vəzifəsinə isə Məhəmməd bəyin qardaşı Hüseyin bəy təyin edilir. (125a, 53). H. 1063 (m.1653)-cü ildə baş vəzir Xəlifə Sultan vəfat etdi və baş vəzir vəzifəsinə nazir-i büyutat Məhəmməd bəy təyin edilir. Nazir-i Büyutat vəzifəsi isə Səfiqulu bəy qulame xasse-ye şərifə yasovule söhbətə tapşırılır (125a, 61). H.1074 (m.1663)-cü ildə nazir-i Büyutat Səfiqulu bəy diqqətsizlik və etimadsızlıq göstərib dövlət əmlakını mənimsəmişdir. Şah onun həbsi və əmlakının da müsadirə

edilməsi barədə göstəriş verir. Şahın göstərişi ilə eşikağasıbaşı Uğurlu xan bu əmri icra etməli idi. O, Səfiqulu bəyi Kəlat həbsxanasına salıb əmlakını da müsadirə edir. Nazir-i Büyutat Xələf bəyin oğlu Süfrəçibaşı Maqsud sultan təyin edilir. (125a, 119).

«Təzkirət əl-müluk» da göstərilir ki, divanbəyi də «üməra-ye əzəm», (böyük əmirlər) sırasına daxil olub, daşıdığı vəzifə səlahiyyətinə görə həftədə dörd gün, sədrlərlə birlikdə divanbəyilərə məxsus keşikxanada, sədrlərin hökmü ilə, adam öldürmək, namusa təcavüz, göz çıxarmaq və diş sındırmaqdan ibarət olan dörd cinayət barədə günahkarların işinə baxırdı. Divanbəyi məmalik-i məhrusədə zülmkarlıqla bağlı müraciətləri, şəhər və kənd əhalisinin bir-birindən dörd-beş tüməndən artıq olan pul iddialarına aid şikayətlərini də təhqiq edirdi. Şəriət hökmlərinin icrası, şəhərlərdə nizam-intizamın qorunması, güclülərin zəiflərə zülm etməsinin qarşısının alınması da divanbəylərin səlahiyyətinə daxil idi (132, 12). Divanbəyi mülkü və cinayət məhkəmələrinin rəisi olub, ölkədəki həbsxanalara da o nəzarət edirdi (106, 209). Tavernye yazırdı ki, divanbəyi ədliyyə məsələləri üzrə əsas dövlət məmuru olub, ölkədə qanunların icrası və günahkarların cəzalandırılması məsələlərinə baxırdı. Ölkədə bütün şikayətçilər ona müraciət edir və Şah da onun divanında iştirak edirdi (104, 576).

Zülm, təcavüz və dörd cinayət hadisəsi barədə divanbəyinə şikayət edildikdə və bu hadisə şəhərdən on- on iki ağacdan uzaq məsafədə baş verməmişsə, divanbəyi xidmətçilərindən birinə təliqə yazıb, təhqiqatı ona həvalə edərdi. Hadisə qeyd olunan məsafədən uzaqda baş verdikdə və mövcud qaydaya görə bu qətl məsələsi ilə bağlı olduqda ərizə verən şəxs beş tümənə də verməli idi. Bundan sonra divanbəyi və divanxana katibi hər biri ayrıca təliqə yazır və işə baxmaq üçün hökm verilirdi. Hökm xüsusi dəftərə qeyd olunduqdan sonra iltizam (öhdəlik) pulu mühəssilin hesabına köçürülür və ondan da başqa vəsaitlər kimi istifadə olunurdu. Həftənin iki gününü isə divanbəyi öz evində adi haqq-hesab şikayətlərinə baxırdı (132, 12-13). Divanbəyinin hökmləri məmləkətin bütün böyükləri, əyalət xanları, hakimləri tərəfindən qəbul olunaraq icra edilirdi (104, 576).

Divanbəyiyə dövlət vergiləri, baş vəzirə tabe məmurlar və qələm əhlinə aid mübahisəli məsələlərlə bağlı şikayətlər daxil olduqda o bunları baş vəzirə göndərməli idi. Eləcə də şikayət edən tərəflərdən biri qorçu, qulam və başqa ordu qulluqçusu, yaxud büyutat xidmətçisi olduqda, o zaman divanbəyi hər idarənin öz ağsaqqalına müraciət edərdi. Şəhər və kənd əhalisi ilə bağlı olan başqa mübahisəli məsələləri divanbəyi özü səbəst həll edirdi. Vilayətlərdən bir qrup adam bəylərbəyi, sultanlardan şikayət məqsədilə şah sarayına gəlib, baş vəzirə deyil, divanbəyiyə müraciət etdikdə, divanbəyi onların hər birini dinlədikdən sonra bütün bunları Şaha ərz edib, məsələni hökumətin məsləhəti, məmləkətin qanununa uyğun yolla həll edirdi (132, 13).

Dövrün qaynaqlarında divanbəyi vəzifəsinə dövləti quran və onu yaşadan Türk əyanlarının təyin olunmasına dair məlumatlar verilmişdi. Hələ I Şah İsmayıl zamanında dövlətin qurulmasında fəal iştirak etmiş Hüseyn bəy Lələ Şamlı bir müddət divanbəyi vəzifəsində olmuşdu (67, 46). Sultan Məhəmməd Xudabəndə dövründə bu vəzifə Ustaclı əmirlərinin əlində olmuşdu. İsgəndər bəy 1579-cu il hadisələrindən bəhs edərkən Ustaclı Həmzə xanın divanbəyibaşı olduğunu qeyd edir. Müəllif 1584-cü ildə isə yenə də Ustaclılardan Əliqulu bəy Qıc oğlunun divanbəyi olması haqqında məlumat verir (80, 681, 763). I Şah Abbas hakimiyyətə keçdikdən sonra haqqında danışılan orqanda türk əyanları yenə aparıcı mövqeyə malik olmuşdur. 1615-ci ildə Şamlı elinin Bəydili obasından Əliqulu bəy (xan) divanbəyi idi. 1619-cu ildə isə Şamlı eli əyanlarından Kəlbəli xan divanbəyi təyin edilir (80, 887, 935, 946). I Şah Abbasdan etibarən bu vəzifəni uzun müddət Şamlı əmirləri öz əllərində saxlamışdılar. 1642-ci ildə Ali məclis çağrılmış, eşikağasıbaşı Murtəzaqulu xan Biçərli Şamlı divanbəyi təyin edilmişdi. 1645-ci ildə saray dəftərxanasının naziri Şamlı Uğurlu xan divanbəyi olur (130, 99, 101).

Səfəvi dövlətinin idarə quruluşunda məsul məmurlar arasında V.F.Minorskinin qeyd etdiyi kimi vaqiyənəvis adlanan məclisnevisin də önəmli rolu vardı (103, 95). Onun hüquq və səlahiyyətləri haqqında Tavernye yazır ki, vaqiyənəvis dövlətin ən böyük

münşisi, yəni katibidir. Bu vəzifəyə Şaha çox yaxın olan adam təyin olunurdu. O, Ali məclisdə bütün ərizə və dövlət sənədlərini Şahın hüzurunda oxuyurdu (104, 576). Şahın şəxsi katibi olan vaqiyənəvis məşvərətçi orqan olan ali məclisin iclaslarını sənədləşdirir, vilayət başçılarına, xarici dövlətlərə Şahın adından məktubları yazır və arxivə nəzarət edirdi. Ancaq Ali məclisdə vaqiyənəvslərlə yanaşı başqa mirzələr də vardı ki, onlara münşi əl-məmalik başçılıq edirdi. Əslində bu məclisdə vaqiyənəvislə birlikdə yazı işlərinə baxan münşi əl-məmalik arasında səlahiyyət bölgüsü baxımından ciddi fərq yox idi (103, 95, 117, 118; 20, 273).

Mirzə Səmianın canqi əmiri adlandırdığı vaqiyənəvis haqqında Holşteynli Adam Olearinin də gündəliyində maraqlı məlumatlar vardır. O, yazır ki, sarayın, yaxud şahın müşavir və katibi olan vaqiyənəvis şahın məktublarını, hökmlərini, fərmanlarını yazır, həmçinin dövlətin mədaxili və məxaricinin hesablarını aparırdı.Vaqiyənəvis Mirzə Məsum adlı şəxsin rəhbərliyi altında 40 nəfər mirzə fəaliyyət göstərirdi. O, Qəzvin şəhəri yaxınlığında Əlvənd dağının ətəyindəki Dərmən adlı kənddən olub, adi kəndli oğlu idi. Bu bölgədə Dərmən və Saru adlı iki kənd yerləşir ki, ən yaxşı mirzələr də buradan çıxırlar. Mirzələr gözəl xətlə yazmağı bacarmalıdırlar ki, elə bu səbəbə görə də bu kəndlərin tarlalarında, çoban komalarında addımbaşı yazı yazmaqla məşğul olan gəncləri görmək olur (139, 893).

«Təzkirət əl-müluk»da göstərilir ki, alicah vaqiyənəvis «canqi» əmirlərindən olub, başqa ölkə hökmdarlarından Şaha göndərilən məktublara cavabları tərtib edirdi. Şahın nəzarəti altında olan əsas dəftərə mənsəb, mülazimlik, həmesale, tiyul haqqında daxil olan fərmnaları, Şahın şifahi olaraq elan etdiyi fərmanları və baş vəzirin təliqələri, yaxud böyük əmirlərin «ali əmr üzrə» qeydləri əsasında bütün fərmanları vaqiənəvis tərtib edərək yazıb hazırlayırdı. Fərmanlara qara mürəkkəbli tuğra çəkmək ancaq vaqiyənəvisə məxsus bir vəzifə olub başqasına dəxli yox idi (132, 15). Engelbert Kempfer yazırdı ki, vaqiyənəvis dövlət şurası məclislərində Şahın sol tərəfində əyləşir və onun hökmlərini, fərmanlarını, əcnəbi ölkələrlə göndərilən məktubları, əcnəbi ölkə elçilərinin şaha gətir-

dikləri məktubları və onlara cavabları xüsusi dəftərə yazırdı (96, 97). Bütün bunlar vaqiyənəvisin vəzifə borcu olub, onun hüquq və səlahiyyətlərinin gerçək göstəriciləridir.

Məmaliki məhrusədən Şaha hakimlər tərəfindən göndərilən ərizə və məlumatların hamısını Şah vaqiyənəvisə göndərirdi ki, o bunları ümumi və xüsusi məclislərdə oxuyur, sonra onlara cavab yazırdı. Bu məktublardan hər hansına görə əgər fərman yazılması lazım olduqda onu vaqiyənəvisin qaralaması üzrə xüsusi mirzələr yazıb hazırlayırdılar. Göndərilən məlumatların hər birinin cavabını, hər məlumatın altında şahın əmri nə cür verilərsə, vaqiyənəvislər öz xətlərilə o qaydada yazır və onları dəftərlərinə də köçürürdülər. Vaqiyənəvislərə tabe olan işçilərin sayı on nəfərdən ibarət idi. Belə ki, rəqəmnəvislər (fərmanları yazanlar) və fərmanların qeyd olunduğu dəftərlərə baxanlar yeddi nəfər olub, onlardan bir nəfəri ali dövlət şurasının fərmanlarını dəftərə yazır və üç nəfəri qayda üzrə ona kömək edir və qeyd olunan bu dörd nəfərdən iki mirzə qalan üç mirzə ilə birlikdə, həm də fərmanlar yazılan dəftərlərə baxırdılar. Yenə də bu yeddi nəfərdən iki nəfər – dəftərə qeyd olunan mətn əsasında çıxarış, yəni hər hansı bir yerə göndərilən fərmanı yazıb hazırlayırdılar. Qalan üç nəfərdən ikisi xidmətçi və bir nəfəri isə məktubları yazırdı (132, 15-16).

Hər il İsfahan vergilərindən vaqiyənəvisin işçilərinin məvacibi üçün «kağız pulu» adı ilə 30 tümən ayrılıb onlara verilirdi. Hərgah, vaqiyənəvislər özü və ya başqa bir şəxs üçün bir şey xahiş etmək istədikdə, heç bir çətinliklə qarşılaşmadan onu xüsusi və ümumi məclislərdə Şaha çatdıra bilirdilər. Bütün ərizələrin Şahın hüzurunda oxunub ona çatdırılması və ona cavab yazmaq işi, məclisnəvisdən başqa heç bir kəsə aid deyildi. Buna görə də vaqiyənəvislərə məclisnəvis də deyərdilər. Qələm sahiblərindən qulluq dərəcəsi və şaha yaxınlığına görə baş vəzirdən başqa vaqiyənəvisdən irəlidə kimsə yoxdu. Qədim zamanlardan başlayaraq, həmişə vaqiyənəvislər şahların qulluğunda xüsusi və ümumi məclislərdə iştirak edərdilər (132, 16).

F.Sümərin yazdığı kimi Səfəvi inşa divanında yalnız farsca deyil, lazım olan zaman türkcə qələmə alındığına və bu ənənənin

dövlətin sonuna qədər davam etdiyinə (67, 151) görə vaqiyənəvis, münşi əl-məmalik və mirzələrin çoxu sözsüz ki, türk bilim adamları olmuşdur. I Şah Təhmasib dövründə inşa divanına bir müddət Əmir Zəkəriyyə Təbrizi Köcəcinin qohumlarından Məhəmməd bəy Təbrizi Göcəci rəhbərlik etmişdi. Məhəmməd bəyin qohumu Əli bəyin oğlu Mirzə Məhəmməd də inşa divanında işləmişdir (128, 451). I Şah Səfinin sədr təyin etdiyi Mirzə Məhəmməd I Şah Abbasın zamanında vaqiyənəvis olmuşdu. I Şah Səfi hakimiyyətə keçdikdə vaqiyənəvis vəzifəsində Hatəm bəy Ordubadinin oğlu Talıb xan işləyirdi (1621-1632). I Şah Səfi onu 1632-ci ildə vaqiyənəvis vəzifəsindən azad edib, baş vəzir vəzifəsinə təyin etmişdi (130, 84). Talıb xandan sonra yenə bu vəzifəyə irəli çəkilən Mirzə Məhəmməd vəfat etmiş və vaqiyənəvis mustofi-ye bəqaya həm də dəftərxana naziri Mirzə Məsim olur (130, 89). "Zeyl-i tarix-i alamara-yi Abbasi" də mərhum Hatəm bəy Ordubadinin qardaşı Mirzə Əbdülhüseyn Ədhəm bəy Ordubadinin münşi əl-məmalik olduğu və I Şah Səfinin hakimiyyətinin sonuna qədər inşa divanına başçılıq etdiyi qeyd edilir (81,282).

Səfəvi dövlətinin ərazisinin divan və xassəyə bölünməsinə müvafiq olaraq onları idarə etmək üçün iki divan fəaliyyət göstərirdi. «Divani əl-məmalik» (dövlət vilayətləri divanı) dövlətə məxsus torpaqların maliyyə işləri, «divani xassə» (Şah vilayətləri divanı) şaha məxsus mülkiyyətin maliyyə işləri idarəsi idi (20, 224). Məmaliki məhrusənin maliyyə divanına baş vəzirin nəzarəti altında fəaliyyət göstərən və səlahiyyət bölgüsünə görə ona tabe olan mustoufi əl-məmalik başçılıq edirdi (104, 593). «Təzkirət əl-muluk»da göstərilir ki, mustoufi əl-məmalik böyük əmirlər (ümarey-i əzəm) sırasında dövlət əhəmiyyətli vəzifədir (132, 15). Dövlətin maliyyə məsələləri üzrə geniş səlahiyyətlərə malik olan mustoufi əl-məmalik məmaliki məhrusədən alınan bütün dövlət vergilərini dəftərdə qeyd etdikdən sonra vilayətlərə göndərirdi və yerlərdəki qulluq adamları onun qeydlərinə əməl etməli, vergiləri artırıb-azaltmadan göstərilən həcmdə yığıb ödəməli idilər. Bəylərbəyilərin, xanların, sultanların bütün tiyulları, həmesaleləri və vəzirlərin, mustoufilərin, kələntərlərin, əsgərlərin, qələm sahib-

lərinin məvacibləri, soyurqallar mustoufi əl-məmalikin dəftərində onun möhürü ilə qeydiyyata alınırdı. Bu qeydiyyat əsasında tiyuldan, həmesaledən nəğd, yaxud cins şəklində ödəmələr, müxtəlif qaynaqlardan məvaciblərin verilməsi əməliyyatları həyata keçirilirdi. Mustoufi əl-məmalikin möhür vurduğu maliyyə dəftərini baş vəzir də təsdiq etməli idi (132, 16, 17).

Tavernye yazır ki, mustoufi əl-məmalikin dəftərxanasında dövlət məmurlarına xəzinədən nəqd verilən məvaciblər, o cümlədən onlara yerlərdən tiyul, həmesale, yeksale adı ilə ödənilən maaşın ümumi məbləğinin qeydiyyatı aparılırdı. Bu hesabdarlıq əməliyyatı dövlətin mali məsələləri ilə məşğul olan başqa idarələrlə əlaqəli şəkildə yerinə yetirilirdi. Məmləkətin mərkəzi və yerli idarələrində çalışan qulluqçuların siyahısı və onların məvacib cədvəlləri bu dəftərxanada qeydiyyata alınmaqla onun möhürü ilə təsdiq olunurdu. Divan əmlakının pul mədaxilini qeydiyyata alan zabitənəvis və ödəniş idarəsinin başçısı olan sahib-i tocih də ona tabe idi. Tavernye yazırdı ki, mühasibat divanının çoxsaylı icraçı məmurlarının hamısı qələm əhlidirlər. Bütün qeydiyyat dəftərləri onların əlindən keçir; xüsusilə, məmləkətin divan əmlakı və Şah xalisələrinin gəlirləri yazılan sənədlər İsfahanın mühasibat divanındakı dəftərxanada qeydiyyata alınır. Bütün xərclərin də hamısı orada qeyd olunurdu. Ərbabı adlanan digər əmlaklardan da hər il Şaha müəyyən illik haqq verilirdi. Bu o əmlaklardır ki, onlardan vilayətlərin hakimləri çoxlu gəlir əldə edirlər. Mustoufi əl-məmalik və mustoufilər bütün xalisə, ərbabi əmlakının mühasibat işi üzrə dəftərdarlıqda ən yüksək məqamlı məsul işçilərdir. Şahın bütün gəlirinin hesabı, əmlak icarəsi, sürsat anbarları, qoşunun təchizatı, idarə məmurlarının xərclərini onlar qeydiyyata alırdılar. Başqa bir növ mühasib də vardır ki, ona «moquf» deyirlər ki, o, vəqf əmlakının hesabını aparırdı (104, 593). Nazir adlanan məmurun isə mustoufi əl-məmalik və mustoufilərin işini təftiş etməyə icazəsi vardı. Və bütün məxaric sənədlərinə onun adına olan möhür vurulmalı idi (104, 593). Burada sözsüz ki, mənbələrdə şahın naib adı ilə verilən dövlət məmuru nəzərdə tutulur. Seyid Hüseyn Astrabadi Maqsud bəyin I Şah Abbasın naibi və nazir olduğunu yazmışdı (108, 51) ki, bu fikrimizin doğru

olmasını göstərir. Dəftərxana darğası vəzifə borcu və səlahiyyətinə görə maliyyə müqəssirlərini yoxlayıb şahın, yaxud dövlətin əmlakını oğurlayanları, rəiyyətdən vergini çox alanları cəzalandırırdı. Məvaciblərin, cirələrin, səltənət nümayəndələrinin miniklərinin yeminin verilməsi, köçürülməsi dəftərxanada icra olunurdu. Onların hər biri öz nökərini göndərib «həvalə»sini «həvalə» verilən məhəldən alırdı. Hər kənddə, qəsəbədə «rəis» adlanan bir nəfər vardır ki, o, həmin məhəllin rəiyyətinin hamısının böyüyü olduğuna görə məmurlar, nökərlər vergini, həvaləni alanda ona müraciət edirlər (104, 593). Çünki birbaşa rəiyyətə özləri müraciət etsələr, onların hamısı vergi ödəmək əvəzinə qaçarlar. Dəftərxanada olan oğurluqlar, mənimsəmələr saray məmurları və vəzifə sahiblərinin məvacibləri hesabına icra olunurdu. Çünki bir nəfərin məvacibini bir neçə məhəllə həvalə edirlər, yəni göndərirlər və o, biçarə maaşından çox xərc çəkməlidir ki, məvacibini müxtəlif yerlərdən gedib ala bilsin. Elə buna görə də qulluqçular məvaciblərini bir yerdə qeydiyyata aldırmaq üçün rüşvət verməyə məcbur olurlar. Mustoufilər də hamının xahişini yerinə yetirə bilmirlər. Buna görə də təhsildarlar meydana çıxır ki, onlar «həvalə»ləri məvacib sahibindən ta bacardıqları qədər az pulla alırlar. Bu həvalə sənədi ilə yığım vaxtı həvalə yerlərinə gedib onu alırlar və bu yolla çox pul əldə edirlər. Bu iş isə qulluqçunun fəlakət və pərişanlığına səbəb olur və nəticədə bir çox vəzifə sahibləri işdən çıxmağa məcbur olurlar. Çünki 30 tümən məvacibi olan bir nəfər illik maaşının bir hissəsini nəğd almaq üçün onun müəyyən məbləğini təhsildara verməyə məcbur olaraq müflis olur. Ancaq Şah Abbas Kəbirin hakimiyyətinin sonlarında və I Şah Səfinin hakimiyyətinin əvvəllərində qonşularla çox vaxt müharibə olduğundan ordunun əsgərə böyük ehtiyacı olmuşdu. Elə buna görə də onların məvacibləri və cirələri tam və bütöv şəkildə, nizamla çatdırılmışdı (104, 594).

Ali divanın bütün strukturlarına mirzələr və hər hansı bir başqa idarəyə mirzə qəbul olunduqda onun sənədi həmin idarənin ağsaqqalı tərəfindən təsdiq olunmalı və bu barədə mustoufi əl-məmalikin də razılığı olmalı idi. Nazir, dəftərxana darğası, sahib-i

toucih, zabitənəvis, avarcənəvis və bir çox başqa məmurlar da mustoufi əl-məmalikə tabe idilər (132, 17).

Bütün mülazimlərin qulluq fərmanı və onların maaşlarına aid əmrlər divan, xassə və ərbab-i təhavil dəftərindən keçib keçməməsindən asılı olmayaraq onlara mustoufi əl-məmalikin möhürü vurulmalı idi. Burada yalnız şah əmlakı idarəsinin qulluq fərmanları, maaflar müstəsna hüquqa malik olub, mustoufi əl-məmalikin qeydiyyatına düşməyə bilərdilər (132, 17).

Divan dəftərxanası qulluqçularından müqəssir olanların məsuliyyətə cəlb edilməsi də alicah mustoufi əl-məmalikin vəzifə səlahiyyətinə aid idi. Məmaliki məhrusənin kiçik mustoufiləri onun razılığı ilə işə götürülürdü. Onların hamısı əslində ali divanın mülazimləri idilər. Mustoufi əl-məmalikin xidmətində fərman üzrə divan mülazimi olan sahib-rəqəmlərdən ibarət beş nəfər işçi vardı. Onların işi qulluqçuların maaşı, həmesaləsi, tiyul, maaflıqlar, soyurqallara aid hökm və fərmanlara və dəftərxanaya girib çıxan yazılı sənədləri yoxlayıb düzəltmək, qanuna uyğun olanlarını mustoufi əl-məmalikə möhür və imza üçün təqdim etmək, qanuna uyğun olmayanlar barəsində dəftərxana tərəfindən cavab yazıb sahiblərinə qaytarmaqdan ibarət idi (132, 17).

Mustoufi əl-məmalikin xüsusi idarə dəftərxanası da vardı ki, bu dəftərxana onun özünə aid idi. Belə ki, o məxariclə əlaqədar başqa idarələrin işi barədə dəqiq məlumat əldə etmək üçün mənsəb, mülazimlik fərmanlarını, həmesale, barat, mükafat, soyurqal, maaflıq və dəftərxananın alıb verəcəyi başqa pulların hökmlərini öz dəftərxanasında da qeydiyyata aldırırdı. Bu dəftərxananın işçilərinin sayı dörd nəfərdən ibarət idi (132, 18).

Dövrün mənbələrində mustoufi əl-məmaliklə bağlı məlumatlar təhlil edilərkən aydın olur ki, maliyyə divanına məmurlar qəbul edilərkən mənsubiyyətləri deyil, ilk növbədə onların yazı qabiliyyəti, hesabı və elm-i siyaqı bilməsi nəzərə alınırdı. Elə buna görə də onların arasında imperatorluğun tərkibinə daxil olan bir çox bölgələrdən nümayəndələrə təsadüf edilir. Ancaq mənbələrdə onların bir çoxu haqqında ətraflı məlumat olmadığına görə, doğulduqları yer əsas götürülsə də belə, mənsubiyyətlərinin təyin edilməsi olduqca

çətindir. Bu divanda da qızılbaşlara yaxın, yaxud onlarla bağlı olan seyidlərin vəzifəyə təyinatına rast gəlirik. I Şah Təhmasib dövründə mustofi əl-məmalik vəzifəsində olmuş Mir Qiyasəddin Mahmud Şəhristani, Məhəmməd Xudabəndənin hakimiyyəti vaxtı yenə də qeyd edilən vəzifədə bir müddət işləyən və baş vəzir Salman Cabiri tərəfindən təzyiqlərə məruz qalan Mirşah Qazi İsfahani seyid idilər (128, 445, 450). Qaynaqlarda yüksək elmi əhəmiyyətə malik məlumatların təhlili əsasında əldə edilən nəticəyə görə demək olar ki, Səfəvilərin yaratdığı inzibati-bürokratik aparatın mürəkkəb bir quruluşa malik olması ilə yanaşı, bu quruluş hakimiyyət orqanları arasında dəqiq səlahiyyət bölgüsü qaydalarını da özündə əks etdirirdi.

## § 3 Dövlət və saray təşkilatı

Səfəvi dövlətinin mexanizmində hakimiyyətin həyata keçirilməsinin vasitəsi olan orqan və təsisatların özünəməxsus strukturu mövcud olmuşdur. Bu daha çox sosial-iqtisadi, milli xüsusiyyətlər, qismən də coğrafi amillə bağlı idi. Hakimiyyət orqanların quruluşu, statusu açıqlandıqda məlum olur ki, Səfəvi dövlət aparatı sadə struktura malik olmamışdır. Dövlət strukturunda münşi əl-məmalik inşa divanının katibi olub, onun dəftərxanasında iyirmi səkkiz nəfər qulluqçu çalışırdı. Onlardan bir nəfəri münşi, qalanı mirzə idi. Münşi əl-məmalik müqərrəb ul-xaqan, yəni Şaha yaxın məmur olub, onun xüsusi məclisləri və dövlət şurasının iclaslarında vaqiyənəvislə birgə iştirak edirdi. Dəftərxanaya götürülən münşi və mirzələr münşi əl-məmalik tərəfindən yoxlanılır və məvacibləri müəyyən edilirdi (132, 24, 25). Sufilərin şəcərəsini və onlara verilən soyurqalları münşi əl-məmalik qeydiyyata alırdı. Tiyul, həmesale, məvacib, qulluq haqqında verilən fərmanlara, divanbəyinin hökmlərinə o, tuğra çəkirdi (132, 24). Qaynaqlarda münşi əl-məmalik «münşi-ye divane əla» ünvanı ilə də verilir. Mir Hüseyin bin Murtəza Hüseyn Astrabadi yazır ki, 1537-ci ildə «münşi-ye divane əla» vəfat etdikdən sonra bu vəzifəyə Əmir

Zəkəriyyə Təbrizi Köcəcinin qardaşı oğlu Məhəmməd bəy təyin edilir (108, 66).

Mərkəzi idarədə möhürdar da səlahiyyətli işlər müdirlərindən olub, rəsmi məclislərdə, məclisi əlanın iclaslarında iştirak edir, qızıl zəncirli Şah möhürü həmişə yanında olurdu. Sansonun yazdığına görə onda bu möhürdən başqa beş ədəd də başqa möhür vardı. Bütün rəsmi sənədlərə möhür vurulurdu. Pyetro della Valle yazır ki, Şah barmağında çox qiymətli üzük, yəni möhür də saxlayırdı ki, onun adından yazılan məktublar, fərmanlar onunla möhürlənirdi (86, 202; 106, 53). Möhürdarın statusu haqqında «Təzkirət əl-müluk»da daha ətraflı məlumat vardır. Mənbədə göstərilir ki, keçmiş möhürdarın dəftərxanasından məlum olur ki, onun üç yüz altmış dörd tümən, min üç yüz altmış bir dinar Qum və başqa mahalda tiyulundan məvacibi olmuşdur. Bəzən onlardan tiyulları geri alınıb, əvəzində valilik və hakimlik verərmişlər. Bir çox hallarda isə möhürdarlıq vəzifəsi tiyulsuz verilmişdir. Bu vəzifə böyük mənsəb olub, onu aparan şəxs şahın bütün məclislərində iştirak edirdi. Əvvəllər vəzirlərin, mustoufilərin və kələntərlərin vəzifəyə təyin olunmalarına aid fərmanlar, əmir, hakim və başqa əyanların soyurqal və tiyulu dəftərlərə qeyd edildikdən, möhürləndikdən sonra möhürdarın yanında olan mübarək Şah möhürü ilə də möhürlənirdi. Fərmanlara, onların ünvanları kənarında möhür vurulurdu. Son illərdə bu qaydaya əməl edilmirdi. Artıq hər kəs öz rüsumatını dəftərə yazılıb təsdiq edilən qərar üzrə alırdı (132, 25).

«Təzkirət əl-müluk»da qeyd edilir ki, orduya, məmaliki məhrusəyə (qorunan ölkələr) təyin edilən əmirlər, vəzirlər, mustoufilər, ləşkərnəvislər və bütün mənsəb sahiblərinin vəzifəsinə aid hökmlərə, fərmanlara vurulan mübarək möhürün qarşısında kiçik şərəfi-nifad möhürü vurulurdu. «Təzkirət əl-müluk»da şərəfi nifad möhürünü vuran məmur «möhürdare şərəfe nifad» adı verilmişdir. Məmaliki məhrusədə vali, hakim, böyük və kiçik vəzir məvacibi müqabilində hər tümənə üç yüz otuz kazbeki, soyurqal və maaflıqlara aid vəsiqələrdən hər tümənə beş yüz iyirmi dinar hesabı ilə 835 dinar qaydaya görə möhürdare şərəfe nifada verilirdi (132, 25).

I Şah İsmayılın dövründən möhürdarlıq dövlət idarəçiliyində fəaliyyəti Şah tərəfindən xüsusi formada tənzimlənən dövlət aparatının həm səlahiyyətli, həm də başqa orqanlardan asılı olmayan ünsürü idi. Bu vəzifə bir qayda olaraq Qızılbaş-Türk əsilzadələrindən birinə tapşırıldı. «Xolde-bərin»də I Şah İsmayılla Ağqoyunlu Sultan Murad arasında baş vermiş döyüşlərdən (1503-1504) bəhs edilərkən türk Təkəli elindən Sarı Əlinin möhürdar olduğu göstərilmişdir (128, 128). Türkman əyanlarından Əmir bəy ibn Gülabi bəy ibn Əmir bəy Mosullu sonuncu Ağqoyunlu hökmdarları zamanında Diyarbəkr valisi olmuş, Qızılbaş ordusu 1508-ci ildə Zülqədər oğulları bəyliyi ilə döyüşərkən I Şah İsmayılın yanına gəlib tabe olmuş və qızılbaşlığı qəbul etmişdir. Şah ona xan titulu və möhürdarlıq mənsəbini vermişdir. Əmir xan Mosullu Xorasana Təhmasib Mirzəyə lələ göndərilənə qədər (1515) bu vəzifədə olmuşdur (128, 55; 138, 400, 418). I Şah Təhmasibin hakimiyyətinin ilk illərində Təkəli elinin mötəbər əmirlərindən İbrahim xəlifə möhürdar vəzifəsində olmuş və 1531-ci ildə Şahın əmri ilə öldürülmüşdü (56, 24). F. Sümər qaynaq materiallarına istinad edərək yazır ki, Səfəvi dövlətində çox mühüm vəzifə olan möhürdarlıq çox vaxt Zülqədər elinin əmirlərinə verilir və bu vəzifə onların əlində olurdu (67, 145). 1531-1532-ci illərdə I Şah Təhmasib tərəfindən Mahmud sultan Zülqədərdən sonra möhürdar vəzifəsinə təyin edilən Şahqulu xəlifə Zülqədər uzun illər, daha doğrusu 1558-ci ilə qədər bu vəzifədə olmuşdu (67, 95). Həsən bəy Rumlu 1534-cü il hadisələrindən bəhs edərkən Mahmud bəy Zülqədərin də möhürdar olduğunu və onun elə həmin il atdan yıxılıb öldüyünü qeyd etmişdi (77, 251, 252). XVI əsrin 50-ci illərində Qoç Xəlifə adlı şəxsin də möhürdar olduğunu görürük (77, 449). «Xolde-bərin» də 1576-cı ildə Zülqədər elindən Məhəmmədqulu xəlifənin və ondan sonra isə Qoçəli xəlifənin möhürdar olması haqqında məlumatlara təsadüf edilir (128, 496). Mənbələrdə göstərilir ki, möhürdarlıq daha mötəbər bir vəzifə olub, möhürdar Şahla gündəlik həmsöhbət olduğuna görə II Şah İsmayıl Qoçəli xəlifə adlı şəxsi möhürdarlıqdan azad etmiş, bu vəzifəni özünə daha yaxın hesab etdiyi əmisi oğlu İbrahim Mirzəyə vermişdi

(128, 536). I Şah Təhmasibin hakimiyyətinin son illəri və II Şah İsmayıl dövründə möhürdar Zülqədər əyanlarından Şahruh (bəy) xan Tatı oğlu olur (80, 223). Sultan Məhəmməd hakimiyyətinin ilk ili Şahruh xan Tatı oğlu Zülqədəri Şiraza hakim göndərib möhürdarlıq vəzifəsini yenə də ona tapşırır. Şahruh xan Tatı oğlundan sonra möhürdar oğlu Eslemez xan olmuşdu (80, 223, 384). I Şah Abbas da sələfləri kimi bu vəzifəyə əsasən Qızılbaş-Türk əyanlarını təyin etmişdir. 1587-ci ildə möhürdar vəzifəsinə Zülqədər elindən Əliqulu sultan təyin edilir. Ancaq o, Mürşüdqulu xana qarşı çıxan əmirlərin arasında olduğundan yaxalanıb edam edilmiş (80, 381, 384; 67, 178) möhürdarlıq Nəcəfin böyük seyidlərindən Seyid bəy Kəmunəyə tapşırılmışdı (80, 34, 385). İsgəndər bəy Münşi 1591-ci il hadisələrindən bəhs edərkən Eslemes xan Zülqədərin yenə möhürdar olduğunu yazır (80, 444).

I Şah Abbasdan sonra I Şah Səfinin də dövründə (1629-1642) möhürdar vəzifəsi Zülqədər əmirlərinə tapşırılırdı. I Şah Səfinin hakimiyyətinin dördüncü ilində möhürdar Zülqədər elinin Söklən obasından qorçubaşı Əmir xanın oğlu Abdulla bəy idi (108, 245). O, vəfat etdikdən sonra 1638-ci ildə qorçubaşı Əmir xan Zülqədərin kiçik oğlu Rüstəm bəy möhürdar vəzifəsinə təyin edilir (108, 256; 81, 228).

«Təzkirət əl-müluk»da vaqiyənəvisin tuğra çəkdiyi dəftər və fərmanlara möhür vuran davatdarlarla yanaşı müqərrəb ül-xaqan olan ikinci bir davatdar haqqında da məlumat verilir. Qaynaqda ikinci davatdarın əsasən icarə sənədlərini möhürlədiyi qeyd edilir (132, 26). İsgəndər bəy Türkmanın əsərində I Şah Abbas dövrünün tanınmış davatdarları haqqında məlumata təsadüf edilir. Müəllif 1591-ci il hadisələrindən bəhs edərkən Ustaclı elinin Cavuşlu obasından Siyamunoğlu Mehdiqulu xanın qardaşı Muradxan bəyin davatdar olduğunu yazır. O, qardaşı öldürüldükdən sonra Osmanlı ölkəsinə getmişdi (80, 440). I Şah Abbas dövründə Qacarlardan Mehrab xan da bir müddət davatdar olmuş və ondan sonra bu vəzifə Lütfixan bəyə verilmişdi (80, 1008). I Şah Səfinin dövründə də bu vəzifə Qacar əsilzadələrinə tapşırılırdı. 1633-cü ildə Qacar elindən Kəlbəli xan adlı əyanın, II Şah Abbas dövründə Rəvan bəylərbəyi

Abbasqulu bəy Qacarın oğlu Rzaqulu bəy Qacarın davatdar olması (81, 119, 136) inşa divanında Qızılbaş-türklərin üstün mövqeyə malik olduqlarını və bu divanı öz əllərində saxladıqlarını göstərir.

Bütün mülazimlərin xidmət fərmanları sərxətnevis adlı məmur tərəfindən yazılır və onların hökm, fərman və vəsiqələrini möhürlədikdən sonra bu barədə aidiyyəti orqana məruzə edilirdi. Qulluq və mənsəb sahiblərinin tiyul, həmesale, baratının miqdarını qeyd etdiyi dəftəri, onlara aid fərmanları, hökmləri imzalayıb, təsdiq edib saxlamaq onun vəzifə borcu idi. O, divan ləşgərnəvisi ilə həmkarlıq edir, ancaq sipahsalara, başqa sərdarlara naib göndərildikdə bu məsələlərə qarışa bilməzdi (132, 41).

Mustoufi əl-məmalikin başçılığı altında xidmət edən zabitənəvis isə mustouif-ye mal və müfradənəvis də adlanırdı. O.Əfəndiyev qaynaq materiallarına istinad edərək yazır ki, zabitənəvisin ştatında olan mirzələr divana daxil olan pul məbləğini (vücuhat) qeydə alırdılar (20, 239). «Təzkirət əl-mülak»da zabitənəvisin idarəsindəki işçilərin sayının on beş nəfərdən ibarət olduğu göstərilir. Mənbədə qeyd edilir ki, rahdarı, tənbəki satışından ödənilən vergilər, ölkədə ticarətlə məşğul olan hindlilərdən alınan səranə, əmlaki xassə istisna olmaqla məmaliki məhrusənin bütün tərpənən və tərpənməz əmlakı zabitənəvis idarəsində qeydiyyata alınırdı (132, 41, 42). Mənbələrdə sərxətnəvis, zabitənəvis və bu qəbildən olan bir çox vəzifələrə təyin olunmuş məmurların adlarına çox nadir hallarda təsadüf edilir və adı çəkilən məmurların isə soy adı adətən göstərilmədiyinə görə onların etnik kimliyini müəyyənləşdirmək mümkün deyildir. Məsələn «Xolde bərin» də I Şah Təhmasib dövründə Əhməd bəyin ali divan zabitənivisi olduğu qeyd edilmiş (128, 446), ancaq onun soy adı göstərilməmişdir.

Ali divanda mühüm vəzifə olan toucih haqqında O.Əfəndiyev dövrün yerli və qərb ədəbiyyatına əsaslanaraq yazır ki, «toucih» ödəniş idarəsi olub, tədiyyələrin əksəriyyəti, alıcılara torpaq üçün verilən pullar və digər gəlir mənbələri təxsisatlarla ödənildiyindən «sahib-i toucih»ə təxsisatlar sahibi kimi baxmaq olar (20, 240). «Təzkirət əl-müluk»da yazılır ki, o bütün maliyyə idarələri ilə əməkdaşlıq edir və onların idarələrindəki hər bir maliyyə vəsiqəsini

imzalayırdı. Mirzələrinin sayı on iki nəfər idi. Onlardan hər birinin məşğul olduğu sahəyə aid dəftəri vardı. Ali divan mənsəbləri, mülazimlik, tiyul, məvacib, həmesale, maaflıq, soyurqal, vəzifə və sairəyə aid olun bütün hökm, fərman və icazənamələri sahib-i toücih idarəsi də qeydiyyata alırdı. Büyutat sahibcəmləri və təhvildarlarının hesablarından başqa, məmaliki məhrusənin bütün maliyyə hesabları toücih idarəsi işçiləri tərəfindən yazılır və onların rəisləri təsdiq edirdi. Hökmlər və fərmanlar üzrə xassənin bütün vergi ödəyənlərinin və təhvildarlarının mühasibət sənədləri sərkare xassə tərəfindən təsdiq olunduqdan sonra dəftərxana sənədləri təsdiq üçün ali divan toücihinə də təqdim olunur. Həmesale və sairəyə aid təsdiqlər hamısı sahibi toücihin mirzələri tərəfindən qeydə alınıb imzalanmalı idi. Dövlət mənsəblərinin rüsumatına aid göstəriş vermək, çobanbəyi və miqdarı dəyişməkdə olan başqa pulları almaq barədə buyruqları təmin etmək, həmin idarəyə aiddir. Dünyanı fəth edən padşahın təlimatları bu idarədə saxlanılırdı. Qoşunun sayı və qorunan ölkələrin hakimlərinin gəlirlərinin miqdarı da bu idarədə təyin edilirdi (132, 42). I Şah Təhmasibin dövründə Əbuturab Nətənzi ali divanın sahib-i toucihi idi (128, 446).

Avaracənəvis də mustoufi əl-məmalikə tabe olan maliyyə məmuru idi. «Avaracə» hərfi mənada kitab, yaxud sənəd anlamı ifadə edir. «Təzkirət əl-müluk»da göstərilir ki, avarəcənəvis idarəsində zabitlərin, mühasibat müdirləri və digər vergi məmurlarının xərc sənədləri yoxlanılıb qeydiyyata alınırdı. Dövlət qulluqçularına verilən tiyul, həmesale icazənamələri ali divan vəziri və mustoufi əl-məmalik tərəfindən baxılıb imzalandıqdan sonra avaracənəvis onlara qeyd qoyub ünvanlarını yazırdı. Vilayət, mahal, şəhər hakimlərinə, onların maliyyə məmurlarına həmin məntəqədən ödəyəcəkləri vergilər barədə verilmiş fərmanları da avaracənəvis yoxlayıb «nəzərdən keçirirdi», dərkənarını qoyduqdan sonra qeydə alırdı (132, 43). «Xolde bərin» də I Şah Təhmasib dövründə Hidayət bəy Şirazinin Azərbaycan və Şirvan üzrə avarəcənəvis vəzifəsində çalışdığı qeyd edilmişdir (128, 446).

Şah dəftərxanasına dəftərdar adlı xüsusi məmur başçılıq edirdi. O, vəzir və mustoufilərin hökm və fərmanlarını, söhbət yasavullarına, eşikağasılara verilən soyurqallar haqqında sənədləri, maaflıq və məvacibləri yazırdı. Xassə idarəsinin keçmiş illərə dair dəftərləri onun dəftərxanasında qorunub saxlanılrıdı (132, 43). Mənbələrdə Şah dəftərxanasının darğalarının adlarına çox nadir hallarda təsadüf edilir. Bu məlumatlarda isə onların bir qayda olaraq türk əsilzadələrindən təyin olunduğunu görürük. I Şah Təhmasibin dövründə, yəni XVI əsrin 60-cı illərində Qızılbaş Məsum bəy Səfəvinin oğlu Bəşarət bəy Şah dəftərxanasının darğası olmuşdu (28, 127).

İsfahan Səfəvi dövlətinin paytaxtı olduqda (1598) Şahın iqamətgahı və mərkəzi bürokratik aparatda çalışan Qızılbaş-Türk aristokratiyası da bura köçürülmüş, nəticədə İraqi Əcəmdəki bu məntəqə böyük bir şəhərə çevrilmişdir. Əski çağlardan müxtəlif Türkman boylarının yaşadıqları İsfahan mahalına XVI yüzilin əvvəllərindən Təkəli əhalisi də köçürülmüş və onlara burada ulkalar da verilmişdir (67, 57). I Şah Abbas da bura Azərbaycanın müxtəlif bölgələrindən, xüsusən də Təbrizdən əhali köçürüb yerləşdirmişdi. Bu barədə həm yerli qaynaqlarda, həm də dövrün Avropa ədəbiyyatında məlumatlar vardır. İsgəndər bəy Münşi Türkman yazır ki, İsfahanın qərb tərəfində Abbasabad adlı qəsəbəni təbrizlilər salmışdılar (80, 1111). Yan Streys bu qəsəbənin Abbasabadla yanaşı, Təbrizabad da adlandığını və bu qəsəbəyə əhalinin Şah Abbasın Təbrizdən köçürüb yerləşdirdiyini yazır (197, 315).

İsfahan dövlətin mərkəzi olduqdan sonra bura xassə, yəni Şah və onun ailəsinin şəxsi mülkünə çevrilmişdi və «vəzir-e darüssəltəna-ye İsfahan» adlı vəzir tərəfindən idarə edilirdi. «Təzkirət əl-müluk»da İsfahan vəzirinin hüquq və səlahiyyətləri haqqında geniş məlumat verilmişdir. Əsərdə göstərilir ki, İsfəhan vəziri dəyirmanlar, kəhrizlər, əkin sahələrindən ibarət olan tərpənməz əmlakın icarəyə verilməsinə və icarədarlardan, rəiyyətdən vergilərin alınmasına nəzarət etməli, vergi, icarə sənədlərini möhürləməli, mədaxili müəyyən edilən yerlərə sərf etməli, əkin yerlərini genişləndirməli, boş yerlər qalmasına imkan verməməli, onları

dərhal icarəyə verməli, əkdirməli və lazım olduqda rəiyyətə borc toxum və sairə verməli idi. Sərkar xasse-ye şərifə (xassə idarəsi) onun nəzarəti altında fəaliyyət göstərirdi. Vergilərin toplanması üzrə məsul məmur olan xassə mustoufisi büyutat sahibcəmlərinin bütün maliyyə sənədlərini hazırlayır, vəzir isə imzalayırdı. Xassə əmlakından vergi toplandıqda bu verginin miqdarı barədə ali divan vəzirinə hesabat verilməli və vergilər xüsusi maliyyə məmurlarının iştirakı ilə toplanmalı, İsfahan vəziri onun qorunub saxlanmasına, təyinatı üzrə sərf edilməsinə nəzarət etməli idi. Belə ki, məhsulu təhvildar qəbul edib, anbarlara vurduqdan sonra həvalə sahiblərinin tənxahı oradan ödənilirdi (132, 44, 45).

İsfahan şəhəri və mahalı üzrə bütün xassə əmlakına rəhbərlik vəzirin vəzifə borcu olub, o, kəhrizləri təmir etdirməli, karvansara, dükanlara və ümumiyyətlə, İsfahan kələntərinin işinə də bilavasitə nəzarət edirdi (132, 44, 45). Hər ilin axırında İsfahan vəziri haqq-hesab vəsiqələrini təsdiq üçün ali divan vəzirinə verirdi. Qərar üzrə mustoufi onun hesabatına baxıb yoxlayır, artıq-əskiyini müəyyən edir, onun icra etdiyi işlər barəsindəki balans sənədinə ali divan vəziri qol çəkdikdən sonra onu mustoufi əl-məmalikə təqdim edirdi (132, 45).

«Təzkirət əl-müluk»da İsfahanın vəziri ilə yanaşı, ayrıca mustoufisinin də olduğu göstərilmişdir. Qaynaqda qeyd edilir ki, İsfahan darossəltənə vəziri Şahın əmlakının maliyyə işlərinə başçılıq edərək onun əkin sahələrinin becərilməsinin qayğısına qalmalı, əkin sahələrini əlverişli şərtlərlə icarəyə verməli, onun başçılığı altında vergiləri İsfahan mustoufisi yığmalı idi. İsfahan mahalının maliyyə məsələləri üzrə sənədlərini vəzir tərtib edərək hazırladıqdan sonra onları mustoufi də təsdiq edib saxlamalı idi. İsfahan bölgəsinin rəiyyətlərindən taxıl vergilərini yerölçənlər, mirzələr təhvildarlar toplayıb xüsusi anbarlara yığmalı idilər. Hər ilin sonunda İsfahan vəziri haqq-hesab sənədlərini mustoufi yoxlayıb möhürlədikdən sonra təsdiq üçün baş vəzirə təqdim edirdi. Baş vəzir gəlir və çıxara aid bu sənədləri yoxladıqdan sonra onları təsdiq edirdi. Baş vəzirin araşdırma və imzasından sonra illik maliyyə sənədləri yenidən mustoufiyə qaytarılırdı. Baş vəzirin göz-

dən keçirmədiyi maliyyə sənədləri etibarsız olub dəftərə daxil edilmirdi.Onu da qeyd etmək lazımdır ki, İsfahan mustoufisi baş vəzir tərəfindən təsdiq edilən hesab sənədləri üzrə İsfahan vəzirinin ixtiyarında olan mahalın məhsul və pullarının mədaxil və məxaric sənədlərini tərtib edib xassə idarəsinə də təqdim etməli idi. Bu sənədləri xassə mustoufisi yoxlayıb qəbul edirdi (132, 45, 50, 51).

«Divani xassə» adlanan idarə mustoufi-ye xassənin başçılığı altında Şah və onun ailəsinə məxsus mülkiyyətin maliyyə işlərini idarə edirdi. Sarayın gəlir və xərcləri xassə dəftərxanasında qeydiyyata alınırdı. Xassə dəftərxanası, mustoufi əl-məmalikin nəzarəti altındakı dövlət dəftərxanası ilə əlaqəli idi. Bu dəftərxanalara rəhbərlik edən hər iki mustoufi rütbə və dərəcələrinə görə bərabər olsalar da, mustoufi-ye xassə mustoufi əl-məmalikdən sonra ikinci yerdə dururdu (96, 114). «Təzkirət əl-müluk»da xassə mustoufisinin hüquq və vəzifələri barədə ətraflı məlumat verilir. Mənbədə qeyd edilir ki, tərpənməz xassə əmlakının məhsul və mədaxilini həvalə etmək və buraxmaq, rəiyyətin və digər divan vergisi ödəyənlərin mühasibat məsələlərini yoxlayaraq müəyyənləşdirmək, vəqflərdən ödəncləri aydınlaşdırmaq, intiqali idarə vəzirinin saxladığı pulları ödəyənlərin hesabatına baxaraq, yoxlamaq onun vəzifəsidir. Onun xəbəri olmadan vergilər alınıb, verilmir. Amillər və müvafiq qulluqçuların adi qayda-qanun üzrə hər il noyabr ayında qiymətləri təyin etməsindən sonra, bütün rəiyyətlərin və ödəyicilərin hesabları dəftərdə çürüdüb, mustoufinin möhürü ilə haqq-hesab çürütmə sənədini ödəyicilərə verirlər. O, hər idarənin gəlirinin cəm və xərc sənədini ali divan vəzirinin qeydindən keçmiş sənədlər üzrə yazıb sərkare xassəyə təqdim edir (132, 46).

Mustoufi-ye xassənin dəftərxane-ye xasse-ye tozi dəftərxanasındakı təməl dəftərlərində, sənədlərdə şahın mülklərindən əldə edilən gəlirlərin siyahısı hazırlanır və bu siyahılarda xassə əmlakına daxil olmayan tiyulların ödədikləri bir miqdar vergi, onların gələcəkdə verəcəkləri, ödəyəcəkləri vergilər də qeyd olunurdu. Bundan başqa, tozi dəftərxanasında tələbkarlara həvalə veriləcək yerlərin adları da hazırlanır. Onlar diqqət və səliqə ilə bənd-bənd dəftərə daxil edilirdi ki, bu da nəticədə tozi dəftərxana rəisinə

həvalələri çoxlu ünvana düzgün göndərməyə imkan verirdi. Həmin həvalələr imzalanmaq üçün mustoufi əl-məmalikə çatdırıldıqdan sonra qanuni qüvvəyə minir. Həvalələrə baş vəzir, hətta Şah özü də möhür vuraraq təsdiq edirdi. Xassə dəftərxanasının yekun dəftərlərində xassə əmlakının bütün mədaxil və məxarici qeyd olunurdu (96, 110).

Qaynaqlarda dövlətin idarə quruluşunun əsasını təşkil edən orqanlarla yanaşı, saray təşkilatı və bu təşkilatda fəaliyyət göstərən məmurlar və onların səlahiyyət bölogüsü də öz əksini tapmışdır. Saray təşkilatının ən nüfuzlu məmurlarından əmiraxurbaşı şahın, yəni xasse-ye şərifənin ilxı tövlələrinin başçısı olub, burda atlara baxan qulluqçular da ona tabe idilər. Əmiraxurbaşı (miraxurbaşı) yarımköçəri əhalinin otlaqlardan istfiadə müqabilində ödədikləri çobanbəyi hesabına məvacib alırdı (96, 103). Əmiraxurbaşı da bir qayda olaraq türk əyanlarından olurdu. Mənbələrdə I Şah Təhmasibin hakimiyyətin son illərində Məhəmməd bəy, Sultan Məhəmməd və I Şah Abbas dövründə Şamlı Fulad bəy, oğlu Əbülfət bəy, Mehdiqulu bəy Cığatayın, II Şah Abbas dövründə Nəcəfqulu bəy və qardaşı Həsənəli bəyin əmiraxurbaşı olduğunu görürük (128, 611; 108, 91, 147, 200; 125a, 77) «Təzkirət əl-müluk»da göstərilir ki, sərkare xasse-ye şərifə tövlələrindəki atları baxışa, yaxud minik üçün cilov əmiraxurbaşı hazır edir və tövlələrdə intizam yaradır, mehtər və başqa xidmətçiləri işə o götürürdü. Cilovdarların, xidmətçilərin, xacələrin, qulamların və xassə ilxıları ilə bağlı digər qulluqçuların mülazimlik təliqələrini cilov əmiraxurbaşı yazır, bu qulluqçuların rütbə siyahısı və hökmlərini büyutat naziri nəzərdən keçirdikdən sonra onları alicah əmiraxurbaşı təsdiq edirdi (132, 14). Tavernye də əmiraxurbaşının Şah tövlələrinə başçılıq etdiyini qeyd edir. O yazır ki, əmiraxurbaşının nəzarəti altında Şahın bütün atlarının sol budlarına, digər şəxslərin isə atlarının sağ budlarına damğa vurulurdu. Şah tərəfindən süvarilərə verilən atlarda həmin nişan olur və süvari həmin atları sata bilməzdi. Ancaq ona atını sol budunda nişan olan başqa atla dəyişdirməyə icazə verilirdi. Bir süvarinin atı öldükdə o, atın damğalı hissəsini soyub naibə göstərir və əvəzində başqa at alırdı.

Ölmüş atın dağ vurulmuş hissəsini göstərməyən süvari atı öz hesabına almalı idi.Atın qocalıqdan, xəstəlikdən öldüyü, yaxud qəsdən öldürüldüyünü soyulmuş dərisini suda isladaraq müəyyən edirdilər. Saray təşkilatındakı miraxurbaşı bütün şikar, ov alət və vəsaitlərinə baxır, həm də quşçubaşı vəzifəsini icra edirdi. Ov itlərinə baxan səkbanbaşı da ona tabe idi (104, 573). Ümumiyyətlə onun rəhbərliyi altında çalışan xidmətçilərin sayı min nəfərdən çox idi.

«Təzkirət əl-müluk»da cilov əmiraxurbaşı ilə bağlı məlumatlardan aydın olur ki, o, yalnız tövlə şəraitində saxlanan atlara baxır və tövlə ilə bağlı xidmətçilərə rəhbərlik edirdi. Mənbədə göstərilir ki, səhra əmiraxurbaşı deyilən digər məmur tövlələrdən kənarda, yəni çöllərdə saxlanılan Şah ilxılarına baxırdı. O naziri dəvvab (mal-qara nəzarətçisi) adlanan məmurla həmkar idi (132, 14). Naziri dəvvab ölkənin müxtəlif yerlərində saxlanılan dəvələrin, qatırların öyrədilməsinə baxır, sarayı lazım olanda yük heyvanları ilə təmin edirdi (96, 107). O, səhra əmiraxurbaşı ilə birlikdə ilxının törəyib artmasına da nəzarət edirdi (132, 14). Engelbert Kempfer yazır ki, yarımköçəri Turkman əhalisi də hər il əvariz olaraq, yəni əlavə rüsum kimi dövlətə at verirdilər (96, 103). Şahın ilxılarına baxan mehtərlər və başqa xidmətçilər səhra əmiraxurbaşına tabe idilər (132, 14).

Mənbələrdə I Şah Səfinin hakimiyyətinin son illərində nazir-i dəvvab Yadigar bəyin adı çəkilir (108, 259).

«Təzkirət əl-müluk»da göstərilir ki, müqərrəb ül-xaqan (xaqana, şaha yaxın olan) və müqərrəb ül həzrət (hüzura, şahın məclisinə yaxın olan) qulluqçuları dərəcəsinə görə müqərrəb ül-xaqan adlandırırlar. Bunlar iki dəstəyə ayrılırlar ki, birincilər saray xacələridir. Onlar keçmiş Səfəvi şahlarının dövründə ağ irqdən olmamışlar. Qara qullardan olan saray xacələrini ağıllı, zirək, şahların qulluğuna layiq olan yüksək və hörmətli hərəm xacələri ağsaqqalı təyin edərdilər. Bütün qara xacələrin ixtiyarı qeyd olunan ağsaqqal və rəisin əlində olmuşdur (132, 18). Sərhəd əmirlərinin eşikağasıbaşılarının yanına göndərdikləri ərizələr, ya da şahın qapısında qulluq edən əmirlərin hərəm qapıçısına göndərdikləri ərizələr,

əvvələn müəyyən keşikxanası olan hörmətli hərəmin eşikağasıbaşına verilərdi (132, 19). Hərəm eşikağasıbaşı isə bunları hərəm xacələrinin ağsaqqalına təqdim edərdi. O da bunları şahın nəzərinə çatdırar və cavablarını gətirərdi. Saray xacələrinin ağsaqqalı əmirləri eşikağasıbaşının keşikxanasına çağırtdırıb, ərizənin cavabında şahın nə qərara gəldiyini onlara bildirərdi. Hörmət, etibarına görə hərəm ağsaqqalına bərabər olan başqa mötəbər saray qulluqçusu şah xəzinəsinin sahibcəmi idi. Sarayın daxili və xarici xəzinələrində olan bütün pul və qiymətli şeyləri ona tapşırardılar. Xəzinənin açarçısı da, bir qara xacə olub, xəzinə sahibcəminə tabe idi. Bütün xəzinə işçiləri də xəzinədarın əmrinə itaət edərdilər. I Şah Abbas zamanında gürcü qulamlarından yüz nəfəri xacə olmuş, onların içlərində daha etibarlı olan bir nəfəri isə yüzbaşı təyin etmişdilər. Şah Sultan Hüseyn zamanında isə ağ xacələrin yüzbaşısı İbrahim ağa, qara xacələrin yüzbaşısı isə İlyas ağa idi. Dəftərlərdəki qeydlərdən məlum olduğu kimi, bu yüzbaşılardan və onların tabelərindən hər birinin hörmətli hərəmxana ətrafında imarəti, dəstgahı, tiyulu və müəyyən maaşları olmuşdur. Keçmiş şahların dövründə Şaha yaxın yüzbaşılara aid olan nəzarətçi və cəbbardarbaşılıq vəzifələri Şah Süleyman və Şah Sultan Hüseyn zamanında ağ xacələrə tapşırılmışdır. Bu zaman Mahmud ağa adlı xacə əvvəlcə cəbbədarbaşı, sonra isə nəzarətçi olmuşdu. O, vəfat etdikdən sonra, cəbbədarbaşılıq vəzifəsi ağ xacələrdən İsmayıl ağaya verilmişdi. Nəzarətçilik vəzifəsi isə qızılbaşlara qaytarılmışdı. Şahın xüsusi tövləxanasında mehtərlik qulluğu da, etibarlı saray xacələrinə tapşırılırdı. Şahın yanındakı qulluqçular və onun dəsmalını saxlayanlar rikəbxana mehtərləri idilər (132, 19). Tavernye yazır ki, saray təşkilatında mehtər də mühüm bir vəzifə olub, Şahın güdükçüsü kimi həmişə onun yanında olurdu (104, 573). Məclislərdə Şahın yanında dayanan mehtər özü ilə dəsmal, möhür, saat, ədviyyat da götürürdü ki, bunların hansı Şaha lazım olduqda dərhal ona təqdim edə bilsin. O, Şahın süfrəsini salır, yatağını düzəldir, paltarlarını qoruyub saxlayırdı. Engelbert Kempfer yazır ki, bu gün çoxları mehtər olmaq istəyir. Ona görə ki, mehtərin Şahın xidmətində nail olduqlarına, başqaları müvəffəq ola bilmirlər. Bu gün

Şahın mehtəri Ağa Qafur adlı zənci olub o, əvvəlki Şahın da vaxtında bu vəzifədə olmuşdu (96, 101).

Səfəvi dövlətinin saray təşkilatında fəaliyyət göstərən tibb idarəsinin başçısı həkimbaşı, yəni baş həkim adlanırdı. «Təzkirət əl-müluk»da götərilir ki, həkimbaşı müqərrəb ül-xaqan olsa da, saray xacələrinin tərkibinə daxil deyildi. O, şahın xüsusi tibb idarəində çalışan həkimlərin ağsaqqalıdır (132, 20). Engelbert Kempferin yazdığına görə dünyanın heç bir ölkəsində həkimlərə burada olduğu kimi ehtiram etmirdilər. Onların əyanlar arasında xüsusi mərtəbə və dərəcələri vardı (96, 101). Təkcə saraylardakı tibb idarəsi deyil, ölkə miqyasında bütün həkimlərin fəaliyyətinə baş həkim nəzarət edir və onların bir çoxu baş həkimin məsləhəti ilə dövlətdən məvacib alırdı (96, 101). Sarayın tibb idarəsinə həkimləri baş həkim işə götürür, onların məvacibini müəyyən edir və lazım olduqda mükafata da təqdim edirdi. Bu məsələlər üzrə baş həkimin hazırladığı sənədləri baş vəzir və büyutat naziri maliyyə idarəsində qeydiyyata aldırırdı. Həkimbaşı işində nöqsana yol verən tibb idarəsi işçisini işdən azad etmək hüququna da malik idi. Sarayın əczaxanası və ona rəhbərlik edən əttarbaşı da baş həkimə tabe idi. Yüksək dövlət qulluğunda olan əyanlardan xəstələnən olduqda ona həkimi baş həkim təyin edirdi. Şah Süleyman dövründə Mirzə Rəhimin rəhbərlik etdiyi tibb idarəsində altmış səkkiz nəfər həkim vardı ki, onlara 1796 tümən 6366 dinar məvacib ödənilirdi (132, 20). Qaynaqlarda İsfahanda sarayın tibb idarəsində Azərbaycandan olan həkimlərin də yüksək vəzifə tutmaları haqqında məlumatlara təsadüf edilir. İsgəndər bəy Münşi yazır ki, həkim Əbülfət Təbrizi II Şah İsmayıl dövründə sarayın tibb idarəsində yüksək vəzifəyə ucalmış, ancaq 1585-ci ildə həbs edilmişdir. I Şah Abbas dövründə həbsdən azad edilmiş, yenə də tibb idarəsində yüksək vəzifə tutmuşdur (80, 168-169).

Saray təşkilatında münəccimbaşının da öz yeri vardı. Cemelli Karreri yazır ki, münəccimbaşı sarayda Şah münəccimlərinin rəisi olub (89, 166) həmişə özü ilə gəzdirdiyi üstürülab və ulduz cədvəli əsasında (96, 102) günün, saatın xoş, uğurlu anlarını müəyyən edirdi. «Təzkirət əl-müluk»da göstərilir ki, saray xacələri tərkibinə

daxil olmayan münaccimbaşı hər gün sarayda olurdu. Şah və onun əyanları səfərə çıxmaq istədikdə, hətta təzə paltar aldıqda belə onunla məsləhətləşib saatın xoş anını ondan öyrənirdilər (132, 70). Engelbert Kempfer yazır ki, Şahdan məvacib alanların sayı çox idi. İldə saray xəzinəsindən münəccim və həkimlərə məvacib verilməsi üçün 20.000 tümən pul ayrılırdı (96, 102).

Səfəvilərin saray təşkilatında çox mühüm vəzifə olan hərəm eşikağası haqqında «Təzkirət əl-müluk»da göstərilir ki, bu vəzifə Şah sarayına məhrəm, yaşlı, təcrübəli, düzlükdə, doğruluqda sabit iman sahibi olan şəxslərə tapşırılırdı. Onlar gecə və gündüz hərəm qapısında dayanırdılar. Hərəmin qapıçıları, eşikağasıları ona tabe olub, onun əmrini yerinə yetirirdilər. O, hərəmdə ciddi intizam yaratmalı, kənar şəxsləri ora buraxmamalı idi. Hərəm qulluqçularını isə o təyin edir və məvaciblərini də özü müəyyənləşdirirdi (132, 27). «Təzkirət əl-müluk»da təcrübəli, sabit iman sahibi deyildikdə, əslində müxtəlif dövlət vəzifələrində çalışmış yaşlı, etibarlı Qızılbaş əyanı nəzərdə tutulur. İsgəndər bəy Münşi Türkmanın bu vəzifəyə I Şah Abbas dövründəki təyinatlar barədə verdiyi məlumatlar da fikrimizin doğruluğunu təsdiq etməklə I Şah Abbasın dövlətin içəridən qorunmasını sələfləri kimi türklərə etibar etdiyini göstərir. İsgəndər bəy Münşi Türkman yazır ki, 1618-ci ildə Şamlı elinin Bəydili obasından olan hərəm eşikağasıbaşı Heydər sultan vəfat etdikdə, Şah bu vəzifəyə Qızılbaşlardan Əliqulu bəy Evoğlunu təyin etmişdi (80, 929). I Şah Səfi dövründə isə hərəm eşikağasıbaşı yenə də həmin soydan Çələbi bəy Evoğlu olmuşdu (108, 255).

II Şah Abbasın hakimiyyətinin əvvəllərində hərəm eşikağasıbaşı Heydər bəy Evoğlu ilə etimadəddövlə Mirzə Tağı arasında da çəkişmə baş vermişdi. Belə ki, bu çəkişmənin əsas səbəbi eşikağasıbaşının Abiverddə tiyulları olan qohumlarının vergidən azad edilməsi ilə əlaqədar idi. Nəhayət, Şah Heydər bəy Evoğlun tutduğu vəzifədən azad edir, bu vəzifəyə Mirzəli sultan Çələbioğlunun oğlu Əliqubad bəyi təyin edir. (125a, 28; 130, 99)

Saray təşkilatında büyutat (ərəbcə beyt sözünün cəm halı olub ev, bina, təsərrüfat mənasını ifadə edir) nazir-i büyutatın başçılığı altında sarayın tələbatının ödənilməsinə xidmət edən 33 karxanadan

ibarət olub, bu karxanaların, yəni beytlərin hər birinə sahib-i cəm adlı məmur rəhbərlik edirdi (20, 235). Engelbert Kempferin yazdığına görə bu beytlərin hər birinin müşrif adlı maliyyə müfəttişi də vardı. Onlar beytlərin xərc normalarını, mədaxil və məxariclərini müntəzəm yoxlayıb qeydə alırdılar. Bəzən bir neçə beytin maliyyə-təftiş məsələlərinə bir nəfər müşrif baxırdı. Müşrif maliyyə əməliyyatları zamanı hazırladığı haqq-hesab sənədlərini nazir-i büyutatın dəftərxanasına təqdim edirdi (96, 145). «Təzkirət əl-müluk»da göstərilir ki, hər bir karxananın pul və mala olan illik ehtiyacı da müşrif tərəfindən müəyyən edilir və bu arədə həmin karxana sahib-i cəminə rəsmi sənəd verilirdi. Bu sənədi büyutat vəziri araşdırdıqdan sonra onu nazir-i büyutat baş vəzirə təqdim edirdi. Baş vəzir sənədi təsdiq etdikdən, mustoufi-ye təhvildar möhürlədikdən sonra shaib-i cəm qaimə yazıb rəhbərlik etdiyi karxana üçün nəzərdə tutulan pulu,malı təhvil alırdı (132, 28). I Şah Təhmasib dövründə Mirzə Baba Şirazi qeyçaçıxana və rikabxana, Mirzə Həsən İsfahani tövlə, Mirzə Qasım Şirazi şotorxan müşrifi idi (128, 446). Sərkare Xasse-yi şərifənin karxanalarının müsrifləri, alınan mallar, xərclər büyutat vəzirinin mirzələri tərəfindən yoxlanılır, sənədləşdirilir və naziri büyutat da bu sənədləri imzalayırdı. Bütün beytlərin işçilərinin məvacib sənədləri də büyutat vəziri tərəfindən yoxlanılıb büyutat naziri möhürlədikdən sonra baş vəzirin də qeydləri əsasında ödənilirdi. Ezamiyyətdən, məzuniyyətdən dönənlər də məvaciblərini büyutat vəziri, büyutat naziri, baş vəzirin möhürü, imzası və razılıqları ilə alırdılar (132, 35). Mustoufi-ye büyutat isə hər karxananın müşrifindən aldığı hesabat əsasında karxanaların mədaxil və məxaric əməliyyatını öz dəftərində aparırdı (132, 35).

Məmaliki məhrusənin divan idarəsinə aid olan pulların hamısı, göstəriş üzrə, Şah xəzinə sahib-i cəminə (müdirinə) təhvil verilirdi. O, müqərrəb ül-xaqan idi. Vergi məmurlarından (amil) hər kim Şah xəzinəsinə veriləcək pulları gecikdirdikdə, xəzinə sahibcəmi (müdiri) xəzinə vergilərini yığmaq üçün, öz vergi toplayan məmurlarını vilayətlərə göndərib, tələb edilən pulları yığdırırdı. Xəzinə sahibicəmi şaha etibarlı məmur olub, ən qiymətli mallar, cəvahir, zərbafta kimi qiymətli parçalar, samur xəzləri, hədiyyə olunan

kitablar onun nəzarəti altında xüsusi anbarlarda saxlanılırdı (132, 28, 29). Sultan Məhəmməd dövründə Əbhərli Xacə Şah adlı şəxsin xəzinə müşrifi olduğunu görürük (108, 129). "Zeyl-i tarix-i alamara-yi Abbasi" də göstərilir ki, I Şah Səfi dövründə h. 1047-ci ildə xəzinə sahib-i cəmi Xacə Məhəbbət vəzifəsindən sui-istifadə edib yeyintiyə yol vermişdi. Bu zaman baş vəzir Mirzə Tağıya xəzinədə mühasibat işlərinin yoxlanılması və bu barədə ətraflı hesabat hazırlaması tapşırılır. Aparılan yoxlama nəticəsində yeyinti ilə bağlı faktlar aşkar edilmiş və sahib-i cəm nöqsanlara yol verdiyinə görə tutduğu vəzifədən azad olunmuş, bu vəzifə zabitənəvis Mirzə İnayətullanın oğlu Mirzə Şərifə tapşırılmışdı. (81, 207). Qeyd edilən fakt dövlətin mərkəzi idarə quruluşundakı səlahiyyət bölgüsünə əsasən ali idarələrin aşağı orqanlar üzərində daimi nəzarəti olmasını və bu sahədə baş vəzirin ciddi məsuliyyət daşımasını təsdiq edir ki, bu da mərkəzləşmiş güclü dövlət üçün səciyyəvi xüsusiyyətdir.

Adlı-sanlı sahib-i cəmlərdən biri də cəbbədarbaşıdır. Cəbbəxananın bütün işçiləri ona tabe idi. Bu idarənin hər bir işçisinin qulluğa götürülməsi və onların maaşlarının təsdiqi həmin idarənin ağsaqqalının razılığı əsasında icra edilirdi. Cəbbəxananın müşrifi də etibarlı adamlardan seçilirdi. I Şah Səfinin dövründə Kuhgiliyə bəylərbəyi Nəğdi Şamlının oğlu bacarıqlı türk əyanlarından Zeynal xan Şamlı cəbbədarbaşı idi. O, atasının yerinə 1638-ci ildə bəylərbəyi göndərilmiş, cəbbədarbaşı vəzifəsi yenə Şamlılardan Ərəb bəy Ağzıvaroğluna tapşırılır. Ərəb xan isə bir neçə il sonra Şirvana bəylərbəyi göndərilmiş, qardaşı Hacı bəy də onun yerinə cəbbədarbaşı təyin edilmişdi. Hacı bəydən sonra yenə Şamlılardan Əbülfət bəyin cəbbədarbaşı olduğunu görürük. (81, 279). Hərb alətləri, qurğuşun və barıt kimi qorxanaya (silah anbarı) verilən bütün sürsat cəbbədar idarəsinin müşrifinin dəftəri üzrə sahib-i cəmə təhvil verilirdi. Bütün bölgələrdəki silah anbarlarına cəbbədarbaşı təhvildarlar təyin edir və vilayətlərin hakimləri də onlara hörmət edib, buyruqlarını nəzərə alırdılar. Onun nəzarəti altında olan emalatxanada bıçaq, nizə, cida, zireh də düzəldilir və bu silahlar da xüsusi anbarlarda saxlanılırdı (132, 29; 96, 149).

Müqərrəb ül-həzrət qeyçaçıxana sahib-i cəmi Şah üçün geyim qumaşlarını xəzinə sahibi-i cəmindən təhvil götürürdü. Münəccimbaşının müəyyən edib, şahın ərzinə çatdırdığı saatda alicah nazirin inanılmış bir adamı və qeyçaçıxanın sahib-i cəmi və müşrifin iştirakı ilə xəyyatbaşı parçanı biçir, təzə tikilmiş paltar Şahın başqa libasları ilə birlikdə adı çəkilmiş sahibcəmə təhvil verilirdi. Hədiyyə üçün nəzərdə tutulan və satın alınmış parçalar da bu müdirin təhvilində idi. Şah üçün parçaları alicah nazir əhli-xibrə çağırıb, onların vasitəsilə qiymətini müəyyən edir və qiymətnaməni əhli-xibrə imza etdikdən sonra alqı sənədi yazılır. Kaşan və sair vilayətlərin qumaşları göstərilən qayda ilə qiymətləndirilirdi. Qərar üzrə , ödənişə əsasən təhvil alınma sənədi yazılır, onları vəzirlər və idarə işçiləri xərc sırasına daxil edirdilər. Qiymətli mallar da bu qayda ilə idarəyə təhvil verilirdi. Böyük əmirlər üçün qiymətli xələt (ünvanı ilə), təzə tikilən don da bu idarədə toplanılır. Samur da, londra da, adı çəkilən müdirin təhvilində olurdu. Sahib-i cəmlərə tabe olan işçilər dərzi, corab toxuyan, çaqçur tikən, londora tikən, ütü çəkən, pambıq atandan ibarət idi (132, 29-30). I Şah Səfi dövründə Məhəmməd Saleh Ərdəbili qeyçəçibaşı olub, məlikəttüccar vəzifəsi də ona tapşırılmışdı .(81, 181)

Fərrarbaşı müqərrəblər siyahısında olub onun nəzarəti altında olan fərrəşxanada xalı-xalça, xeymə keçəsi, həsir, fərş, döşək, çadır, çıraq, şamdan, mum, şam, ərinmiş piy, sabun, ip, şərid, keçə, palaz, boz keçə, milkə, milək, çit, zəncir, mis, teşt, pəncərə kağızı, kiriş, kağız, fanar, milçəkdan, muxru, kəcavə saxlanılırdı. Çadır tikənlər, mehtərlər fərraşbaşına tabe idilər (132, 31; 96, 149).

Qovun, xiyar, üzüm, nar şirəsi, hind xurması, göyərti, qaysı və bütün başqa meyvələr, o cümlədən lazım olan qədər qab-qacaq, qızıl, gümüş və mis həvicxana adlı anbarlarda saxlanılır və onların anbarları meyvəxana sahib-i cəminə tabe idi. Ehtiyat saxlanılan və gündəlik işlədilən məhsullar, onların xərcləri həvicxanada qayda üzrə qeydiyyata alınırdı (132, 31; 96, 146). Meyvəxana sahib-i cəmləri, şərbətdarbaşı bir qayda olaraq süfrəçibaşı və tuşmalbaşı ilə həmkarlıq edirdi. Süfrəçibaşı adətən türk əyanlarından təyin edilirdi. I Şah İsmyılın dövründə Ustaclı Məhəmməd bəyin

süfrəçibaşı olduğunu görürük. O, 1511-ci ildə ali divan əmirləri sırasına daxil edilmişdi (108, 44). I Şah Səfi dövründə süfrəçibaşı vəzifəsində olan Xələf bəy bu vəzifəyə I Şah Abbas zamanı təyin edilmişdi. O, əslən Arasbardan olub, Qaracadağ sufilərindən idi. Gənc yaşında Fərhad xan Qaramanlının mülazimi olmuş, bacarıq və qabiliyyətinə görə süfrəçibaşı məqamına yüksəlmiş, əsgəri təşkilatda çərxçibaşı kimi məsul hərbi vəzifədə də olmuşdu. O, 1638-ci ildə Bağdad savaşında osmanlılar tərəfindən əsir götürülmüş və İstanbulda edam olunmuşdu. Ondan sonra süfrəçibaşı vəzifəsi böyük oğlu İbrahim sultana, 1662-ci ildə iş kiçik oğlu Maqsud sultana tapşırılmışdı. (81, 277; 125a, 119) Tuşmalbaşı daha məsul vəzifə olub, şah mətbəxinin müfəttişi, yaxud naziri idi. Tuşmalbaşı haqqında məlumat qıtlığı olsa da, bu vəzifə türk əyanlarına etibar edilirdi. H. 1020 (1611)-ci ildə Şamlı elinin Bəydili obasından Zeynal bəy tuşmalbaşı idi. 1620-ci ildə Moğol səfiri Xan Aləmlə Dehliyə elçi göndərilmişdi (108, 116). Qeyd etmək lazımdır ki, Zeynal bəy Bəydiliyə tutduğu vəzifə ilə əlaqədar olmayan məsul işlərin tapşırılması onun istedadlı bir türk əsilzadəsi olmasından irəli gəlirdi. I Şah Səfi dövründə isə Şahverdi bəy adlı başqa bir türk əsilzadəsinin tuşmalbaşı olduğunu görürük. O, Arasbarlı Xələf bəyin kiçik oğlu idi. (81, 278)

Qanat sahib-i cəmi saray üçün mal, qoyun kəsdirir, yəni sarayı ət məhsulları ilə təmin edirdi. O, qoyunu, əti bazardan İsfahan darğası və möhtəsib əl-məmalikin tərtib etdiyi qiymət sənədi üzrə alır və həmin sənədi satıcının mənsub olduğu əsnafın müdiri imzalayırdı (132, 31).

Abdarxana sahib-i cəmini işinə uyğun olaraq su içmək üçün istifadə olunan qızıl, gümüş kuzələr, camlar və sairə ilə yanaşı, buzxanaya aid olan çuval, dolça və başqa avadanlıqlara baxırdı. Abdarxanada ehtiyat üçün xüsusi guzələrdə su da saxlanılırdı (132, 32; 96, 147). I Şah Səfinini dövründə Çələbi bəy Evoğlu Qaradağlı və Cəfər bəy Evoğlu Qaradağlının adarbaşı olduğunu görürük. (81, 280)

Şotorxan (dəvəlik) sahib-i cəminin təhvilində çul, təkaltı, çuval, keçə, ovsar, ip və dəvəliyə aid olan əşyalar olurdu. İldə bir

dəfə nazir büyutat vəzirinin iştirakı ilə dəvələrə baxır, onların yaxşısını-pisini ayırd edirdi. Dəvələrdən tələf olanları, damğası ilə yoxlayıb sahib-i cəmin hesabından çıxılır və damğanı isə nazirin iştirakı ilə yandırırdılar (132, 32).

Qızıl, gümüş və mis qəhvədanlar, qara aftafalar, qəhvə qovurulan qab, piyalə və sini qəhvəxana sahib-i cəminin təhvilində idi. Çini, saxsı, gümüş, qızıl qablar saxlanılan beytə çinixana da deyilirdi. Engelbert Kempferə görə sarayda 10 milyon qızıl sikkə dəyərində qızıl qab vardı. Bu qabları ziyafətlərdə süfrəyə düzən xidmətçi ayaqçı, yaxud çinikeş adlanırdı (132, 32; 96, 149).

Xalı, mütəkkə, keçə, cecim, taqca döşəməsi və bütün digər əşyalar mübarək imarətlər təhvildarlarının ixtiyarında idi. Xalıları təmizlətdirməklə ona tabe olan məmur məşğul olurdu (132, 32).

Şaha məxsus hamam avadanlığı və ona aid əşyalar, yorğan, nazbalış, söykənəcək, xüsusi paltarlar, qulluqçuların avadanlığı, ayaqqabı, çəkmə, corab, canamaz və ona aid şeylər, onların fərməş-ləri rikabxana sahib-i cəmlərinin ixtiyarında olurdu (132, 32).

Qızıl, gümüş və mis məşəllər, məşəl üçün mum və qətran, quyruq, piy kimi çıraq yağları, böyük təbil, nağara, gərənay, nəfir (şeypur), zurna və çalğıya aid bütün şeylər nağaraxanaya aid olub məşəlxana, çıraqxana və nağaraxana sahib-i cəmləri ixtiyarında idi. Nağaraxana və məşəlxana işçiləri məşəldarbaşıya tabe olub, onlar etimadəddövlənin hökmü və nazirin möhürü ilə təsdiq edilən siyahılar üzrə, maaşlarını alırlar. Çıraq avadanlıqlarına baxanlar çıraqbaşı da adlanırdı (132, 32; 96, 148).

Tövlə heyvanları və karvan qatırları üçün arpa, saman, yonca və xəsil kimi yem ehtiyatı tədarükü anbar sahib-i cəminin vəzifəsinə aid idi. Çul, tərlik, tapğır, yüyən, qantarğa, buxov, sətil, nal, mıx, kəmənd, kürək, çul üstündən atılan keçə, xurcun və tövlələrin işıqlandırılması anbardarbaşına tapşırılır. Tövlələrdəki at, qatır, ulağın hamısı tövlənin sahibcəminə aid idi (132, 32).

Saray şərbətxanasına aid olan qızıl, gümüş, çini, mis qablar, qəlyan ləvazimatı, tənbəki, şəkər, qənd, ətirli kökələr, qəhvə, mürəbbələr, limon şirəsi, gülab, başqa içkilər və turşular saxlanılan beytə şərbətdarbaşı adlı sahib-i cəm baxırdı. Müəyyən olunmuş

qaydaya görə sahib-i cəm Şaha, saray qulluqçularına, cirə alanlara lazım olan şeyləri, əlavələri vəsiqə üzrə məlum olan qərarla hər gün xərc hesabını qeyd edirdi (132, 33; 96, 146).

Vilayətlərdən Şah xəzinəsinə daxil olan əşrəfi, ağ qızıl və sairə pullar xəzinə sahib-i cəmi, sərrəfbaşı başqa sərraflar, müşrif, ödəyici və ya onun nümayəndəsi hüzurunda yoxlatdırıb təhvil alınır, sonra kisələrə töküb ağzını möhürləyirdilər. Qəlp qızılları ayırıb qızıl sahibinin özünə qaytarırdılar (132, 34; 96, 150).

Qeyd edilən beytlərlə yanaşı saray təsərrüfatında toxuculuq, ayaqqabı, corab emalatxanaları, dərzi sexi, sikkəxana, zərgərxana, nəccarxara və başqa manufaktura tipli karqahlar da vardı (96, 149-151).

Cemelli Karerinin əsərində şah xəzinəsində sikkələri qoruyub saxlayan məmur xəzinədarbaşı adı ilə qeyd olunmuşdur (89, 165).

Saray təşkilatında dəftərxana naziri müqərrəb ül-həzrət olub, bütün dəftərxanalarda qeydiyyatdan keçirilən mülazimlik, vergilərdən azad edilmə, soyurqallar, vəzifə vəsiqələri, hərbiçilərə verilən həmesale, tiyul, tənxah hökmlərini, mənsəb sahibləri və maliyyə işçiləri barədə hökmləri yoxlayıb möhürləyərək təsdiq edirdi. Məmləkətdə vəzirlər, hökumət vergiləri təhvildarları, icarədarlar, zabitlər və mübaşirlərin hesablarına yetişib, çürütmək də müqərrəb-ül həzrətin vəzifəsidir. Onun doqquz nəfər hökumət qulluqçusu olan mirzəsi vardır.Onların səkkiz nəfəri idarələr tərəfindən verilən həmesalelər, məvaciblər haqqındakı hökmləri dəftərlərinə yazıb, imzalayırlar. Bir nəfəri isə, haqq-hesablar, vəsiqələr, fərmanları təshih etdikdən sonra, imza və təsdiq edir (132, 36). I Şah Səfi dövründə Uğurlu bəy adlı qızılbaşın dəftərxana naziri (108, 259) olması, bu vəzifədə də türklərin üstün mövqelərindən xəbər verir.

Bütün dəftərxanalarada nizam-intizamın qorunması, nöqsanlarına görə idarə işçilərinin cəzalandırılması ilə dəftərxana darğası məşğul olurdu. Dəftərxana işçiləri arasındakı şikayət və pul tələbləri onun hüzurunda həll edilirdi. O, ümumi hökm və fərmanlar içərisində, qələbə çalan əsgərlərin tənxah, tiyul, həmesalə, qulluq hökm və fərmanlarını möhürləyirdi (132, 36). Mənbələrdə saray dəftərxana darğası haqqında məlumata çox nadir hallarda təsadüf edilir.

Məhəmməd Yusif Qəzvini İsmayıl Mirzənin 1576-cı ildə hakimiyyətə keçməsini təsvir edərkən Əlixan bəy Türkman adlı şəxsin saray dəftərxan darğası olduğunu yazır (128, 514, 515). İsgəndər bəy Münşi Türkman əsərində Qızılbaşlardan Bistam ağa Türkmanın I Şah Abbas dövründə saray dəftərxana darğası olduğunu yazmışdır (80, 443). Mənbələrdə onun işgüzar və təcrübəli dövlət məmuru olması haqqında məlumatlara təsadüf edilir (108, 151).

I Şah Səfinin də h. 1038 (1629)-ci ildə Nəğdi bəy Şamlını, bir neçə ildən sonra onun nəvəsi Heydər bəy Şamlını (Zeynal xan Şamlının oğlu ) 1662-ci ildə Zeynal bəy Bəydilinin fərrəşxana darğası (108, 238; 125a, 116, 117), 1635-ci ildə eşikağasıbaşı Uğurlu xan Şamlını saray dəftərxanasına nazir təyin etməsi (130, 89) Qızılbaşların saray təşkilatında önəmli rola malik olmasından xəbər verir. Onlar dövlətin idarə formasına uyğun müəyyən edilmiş səlahiyyətləri ilə paralel, bəzən hərbi xidmətə də cəlb edilirdilər. "Tarix-i alamara-yi Abbasi"də göstərilir ki, Şah 1629-cu ildə Nəğdi bəyə xan titulu verib, onu Təbrizin müdafiəsinə göndərmişdi. 1629-cu ildə Təbriz yaxınlığında Acı çay sahilində Osmanlı ordusu ilə döyüşdə Qızılbaş əsgəri heyətinə o başçılıq etmiş, texniki cəhətdən qoşunu düzgün idarə edib, fasilələrlə təşkil etdiyi hərbi əməliyyatlarda qələbə çalmış və osmanlılar itgi verib geri çəkilmişdilər. (81, 32)

## §4 Əsgəri təşkilat və Qızılbaş əyanları

Azərbaycan Səfəvi dövlətinin əsgəri təşkilatı əski türk dövlətçilik ənənələrinin hərbi sistemi özülündə yaradılmışdı. Görkəmli dövlət başçısı I Şah Abbas islahatları ilə Səfəvi dövlətinin əsgəri təşkilatını yeni nizamı qoşun növləri ilə təkminləşdirib, daha da möhkəmləndirmişdi. Səfəvi dövlətinin hərbi təşkilatında rəhbər rol Qızılbaş-Türk oturaq və yarımköçəri el hərbi əsilzadələrinə məxsus olmuşdur. Qızılbaş hərbi əsilzadələri əhalinin dörd yuxarı zümrəsi sırasında da birinci yerdə dayanırdılar. Bütün hərbi rəislər, vilayət hakimləri, əsas saray məmurları onların arasından təyin olunurdular.

Səfəvilərin hakimiyyətinin ilk dövründə müharibə zamanı ordunun əsas hissəsi vilayət hakimlərinin qeyri-nizami hərbi dəstəlrindən ibarət olub, bu qoşunun döyüşçüləri vilayət hakiminə tabe olan tayfa başçıları tərəfindən səfərbər edilir, saxlanılır və təchiz edilirdi (20, 248). Müharibə zamanı səfərbər edilmiş hər bir tayfanın əsgəri heyəti öz tayfa əmirlərinin başçılığı altında və məskun olduqları vilayətin hakiminin hərbi xidmətində fəaliyyət göstərirdilər. Müharibə sona yetdikdə ordu buraxılır, bəylərbəyi və sultanların xidmətində ancaq onların özlərinin mülazimlərindən ibarət daimi silahlı qüvvələri qalırdı.

Tavernyenin yazdığına görə, Şah lazım olanda hər hansı vilayətdən 8-10 min nəfər atlı çağırtdıra bilərdi. Vilayətlərin ərazisində yaylaq-qışlaq heyvandarlıq təsərrüfatı ilə məşğul olan tayfalar vergi və mükəlləfiyyətlərdən əsasən azad olmaqla savaşlar zamanı dövlətə bəlli sayda süvari verməli idi. Bu tayfaların gəncləri bir qayda olaraq özlərinə aid olan tüfəng, qılınc, xəncər kimi silahlarla daima məşq edirdilər. Hər iki-üç aydan bir isə vilayət hakimlərinin çağırışı ilə hərbi baxışdan keçirdilər. Burada onların hərbi hazırlığı da yoxlanılırdı (104, 584, 585).

H.936 (1529-1530)-cı ildə Şah Təhmasib Xorasana – özbəklərə qarşı yürüş ərəfəsində qoşunlarını nəzərdən keçirdikdə onların sayı aşağıdakı qayda üzrə olmuşdu (121, Bn.88b):

Əlqas Mirzə (Şirvan bəylərbəyi) – 4000 nəfər süvari;
Şah Təhmasibin digər qardaşı Bəhram Mirzə – 3000 nəfər;
Cöhə Sultan Təkəli – 8000 nəfər;
Sair Təkəli əmirləri – 5000 nəfər;
Ustaclı əmirləri – 16000 nəfər;
Əfşar – 6000 nəfər;
Şamlı – 9150 nəfər;
Zülqədər – 8000 nəfər;
Qacar – 6000 nəfər;
Mosullu, Türkman, Bayandur – 1000 nəfər;
Zik, Çəpəni, Ərəbgirli, Varsaq, Xunuslu – 15500 nəfər;
Seyidlər, nəqiblər, ruhanilər, şeyxlər, qazılar – 4000 nəfər;
Xacə Müzəffər Bitikçi – 1000 nəfər;

Mazandaran əmirləri, Əmir Şahı xan və qardaşı
Əmir Teymur sultan – 2000 nəfər;
Termiz vilayətinin xacələri, Müzəffər sultan və
Ziyaəddin sultan – 1000 nəfər;
Səbzvər ruhaniləri – 400 nəfər;
Dəftərxana və biyutat vəzirləri, mustoufilər, münşilər və sair katiblər – 1700 nəfər;
Biyutat işçiləri – 3800 nəfər;
Yüksək rütbəli qorçular, yüzbaşılar – 5000 nəfər

Cəmi: 108900 nəfər

V.Minorski I Şah Abbasa qədr qoşunun təşkilati quruluşunun zəifliyini onun tayfalar üzrə təşkil olunması ilə əlaqələndirmiş və həm də bu orduda ciddi qüsurların da olduğunu göstərmişdir. Onun fikrincə I Şah İsmayılın dövründə hər bir tayfanın yuxarı vəzifələrə öz başçılarının namizədliyini irəli sürmələri və onu müdafiə etmələri, hətta Şahın hüzurunda onların arasında kəskin toqquşmalara səbəb olurdu. Belə bir vəziyyət dövlətin mövcudluğunu təhlükə qarşısında qoyduğuna görə I Təhmasib bir çox tayfaları sıxışdırdı, ancaq bu sahədə I Şah Abbas fundamental islahatlar həyata keçirib, nəticədə tayfa qoşununun sayını azaltdı və bununla yanaşı mərkəzi dövlətə tabe olan müasir döyüş texnikası ilə təchiz edilmiş yeni qoşun yaratdı. Şahın yeni alayı Osmanlı yeniçərləri kimi islamı yeni qəbul edənlərdən komplektləşdirilmiş və onlar hər hansı tayfaya bağlılıq qüsurlarından azad idilər (103, 50).

Ağqoyunlular zamanında olduğu kimi, Səfəvilər dövründə də ordu iki qola bölünürdü. İ.P.Petruşevski XV əsrdə Qaraqoyunlu, Ağqoyunlu sülalələri tərəfindən idarə edilən Azərbaycanın dövlət ordusu barədə yazır: «Qoşuna gəldikdə o, iki hissədən: biri padşahın xüsusi qoşunu, digəri isə vilayət canişinlərinin qoşunlarından ibarət idi» (50, 94). Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Qaraqoyunlu və Ağqoyunlu ordu təşkilatı Səfəvilər dövründə az dəyişikliklərlə qalmaqda idi. V.Minorski və Əhməd Tacbəxş Səfəvi hərbi təşkilatına aid qaynaq materiallarını araşdıraraq I Şah Abbas dövründə ordunun dövlət (vilayət hakimlərinin qoşunu, qorçular) və Şah qoşununa (tüfəngçilərə, qullara, topçulara, sufilərə) böləndüyünü,

yəni iki kateqoriyadan ibarət olmasını qeyd edərkən, əsasən bu barədə Şardenin əsərində olan məlumata istinad etmişlər (78, 413; 103, 53).

Səfəvi dövlətinin hərbi təşkilatı haqqında XVI-XVII yüzilliklərin Avropa ədəbiyyatında yerli qaynaqlara nisbətən daha ətraflı və həm də elmi əhəmiyyətli məlumatlar vardır. Avropalı müəlliflərdən Şarden Səfəvi ordusunun baş komandirinin sipahsalar hərbi rütbəsi daşıdığını bildirərək yazır ki, bir qayda olaraq Azərbaycan xanı, yaxud hakimi sipahsalar olur, ancaq bu hərbi vəzifə müharibə dövrü üçün nəzərdə tutulur və müharibə başa çatdıqda onun da müddəti bitir, dərhal istefası qəbul edilirdi (112, c.3., 1202; 104, 581; 96, 91). Müharibələr zamanı bir qayda olaraq Səfəvi silahlı qüvvələrinin baş komandanı hərbi vəzifəsinə Azərbaycan vilayətinin hakimi təyin olunurdu (89, 26). Və Şahın şəxsi qvardiyası istisna olmaqla, bütün qoşun növləri onun sərəncamına verilirdi. Ancaq Tavernye qoşun haqqında məlumatlarında onun qorçular, qulamlar və tüfəngçilərə bölündüyünü bildirməklə səhvə yol vermişdir (104, 583). Ona görə ki, bu dövrdə Şardenin yazdığı kimi, ordu dövlət və Şah qoşunundan ibarət iki hissəyə bölünürdü. Vilayət hakimlərinin alayları, qorçular dövlət, qulamlar, tüfəngçilər, topçular isə Şah qoşunu hesab olunurdu. Birinci qoşun növünün bütün xərcləri dövlət və ikincininki isə Şahın öz şəxsi mədaxili hesabına ödənilirdi (112, c.3., 191).

«Dövlət» qoşunu, keçmiş zamanların qalığı olub, onların maaşı «divani məmalik»dən asılı olan və bəylərbəyilər tərəfindən idarə edilən torpaqların gəliri hesabına verilirdi. Onlar da iki qismə bölünürdü.

Yerli hakimlər daimi hərbi dəstə (süvari) saxlayırdılar ki, «Təzkirət əl-müluk»da onlar mülazim adlanır (103, 53,54) və xidmət etdikləri yerlər, sayları haqqında aşağıdakı müfəssəl siyahı vardır (132, 72-86):

| | |
|---|---|
| Azərbaycan vilayəti | - 11439. |
| Çuxur-Səd | - 4287. |
| Qarabağ | - 6084. |
| Şirvan | - 5756. |

| | |
|---|---|
| Herat | - 5968. |
| Məşhəd-i müqəddəs | - 5445. |
| Qəndəhar | - 1785. |
| Mərv | - 3352. |
| Astrabad | - 2453. |
| Darolmərz (Gilan) | - 2525. |
| Kirman | - |
| İraq | - |
| Qələmrov (Həmədan) | - 2947. |
| Kürdüstan | - 1400. |
| Luristan | - 411. |
| Kuhgiluyə (Fars) | - 5905. |
| Ərəbistan | - 150 |
| | Cəmi 59.907. |

«Təzkirət əl-müluk»da vilayət hakimlərinə tabe olan daimi Türk-Qızılbaş qoşunu haqqındakı məlumatlar üzrə V.Minorskinin apardığı hesablamalara görə onların ümumi sayının 58.289 nəfər və İ.P.Petruşevski isə 59.496 nəfərdən ibarət olduğunu göstərmişdir (103, 53; 181, 144). 1617-1624-cü illərdə Qızılbaş dövlətində olan Pyetro della Valleyə görə isə Qızılbaş əsgəri heyəti 70.000 nəfər olub, onlardan 50.000 nəfər hərbi xidmətdə olduqları üçün dövlətdən məvacib alırdılar. Ancaq 20.000 nəfər isə ticarət və əkinçiliklə məşğul olur və dövlət onlara məvacib vermirdi (86, 348). Səyyaha görə Qızılbaşlar 32 tayfadan ibarət olub, bu tayfaların hər birinin sayı 10-12.000 nəfərə çatır və bir çox tayfanın isə əhalisinin sayı 500 nəfərdən çox deyildir (86, 349). Pyetronun şəxsi müşahidələrinə görə Türk-Qızılbaşların on altı eli sol və on altı eli isə sağ qol eli adlanır. Müharibədə, səfərdə, divanxanada on altı el Şahın sağında və on altı el isə solunda dayanırdı (86, 347). XVII əsrin əvvəllərində naməlum müəllif tərəfindən yazılmış «Qızılbaşlar tarixi» adlı əsərdə (32) Səfəvi dövlət idarəçilik sistemində Şamlı, Rumlu, Ağacəri, Bayramlı, Əkrəmi, Ördəkli, Qaracarlı, Ağqoyunlu türkman tayfaları (Bayandur, Mosullu, Pornak, Şeyxavənd, Çəpni, Bayat və Bozcalı, Ərəbgirli, Xınıslı, Təkəli, Qaraqoyunlu türkman tayfaları (Alpout, Baharlı, Cəyirli, Qaramanlı, Sədli, Hacılı, Bayburtlu, Varsaq,

Evoğlu, Qaracadağlı) sağ tərəf (cinah) və Ustaclı, Zülqədər, Əfşar, Qacar sol tərəf tayfaları kimi şərh olunmuşdur. Oruc bəy Bayat da 32 Qızılbaş-Türk el və oba adını sıra ilə qeyd etmişdir: Ustaclı, Şamlı, Afşar, Türkman, Bayat, Təkəli, Harmandalı, Zülqədərli, Qacar, Qaramanlı, Bayburdlu, İspirli, Oryat, Çavuşlu (Ustaclı obası), Asayışlı (Ustaclı obası), Cəmişgəzəkli, Sarısolaklı (Ustaclı), Qarabacaklı, Baharlı, Qoyunerili (?), Qırıklı (Afşar obası), Bozcalı, Hacıfakihli, Həmzəli, Solaklı- Mahmudlu, Qaraçomaqlı, Qaraqoyunlu, Qözü Böyüklü (Ustaclı obası), Peykli (?), İnallı (Şamlı obası) və Kuhgiluyalı (165, 31; 67, 160) I Şah Abbasın zamanında Səfəvi məmləkətində olan Pyetro della Valle bu 32 el və obanın on altısının sağ qolu, on altısının da sol qolu təşkil etdiyini yazır (86, 347).

İsgəndər bəy Münşi «Tarix-i alamara-yi Abbasi» adlı əsərində Qızılbaş ordusunun özbəklərə qarşı müharibədə Əndxodu tutmasını, I Şah Abbasın yeni savaş üçün hazırlıq tədbirləri görülməsi haqqında buyruq verməsini təsvir edərkən türk dilində «qarovul-çərxçi, qol və sağ və sol» ifadəsini işlədir (80, 624). Burada qədim türklərin «sağ və sol» adlanan iki siyasi bölümündən ibarət etno-siyasi idarəçilik sisteminin izləri müşahidə edilir. Bu idarəçilik sistemi ilk dəfə hunların başçısı Mete tərəfindən miladdan öncə III əsrdə yaradılmışdır. Bu idarəçilik ənənəsi irsən oğuzlara keçmişdir. Rəşidəddin yazır ki, Oğuzun altı oğlu və onların da hər birinin dörd oğlu vardı. Oğuz qoşunun sağ və solunu onlara verdi və 24 ünsürlü etno-siyasi idarəçilik sistemi yaradıldı. Oğuzun qurduğu el (dövlət) onun 24 nəvəsi arasında bölünüb, onların hər birinin rütbəsi, adı, ləqəbi, nişanı və onqonu müəyyən edilmişdi (101, 78-80). Pyetro yazır ki, hər bir qızılbaş azad, yəni sərbəst olub, istədiyi vaxt öz maaşına göz yuma, yaxud xidməti yerini dəyişə bilərdi. Ancaq müharibə vaxtı başçıya, yəni maaş verənə sözsüz tabe olmalı və hərbi qanun-qaydada əməl etməyə borclu idilər. Əsgərlərin hər birinin illik maaşı 5 tüməndən az olmurdu ki, bu yaxşı at almağa və bir il dolanışığa tam çatırdı. Qoşunun komanda heyəti və məmurların maddi durumu daha yaxşı olub, onlar xidmət dərəcəsinə görə məvacib alırdılar. Orduda elə adlı-sanlı adamlar vardı ki, onların

illik maaşı 300-400 tümənə çatırdı. Onlar müharibə zamanı hərbi xidmətə imkanlarına uyğun olaraq 50-1000 nəfər döyüşçü çıxarmalı idilər. Ancaq hərbi dəftərdə yalnız özlərinin adları qeyd olunduğuna görə onlara tabe olanların da maaşlarını alırdılar (86, 349, 353, 354).

Dövlət qoşunun digər növü Qızılbaş tayfa süvarilərindən ibarət olub, qorçu adlı nizami hərbi qvardiya idi. V.Minorski yazır ki, onlar yay-ox, xəncər, qılınc, hərbi balta, qalxan kimi mütəhərrik silahlarla təchiz idilər. Bu türkman döyüşçüləri papaqlarına görə, yəni başlarına qoyduqları papağın rəngi qırmızı olduğu üçün Qızılbaş adlanırdılar ki, bu papaqları da vaxtilə Şah İsmayılın atası öz müridləri üçün müəyyən etmişdi. Ancaq müharibədə başlarına zirehli dəbilqə qoyurdular. Uzun bığları da onlar üçün səciyyəvi idi (103, 53). Pyetro della Valleyə görə, qorçu termini türk dilindəki qorumaq sözündən əmələ gəlmiş və qoruyan, gözləyən, qayğı göstərən mənasını ifadə edir. Qorçular Qızılbaş olub xan, sultan deyil, birbaşa Şaha tabedirlər (86, 351).

Faruq Sümər yazır ki, qorçular Səfəvi xassə əsgərləri olmaqla I Şah İsmayıl tərəfindən Cığatay hərbi təşkilatı əsasında yaradılmışdır (67, 240). Ancaq qorçu hərbi təşkilatı Azərbaycanda XV əsrdə də vardı. Ölkənin sərhədlərinin qorunması və Şahın mühafizəsi xüsusi dövlət qvardiyası olan qorçulara tapşırılırdı (106, 46; 93, 74). Mənbələrdə qorçuların vilayətlərdə sərbəst yaşamaları və müharibə zamanı öz rəislərinin rəhbərliyi altında birləşmələri haqqında məlumatlara təsadüf edilir (139, 899). Tavernye yazır ki, qorçular əskidən nəcabətli hesab edilən nəsillərdən olub cəsurluqda həmişə məşhur olmuşlar. Bu şəxslər türkmanlar kimi çadırda yaşayırlar və övladlarını gənc yaşlarında Şahın xidmətinə göndərirlər ki, burada da onların təlim-tərbiyəsi ilə şahpərst olana qədər məşğul olurlar (104, 581). Tavernye qorçuların soykökləri, yaşamları haqqındakı məlumatlarında səhvlərə də yol vermişdir. Ona görə ki, Azərbaycan türk xalqının XVI-XVII yüzilliklərdə böyük şəhərləri, kəndləri vardı və əhalinin geniş kütləsi sənətkarlıq, ticarət və əkinçiliklə, müəyyən qismi isə yaylaq-qışlaq heyvandarlığı ilə məşğul olurdu. Türkmanların isə bu dövrdə Azərbaycan türk-türkmən

xalqının təməl ellərindən doğma Türkman adını saxlayan və bu adla anılan tayfalarından biri olması bəlli həqiqətdir. XVI-XVII yüzilliklərin tarixçilərinin göstərdikləri kimi qorçular Ustaclı, Türkman, Rumlu, Əfşar, Qacar, Bayat, Varsaq (80, 43; 77, 259) və başqa türk boylarından səfərbər edilmiş xüsusi nizami qoşun növü olub, tərkiblərində qeyri millətlərdən əsgərlərin olması haqqında dövrün heç bir qaynağında məlumata təsadüf olunmur. Necə ki, Şarden öz şəxsi müşahidələrinə istinad edərək yazırdı: «Qorçular bir neçə dəfə zərbə yemələrinə baxmayaraq, bu gün nizami qoşunun ən güclü heybətli hərbi hissəsidir. Onlar türkman, tatar soyundandırlar… öz kəndlərində yaşayır, başqa qəbilə və tayfaya qarışmamışlar» (112, c.3., 1191). Alman səyyahı Engelbert Kempfer də yazırdı ki, cəsarətləri ilə şöhrət qazanmış boylu-buxunlu qorçular türk soyundandırlar (96, 87). Səfəvi dövlətinin idarəsində güc və söz sahibi olan qorçuların soykökü haqqında Engelbert Kempferin dəyərli məlumatı Şardenin yuxarıda qeyd olunan fikirinin doğruluğunu təsdiq edərək tamamlayır.

Tavernyenin gündəliyində isə qorçuların mənsub olduqları türk ellərinin həyat tərzi ilə bağlı nöqsanlara baxmayaraq onların hərbi keyfiyyətləri, I Şah Abbasın dövründə onlara münasibət və təminatları tarixi həqiqətə uyğun bir səpkidə təsvir olunmuşdur. O yazır ki, hamısı süvari olan qorçulara cirə və yaxşı məvacib verilir. Bəzən qorçuların içərisindən elə şəxslər çıxır ki, onlar ölkənin ali idarəsində yüksək vəzifəyə də sahib olurlar. Adətən onları «Qızılbaş» adlandırırlar. Deyirlər padşahın 22 min qorçusu var ki, hamısı cəsarətli igid olub, müharibə meydanında heyranedici hünərlər göstərirlər. I Şah Abbas bu qoşunu aradan götürüb onların yerində qulamları yerləşdirmək üçün çox çalışmışdı, çünki onlardan qorxurdu və bəzən yaxınlarına deyirdi ki, yalnız qorçular ölkə iqtidarına qarşı çıxıb ona müqavimət göstərə bilər. Bu səbəbə görə də, onların bəzi imtiyazlarını ləğv edib qulamlara verdi. Ancaq bu iş tez dayandı, o öz arzusunu tamamilə və vaxtında həyata keçirə bilmədi. Qorçuların sərdarı qorçubaşı adlanır və onların özlərindən olurdu. Şah başqa tayfalardan onlara sərdar təyin edə bilməzdi (104, 592). Qorçu alayı minbaşı, yüzbaşı və onbaşıların başçılıq etdiyi minlik,

yüzlük və onluqlara bölünürdü. Qorçubaşı ildə 150 tümən, minbaşı 70 tümən, yüzbaşı 30 tümən, onbaşı 15 tümən məvacib alırdı. Sıravi süvarinin hər birinə isə 10 tümən və yaxud 15 tümən verilirdi. Bundan əlavə, hər üç ildən bir Şahın iştirakı ilə qorçuların paradı, yaxud onlara ümumi baxış keçirilir ki, bu zaman onlara məvaciblərinin üçdə bir hissəsindən çox ənam verilir. Bu ənam birinə az, birinə çox, xülasə hər kəsə qabiliyyəti və bacarığına görə ödənilir. Şah böyüklərdən birini öldürmək istəyəndə bu işi də qorçulardan biri yerinə yetirirdi (104, 582). Tavernyenin qorçuların rütbə və vəzifələrinə görə aldıqları maaş haqqındakı məlumatları, XVII yüzilliyin 80-ci illərində Engelbert Kempferin bu barədə verdiyi məlumatlara tam uyğun gəlir. Ancaq Engelbert Kempferin gündəliyində sıravi qorçuların maaşlarının 9-10 tümən olduğu göstərilmişdir (96, 92). Rəfael dyu Mans istisna olmaqla, dövrün başqa avropalı müəllifləri qorçubaşının illik məvacibi haqqında eyni məlumatlar verilmişdir ki, bu da onların birinin digərinin əsərindən istifadə etməsi ilə əlaqədardır. Rafael dyu Mansın əsərində qorçubaşının illik məvacibinin 1000-1500 tümən (103, 165) arasında və «Təzkirət əl-müluk» da isə 1491 tümən 7200 dinar (132, 53) olduğu qeyd edilir ki, sonuncu Azərbaycan Səfəvi dövlətinin maliyyə sistemi ilə bağlı ilk qaynaq olduğuna görə, burada qorçubaşının illik məvacibi haqqındakı məlumatın daha doğru olduğunu deməyə imkan verir.

Alessandri hələ XVI yüzilliyin 70-ci illərində yazırdı ki, Şah beş min nəfər qorçuya muzd verir (107, 448). Onlar ən nüfuzlu, bacarıqlı adamların içərisindən seçilmiş Şah qorçuları, yəni əslində onun şəxsi qvardiyasıdır. Qaynaqlarda mərkəzdəki qorçularla bərabər, əyalətlərdə 20-30 min, bəlkə də bundan da bir qədər çox qorçu olması haqqında məlumatlar vardır. Pyetro della Valle qorçuların sayının 12000 nəfər olduğunu yazmışdır (86,351). Şardenin yazdığına görə əvvəllər onların sayı 60.000-70.000 nəfər olmuş, ancaq I Şah Abbas qorçuların sayını azaldıb, 30.000 nəfərə endirmişdir. Onların əvəzinə bir neçə piyada tüfəngçi alayı yaratmışdır (112, c.3, 1191). E.Kempfer isə 10-12 min nəfərdən çox döyüşkən kişidən ibarət olan qorçuların mənsub olduqları ellərin birliyinə, onların himayəsinə arxalandıqlarını, ellərindən seçilmiş yüksək

rütbəli zabitlərə tabe olub, hətta Şah qarşısında da qeyd olunan səbəblərə görə öz varlıqlarını qoruyub saxladıqlarını qeyd etməklə (96, 87) heç bir səhvə yol vermir. Ancaq E.Kempferin qorçuların sayı haqqındakı məlumatlarında ziddiyyət də vardır. O, qorçuların sayının 10-12 mindən çox olmadığını qeyd etdikdən sonra yazır: «Bu gün 15-20 min nəfərlik qorçu keçmişdə eyni adda mövcud olan hərbi qüvvənin yalnız bir hissəsini təşkil edir» (96,88). Cemelli Karerinin gündəliyində isə Sultan Hüseynin (1694-1722) hakimiyyətinin ilk illərində qorçuların sayının 22000 nəfər olduğu yazılmışdır (89, 168). Ancaq Alessandrinin yazdığı kimi, mərkəzdəki qorçular 4-5 min nəfərdən çox olmurdu. Tavernye də şəxsi müşahidələri əsasında mərkəzdəki qorçuların sayını, həm də onların xüsusi qoşun növü olduqlarını müəyyənləşdirmişdi. Şah bir qayda olaraq istər müharibə, istərsə də dinclik dövründə 4000 süvariyə məvacib, ərzaq verir və onların atlarını yemlə təmin edirdi. Bu alay bəlli bir yerdə savaşa hazır vəziyyətdə saxlanılan qvardiya idi. Alayın hər bir əsgəri məvacibini nə vaxt haradan alacağını da bilir. İndi 25 ildir ki, onlar heç kimlə müharibə etməyiblər, yəni Qəndəharı fəth edəndən sonra qonşu dövlətlərlə savaş olmayıbdır. Bu müddətdə süvarilərin çoxu əlavə xərcə görə atlarını ya satmış, ya da tələf etmişdilər. Onlar tələf etdikləri atlarının dərisinin damğalı hissəsini saxlayırlar. Ona görə ki, hərbi vəziyyət elan olunduqda atlar, yaxud onların dərisinin damğa vurulmuş hissəi yoxlanılır. Dərinin damğalı hissəsi suya salınır və atın xəstəlikdən, qocalıqdan öldüyü, yaxud qəsdən tələf edildiyi dərhal müəyyənləşdirilir. Atını qəsdən öldürən süvari ağır tənbehdən xilas olmaq üçün dərhal özünə at alır. Nişan təkcə atlara deyil, dövlətə aid olan bütün qılınc, tüfəng, ox-kaman və başqa silahlara, məmulatlara da vurulurdu. Damğa Şaha məxsus atların sol budunda olurdu. Hərbi paradlarda, hərbi hazırlığa baxışda hər bir əsgərin silahı və atı onun nişanı ilə yoxlanılırdı (104, 574, 575).

1654-cü ilin oktyabr ayında II Şah Abbas Qəzvində öz süvarilərinin hərbi paradını təşkil etmişdi ki, bu on-on iki gün davam etdi. Gündüzlər Şah öz bağlarından birinin qarşısında əyləşir və ordunun yüksək mənsəb sahibləri, yəni əmirlər onun qapısında dayanardılar.

Gün ərzində bir neçə süvari alayın atlıları onun qarşısından bir-bir keçirdilər. Hər bir süvari Şahın oturduğu yerə yaxınlaşanda atını çaparaq oxu kamandan sol tərəfdəki nişana atırdı. Parad qurtarandan sonra oxla nişanı düz vuranların məvaciblərini Şah bu işlərə baxan şəxslərin hesabatlarına uyğun olaraq artırırdı. Bu hərbi paradda Şah «Qara süvari» ayaması ilə tanınan və çox məharətli oxçu olan süvariyə hər ay 15 tümən məbləğində əlavə məvacib verilməsi barədə göstəriş vermişdi (104, 575).

Qızılbaş tayfa süvarilərindən ibarət olan qorçuların mənbələrdə tayfalar üzrə ayrıca hərbi hissələrdə birləşməsi, onların hər birinin isə öz qorçubaşısı olması haqqında məlumatlar da az deyildir. Məsələn, Ustaclı qorçubaşısı 1514-cü ildə Çaldıran vuruşunda öldürülmüşdü (80, 43). Həsən bəy Rumlu H.941 (1535)-ci ildə Osmanlı ordusunun Azərbaycana ikinci dəfə hərbi yürüşündə Türkman, Rumlu, H.959 (1552)-cu ildə İsmayıl Mirzənin Ərzruma yürüşündə Naxçıvan, H.979 (1572-1573)-cu ildə Qızılbaş ordusunun Gilana hərəkətində Ustaclı, Qəribli qorçularının qoşunun əsas hissəsini təşkil etdiyini göstərir. Eyni zamanda, Şah Təhmasibin vəfatı zamanı Rumlu, Əfşar, Qacar, Bayat, Varsaq qorçularının saray gözətçisi olduğunu qeyd edir (77, 259). H.932 (1526)-cı ildə Camın Sarıqamış deyilən yerində özbəklərlə savaşın sonuncu anında I Şah Təhmasibin göstərişi ilə döyüşə girən 3000 atlının 1700 nəfəri Şamlı, Zülqədər qorçuları olub, elə döyüşün də taleyini onlar həll etmişdi (80, 55-56). Şah Süleymanın 1668-ci il sentyabr tarixli fərmanında Şirvanda Şahsevən, Əfşar, Şamlı qorçularının yerləşdiyi və Dərbəndin mühafizəsinin isə Dərbənd qorçularına tapşırıldığı göstərilir (46, 80). Bu faktlar Qızılbaş tayfa qorçuları ilə bərabər, şəhər əhalisindən də qorçu hissələri təşkil olunması və onların geniş kütləsinin vilayətlərdə yerləşməsindən xəbər verir. Əslində qaynaqlarda qorçular vilayətlərdə yaşayır deyildikdə, burada onların müəyyən hissəsinin sərhəd vilayətlərində yerləşdirilməsi və bu vilayətlərin qorunmasının onlara tapşırılması nəzərdə tutulur. Sanson bu barədə daha aydın məlumat verərək yazırdı ki, ölkənin sərhədlərinin mühafizəsi qorçubaşının tabeçiliyində olan və qorçu adlanan əsgəri heyətə tapşırılmışdı (106, 47).

1693-1694-cü illərdə Səfəvilər ölkəsində olmuş Cemelli Kareri də qorçuların yüksək nüfuz sahibi olduğunu bildirərək yazırdı ki, cəsarətli döyüşçülərdən ibarət olan qoşuna qorçu və ya Qızılbaş deyirlər ki, onların sayı bu gün 22 min nəfərə yaxındır. Qorçuların "general" və ya əmirləri «Qorçubaşı» adlanır və gündə 15 tümən (Ehtimal ki, Cemelli Karerinin əsərinin çapında qorçubaşının maaşı aylıq əvəzinə səhvən gündəlik kimi göstərilmişdir) məvacib alır. Bu qorçu dəstəsi komandirlərinə (yəni qorçubaşı) tabe olan zabitlərə minbaşı, yüzbaşı, onbaşı deyilirdi. Hər bir adi qorçu isə ildə 15 tümən məvacib alırdı (89, 168). Cemelli Kareri sözünə davam edərək yazır: «Vilayət xanları və hakimləri və Şah sarayının digər vəzifə sahibləri qorçular və qulamlar arasından seçilirlər, çünki onların mütənasib boy-buxunu və mehriban ürəkləri vardır» (89, 169).

Qulam, tüfəngçi, topçu və sufilər «Şah qoşunu» olub, onların məvacibləri xassə əmlakı hesabına büdcədən ödənilirdi.

Məlum olduğu kimi, I Şah Abbas hərbi islahat keçirib, yeni nizami ordu təşkil etmişdi. İ.P.Petruşevski bu barədə yazır ki, 44 min nəfərdən ibarət nizami qoşun yaradıldı. Topçu və tüfəngçilər farslardan, süvari qulamlar isə müsəlmanlığı zorla qəbul etdirilən, gürcü və çərkəzlərdən təşkil edilmişdi. Doğrudur, bu Qızılbaş və başqa tayfaların, qeyri-nizami qoşununu (çəriyi) çox zəiflətdi, ancaq onların rolunu axıra qədər yox edə bilmədi (181, 81).

Tüfəngçilər Şaha məxsus qoşun növü olub, əsgərləri rəiyyət və əkinçilərdir ki, xışın arxasından gətirib onları tüfəngçi ediblər. İlk vaxtlar onlar mahallar üzrə səfərbər edilirdi və ilboyu maaş aldıqlarına görə ehtiyac olan kimi dərhal təyin olunmuş hərbi xidmət yerinə gəlirdilər. Onlar əvvəllər piyada qulluq edir, ancaq hər dörd və ya 5 nəfərinə azuqə və sürsatlarını daşımaq üçün bir qatır, yaxud yabı verilirdi. Savaşlar zamanı qoşunun hərəkət məsafəsinin uzaqlığı və çevik hərəkəti nəzərə alınmış və onların hər birinə at verilmişdir. Onların hər yüz nəfərinin rəisi yüzbaşı və ümumi başçıları isə tüfəngçibaşı adlanırdı (86, 344, 345; 104, 583). Onun illik məvacibi 711 tümən 5300 dinar (132, 53) və sıravi tüfəngçinin illik məvacibi isə 4-5 tümən idi. Yüksək rütbəli tüfəng-

çilər də bu qədər məvacib alırdılar (86, 344, 345; 104, 583). Onların ümumi sayı Pyetro della Valleyə görə 20000 nəfər, Tavernyeyə görə, 40.000-50.000, E.Kempferə görə 50.000, Şardenə görə isə 12.000 nəfər olmuşdur (86, 344; 104, 583; 112, c.3,1189, 1193). Cemelli Kareri isə tüfəngçilərin ümumi sayının 50 min nəfər olduğunu bildirərək yazırdı ki, onların çoxu kənd əhlidir və silahları qılınc və tüfəngdən ibarət olub, hər biri ildə 4, yaxud 5 tümən maaş alır. Əyalət xanları ayda bir dəfə onları təlim-məşq keçməyə vadar edirlər ki, beləliklə onlar silah işlətməkdə çox bacarıqlı olmuşlar. Onların əmirlərinə tüfəngçibaşı deyirlər (89, 168). Tavernye yazır ki, başqa hərbçilər onlara məsxərə edərək deyirlər ki, bu kəndlilər cürət və cəsarətli olmadığına görə, düşmən qarşısına çıxa bilmirlər. Ancaq səyyahın öz şəxsi fikrinə görə, onlar nizami qoşun növü olub, yaxşı da vuruşurdular (104, 583). Silahları uzun və qısalüləli fitilli tüfənglərdən ibarət olub, bu tüfənglərin lüləsinə bərkidilmiş dirsək qundağa bağlanılırdı. Tüfəngçi at, yaxud ayaq üstə, uzanmış halda dirsəyi lülədən açıb dayaq kimi istifadə edir və rahat atəş ata bilirdi (86, 345).

«Təzkirət əl-müluk»da «Qulamane sərkare xassey-i şərifə» (132, 7) adı ilə göstərilən hərbi alay isə dövrün başqa qaynaqlarında, elmi ədəbiyyatlarda qulamla bərabər «qullar» adı ilə də qeyd olunmuşdur. Şarden yazır ki, onlara qul deyildikdə, bu onların digər hərbi alay əsgərləri ilə müqayisədə azadlıqlarının məhdud olması mənasını ifadə etmir. Əksinə I Şah Abbasın bu seçmə alaya o qədər hüsn-rəğbəti vardı ki, onları özünün «süvari yeniçərləri» adlandırırdı (112, c.3, 1193; 103, 55). Onlar süvari döyüşçü olub, silahları qılınc, nizə, ox-yaydan ibarət idi. Qulamların bəzilərinə xüsusi hərbi xidmətdə tüfəngdən istifadə etməyi də öyrədirdilər. Pyetro della Valle çox doğru olaraq yazırdı ki, artıq soyuq silahlar öz əhəmiyyətini itirdiyi üçün I Şah Abbas qulamları tüfənglə də təchiz etməyə çalışırdı (86, 346). Qulamlar hərbi hazırlıqlarına görə qorçulardan o qədər fərqlənməsələr də, sayları onlardn bir qədər az idi. Onlar Şahın nəzarəti altında təlim keçir və Şahdan savayı heç kimə tabe deyildilər. Şahı qoruyan qulamların arasında əqrəbalıq əlaqələri olmadığına görə, onların birliyi və dövlətə qarşı çıxması da

mümkün deyildi (96, 89). Qulamlar hərbi xidmətə ömürlük qəbul olunur və onlar hərbi xidmətdən imtina edə bilməzdilər (86, 345, 346). Onlar şimal ölkələri, yəni V.Minorskinin yazdığı kimi, Gürcüstan, Şimali Qafqaz əhalisi içərisindən kiçik yaşlarında ələ keçirilmiş uşaqlardan ibarət olub, sünnət edilib, islam dini qəbul etdirildikdən sonra təlim-tərbiyələri xüsusi qaydada yerinə yetirildi (96, 89; 103, 55). Belə ki, Səfəvi ölkəsinə gətirilən uşaqların yaxud da burada yaşayan xristian ailələrinin uşaqlarından da seçilirdilər. Onların içərisində yetkin yaşında olub, maddi marağına uyğun olaraq Şahın hərbi xidmətinə könüllü gəlib, islamı qəbul edən gürcülər də vardı. Qulamların çoxunun ata-babaları xristian olub birinci, yaxud ikinci nəslə islam qəbul etdirilmişdi. F.Sümər yazır ki, I Şah Abbas kölələri tədarük edib yetişdirmək üçün bir təşkilat da qurdu. Bu, Yeniçəri Ocağının daha kiçik nisbətdə bir bənzəri idi. Bu ocağın rəisinə qullarağası deyilirdi (67, 148). Pyetro della Valleyə görə 30000 qul vardı ki, onlardan 15000 nəfəri hərbçi idi. Şarden onların sayının 10000, E.Kempfer isə 15000-18000 nəfər arasında olduğunu qeyd etmişdi (86, 345, 346; 112, c.3, 1191; 96, 89).

Tavernye gündəliyində I Şah Abbasın hərbi islahatlarına toxunsa da, onun məqsədini, məramlarını aydınlaşdıra bilməmiş, ancaq Şahın yeni təşkil etdiyi və sayı 44 min nəfər olan nizami alaylardan qulamlar və tüfəngçilərlə bağlı bəzi məsələlərin şərhini vermişdir. Onun qeyd etdiyi kimi yeni qoşun növü olan qulamların rəisi qullarağası adlanırdı. Qullarağası qulamların başçısıdır. Bu qulamların hamısı Şahın qızılla aldığı nökərləridir. Onlar müxtəlif tayfa və millətlərdən olub, nəsilbənəsil qulam adlanırlar. Şah onların xidmətindən çox razıdır və onlara etimadı var. Onların çoxu isə müsəlmanlığı qəbul etmiş gürcülərdir. Ümumilikdə qulamların sayı 18 min nəfərə çatır və hər biri 5 və ya 8 tümən məvacib alır, hamısı süvaridir (104, 573-575). Cemelli Kareri hər qulamın illik məvacibinin 6-7 tümən olduğunu qeyd edir (89, 168); Şardenə görə qulamların illik məvacibi 6-10 tümən və tüfəngçilərinki isə bunun yarısı qədər olub, hər iki alayın əsgəri heyətinə dövlət karxanasında hazırlanmış, üzərində xüsusi nişan olan silahlar pulsuz verilir, ancaq onlar paltarı öz hesablarına alırdılar (112, c.3, 1196). Tavernyeyə

görə qulamlarla müqayisədə qorçular ağıllı, yüksək fikirli adamlar idilər. Onlar məvaciblərini boş yerə sərf edən qulamlardan fərqli olaraq pul yığır, qoyun və keçi alırdılar. Tavernye bunu onların köçəri olub mal-qara, qoyun və başqa heyvanlardan ibarət var-dövlətlərinin olması ilə əlaqələndirir. Ancaq əslində əvvəl qeyd olunduğu kimi, qorçular yerli əhali olub, müəyyən bir vilayətdə daimi yaşayış yerləri olduğuna, oturaq və yarımköçəri həyat tərzində yaşadıqlarına görə maaşlarını sərfəsiz yerə xərcləmirdilər (104, 573-575, 582-583). Səyyaha görə hər iki alay ölkədə üstün mövqeyə malik olmaqla dövlət idarələrində onların içərisindən çıxmış böyük vəzifəli adamlara da təsadüf olunur. Ancaq qulamlar müxtəlif xalqlardan olduqlarına görə, onların arasında birlik mümkün deyildir. Şah istədiyi vaxt onları öz əlləri ilə cəzalandıra və tənbeh edə bilir. Onların hansına işarə etsə, dərhal özünün irəliləyişi xatirinə dostunun başını kəsər, yaxud onu bəlaya düçar edər. Qulamların silahları qılınc, ox-kamandan ibarət olub, bəzilərinin qolçağı, zirehi və təbərzini də vardır. Onların bu ölkədə yeri-yurdu olmadığına görə, məkan və yerlərini təyin edən yurdçuları da yox idi. Ona görə də onlar rast gəldikləri istənilən yaxşı yerdə yerləşib çadırlarını qururdular (104, 583). Tavernye II Şah Abbas dövründə 18000 qulam və 40000-50000 nəfər tüfəngçi olduğunu qeyd edir ki, bu rəqəmləri nizami ordunun sayının real göstəricisi kimi qəbul etmək olmaz. Ona görə ki, I Şah Abbasın hakimiyyəti illərində onun həyata keçirdiyi hərbi islahatlar əsnasında yaradılan qulam, tüfəngçi, topçu adlı nizami alayların sayı birlikdə 44000 nəfərdən çox olmamışdır (181, 107, 108).

«Təzkirət ət-müluk»da göstərilir ki, topxananın yüzbaşı, minbaşı, topçu və carçılarının ağsaqqalı topçubaşı olub, onun illik məvacibi 500 tümən idi (132, 14, 63). Ona tabe olanların tiyulu, maaşı, həmesalesi, baratı və mükafatı barədə topçubaşının təsdiqi üzrə alicah böyük divan vəziri tərəfindən yazılı hökm verilib, bu işlər üçün buraxılan tənxah alınırdı. Topçu, minbaşı, yüzbaşı, carçıbaşı və carçıların təyin olunması və onlara maaş, həmesale verilməsi üçün topçubaşının məlumatı əsasında alicah ali divan vəziri təliqə yazdıqdan sonra, şahın fərmanı verilirdi. Mübarək

topxana və topçulara aid işləri topçubaşı araşdırıb həll edirdi. Qeyd olunan əsgəri heyətin mülazimlik hökmləri, tiyul, həmesale, iqta baratı, təhxah və mükafatları topçubaşı tərəfindən yazılıb möhürlənirdi. Topçuların san siyahısını bu idarənin vəziri və mustoufisi topçubaşının iştirakı ilə Şahın qulluğunda ərz və təqdim edirdi (132, 14). Ordudakı tabeçilik qaydasına görə topçubaşı, qorçubaşı və qullarağasından sonra üçüncü yerdə durur, ancaq döyüş dənizdə baş verdikdə, o, dəniz qüvvələrinə də başçılıq edir və bu zaman dəniz əsgəri heyətinin əmiri hesab olunurdu. Ancaq Səfəvi dövlətinin xüsusi hərbi dəniz donanması yox idi. Yalnız Xəzər dənizi və İran körfəzində kiçik çaplı odlu silahlarla təchiz olunmuş ticarət gəmiləri vardı (96, 90). V.Minorski yazır ki, baxmayaraq Həsən bəy Rumlu Şah Təhmasibin qazilərinin 1552-ci ildə top və tüfəngdən istifadə etdiklərini yazmışdır, ancaq artilleriya İranda populyar silah deyildi (103, 55). Əbdi bəy Şirazi isə qızılbaşların özbəklərlə 1528-ci ildə Damğan savaşında «igid tüfəngçilərin» adını çəkmişdir (28, 58). Minadoi isə 1558-ci ildə yazırdı ki, Səfəvilər bu günə qədər topdan istifadəni mənimsəməmişlər. Bu onların top düzəltməyi bacarmadıqlarını, yaxud material çatışmamazlığına görə yox, daha çox belə amansız silahdan insanlara qarşı istifadəni rüsvayçılıq hesab etmələri ilə əlaqədardır (103, 55). Əslində bu məlumatı tarixi gerçəklik kimi qəbul etmək doğru olmaz, ona göə ki, Həsən bəy Rumlunun yazdığına görə XVI əsrin 30-cu illərində Xorasanda özbəklərə qarşı savaşda topçu Ustad Şeyxinin topçuları və Rumlu tüfəngçiləri haqqında məlumat verilmişdir (77, 212). O cümlədən 1539-cu ildə Xorasanın Xəvaf hakiminin oğlu üsyan edib Ost qalasını tutduqda, Şah Təhmasib öz topçu və tüfəngçilərini oranı geri almağa göndərmişdi. Ost geri alındıqdan sonra yaxın kəndlərdən birində gizlənmiş Xacə Kəlana nəsihət vermək üçün onun yanına göndərilmiş topçubaşı Ustad Şeyxi və bu zaman Astaraya göndərilən Qızılbaş qoşunun rəhbər heyətində topçubaşı Süleyman bəy haqqında məlumata da təsadüf edilir (28, 83; 77, 293). Bu hadisədən xeyli sonra, yəni 1603-cü ildə Bəlx savaşına Şah Abbas 300 zərbzən (top) və 1000 tüfəngçi aparmışdı (80, 427-428; 103, 55). E.Kempferin yazdığına görə 1622-ci ildə portoqollarla savaşda

xeyli top ələ keçirilmişdi ki, onlardan 10 ədədi Bəndər Abbasda, qalanı isə başqa qalalarda yerləşdirilmişdi. 1637-ci ildə isə Holşteyn hökmdarı III Fridrixin Şaha göndərdiyi bir neçə top isə Qəzvində idi. Topxanaya aid olan döyüş sürsatı və başqa ləvazimatlar Təbərək qalasında xüsusi cəbbəxanada saxlanılırdı (96, 90).

Şardenə görə əvvəllər topçuların sayı 12000 nəfər olmuş və 1638-ci ildə Bağdad itirildikdən sonra onların sayı azadılmış və sonra II Şah Abbas bu korpusu 1655-ci ildə onların topçubaşısı Hüseynqulu xan öldükdə ləğv etmişdir (112, c.3, 1197; 103, 55). Ancaq Səfəvilərin hakimiyyətinin son illərində artileriya korpusunun hüquqları ehtimal ki, özünə qaytarılmışdır. Belə ki, Sanson Səfəvi dövlətində XVII yüzilliyin 80-ci illərində 4000 nəfərdən ibarət topçu olduğunu yazır ki, onun bu məlumatı artileriya korpusunun yenidən təşkil olunduğunu göstərir (106, 48). Şah Sultan Hüseynin (1694-1722) Xorasana müxtəlif hərbi ekspedisiyasında da artileriyanın qoşunun bir hissəsi kimi yenə də adı çəkilir (103, 55).

Təəssüf ki, bu günə qədər bizə məlum olan yerli qaynaqlarda hərbi islahatlar və onların tarixi haqqında dəqiq məlumat yoxdur. Ancaq əvvəl göstərildiyi kimi, yerli qaynaqlarda XVI yüzillikdə I Şah Abbasa qədər müəyyən savaşlarda və xüsusilə müdafiə döyüşlərində topdan, tüfəngdən istifadə olunduğu haqqında məlumatlara təsadüf edilir və Təbrizdə, Dərbənddə tüfəngçi hərbi dəstələrin də olduğu göstərilmişdir. Doğrudur, dövrün Avropa ədəbiyyatında yerli qaynaqlarla müqayisədə Azərbaycan Səfəvi dövlətinin hərbi təşkilatı, döyüş texnikası haqqında məlumat daha çoxdur. Ancaq dövrün Avropa ədəbiyyatlarında təhriflərə də yol verilmiş və bəzən isə bu ədəbiyyatlardakı məlumatlar tarixi gerçəkliklərlə səsləşmir. Məsələn, Pyetro della Valle 22 aprel 1619-cu il məktubunda qeyd edir ki, tüfəngçi korpusunu bir neçə il əvvəl ser Antoni Şerlinin məsləhəti ilə I Şah Abbas yaratmışdır (86, 344). Yaxud onun qardaşı Robert Şerlini şəxsən tanıyan Purçal isə yazır: «Məğrur iranlıya (Qızılbaş-Z.B.) döyüş sənətini Şerli öyrətdi və o buna qədər topdan istifadə etməyi bilmirdi. İndi onun 500 mis topu və 6000 tüfəngi vardır» (103, 50).

V.Minorski yazır ki, Ser Antoni ilə birlikdə İranı (Səfəvi ölkəsini-Z.H.) tərk edən tərcüməçisi Ancelo Romada (28.XI.1519) Şah Abbasın yay-ox, qılınc ilə silahlanmış 100.000 nəfərə qədər süvari qoşun səfərbər etmək imkanına malik olduğunu bildirmişdi. Bundan savayı, onun 50.000 nəfər tüfəngçisi vardır ki, onlar əyri qılıncla da silahlı idilər. Bir vaxtlar o, tüfəngçidən istifadə etmirdi, ancaq indi onlarla fəxr edir və çalışır ki, onlar xidmətdə olsunlar. Bundan başqa, onun bir neçə ədəd topu da vardır ki, tatarlardan (Osmanlı türkü) qənimət götürmüşdür. Ser Denis Rossun məlumatlarında da göstərilir ki, Şahın artıq topçu (top tökən) məsələsində çətinliyi yoxdur. Ona görə ki, bir neçə top ustası Osmanlı dövlətindən narazı qalıb, Şahın xidmətinə keçmişdir. O cümlədən Robert və yoldaşlarına görə, onlar Səfəvi dövlətinə gələnə qədər burada top və tüfəngdən istifadə edə bilmirdilər və onların gəlişindən sonra vəziyyət dəyişmiş, artıq Şahın İsfahanda karxanasında 200 işçisi vardır ki, onlar kifayət qədər yaxşı top, tüfəng hazırlayırlar (103, 51). Ancaq dövrün mötbər qaynaqlarına istinad edən S.M.Onullahi yazır: «…Şerli qardaşlarının İranda (Səfəvi ölkəsində-Z.B.) ilk dəfə top və tüfəng hazırlaması texnikasını öyrətməsi haqqında müddəa tam yanlışdır… Çaldıran döyüşünə qədər Qızılbaş qoşununda top, tüfəng və mancanaq olmuşdur… bu silahların bəzisi… Təbrizdə istehsal olunurdu» (49, 117, 123). «Xolde bərin» də də 1585-ci ildə Təbrizin Osmanlı ordusu tərəfindən işğalı ilə bağlı hadisələrdən danışılarkən təbrizli Murad bəy Topçubaşıya və Heydər bəy Ənisin oğlu Bərxudar bəyə Şahın top tökmələri barədə əmr verməsindən bəhs edilir. Qaynaqda göstərilir ki, Bərxudar bəyin qırx beş günə tökdüyü bu top çox böyük olub, iyirmi beş batman ağırlığında mərmi atırdı (128, 727, 740). Mənbənin verdiyi bu məlumatlar, o cümlədən, ağır mühasirə topunun tökülməsi haqqındakı fakt da Antoniyə qədər Səfəvi məmləkətində top tökülməsindən, Təbrizin ölkə miqyasında odlu silahlar istehsalına görə xüsusi əhəmiyyət kəsb etməsindən xəbər verir və təbrizli topçuların əski çağlardan çox böyük təcrübəyə malik olduqlarını da isbat edir.

Qeyd olunan bu iki qoşun növünə daxil olan 5 hərbi hissədən əlavə, Şardenin əsərində iki kiçik hərbi hissənin də adı qeyd edilmişdir (112, c.3., 1195).

Şahın 200 nəfər sufi cangüdəninin Səfəvi sülaləsi ilə xüsusi əlaqəsi vardı. Qərargahları Alaqapı darvazasında, töhidxana yaxınlığında idi (112, c.3, 1195). Sanson sufilərin XVII yüzilliyin 80-ci illərində izzət və etibarını itirdiklərini bildirsə də, Şardendən fərqli olaraq onlardan 2000 nəfərin sarayın giriş qapısında keşik çəkdiklrini və eşikağasına tabe olduqlarını yazmışdır (106, 137-138).

Şarden göstərdiyi iki kiçik hərbi dəstənin ikincisi haqqında yazır ki, 600 nəfərdən ibarət cəzair adlı qarovul dəstəsini 1654-cü ildə Şah Abbas sani hərbi xidmətə qəbul etmişdi. Onlar Şahın cangüdənləri, saray qarovulçuları olub, tüfəngçibaşıya tabe idi (112, c.3, 1195). Ancaq «Təzkirət əl-müluk»da cəzairin qulamlarla əlaqəsinə işarə edilir. Onlar daimi olaraq saray qapısında keşik çəkirdilər (132, 38). Sanson onların sayının 4000 nəfər olduğunu və tüfəngçibaşına deyil, topçubaşına tabe olduqlarını yazır (106, 139). Dövlət və Şah qoşunundan sarayı qorumaq üçün ayrılan takım əsgərlərinin sayını Səfəvi şahları istədikdə artırıb, yaxud azaltmaq, hətta ləğv etmək hüququna malik olduqlarına və bəzən də bunu icra etdiklərinə görə, dövrün ədəbiyyatlarında qeyd olunan takımların əsgərlərinin sayı barədə fərqli məlumatlar verilmişdir. Sansona görə XVII yüzilliyin 80-ci illərində onların sayı 14.000 nəfərdən ibarət olmuşdur (106, 139):

| | |
|---|---|
| Sufi | – 2000 |
| Cəzair | – 4000 |
| Qulam | – 4000 |
| Tüfəngçi | – 2000 |
| Qorçu | – 2000 |
| Cəmi | – 14000 nəfər |

V. Minorski qulamların, topçuların soykökü məsələsində yanlışlığa yol vermiş və onun tüfəngçilərin orduda xalis İran elementi olması haqqındakı fikiri də doğru deyildir (103, 54). Əvvəla tüfəngçilərin içərisində Qızılbaşlar az deyildi. İkinci tərəfdən İ.P. Petruşevskinin yazdığı kimi, bu dövrdə bir o qədər xristian cavan-

ları müsəlmanlığı hələ qəbul etməmişdi ki, onlardan böyük bir hərbi qüvvə – qoşun yaradılsın. Digər tərəfdən yuxarıda qeyd etdiyimiz kimi, qorçular XVII əsrdə yenə də qoşunun əsas yadrosunu təşkil edirdi. Sansonun «qorçu alayları heç vaxt dəyişikliklərlə üzləşməmiş və əski çağlarda olduğu kimi qalır» (106, 47) -deməsi göstərilən fikrin doğruluğunu təsdiq edir. Qulamların da arasında türk tayfalarından mülazim olması şübhə doğurmamalıdır. Necə ki, Pyetro della Valle də yazır: «…Şahın Qızılbaşlar və qulamlardan ibarət qoşunun birinci dəstəsi türkdür, ikinci dəstə isə öz aralarında kökü türkcə olan dildə danışırlar. Onlar fars dilindən heç bir şey bilmirlər. Başçıları onları öz fikrini bildirmək üçün türk dilində fərman verməlidir. Şah da vaxtının çoxunu həmin qoşun içərisində keçirir və əmrlərini türk dilində vermək ona da rahatdır. Məhz bunun nəticəsində türk dili tədricən zadəganlardan təşkil olan saray və ölkənin yüksək rütbəli hərbi və mülki şəxsiyyətlərinin dili olmuşdur» (86, 261).

Petro della Vallenin yazdıqlarından aydın olur ki, qeyri-türklərdən yaradılan qoşun növü – qulamların türk dilində danışmaları imperatorluqda türklərin nüfuzlarının güclü olmasından xəbər verir. Sözsüz ki, qulam əsgəri heyətinin müəyyən hissəsi türk tayfalarından səfərbər olduqlarına görə, bu takımdakı qeyri-türklər türk dilini asanlıqla öyrənməyə müvəffəq ola bilmişdilər. Digər tərəfdən ünsiyyət vasitəsi olan türk dilinin saray, dövlət və qoşun dili olması, dövlətin yüksək rütbəli şəxsiyyətlərinin bu dildə danışması şəraitində qeyri-türk etnik mənşədən olan gənc qulamlar «farslaşma» prosesinə deyil, məhz türkləşmə prosesinə məruz qala bilərdilər. Bu isə dövlətin hərbi təşkilatında türk və türkdilli əsgəri heyətin çəkisini daha da artırırdı.

Osmanlı yeniçərlərinə bənzər yeni nizami hərbi hissəlrinin təşkili əslində dövlətin hərbi qüdrətinin möhkəmləndirilməsi məqsədindən irəli gəlmişdi. Digər tərəfdən, I Şah Abbas yalnız Qızılbaşların dövlətdəki nüfuzunu məhdudlaşdırmağa çalışmamış, o həm də qeyri-türk ünsürlərinin mərkəzdənqaçma hərəkatlarına qarşı da kəskin mübarizə aparmışdı. Və bu mübarizədə onun arxalandığı hərbi qüvvənin türklər olması bəlli həqiqətdir. Elə buna görə də,

onun dövründə və ondan sonra yenə də Qızılbaş tayfa əmirləri Səfəvi dövlətinin əsas dayağı olaraq qalırdı. Düzdür, I Şah Abbasdan sonra hakimiyyət başına keçmiş hökmdarlar da səltənətə qarşı çıxa biləcək qüvvələr içərisində ancaq qorçulardan ehtiyat etdiklərinə görə onların imtiyazlarını azaltmağa çalışmış, ancaq bu işi axıra çatdıra bilməmiş və son nəticədə öz tədbirlərindən imtina etmişdilər. Bu, Qızılbaşların yenə də Səfəvi dövlətində öz keçmiş hərbi qüdrətlərini, nüfuzlarını qoruyub saxlaması deməkdir. Hətta tüfəngçi dəstələrinin içərisində də Qızılbaşlar az deyildi. Elə I Şah Abbasın hakimiyyəti dövründə, 1619-cu ildə Təbrizli Məhəmməd-tağı bəy min nəfərlik azərbaycanlı tüfəngçi dəstəsinin minbaşısı idi (Məhəmmədtağı bəy Təbrizi minbaşı-ye tofəngçiyan-i Azərbaycani) (80, 936). Topçubaşılar da bir qayda olaraq təbrizlilərdən ibarət olmuşdur. Çünki, top istehsalı sahəsində Təbrizli ustalar bu işin ilk təşəbbüsçüsü, ixtiraçısı və mahir sənətkarları olmuşlar. Vilayətlərdə də tüfəngçi və topçu dəstələri vardı. Məsələn, Şah Abbas Dərbəndi tutduqdan sonra Mənuçöhr bəy Cığatayı xorasanlı, iraqlı və sairədən ibarət bir dəstə tüfəngçi ilə onların qalabəyi və yolların mühafizəçisi təyin etmişdi. 1718-ci ildə A.Volinskinin gündəliyində Şirvanda onu müşayiət edənlər içərisində Şirvan hərbi rəislərindən topçubaşı və onunköməkçiləri haqqında da məlumat vardır. O cümlədən 1722-ci ildə rus qoşunu Dərbəndi tutduqda orada 203 top da ələ keçirmişdilər (140, 34; 1, 135, 151).

Pyetro della Vallenin yazdığı kimi, zamanın tələblərinə uyğun olaraq Səfəvi qoşunun sayı tez-tez artır, yaxud azalırdı. Səyyah qeyd edir ki, Şah Abbas artıq adamlara məvacib verməyi xoşlamırdı. Bundan başqa əvvəlki dövrün müharibələrində Səfəvi dövlətinin əsgəri itkisi də çox olmuşdu. Bunun hamısı daxil olmaqla, orduda 70.000-80.000 döyüşçü vardı ki, ondan da yalnız 40.000 nəfərindən sözün əsl mənasında hərbi əməliyyatlarda istifadə etmək olardı. Ancaq Pyetro Şahdan məvacib alan ordunun ümumi sayının 100.000 olmasından danışır ki, onun 30.000 nəfəri sərhəddə mühafizə xidmətində olub, buranı heç vaxt tərk etmirdi. Yerdə qalan 70.000 nəfərlə birlikdə, zabitlərin ailəsi, xidmət heyəti də nəzərə

alınsa, ordunun ümumi sayı 200.000-300.000 nəfərə çatır (86, 352, 353).

Şardenə əsasən I Şah Abbasın vəfatı əsnasında sarayı qoruyan 10000 nəfər istisna olmaqla, ordunun ümumi sayı 120.000 nəfərdən ibarət olub, onun 50.000 nəfərini üç yeni alay təşkil edirdi. Bu vaxt sarayı qoruyan 10000 nəfər nəzərə alınmadıqda, vilayət qoşunlarının sayı 70.000 nəfərdən çox deyildi (112, c.3, 1197).

Səfəvi qoşunun sayı barədə Oruc bəy Bayatın gündəliyindəki məlumatlar isə XVI yüzilliyin son rübünə aiddir. O, Səfəvi qoşununun əsas hissəsinin süvarilərdən ibarət olduğunu, qoşunun sayının bayraqların sayından bilindiyini, hər min nəfər əsgərin önündə öz bayraqları dalğalandığını və bunun Roma senturiyasından götürüldüyünü yazmışdır. Ancaq müəllif burada müəyyən dolaşıqlığa yol vermişdir. Məlum olduğu kimi, Romada senturiya 100 nəfərdən ibarət qoşun dəstəsinə deyilirdi. Türk hərb strukturunda isə qoşun onluq, yüzlük və minlik, tümənə bölünürdü və əski çağlardan bəri türk ordusunda minbaşının başçılıq etdiyi min nəfərlik takımın önündə öz bayraqlarının aparılması sırf özlərinə aid hərb qaydası idi. Oruc bəy yazırdı: «…Şah asanlıqla 200 min süvari yığa bilərdi və bunu mən özüm görmüşdüm. İştirak etdiyim çoxlu hərbi səfərlərdə 200 bayraq saymışdım» (165, 34-35). Ancaq onu da qeyd etmək lazımdır ki, dövrün bir çox başqa qaynaqlarında verilən məlumatlar sübut edir ki, Oruc bəy Bayatın qoşununun sayı haqqındakı qeydlərində müəyyən qədər şişirtmələr vardır.

Tavernyenin ayrı-ayrı hərbi dəstələr üzrə məlumatlarını yekunlaşdırıldıqda XVII əsrin 50-60-cı illərindən ordunun ümumi sayı təxminən 90.000-100.000 nəfər (104, 581-583) və Engelbert Kempferin mlumatları əsasında aparılan hesablamalara görə isə həmin əsin 80-ci illərində 90.000 nəfərdən (96, 91) ibarət olmuşdur. Ancaq göstərmək lazımdır ki, XVII yüzilliyin ikinci yarısında Dərbənd şəhərindən İran körfəzinə və Ərəb İraqından Əfqanıstandakı Hilmend çayına qədər geniş əraziyə sahib olan Səfəvi imperatorluğunun müxtəlif hərbi-strateji əhəmiyyət kəsb edən məntəqələrində yerləşdirilmiş dövlət və Şah qoşununun ümumi sayının dövrün avropalı müəlliflər tərəfindən dəqiq müəyyənləşdirilməsi

qeyri-mümkün idi. Ona görə də, onların Səfəvi qoşununun ümumi sayı haqqındakı məlumatları təxmini say göstəricisi kimi qəbul olunmalıdır. Engelbert Kempferlə eyni vaxtda Səfəvi ölkəsində olan Sanson da Səfəvi dövlətinin hərbi təşkilatı ilə maraqlanmış və gündəliyində bölgələr üzrə qoşunun sayını göstərmişdir (106, 137-143):

| | |
|---|---|
| Saray qoruyucuları | – 14 000 |
| Qəndəhar əyaləti | – 12 000 |
| Xorasan | – 20 000 |
| Mazandaran və Gilan | – 15 000 |
| Dərbənd və Şirvan əyaləti | – 12 000 |
| Azərbaycan | – 20 000 |
| İrəvan | – 12 000 |
| Luristan | – 12 000 |
| Ərəbistan sərhəddində | – 15 000 |
| Persiya və Kirman | – 12 000 |
| Cəmi: | - 144 000 |

XVI-XVII yüzilliklərin qaynaqlarında, xüsusilə dövrün Avropa ədəbiyyatında ordunun döyüş taktikası, hərbi musiqi və musiqi alətləri haqqında da qiymətli mlumatlar vadır. I Şah İsmayıldan sonra müharibələrdə qarşı tərəfin ordusunun hərəkət istiqamətində otlaqlar, tarlalar yandırılır, yaşayış məskənlərində əhalinin ərzaq ehtiyatı gizlədilir ya da məhv edilirdi. Səfəvi ordusu ilk vaxtlarda olduğu kimi, inam hissi ilə meydan savaşına girmir, süvari alaylar dağ aşırımlarında, keçidlərdə gizlənərək əks tərəfin ordusunun hərəkətini nəzarətdə saxlayır və qəti qələbəyə əmin olduqda çevik dəstələr hərbi əməliyyata başlayırdı. Engelbert Kempfer yazır: «Savaş başladıqda əsgərlərin hamısı birlikdə türk dilində «yürü»! «yürü»! «yürü»! deyərək dəhştli nərələrindən hava titrəyir, səslər bir-birinə qarışır və sanki yerlə göy qovuşur». O, yazır ki, hərbi musiqi alətlərindən İngiltərə şeypurlarına bənzər uzun və qısa, yəni müxtəlif borular üstünlük təşkil edir. Əslində müxtəlif ölçülü bu borular gərənay (qaraney) və zurna (zorney) idi. Hərbi musiqi alətlərindən müxtəlif ölçülü təbil və nağaraların, sincin də adı çəkilir. Engelbert Kempfer yazır ki, onların arasında enli, böyük sinclər də

vardır. İki lövhədən ibarət olan sincin hər iki lövhəsinin dəstəyi vardır ki, həmin dəstəklərdən əllə tutub sinc lövhələri bir-birinə vurulur, nəticədə çox cingiltili səs əmələ gəlir (96, 94, 95).

Azərbaycan Səfəvi dövlətinin ordusu I Şah Abbasın həyata keçirdiyi hərbi islahatlar, yaratdığı yeni hərbi hissələrlə təkmilləşdirilib, möhkəmləndirilmişdi. Ancaq I Şah Abbasdan sonra, yəni onun varislərinin dövründə ordu getdikcə zəifləmiş və Şardenin yazdığı kimi, dövlətin maliyyələşdirdiyi qoşunun sayı da azalmışdır. Ordunun hərbi strukturunun pozulduğunu, sayının azaldığını hiss edən II Şah Abbas 1666-cı ildə qoşunun sayını, hərbi hazırlıq vəziyyətini müəyyənləşdirmək üçün hərbi parad keçirilməsi barədə hərbi rəislərə fərman vermişdi. Bu fərman əsasında təşkil edilən paradda hərbi rəislərin çoxu eyni alayı on-on iki dəfə paraddan keçirmiş və nəticədə ordunun sayı olduğundan çox çıxmış, ciddi nöqsanlar aşkar edilmişdir. Şah ordu başçılarına bu nöqsanları qısa müddətdə aradan qaldırmalarını tapşırdı. Ancaq ordu rəisləri Şahın buyruqlarını yerinə yetirmədilər. Nəticədə Şah Süleyman dövründə ordunun daha da zəifləməsi, ölkə daxili hərbi mühafizə xidmətinin pozulması ilə əlaqədar olaraq, oğurluq, soyğunçuluq, qətl-qarətlə bağlı kütləvi narazılıqlar başlanmışdı. Bu zaman ordunun əsgəri heyəti arasında da hərbi xidmətə etinasızlıq və narazılıqlar vardı. Ona görə ki, bir çox hərbi hissələrin məvacibini hərbi rəislər ancaq müharibə vaxtı ödəyirdilər. Digər tərəfdən isə Şardenin yazdığı kimi, dövlət və Şah tərəfindən xidmət müqabilində hərbçilərə ayrılan maaş ayrı-ayrı məntəqələrə yazılmışdı ki, hərbçi həmin məntəqənin kələntərinə müəyyən «hədiyyə» ödəmədən maaşını ala bilmirdi. Bu da narazılıqlara, hərbi xidmətə marağın azalmasına, nəticədə ordunun pozulmasına səbəb olurdu. Onu da göstərmək lazımdır ki, dövlət və şah tərəfindən əsgərlərə maaşla yanaşı, ancaq silah-sürsat verilirdi. Halbuki illik maaşı 400 livr olan süvari əsgər təkcə paltarına bunun iki misli qədər pul xərcləməli idi (112, c.3., 1197, 1198, 2000).

Əsgəri təşkilatda ləşgərnəvis qazı, vəzir, mustoufi kimi xüsusi hərbi mahiyyət kəsb edən orqanlar da fəaliyyət göstərirdilər. Bu orqanlar hərbi qulluq adamlarını, əsgəri heyəti qeydiyyata alır,

nizam-intizam yaradır və əsgəri təşkilatın maliyyələşdirilməsi məsələləri ilə məşğul olurdu. Ləşgərnəvis qoşunun kargüzarı olub, vəzir vəzifəsinin astanasında durduğu güman edilir (20, 239). «Xolde bərin» də I Şah Təhmasibin dövründə Mirzə Fətullah və İsa bəyin ali divan ləşgərnəvisi olduqlarını görürük (128, 446). «Təzkirət əl-müluk»da ləşgərnəvisin hüquq və vəzifəsi haqqında müfəssəl məlumat vardır. Qaynaqda göstərilir ki, sərhəd əmirləri, hakimləri və sultanların say hesabına dair dəftərlər, yəni onların özlərinin və xidmətlərində olan hərbi qulluq heyətinin siyahısını o saxlayırdı. Bəylərbəyilər, mahal hakimi olan sultanlar, onların mülazimlərinin və ümumiyyətlə, istər mərkəzi və istərsə də yerli idarələrdə əsgəri təşkilatla bağlı olan bütün məmurların mənsəbləri, məvacibləri, həmesaleləri, soyurqallarına aid bütün fərmanlara, hökmlərə o möhür vurur, əsgəri heyətin qulluq fərmanlarını isə birbaşa özü tərtib edir, məvaciblərini də dəftərinə yazıb, yuxarı dövlət idarələrinə təqdim edirdi (132, 41).

XV əsrdə Baharlı və Bayandur sülalələrinin hakimiyyəti illərində olduğu kimi, Səfəvilər dövründə də vilayətlərin ərazisindəki ordunun əsgəri heyəti ilə əlaqədar olan cinayət hadisələrinə qoşun qazısı adlı xüsusi məmurlar baxır və cinayət tərkibli məsələləri onlar həll edirdilər. Qoşunun bütün məvacib cədvəli də onların möhürü ilə təsdiq olunurdu. Qoşun qazısının möhürü olmadan həmin siyahı rəsmi sənəd hesab olunmurdu (132, 3-4). İskəndər bəy Münşi Şah Müzəffərəddin Şirazidən söhbət açarkən yazır ki, o əvvəl Şirazda şeyx ül-islam olub, Sultan Məhəmmədin hakimiyyəti dövründə (1578-1587) saraya gətirilib qoşun qazısı vəzifəsinə təyin edilmişdi. Sultan Məhəmmədin ona xüsusi hörməti vardı. O, II Şah İsmayıl zamanında da qoşun qazısı vəzifəsində olmuşdu (80, 148, 223). Ancaq «Təzkirət əl-müluk»da göstərilir ki, İsfahana sədr təyin ediləndən sonra qərara alındı ki, buradakı qoşunla bağlı şəri işlərə şahın hüzurunda divanbəyi baxsın. Artıq bundan sonra İsfahandakı qoşun qazısının divanbəyi keşikxanasına gəlməsinə icazə verilmədi (132, 3-4).

«Təzkirət əl-müluk»da qorçu vəziri haqqında qeyd edilir ki, səfərdə olan qorçuların xidmətə aid vəsiqələrini və başqa sənədləri,

sipahsalarların və sərdarların qədim mülazimlər barədə yazdıqları vərəqləri yüksək hökumətin alicah vəzirlərinin hökmü və alicah qorçubaşının icazəsindən sonra möhürləyir ki, mərkəzi dəftərxanada qeydiyyata düşüb-çıxmada çətinlik olmasın. Qorçular, yüzbaşılar, qor yasovulları və sairənin hal və vəziyyətinə aid sənədləri də qorçu vəzirləri möhürləyərdilər. Yüzbaşılar, qor yasavulları, yaraq qorçuları və yeni qorçuların qulluq vərəqəsi, vəsiqələri yuxarıda adı çəkilən vəzirlər yanında saxlanılır. Vəzir qorçuların qulluq vəsiqələri, əlavə tiyul və maaş hökmlərini və onların ünvanını da yazırdı. Həm də hökmlər və fərmanlar sırasında məvacib, tiyul, həmesale, ənam, tənxah baratı və onlara aid sənədləri möhürləyərdilər. Vəzir bu idarənin mustoufisi ilə bərabər (padşahın) behiştə bənzər məclisində qorçuların sayını, san vəsiqələrini, tiyul, məvacib, həmesalesinin miqdarını ərz edirdi (132, 36-37). Şah Təhmasibin dövründə Şamlı elinin Ərəbgirli oymağından olan Əliqulu bəy qorçuların vəziri idi. I Şah Abbas hakimiyyətə keçənə qədər o bu vəzifədə qalmışdı. Mirzə Fətulla isə qorçuların mustoufisi idi. Ondan sonra qorçuların vəzirləri bir qayda olaraq bu nəsildən təyin olunurdu (80, 164-165). İskəndər bəy Münşi Türkmanın «Tarix-i aləm arayi Abbasi» əsərində Ərəbgirli əsilzadələrinin fasilələrlə bu vəzifədə olmaları ilə yanaşı, Həmədan əsilzadələrindən Məlik bəyin də qorçu vəziri olması haqqında məlumat vardır. Türk və fars dillərində şeirlər yazan Məlik bəy Həmədanın Əsədabad kəndində anadan olmuş, gənc yaşlarında Xorasanda Abbas Mirzənin sarayında qulluq etmiş və Abbas Mirzə Şah olduqda onu da qorçu mustoufisi təyin etmişdir. Bir qədər sonra Məlik bəy qorçu vəziri olmuşdu. O, 1611-ci ildə vəfat etmişdir (80, 851).

«Təzkirət əl-müluk» qeyd edilir ki, qorçu mustoufisinə tabe olan dörd nəfər mirzə fərdi qulluğa qəbul barədə verilmiş hökmlərin tarixini, məvacib, ənam, tiyul, həmesale, tələb miqdarı, qarovul dəftərini hazırlayırlar ki, burada qarovula üzürsüz səbəbə görə çıxmayanlar və onların buraxdıqları günlərin sayı da göstərilirdi. İdarə vəsiqələri, hazır-qaiblik təsdiqləri, işdən çıxarılma və vəfat vərəqələri mustoufi və onun mirzələrinin dəftərxanasında saxlanılır. Mirzələrin yoxlama yekunları əsasında qulluqdan çıxanların məva-

cibi, qaiblik günləri və səfərdən qayıtma zamanın təfavüt hissəsi, vəfat edənlərin (qanunla) qərarlaşdırılmış həmesale və tiyulları hökumət nəfinə zəbt olunurdu. Qorçuların tələb, tənxah, tiyul və həmesale vəsiqələini, qorçu camaatının tiyul, həmesale, məvacib, barat hökm və fərmanlarını, mülazimlik hökmlərini mirzələr yazırdılar. Bütün sənədlər hazırlandıqdan sonra onlar mustoufinin imza və möhürü ilə təsdiq edildi (132, 37).

«Təzkirət əl-mülük»da qorçularla yanaşı, qulam, tüfəngçi və topçuların da vəzr və mustoufilərinin statuslarının şərhi verilmişdir (132, 38, 39, 40). Faktiki olaraq, qorçu vəzir və mustoufisi kimi, qulam, tüfəngçi və topçu vəzir və mustoufisi də öz idarə səlahiyyətləri çərçivəsində eyni funksiyanı yerinə yetirir, hətta onların işçilərinin sayında ciddi fərq yox idi.

# II FƏSİL

# DİNİ DİVAN

## §1 Dini təsisatlar

Səfəvilər dövlətinin hakimiyyət orqanlarının strukturu, dünyəvi hakimiyyətlə dini idarələrin qarşılıqlı münasibətləri, şəri məhkəmə aparatı və bir çox başqa dini təsisatlar haqqında dövrün yerli qaynaqları və Avropa ədəbiyyatında müfəssəl nəzəri məlumatlar vardır. Məlum olduğu kimi, Səfəvi dövləti teokratik monarxiya kimi meydana gəlmiş və dövlətin başında dayanan Şah qeyri-məhdud hakimiyyətə malik olub, həm dünyəvi, həm də Ərdəbil dərviş ordenin başçısı, yəni mürşid-i kamil statusu ilə dini hakimiyyəti də təmsil edirdi (20, 224). Ancaq islamda dünyəvi və dini hakimiyyətin vəhdəti haqqında mövcud olan müddəaya baxmayaraq Səfəvi dövlətinin mərkəzi hakimiyyət orqanları arasındakı səlahiyyət bölgüsü qaydalarına uyğun olaraq «divan əs-sədara» adı ilə məlum olan xüsusi ali ruhani idarəsi də təsis olunmuşdu. Şarden yazırdı ki, Səfəvi dövlətində ruhanilər böyük ayətullah (hərfi mənada allahın rəmzi mənasını ifadə edən və fiqh məsələlərində müstəqil hökm vermək, qərarlar çıxarmaq hüququna malik olan müctəhidlərin ali rütbəsi anlamında işlənir), hüccətül-islam (hərfi mənada dəlil, sübut və terminoloji mənada isə bütün rəvayətləri, məlumatları bilən ilahiyyatçı), qazı və müftidən (dini-hüquqi məsələlər barədə qərar çıxaran, fitva verən) ibarət olub, mülki və şəri təhqiqatla onlar məşğul olurdular. Ayətullaha müctəhid-e əzəm (hökm vermək, qərar çıxarmaq hüququna malik olan ən nüfuzlu və böyük fəqih), yəni sədr deyirdilər. Bu söz isə ərəbcə olub, bədənin yuxarısı mənasını ifadə edr ki, biz bədənin bu hissəsinə qəlb deyirik. Ancaq ayrılıqda, daha doğrusu, ali rütbə, yüksək məqam və bir istilah kimi «sədrneşin», yəni sədr yerini tutan, yaxud məcazi mənada ən yüksək fəzada, göylərin yeddinci qatında qərar tutan «sidr» ağası kimi, ya da məclisdə başda oturan mənasını anladır. Qəlbin dinin məkanı və qalxanı, yəni qoruyucusu olması insan şüurundan kənar

deyildir. Yerli düşüncəyə görə Osmanlı dövlətindəki müfti ilə müqayisədə Səfəvi ölkəsindəki sədrin hüquq və səlahiyyəti nisbətən geniş idi (112, c.IV, 1335). Şardendən fərqli olaraq Tavernye Osmanlı və Səfəvi dövlətlərinin quruluşunda ali ruhani idarə başçıları, ümumiyyətlə, din xadimlərinin yeri və rolunu nəzəri baxımdan şərh edərək fərqli cəhətlərini aydınlaşdırmağa cəhd göstərmişdir. O, yazır ki, Səfəvi dövlətində etimad əd-dövlə mülki sahədə həm böyük, həm də birinci şəxs olduğu kimi, sədr də dini idarənin başçısıdır. Bu iki dövlətin dini başçıları, ümumiyyətlə üləmaları arasında fərq ondadır ki, Osmanlı din xadimləri başqa zümrələrin tərkibinə keçə bilməzlər, ancaq Səfəvi ölkəsində sədrin etimad əd-dövlə ola bilməsinin qarşısında heç bir maneə yoxdur (104, 588). Bəlkə də, bu elə səyyahın özünün göstərdiyi kimi, Səfəvi dövlətində din xadimlərinin qələm əhli, bilik sahibləri olmasından irəli gəlirdi. Şarden yazır ki, sədr güclü, qüdrətli olub o, dini və hüquqi işlər üzrə hakim, şeyx, həqiqətin qibləgahı, peyğəmbərin xələfi, imamların naibi və birinci xəlifə hesab olunurdu. Səfəvi dövlətində bütün möminlər inanır və hesab edir ki, hakimiyyəti ruhanilər və iman əhlindən qəsb etmişlər. Belə ki, müsəlmanların qanuni hakimləri sədr və başqa din xadimləridir. Onlar öz iddialarını əsaslandırmaq üçün deyirlər ki, həzrət Məhəmməd həm Allahın elçisi, hm də hökmdar idi. Pərvərdigar cəmi müsəlmanların maddi və mənəvi məsəlləri ilə məşğul olmağı ona həvalə etmişdi. Ancaq bir çox adamlar isə hesab edirlər ki, başqa məzhəbdən olan şəxslərin hakimiyyəti dinlə uzlaşmır. Şah, Allahın və peyğəmbərin yer üzündə kölgəsi, həm də canişinidir. O, insanlara doğru yol göstərərək rəhbərlik edir. Ruhanilər, yəni din xadimləri öhdələrində olan işlərlə məşğul olmalı və onlar siyasət, yəni hakimiyyət işlərinə qarışmamalıdırlar (112, c.IV, 1335).

Dövrün qaynaqlarında dini idarənin hüquq və səlahiyyətləri ilə bağlı materialları geniş şəkildə elmi dövriyyəyə cəlb edən V.Minorski dövlətin dini idarə ilə bağlı siyasətini elmi cəhətdən təhlil edərək sədrin «dini divan»ın başçısı olduğunu və ilk vaxtlar onun «sədr mouqufat» adlandığını göstərir (103, 73). Şardenə görə də bu vəzifə iki yerə bölünməmişdən əvvəl dini divanın başçısı sədr

mouqufat adlanırdı. O yazır ki, mouqufa vəqf sözündən əmələ gəlib «başqa yer», «uzaq düşmüş», «dəyanətli» və bir çox başqa mənaları ifadə edir. Dini istilah kimi isə məscid və başqa yerlərə xeyirxah məqsəd üçün verilən ″nəzir″ mənasında işlədilir (112, c.IV, 1337). O.Əfəndiyev qaynaq materiallarına əsaslanaraq yazır ki, ölkə torpaqlarının divan və xassəyə bölünməsinə uyğun olaraq ərazi əlaməti əsasında sədr vəzifəsi də iki şəxs arasında bölünür. Ancaq «Təzkirət əl-müluk»da sədarət vəzifəsinin xassə və amməyə (məmalik) bölünməsinin adi təcrübədən irəli gəldiyi bildirilir (103, 2-3; 20, 223-233).

Şardenin müşahidələrindən və Minorskinin sədr institutu ilə bağlı apardığı təhlillərdən aydın olur ki, Şah Abbas Sani (1642-1666) sədrin nüfuzunu zəiflətmək üçün onu özünə baş vəzir təyin etmiş və sədrin məqamı 17 ay başqa bir vəzifənin rəhbərliyi altında qalmışdı. Şah Süleyman (1666-1694) isə sədrlik vəzifəsini yenə xassə və amməyə böldü. Sədre xassə şahın xalisə əmlakının, sədre ammə isə əmlake ammənin, yəni xassə istisna olmaqla, dövlətin digər inzibati vahidlərinin «dini divana» aid olan işləri ilə məşğul olmalı idilər. Sədr xassə rütbəsinə görə, sədr ammədən üstün idi. Dövlət şurası iclaslarında sədr xassə şahın sol tərəfində, baş vəzir isə sağ tərəfində qərar tuturdu. Sədrlərə bir qayda olaraq şahın «nəvvab»ı deyilir və onlar şah sülaləsindən olan qızlarla evlənirdilər. Zorla islam dini qəbul etdirilmiş xristianın yenidən öz dininə qaytarılmasına da sədr icazə verirdi (103, 74; 106,71).

Tavernyenin diqqətini isə II Şah Abbas və Şah Süleyman dövründə ali ruhani idarəsi ilə bağlı həyata keçirilən tədbirlərin mahiyyəti deyil, onun zahiri tərəfi özünə daha çox cəlb etmişdir. O, yazır ki, sədrlik mənsəbi bir şəxsin əlində cəmlənməklə məhdudlaşmır. Bəzən iki sədrin də olması mümkündür. İranda (Səfəvidə-Z.B.) vəqf əmlakları iki cürdür. Biri «mouquvate səltənəti» və digəri isə «mouqufate motəfəreqe» (qarışıq, pərakəndə)dir. Elə buna görə də bəzən iki nəfər sədr olur. «Mouqufate səltənəti» nin rəisi sədr əl-xassə və digəri isə sədr əl-mouqufat adlanır. 1667-ci ildə şah iki nəfər sədr təyin etmişdir ki, onların hər ikisi onun bacıları ilə evli idi (104, 588).

1683-cü ildə Səfəvi ölkəsinə gələn Sanson sədr xassənin din xadimlərinin başçısı olduğunu, bütün əyalətlərdə, şəhərlərdə onun naiblərinin çalışdığını bildirərək həm də yazırdı ki, yerli hakimlər onların fitvası olmadan heç bir hökm çıxara bilməzdilər. İkinci ruhani şəxsiyyət isə sədr əl-məmalik olub, o, sədr xassənin, yəni ölkə qanunları rəisinin dini məsələlər üzrə müavini idi (106, 56).

Adam Oleari yazır ki, katolik kilsəsində papa kimi Səfəvi ölkəsində də sədr dini başçı olub, şah və qazılar tərəfinən seçilirdi. O, Qurani Kərimlə yanaşı, bütün elmlərə mükəmməl bələd olmalı və istər dini, istərsə də dünyəvi məhkəmələrdə hər bir məsələyə öz fikrini bildirməyi bacarmalı idi. Bəzən hökmlər onun mülahizələri əsasında elan olunurdu. Bir çox məsələlərdə isə özü şəxsən qərar çıxarıb onu möhürlədikdən sonra şaha təqdim edirdi (139, 899). Tavernye sədrin hüquq və vəzifələrini şərh edərək yazır ki, şəriət və qanunlar rəisi olub, məscidlərin vəqf əmlakına və bir çox başqa işlərə baxır. Məscid vəqflərinin gəlirlərini toplayıb vəqfin müəyyən ehtiyacına, özünün bildiyi yerlərə xərcləyir. Ancaq o başqa xərclərdən əvvəl öz haqqını götürürdü. Rütbə və vəzifələrinə görə bərabər olan iki böyük din xadimi də sədrə tabedirlər. Onların biri şeyx əl-islam, digəri qazı adlanır. Şəri işlər bu iki vəzifə arasında bölünüb və yerlərdə sədrə aid məsələlərlə onlar məşğul olur, şəri qanunların yerinə yetirilməsini və s. yoxlayırlar. Onları vəzifəyə Şah təyin edir (104, 588-590).

«Təzkirət əl-müluk»da da sədarət institutu haqqında müfəssəl məlumatlar vardır. Qaynaqda göstərilir ki, şəri hakimlərini, təfvizi vəqflərin (şahın nəzarəti altında idarə edilən vəqflər) mübaşirlərini vəzifəyə sədr təyin edirdi. (Mübaşir - vəqf təsərrüfatıı idarə edən məmur olub, vəqfin illik gəlirini müəyyən edərək onu mouqufat dəftərində qeydiyyata alır, bu gəlirdən həvalələri hazırlayır, vəqf torpaqlarının yenidən əkilməsi üçün vəsait ayırırdı).Seyidlərin ağsaqqalları, üləmalar, müdərrislər, şeyx ül-islamlar, pişnamazlar, qazılar, mütəvəllilər, xeyriyyə müəssisələrinin gözətçiləri, vəqflərin nazirləri, mustoufiləri, mirzələr, ölüyuyanlar, qəbirqazanların ağsaqqalları və başqa işçiləri ona tabe idilər (132, 2). Sədr məscid və vəqf əmlakını idarə edən və bu dini müəssisələrdə çalışan, işçi və

xədəmələrin, müdərrislərin, tələbələrin, vaizlər və başqa din xadimlərinn vəzifə dərəcələrinə görə aylıq məvaciblərini təyin edir, artırır, azaldır, yaxud ləğv edirdi (96, 122). Dövlətin idarə quruluşunda ayrı-ayrı orqanlar arasında səlahiyyət bölgüsünə uyğun olaraq sədr əzəmlə divanbəyi arasında qanunlara uyğun olan qarşılıqlı münasibətlər səyyah gündəlikləri ilə müqayisədə «Təzkirət əl-müluk»da daha aydın şəkildə əks olunmuşdur. Qaynaqda göstərilir ki, divanbəyi səlahiyyətinə aid olan dörd mühüm cinayət hadisəsinə sədr əzəmin iştirakı olmadan baxıla blməzdi. Ancaq bu cinayət hadisələri ilə əlaqədar olaraq başqa şəri hakimlərin, hətta sədr əl-məmalikin də divanbəyinin işinə qarışmağa səlahiyyətləri yoxudu. Qeyd olunan cinayət hadisələri ilə bağlı məhkəmə iclasları hər həftənin şənbə və bazar günləri sarayın keşikxnasında təşkil olunurdu (132, 2) Məmaliki məhrusədə (qorunan ölkələr) Azərbaycan, Fars, İraq, Xorasanın mahallarına, şəhərlərinə şəri hakimləri və buradakı məqbərələrə, mədrəsələrə, məscidlərə mübaşiləri sədr əl-məmalik, xassə ərazsinə daxil olan mahal və şəhərlərin şəri hakimlərini, müqəddəs məkan işçilərini isə sədr xassə təyin edirdi. Ümumiyyətlə, ölkə miqyasında təfvizi vəqflərə qulluqçuların təyin olunması, yaxud onların işdən azad edilməsi sədrlərin səlahiyyətlərinə aid idi. Ancaq şəri vəqflərin işlərinə nə sədr xassə, nə də sədr ammənin qarışmağa səlahiyyətləri yox idi. Ona görə ki, əmlakın şəri qanunlar əsasında vəqf edən şəxs həmin vəqfin mütəvəllisini özü müəyyən etdikdə, onun dəyişdirilməsi müqəddəs şəriətə zidd hesab olunurdu (132, 2-3). «Təzkirət əl-müluk»da da sədr ammə və xassənin bəzən bir nəfərə həvalə edildiyi göstərilmişdir (132, 2-3).

Səfəvi dövlətində şəriət məhkəmələrində sədrlərin rolu, mövcud hüquq normaları və onların prinsip və qaydaları da Şardenin diqqətini özünə cəlb etmiş və o, səyahətnaməsində bu problemləri şərh etməyə çalışmışdır. Səyyah yazır ki, sədrlər bütün ruhani cəmiyyətinin həm maddi, həm də mənəvi hakimləridirlər. Quran ehkamlarından heç bir qanun mötəbər olmamışdır. On iki imamın ki, atalarından sonra övladları imam olaraq imaməti yaratdılar, onlar həm də Quranı təfsir etdilər. Nəticədə bu təfsirə fiqh, yəni islam hüququ adı verildi ki, bu qanunlar həm dini və həm

də mülki hökmləri özündə birləşdirən qanunlar məcmuəsini təşkil edir. Başqa sözlə ölkənin mülki və dini qanunları qarışmış, onlar ayrılıqda mövcud deyildirlər (112, c.IV, 1336). Elə buna görə də, demək olar ki, sədrlər bütün mənəvi məsələlər üzrə mühakimə aparmaqda tam sərbəst olub ixtiyar sahibidirdər. Həmçinin bütün vəqfləri idarə edənlərin fəaliyyətlərinə, onların vəqf gəlirlərini düzgün xərcləmələrinə nəzarət edir və əslində onların başçısı olub, həm də bu sahə üzrə cavabdehdirlər. Sədrlərin vəqf əmlakı ilə birbaşa əlaqələri yox idi. Ancaq maliyyə divanı vəqflərin idarəsi və gəlirlərinin bölgüsü məsələləri ilə bağlı işinə qarışırdı. Ona görə ki, hər şeydən əvvəl vəqflərin ixtiyarı şahın əlində olub, sədr əslində bu əmlakı şahın naibi kimi idarə edirdi. Demək olar ki, şahın vəqflərin ixtiyarını tam öz əlinə alması narazılıq və qaydasızlıqlar da yaratmışdı. Belə ki, vəqflərinin bir qisminin idarə olunması bu əmlak növünə hədiyyə verənlərə həvalə edilirdi (112, c.IV, 1336). Səfəvilər dövründə də bir çox hallarda əmlakının hamısını, yaxud bir hissəsini vəqf edən şəxs mütəvəllilik vəzifəsini irsi olaraq özündə saxlamış, ya da qohumlarından birinə tapşırmışdı. Bu qəbil əmlakın gəliri ilk növbədə onu vəqf etmiş şəxsin özünə və ya onun müəyyən etdiyi mütəvəlliyə verilir, yəni onun nəzarəti altında vəqfnamədə nəzərdə tutulan məqsədlər üçün sərf olunurdu. Vəqf əmlakının gəlirinin onda bir hissəsi isə vəqfin başçısı olan mütəvəlliyə touliyyət haqqı adı ilə məvacib müqabilində verilirdi (45, 41). Bir çox hallarda vəqflərin gəliri vəqfnamədə nəzərdə tutulan qaydalar əsasında bölünür və vəqflə bağlı şəxslər tərəfindən mənimsənilirdi ki, bu da müəyyən narazılıqlara səbəb olurdu. Vəqf əmlakı ilə bağlı narazılıqları aradan götürmək üçün Şardenin qeyd etdiyi kimi Şah Abbas Sani yersiz touliyyət verilməsini dayandıraraq narazılıqların qarşısını qismən aldı. Belə ki, Şah sədrin nüfuz və qüdrətinin də vəqflərin idarə işləri ilə uzlaşmadığına görə bu məqamın ləğv edilməsini qərara aldı. Bu məqsədlə sədrin vəfatına on dörd ay qalmış sarayda sədr əzəm vəzifəsini özü ələ aldı və praktiki olaraq bu məqam ləğv olundu. Ancaq oğlu hakimiyyətə keçdikdə atasının siyasətini davam etdirməmiş və sədrin vəzifəsini iki yerə bölməklə faktiki olaraq iki sədrə tapşırmışdı. Belə ki, dövlətin xalisə əmla-

kının idarə işləri üzrə cavabdeh sədr xassə oldu. Sədr amməyə isə müxtəlif adamlar tərəfindən hədiyyə edilən vəqflərin idarə işləri tapşırıldı. Əslində bu bölgü Sədarət divanın nüfuz və qüdrətini xeyli azaltdı (112, c.IV, 1336).

Hər iki sədrin ayrıca dəftər və məhkəməsi vardı. Doğrudur onların hər ikisinin məqamı bərabər olsa da, sədr xassə şahlıq vəqflərinə həm cavabdeh, həm də onların başçısı olub, cah-cəlallı idarə quruluşuna malik idi. Dövlətin bütün böyükləri sırasında o ikinci yerdə dururdu. Bütün rəsmi məclislərdə şahın sol tərəfində əyləşir və sədr ammə onun əlinin altında qərar tuturdu. Sədr ammənin yeri isə şahın sağ tərəfində idi. Onların hər ikisi bütün məclislərdə iştirak edirdi, ancaq bir qayda olaraq çox qalmırdılar. Nə vaxt ki, şah məclisə şərab, ya da musiqi alətlərinin gətirilməsi haqqında buyruq verəndə, onlar dərhal məclisi tərk edirdilər. Ona görə ki, islam dinində şərab içmək və musiqiyə qulaq asmaq haram idi. Elə buna görə də onlar məclisdə çox qaldıqda şahın göstərişi ilə şərab içmək də təxirə salınır, ya da başqa vaxta saxlanılırdı (112, c.IV, 1337).

Qeyd edildiyi kimi, sədr şəri-hüquqi məsələləri heç kəsin iştirakı olmadan həll edirdi. Onun çıxartdığı hökmə başqa məhkəmə etraz edə, yaxud yenidən baxa bilməzdi. Onun hökmləri başqa məhkəmə orqanları tərəfindən də sözsüz qəbul olunurdu. Dövlət məmurları da onun işinə qarışa bilməzdi. Ali dini idarələrə ruhanilərin işə qəbulunu və işdən azad edilməsini də sədr həll edirdi. O, eyni zamanda mədrəsə, xanəgah və sair müqəddəs binaların təmirinə də nəzarət edirdi (96, 121-122; 94, v.26).

Şeyx ül-islamlar, qazılar, mütəvəllilər, müdərrislər, nəqiblər də sədrin hökmü və Şahın fərmanı ilə işə qəbul və işdən azad edilirdi (132, 47). Xandəmir yazır: «Ölkə əhalisinin «ən hörmətli və yüksək» zümrəsi olan din xadimləri öz ehtiyaclarını ödəmək üçün başqa idarələrə deyil, məhz sədrə müraciət edirdilər» (94, v.25). Sədr hətta ölkə üçün ümumi qanun da tərtib edirdi ki, bu qanun da bütün ölkədə icra olunurdu. Mir Zeynəddin Seyidəli H.963-cü (1555-56) ildə sədrlik vəzifəsinə keçdikdən sonra mülki, hərbi, şəri məsələlərinə dair, o cümlədən, vergi və mükəlləfiyyətlərin, cərimə-

lərin miqdarı, alınma üsuluna aid qanunnamə tərtib etmişdi. Həmin qanunnamə «dəstur əl-əməl» 1026 (1617)-ci ilə, yəni Fəzli İsfahani öz əsərini yazıb qurtaran vaxta kimi qüvvədə olmuşdu (118, v.212).

Əvvəl qeyd olunduğu kimi, ai ruhani idarəsinin başçısı sədr-i xassə olub, sədr-i əl-məmalik isə onun müavini və ürfi-şəri məhkəmələrin rəisi idi. O, divanbəyiyə Quran ehkamı və qanunlarına müvafiq şəri hökm çıxarmaqda istiqamət verirdi. Həm də cinayət məsələlərinə dair öz fikir və rəyini bildirir, ancaq divanbəyi ilə bu barədə ümumi qərara gəlirdi. Divanbəyi mülki və cinayət məsələlərində hökm çıxararkən yalnız sədr əl-məmalikin rəyini əsas götürürdü. Sədr əl-məmalikin bütün vilayət və şəhərlərdə müavinləri də vardı. Onlara naib əl-sədarə (sədrin naibi) deyilirdi. Sədr əl-məmalik divanbəyi ilə həmkarlıq etdiyi halda, naib əl-sədarələr vilayət hakimləri ilə həmkarlıq edirdi (106, 40-41).

Əgər biz sədr-i xassəni ölkənin qanunvericilik orqanının rəisi, sədr əl-məmaliki isə həmin qanunların icrası üzərində nəzarətçi orqan hesab etsək, yəqin ki, səhv etmərik. Ancaq deyildiyi kimi, ölkədə ən böyük ruhani şəxsiyyət sədr-i xassə idi. O, ölkənin bütün ruhanilərinin rəisi olduğuna görə, hətta şahlar onlardan qız alır və qohumluq əlaqələri yaradırdı. Əslində sədr əl-məmaliki vəzifəyə Şahın razılığı əsasında sədr xassə təyin edirdi. Ancaq buna baxmayaraq ölkədə xassə əraziləri istisna olmaqla, divan ərazisinin şəri-hüquqi işlərinə sədr əl-məmalik başçılıq edirdi. Hər iki sədr «nəvvab», yəni Şahın naibi adlandırılırdı. Sədr əl-məmalikin bütün vilayət və şəhərlərdə müavinləri olduğu kimi, sədr-i xassənin də məscid rəisləri, mədrəsə müdərrisəri kimi müavinləri var idi. Əyalət hakimləri onların fitvası olmadan heç bir hökm çıxara bilməzdi. Məscid işçiləri, müdərrislər, bir sözlə, dini işlərlə məşğul olan bütün şəxslər sədr xassənin yerlərdə nümayəndələri hesab olunurdu. Onların hamısını sədr-i xassə təyin edir və bu iş sədrə çoxlu gəlir gətirirdi (106, 40).

Sanson yazır ki, mənim sədr-i xassə ilə sədr-i əl-məmalik arasında müəyyən etdiyim fərq təkcə ondan ibarətdir ki, sədr-i xassə dövlət qanunlarının rəisi olub, sədr əl-məmalik isə onun dini və məzhəbi məsələlər üzrə müavinidir (106, 40).

Yuxarıda sədr əl-məmalik ilə sədr-i xassənin konkret vəzifə və hüquqları barədə müəyyən qədər danışılıb. Lakin bildirməliyik ki, tarixi ədəbiyyatda indiyə qədər bu iki sədrin hüquq və vəzifələri barədə kifayət qədər məlumat verilməmişdir. Onların vilayətlərdə nümayəndələri olması barədə də ədəbiyyatlarda lazımi məlumat yoxdur. Halbuki sədr-i xassənin nümayəndələri xassə ərazilərində, sədr əl-məmalikin nümayəndələri isə xassə olmayan yerlərdə dini məsələlərə rəhbərlik edirdi (132, 47).

Bu iki böyük vəzifə bir sədrə tapşırıldıqda o, bu vaxt vəqf işləri, mütəvəllilər üzərində nəzarət etməklə yanaşı, seydləri, ruhani şəxsləri, pişnamazları, xətibləri, azançıları, həffazı (Quranı əzbərən oxuyanlar), ölü yuyanları, bir  sözlə, dini məsələlərlə bağlı bütün işçiləri təyin etməklə bərabər, həm də onların işinə nəzarət edirdi (97, №3, 66).

Şah İsmayılın hakimiyyətinin ilk illərində, yəni h.907-ci (1501) ildə Qazi Şəmsəddin Gilani sədr təyin edilmişdi (128, 123; 117, v.215a). H.909-cu (1503-1504) ildə dövlət şurasında qəbul edilən qərara əsasən Qazi Məhəmməd Kaşi sədrlik vəzifəsində Mövlana Şəmsəddin Gilani ilə şərik olur (128, 135; 138, 397; 108, 38).  Bizcə sədr-i xassə və sədr-i ammə arasında iş bölgüsü bu vaxtdan əmələ gəlir. Yəni onlardan birinə xassə, digərinə isə xassə olmayan yerlərdə dini məsələlərə başçılıq etmək tapşırılır (120, 266). Xondəmir 1501-ci il hadisələri barədə danışarkən Əmir Şərəf əd-dinin Fars əyalətinə ayrıca sədr təyin olunduğunu bildirir (88, c.IV, 500). H.915-ci (1509-1510) ildə Qazi Məhəmməd Kaşi əmarət ilə sədrlik vəzifəsini eyni vaxtda apararaq xalqa zülm edir, müxtəlif vasitələrlə müsəlmanların mallarını əllərindən alırdı. Yəzdə, Kaşana, Şiraza isə hakimlik edirdi. Həmin ilin səfər ayında (may, 1509) Şah İsmayılın fərmanı ilə o, öldürülür və sədrlik vəzifəsi şəriksiz Mir Seyid Şərif Şiraziyə həvalə edilir (128, 176-177, 315; 138, 407; 95, v.14a). Qazi Əhməd Qaffari yazır ki, Şah İsmayıl sədrlik vəzifəsini Mir Seyid Şərif ibn Tacəddinə verdiyi vaxtdan indiyə qədər həmin vəzifəyə yalnız seyidlər nəslindən olan şəxslər təyin olunur (120, 272). Çaldıran savaşından sonra sədarət Təbriz seyidlərindən Seyid Abdullah Laleyi Təbriziyə tarşırılmışdı. Həsən

bəy Rumluya görə Seyid Abdullah Təbrizin böyük seyidlərindən idi (77, 150; 28, 49; 128, 242, 243). H.930-cu (1524) ildə sədrlik vəzifəsi yenidən şərikli halda Mir Qəvaməddin Hüseyin Nəqib İsfahani ilə Əmir Cəmaləddin Məhəmməd Astrabadiyə tapşırılır (128, 326; 77, 184; 28, 54, 59).

Ümumiyyətlə, I Şah İsmayılın hakimiyyəti dövründə sədr, istərsə də digər məmurlar tez-tez dəyişdirilirdi. Bu, bizim fikrimizcə Azərbaycan Səfəvi dövlətinin möhkəmləndirilməsi məsələsi ilə əlaqədar idi.

1524-cü ildə Mir Cəmaləddin Məhəmməd sədr təyin edildi. H. 935 (1529)-ci ildə isə Mir Nemətulla Hilli və Əmir Qəvaməddin Hüseyin ortaq sədr oldular (77, 224; 108, 60). İkinci 1530-cu ildə vəfat edir və Mir Nemətulla sədrlikdə Mir Qiyasəddin Mənsurla şərik oldu (77, 234; 108, 60).

Həsən bəy Rumlunun məlumatına görə, 1532-ci ildə Mir Qiyasəddin Mənsur sədr vəzifəsindən azad edilir və onun yerinə əmir Müizəddin Məhəmməd İsfahani təyin edilir (77, 244). O, 1537-ci ildə tutduğu vəzifədən azad edilmiş sədr vəzifəsi Şüştər seyidlərindən Mir Əsədulla Mərəşiyə verilmişdi (77, 278).

H.970-ci il zilhiccə ayının əvvəllərində (1563-cü il iyulun ortaları) Əmir Tağıəddin sədr vəzifəsindən azad edildi, sədrlik vəzifəsi mahal üzrə iki şəxsə - İraq, Fars, Xuzistan, Astrabad məşhur seyidlərdən olan Mir Məhəmməd Yusifə, həmin ilin zilhiccə ayının ikinci on günlüyündə Xorasan, Azərbaycan, Şirvan keçmiş sədr Əmir Şəmsəddin Əsədulla Mərəşinin oğlu Mir Zeynəddin Seyid Əliyə tapşırılır (77, 319; 120, 308; 85, v.329a; 156, 261). Əbdi bəy Şirazi yazır ki, 1568-ci ildə Mir Seyid Əli Şüştəri ilə Mir Məhəmməd Yusif vəzifədən azad edilib, şərik olmaqdan da xilas oldular (28, 125). Ancaq Əbdi bəy Şirazinin göstərdiyi kimi, adları çəkilən sədrlər vəzifədə şərik olmayıb, tutduqları vəzifəni mahal üzrə icra etmişdilər. Bu halda vəzifə ərazi əlaməti, yəni divan və xassə üzrə deyil, sadəcə olaraq mahal üzrə bölünürdü. 1568-ci ildə sədr vəzifəsi Qiyasəddin Mir Miran ibn Əmir Muizəddin Məhəmməd Nəqib İsfahani Mir Miraniyə həvalə edilir (28, 125). Ondan sonra ali sədr Mir Əbuvəli Əncəvi olur. 1587-ci ildə dövrün

məşhur seyidlərindən olan Mir Əbuvəli Əncəvi ali sədr vəzifəsindən azad edilir və yerinə Seyid Mirzə Bürhan Seyfi Hüseyni Qəzvinin oğlu Qazi xan sədre müəzzəm mənsəbinə təyin olunur (80, 719, 863). 1619-cu ildə Qazi xan Seyfi əl-Hüseyni tutduğu vəzifədən azad edilir və bu vəzifəyə Rezəvi məqbərəsinin mütəvəllisi, Musəvi Torbət Heydəriyyə seyidlərindən olan Qazi Sultan Torbəti təyin edilir (80, 928). Sədr Mir Cəmaləddinin qardaşı oğlu və Səfəvilərə qohum olan Mirzə Rəzi I Şah Abbasın «on dörd məsumə» vəqf etdiyi əmlakın mütəvəllisi, möhürdar və həm də sədr təyin edilir ki, artıq onun sonuncu vəzifəsi divan ül-sədarədə sədr-e xassəyə uyğun gəlir. Onun mənsəbi Şahın qızından olan oğlu Mir Sədrəddinə tapşırılır. Bu zaman Qazi xanın yerinə Rezəviyə, yəni nurani asitanənin feyzəsərli idarəsinə mütəvəlli təyin edilmiş və Mazandaran seyidlərindən olan Mirzə Rəfi Şəhristani bir müddət sədr olmuş, 1625-ci ildə vəfat etmişdir. Onun yerinə məşhur seyidlərdən olan Mir Şücaəddin sədr olmuşdur (80, 1089-1090). 1632-ci ildə sədr vəzifəsinə dövrün məşhur seyidlərindən Seyid Hüseyn Müctəhid oğlu Mirzə Məhəmməd təyin edilmişdi. O, I Şah Abbasın dövründə vəqiyənəvis vəzifəsində işləmişdi (130, 84). "Abbasnamə"nin verdiyi məlumatlardan aydın olur ki, II Şah Abbasın dövründə də dini divana rəhbərlik etmiş sədrlərdən Mirzə Həbibulla, onun oğlu Mirzə Məhəmməd Mehdi , Mirzə Qəvaməddin zamanın məşhur seyidlərindən olub, həm də şahlıq sülaləsi ilə qohumluq əlaqələri vardı. (125a, 21, 51, 110)

Qeyd olunanlardan göründüyü kimi sədr vəzifəsi I Şah Abbasa kimi, onun da dövründə və ondan da sonra dövrünün adlı-sanlı seyidlərinə tapşırılırdı. Bu barədə İskəndər bəy Münşi yazır: «Bu vəzifə fazil, yüksək dərəcəli və təmiz seyidlərdən başqa digərlərinə verilmir» (80, 144). Həm də sədr vəzifəyə təyin edilən seyidlər Səfəvi Şahlıq sülaləsindən qız alır və qohum olurdular. Göründüyü kimi, onlar fars ünsürü deyildilər. Engelbert Kempfer yazır ki, Şah 1670-ci ildə sədr vəzifəsini iki nəfər arasında böldü ki, onlardan biri qohumu, digəri isə kürəkəni idi (96, 122).

Ali ruhani idarəsində müxtəlif vəzifələrdə çalışan yüksək rütbəli din xadimləri, sədrlər əsasən seyid nəslinə mənsub olub bir

çoxu isə Səfəvi Şahlıq sülaləsinə qohum olduqlarına görə onları fars ünsürü hesab etmək doğru deyildir. Məhəmməd Yusif Qəzviniyə görə yüksək dərəcəli seyidlər Məşhəd, Səbzəvar, Astrabad, Qum, Ərdəbil və Təbrizdə məskun idi (128, 399).

Qeyd etmək lazımdır ki, mənbələrdə ali ruhani idarəsinin başçısı olan sədrlərdən ətraflı bəhs edildiyi halda, əyalət sədrləri haqqında çox az məlumat vardır. Alman alimi Röhbörn də qeyd edir ki, qaynaqlarda Şah İsmayıl dövründə yalnız Xorasan sədrinin, Şah Təhmasibin dövründə isə Şəki və Şirvan, Gilan sədrinin adı çəkilir. Onun fikrincə bu məsələ qaynaqlarda sədr ilə şeyx ül-islam terminlərinin sinonim kimi işlənməsi ilə əlaqədardır (100, 109).

Əslində onun bu fikiri ilə razılaşmaq olmaz. Ona görə ki, sədrlik vəzifəsi ilə şeyx ül-islam vəzifələri və onların hüquqları arasında çox fərq var idi. Digər tərəfdən şeyx ül-islamın özünü də sədr təyin edirdi. Şah Təhmasibin H.961-ci il ramazan (iyul 1554) tarixli fərmanı Azərbaycana sədrlərin təyinatı məsələsini öyrənmək üçün mühüm fakt kimi qəbul oluna bilər. Həmin fərmandan aydın olur ki, qeyd olunan tarixdən qabaq Şirvan və Şəki ölkəsinin sədri Əmir Əbdürrəzzaq idi. Bu fərmanda Əmir Əbdürrəzzaqın Şəki və Şirvanda sədr vəzifəsində qalması təsdiq edilir. Fərmanda deyilir: «…onun və nümayəndələrinin ixtiyaratını qüvvətli və qəti bilib, onun sədrlik haqqı pullarını qayda üzrə çatdırsınlar. Oranın (Şirvan və Şəkinin – Z.B.) baş və kiçik qazılarının vəzifədən götürülməsi və vəzifəyə təyin olunmasını məzkur sədrin işinə aid olduğunu bilsinlər. Abdulla xan (Şirvan bəylərbəyi – Z.B.) bu sahədə tam yardım və xeyirxahlıq göstərsin və hər il yeni hökm tələb etməsin» . Digər fərmanda başqa bir məsələ də aydınlaşır. Bu da ondan ibarətdir ki, Şah Təhmasib h.957-ci il ramazan ayında (sentyabr, 1550) fərman vermiş və həmin fərman əsasında Mir Sultan ləqəbi almış Əbdürrəzzaq h.957-ci ilə qədər yalnız Şirvan əyalətinin sədri olmuş, h.957-ci il fərmanı əsasında o, həm də Şəkiyə sədr təyin edilmişdir (46, 65-66, 121-122, 124). Fərmanda sədrin vəzifəsi və hüquqları da müəyyən dərəcədə öz əksini tapmışdır. Orada deyilir ki, həmin məmləkətin bütün qazıları, möhtəsibləri, şəri işlə məşğul olan məsul işçiləri ona itaət edib, onun hökmü ilə işdən çıxarılıb işə

qəbul oluna bilər. Bütün şəri işlərə o rəhbərlik etməlidir. Əmirlər, hakimlər, darğalar, vəzirlər, vəkillər və sair mülazimlərdən bir nəfər də sədrə aid olan işlərə qarışmasınlar (46, 121-122).

Gilan Şah Təhmasib tərəfindən ələ keçirildikdən sonra bura Mərəşi Gilani sədr təyin edilmişdir ki, o əvvəllər qoşun qazısı vəzifəsində olmuşdur (80, 146).

İ.P.Petruşevski də vilayətlərdə sədrlərin olması barədə məlumat vermişdir. O yazır: «Hər bir vilayətdə (bəylərbəyilikdə) sədr var idi. O, vəqf əmlakına baxmaqla, dövlətin baş sədr divanına-sədrlər-sədrinə (sədr əs-südur) tabe idi» (181, 118; 162, 73).

Şarden yazır ki, dini və məhkəmə məsələləri üzrə üçüncü şəxsiyyət şeyx ül-islam idi. Bu istilah iki ərəb sözü olan «şeyx» və «islam»dan ibarət idi. Şeyx ruhanilərin rəisləri, qəbilə və tayfaların böyükləri mənasında işlənən titul olub, islam isə təslim, təmkin, hörmət mənasında Allahın hökm və əmrlərinə təmiz etiqadla əməl etməkdir. Bu söz saf və din yerinə də işlənir ki, əslində hər ikisi eyni mənanı kəsb edir (112, c.IV, 1337).

Şardenə görə şeyx ül-islam bütün mülki iddialar, mübahisələr üzrə hakim idi və onun mülki məcəlləsi də vardı. Hansı ölkələrdə ki, islam dini pirvanları digər dinlərin pirvanlarından çoxdur, o ölkələrdə qazi birinci hakimdir. Necə ki, Osmanlı dövlətində də bu cürdür. Ancaq şeyx ül-islam mərtəbəsinə sahib olanlar sarayda o qədər etibar və nüfuz qazanmışlar ki, hər cür təhqiqatla onlar məşğul olur və artıq onlar qazılardan nüfuzludurlar. Onların hökmləri qanuni olub, daha mötəbər hesab edilir (112, c.IV, 1337-1338). «Təzkirət əl-müluk»da da göstərilir ki, şeyx ül-islamlar öz evlərində şəri mübahisəli məsələlərə baxır, insanları pis əməllərdən daşındırıb onları doğru yola dəvət edirdi. Şəri təlağ onun iştirakı ilə verilir, itkin və yetimlərin zəbt olunan mallarının taleyi ilə də o, məşğul olurdu. Sonradan bu iş qazıya tapşırılmışdı (132, 3).

Tavernye isə rütbə, məqam və qüdrətinə görə qazının şeyx ül-islamdan fərqlənmədiyini və onların hər ikisinin sədrə tabe olduqlarını, şəri məsələlərin onların arasında bölündüyünü, sədrin bütün göstərişlərinin onlar tərəfindən icra olunduğunu bildirmişdir. Tavernyenin bu məlumatları hüquq və səlahiyyət baxımından bu iki

vəzifə arasında ciddi fərq olmadığını ortaya çıxarır. O cümlədən Tavernyeyə görə şahın fərmanı ilə ölkənin əsas şəhərlərinin hamısına qazı və şeyx ül-islamlar təyin edilir ki, onlar bu şəhərlərdə dini və mülki məsələlərlə məşğul olurdular (104, 589). Cemelli Kareri isə yazır ki, sədrin qazı və şeyx ül-islam adlı iki naibi vardır ki, onların hər ikisi həmkarlıq edir, yəni nigah, boşanma, alqı-satqı üzrə qəbalə və sənədləri birgə hazırlayıb icrası ilə məşğul olurdular (89, 129).

Şardenə görə Səfəvi ölkəsində məhkəmə işləri qeyri-müəyyən olub, ancaq mövcud olan qaydaya görə hökmlərdə hədsiz dərəcədə ziddiyyət və ixtilaf baş vermirdi. Ona görə ki, qazıların bu işlə bağlı olan həmkarlarından etibarları, şöhrətləri az olub onların ardınca getməyə məcburdurlar və hara çəksələr də, ora gekdirlər. Onların məqsədi nöqsanları aradan qaldırmaq deyil, bəlkə də qanun-qaydanı pozan əsas amillərin özləri onların nüfuzuna tabedir. Təbii olaraq sədrlər onları özləri ilə eyni nüfuzda görmək istəmir və çalışırlar ki, bu sahədə bütün işləri özləri rəhbərlik edərək həll edib, böyük uğur əldə edə bilsinlər. Digər tərəfdən dini və mülki təzadlar olduğuna və onlar qarşı-qarşıya durduğuna görə hüququn bu iki sahəsi biri-digərinin işinə qarışır. Belə ki, şeyx ül-islamla qazının arasında bəzi məsələlərdə qarşıdurma, yəni toqquşma da olur. Halbuki, onların hər ikisi dini məsələlər üzrə cavabdeh olub, bu gün onların hər ikisi mülki mübahisəli işlərə baxırlar (112, c.IV, 1338). İ.P.Petruşevski dünyəvi problemlərin dini qanunvericilik əsasında həll olunmasını nəzərə alaraq yazırdı: «Müsəlman ölkələrində hətta alqı-satqı, torpaq və ev icarəsi, pul borcu haqqında müqavilələr və s. də ruhani hakimlər olan qazıların yanında bağlanılırdı» (185, 147). Müsəlman hüququnun da daxil olduğu şəriətdə təsərrüfat, əxlaq normaları, mərasimlər, bayramları tənzim edən qanunlar, bütün müsəlmanların həyat tərzini tənzim edən müddəalar sistem halında birləşmişdir. Şəriət və müsəlman hüququnun əsas qaynaqları Quran, sünnə, qiyas (bənzətmə), icma (ortaq rəylər), fitva və adətdən ibarət idi (30, 34). Şəriət haqqında mükəmməl məlumatlara sahib olan Şarden də yazırdı ki, şeyx ül-islam və qazi öz işlərində Quranı əsas götürürlər. Onlar insanlara şərh edir və onlara başa salırlar ki, bütün qanunların

qaynağı yalnız Qurandır. Quran fürqandır, yəni yaxşını pisdən və düzü əyridən ayırıb müəyyən edir. Ancaq səmavi kitab olan Quranı yalnız din xadimləri təfsir edib, onu dərk edə bilərlər (112, c.IV, 1338). Belə bir təsəvvürlə də sədrlər və müctəhid-i əzəmlər ciddi şəkildə çalışırlar ki, bütün mülki məhkəmə proseslərini özlərinin məhkəmələrində aparsınlar və heç kəs onlardan digər məhkəməyə şikayət verə bilməsin. Ancaq divanbəyi  və ali divan yüksək səlahiyyətli orqan olduqlarına görə yalnız onların apelyasiya hüququ vardı (112, c.IV, 1338).

Şardenin yazdığına görə əski çağlarda mülki mübahisəli məsələlərə ancaq qazı hakimlik etmiş və Osmanlı ölkəsində müfti, böyük fəqihlərin bu işlərdə hüquq və səlahiyyətləri çox böyük olmuşdur. Ancaq Səfəvi ölkəsində zaman keçdikcə onların səlahiyyətləri azalmış və sədrlərin, şeyx ül-islamların nüfuzu artmışdır (112, c.IV, 1338). «Təzkirət əl-müluk»da da şeyx ül-islamın qazıya nisbətən səlahiyyətlərinin daha geniş olmasına işarələr vardır. Ancaq qaynaqda bu məsələlərlə bağlı məlumatların təhlilindən aydın olur ki, Səfəvi dövlətinin mərkəzi olan İsfahan şəhər qazısı təxminən şeyx ül-islamla eyni statusa malik olmuşdur. Belə ki, qaynaqda göstərilir ki, İsfahan qazısı cümə istisna olmaqla hər gün şəri qanunlar əsasında mübahisəli məsələlərə baxırdı. Qazı Şeyx Cəfərdən sonra itkin və yetimlərin malı ilə yalnız İsfahan qazısı məşğul olurdu.Qazının mübahisələrə aid şəri hökmlərini divan qulluqçuları dərhal icra edir və zərər çəkmiş şəxsin haqqı təmin olunurdu (132, 3).

Şarden yazır ki, Səfəvi dövlətinin təbəələri öz məzhəblərinə çox möhkəm bağlı olurdular və bütün məsələlərdə dinin buyurduğu yolla gedir, evlənib-boşandıqda qazıya müraciət edirdilər (112, c.IV, 1339). Cemelli Kareri də yazırdı ki, ərlə arvad boşanmaq istədikdə onların hər ikisi hüquq və qanun üzrə doktor olan şeyx ül-islam, yaxud da qazının yanına gedirdilər. Boşanma haqqında tərəflərin təklifləri əsasında onların nigahını qazı, yaxud şeyx ül-islam ləğv edirdi (89, 133). Bu fakt əslində onların hər ikisinin məhkəməsində eyni məsələlərə bərabər hüquqlarla baxıldığını və aralarında ciddi səlahiyyət bölgüsü olmadığını bildirir. Şarden səyahətnaməsində qeyd edir ki, şəri məsələlər üzrə cavabdeh olanlar

və münsiflər hazırlıqlı olub, bu sahədə cəmiyyətin qalan fərdlərini özlərinə cəlb edə bilirdilər. Elə buna görə, demək istəyirəm ki, nəzəri cəhətdən həlli mümkün olan ixtilaflar iki nəfər arasında aydınlaşdırılırdı ki, bu məsələ qazının vəzifəsinə aid idi. Həmçinin hüquq normaları və mülkiyyət məsələləri üzrə olan hadisələr barədə hakimlik edərək rəy vermək bu iki nəfərin qanuni vəzifə borcuna aid məsələlər idi (112, c.IV, 1339).

Şardenə görə Osmanlı imperatorluğunda müfti böyük nüfuz sahibi olub dini məsələlər üzərində onun güclü nəzarəti vardı. Səfəvi ölkəsində isə o, daha çox mülki işlərlə bağlı olduğuna görə yüksək mövqeyə və rütbəyə sahib idi. Müfti sözü Allahın rəyi, mühakimə hüququ və müjdəçi mənasında olub, onun da hökmü qəti olurdu. Müftinin əsas xüsusiyyətlərindən biri o idi ki, o, dini suallara qəti cavablar verirdi. Başqa sözlə dini mübahisələrə dair çətin məsələlərin, yəni bütün mənəvi, o cümlədən böyük günahlara dair cəzaların həlli onun səlahiyyətinə aid idi (112, c.IV, 1339).

Şardenin səyahətnaməsində müsəlman dini-hüquqi məktəbləri ilə bağlı məlumatlara da təsadüf edilir. O bu məsələnin zahiri tərəfinə daha çox diqqət verərək yazır ki, müsəlmanlar əbədiyyətə qovuşmuş rəhbərlərini iki qola bölmüşlər ki, bu iki şöbə əsasən Səfəvi və Osmanlı ölkələrində mövcuddur (112, c.IV, 1339). Əslində bu iki şöbənin dini hökmləri müştərək olub, biri digərini təqib edir. Onların hər ikisində hamı tərəfindən qəbul edilən adi məhkəmə və mühakimə nizam-intizamı, qanun-qaydaları vardır. Belə ki, onların arasında zahiri imtiyaz fərqləri mövcuddur. Əslində Şarden burada sünnə və şiədən ibarət iki mühüm islam məzhəbi və onların əsasən oxşar olan məhkəmə icraatı sistemini nəzərdə tutmuşdur. Onların hər ikisinin məhkəmələri şəriət məhkəmələri, məhkəmə işlərinə baxanlar isə qazı (hakim) adlanırdı (30, 14). Şarden yazır ki, ancaq bu da imkan vermir ki, onlar aralarında çox ixtilaf taparaq hakim vəzifəsini dəyişsinlər. Və beləliklə, Osmanlı imperatorluğunda hakimlik işlərinə müfti, Hindistanda bu işlərə «kasy»u, Səfəvi ölkəsində isə şeyx ül-islam baxır və rəhbərlik də onlara həvalə olunurdu. O öz rəyi ilə məşvərəti qəbul, yaxud onu rədd edə bilərdi. Bir qayda olaraq o, mötədil, bilikli və etibarlı dini vəzifə sahibi olurdu. Müfti-

ni işə şah təyin edirdi. Bu vəzifəyə sakit təbiətli, insanpərvər, mərd adamlar seçilirdi. Onlar tündxasiyyət, səbirsiz, məqsədli adam olmamalı idilər. Əgər şah onların qorxunc, qəsbkarlıq kimi məqsədlərinin qarşısını almasa, onlar mehriban və faydalı adam ola bilməzlər. Bir nəfər də əcnəbi onların ölkəsində bir gün də yaşaya bilməzdi. Ona görə ki, onlar həmişə çalışacaqlar ki, öz rəylərini hər kəsə zorla qəbul etdirsinlər (112, c.IV, 1339, 1340).

Bu qazıların hamısı eyni yerdə (məhəldə) hakimlik etmirlər. Hər birinin o birindən ayrı bir yerdə məhkəməsi vardır. Və iddiaçılar daha yaxşı tanıdıqları və etibar etdikləri qazılara müraciət edirlər. Onlar məhkəmə məsələlərinə özlərinin kontorlarında baxırlar. Başqa din xadimlərinin məhkəmə işləri ilə məşğul olmağa hüquqları yoxdur. Mülki mübahisəli məsəllərdə adamların qarşılıqlı iddiaları, öz rəylərinə uyğun şərhləri deyil, ürfi və şəri hüquqda bir qayda olaraq dövlətin mənafeyi nəzərə alınmaqla qazı təbii olaraq hökmü özü verir (112, c.IV, 1341).

"Abbasnamə" nin verdiyi məlumata görə əvvəlki Səfəvi şahlarının vaxtında və II Şah Abbas dövründə də hərbi və mülki idarə rəislərinin vəzifə səlahiyyətlərini aşması ilə əlaqədar baş vermiş narazılıqları aradan qaldırmaq üçün nüfuzlu Qızılbaş əyanlarından "Ədalət divanı" təşkil edilir və bu divanın yoxlamaları əsasında onların cinayətləri müəyyən edilir, məsələlərin ədalətli həllinə cəhd göstərilirdi. Səfəvi ordusu 1648-ci ildə Qəndəhara doğru hərəkət etdikdə Şah Qəzvində hərbi keçidi şəxsən özü müşayiət etmişdi. O, hər gün sübh çağından günortaya qədər hərbi keçiddə hər bir əsgəri dinləmiş, onların çətinlikləri barədə göstərişlər vermişdi. Bu zaman ona sipahsalar Əliqulu xanın haqsızlığı barədə məlumat çatdırılır (125a, 63). O, bu məsələni araşdırmaq üçün Qulcan bəy (qulame xasse-ye şərifəni) Təbrizə, İbrahim bəy qulame xasse-ye şərifəni də Xorasana göndərdi və onlara təhqiqat aparmaları barədə fərman verdi. Şahın bu iki qulamı qısa müddətdə təhqiqatlarını başa çatdırıb geri döndülər. Şahın yanına gəlib Əliqulu xan tərəfindən şikayətlərdə zülm və haqsızlığın doğru olduğunu ona bildirdilər. Bu məsələ aydınlaşdırıldıqdan sonra Şah Əliqulu xan və qardaşı oğlu, həm də naibi olan Bicəm sultanı Əlamut qalasında zindana saldırıb əmlak-

larının da müsadirə edilməsi barədə göstəriş verdi. Əliqulu xanın Xorasan sərdarı və İsfahanın mirabı olan qardaşı İsa da Şahın göstərişi ilə Farsdakı Gülab qalasında zindana salınmalı idi. Ancaq o, qalaya çatana qədər vəfat edir. Şah ədaləti və öz xeyirxahlığı ilə bütün ölkəni şöhrəti bürümüşdü. Şah fərman vermişdi ki, həftənin 3 günü ədalət məhkəməsi təşkil edilsin və bir gün əsgər, xidmətçi və qulamların, ikinci gün rəiyyət və zülmə məruz qalanların şikayətlərinə baxılsın, üçüncü gün isə xanların, hakimlərin padşaha göndərdikləri hədiyyələr gözdən keçirilsin(125a,64). H. 1065 (m. 1655)-ci ildən Şah özü hər gün divanda olur və adamların şikayətlərinə şəxsən özü baxırdı. Bu zaman Urmiya sakinlərindən bir seyid Urmiya hakimi Məhəmmədəli xan Əfşardan şikayət edib bildirdi ki, qardaşını günahı olmadığı halda öldürmüş, əmlakını isə ələ keçirmişdir. Şah Azərbaycan bəylərbəyinin naibinə məsələni araşdırmağı tapşırdı. Məsələ araşdırıldıqda Seyidin şikayətinin doğru olduğu aydınlaşır. Şah Yadigar Əli sultanın oğlu Məhəmməd Hüseyn bəy Rumlunu Məhəmmədəli xan Əfşarı tutub saraya gətirməyə göndərdi. Şah özü məsələni araşdırıb həqiqəti üzə çıxarır və göstəriş verir ki, məzlumlardan zorla alınan mallar geri qaytarılsın, həm də göstəriş verdi ki, onu şəri hökmlə qətl etsinlər ki, əməlinin layiqli cəzasını alsın. (125a, 73).

Səfəvilərin dövlət idarəçiliyində ədliyyə, polis, məhkəmə orqanları da mövcud olmaqla, onların da aralarında dövrün mövcud qanunları çərçivəsində səlahiyyət bölgüsü aparılmış, hüquq və vəzifələri müəyyən olunmuşdur. Tavernyenin qeyd etdiyi kimi, ədliyyə məsələləri üzrə baş nazir vəzifəsini icra edən məmur divanbəyi adlanırdı. Divanbəyinin qərargahı sarayda yerləşirdi ki, o burada qanunların düzgün icrasına və günahkarların cəzalandırılmasına nəzarət edirdi. Bu çox mühüm vəzifə olub, ölkədə şikayətçilər ona müraciət edirdilər. Onun hökmlərini məmləkətin bütün böyükləri və vilayət xanları icra edirdilər (104, 567). «Təzkirət əl-müluk» da qeyd olunur ki, ölkə miqyasında qətl, bədən xəsarəti, göz kor etmə, diş sındırmadan ibarət olan və ehdase əpbəə (dörd cinayət hadisəsi) adlanan cinayətlərə o baxırdı. Ancaq bu hadisələrlə bağlı onun qərargahındakı iclaslarda sədr də iştirak edirdi. Haqsızlıqla qarşı-

laşan, özündən zorlular tərəfindən incidilən şəxslərin şikayətlərinə də onun məhkəməsində baxılırdı. Mərkəzdən uzaqda baş verən ölüm hadisəsi üzrə şikayətçi olan şəxs divanbəyi dəftərxanasına beş tümən ödəməli idi. Ondan sonra divanbəyi və divanxana katibi hadisə barədə təliqələrini hazırlayır və işə baxılması barədə hökm verilirdi. Divanbəyi maliyyə pozuntuları məsələsinə də baxırdı. Ancaq bu cinayət hadisəsi vəzarət, yaxud hərbi idarə ilə bağlı olduqda iş baxılmaq üçün onların özlərinə göndərilirdi (132, 12-13). Tavernye şəhərlərdə polis idarəsi rəisi funksiyasını icra edən darğa haqqında isə yazır ki, bu, çox mötəbər vəzifə olub, onun hökmlərinə qarşı yalnız divanbəyi çıxa, yaxud yuxarı orqanlara ondan şikayət verə bilərdi. Şəhərlərdə nizam-intizam yaratmaq, oğurluq hadisələrinin, qətl və qarətin qarşısını almaq, fahişəxanaları, qumarxanaları, meyxanaları müəyyən edərək onlara qadağa qoymaq birbaşa darğanın səlahiyyətinə aid idi. O, günahkarları, müqəssirləri cəzalandırmaqdan çox, onlardan cərimə almağa üsrünlük verirdi (104, 576).

Tavernyeyə görə Səfəvi ölkəsində məhkəmə ədalətli olub, istintaq işi uzun davam etmir və qısa vaxtda mühakimə işi vəkilə, bəzən hakimə də ehtiyac olmadan yekunlaşdırılır. Ancaq bu ədliyyə məmurlarının tamam təmiz və tamahsız adamlar olduğunu isbat etmir. Onlar da bəzi hallarda haqsızlığa yol verirlər, ancaq buna baxmayaraq məzlumu da razı salmağa cəhd edirlər. Çünki ədliyyə məmurlarının haqsızlığı, müəyyən edilsə və bu şaha çatsa, onlarm əfv olunmasına imkan olmur. Məhkəmə iclasları vilayətdə keçirildikdə hakim Şah tərəfmdən onun nümayəndəsi kimi məhkəmədə iştirak edir. Bundan əlavə hər bir şəhərə şah bir divanbəyi təyin edir ki, o, burada yalnız Şahın hökümlərini yerinə yetirirdi (104, 606).

Qətl məsələsində istintaq cinayətkar müəyyən olunana qədər aparılırdı. Qatili pul verməklə xilas etmək mümkün deyildi. Qatili tutanda onu divanbəyinin yanına aparırlar ki, o, vaxtında məsələni ədalətlə həll edə bilsin. Qayda belədir ki, qatili öldürülənin vərəsəsinə təslim edirlər. Və onlar əgər istəsələr, intiqam alırlar, ya da məsələni pulla həll edirlər. Ancaq onların arasında qətl hadisəsini pulla həll etmə eyib və bədnamlıqdır. Öldürülənin qohumları heç bir

rəhm etmədən özləri cəllad olurlar, əzab və işgəncə ilə onu öldürürlər. Tavernye qətl hadisəsi haqqında geniş məlumat verərək yazır ki, cinayətkarı istintaq müəyyən etdikdən sonra məsələ ədalət məhkəməsinə verildikdə, canini şah özü istəsə belə xilas edə bilmir. Bu zaman zərər çəkən tərəf ona təklif edilən qanbahasını qəbul etmədikdə, ölüm hökmü fitva əsasında icra olnur. Qatili zərər çəkən tərəf ölum cəzasına məhkum edir (104, 607).

Oğrular da bağışlanmır və onları müxtəlif işgəncələrlə öldürürlər. Bəzən ayaqlarından asır və qarnını parçalayırlar. Bəzən müqəssiri düz saxlayıb onun ətrafında kərpic və gəçlə divar hörürlər ki, onun yalnız başı çöldə qalır. Bəzən oğrunun ağzına çubuq qoyub uzun müddət yemək vermirlər və nəticədə o, aclıqdan ölür. Şəhərlərdə oğruları küçələrdə gəzdirib, günahını car çəkərək əhaliyə bildirib, onları rüsvay etdikdən sonra dar ağacından da asırlar (104, 607).

Tavernye yazır ki, dünya ölkələrində polisin təşkili ümumi yaşayışın təhlükəsizliyi üçündür. Demək olar ki, Səfəvi polisi bu nöqteyi-nəzərdən dünyada ən yaxşı inzibati orqanlardandır. Burada möhtəsib polis qazısı mənasında olub, onun 2-3 nəfər də müavini vardır. Onlar həftənin bir günündə car çəkərək hər şeyin nırxını elan edirlər və həftə ərzində möhtəsiblər yenə başqa b;r müşavirə keçirirlər. Bu müşavirədə malların qiymətləri tələbata uyğun olaraq endirilir, yaxud qaldırılır. Bu qaydaya I Şah Abbasın hökmranlığı dövründə ciddi şəkildə əməl olunmuşdur. Azərabycan və İranda hər şeyi çəki ilə satırlar. "Kilə"-(dənli bitkiləri üzrə ölçü) ilə satmırlar. Qayda üzrə mal müştəriyə xoş gəlməyəndə satıcı onu geri alıb pulu qaytarır. Hər kəs əskik çəksə və ya artıq pul alsa, cəzalandırılır. Çəki və qiymətdə aldadanların başına taxta papaq, boğazına zınqırov bağlayıb küçələrdə dolandırırlar. Sonra ayaqlarının altına çubuqla döyürlər və onlar bu cəzadan sonra cərimə də ödəyirlər. Polis ərzaq məsələsində ciddi olmasa, kasıblar müsibətə düçar olarlar. Tavernyeyə görə bu ölkədə əhalinin rifahı yaxşı olub əmin-amanlıq içərisində yaşayırlar. Ərzağın qiymətini möhtəsiblə razılaşmadan qaldıranlara da ağır cəzalar verilirdi. Tavernye yazır ki, bir gün Təbrizin çörəkçiləri şəhər hakiminə şikayət edərək bildirmişdilər ki,

çörəyi məlum qiymətə satmaq bizə sərfəli olmadığı halda möhtəsib onun qiymətinin qaldırılmasına razılıq vermir. Hakim isə onların şikayətinə cavab olaraq bildirmişdir ki, qiymət məsələsi möhtəsibin işidir. Çörəkçilər israr edərək deyir ki, siz hökm etsəniz, möhtəsib ona itaət edər. Ancaq hakim razılaşmadıqda bir çörəkçi ona 50 tümən rüşvət təklif edir. Hakim dövlət işçisi kimi xalqın mənafeyinə xəyanət etməyərək kasıbların hesabına varlanmaq istəyən çörəkçinin cəzalandırılması haqqında göstəriş verdi. Bu göstərişə görə çörəyin qiyməti bir az da ucuzlaşdırıldı və həmin çörəkçidən 50 tümən məbləğində cərimə alınıb, kasıblara paylandı. Bütün bunlara görə Tavernye yazırdı ki, bu ölkədə ümumi asayiş hökm sürməklə, əhalinin rifahı da yaxşıdır (104, 611-614).

Tavernye və Şardenin gündəliyində vəqf institutu, onun xüsusiyyətləri və bu institutla bağlı mübahisəli məsələlər haqqında da məlumatlara təsadüf edilir. Dini məqsədlər və xeyriyyə işləri üçün dövlətin, yaxud ayrı-ayrı şəxslərin müqəddəs yerlərə verdikləri vəqf əmlakı haqqında Şarden yazır ki, vəqflər Səfəvi ölkəsində müqəddəs və toxunalmazdır. Əgər hər hansı bir şəxs ev, yaxud başqa tərpənməz əmlakını vəqf etdiyi vaxtdan bir gün keçibsə, hətta şah onun bu əmlakını müsadirə edib ələ keçirə bilməzdi. Vəqf əmlakına bir qayda olaraq torpaq, ev, dükan, karvansara, hamam və buna bənzər başqa əmlak növləri daxil idi. Bütün məscidlərin və xeyriyyə işlərinin xərclərini vəqflər təmin edirdilər (112, c.IV, 1341). Belə ki, vəqfi ammə, yaxud vəqfe xeyrinin gəliri ümumi məqsədlər üçün, vəqfe xassə, vəqfe əhli, vəqfe övlad, vəqfe mütəbərrikənin isə gəlirləri xüsusi məqsədlər üçün sərf olunurdu (45, 44).

Şarden yazırdı ki, Şah, yaxud başqa şəxsin xeyriyyə məqsədi ilə vəsiyyət etdiyi vəqfi ammə üzərində heç bir hüququ yox idi. Həmçinin vəsiyyət olunmuş əmlakla bağlı bir cinayət olsa belə, onun müsadirəsi mümkün deyildi (112, c.III, 1233).

Səyyahın verdiyi məlumata görə Səfəvi dövlətinin əhalisi həddən artıq diqqətli, şübhəkar olub, öz var-dövlətlərini halal yolla artırırlar. Şah Abbas Kəbir bu niyyətlə bütün saraylarını, digər binalarını və hətta öz atlarını da vəqf etmişdi ki, onlardan halal yolla,

yəni şəriətin qanuni icazəsi ilə istifadə edə bilsin. Hər il onların hər birindən müəyyən məbləğ ödəyirdi. Şah Abbas Kəbir dünyasını dəyişdikdən sonra şahlığın tövlələri on ikinci imama nəzir edilərək onun vəqfi oldu. O, dünyanın layiqli şahlarından idi. Şahın İsfahan-da səltənət xiyabanındakı bütün bağ və sarayları «on dörd məsumə» nin vəqf və nəziri idi ki, onlar həzrəti Rəsul, onun qızı Fatimə, kürə-kəni həzrəti Əli və Mehdi də daxil olmaqla imam adlanan canişinlərindən ibarət idi (112, c.IV, 1341). Şardenin şərhlərindən aydın olur ki, vəqflər dövlət vergi və mükəlləfiyyətlərindən azad olmaqla onlar irsi, toxunulmaz və müqəddəs əmlak növü xüsusiy-yətlərini özlərində təcəssüm etdirirdilər. Əmlakını vəqf edən şəxsin onun gəlirindən istifadə hüququnun məhdudlaşmasına baxmayaraq, Şardenin qeyd etdiyi kimi, bu gəlirdən şəri qanun icazəsi ilə səmərəli faydalanmaq səlahiyyətinin qorunub saxlanılmasına əbədi təminat alır. Əslində əmlakını vəqf edən şəxs mülkiyyət hüququnu əbədiləşdirərək bu mülkiyyətə eyni zamanda şəri qanunlarla toxu-nulmamazlıq və müqəddəslik statusu qazandırır. Bibiheybət və Əbu-Səid Əbülxeyir məqbərələrinin vəqflərinə aid orta əsr rəsmi sənədlərini təhlil edən T.M.Musəvi yazır: «Əmlakını vəqf edən şəxs bir qayda olaraq mütəvəllilik vəzifəsini öz ixtiyarında saxlayır, ya da övladlarına və ən yaxın adamlarına tapşırırdı. Beləliklə, xüsusiy-yətçilik üzərinə ümumiləşdirmə pərdəsi çəkilirdi» (45, 41). Şarden yazır ki, moqufatın bütün gəlirini toplayan və onun haqq-hesab əməliyyatını aparan divanın «mouqufat dəftəri» vardı. Vəqf müqəd-dəs yerlərə xeyriyyə məqsədləri üçün verilən hədiyyə və bəxşiş mənasını ifadə edir. Sədr isə vəqf əmlakının bütün işlərinə nəzarət etməklə yanaşı, həm də onu idarə edirdi. Başqa sözlə vəqflərin rəisi də o idi. Vəqflərin müfəttişi sədrin müavini olub, mustoufi adlanır və bu vəzifəyə məmur şah tərəfindən təyin olnurdu. O, sədr olmayanda onun da bütün işlərini aparırdı. Mən şah Abbas Saninin yanında onun hakimiyyətinin son illərində olduğum zaman mustoufi həm də sədrin vəzifəsini icra edirdi (112, c.IV, 1342).

«Təzkirət əl-müluk»da «mouqufat dəftəri» və Şardenin məmaliki məhrusə vəqfləri üzrə sədrin müavini adlandırdığı mustoufinin statusu haqqında daha müfəssəl məlumatlar vardır.

Əsərdə göstərilir ki, xalisə və məmalik vəqf əmlakları üzrə vəzirlər, mustoufilər, rəislər, mütəvəllilər öz maliyyə hesablarının hamısını «mouqufat dəftəri»nə çatdırılır və burada məmaliki məhrusə vəqflərinin mustoufisi onları nəzərdən keçirdikdən sonra qeyd olunan haqq-hesab sənədlərini imzalayırdı. Məmaliki məhrusə vəqflərinin mustoufisi onu yuxarıda qeyd olunan məmurlar tərəfindən «mouqufat dəftərinə» çatdırılan maliyyə hesabatı əsasında məxaricə dair rəsmi sənədləri də yoxlayıb təsdiq etdikdən sonra vəqflərin maliyyə işlərində maddi məsul olan şəxslərə haqq-hesabın çürüdülməsi barədə də sənədlər verilirdi. Bu məmurlar gəlirin toplanmasında, mədaxil və məxaric əməliyyatlarında onlara mustoufi tərəfindən təqdim olunmuş təlimat əsasında işlərini qurmalı idilər. «Mouqufat dəftəri»nə qeyd olunan mədaxil və məxaric barədə mirzələr hökmlər hazırlayırdılar ki, bu hökmlər həm dəftərxana darğası, həm də qeyd olunan mustoufi imzaladıqdan sonra möhürlənib təsdiq edilirdi (132, 44).

Vəqflərin gəlirindən iki cür, yəni təqaüd formasında müvəqqəti və ömürlük məvacib verilirdi.Torpaq və başqa vəqf əmlakı gəliri hesabına həvalə və ya baratı nəzərdə tutulan şəxslərə mühasibat divanı ildə bir dəfə ödəyirdi. Onlar müəyyən vaxtlarda mouqufe dəftərinə müraciət edərək öz həvalə və ya baratlarını alırdılar. Ancaq təqaüdçü möhtərəm adam olduqda əvvəlcə sədr, yaxud onun hər əyalətdə olan müavininin yanına gedib öz sənədlərini ona təqdim edirdi. Və bundan sonra sədrin icazəsi ilə qeyd olunan sənəd əsasında barat yazılır və mouqufe dəftərinə gedib həvalələrini alırlar. Mouqufe dəftəri təqaüd alan şəxslərdən müəyyən bir səbəbə görə narazı olduqda sənədlərini geri alırdılar və onların əlində lazımi sənəd olmurdu (112, c.IV, 1342).

Torpaq və ya hər hansı bir tərpənməz əmlakını vəqf edərkən onların gəlirlərindən istifadə etmək səlahiyyətini özündə saxlayan şəxslər isə beş ildə bir dəfə həvalələri barədə mouqufe dəftəri rəhbərlərinə mühasibat sənədləri çatdırmağa məcbur idilər. Təəccüblü haldır ki, sədr, həmçinin mouqufe dəftəri icazəsi ilə zabitlər (vergi yığan və divanda vergiləri qeydiyyata alan mirzə) yeri gələndə din xadimlərindən məvacib sənədlərini geri alaraq onları bu gəlirdən

məhrum edə bilərdilər. Belə ki, əslində bu gəlirlərdən faydalanmaq müvəqqəti idi. Bu qaynaqdan faydalananlar onun qanun-qaydalarına ciddi əməl edirdilər (112, c.IV, 1342).

Din xadimlərinin çoxu və bir çox başqa adamların yaşayışı vəqf əmlakı gəliri hesabına təmin olunurdu. Ancaq sədrlər, onların müavinləri, vəqfın gəlirlərini bölüşdürənlər istisna olmaqla vəqf idarələrində çalışan xidmətçilər varlı deyildilər. Başqa sözlə vəqfin tərpənməz əmlakına cavabdeh olanlardan başqa heç bir din xadiminin bir ıl ərzındə 11-12 mın lıvırdən çox qazancı yox idi (112, c.IV, 1343). Tavernye yazırdı ki, sədr qanunların və şəriətin rəisi olub, vəqflərin əmlakı da ona tabe idi. Vəqflərin bütün gəlirlərini toplayıb onların özlərinə və lazım bildiyi yerlərə sərf edirdi. Ancaq o bütün xərclərdən əvvəl öz haqqını götürürdü (104, 588).

Şarden yazırdı ki, sədrin illik məvacib norması 2 min tümən idi ki, bu bizim pulla 3 min eküyə bərabərdi. Onların başqa gəlirləri də varıdı. Cəmi gəlirləri 6 min ekünü keçirdı (112, c.IV, 1343).

İkinci Şah Abbas vəqf əmlakı gəlirlərinin mənasız yerə sərf olunmasının dayandırılması məqsədi ilə ondan külli miqdarda məvacib verilməsinin qarşısını alaraq bu sahədə ciddi nizam-intizam yaratdı. O, vəqf əmlakı gəlirlərindən külli miqdarda mənfəət götürən şəxslərin siyahısını müəyyən edərək öyrəndi ki, onlar hər il vəqf əmlakı gəlirlərindən 25-30 min livr mənimsəyirlər. Vəqflərin gəlirinin bölüşdürülməsində mövcud olan qaydaya insaf və ədalətlə əməl olunmasına aid fərman verdi. O, bu məqsədlə sədrləri, böyük din xadimlərini, rəhbərləri şəri nizam-intizama dəvət etdi və onlara dedi: Uca tanrıdan vəqf əmlakı, onun gəlirlərini qarət və qəsb edənlərə lənət buyrulduğu halda, mən heyrət edirəm ki, hansı cəsarətinə görə bir çox din xadimləri, dindarlar bir ildə vəqf əmlakı gəlirlərindən 500-600 tümən mənimsəyərək cah-cəlala sərf edirlər. Bu gündən heç kimə qeyd olunandan artıq bir qruş da verilməyəcəkdir (112, c.IV, 1343).

Yerli adət-ənənələri mükəmməl öyrənən Şarden qeyd edirdi ki, ata-babadan gələn inamlarına görə hər kəs işləyərək, zəhmət çəkərək alın təri ilə ruzisini qazanmalıdır və vəqf gəlirlərinə pis nəzərlə baxmamalı, ona gözlərini tikməməlidirlər. Ona pis niyyətlə

əl uzadanlar günaha batırlar. Müsəlmanların səmavi kitabında hökm edilir ki, o kəslər ki, öz gündəlik ruzilərini qazanmaqda acizdirlər, lazımdır ki, vəqf gəlirlərindən müəyyən miqdarda onlara verilsin ki, bədbəxtliyə düçar olmasınlar, yəni ac qalmasınlar. Möminlər ki, vəqf əmlakı gəlirlərindən istifadə edə bilirlər, onlar bu qüdrətli və tam aydın olan hökmü dərk edərək vəqf gəlirlərinə tamahkarlıqla göz dikməməlidirlər. Çünki onların ruziləri kifayət qədərdir. Peyğəmbər də buyurmuşdur ki, o yemək ləzzətli və faydalıdır ki, o zəhmətlə başa gəlir. Onlar bunu bir qayda olaraq unutmur və dillərinin əzbəridir. İmamlar da bu mühüm göstərişi belə təsvir etmişlər. Peyğəmbərlər də həqiqətən həmişə öz ruzilərini işləməklə, yəni zəhmətlə əldə etmişlər. Adam zəhmətkeş olmalıdır. Bəzi peyğəmbərlər, o cümlədən, Musa və Məhəmməd çoban, Davud zərgər, İlyas qatırçı, Loğman dərzi, Əyyub kitabdar, yaxud dabbaq və İsa həkim idi. Başqa peyğəmbər və seçilmiş adamların da peşəsi vardı.(112, c.IV, 1343-1344).

Vəqf əmlakının məlum olmayan gəlirləri barədə ildə bir dəfə bu sahənin rəhbərləri, qəyyumları şaha məlumat verirdilər. Ancaq bir çox hallarda şah bu əməliyyatda iştirak etmirdi. Belə olduqda bu iş sədr, yaxud onun müavini tərəfindən tənzim edilərək sonra şaha təqdim olunurdu. Şah isə bu barədə özünün təhqiqat və təlimatını icra üçün vəqf dəftərinə göndərirdı (112, c.IV, 1343-1344).

Şardenə görə Səfəvi ölkəsində vəqf əmlakının illik gəliri 400 min frank olan bir neçə məscid vardı və qalan məscidlərin vəqf gəliri isə o qədər də çox deyildi. Ancaq Məşhəd şəhərindəki Həzrəti Rza vəqfinin gəliri məscidlərlə müqayisədə daha çoxudu (112, c.IV, 1343-1344).Səyyahın yerli adamlardan əldə etdiyi məlumatlara görə ölkənin bütün vəqf əmlakının ümumi dəyəri 800.000 tümən olub Fransa pul vahidi ilə otuz altı milyona bərabər idi. Ona şahın bütün əmlakının dəyərinin isə Fransa pulu ilə 14 milyondan çox olduğu bildirilmişdir. Səyyah yazır ki, İmam Rza məqbərəsinin gəliri haqqında şaha doğru məlumat verilmədiyinə görə, Şah Abbas Sani Qəndahardan geri dönərkən Məşhədə gəlmiş və astananın illik gəlirini yoxlayaraq 500 tümən (225000 livr) fərqlə müəyyənləşdirə bilmişdir (112, c.IV, 1340-1341).

Mütəvəllilik vəzifəsi şahlara aid olan vəqfələrə ovqafe təfvizi və ayrı-ayrı şəxslərə aid olan vəqflərə isə ovqafe şəri deyilirdi. Şəriət ehkamı əsasında tərtib edilmiş vəqfnamə adlı müvafiq sənəd əsasında müəyyən vəqf əmlakını idarə edən şəxs mütəvəlli adlanırdı. Şarden qeyd etdiyi kimi, mütəvəlli vəqf əmlakının gəlirlərinin hər hansı istiqamətdə sərf olunmasına aid sərəncamlar vermək səlahiyyətlərinə malik idi (45, 45). Şardenə görə onlara vəzifə borcu olaraq vəqflərin gəlirlərinin mənasız sərf olunmasının qarşısını almaq, haqq-hesab əməliyyatını aparmaq və bu əmlakı qorumaq tapşırılırdı. Mütəvəllinin mənəvi məsələlərlə işi yox idi. Ancaq vəqflərin gəlirdən məscid, müqəddəs ocaqların təmiri üçün ayrılan vəsait onlara tapşırılır və təmir də onların vəzifəsinə aid idi ki, bu iş üçün vəsaitlər hazırlamalı idilər. Bir qayda olaraq böyük məscidlərin vəqf əmlakı daha çox olur və onlara da mütəvəllil başçılıq edirdi. Ancaq kiçik məscidlərdə mütəvəlli olmurdu (112, c.IV, 1344).

Ali ruhani idarəsinə tabe olan mütəvəllini vəzifəyə Şah, yaxud sədarət divanı təyin edirdi ki, bu məsələ ilə bağlı, yəni ayrı-ayrı vəqflərə, müxtəlif illərdə mütəvəllilərin təyin olunması haqqında fərmanlar və hökmlər verilmişdir ki, onların bir çoxu zəmanəmizə qədər qorunub saxlanılmışdır. Belə ki, Bakıdakı Bibiheybət məqbərəsinə mütəvəlli təyin olunması haqqında I Şah Təhmasibin 1555-ci ilin dekabr ayında verdiyi fərmanda qeyd olunur: «...Bibiheybətin mübarək məzarının mütəvəlliyi qədim zamanlardan Şeyx Bünyada aid edilmişdi. Ərzə çatdırılır ki, o vəfat etmişdir. Onun oğlu Qulaməlinin isə ləyaqət və qabiliyyəti var ki, həmin iş qayda üzrə ona tapşırılsın...». Qeyd olunan məqbərəyə mütəvəlli təyin olunmasına aid Səfəvi şahları ilə yanaşı, sədarət divanın da hökmü vardır. Belə ki, məqbərədə mütəvəllilik vəzifəsi ilə bağlı törənmiş münaqişə haqqında sədarət divanın 1654-cü ilin mart ayında verdiyi hökmdə göstərilir: «...Müqəddəs asitanənin mütəvəlliliyi...şeyx Məhəmməd Müqimə tapşırıldı və rücu olundu ki, hər cəhətdən müstəqil və təkbaşına həmin işin tələbatını ödəsin..» (45, 64, 69).

İrsi olan başqa növ vəqflər də vardı ki, onlara soyurqal da deyirdilər. Bu cür vəqflər bir çox hallarda din xadimləri ailələrinə

aid idi. Nəsldən-nəslə keçirdi ki, bu zaman daxili ziddiyyətlər də əslində nəsldən-nəslə ötürülürdü. Ancaq bu anlaşılmamazlıqlar onların daxili işi olub, gəlirdən mənfəət götürmək hüququnu ata oğlu üçün xüsusi qayda əsasında müəyyən edirdi. Soyurqal zaman keçdikcə ailənin əlindən çıxır və nəticədə ailə üzvləri ona başçılıq hüququnu itirirlər və belə olduqda onlar bu əmlakı din xadimlərinin əli ilə idarə edirlər. Demək lazımdır ki, soyurqal bir ailədən başqasına keçdikdə əvvəlki ailə deyil, ikinci ailə bu əmlak üzərində irsi hüquq əldə edir (45, 64, 69). O cümlədən vəqf əmlakına aid olan bir neçə fərmanda da vəqf yerinə «soyurqal» qeyd olunmuşdur. Bibiheybət məqbərəsi vəqf əmlakına dair II Şah Abbasın 1650-ci il yanvar ayında verdiyi fərmanda qeyd olunmuşdu: «...Zığ kəndinin malcəhəti Duldərə əkinlərinin malcəhəti, bağlardan alınan mal, pambıqdan alınan üşr... Bibiheybət...asitanəsinin idarəsinə soyurqal verilmişdir... Zığ kəndinin və sairənin sərvət və əmlakı mübarək asitanəyə bağışlanmış və soyurqal verilmiş..» (45, 66, 67). Ancaq burada soyurqal dövlət tərəfindən mülki və hərbi xidmətçilərə xüsusi maliyyə imtiyazlari, məhkəmə-inzibati hüquqları ilə verilən mülkiyyət institutu deyildir Burada «soyurqal» adı ilə ayrı-ayrı şəxslərə, müqəddəs məqbərələrə bağışlanılan gəlir, əmlak deyildikdə, əslində vəqf nəzərdə tutulur.

## §2 Xəlifət əl-xüləfa institutu

XIII yüzillikdən Mərkəzi Asiya, Orta və Yaxın Şərq xalqlarının moğol ağalığına qarşı istiqlaliyyət uğrunda mübarizəsini özündə əks etdirən sufi-dərviş cəmiyyətləri əsarətdə olan xalqların maraqlarını müdafiə edərək geniş şəkildə fəaliyyətə başlamışdılar. Moğol ağalığı altındakı ölkələrdə hökm sürən ictimai intizamsızlıq, yoxsulluq, əhali üzərində hakim olan qorxu və dəhşət təsəvvüf hərəkatlarının gündən-günə genişlənməsinə təkan verirdi. Təsəvvüfün insan təfəkkürü çərçivəsindəki fəaliyyətlərində iki əsas təmayül meydana gəlmişdi. Birinci təmayül tərəfdarları əsasən tərkidünyalıq və ictimai fəaliyyətdən uzaq-

laşmağı təbliğ edirdi. Ancaq ikinci təmayülün tərəfdarları ictimai-siyasi fəaliyyətdə iştirak etməyi üstün tuturdular. Bu təmayülün tərəfdarları çalışırdılar ki, öz zamanının siyasi hadisələrində daha fəal iştirak etsinlər. Onlar ictimai-siyasi məsələlərə müdaxilə etməyə üstünlük verirdilər. XIII-XV yüzilliklərdə Azərbaycanda dövrün ictimai-siyasi hadisələrinə qarışmağa üstünlük verən Səfəviyyə sufi-dərviş ideya-dini cərəyanı fəaliyyət göstərirdi. Söhrəverdiyyə dərviş cəmiyyətinin Azərbaycan qolu hesab edilən Səfəviyyə sufi-dərviş cəmiyyətinin özülünü XIV yüzillikdə görkəmli elm adamlarından olan Ərdəbilli Şeyx Səfiəddin ibn Şeyx Əminəddin Cəbrayıl (1252-1334) qoymuşdur. Qaynaqlarda türk oğlu deyə anılan Şeyx Səfiəddin nəslinin əsli Azərbaycan türkü idi və onların ana dilləri də Azərbaycan türk dili olmuşdur (82, 24-28; 116, 11-12; 50, 99). XV yüzillikdə Səfəviyyə sufi-dərviş cəmiyyətinin dayağı sonralar Qızılbaş adını almış Şamlı, Rumlu, Ustaclı, Təkəli, Əfşar, Qacar, Zülqədər tayfaları idi. Ancaq cəmiyyətin sosial bazası getdikcə genişlənirdi. Şəhər sənətkarları, oturaq əkinçiləri təmsil edən əxilər və qazilər sufi dərviş zümrəsinə qovuşaraq təriqət döyüşçülərinə çevrilib əsgəri qulluq adamları olurdular (3; 369-370). Ilk dövrlərdə cəmiyyətin sosial bazasının tərkibində yaylaq-qışlaq heyvandarlıq təsərrüfatı ilə məşğul olan tayfaların süfiləri üstünlük təşkil edirdilər. İ.P.Petruşevski yazır: «Bu tayfalar «müqəddəs» Səfəvi şeyxlərinin hakimiyyətini qəbul etdikdən sonra, onların «müridləri», «dərvişləri», «sufiləri» hesab olunurdular. Əslində isə bu tayfalar Səfəvi şeyxlərinin qeyri-nizami feodal qoşununun əsasını təşkil edirdilər» (50,101).

Cəmiyyətə pir, yaxud mürşid-i kamil ünvanı ilə başçılıq edən Səfəvi nəslinin nümayəndələri mötəbər din xadimləri olduqlarına görə əvvəllər şeyx titulu daşıyırdılar. Onlar 1501-ci ildən Şah titulu qəbul etdikdən sonra cəmiyyətin mürşid-i kamillik ünvanını özlərində saxlayırdılar. Xəlifət əl-xüləfa isə onun naibi vəzifəsini icra edirdi. Qaynaqlarda sufi, dərviş, mürid, qazi, abdal adları ilə yad edilən xidmətçilər isə Qızılbaş döyüşçüləri, başqa sözlə desək, onun sosial-hərbi dayağı idi (21, 173-204). Cəmiyyət yarandığı vaxtlardan bir çox təşkilati tədbirlər görülmüş iaşə işlərinə baxan

xüsusi xidmət şöbələri də təşkil edilmişdi. Müridlərin bu şöbələrə göndərdikləri «çıraq pulu» vergisi Səfəviyyə ordeninin möhkəmləndirilməsi işlərinə sərf olunurdu (74, 7; 67, 82).

Cəmiyyəti daha da möhkəmləndirmək üçün onun müridlərinin sayını artırmaq və onlara rəhbərlik etmək üçün inanılmış sufilərdən vəkil, yaxud xəlifələr də təyin olunurdu (74, 10). Faruk Sümərin yazdığı kimi, xəlifələr Ərdəbildə cəmiyyətin ideologiyasını öyrəndikdən sonra öz yerlərinə qayıdıb tayfaları içərisində təbliğat apararaq mürid toplayan, Qızılbaş ellərinin yuxarı zümrəsinin başında dayanan təmsilçilərdir. Onların başçılarına xəlifət əl-xüləfa deyilir və o bəy titulu daşıyırdı. Xəlifət əl-xüləfaya qısaca olaraq Xüləfa bəy deyilirdi (67, 82). I Şah İsmayıl dövründəki ilk xəlifət əl-xüləfa Xadimin həqiqətən «bəy» titulu vardı (108, 30, 40). Ancaq ondan xeyli sonra I Təhmasib, II İsmayıl, I Şah Abbas dövründəki xüləfaların bu ünvana malik olmaları barədə dəqiq məlumatlar yoxdur. Nəsrullah Fəlsəfiyə görə də hər bir Qızılbaş tayfa sufilərinin başçısı xəlifə və bütün sufilərin rəisi xəlifət əl-xüləfa adlanırdı (133, c.2, 815). Xüləfa ərəbcə «xəlifə» sözünün cəm halı olub, xəlifət əl-xüləfa Səfəvi təriqət nümayəndələrinin işinə istiqamət verərək onlara başçılıq və nəzarət edirdi (20, 236).

Ancaq V.Minorskinin ifadəsi ilə deyilsə, əslində Səfəvilər hakimiyyətə gəldikdən sonra iki təşkilat yaratdılar ki, dövlətçilik baxımından onlar sələfləri olan Ağqoyunlu (Bayandurlu-Z.B.) xanədanı hakimiyyətinin davamçıları idilər. Lakin Ağqoyunlu hökmdarlarından fərqli olaraq həm də mürşid-i kamil olub, müridləri onlara sözsüz itaət edirdilər. Qızılbaş süfilər türk tayfalarından olub, vilayətlərə göndərilən xəlifələr və Şahın naibi xəlifət əl-xüləfa da onlardan olurdu. Minorski tərəfindən yerində deyildiyi kimi, xəlifət əl-xüləfa «Sufi işləri üçün xüsusi bir katiblik» idi. Şah xəlifət əl-xüləfanın işinə və bütünlüklə süfilərə, onları hakimiyyətə gətirmiş qüvvələrə, «xanədanın» Kiçik Asiyada olan tərəfdarlarına da özü nəzarət edirdi (103, 103-105). Xəlifət əl-xüləfanın yerlərdə təbliğat aparan nümayəndələri olan xəlifələr də öz növbələrində pir qarşısında məsuliyyət daşıyırdılar.

Qaraqoyunlu, Ağqoyunlu dövlət idarəçiliyi özülündə Azərbaycanı yenidən vahid mərkəzdə birləşdirən Şah İsmayıl ölkəyə teokratik səlahiyyətlə başçılıq etməklə özündə həm şahlıq və eyni zamanda, mürşid-i kamillik xüsusiyyətlərini birləşdirirdi. Ancaq Səfəviyyə hərəkatına rəhbərliklə dövlət idarəçiliyi arasında müəyyən ayrılıq nəzərə çarpacaq dərəcədə meydana çıxırdı. Şahın eyni zamanda həm mülki, həm də dini idarəyə rəhbərliyi paralel aparması bir qədər çətinləşirdi. «Dəstur əl-müluk» adlı qaynaqda xəlifət əl-xüləfanın statusu izlənilərkən bu mənzərə daha çox aydınlaşır. Qaynaqda göstərilir ki, xəlifət əl-xüləfa Şahın ən yaxın adamı olub, tayfa və vilayətlərə öz təliqəsi ilə xəlifələr göndərərək müridləri düz yola çağırırdı. O, təliqəsi üzərində bənde-yi dərgah (dərgahın bəndəsi) yazırdı. Hərəkata yeni qoşulan sufilərin başına Qızılbaş papağını yerlərdə xəlifə, yaxud xəlifət əl-xüləfa qoyurdu. Dövlət işləri Şaha müridlərin bütün cümə günlərində keçirdikləri yığıncaqlara gəlməyə və ümumən, onlara nəzarət etməyə imkan vermirdi (97, №3, 307-308). Göründüyü kimi, XV yüzilliyin sonundakı dağınıqlığı aradan qaldırıb Səfəvilər Azərbaycanı yenidən birləşdirdikdən sonra Şah İsmayıl Səfəvi cəmiyyətinin idarəsinin xəlifət əl-xüləfanın ixtiyarına buraxmışdı.

R.M.Seyvori yazır ki, I Şah İsmayıl vəkil-i nəfsi nəfisi (şahın dəyərli ruhunun vəkili) humayun idarəsi ənənələrini möhkəmləndirməyə çalışırdı. Vəkil sufi təşkilatı ilə ənənəvi bürokratik sistem arasında bir əlaqə vasitəsi idi (211, 498). Şah İsmayılın vəkalət institutunu möhkəmləndirməsi inkar olunmur, ancaq XVI yüzilliyin əksər qaynaqlarından vəkalətin baş vəzir, yaxud əmir əl-üməraya əlavə ünvan kimi verildiyi göstərilmişdir (24, 51-53). XVI yüzilliyin ortalarından isə artıq əmirlərə bu rütbənin verilməsinə təsadüf olunmur.

Digər tərəfdən, göstərmək lazımdır ki, xəlifə əl-xüləfa birbaşa Şaha tabe olmaqla Səfəviyyə cəmiyyətinin rəhbəri kimi çox geniş hərbi statusa malik idi. Səfəvi qoşununun özülü olan sufilər (döyüşçü-«qazilər») ona tabe idilər. I Şah İsmayılın bütün müharibə və axınlarında qoşun rəhbəri kimi vuruşan xəlifət əl-xüləfa bəzən əyalət hakimi vəzifəsinə də təyin olunurdu. I Şah İsmayıl 1499-cu

ildə Gilandan Göyçə dənizinə (gölünə-Z.B.) doğru hərəkət etdiyi vaxtda xəlifət əl-xüləfa Xadim bəy də onunla birlikdə olmuşdu (115, v.l2a, 17a). 1500-cü il Cabanı savaşından sonra o Xəzər dənizi kənarında Səfəvilərə qarşı qoşun toplayan Şeyxşah ibn Fərrux Yasərə qarşı göndərilmişdi. Əbdi bəy Şirazi Xadim bəyə xəlifət əl-xüləfa mənsəbinin məhz bu zaman verildiyini qeyd edir (28, 32). Şeyxşaha qarşı göndərilən xəlifət əl-xüləfa onun üzərində qələbə çalıb, Şəhrinovu aldıqdan sonra Bakı müharibəsinə sufiləri ilə daxil olur və Bakı da tutulduqdan sonra o bir müddət adları çəkilən bu iki mahalı hakim hüquq ilə idarə etmişdir. Xüləfa bəy 1514-cü ildə Çaldıran döyüşündə öldürülmüşdür (115, v.43b, 55b; 20, 52).

Dövlətin mühüm dayaqlarından biri olan xəlifət əl-xüləfa bu vəzifəyə Şahın fərmanı ilə təyin edilirdi. H.945 (1538-39)-cu ildə Şah Təhmasibin Mövləna Rəziəddin Məhəmmədin xəlifət əl-xüləfa qoyulması ilə bağlı fərman verməsi bəllidir. Bu fərmanda göstərilir ki, xəlifət əl-xüləfa dini yığıncaqları keçirməli, əhalini pis işlərdən çəkindirməli, məscid binalarını, mədrəsələri, təkiyyələri, müqəddəs məzarları təmir etdirməli və müsəlmanları dini vəzifələri yerinə yetirməyə yönəltməlidir... Fərmanın sonunda göstərilirdi ki, hörmətli seyidlər, qazılar, hakimlər, vəzirlər, kələntərlər, digər şəxslər ondan başqa hökm tələb etməsinlər (91, №2, 99). Bu fərmandan aydın olur ki, dövlət aparatında çox geniş hüquqları olan xəlifət əl-xüləfa ilə Şah arasında körpü salan başqa bir məmura heç bir vaxt ehtiyac olmamış və onlar birbaşa əlaqədə idilər. Buradan Röcer M.Seyvorinin vəkil-i nəfisi nafis-i humayunun Şahla xəlifət əl-xüləfa arasında vasitəçiliyi haqqında yazısının yanlışlığı tam üzə çıxır. O, 1508-ci ildən 1524-cü ilə kimi, yəni I Şah İsmayılın vəfatına qədər beş nəfərdən çox farsın «uğurla» vəkil vəzifəsini tutduğunu yazır. Onun fikrincə qızılbaşların vəzifədən uzaqlaşdırılması Şahın bir yandan onları hakimiyyətdən silmək, o biri yandan isə dövlətdə xoşa gəlməyən türk və iran elementlərini birlikdə əritmək arzusu ilə izah edilməlidir (211, 498). Müəllif daha sonra belə bir cəhdin baş tutmadığını yazsa da, onun irəli sürdüyü mülahizə əslində yanlışdır. Ona görə ki, əvvəla, I Şah İsmayılın sayca türk olmayan bir neçə əsilzadəni vəkil təyin etməsini qızıl-

başların hakimiyyətdən silinməsi cəhdi ilə bağlamaq düzgün deyildir. Belə olsaydı, I Şah İsmayılın dövründə Şamlılardan Hüseyn bəy Lələ, Rumlulardan Div sultan vəkil vəzifəsini tuta bilməzdilər. I Təhmasibin (1524-1576) hakimiyyəti illərində isə vəkilin bir qayda olaraq Qızılbaş əyanlarından seçildiyi məlumdur (24, 49-53).

Hələ I Şah İsmayıl hakimiyyətə keçməmişdən bir qədər əvvəl təşkil etdiyi saray təşkilatı da bütövlükdə Azərbaycan türk tayfa başbilənlərindən ibarət idi (20, 40-41; 115, 43a-43b). I Şah İsmayıl hakimiyyətə keçdikdən sonra mərkəzdə və yerlərdə vəzifələrə Azərbaycan türklərinin təyin olunması Səfəvilərin hakimiyyətinin sonuna qədər davam etmişdir. O, XV yüzilliyin sonundakı dağınıqlığı aradan qaldırıb, hakimiyyətə keçərkən Azərbaycan türk dilini də dövlət, saray, rəsmi diplomatiya dili yüksəkliyinə qaldırımşdı. İ.P.Petruşevski bu barədə yazır ki, Səfəvilər sarayında və orduda da Ön Asiyanın bütün türkdilli tayfalarına aydın olan Azərbaycan dilində danışılırdı. Qızılbaş tayfalarından heç biri farslara qarışmamış və onların dilini qəbul etməmişlər. Onlar Azərbaycan hüdudlarından kənarda da yayılmış Azərbaycan dilində danışırdılar. Səfəvilər də bu dildə danışırdılar. I Şah İsmayıl (1487-1524) Xətayi ayaması ilə bu dildə şeir yazırdı (181, 71, 79). Bütün bunlar Seyvorinin mülahizələrinin düzgün olmadığını göstərir. Ancaq iş bundadır ki, iqtisadi inkişafa uyğun üstqurumda genişlənmə ilə yanaşı, dini və siyasi idarələr bir-birindən getdikcə uzaqlaşmağa başlamışdılar. Mülki və dini idarələrin vəzifələrinin getdikcə yığcam şəklə düşməsi xəlifə institutuna və xəlifət əl-xüləfanın dövlətdə nüfuzuna təsirsiz qalmırdı. Xəlifə institutunun başçısı xəlifət əl-xüləfanın dövlətin siyasi həyatında rolu getdikcə azalmaqda idi. Ancaq vaxtilə siyasi hakmiyyət uğrunda mübarizədə aparıcı qüvvə kimi çıxış etmiş sufilər pirdən sonra ikinci başbilən sayılan xəlifət əl-xüləfa hüquqlarındakı dəyişikliklərlə hesablaşmırdılar. Dövrün qaynaqlarında II Şah İsmayıl (1576-1577) ilə xəlifət əl-xüləfa Hüseynqulu Rumlu arasında baş vermiş faciəli hadisə təsvir olunur. Hüseynqulu Rumlu hələ şah Təhmasib dövründə xəlifət əl-xüləfa təyin olunmuşdu. İsgəndər bəy Münşi yazır ki, nə bayrağa, təbilə, nə də hərbi dəstəyə malik olmamasına baxmayaraq, çox

nüfuzlu olmaqla Diyarbəkr və Kiçik Asiyadan gələn sufilər ona tabe idilər. İsmayıl Mirzə hakimiyyətə keçənə qədər əmrlər hər gün Hüseynqulu xüləfanın evinə toplaşaraq onunla məsləhət edirdilər (80, 105, 140, 197). Şah Təhmasibin vəfatına kimi Rumlu, Əfşar, Təkəli tayfalarının başçıları İsmayıl Mirzənin tərəfdaşları kimi çıxış etmişdilər ki, onların içərisində ən nüfuzlusu Hüseynqulu xüləfa Rumlu idi. O, Səfəvi sarayında xəlifət əl-xüləfa vəzifəsini icra edir və Səfəviyyə təriqəti üzrə Şahın naibi hesab olunurdu. Şah, yaxud mürşid-i kamildən sonra xəlifələr xəlifət əl-xüləfanın hökmlərini Şahın buyruqları kimi qəbul edərək ona itaət edirdilər. Şah Təhmasib vəfat etdikdə on min nəfərə yaxın sufi mərkəzə toplaşıb Hüseynqulu xüləfanın göstərişlərini gözləyirdilər (133, c.I-II, 32-33).

İyirmi ilə qədər Qəhqəhə həbsxanasında dustaq olmuş İsmayıl Mirzə 1576-cı ildə hakimiyyətə keçdikdən sonra ətrafındakı sədaqətli adamlara da şübhə ilə yanaşmış və şəxsi mənafeyinə qorxu törədə biləcək hər kəsi məhv etməyə başlamışdı. Çox keçmədən xüləfa da onun şübhələrinin qurbanı oldu. Bu barədə «Tarix-i alam ara-yi Abbasi» daha ətraflı məlumat verir. İsmayıl Mirzə Xüləfaya öz inamını itirmişdi və əmr etdi ki, o ancaq «mənsəb-i ali-yi vəkalət-i divan-i ala və naebati-yi nəfs-i humayün», yəni Şahın naibi idarəsini özünə götürsün, əks halda xəlifət əl-xüləfa idarəsi başqasına veriləcək. İsmayıl belə fikirləşirdi ki, nə qədər ki, sufilər xüləfanı (Hüseynqulunu) özlərinə xəlifə, mürşid-i kamilin naibi hesab edirlər, onun (Şahın) əmrləri ikinci dərəcəli olacaqdır. Bu vaxt Qəzvində 10.000 nəfər sufi var idi və xüləfa hakimiyyətə onların köməyi ilə təsir edirdi. İsmayıl xüləfanı sınaqdan keçirmək qərarına gəldi və ona dedi: «Sənin hakimiyyətin həddini keçib, sən ancaq vəkil-i divan-i alini özünə götürməlisən». Hüseynqulu cavab verdi: «Mən xəlifət əl-xüləfanın mövqeyindən geri çəkilməyəcəyəm və vəkil vəzifəsi də buna əlavə edilsə lap yaxşı olar. Əgər bu mümkün olmasa, mən ancaq vəkalət ilə razılaşmayacağam». Ona görə ki, o öz xüləfalığını vəkillikdən üstün bilirdi. İsmayıl Mirzə bu sözlərə kədərləndiyini bildirdi. O, Rumlu əmirlərinə üzünü tutaraq dedi: «Sufi təcrübəsindən və Səfəvi

şeyxlərinin idarəetmə qaydalarına əsasən hər hansı bir sufinin və ya namizədin mürşid-i kamilin sözünü və göstərişini rədd edərsə, ona necə cəza veriləcəyini yaxşı bilirsinizmi?» Onlar dedilər: «Bir halda ki, mürşid-i kamilin iradəsi əleyhinə çıxılır və ona itaət edilmir, onda bütün səhv və günahlar rədd edilməlidir». Şah dedi: «Elə isə nə üçün xüləfa (Hüseynqulu) mənim sözlərimi rədd etdi». Bu xüləfaya (Hüseynquluya) çatdırıldı. Səhər o, Şahın yanına gəldi ki, öz üzürxahlığını bildirsin və ona bəzi hadisələri danışsın. O, eşik qapısına çatanda Şahdan məsləhət almış eşikağaları və naiblər onun yolunu kəsdilər və dedilər: «Bura sənin dövlətxanan olmayıb Şahın iqamətgahıdır. Şahın xeyli vaxtdan bəri şahlıq etdiyi bu yer Qızılbaşların baş dövlətxanasıdır. Sən bizim mürşidimiz olan Şaha qarşı çox böyük səhvdə və bəzi çatışmazlıqlarda günahlandırılırsan. Mürşid-i kamil sənin günahını gözdən keçirib qərara gəlməyincə sufi idarə təcrübəsinə əsasən sənə Şahın həyətinə daxil olmağa icazə verilmir. Mürşid-i kamil gəlib səni öz rahat sarayında görməyincə sən burada giriş qapısı ilə üzbəüz otur». Xüləfa (Hüseynqulu) heç vaxt eşitmədiyi və gözləmədiyi bu əmrin qarşısında dayandı və günortaya kimi qapı ağzında oturdu. İsmayıl Mirzə ona adam göndərib dedi ki, öz evinə qayıtsın, ona nə lazımsa ayrıca deyəcək. Hüseynqulu xüləfa bu hadisədən çox məmnun oldu və hamı belə hesab edirdi ki, Şah gedib bəzi şeyləri aydınlaşdıracaq. Hüseynqulu xüləfa evdə oturub iki gün gözləsə də, Şah tərəfindən verilən sözə heç də əməl olunmurdu. Rumlu əmirləri onunla adi dostluğu davam etdirirdilər. Üçüncü gün Şah Rumlu Əmiri Dəli Budağı yanına çağırıb soruşdu ki, Hüseynqulu xüləfa özünü necə hiss edir? O cavab verdi: «O təəssüf hissi keçirir və Şahın əmrinə qarşı çıxdığına görə vicdan əzabı çəkir və Şahın hər əmrini yerinə yetirməyə hazırdır». İsmayıl Mirzə dedi: «Əgər bu doğrudan da belədirsə, o mənim əmrlərimə tabe olursa, mən ona elə bir vəzifə göstərərəm ki, o öz vəziyyətini hər iki dünyada yaxşılaşdırar. Biz onu Məşhəddəki qorçuların qorçubaşısı təyin edirik. Bu ona insanlar arasındakı günahlarını bu dünyada Xorasanda və o biri dünyada bağışlanmasına kömək edəcəkdir». Dəli Budaq, Rumlu əmirləri və xüləfanın başqa adamları başa düşdülər ki, İsmayıl Mirzənin ona

etibarı yoxdur. Nəticədə onların hamısı ondan uzaq olmağı üstün tutdular. Nə Rumlu tayfasından bir kəs, nə bir xidmətçi onun evinə getmədi. O isə dəhşətli bir məğlubiyyət içərisində gözləyirdi. Bu vaxt Dəli Budaq gəlib çıxdı və ona hökmdarın məktubunu gətirdi. Dəli Budaq ona danışmağa imkan vermədi. Onu ata oturtdu və şəhərdən kənara çıxartdı və geriyə qayıtdı. Onun silahlarını və başqa hərbi ləvazimatını da ata yükləyib yola saldı. Hüseynqulu xüləfa Damğana çatanda, Damğanın hakimi Əli xəlifə Ağca Qoyunlu ona hökmdarın məktubunu göstərdi və dedi ki, o, başqa bir neçə əmri də yerinə yetirmək üçün Damğanda qalmalıdır. Bir neçə gündən sonra Kor Şahəli Rumlu Şahın əmri ilə Damğana gəldi və Hüseynqulu xüləfanın gözlərini çıxartdı (80, 202, 203, 214-297; 128, 519-525).

Beləliklə, II İsmayıl Hüseynqulunun gözlərini kor edərək xüləfalıqdan uzaqlaşdırsa da, yerinə yenə də Türk-Qızılbaş əsilzadəsi olan Bulqar xəlifəni qoymuşdu. Ancaq şiələri mötədil bir hala gətirməklə və sünnilərin sıxışdırılmasına qarşı çıxmaqla Osmanlılarla aralarındakı ixtilafları aradan qaldırmağa çalışan II İsmayılın baş tutmayan dini islahatları Bulqar xüləfanın təpkisi ilə qarşılaşmışdı. Şah dini məclislərin birində xəlifət əl-xüləfa qoyduğu Bulqar xüləfadan həzrəti Ayişənin lənətlənməsi ilə bağlı düşüncələrini sormuş, o da «küfr etmək haramdır; amma lənət etmək - işi Allaha həvalə etmək deməkdir...» cavabını vermişdir. «Sən saf bir kişisən, sənə bunu kim öyrətdi» deyə soran Şaha o, «Mərhum Təhmasib zamanında üləmadan duydum» demişdi. Bulqar xüləfa vəzifədən uzaqlaşdırıldı, ancaq onun vəzifəsi yenə də türk Ustaclı tayfa əmirlərindən Dədə bəyə verildi (80, 214; 108, 97; 3, 393; 67, 116).

Qaraqoyunlulardan başlayaraq I Şah Təhmasibin hakimiyyətinin ortalarına qədər mövcud olan vəkilliyi ilk baxışdan belə görünür ki, II Şah İsmayıl bərpa istəyində olmuşdu. Ancaq vəkalət uğrunda I Təhmasib dövründə Qızılbaş əmirləri arasında gedən çarpışmaların dövləti zəiflətməsini II İsmayıl çox yaxşı bilirdi. Əslində o bu idarə üsulundan istifadə etmək fikrində deyildi. Bunu dərk edən Hüseynqulu xüləfa da xəlifət əl-xüləfalığı «mənsəbi ali-yi vəkalət-i divan-i ala naebat-i nəfs-i humayun»dan üstün tutmuşdu.

Hüseynqulu xüləfaya təklif olunan bu vəzifə isə əslində onun xüləfalıqdan azad edilib. mərkəzdən uzaqlaşdırılması siyasətindən başqa heç bir məqsəd güdmürdü.

Xəlifət əl-xüləfaya gəldikdə isə bu idarə ilk Səfəvilərdən başlayaraq I Şah İsmayılın dövründə də mürşid-i kamillə mürid arasında əlaqə yaratmaqla dövləti möhkəmləndirmək işinə xidmət edirdi. II Şah İsmayıl və I Şah Abbas da çox çətin vaxtlarda «Şah sevən» elan edərək inanılmış sufiləri ətrafında birləşdirib onların keçmiş ideologiyasına arxalanmışdılar. Ancaq Hüseynqulu xüləfanın özünü müridləri üzərində mürşid-i kamil hesab etməsi, dövlət işlərinə qarışması II İsmayılı xəlifət əl-xüləfa nəzəriyyəsinin tarixi keçmişinə baxmağa məcbur etmişdi. O, mürşid və müridlərin arasında əlaqələri müqayisə edərək belə bir fikir üzərində dayandı ki, sonrakı (yəni mürid) əvvəlkinə sorğu-sualsız tabe olmalıdır. Bir dəfə II İsmayıl belə söylədi ki, Hüseynqulu xüləfa yox, onun özü əsl mürşid-i kamildir. Xəlifət əl-xüləfa mürşid-i kamil tərəfindən verilən hər əmrə tabe olmalı, onu yerinə yetirməlidir. «Tarix-i alamara-yi Abbasi» bunu da aydınlaşdırır ki, xəlifət əl-xüləfa Şahın bu fikrini tez başa düşmədi və istəyini özünün acgözlük cəhdi kimi qiymətləndirmədi. Onun Rumlu tərəfdarları da onun cinayətinin böyüklüyünü görə bilməmişdilər. Ancaq fikirləşmişdilər ki, ona qarşı çıxmaqdansa, ona tabe olmaq daha yaxşıdır. Hətta, Şah mürşid-mürid əlaqəsindən xəlifət əl-xüləfanın məhv edilməsində bir vasitə kimi istifadə edəndə də Qızılbaşlar, bunu ciddi bir iş kimi qəbul etməmişdilər. Bu hadisələrin onlara qarşı ənənəvi qaydada qurulmuş bir oyun 0lduğunu düşünməməişdilər. Əslində II İsmayıl Səfəvi dövlətini möhkəmləndirməklə yanaşı, Osmanlılarla münasibətləri daha da yaxşılaşdırmaq istəyirdi. Onun yarımçıq qalan, yəni həyata keçirə bilmədiyi dini islahatı bu məqsədə qulluq edirdi. O, şiəliyi mötədil bir hala gətirməklə sünniliyin sıxışdırılmasına qarşı idi. Əsərində II Şah İsmayılın dini islahatlarının mahiyyətini doğru şərh edə bilməyən Oruc bəy Bayatın fikrinə görə guya Şah xalqa elan etmişdir ki, şiəlikdən əl çəkib sünnülüyü qəbul etsinlər. Əslində Şah, şafiliyə meyilli olub, hər iki məhzəbə qulluq edənlərin bir yerdə bərabər hüquqlarla yaşamasını istəyirdi. Həzrəti Ayişənin

lənətlənməsinin əleyhinə idi. Onun haqqındakı düşüncələrini dini məclisdə bəzən açıq, bəzən də qapalı bildirirdi. II Şah İsmayıl Həzrəti Ayişənin lənətlənməsini və üç xəlifənin (Əbubəkr, Ömər və Osman-Z.B.) pislənməsini qadağan etmişdi. O, məscidlərin divar və qapılarına yazılmış aşiqanə şeirləri sildirdi. İsmayılın bu hərəkətləri xalq arasında narazılıqla qarşılandı. Onun sünniliyə meylli olduğuna şübhə oyandı. Amma ağıllı din xadimləri və əmirlər buna o qədər də ciddi bir iş kimi baxmadılar. Çünki, onlar başa düşürdülər ki, II İsmayıl iki məzhəb tərəfdarlarını bir-birinə yaxınlaşdırmaq və aralarındakı ixtilaflara son qoymaq istəyir. Amma bir çox Türkman və Təkəli əmirləri Şahın qardaşı oğlu Həsən Mirzəni onun yerinə gətirmək cəhdi göstərdilər. Ancaq Həsən Mirzəni artıq Şaha yaxınlaşmış Ustacılar aradan götürdülər. Çox keçmədi ki, II Şah İsmayıl 1577-ci ildə müəmmalı şəkildə vəfat etdi (80, 114; 165, 81; 67, 116-117). I Şah Abbasın sarayında dəfələrlə rəsmi məclislərdə olmuş İtaliyalı Pyetro della Valle Şahla sufilər arasındakı münasibətlərin mahiyyətini olduqca düzgün müəyyən edə bilmişdir. Səyyahın yazdığına görə, Şah zahirdə sufilərə yaxşı münasibətdə olduğunu göstərsə də, əslində onlara inanmır və etimadı yox idi. Ancaq buna baxmayaraq I Şah Abbas hara getsə, sufilər də onunla birgə gedir və Şah hər axşam 300-400 nəfər sufiyə şam yeməyi də verirdi. Əslində I Şah Abbas sufilərdən ehtiyat edir və onlarla müəyyən mənada hesablaşmağa məcbur idi (121, 228). 0, sufilərə qarşı münasibətdə öz sələflərinin siyasətini dolayı yolla davam etdirir, xüləfa vəzifəsini tutan Qızılbaş əmirini cəzalandırır, yaxud tez-tez yerini dəyişirdi. Yaxud xüləfaya eyni zamanda hakimlik verib, onu mərkəzdən uzaqlaşdırırdı. Məsələn, I Şah Abbas dövründəki, xüləfalardan Qaradağlı İlyas Qaracadağın, Alpoutlu Bədr xan isə Talışın bəzi yerlərinin hakimi olmuşdular (80, 819-1086).

I Şah Abbas da xəlifət əl-xüləfadan ehtiyat etdiyinə görə sufilərin hüquqlarını mümkün qədər azaltmağa çalışırdı. Bəzən onun bu siyasəti ayrı-ayrı sufilərin ona qarşı çıxması, yaxud xəyanət etməsi ilə bağlı olurdu. Digər tərəfdən isə, Azərbaycan hüdudlarından kənarlarda yenə də sufi təşkilatının genişlənməsi müşahidə

olunurdu. Anadoluda bu vaxtlar xeyli mürid meydana çıxmışdı və onlar da I Şah Abbası özlərinin mürşid-i kamili hesab edirdilər.

Nəsrullah Fəlsəfinin qeyd etdiyi kimi, xəlifət əl-xüləfa I Şah Abbasa qədər ən böyük vəzifələrdən hesab olunurdu. Ancaq çox keçmədi ki, I Şah Abbas onların qüdrət və nüfuzlarını azaltdı (133, c.I-II, 815). Ona görə ki, İsfahandakı sufilərin hamısı hər axşam sarayın giriş qapısının açıldığı küçədəki touhidxanaya toplaşırdılar. Sufilərin və sufi qoruyucularının məskəni bu məhəllə yaxınlığında idi. Sarayın giriş qapısını və sarayı ətrafını sufilər qoruyurdular. Şah saraydan çıxdıqda sufilər onu müşayiət edir və mühafizləri də onlar idilər. Saraya pənah gətirən və yaxud burada bəstə oturanlar sufilərin razılığını almalı idilər. Artıq sufilərin nüfuzu həddini aşmışdı. Hakimiyyətini sufi-dərviş cəmiyyəti təsirlərindən qurtarmaq üçün I Şah Abbas onlara yaxın olan xüsusi dövlət mühafizəçilərini, yəni qorçuları sıxışdırıb onların nüfuzlarını azaltmağa məcbur olmuşdu. O, bu işi həyata keçirmək üçün Osmanlı yeniçərilərinə oxşar yeni qoşun növü yaratdı ki, bu qoşun qorçulara bərabər olub, onlarla rəqabətə davam gətirməli idi. Əslində sufilərin sıxışdıraraq nüfuzlarının azaldılması dövləti maraqlardan irəli gəlir və bu hakimiyyəti möhkəmləndirməli idi (103, 107-108).

R.Seyvori «Tarix-i aləm aray-i Abbasi»yə əsaslanaraq göstərir ki, Şah h. 998 (1589-90)-cı ildə xüsusi fikir və mühakimələrini həyata keçirməkdə tələsmişdi. Bu isə onun tərəfdarlarını da hövsələdən çıxarmışdı. Həyəcanlanmış sufilər I Şah Abbası məclisə çağırmaq və ona belə bir sual vermək fikrinə düşdülər: Bizim pirimiz kimdir? Bu sualın mənası o idi ki, nə qədər ki, Abbasın atası sağdır o, (Abbas) mürşid-i kamil deyə çağırıla bilməz. Sufilər ümid edirdilər ki, bu fikir güclənəcək və Sultan Məhəmməd onların mürşid-i kamili, nəticədə isə padşah kimi tanınacaq. Şah Abbas özü də sufilərin bu məqsədini qabaqcadan başa düşürdü. O, məclisi buraxdı və sufilərə əmr etdi ki, əgər müzakirə edilməli bir məsələ olsa, ona üç nümayəndə göndərsinlər. Nümayəndə oraya çatanda, təhlükədə olduqlarını başa düşdülər və sufilərin qalanı ayaqqabılarını belə geymədən dağılışmağa məcbur oldular. Bu vaxtdan etibarən Şah Abbas sufilərin nüfuzunu endirməyə başladı. Bir neçə

ildən sonra, h.1001 (1592-93)- ci ildə sufilər Şah Abbasın qəzəbinə gəldilər. Elə bu zaman Təbrizin alınmasında osmanlılarla əməkdaşlıq etmiş və Qəhqəhə qalasında əvvəllər kutval olmuş Xəlifə Ənsar Qaradağlının oğlu Şahverdi Xan Qaradağda xeyli yer də ələ keçirmişdi. Şah Abbas sufilərin Qaracadağdan uzaqlaşmasına çox böyük əhəmiyyət verirdi. Ona görə ki, bu qrup Səfəvilərin varlığının ilk illərində çox böyuk nüfuz sahibi olmuşdular. Bunlar hələ İsmayıl Gilanda gizlənərkən onu müdafiə etdiklərinə görə «lahican sufilərinin veteranı» kimi şöhrət qazanmışdılar. Şahverdi xan Osmanlılar qarşısında günahlarını yumaqla kifayətlənmədi, o həmçinin tərəfdarlarını artırmaq üçün düşmən qarşısında sədaqətli olacağına and içdi. Şah Abbas bu təhqiredici durumla razılaşmadı. İyirmi iki il sonra h 1023 (1612-15)- cü ildə Şahverdi xanın dəstəsindən xeyli adam onun (Şahın) əlinə düşdü və onlar sufi olmamaqda günahlandırılaraq o saat öldürüldülər. H. 1022-23 (1614)-cü ildə yuxarıda təsvir olunduğu kimi, Şah Abbas Qaradağlı nəslindən olan sufiləri düşmənə qarşı çıxmamaqda ittiham edirdi. Xəlifət əl-xüləfa Məhəmmədqulu Rumlunu isə sufiləri mürşid-i kamildən üz döndərtməkdə günahlandırmışdılar (211, 501-502; 181, 93-94).

H.1045 (1635-1636)-cı il hadisələrindən bəhs edən Xacəki İsfahani Qaracadağlı Maqsud Sultanın xüləfa vəzifəsinə təyin olunduğunu bildirir (126, v.92). Həmin ildə Xəlifə Rzainin yüksək xüləfalıq vəzifəsinə təyin olunması barədə Məhəmməd Yusif Qəzvinin «Xold-i bərin» əsərində məlumat vardır (128, Bn, v.108). Artıq XVII yüzilliyin ortalarından etibarən sufilərin rolu azalmaqda davam edirdi.

XVII əsrin sonlarında bu barədə Sanson maraqlı məlumat verir. O yazır ki, xüləfa sufilərin rəisi və Şahın xüsusi ruhanisi idi. O, cümə axşamları bütün sufiləri Şahın sarayındakı məscidə toplayır və hamısı birdən Şahın səlamətliyi üçün dua oxuyurdular. Şah sinidə gətirilmiş şirnidən bir parça götürdükdən sonra əmirlər və yüksək rütbəli şəxsiyyətlərin hər biri də bir tikə şirni götürürdülər. Beləliklə, Şah onları təbrik edir və mərasim başa çatır. Sanson sözünə davam edərək yazır ki, sufilər keçmişdə çox böyük hörmətə malik

olmuşdular. Lakin hazırkı vaxtda çox aşağı bir vəziyyətdədirlər. Ona görə ki, onların gecələr bir yerə toplanıb iclas və ya yığıncaq keçirmələrinə icazə vermirlər. Hazırda sufilər qapıçılıq, pişxidmətlik və ona bənzər işlər görürlər. Ədliyyədə ancaq icraçı vəzifələri onlara tapşırılır. Lakin yenə də ölkənin bütün əmirləri və yüksək rütbəli şəxsiyyətləri sufilər arasından seçilirlər. Şah da onların rəisidir. Şahı xaricilərdən başqa heç kəs «sufi» adlandırmır. Ona görə ki, İranda (Səfəvidə-Z.B.) bu addan bir çox adamın xoşu gəlmir (106, 56-57). Sansonun qeydlərindən göründüyü kimi, hakimiyyətin möhkəmləndirilməsi üçün sufilərin hüquqları məhdudlaşdırılaraq onların üzərində ciddi nəzarət yaradılmışdı. Ancaq İsfahanda bu adın bir çox adamları rahatsız etməsinə baxmayaraq dövlət quruluşunda onlar öz nüfuzlarını tam itirməməmişdilər və onu yenə də qoruyub saxlayırdılar.

Apardığımız araşdırmadan məlum olur ki, Səfəvilər dövlətinin mahiyyəti ilə bağlı olaraq yaranmış xəlifət əl-xüləfa institutu XVI-XVII yüzilliklər boyu müəyyən dəyişikliklərə uğramaqda idi. Bu ilk növbədə Şah hakimiyyətinin özünün dəyişməsi ilə paralel davam edirdi. Belə ki, Şah hakimiyyəti getdikcə güclənib daha çox dünyəvi mahiyyət aldıqca Şahın «pir», «mürşid-i kamil» kimi çıxış etməsi halları azalırdı. Bu proses həm də xəlifət əl-xüləfanın səlahiyyət və hökmünün getdikcə azalması ilə müşahidə olunurdu.

# III FƏSİL
# TÜRK QIZILBAŞ ƏMİRLƏRİNİN İNZİBATİ İDARƏ SİSTEMİNDƏ YERİ

## §1.İnzibati quruluş

Azərbaycan Səfəvi imperatorluğu Fəratdan Qəndəhara, Qafqazdan Hind okeanına qədər 2.800.000 $km^2$ ibarət geniş bir ərazini əhatə edirdi. Bu geniş ərazi təbii sərhədləri ilə bir-birindən ayrılan vilayətlərə bölünürdü. Mirzə Səmia «Təzkirət əl-müluk» adlı əsərində imperatorluğun Ərəbistan, Luristan, Gürcüstan, Kürdüstandan ibarət dörd valiliyə və on üç bəylərbəyiliyə bölündüyünü qeyd etmişdir. O yazır ki, Ərəbistan valisi şəxsi şücaəti və elinin nüfuzuna görə şan-şöhrətli, həm də yüksək rütbə sahibi idi. Luristan valisi isə müsəlman olub, dövlət qarşısında xidmətinə görə Gürcüstan valisi ilə müqayisədə daha etibarlı hesab edilir və ikinci yerdə dururdu. Nüfuzuna görə üçüncü yeri tutan Gürcüstan valisindən sonra dördüncü yerdə Kürdüstan valisi dayanırdı (132, 4, 5). Bəylərbəyiliklərdən isə birinci Qəndəhar, ikinci Şirvan, üçüncü Herat, dördüncü Azərbaycan, beşinci Çuxur-Səd, altıncı Qarabağ və Gəncə, yeddinci Astrabad, səkkizinci Kuhgiluyə (Fars), doqquzuncu Kirman, onuncu Mərvi Şahicahan, on birinci Qələmrov-i Əlişəkər ölkəsi (Həmədan), on ikinci Məşhəd-i müqəddəs-i müəlla, on üçüncü Darüssəltəney-i (paytaxt) Qəzvindir (132, 4, 5). Müəllifin Qəzvinin həm paytaxt və həm də on üçüncü bəylərbəyilik olduğunu qeyd etməsi, bu inzibati bölgünün I Şah Abbasdan əvvəlki dövrə aid olduğunu göstərir. Ona görə ki, XVII yüzillikdə Təbriz, Qəzvin və Herat şəhəri də «darüssəltənə» ünvanına malik idi. Sultanın iqamətgahının yerləşdiyi şəhər, yəni İsfahan isə «məğərərüssəltənə» adlanırdı (103, 184). Digər tərəfdən isə XVII yüzilliyin 80-ci illərində Qəzvin xassə olduğuna görə, birbaşa mərkəzə tabe olub, Sansonun yazdığı kimi, darğa tərəfindən idarə edilir (106, 6), yəni buradakı darğa əslində hakim statusuna malik idi.

Engelbert Kempferin yazdığına görə, Səfəvi imperiyası I Şah Abbas tərəfindən Fars, Xorasan, Azərbaycan, Gilan və Mazandaran, İraqi-Əcəmdən ibarət beş əsas əyalətə bölünmüşdü. Fars əyaləti İran körfəzinə qədər uzanır. İyirmi mahala bölünür ki, onlardan ən böyüyü əyalətin mərkəzi Şiraz şəhəri idi. Xorasan Hindistana qədər geniş ərazini əhatə edir, qırx mahala bölünür, mərkəzi Məşhəd olub, eyni adlı mahaldan başqa üç digər mahal da ona tabedir. Səfəvi imperiyasının metropoliyası olan Azərbaycanın Şimal-Qərbdən Osmanlı sərhədinə qədər əhatə etdiyi və İrəvanın da onun tərkibinə daxil olduğunu qeyd edən E. Kempfer bu əyalətin əlli beş mahala böləndüyünü, mühüm ticarət şəhəri Təbrizin onun mərkəzi olduğunu, eyni adlı mahaldan başqa doqquz digər mahalın da ona tabe olduğunu qeyd edir. O, Gilan və Mazandaranın iyirmi bir mahala bölündüyünü, əyalətin mərkəzinin Astrabad olub, eyniadlı mahalla yanaşı, iki digər mahalın da Astrabada aid olduğunu, İraqi - Əcəm əyalətindəki İsfahan şəhərini imperiyanın mərkəzi olub, eyniadlı mahal və dörd digər mahalın da ona tabe olduğunu yazır (96,157,158). Fars əyalətində Luristan, Xuzistan, Kürdüstan və Sistan; Xorasanda Məşhəd, Herat, Xorasan, Qəndəhar; Xəzər sahilində Astrabad; Azərbaycanda Təbriz, İrəvan, Dağıstan, Azərbaycan, Qarabağ, Gürcüstan və Şirvan; İraqi-Əcəmdə Kuhgiluyə və Həmədan bəylərbəyilik idi. Müəllifin yazdığına görə bəylərbəyilik arasında bir neçəsi nüfuzu və qədimliyi baxımından digərlərindən üstün olub, onların hakiminə vali deyə müraciət edilirdi. Gürcüstan, Xuzistan, Luristan, Dağıstan valiləri əsilzadə olub, Səfəvilərdən əvvəl adları çəkilən nahiyələrə başçılıq etmiş hakimlərin nəslindən idilər (96,161).

Sansona görə, bu ölkədə valilər tərəfindən idarə olunan on nahiyə vardı ki, onlar Gürcüstan, Luristan, Həvize (Ərəbistan), Bəxtiyari, Zeytun-Ərdalan (Kürdüstan), Mazandaran, Çərkəz, Herat, Qəndahar, Kirmandan ibarət idi (106, 58). Sanson sonralar valilərin sayının Şah tərəfindən azaldıldığını və onların yerinə bəylərbəyi təyin edildiyini yazmışdır. Səyyaha görə əvvəl vali tərəfindən idarə olunan Kirmana, Luristana bəylərbəyi təyin olunmuşdu (106, 59). Sanson qeyd edir ki, valilər tərəfindən idarə

olunan nahiyələrdən başqa on iki bəylərbəyilik də vardı ki, onlar Təbriz, Kərəc (Çors), Ərdəbil, Lar, Məşhəd, Astrabad, Kirmanşah, Həmədan, Şüştər, Gəncə, Şamaxı, İrəvan vilayətlərindən ibarət olub, hakimləri bəylərbəyi (106, 60) statusuna malikdir. Ancaq Azərbaycan Səfəvi dövlətinin inzibati və ərazi bölgüsü haqqında istər E.Kempfer və Sansonun, istərsə də dövrün başqa avropalı müəlliflərinin məlumatları ilə müqayisədə «Təzkirət əl-müluk»un verdiyi məlumatlar daha mükəmməl olub, tarixi gerçəklikləri özündə əks etdirir.

Mirzə Səmianın «Təzkirət əl-müluk» adlı əsərinin sonunda, ikinci məqalədə vilayət və onların tərkibindəki mahallar, ulkalar haqqında müfəssəl məlumat verilmişdir:

Qaynaqda Astara, Marağa və Müqəddəm eli ulkası (Marağada), Əfşar eli ulkası (Urmiyada), Qaracadağ, Çors, Kavərd, Qapanat, Vərgəhan, Gərmrud, Adərba eli ulkası, Həştrud və Tabtaba, Mədək, Lahican, Dünbülü eli ulkası (Xoyda), Ucarud, Abdallı eli ulkası, Sərab, Şəqqaqi eli ulkası, Zunuz və Qarnıyarıq, Meşkin, Muğanın əkin yerləri (çaylar) ulkası, Peşək qalası, Salmas Lək sultanlığı, Qaraağac (Talışda), Şahsevən İnallı ulkası, Sultaniyyə və Zəncanın (132, 72-75) Azərbaycan vilayətinin tərkibinə daxil olduğu qeyd edilmişdir. Azərbaycan şəhərlərindən Qəzvin 1555-ci ildən xassə əmlakı olub, Şah tərəfindən təyin olunan hakim statusuna malik darğa tərəfindən idarə edildiyi və şəhərin hakimi Azərbaycan bəylərbəyinə deyil, birbaşa Şaha tabe olduğu üçün qaynaqda bura darussəltəney-i Qəzvin adı ilə ayrıca inzibati vahid kimi göstərilmişdir (132, 5). Ancaq Qəzvin Azərbaycan şəhəri idi və bu barədə Pyetro della Valle də yazır «Qəzvin böyük şəhər olub, Azərbaycan vilayətinin bir hissəsinin mərkəzidir» (86, 290). 1618-ci ildə ispaniyalı elçi Don Qarsiya de Silva İsfahan şəhərini tərk edib Qəzvin istiqamətində beş gün ərzində hər gün 2-3 fərsəh yol qət edərək Azərbaycan vilayətinin sərhəddindəki kiçik dağlara çatıb, yazır: «Nə bir ağacı, nə də kolu olmayan bu dağlar Farsı Azərbaycandan ayırır» (105, 236, 238). Müəllifə görə, Kaşan şəhəri Azərbaycanla Fars vilayəti arasında sərhəddə yerləşir və Azərbaycan şəhəridir (105, 236, 238, 246). Ən azı Kaşan Azərbaycan şəhəri

deyil, Azərbaycanla Fars arasında sərhəd şəhəri olsa belə, onda onun Şimal-Qərbindəki Qəzvinin və bu bölgədəki digər şəhərlərin, kəndlərin Azərbaycana aid olması heç bir şübhəyə səbəb olmamalıdır.

Azərbaycan bəylərbəyiliyi əsasən indiki Güney Azərbaycanın ərazisini əhatə etməklə Zəncan, Sultaniyyə, Muğan, Talış və Qapan mahalı da ona tabe idi. Mahmud Nətənzi Azərbaycan vilayətinin ərazisi haqqında yazır ki, Sultan Məhəmməd (1578-1587) dövründə Əmir xan Əbhər və Sultaniyyə sərhəddindən tutmuş Aran vilayətinin sərhəddinə qədər bütün Azərbaycanın hakimi idi (129, 158). 1683-1685-ci illərdə İran və Azərbaycanda olmuş Engelbert Kempfer isə yazırdı: «Azərbaycan Səfəvi imperiyasının şimal-qərbi, Şimali Midiya və ondan Şimal-Qərbdə yerləşən torpaqların bir qismini əhatə edir. Bu vilayət 55 inzibati vahidə bölünmüşdür. Ən mühüm ticarət mərkəzi olan Təbriz onun mərkəzi şəhəridir. Doqquz digər inzibati vahid də ona tabedir» (96, 158).

Azərbaycan bəylərbəyliyi Səfəvi dövlətinin ən böyük vilayətlərindən biri olub, əsasən Güney Azərbaycan torpaqlarını əhatə edirdi. Şah İsmayıl 1501-ci ildə hakimiyyətə keçdikdən bir qədər sonra Azərbaycanın idarəçiliyi Xan Məhəmməd Ustaclıya tapşırılır. Çox keçmir ki, onu Əhməd xan Şamlı əvəz edir. H.935 (1528-29)-cu ildə isə Ulamə Sultan Təkəli Azərbaycan və Təbriz hakimi təyin edilir. O, Şah İsmayıl dövrünün sabiq yasavullarından olub, sonralar bacarığı sayəsində əmir rütbəsinə layiq görülmüş və Cövhə sultan vəkil olduğu vaxtlarda Azərbaycanın əmir ül-ümərası vəzifəsinə yüksələ bilmişdir. Cövhə Sultan öldürüldükdən sonra isə onun yerinə vəkil olmaq istəyirdi. Lakin məqsədinə nail ola bilmədikdə Şaha qarşı çıxır (80, 66; 77, 237; 118, 42a-b). 1530-cu ildə Təbrizə gələn Ulamə bəy burada Şahın və ona yaxın adamların əmlakına yiyələnir (28, 65).

Ancaq Şah qoşunu ilə döyüşdə məğlub olan Ulamə Təkəli 1531-ci ildə Osmanlı dövlətinə qaçır (77, 237) və onun yerinə Musa bəy (sultan) ibn İsa bəy Mosullu Azərbaycana əmir əl-ümərа təyin edilir və darüssəltənə Təbrizdə qüvvətli hökumət yaradılır (28, 68). Fəzli İsfahani yazır ki, Şah İsmayıl Azərbaycanın bütün ixtiyaratını

ona tapşırmışdı. Müəllif Musa Sultanı bir yerdə Təbriz, digər yerdə isə Azərbaycan bəylərbəyi kimi qeyd edir (128, 396; 118, v.68b, 69a, 263; 72, c.v, 141; 67, 102). Azərbaycan bəylərbəyi təyin edilmiş hər bir əmirə «sultan» və ya «xan» titulu da verilir və o həm də Təbriz hakimi hesab olunurdu. Qeyd edək ki, bu qayda təkcə Azərbaycana aid deyildi. Qarabağ bəylərbəyi Gəncə, Şirvan bəylərbəyi Şamaxı, Çuxur-Səd bəylərbəyi isə İrəvan hakimi idi.

Qaynaqların verdiyi məlumata görə h. 940-941 (1534-1535)-ci ildən h.985 (1577)-ci ilə qədər Təbriz xassə əmlakı olmuş və bu zaman kəsiyində vilayət bəylərbəyi deyil, Şah tərəfindən hakim statusu ilə təyin olunan darğa tərəfindən idarə edilirdi. (128, 398). H.985 (1577)-ci ildə Təbriz yenidən divan ərazisi tərkibinə daxil edilir və vilayətə elə həmin ildə I Şah Təhmasibin qızı Fatma Soltan bəyimin əri, Mosullu əsilzadələrindən Əmir xan Türkman bin Gülabi bəy bin Əmir bəy Mosullu bəylərbəyi vəzifəsinə təyin olunur. O, bu vəzifəyə təyin olunana qədər on iki il Həmədan, sonra isə Simnan hakimi olmuşdu.Əmir xan 1577-ci ildə Simnandan Qəzvinə gəldikdə, sarayda Azərbaycana bəylərbəyi təyin olunması ilə bağlı müzakirə gedirdi. Baş vəzir Mirzə Salman bu vəzifəyə Pirə Məhəmməd xanın namizədliyini irəli sürmüş, ancaq o, Azərbaycana bəylərbəyi vəzifəsinə getməkdən imtina etmişdi. Bu hadisədən sonra Mirzə Salmanın köməyi ilə Azərbaycana bəylərbəyi vəzifəsinə Əmir xan göndərilmişdir (128, 284, 403, 597; 121, Tn., v., 414, 434, 475, 476). İsgəndər bəy Münşi yazır ki, Sultan Məhəmməd 1577-ci ildə məmaliki məhrusənin Qızılbaş tayfalarının böyük əmirləri arasında bölünməsini buyurur. Bu buyruğa əsasən Əmir xan Mosulluya darossəltəne-ye Təbriz verildi. Əmir xanın məsləhəti və razılığına görə oğlu Murad xana, qardaşları İsmayıl sultana, Şahqulu sultana və İbrahim sultan Piyada Türkmana Azərbaycanda ulkalar verilir və onlar əmirlik rütbəsi ilə təltif olunur (80, 227). Beləliklə, Əmir xanın qardaşları, oğulları, qohumları da əmir rütbəsi alıb, vəzifə sahibi olurlar. Onun Türkman və digər oymaqlardan 12 min nəfərlik qoşunu var idi. Ancaq Əmir xan tutduğu vəzifədən istifadə edib, Təbriz əhalisini çox incitdiyinə, onlardan əlavə vergilər aldığına görə, əhali dəfələrlə ondan Şaha şikayət ərizəsi yazıb

göndərmişdi. Nəhayət, 1585-ci ildə Həmzə Mirzənin göstərişi ilə Əmir xan Qəhqəhə həbsxanasına salındı və elə həmin il orada edam olundu. Əmir xanı əvəz edən Ədhəm xandan sonra Əliqulu sultan xan rütbəsi alıb, Azərbaycan bəylərbəyi və Təbriz hakimi oldu. Sultan Məhəmməd ona «qardaş», «yoldaş» deyə müraciət edirdi (119, c.2, 771; 80, 296-301; 128, 698; 114, c.II., 256-279).

Sultan Məhəmməd 1585-ci ildə isə Məhəmməd xan Toxmaq Ustaclını Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin edərək ona tapşırır ki, Təbriz əhalisi ilə ədalətlə rəftar etsin (121, Bn., v.263).

Sultan Məhəmməd və oğlu Həmzə Mirzənin 1585-ci ilin yayında Bazar Çay yaylağında istirahət etməsindən istifadə edən Osman paşanın osmanlı ordusu Təbrizi mühasirəyə almış, şəhər əhalisi müqavimət göstərməyin mənasız olduğunu gördükdə, mallarını, canlarını qorumaq naminə tabe olmağı qərara almışdılar. Məhəmməd Yusif Qəzvini yazır ki, təbrizlilər şəhər qazısı Kamran bəy, şeyx ül-islam Mövlanə İnayətin oğlu Mövlanə Məhəmməd Əlini Osman paşanın yanına göndərib tabe olduqlarını və özlərini Ali Osmanın təbələri saydıqlarını bildirdilər. Osman paşa onların təkliflərini qəbul edib, şəhər əhalisinə aman verildiyini bildirsə də, şəhərdə Osmanlılar ciddi təpgi ilə qarşılaşmış, qətl, qarət də baş vermişdi. Osmanlı ordusu şəhəri tam ələ keçirdikdən sonra burada qısa müddətdə iç qala inşa edildi, şəhər və qala Cəfər paşaya tapşırıldı (128, 712, 716, 717, 718). Təbriz 1586-cı ildən 1603-cü ilə qədər onların hakimiyyəti altında olmuşdu. Osmanlı dövləti Təbrizin idarə olunmasını Cəfər paşaya tapşırmışdı. H.999 (1590-91)-cu ildə isə o, işdən götürülür və yerinə Xızır Paşa təyin edilir. Bu dövrdə Azərbaycan Osmanlı dövləti qayda-qanunu əsasında idarə olunmuşdu.

Təbriz azad edildikdən sonra h.1012 (1603)-ci ildə Türkman tayfasından olan Pirbudaq xan Pornak Azərbaycan bəylərbəyi və Təbriz hakimi olur. Lakin o, 1616-cı ildə Osmanlı ordusu ilə savaşda qətlə yetirilir və yerinə oğlu Şahbəndə xan Azərbaycan bəylərbəyi təyin edilir. O, 1625-ci ilə qədər Azərbaycan bəylərbəyi olmuşdur (Arada az müddətə Qarçırqay xan Azərbaycan bəylərbəyi seçilir). Şahbəndə xan Gürcüstanda vuruşmada öldürüldükdən sonra

Şah onun üç yaşlı oğluna II Pirbudaq adı, həm də xan titulu verib Azərbaycan bəylərbəyi təyin edir (128, v.95, 98a, 133b, 134a; 194,91).

İ.P.Petruşevski Türkman tayfasının Pornak şaxəsindən olan kiçik yaşlı Pirbudaq xanın bəylərbəyi təyin edilməsi haqqında yazır ki, üç yaşlı uşağın bəylərbəyi təyin edilməsi Şah Abbasın güclü dövlət yaratmaq istəklərinə baxmayaraq, Türkman tayfası başçılarının Azərbaycan bəylərbəyiliyinə bir inzibati mənsəb kimi yox, oranı özlərinin irsi idarə əmlakı hesab etmələri ilə Şahın hesablaşdığını göstərir (181, 125).

Biz işin zahiri formasını nəzərdə tutsaq, İ.P.Petruşevski bu barədə haqlıdır. İlk baxışda burada bir nəsil üçün irsiliyi nəzərə çarpsa da, məsələnin mahiyyətinə vardıqda məlum olur ki, bu qayda bir nəsil üçün yox, bir türk tayfa aristokratiyası üçün ənənəvi olmuşdur. Hətta I Şah Abbasın mərkəziləşdirmə siyasəti sahəsində əldə etdiyi uğurlara baxmayaraq Türkman tayfasından olan Şahbəndə xanın üç yaşlı oğlunu Azərbaycan bəylərbəyi təyin etməsi bunu deməyə əsas verir. Vilayətlərdə sakin olan Qızılbaş tayfalarının bir və ya bir neçə obası istisna olmaqla, onun elliklə (Türkman, Əfşar, Qacar, Ustaclı və sairə) yerini dəyişdirmək, yəni başqa əyalətə köçürmək mümkün deyildir. Vilayət hakimi öldükdə və ya öldürüldükdə, yaxud tutduğu vəzifədən azad ediləndə onun yerinə oğlunu, qohumunu və onlar olmadıqda isə mənsub olduqları tayfanın etibarlı şəxsiyyətlərindən biri tayfa əmiri seçilir və o həmin vilayətə hakim təyin olunurdu. Şah vilayətlərdə türk tayfalarının irsi idarəçiliklərini qoruyub saxlamaq cəhdləri ilə hesablaşmağa məcbur idi. Bəzən də elə olurdu ki, bir tayfa başçısı öldükdə, onun əvəzinə başqa tayfa əmirlərindən birini həmin tayfaya əmir təyin edirdilər. Ancaq bu elə də müsbət nəticə vermirdi. Tayfa üzvləri digər tayfa içərisindən onlara əmir təyin edilmiş şəxsə ögey münasibət bəsləyirdilər. Məsələn, Şah Səfi (1629-1642) hakimiyyətə keçdikdən sonra II Pirbudaq xanı yaşının az olmasını bəhanə edib, H.1044 (1634-35)-cü ildə Azərbaycan bəylərbəyliyi və Təbriz hakimi vəzifəsindən azad etmiş və dörd ildən sonra isə Dəştistana hakim göndərmişdi. H.1044 (1634-1635) -cü ildə onun yerinə qulam əsil-

zadələrindən Rüstəm xan Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin olunmuşdu. H.1045-ci ildə Osmanlı ordusu Təbrizə hücum edərkən Rüstəm xan Təbriz əhalisini müvəqqəti olaraq başqa yerə köçürtdü (128, v.95, 98a, 134b, 134a; 194, 84). Lakin Rüstəm xanın Azərbaycanda arxası, dayağı olmadığı üçün bəylərbəyi vəzifəsində çox qala bilmədi. 1643-cü ildə II Şah Abbas Şahbəndə xanın oğlu Pirbudaq xanı yenidən Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin edir. Məhəmməd Yusif Qəzvini yazır ki, Pirbudaq xan Pornak Türkmanın ata-babaları da həmişə bu yüksək vəzifədə olmuşdular (128, v.172a).

H.1060-cı il rəbiüləvvəl ayında isə (mart 1650) Pirbudaq xan Azərbaycan bəylərbəyi və Təbriz hakimi vəzifəsindən götürülüb yerinə sipahsalar Rüstəm xanın qardaşı - Kəlat qalasında həbsdə olan Əliqulu xan Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin olunur (128, v. 213b; 125a, 51). Lakin soyca Qızılbaş olmayan Əliqulu xan vəzifəsindən sui-istifadə edərək yerli əhalini incitdiyinə, onlara qarşı haqsızlığa yol verdiyinə görə Azərbaycan, xüsusilə də Təbriz əhalisi ondan və onun mülazimlərindən Şaha şikayət edirlər. Bu hadisəni Məhəmməd Yusif Qəzvini belə təsvir edir: «Azərbaycan və Xorasan rəiyyəti və acizləri (yoxsulları-Z.B.) zalımların zülmünə məruz qalmışdılar. Onlar ədalət astanasına gedib öz vəziyyətləri və sipəhsalar Əliqulu xan, onun əlaltılarının zülmündən Şaha şikayət etdilər. Şah fikirləşir ki, ola bilər ki, onların şikayətləri yersiz olsun. Odur ki, məsələni dərindən yoxlatdırmaq qərarına gəlir. Təbriz və Xorasan əyanları adından hökm verir. Həmin bölgələrdə vəziyyəti yoxlamaq üçün Əlixan bəy Təbrizə, İbrahim bəy isə Xorasana göndərilir. Onlar vəziyyəti yoxlayıb rəiyyətin şikayətlərinin düzgünlüyü aydınlaşdırıldıqdan sonra Əliqulu xan, onun naibi və qardaşı oğlu Bicəndə işdən götürülüb, Ələmut qalasına həbsə atılırlar. Şah əmr edir ki, aciz və yoxsullardan zor ilə aldıqları varidat dəqiq araşdırıldıqdan sonra öz sahiblərinə qaytarılsın» (128, v.229b). Əliqulu xanın 1655-ci ildə Həmədan ətrafındakı tiyulları müsadirə edilib xassə əmlakın tərkibinə daxil edilir, Azərbaycana bəylərbəyi isə qızılbaşlardan həm qorçubaşı, həm də Şah Səfi məzarının mütəvəllisi olan Murtuzaqulu

xan Qacar göndərilir. Ancaq sipəhsalar vəzifəsi ona deyil, qullarağası və əmir şikarbaşı Kuhgiluyə hakimi Allahverdi xana verilir (125a, 67, 68)

1068 (m. 1657)-ci ildə qorçubaşı Murtuzaqulu xan Qacarın Azərbaycanda yenə bəylərbəyi olduğunu görürük (125a, 94). Azərbaycan əyalətinin Urmiya mahalında məskun olan Əfşar tayfası h. 1063-1064 (m. 1653-1654) -cü ildə burada hakim olan Gəncəli xan Əfşardan şikayət etdiyi üçün Şah onu tutduğu vəzifədən azad edib, yerinə əmisi Məhəmməd xan Əfşarı göndərir. 1065 (m. 1655)-ci ildə Məhəmmədəli xan Əfşar vəzifəsindən istifadə edərək bir çox adamın əmlakını ələ keçirdiyinə görə onun cinayətlərinə ədalət divanında baxılmış və tutduğu vəzifədən azad edilib cəzalandırılmışdı (125a, 70, 74).

H. 1054(m.1643-1644)-cü ildə Türküstan hakimi Nəzər Məhəmməd xanın Səfəvi sarayına göndərdiyi elçi Tahir Məhəmməd geri qayıtdıqda II Şah Abbas onunla birlikdə Oğuz boylarından olub, XVII yüzildə Hələb Türkmən elinin Bəydili obasından Sarı sultanın oğlu Səfiqulu sultan adlı elçisini Türküstana göndərmişdi. Bu zaman Azərbaycanın Sultaniyyə və Zəncan mahallarında Səfiqulu sultanın atası Sarı Sultan Bəydilinin hakim olduğunu görürük. Sarı sultandan sonra mahalın hakimi oğlu Səfiqulu sultan olmuşdu (125a, 31).

II Şah Abbas h.1058(m.1648)-ci ildə Qəndəhar və Zəmindavəri tutub geri döndükdə hind qoşunu Ourəngzeyb Mirzənin başçılığı altında qeyd olunan vilayətə hücum edir. Şahın bu zaman Qəndəharı qorumaq üçün ora göndərdiyi əmirlər arasında Ərdəbil hakimi Əli xanın da adı çəkilir. Onun Ərdəbildə həm hakim, həm də mütəvəlli olduğu qeyd edilmişdir (5, 49). H.1065(m.1655)-ci ildə Ərdəbil hakimi və mütəvəllisi Nəzərəli xandan yerli əhali şikayət etdiyinə görə o vəzifədən azad edilib həbs olunur və əmlakı da müsadirə edilir. 1656-cı ildə Ərdəbilə hakim Mir Camal Sultanın oğlu Məhəmmədhüseyn bəy təyin edilir (125a,49, 83).

Qeyd olunduğu kimi, Azərbaycan vilayətinin bəylərbəyi sipəhsalar hərbi rütbəsi ilə dövlətin silahlı qüvvəsinin baş komandanı da olurdu. Məsələn, Rüstəm xan, II Pirbudaq xan, Əliqulu xan

Azərbaycanda bəylərbəyi olduqda, yeni müharibələr baş vermişdir ki, bu zaman sipəhsalar hərbi vəzifəsi də onlara verilmişdir. Şarden yazır ki, Səfəvilər dövlətində Azərbaycan əyalətinin hakimi ən yüksək vəzifə sahibi sayılırdı. O, eyni zamanda ölkənin bütün qoşunun baş komandiri hesab olunurdu. Lakin nədənsə bu ənənə II Şah Abbasın hakimiyyətinin sonlarında müvəqqəti olaraq pozuldu. Məsələn, 1655-ci ildə Murtuzaqulu xan Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin edildikdə, sipəhsalarlıq vəzifəsi Allahverdi xana tapşırılmışdı (128, v.232a; 125, v.206; 113, c.2, 421).

Dövrün mənbələrini diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, Azərbaycan bəylərbəyi və Təbriz hakimi adətən Qızılbaş əyanlarından olurdu. O da maraqlıdır ki, XVII əsrdə Qızılbaşlar sırasına keçmiş və müsəlmanlığı qəbul edən bir neçə nəfər yeni hərbi əsilzadənin də Azərbaycanda hakimiyyətdə olması Türkman tayfası və onun əmirlərinin Azərbaycanda mövqeyini zəiflədə bilməmişdi.

Çuxur-Səd bəylərbəyi və ona tabe olan mahal və ulkalardan «Təzkirət əl-müluk»da Naxçıvan tüməni, Maku, Zəruzbil, Sədərək, Bəyazid qalası, Şadili eli ulkası, Dünbülü eli ulkası, Mağazberdin adları göstərilmişdir (132, 75-76).

Çuxur-Səd coğrafi istilahı türk Sədlı oymağının adı ilə bağlıdır. Sədli oymağı isə daşıdığı bu adı Qaraqoyunlu boy bəyindən almışdır. XV yüzillikdən Naxçıvan və Sürməli bu oymağın yurdu olub, Arpa çayının Arazla birləşdiyi yerdən başlayaraq iki çay arasındakı çuxur isə Sədli oymağının qışlağı idi. Ona görə buraya Sədli çuxuru deyilmiş və sonralar bu Çuxur-Səd istilahı şəklində işlənmişdir. XVI-XVIII yüzilliklərdə Azərbaycanın mərkəzi İrəvan olan Şimal-Qərb vilayəti dövrün qaynaqlarında Çuxur-Səd adı ilə yazıya alınmışdır (11, № 6, 15). V.Minorski İsgəndər bəy Münşinin «Tarix-i alamara -yi Abbasi» adlı əsərinə istinad edərək yazır ki, Qars Çuxur-Sədlə Ərzurum arasında yerləşir və bu vilayət digər tərəfdən Axıska ilə həmsərhəddir (103, 191).

I Şah İsmayılın 1505-ci ildə Qızılvəng monastırı haqqında verdiyi fərmana Çuxur-Səd hakiminin əməl etməsi haqqında göstərişi (186, 174, 261) bu bəylərbəyiliyin XVI əsrin əvvəllərində təşkil olunduğunu göstərir. Çuxur-Səd bəylərbəyliyi barədə İ.P.

Petruşevski yazır: «XVI əsrdə Çuxur-Səd (İrəvan) bəylərbəyiliyinə əmirlər həmişə Qızılbaş Ustaclı tayfasından təyin olunur və bu tayfanın obaları İrəvan vilayətində ulkalar alırdılar» (181, 121).

Qeyd etmək lazımdır ki, Ustaclı əmirləri ilə bərabər XVI əsrdə başqa Qızılbaş tayfa əyanlarının da Çuxur-Sədə bəylərbəyi təyin edilməsi barədə mənbələrdə məlumat vardır. H.923-933-cü (1517-1526-27) illərdə Rumlu eli əslzadələrindən Div Sultan Rumlu Çuxur-Səd bəylərbəyi idi. 1538-ci ildə isə burada Ustaclılardan Bədir xan bəylərbəyi olmuşdu. H.956-cı (1549) ildə vilayətdə yenə Rumlu əmirlərindən Hüseyn Sultan Rumlunun hakim olduğu göstərilir (121, Bn.v.63a, 71; 67, 86; 181, 121). Həsən bəy Rumlu yazır ki, Ərzurum hakimi İsgəndər paşanın qoşunu 1549-cu ildə Çuxur-Sədə hücum etdikdə, burada hakim Hüseyncan sultan Rumlu idi. O, mülazimləri dağınıq olduğuna görə İsgəndər paşa ilə döyüşə girməyi məqsədəuyğun hesab etməmişdi. Bu zaman onun vəkili Təbət Ağanın qarovula göndərdiyi iyirmi nəfər İsgəndər paşanın kürd silahlıları ilə qarşılaşmış, savaşda beş nəfər itirərək geri çəkilmişdilər. İsgəndər paşanın qoşunu İrəvanı tutub bazarını yandırır, ancaq az vaxtda geriyə-Vana çəkilmək zorunda qalır. Hüseyncan sultan Rumlu geri çəkilən Osmanlı qoşununu təqib edərək onlardan beş nəfər qətl edir. Bu hadisə Şaha çatdıqda dərhal İrəvana Çərəndab sultan Şamlınıın başçılığı altında yardım göndərir (77, 341, 401). Həsən bəy Rumlu Zülqədər elindən olan Təbət Ağanın Hüseyincan sultan Rumlunun vəkili olduğunu qeyd etmişdir ki, burada vəkil vilayət hakiminin canişini mənasını ifadə edir. Müəllifin Təbət Ağa Zülqədərin h. 964 (1556-1557)-cü ildə qiymətli töhfə və hədiyyələrlə Osmanlı sarayına elçi göndərilməsi (77, 401) barədə məlumatı onun dövrün nüfuzlu əmirlərindən oldduğunu göstərir. Osmanlı hökmdarı Sultan Süleyman 1554-cü ildə Azərbaycana yeni hərbi yürüş təşkil etdiyi vaxtda da Hüseyn sultan Rumlu hələ vəzifədə qalırdı. Osmanlı ordusu İrəvana hücum etdikdə Hüseyn sultan Rumlu osmanlılar ilə qabaq-qabağa durmağın lüzumsuz olduğunu görüb, şəhəri tərk edir. Ona görə də Osmanlılar tezliklə İrəvanı tutur. Lakin nədənsə tezliklə də geri dönürlər. O, buna görə mərkəzə çağırılır. Yerinə Şahqulu Sultan Ustaclı Çuxur-Səd

bəylərbəyi və hakimi təyin edilir (80, 75, 76). Əbdi bəy Şiraziyə görə isə Həmzə sultan Qazağın oğlu Şahqulu sultan Ustaclı 1551-ci ildə Məşhəd hakimi vəzifəsindən azad olunub, Çuxur-Sədə bəylərbəyi təyin edilmişdi (28,99; 108, 76). H.974-cü (1567) ildə Sultan Süleymanın vəfatı ilə əlaqədar Şah Təhmasibin başsağlığı vermək, Sultan Səlimin hakimiyyətə keçməsini təbrik etmək üçün vəzir Murad bəy İsfahani və 500 nəfər gənc ilə Çuxur-Səd hakimi Şahqulu Sultanı da Osmanlı dövlətinə elçi göndərməsi onun Səfəvilər sarayında yüksək nüfuz sahibi olduğunu göstərir. O, Ədirnədə Sultan Səlimlə görüşmüş və Şahın göndərdiyi məktubu, hədiyyələri ona vermişdir (121, Bn.v.237a, 240b; 118, Bn.v.249a). Şahqulu Sultandan sonra oğlu Toxmaq xan ləqəbi ilə məşhur olan Məhəmməd xan Ustaclı İrəvan hakimi olmuşdu. İsgəndər Münşi göstərir ki, Məhəmməd xan Ustaclı II Şah İsmayılın hakimiyyəti dövründən Çuxur-Səd əmir əl-üməraası olub, h.983-cü (1574) ildə Osmanlı hökmdarı Sultan Səlimin vəfatı, Sultan Muradın hakimiyyətə keçməsi münasibəti ilə əlaqədar olaraq çoxlu hədiyyə ilə İstanbula göndərilir. O, burada çox yaxşı qarşılanır və Sultan Murad ona min tümən xərclik verir (80, 136, 139; 118, Bn.v.271a;). Şah xan və sultanları elçi qismində xarici dövlətə göndərdikdə, həmin dövlətin başçısına qiymətli hədiyyələr aparırdılar ki, bunun yalnız bir hissəsi Şah xəzinəsindən götürülürdü. Onlar hədiyyənin qalan hissəsini idarə etdikləri vilayətin və mahalın gəliri hesabına əldə etməli, elçiliyin yol xərclərini də özləri çəkməli idilər (139, 884). İsgəndər bəy Münşi yazır ki, İsmayıl Mirzə hakimiyyətə keçdikdən sonra əyanlarının çoxu orduda qulluq edən Ustaclılar təqib edilir, gecələr öz yataqlarında da rahat yata bilmirdilər (80, 204). Ona görə ki, 1576-cı ildə I Şah Təhmasib vəfat etdikdən sonra, şahzadələr arasında hakimiyyət uğrundakı çəkişmədə Ustaclı tayfasının ən nüfuzlu əmiri Hüseyn bəy Ustaclı başda olmaqla Ustaclılar şahzadə Heydərin tərəfindən çıxış etmişdilər (20, 113, 119). Bu zaman Ustaclı tayfasının mötəbər əmirlərindən olan Çuxur-Səd bəylərbəyi Məhəmməd xan Ustaclı Osmanlı dövlətindən Qəzvinə qayıdır, ancaq burada ona diqqət və iltifat göstərilmir. Bu

zaman onun Çuxur-Səddəki ulkası alınıb Əbuturab Mirzəyə verilmiş və elə vilayətə də bəylərbəyi o təyin edilmişdi (80,204).

Sultan Məhəmməd hakimiyyətə keçdikdən sonra, 1578-ci il fevral ayının 14-də İrəvan, Şorəgil ulkasının Məhəmməd xan Toxmağa verilməsi və onun bura bəylərbəyi vəzifəsinə qoyması haqqında yeni fərman vermişdir (121, Bn.v.301, 399b; 80, 227). Oruc bəy yazır ki, Sultan Məhəmməd, Məhəmməd xan Toxmağı Gürcüstan və Azərbaycanda olan qoşunların baş komandanı təyin edib, Həmədan, Gəncə, Təbriz, Maku, Naxçıvan, Mərənd, Ərdəbil, Sofiyan və Qaraağacın qorunmasını ona tapşırdı (79, 168-169). Məlum olduğu kimi, 1580-ci ilin sentyabr ayında Sultan Muradın qoşunu Lələ paşa başda olmaqla Azərbaycana hücum etmiş və Cəfər paşa isə xeyli qoşunla İrəvana göndərilmişdi. Bu vaxt İrəvan hakimi Əmir Toxmaq xan osmanlılarla vuruşub, onlardan 400 nəfərinə ciddi müqavimət göstərdiyinə görə 1581-ci ildə Fərhad paşa başda olmaqla Qars yolu ilə Çuxur-Sədə yeni qoşun göndərilir. Çuxur-Səd bəylərbəyi Məhəmməd xan Toxmaq vəziyyəti Azərbaycan bəylərbəyi Əmir xan və Qarabağ hakimi İmamqulu xana bildirir. Nədənsə Əmir xan əsgəri yardımı gecikdirir və Məhəmməd xan Toxmaq azsaylı qoşunla Osmanlılarla vuruşda məğlub olub, Naxçıvana dönür və döyüşçüləri, uşaqları Əlincə qalasında yerləşdirir. Bəlkə də Təbrizin özü təhlükə qarşısında olduğuna görə Əmir xan Məhəmməd xan Toxmağa kömək edə bilməmişdi. Digər tərəfdən isə kürd qarətçilərinin də Təbrizə hücumu gözlənilirdi. Əmir xanın Təbrizi tərk etməməsi, Çuxur-Sədə yardım göstərməməsi bununla bağlı ola bilərdi (129, 102-103; 80, 293).

Çuxur-Səd 1580-1604-cü illər arasında Osmanlı hakimiyyəti altında olmuşdu. 1604-cü ildə Qızılbaş ordusu İrəvanı azad etdikdən sonra I Şah Abbasın fərmanı ilə Əmirgunə xan Çuxur-Səd bəylərbəyi təyin olunur. O bu vəzifəyə keçməmişdən qabaq Qəzvinin darğası idi və 1603-cü ilin sentyabr ayında I Şah Abbasın qoşunu ilə Təbrizi Osmanlıların əlindən geri almaq uğrunda gedən vuruşmalarda adi bir əsgər kimi iştirak etmişdir (80, 638, 643-656).

Əmirgunə bəy Qacar hələ əmirlik rütbəsi almamışdan qabaq, yəni 1603-cü ildə savaşlardakı igidliyinə görə Şahın etimadını

qazanmşdı. Elə bu vaxt Şah onu Arasbara göndərib tapşırdı ki, Qarabağda Qacar oymağından və başqa el-ulusdan dəstə toplayıb Araz sahilini qorusun (80, 642-643). H.1012-ci ilin şəvvəl ayında (mart 1604-cü ildə) Qızılbaş ordusu İrəvan qalası uğrunda vuruşarkən Əmirgunə Qarabağdan öz dəstəsi ilə bura gəldi. Onun dəstəsi İrəvanın köhnə qalasının Şərq tərəfindəki bürcü tutdu. İrəvan qalası fəth olunduqdan sonra vilayətə hökmranlıq Əmirgunə xana tapşırıldı. Naxçıvan ulkası Maqsud Sultan Kəngərliyə, Kağızman və onun ətrafı isə Sədlu Sultana verildi. 1605-ci ildə Osmanlı ordusu yenidən İrəvana hücum etmək istədikdə I Şah Abbas Əmirgunə xana İrəvan əhalisini başqa yerə köçürməyə tapşırır və o, İrəvan camaatını Qaradağa köçürür (80, 638, 643, 652-654, 656-657, 658). Osmanlı ordusu İrəvanı təhlükə altına aldığı zaman Maqsud Sultan Kəngərli Naxçıvan əhalisini Dizmar və Qaradağa, Təhmasibqulu bəy isə Culfa əhalisini İsfahana köçürdürlər. Həmin ilin qışında İrəvan hakimi Əmirgunə xan və Naxçıvan hakimi Maqsud Sultan Kəngərli Əlincə qalasında qışladılar. 1606-cı ildə I Şah Abbasın yeni hərbi cəhdləri ilə İrəvan qalası tamamilə azad olundu. Əmirgunə xan yenə də Çuxur-Səd bəylərbəyi və İrəvan hakimi olur. Qoçaqlığına görə Əmirgunə xana Göycə gölü ətrafında bir neçə kənd ulka verildi. 1607-ci ildə Zeynəl bəy Çors, Mustafa bəy isə Maku hakimi təyin olundular (80, 668, 721).

I Şah Abbas Əmirgunə xan Qacara İrəvan qalasının təmir olunmasını tapşırmışdı. İsgəndər bəy Münşi yazır ki, İrəvan qalası təmir edilərkən Əmirgunə xan və onun məmurları, mülazimləri Əlincə, Ordubad və Naxçıvanda çətin günlər keçirirdilər. O, öz məmurları ilə köçkünləri Azərbaycanın el, ulus və pərakəndə halda olan tərəkəmələri içərisindən toplayıb yenidən İrəvana gətirdi. İraq-i Əcəmdən Şah Abbasın əmri ilə Qacarın Ağcaqoyunlu oymağı, Musaoğlu, Səbat elinin hamısı gətirilib İrəvan və Şərurda yerləşdirildi. Yenidən Qızılbaş elləri öz qədim yurdlarına qayıtdılar. Əmirgunə xanın qoşunları Qars vilayətini də tutub bəylərbəyiliyə daxil etdilər. İsgəndər Münşi yazır ki, Əmirgünə xanın başçılığı ilə qalalar, şəhərlər bərpa olundu. Vilayətin iqtisadi həyatında tezliklə böyük irəliləyişlər başlandı (80, 740-742).

1608-ci ildə İrəvanda Əmirgunə xan tərəfindən Cəlalilərə qonaqlıq verilmiş, ancaq Əmirgunə xan Cəlaliləri qarşılamağa getmədiyi üçün üzürxahlıq edib demişdi: «Qala kutvalları dövlətin inanılmış adamlarıdırlar. Padşahdan icazəsiz onun evi olan qalanı qoyub getməyə ixtiyarımız yoxdur. Buna görə də sizi qarşılamavğa gələ bilmədim» (80, 773). Buradan aydın olur ki, bəylərbəyi hökmranlıq etdiyi bəylərbəyilikdə nə qədər müstəqil olsa da, Şahın icazəsi olmadıqda mərkəzdən başqa yerə gedə bilməzdi.

1612-ci ildə İstanbulda Osmanlı-Səfəvi andlaşmasından sonra Salmasda iki dövlət arasında sərhədi təyin etmək və müqavilə əsasında Səfəvi dövləti tərəfindən sənədlərə möhür vurmaq Əmirgunə xana tapşırılmışdı. Sülh müqavilənaməsi əsasında demarkasiya sənədlərini Osmanlı dövləti tərəfindən Məhəmməd paşa və sərhəd sancaqbəyiləri, Səfəvi dövləti tərəfindən isə Əmirgunə xan və bu tərəfin əmirləri möhürləmişdilər. 1617-ci ildə İrəvan qalası yaxınlığında Osmanlılara qarşı vuruşmada şücaət göstərdiyinə görə Şah Əmirgünə xanı «Sarı Aslan» adlandırmışdı (80, 864, 910).

Şah Təhmasib dövrünün qorçusu Gülabi bəyin oğlu Əmirgunə xan (Sarı Aslan) Qacar tayfasının Ağcaqoyunlu elindən idi. Əmirgunə xan Qəzvin darğalığından Çuxur-Səd bəylərbəyiliyinə qədər yüksək vəzifəyə qalxa bilmişdi. 1625-ci il iyul ayında 0, Gürcüstanda vuruşmada möhkəm yaralanır. Qacar döyüşçüləri onu yaralı halda vuruş meydanından çıxarırlar. Bir müddət İrəvanda yaralarını müalicə etdirir. Lakin 1625-ci ilin axırlarında elə həmin yaradan da ölür. I Şah Abbasın əmri ilə onun böyük oğlu Təhmasibqulu bəyə xan titulu verilib Çuxur-Səd əmir əl-ümərası təyin olunur. İsgəndər Münşi yazır ki, «hal-hazırda o vilayətdə hökmrandır» (80, 1031, 1041). "Zeyl-i alamara-yi Abbasi" də göstərilir ki, 1629-cu ildə Xosrov paşanın Osmanlı ordusu öncə Bağdadı və sonra Təbrizi tutmaq məqsədi ilə Diyarbəkrdən hərəkət edib Mosula daxil olduqda Təhmasibqulu xan Çuxur-Səddə hakimiyyətdə idi. İmperiyanın şimal-qərb sərhədlərinin qorunması ona, şərq sərhədlərinin müdafiəsi isə bu zaman Xoyda olan Naxçıvan hakimi Maqsud sultan Kəngərliyə tapşırılmışdı.(81,32)

Beləliklə, Əmirgunə xan 20 ilə yaxın Çuxur-Səd bəylərbəyi və İrəvan hakimi olmuşdur.Əmirgunə xanın qısa tərcümeyi-halı göstərir ki, təsadüfi adamlardan bəylərbəyi olmur, bu vəzifəyə bacarıqlı, cəsarətli şəxslər, düşüncə sahibi olanlar seçilirdilər. Əbəs deyil ki, 1618-ci ildə ölkədə siyasi vəziyyət gərginləşdikdə Şah məsləhət üçün Əmirgünə xanı Ərdəbilə dəvət etmişdi (86, 402).

1635-ci ildə Çuxur-Sədə Sultan Muradın süvari dəstələri hücum edir, doqquz günlük mühasirədən sonra İrəvan şəhərini osmanlılar yenə də tutub Təhmasibqulu xanı əsir götürüb İstanbula aparırlar. Təhmasibqulu xan ömrünün axırına qədər İstanbulda qalır (142, 255; 206, 110-111). 1636-cı ildə Şah Səfi qoşunları tərəfindən İrəvan azad edildikdən sonra Lar hakimi Kəlbəli xan Çuxur-Səd bəylərbəyi və əmir əl-ümərası təyin edildi. Şah Səfinin əmri ilə İrəvan qalasının təmiri də ona tapşırıldı. Ancaq 1640-cı ildə Kəlbəli xan öldürüldü. Məhəmməd Yusif Qəzvini yazır ki, Kəlbəli xan öldürüldükdən sonra cilovdarbaşı Məhəmmədqulu xan Cığatay Çuxur-Səd bəylərbəyi oldu (128, v.104a, 132 b; 108, 259).

1646-cı ildə isə xassə qulamlarının yüzbaşısı olmuş, sonra söhbət yasavulu vəzifəsinə keçmiş Keyxosrov bəy Çərkəz Çuxur-Sədə bəylərbəyi göndərilmişdi. Həmin ilin mart ayında isə onu Mehrab xan Qacarın oğlu Murtuzaqulu xan əvəz etmişdi (128, v.190b).

1656-1663-cü illərdə Çuxur-səd bəylərbəyi Qazaq xan Çərkəz Şamlının oğlu Nəcəfqulu xan idi (206, 179). Nəcəfqulu xandan sonra Əmirgunə xanın oğlu Abbas Çuxur-Səd bəylərbəyi və İrəvan hakimi təyin edilmişdi. Ondan sonra isə ləzgi Səfi xan burada bəylərbəyi olmuşdur. O, Şah tərəfindən cəzalandırıldıqdan sonra Rüstəm xanın oğlu Səfiqulu Çuxur-Sədə bəylərbəyi göndərilir (89, 24).

Şarden yazır ki, hazırda Səfiqulu xan İrəvan bəylərbəyidir. O keçmiş Şah (II Şah Abbas) dövründə Səfəvi İmperatorluğunun ən mühüm əyalətlərindən birində hökmranlıq edirdi. Lakin saray qadınlarının təhriki ilə keçmiş padşah vəfat etməmişdən üç il qabaq tutduğu vəzifədən azad edilmişdi. Səfiqulu xanın arvadı ana tərəfdən Şahın qohumu idi. Şah Süleymanın hakimiyyətinin (1666-

1694) ilk illərində onun xahişi ilə ərini Şah yenidən İrəvan hakimi və Çuxur-Səd bəylərbəyi təyin edir. Səfiqulu xan digər hakimlərə nisbətən ədalətli olduğu üçün hökmran olduğu ərazinin əhalisinin hörmətini qazanmışdır. Lakin yerli sultanlar və əyanların bir çoxu ona tabe olmaqdan boyun qaçırıb, əleyhinə Şah və divanbəyiyə çoxlu şikayətlər edirdilər. Səfiqulu xan da öz növbəsində Çuxur-Səd vilayətindəki vəziyyət barədə vaxtaşırı Şaha məlumat göndərirdi. Nəhayət, Şah fərman verir ki, kiçik hakimlər sözsüz olaraq İrəvan hakiminə tabe olmalıdırlar. Şarden yazır ki, həmin fərmanı Şahın qulamı İrəvana gətirdikdə mən İrəvanda idim. Onun gəlib qayıtması İrəvan hakiminə 400 tümənə başa gəlmişdi. Bu məbləğ onun mənzil və yemək xərcindən əlavə idi (113, c.II, 314-315).

Z.Kanakertsi isə yazır ki, Səfiqulu xanın dövründə yollarda oğrular və yolkəsənlərin sayı çoxalmışdır. Oğrular cəzalandırılmırdı. Onlardan cərimə alaraq buraxırdılar. Onlar yenidən oğurluq edirdilər. Bütün İrəvan əhalisi və qoşunlarının şikayəti nəticəsində Səfiqulu xan həbs olundu. Şah İrəvanın keçmiş hakimi Abbas xanın kürəkəni Zal xanı İrəvana hakim təyin etdi. Zal xan İravana Azərbaycanın baş vəziri Mirzə İbrahimlə gizli gəlir. Onları qarşılamağa adam getməmişdi. Çünki camaat onların gəldiyini bilmirdi. Zal xan İrəvan qalasına daxil olduqdan sonra vəzir, şeyx ül-islam və bəzi başqa əyanları çağırtdırıb Şahın fərmanını oxudu. Oraya toplaşanların hamısı ona itaətkar olduqlarını ifadə etdilər. Müəllif bu mərasimdən sonra carçının küçəyə çıxıb «Zal xan İrəvanın sahibi oldu. Ömrü çox olsun»deyə uca səslə İrəvan sakinlərinə bildirişini türkcə olduğu kimi əsərində qeyd etməsi, şəhərdə türk dilinin işlənmə səviyyəsinin göstəricisi olub, həm də bu diyarın bir türk yurdu olmasından xəbər verir. 1679-cu ildə İrəvanda zəlzələ oldu, bir çox binalar dağıldı. Lakin Zal xanın göstərişi ilə dağılmış binalar bərpa olundu. Bu vaxt İrəvanın qala divarları da dağılmışdı. Azərbaycan vəziri İbrahim yenə İrəvana gəlib qonşu xanları - Naxçıvan, Bərdə, Zəyəm, Lori, Maku sultanlarını da çağırıb onlara qalanın tikilib bərpa edilməsinə köməklik etmələrini tapşırdı (206, 183-184, 194-197).

Zal xandan sonra Şah Sultan Hüseyn (1694-1722) Murtuzaqulu xanı İrəvana hakim göndərmişdi. O, naxçıvanlı Məhəmməd ağa xanın oğlu idi. İrəvana gəldikdən sonra vergilərin miqdarını azaltmışdı. Həmişə Şaha, saray məmurlarına hədiyyələr göndərirdi. Ondan sonra Şah Məhəmmədqulu adlı başqa bir nəfəri İrəvana hakim təyin edir. Məhəmmədqulu xan da bir çox mahallarda vergiləri yüngülləşdirib ticarət yollarının təhlükəsizliyini təmin edə bildi. O, üç il yarım bu vəzifədə işləmiş və vəzifədən çıxarıldıqdan sonra Şah Sultan Hüseyn Əmirgunə xanın nəvəsi Fəzləlini İrəvana hakim təyin etmişdi (206, 223-224).

Yuxarıda qeyd etdiklərimizdən aydın olur ki, XVI əsrdə olduğu kimi, XVII əsrdə də Çuxur-Səd vilayətini Türkman Rumlu, Ustaclı, Zülqədər, Qacar adlı qızılbaş-türk tayfa əsilzadələri idarə etmişdi.

Müxtəlif coğrafi obyektlər, xüsusən kənd, qəsəbə, əyalət adı olan Qarabağ toponimi tarixin dərin qatlarından gəlir və bu adın etimologiyası ilə yanaşı, onun yalnız Türk arealında mövcudluğu Türk təfəkkürünün məhsulu olmasından irəli gəlir. Mavərəünnəhr, Xorasan, İran və Azərbaycanda əski çağlardan Qarabağ adlı kənd qəsəbə, nahiyə, əyalət mövcud olmuş və bu toponimlərin bir çoxu eyni adla bu gün də qalır. “Səlcuqnamə” də XI əsrin tarixi proseslərindən bəhs edildikdə Xorasanda Badqisin qonşuluğunda Qarabağ nahiyəsinin adı çəkilir (59b, 45). Azərbaycanda Qarabağ əyalətinin adına ilk dəfə Fəzlullah Rəşidəddinin “Came ət-təvarix” adlı əsərində 1284-cü il, hadisələrindən bəhs edilərkən “Aran Qarabağı” (200a, 170) şəklində təsadüf edilir. Həmidullah Mustoufi Qəzvini (1281-1345) “Nüzhət əl qülub” adlı əsərində XIII-XIV əsrlərdə Azərbaycanın ərazi-inzibati vahidlərindən bəhs edərkən Aran vilayətini “Qarabağ və Aran” (92, 61) adı ilə də yazıya almışdır. Qarabağ adının mənasına gəldikdə isə V.V.Bartoldun fikrincə Qarabağ adı türk dilindəki “qara” və İran mənşəli “bağ” sözlərininin birləşməsindən yaranıbdır (147, t-VII, 214). Əslində burda hər iki tərkib türk dilində olub, “qara” ucu-bucağı görünməyən, böyük, geniş və “bağ” isə meyvə ağacları əkilmiş yer, sahə mənasını ifadə edir. V.Minorskiyə görə bu coğrafi istilah vaxtilə burada yaşamış

eyni adlı türk elinin adi ilə bağlı olub, bugün ondan heç bir iz qalmamışdır (103, 192).

XVI-XVII əsrlərdə Araz və Kür çayları arasında yerləşən qədim Aran torpağı mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylər-bəyliyi hesab olunmaqla, onun ərazisi bəzən Tiflisə qədər uzanırdı. 1554-cü ildən sonra Qazax və Şəmsəddin, I Şah Abbas (1687-1629) dövründən Zəyəm, Səfəvilərin hakimiyyətinin son illərində isə Kaxetiya və Zəngəzur da Qarabağ bəylərbəyliyinə tabe olmuşdur (181, 117;93,11). H.1106 (m.1694)-cı ildə Qarabağ bəylərbəyi Kelbəli Xan Qacarın Kaxetiyaya da hakim təyin edilməsi, bu zaman Kaxetiyanın da Qarabağa tabe olduğunu göstərir. Ancaq qeyd etmək lazımdır ki, Qarabağ əyalətinin ərazi-inzibati quruluşu haqqında XVI-XVII yüzilin yerli qaynaqlarında məlumatlar Mirzə Samianın 1725-ci ildə yazdığı "Təzkirət al-müluk" adlı əsəri istisna olmaqla pərakəndə haldadır. Qarabağ ərazi-inzibati vahidi barədə "Təzkirat al-müluk" da demək olar ki, dolğun məlumata tasadüf edilir. Qaynaqda Azərbaycan Səfəvi dövlətinin Qarabağ bəylərbəyliyinin mahal və ölkələrindən Zəyəm, Bərdə, Axınabad, Cavanşir eli ölkəsi, Bərgüşad, Qaraağac, Lori va Pənbək, Arasbar va Bəyazidli eli ölkəsi, Suma va Tərgivərin (132,76-78) adları qeyd edilmişdir.

Qarabağ əyaləti 1588-1606-ci və 1725-1734- ci illərdə Osmanlı dövlətinə tabe olmuşdur. Osmanlı dövlətinin göstərişi ilə 1593-cü ildə "icmal dəftəri" və 1727-ci ildə "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" tərtib edilmişdir. Bu dəftərlər dövrün farsdilli qaynaqlarından fərqli olaraq Qarabağ əyalətinin ərazi-inzibati quruluşu haqqında müfəssəl məlumat verən unikal sənəddir. 1593-ci il tarixli "icmal dəftəri"nə görə Qarabağ əyaləti 36 nahiyəyə bölünən 7 sancaqdan, yəni Gəncə, Bərdə, Xaçın, Axıstabad, Dizaq, Həkəri, Vərəndə adlı sancaqlardan ibarət olmuşdu. Sancaqlar isə nahiyələrə (36 nahiyə) bölünmüşdü (25, 5-6).

1727- ci il tarixli müfəssəl dəftərə görə Osmanlı ərazi-inzibati bölgüsünə uyğun olaraq 1725-1734-cü illər arasında Qarabağ əyalətinin inzibati quruluşunda dəyişiklik edilmişdir. Yeni bölgüyə əsasən əyalət 37 nahiyəni birləşdirən 5 sancaq va iki qəzadan ibarət olmuşdur. Belə ki, əyalət Gəncə və Lori qəzası,

Xılxına, Bərdə, Arasbar, Bərgüşad, Çuləndər sancağına bölünmüşdü (25,6).

Hüsaməddin Qaramanlı "icmal dəftəri" və "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftər"indən əldə etdiyi materialın təhlilinə əsaslanaraq, həmin əsərə yazdığı "Ön söz" də göstərir ki, Qarabağ əyalətinin ərazisi isə XVI-XVIII yüzilin əvvəllərində əsasən, dəyişilməmişdir. Əyalətin sərhədləri şimalda Kür çayı boyunca davam etmiş, Kürün Araz çayı ilə birləşdiyi yerdən Araz çayı boyunca qərbə doğru, Bərgüşad sancağına və buradan da şimal istiqamətində, Göyçə gölünün şərq hissəsindən keçərək yenə də şimala doğru, Tiflis əyalətinə daxil olmuş Borçalının cənub hissəsi ilə Taşır nahiyəsi ilə həmsərhəd olan Lori qalasına qədər uzanırdı (25,7). XIX əsrdə yazılmış "Qarabağnamələr" adlı qaynaqlarda Qarabağ əyalətinin tarixi ərazi və sərhədləri haqqındaki məlumatlar "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftər"ində bu barədə verilmiş məlumatlarla, demək olar ki, tam uyğundur.

XIX əsrin Azərbaycan tarixçilərindən Mirzə Camal Cavanşir yazir ki, qədim tarix kitablarına görə Qarabağ vilayəti Aranın bir hissəsi olub, sərhədi cənub tərəfdən Xudafərin körpüsündən Sınıq körpüyə qədər Araz çayıdır. Şimal və şərq tərəfdən Kür çayıdır ki, Cavad kəndində Araz çayına qovuşaraq gedib Xəzər dənizinə tökülür. Qərb tərəfdən Köşbək, Salvartı və Ərikli adlanan uca Qarabağ dağlarıdır. Bu dağlar Qarabağ-Gəncə, Qazax-Şəmşəddin əhalisinin yaylaqlarıdır (31a,107-108; 316, 98-99).

Sözsüz ki, Mirzə Camal Cavanşir "qədim tarix kitabları" dedikdə Həmdullah Mustoufi Qəzvinin "Nüzhət əl-qülub" adlı əsərini də nəzərdə tutur. Bu qaynaqda Aranın, yəni onun bir hissəsi olan Qarabağın Araz və Kür çayları arasındakı əyalət olduğu qeyd edilməklə yanaşı, onun Beyləqan, Bərdə, Gəncə kimi şəhərləri barədə də məlumat verilmişdir (92,105).

Oğuzlarla bağlı Alpout, Ayrım, Əfşar, Bayandur, Bəydili, Bayat, Dondarlı, Düyərli, Təklə, Qırxqız (Qırxquz) kimi toponim və etnonimlərlə dolu olan bəylərbəyliyi ulu babalarımızın Qarabağ adlandırılması təsadüfi deyildir. Azərbaycan tarixçisi İsgəndər bəy Türkman Münşi (1560-1634) özünün məşhur "Tarix-i alamara-yi

Abbasi" əsərində yazır ki, Qarabağ axar-baxarlı yaylaqları, qışlaqları olan, hər yeri yaşıllıqla örtülü, təmiz havalı yerdir. Qarabağın qədim sakinləri olan Qacarlar və onlara doğma olan digər türk elləri, oymaqlar orada gözəl bağlar-bağçalar salmışdılar (80, 416). I Şah Səfinin dövründə saray tarixçisi, II Şah Abbas hakimiyyətə keçdikdə Qarabağ bəylərbəyi Murtuzaqulu xan Qacarın vəziri olmuş Məhəmməd Məsum bin Xacəgi İsfahani "Xülasət üs-siyər" adlı əsərinin Qarabağ bəylərbəyiləri Ziyadoğlulara həsr etdiyi sonuncu fəslində Qarabağ vilayətinin mərkəzi Gəncə şəhərini "gülüstan bağı" na bənzədir və şəhərin bir fərsəx uzunluğu, yarım fərsəx də eni olduğunu, onun hər evinin həyətinə əsas kanaldan su çəkildiyini qeyd edir. Onun yazdığına görə süni suvarma vilayətin əhalisinə geniş torpaq sahələrini becərmək və bol məhsul əldə etməyə imkan yaradırdı (176a, 58, 59).

İ.P. Petruşevskiyə görə Qacar aşirəti Monqol cəlair, sulduz və Tibetli tanqut tayfalarının pərakəndə hala düşüb türkləşən qollarının süni şəkildə birləşməsindən yaranmışdır (181, 95). Ancaq Petruşevski istifadə etdiyi mənbədəki təhrifləri həqiqət kimi təqdim edərək ciddi səhvə yol verir. Ona görə ki, Monqol dövrünün etnik məsələləri barədə məlumat vermiş qaynaqlar içərisind daha mötəbər mənbə sayılan Fəzlullah Rəşidəddinin "Came ət-təvarix" adlı əsərində XIII-XIV əsərlərdə Cəlair, Tanqut və Sulduzun Monqol qəbiləsi adlandırıldığı, ancaq Türk olduqları göstərilmişdır (101, 129-130, 320, 352-352, 441-456). Digər tərəfdən Faruk Sümərin yazdığı kımi "Qacar boyunun adının bir oymaqdanmı, yoxsa bir şəxstənmi, gəldiyi haqqında heç bir şey söylənməz. Çünkü hər iki ehtimal da vardır". Adı çəkilən müəllifə görə XVI-yüzildən Hələb Türkmənləri arasında Qacar adlı bir oymaq görülməkdədir (67, 185). XVII əsrin əvvəllərində adsız müəllif tərəfindən yazılmış "Qızılbaşlar tarixi" adlı əsərdə də Qacarların bir qisminin Azərbaycana Şamdan gəldikləri qeyd olunmuşdur. Ancaq qeyd olunan əsərdə "Bu tayfa qədimdə Gəncə və Bərdədə yaşamışdır" (32, 36) deyildikdə bizcə, Qacar aşirətinin Səfəvilərə qədər, yəni Monqol dövründən bəlkə də ondan daha da qabaq burada yerli əhali olduğu nəzərdə tutulur.

Faruk Sumərə görə Qacar aşirətinin Ağca Qoyunlu, Ağcalı, Şam Bayatı (Bayadı), Yiva adlı obaları olmuşdur. Müəllif yazır ki, Qacarın Ağca Qoyunlu obası Anadoludakı Ağca Qoyunlu oymağının bir qolu olub, bu oymağı Oğuz boylarından birinin obası fərz etmək yanlış sayılmaz. Bu oymağın ana qolu XVII yüzilin birinci yarısının ortalarında Maraş-Elbistan bölgəsində yayılmaqda və Hələb Antakya tərəfində qışlamaqda idi. İrana Qacar obaları arasında gedən Ağca Qoyunluların Boz-Ox qoluna mənsub olduqları şübhə doğurmamalıdır. 1744-cü ildə İrandan Türkiyəyə köç edən və Əcəm Türkləri deyilən oymaqlar arasında onlardan bir obanın olduğu görünür. Müəllifə görə, Ağcalı Kayseri-Sivas arasında bir oymağın qolu olub, Gədük və Hələb bölgəsində yaşıyırdı (67, 186-187). Ancaq “Qızılbaşlar tarixi” nə istinad edərək qeyd etdiyimiz kimi Qacarlar Azərbaycanın Gəncə, Bərdə bölgəsində də qədimdən yaşayırdılar. Hülakülər dövründə etnik prosesləri dövrün qaynaq materialları əsasında araşdıran V.Piriyevə görə Qacarlar Hülakü xanın dövründə Azərbaycanda məskunlaşmışdılar (52, 264). Qeyd edilənlərə əsasən demək olar ki, Qacarlar və onlarla bağlı oymaqlar, obalar Xəzərdən Quzey İrak, Hələb də daxil olmaqla Kayseri və Sivasa qədər müxtəlif məntəqələrdə məskun olmuş, qeyd olunan coğrafi məkanda batıdan doğuya, bəzən də əks istiqamətdə köçmüşlər, yəni yurd yerlərində məskunlaşmışlar.

Əvvəlki dövrlərdə olduğu kimi, Səfəvilərin də vaxtında XVI-XVII yüzilliklərdə Qarabağda Qacarlarla yanaşı, Qaramanlı, Baharlı tayfaları, Zülqədər elinin Şəmsəddinli obası, onlarla qaynayıb qarışmış Qazaxlar, Otuziki və Iyirmidörd oymaqları əkinçiliklə, heyvandarlıqla məşğul olurdular. Faruk Sumer yazır kı, Qarabağda Otuziki oymaqdan meydana gəldiyi üçün bu adla anılan böyük bir topluluq yaşayırdı. Bunlar Qarabağ Türkmənlərindən idilər. Son əsrlərdə Tərəkəmə deyilən Türklər bunların qalıntılarıdır. Müəllifə görə Otuzikinin Qarabağda Müqədddəm, Cavanşir, Əhmədli, Qaraqoyunlu, Göycəli (Göyçəli), Ozan kimi obaları məlumdur (67, 119, 179, 183, 198).

Ancaq “Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftər”ində Otuziki tayfasının qeyd olunan oymaqları ilə yanaşı, Üçoğlan,

Məfruzi (Mahrızlı), Qiyaslı, Dəlilər, Veysəlli, Hacı Türəli, Xəlil Fəxrəddinli, Barani, Şəkərbəyli, Mollalar, Eymirli, Məhəmmədşahlı, Buğdayiüzü, Zəngişalı, Atlıcalı, Yosunduz, Boyəhmədli adlı obalarının da olduğu qeyd edilmış va onların Qarabağın müxtəlif bölgələrində əkinçilik təsərrüfat və heyvandarlıqla məşğul olduqları göstərilmişdir. "Müfəssəl dəftər"də Qarabağın türk el və obalarından Kəbirli, Kəngərli və Ətyeməzli camaatı haqqında da məlumat verilir. Sənəddə göstərilir ki, Kəbirli ildə xəzinəyə 14000 quruş ödəyən qələbəlik bir aşirətdir. 1726-1727-ci ildə Şahsevənlərin yaratdığı qarışıqlıq nəticəsində dağınıq düşmüşlər. Kəbirli aşirətindən pərakəndə düşənlər Cavanşir və Otuziki elləri tərkibinə dağınıq halda və qismən oba kimi daxil olmuşlar (25, 453-467).

Adları çəkilən tayfa, oymaq və obalarla bağlı toponim va etnonimlərin izlərinə hal-hazırda da Qarabağın bütün rayonlannda rast galinir. Dövrün sinxron salnamələrində hərbi-siyasi proseslərdəki miqrasiyalarla yanaşı Qarabağda əski çağlardan yerləşib oturmuş, yerli əhali haqqında uyğun materiallar az deyildir. Mirzə Adıgözəl Bəy "Qarabağ vilayətinin əsl elatı, kənd əhalisindən başqa Cavanşir, Otuziki və Kəbirlilərdir"(31a, 36) dedikdə, sözsüz ki, burada o "kənd əhalisi" adlandırdığı türk-müsəlmanların oturaq əkinçilər olması nəzərdə tutulur ki, bu da heç bir şübhə doğura bilməz. Ona görə ki, onun əsərində qeyri-müsəlmanlar haqqında ayrıca bəhs edilir (25, 36, 37). Adları qeyd olunan ellərlə yanaşı, salnamədə Qarabağda məskun olan Qaraqoyunlu obasının (25, 92) da adı çəkilmişdir ki, onların yəni Qaraqoyunluların Qaramanlı va Alpout ellərinin əski çağlardan Qarabağın yerli əhalisi olması bəlli bir həqiqətdir. F.Sümər yazır ki, bu gün Quzey Azərbaycanda xüsusilə Gəncə və Bərdə bölgələrindəki Qaraman va Qaramanlı yer adları bu oymağa aid xatirələrdir.

Dövrün farsdilli qaynaqlarında Qarabağ əyalətinin əhalisinin etnik və sosial tərkibi haqqında dəqiq rəqəmlə göstərilmiş məlumatlar yoxdur. Ancaq qısa zaman kəsiyinin tarixi hadisələrini özündə əks etdirən "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" əyalətin demoqrafik vəziyyəti və əhalisinin etnik tərkibi barədə ver-

diyi məlumatların dolğunluğu ilə xüsusi əhəmiyyət kəsb edir. H. Qaramanlı "Müfəssəl dəftər" materialları əsasında təhlillər aparmış, əyalətin əhalisinin sayı, etnik tərkibinə aid müfəssəl nəticələr əldə edə bilmişdir. Onun hesablamalarına görə, Qarabağ əyalətində 19.395 mükəlləfıyyətli ailə başçısı və hər ailə isə orta hesabla beş nəfərdən götürüldükdə, əhalinin ümumi sayı təxminən 96.975 nəfərdən ibarət olmuşdur. O cümlədən, "Müfəssəl dəftər"də məlumatlar bir il ərzində vergi mükəlləfiyyəti daşıyanları əhatə etdiyinə, müsəlmanlardan ibarət hərbiçi, ruhani ailə üzvləri nəzərə alınmadığına görə yuxarıda əhalinin say haqqındakı rəqəm minimum olub, həqiqətdə isə əhalinin ümumi sayı 100 mindən çox olardı (25, 12, 13). Etnik mənsubiyyətinə görə, aparılan hesablamalarda adı dəftərə düşmüş 11.818 nəfər müsəlman əhalisinin 11.068 nəfəri türk, 750 nəfəri kürd idi. Sözsüz ki müəyyən sayda qeyri-müsəlman əhalisi də vardı. Belə ki, "Müfəssəl dəftər"də Qarabağ əyalətində yalnız Şəmkürbasan və Böyük Kürəkbasan nahiyələrində 25 kəndin qeyri müsəlman olduğu göstərilir. Qeyri-müsəlmanların çoxunu isə Alpan soyundan olub XVIII əsrdə öz etnik mənsubiyyətini unutmamış xristian əhalisi təşkil edirdi(25, 12-13).

Səfəvilər dövründə yazılmış və onun ideologiyası ilə səsləşən qaynaqlarda Qarabağda demoqrafik proseslər, xüsusilə əhalinin sayı öz əksini tapmamış, ancaq əhalinin etnik tərkibi ilə bağlı məlumatlara təsadüf edilir ki, bunlarm təhlili əsasında əhalinin etnik tərkibi və etnik tərkibdə müəyyən hərbi-siyasi tarixi hadisələrlə bağlı baş vermiş dəyişiklikləri qismən də olsa izləmək mümkündür. Hüsaməddin Qaramanlmm XVI yüzilin Osmanlı qaynağına istinad edərək qeyd etdiyi kimi, Krım xanı Qazi Gireyin XVI əsrin 80-ci illərində 30 min əsir aparması, 1588-ci ildə Qarabağ bəylərbəyi Məhəmməd xan Qacann tabeliyində olan 50 min nəfərlə Araz çayını keçib Qaradağa getməsi(25, 15), "Abbasnamə"yə görə II Şah Abbasın (1642-1666) Kaxetdə yerli dayağını möhkəmləndirmək məqsədi ilə Qarabağ əyalətindəki Cavanşir, Bayat və sair ellərdən 15000 ailəni buraya köçürməsi(125a, 107), sözsüz ki, tarixi proseslərin gedişində demoqrafik vəziyyətə, xüsusən də yerli Türk əhalisinin sayının azalmasına təsir göstərməyə bilməzdi.

Qaynaqlarda Səfəvilərin hakimiyyətinin ilk illərində Qarabağda Qacarlardan Göycə Sultanın bəylərbəyi olduğu göstərilir (118, Bn,v.181a). I Şah Təhmasib (1524-1576) isə Qarabağa Kəmaləddin Şahverdi sultan Ziyadoğlu Qacarı* bəylərbəyi təyin edir. Ata yurdu Qarabağa bəylərbəyi təyin olunan Şahverdi Sultan Qacarın Ziyadlı oymağından idi. İsgəndər bəy Türkmən yazır ki, Şah Təhmasib yaxınlıqlarına görə Kəmaləddin Şahverdi Sultan Ziyad oğlu Qacara qardaş-müsahib deyirdi. Hərbi yürüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə I Şah Təhmasib Şahverdi Sultandan sonra onun bəylərbəyi olacaq bütün varislərini «müsahib» adlanması və bu ifadənin Qarabağa aid bütün fərmanlarda başçının adından sonra yazılması barədə göstəriş vermişdi (118, Bn.v.242 b; 80, 76, 86). Şahverdi sultan Ziyad oğlu Qacar tez-tez ordusu ilə Şərqi Gürcüstana daxil olur və burada məhəlli hakimlərin çıxışlarının qarşısını alır, mərkəzdənqaçma hərəkatın genişlənməsinə imkan vermirdi. Sözsüz, Şahın Şahverdi sultana münasibəti də ona verdiyi səlahiyyətin məsuliyyətlə yerinə yetirdiyindən irəli gəlirdi. H. 963 (1556)-cü ildə Kartilinin məhəlli hakimi Luarsab mərkəzə itaətsizlik göstərdikdə Şahverdi sultan Ziyad oğlunun başçılıq etdiyi ordu dərhal Kartliyə daxil olmuş, pusquya düşərək 300 nəfərə yaxın əsgər itirsə də, sonda qələbə çalmış və Luarsab da ələ keçirilib öldürülmüşdü. Onun yerinə Kartli hakimi oğlu Simon olmuşdu (108, 81).

1568-ci ildə Kəmaləddin Şahverdi Sultan Ziyad oğlu Qacar vəfat etdi. Yerinə oğlu İbrahim Sultan bəylərbəyi oldu. Ona da təbil, bayraq və əmirlik xalatı verildi. O, həm də I Şah Təhmasibini oğlu Sultanəli Mirzənin lələsi idi. Həmin illərdə Qarabağda yaşamış Fəzli İsfahani adlı tarixçi 1570-1571-ci ildə baş verən hadisələrdən danışarkən Qarabağa İbrahim sultandan sonra Kəmaləddin Şahverdi

---

* "Xülasət üs-siyər"də bu nəslin əcdadlarının Rum vilayətində sakin olduqları, təxminən I Şah Təhmasib dövründə onlardan Xəzər bəyin Lahicana gəldiyi və oğlu Ümmət xana Şah Təhmasibin Ziyad oğlu ləqəbi verdiyi qeyd edilir. Mənbədə Şah Təhmasib tərəfindən Gəncəyə bəylərbəyi təyin edilən Şahverdi sultanın Ümmət xanın oğlu olduğu bildirilir. (126, e. 124a) Ancaq dövrün digər mənbələrində Ziyadlılara aid "Xülasət üs-siyər"in verdiyi bu məlumatlara hələ ki, oxşar faktlara təsadüf edilməmişdir.

sultan Ziyad oğlu Qacarın üçüncü oğlu Yusif Xəlifənin bəylərbəyi göndərildiyini yazır (118, Bn.v.250b, 261a-b; 128, 402). Böyük oğlu Xəlil xan isə hələ onun öz sağlığında Astrabad bəylərbəyi və burada məskun olan Qacar obasına əmir təyin edilmişdi. (176a, 60)

II Şah İsmayıl (1576-1578) isə Qarabağ əmir əl-üməralığını Yusif Xəlifə Ziyad oğlundan alıb, onun əmisi oğlu Peykər sultan Qacara vermişdi. Peykər sultan Yusif xəlifənin Heydər Mirzə ilə yaxınlığını bilir və hesab edirdi ki, onu öldürsə, II Şah İsmayılın yanında nüfuzu, şöhrəti artacaq. O, bu məqsədlə fürsətdən istifadə edib Yusif xəlifəni hamamda öldürtdü. Hətta bununla kifayətlənməyərək onun anası və qardaşını da qətlə yetirdilər. Ancaq bu hadisə II Şah İsmayılın xoşuna gəlmədi. Peykər Sultanı Qarabağ bəylərbəyiliyindən azad edib, yerinə İmamqulu xan Qacarı bəylərbəyi təyin etdi (129, 33-34; 80, 212-213).

Sultan Məhəmməd (1578-1587) hakmiyyətə keçdikdən sonra, İmamqulu xanın Qarabağda bəylərbəyi vəzifəsində qalmasına aid yeni fərman verdi (80, 227). Ancaq 1578-1586-cı illərdə Qızılbaşlarla Osmanlı ordusu arasında şiddətli döyüşlər getdiyi zaman belə şayiə yayılmışdı ki, guya İmamqulu xan osmanlılarla gizli sazişə qol qoyubdur. Ancaq Şah Sultan Məhəmməd qoşunu ilə Gəncə və Bərdəyə doğru hərəkət edərkən İmamqulu xanın bir neçə mənzil onu müşaiyət etməsi bunun yalan olduğunu göstərdi. Mustafa lələ Paşanın başçılığı ilə osmanlı qoşunları Gürcüstana daxil olan zaman İmamqulu xan Çuxur-Səd hakimi Məhəmməd xan və Şirvan bəylərbəyi Araz xanla birləşib Çıldır ətrafnda 1578-ci idlə onlarla savaşır, ancaq qüvvələri az (15 min) olduğuna görə məğlub olurlar. Qarabağ bəylərbəyi 1583-cü ildə isə Kür çayını keçib Osmanlı hərbi dəstələrini məğlub edərək, Dərbəndə qədər onları izləyir. 1585-1586-cı ildə isə Təbrizin uğrunda döyüşlərdə İmamqulu xan Qarabağ qoşunu ilə çox böyük qəhrəmanlıqlar göstərmişdi. Bu illərdə Şirvan əyaləti daha çox təhlükə qarşısında olduğu üçün oranın da qorunması Qacar tayfası, Otuzikilərə və Qarabağın başqa el-oymaqlarına tapşırıldı. Hətta İmamqulu xanın məsləhəti ilə Qarabağlı Peykər sultan Ziyad oğlu Qacara «xan» titulu verib, Şirvana bəylərbəyi təyin edir. Məlum olduğu kimi,

Qarabağda Qacar, Otuziki və İyirmidörd, Baharlı və digər türk tayfa, el və oymaqlar böyük gücə malik idi (80, 233-235, 264, 317, 326, 1085; 129, 207).

Doğma ata-baba yurdunu, Qarabağı qeyrətlə qoruyan İmamqulu xan Qacar 1588-ci ildə Gəncədə vəfat edir. Kəmaləddin Şahverdi xan Ziyad oğlu Qacarın nəvəsi Məhəmməd xan (Xəlil xanın oğlu) Qarabağa bəylərbəyi göndərilir (80, 385, 416-417). Bu vaxt Qarabağda çox çətin günlər başlanmışdı. I Şah Abbas (1587-1629) Osmanlılara çox böyük ərazi güzəştə gedərək gələcək müharibəyə hazırlaşmaq məqsədi ilə 1590-cı ildə bağladığı İstanbul müqaviləsinə görə Qarabağ da Osmanlı dövlətinin tərkibinə keçmişdi. Ancaq Məhəmməd xan Qacar başda olmaqla yerli əhalini doğma torpaqları uğrunda mübarizəyə qalxır və onlar Gəncədəki Osmanlı qarnizonunu mühasirəyə alırlar. Məhəmməd xan Qacar və tərəfdarları Gəncədəki Osmanlı qarnizonuna qarşı həmlələri dayandırmırlar. Gəncə qarnizonunun başçısı Təbrizdəki Osmanlı hakimi Cəfər paşaya bu barədə xəbər göndərir. Cəfər paşa isə Şaha narazılığını bildirərək göstərir ki, Məhəmməd xanın hərəkətləri İstanbul müqaviləsinə qarşı çıxmaqdır. I Şah Abbas Məhəmməd xan Qacar və oradakı başqa əmirləri Gəncədəki Osmanlı qarnizonuna qarşı yürüşlərdən daşındırmaq üçün Qacarlar içərisində hörmətli, inanılmış şəxs olan Çolaq Şahverdini Qarabağa göndərir. Qarabağa gələn Çolaq Şahverdi Şah Abbasın «Qarabağ heç yerə getmir. Əgər Allah istəsə yenə ələ gələr…» ifadəsi olan fərmanı əmirlərə verir (80, 385, 416-417). Onları başa salır ki, Şahın Osmanlılarla bağladığı müqavilədən istifadə edərək müharibəyə hazırlıq aparmasına Qarabağda sizin yürüşləriniz mane olur. Beləliklə, Qacar və digər ellər, oymaqlar müvəqqəti olaraq doğma torpaqları uğrunda mübarizəni dayandırırlar.

I Şah Abbas osmanlılara qarşı müharibəyə ciddi hazırlaşırdı. İki ölkə arasında döyüş 1603-cü ildə başlanır. Səfəvi Şahlığı 1612-ci ilə qədər gedən döyüşlərdə qələbə çalıb, Osmanlı dövləti tərəfindən tutulmuş torpaqları geri qaytarır. Qarabağ 1606-cı ildə azad edilir. Şah Qarabağ ərazisində gedən döyüşə qədər Qacarların Ziyadlı oymağından olan Hüseyn xana böyük ümid bəsləyirdi. Ona

«Qarabağı» (Qarabağlı)- deyə müraciət edirdi. Hüseyn xan igidliyinə, döyüşkənliyinə baxmayaraq həm də lovğa və özündən razı, müştəbeh adam idi. O, Qarabağda gedən son döyüşlərdə qətiyyətsizlik göstərdiyinə görə Qarabağ əhalisi də ondan incimişdi. Buna görə də, Qarabağa 1606-cı ildə yenə Məhəmməd xan Ziyadoğlu Qacar bəylərbəyi təyin olunur. O, 1610-cu ildə Gürcüstan, 1611-ci ildə isə İrəvan döyüşlərində böyük igidlik göstərir. 1615-ci ildə Gürcüstan ixtişaşları zamanı döyüşlərin birində yaralanıb bir qədər sonra vəfat edir. Onun oğullarından Mürşüdqulu xan, sonra isə Məhəmmədqulu xan Qarabağ bəylərbəyi oldu. Gürcüstan valisi 1627-ci ildə şahlığa qarşı çıxarkən Məhəmmədqulu xanın səhlənkarlığından istifadə edib Qarabağa qoşun yeridərək yerli əhaliyə xeyli ziyan vurdu. Şah dərhal Məhəmmədqulu xanın əvəzinə Qarabağa Allahverdi xanın oğlu Davud xanı bəylərbəyi təyin edir (80,788-892, 1021, 1024, 1065-1066).

I Şah Abbas əslində fürsətdən istifadə edərək Qarabağda Qacarların irsi hakimiyyətlərini ləğv etmək istəyirdi. Ancaq onların irsi idarə hüquqlarına son qoymaq baş tutmurdu. Davud xan Qızılbaş olmadığına görə Qarabağın yerli əhalisinə arxalana və burada özünə möhkəm hərbi dayaq yarada bilmədi. O, dəfələrlə mərkəzi hakimiyyətə qarşı çıxan və sonuncu dəfə Osmanlı ölkəsinə qaçan Gürcüstan valisi Təhmurazın bağışlanmasını və öz vəzifəsinə qaytarılmasını xahiş edir. Təhmuraz Kaxetiyaya döndükdən sonra Davud xan da Qarabağı unudub vaxtının çoxunu Qanıq çayı sahilində onunla ovda keçirirdi. Davud xan Qarabağın yerli əhalisi ilə kobud rəftar edirdi. Qacar əyanları dəfələrlə şaha ondan şikayət etmişdilər. Nəhayət Şah Qacarların şikayətini nəzərə alıb, onu İsfahana çağırmış, ancaq o, ilk sorğu-sualdan sonra icazəsiz Qarabağa qayıtmış, Kaxetiya valisi Təhmuraz xanla birlikdə 1631-ci ildə Qarabağın mərkəzi Gəncədə və onun ətraf bölgələrində qətl-qarətlər törətmişdilər. (81, 109-112) Sözsüz, Davud xan özbaşına hərəkətləri ilə hakimiyyəti inkar edir, Gürcüstanda xassə qulamları içərəsindən çıxmış yeni hərbi əsilzadələrdən təyin edilən hakimlərin başçılığı altında baş verən separatizmi dəstəkləyir və bütün bu

hərəkətlərində isə Fars hakimi olan qardaşı İmamqulu xana arxalanırdı. Nəticədə xassə qulamlarının dövlətdə hərc-mərcliyə meyilli olduqları nəzərə çarpacaq dərəcədə üzə çıxmış və I Şah Səfi İmamqulu xanı üç oğlu ilə ölüm cəzasına məhkum edərək, bütün qulamlara göstərdi ki, onlara özbaşınalıqlarında güzəştə gedilməyəcək.Qacar Məhəmmədqulu xanı 1631-ci ildə yenidən Qarabağa bəylərbəyi təyin etdi. Beləliklə də, qısa fasilədən sonra Qacarların irsi idarə hüquqları yenidən bərpa olundu. Davud xan Osmanlı dövlətinə qaçdı və orada öldürüldü (128, Bn, v.64b-66a-b; 206, 57).

Məhəmmədqulu xan Qacar Qarabağ və qonşu bəylərbəyiliklərin də qorunmasında çox böyük igidliklər göstərirdi. 1635-ci ilin avqust ayından 1636-cı ilin aprel ayına qədər Çuxur-Səddə Osmanlı qoşunlarına qarşı döyüşlərdə olduğu zaman onu Qarabağda oğlu Murtuzaqulu xan əvəz edirdi. Murtuzaqulu xanın vəfatından sonra isə onun əmisi oğlu Uğurlu xan 1664-cü ildə Qarabağ bəylərbəyi oldu (126, v.77).

Vilayətdə yaşayan yerli əhaliyə, onların hərbi qüvvəsinə arxalanmadan heç bir bəylərbəyi vəzifədə qala bilməzdi. Qarabağda Qacar, Qaramanlı, Otuziki, İyirmi dörd, Baharlı tayfaları və başqa Qızılbaş el və oymaqları yaşayırdılar. Əhalinin geniş kütləsi Qacarlardan olduğuna və digər tayfalar onlarla qaynayıb qarışdığına görə, bəylərbəyi bir qayda olaraq Qacarın Ziyadlı oymağından seçilirdi. Burada çox möhkəm hərbi qüvvəyə malik olan Ziyad oğullarının hakimiyyəti irsi idi. Ancaq bəylərbəyilərin hakimiyyətinin irsi olmasına baxmayaraq, onların üzərində mərkəzi dövlət aparatının möhkəm nəzarəti vardı. Dövlət bəylərbəyiləri öz tabeliyində saxlamaq üçün onların öhdəsində olan qoşunların sayının Şah qoşununun sayından həmişə az olmasına çalışırdı. Ayrı-ayrı vilayətlərin daxilində ulka almış əmirlərin də 2-3 min nəfərdən artıq qoşun saxlamağa ixtiyarı yox idi. Digər tərəfdən bəylərbəyinin özünə də artıq qoşun saxlamaq sərfəli deyildi. Çünki qoşunun bütün xərci onun öhdəsinə düşürdü. Qarabağ vilayəti timsalında bizə bir məsələ də aydın olur. I Şah Abbas və ondan sonra hakimiyyət başına keçən Səfəvi hökmdarları vilayətdə sakin olan Qızılbaş tayfa ağsaqqalları və əmirləri ilə həmişə hesablaşırdılar.

Bu və ya digər qaynaqlardan aydın olur ki, Qarabağ əhalisi yarımköçəri heyvandarlıqla yanaşı, əkinçiliklə də məşğul olurdular. Eyni zamanda, onların Gəncə və Bərdə kimi inkişaf etmiş mədəniyyət mərkəzləri də vardı.

«Təzkirət əl-müluk»un sonuncu bəhsinin ikinci məqaləsində Şirvan bəylərbəyinə tabe olan mahal və ulkalardan Salyan, Quba, Ərəş və Şəki, Dərbənd, Alpout eli ulkası, Bakı, Cəmişkəzək və Ağdaşın adları qeyd olunmuşdur (132, 78). Mərkəzi Şamaxı olan Şirvan bəylərbəyiliyi Kürdən Dərbəndə qədər ərazini əhatə edirdi. Pyetro Della Valle də dövrün digər qərb müəllifləri kimi gündəliyində Şirvan əyalətini Albaniya adı ilə vermiş və bu əyalətin Xəzər sahilində yerləşdiyini, onun sonuncu şəhərinin dəniz sahilində Dəmir Qapı olduğunu yazmışdır. Müəllifə görə Dəmir Qapı Şirvanın sərhəd şəhəri olub, ondan quzeyə Qafqaz dağı silsiləsində ləzgilər və bir çox başqa tayfalar məskun idi (86, 159). Müəllif Azərbaycan Səfəvi dövlətinin Şirvan əyalətinin quzeydən sərhədi haqqında dəqiq məlumat vermişdir. XVII əsrin sonlarında Masse öz müşahidələri əsasında Şirvan əyalətinin ərazisi haqqında yazır: «İndi Şirvan adlandırılan əyalət qədim Albaniyadır. Şimaldan Qafqaz dağları Şərqdən Kaspi dənizi, Cənubdan Kür-Araz qovşağı və Qərbdən Gürcüstanla həmsərhəddir» (189, 13). A.Volınski də göstərir ki, Şirvan vilayəti Kaspi dənizi sahilində yerləşən Dərbənd şəhərindən Kürün aşağı axarlarına qədər geniş bir ərazini əhatə edir (192, 375; 93, 11).

Qeyd etmək yerinə düşər ki, Səfəvilərə qədər Şirvanda mərkəzdən qaçma meyli güclü olmuşdur. 1500-cü ildə İsmayıl Fərrux Yasarın 20 min atlı və bir neçə min piyada qoşununu Gülüstan qalası yaxınlığında, Cəbani yaylağında məğlub edir. Fərrux Yasar bu döyüşdə öldürüldükdən sonra Şəki, Tabasaran, Dərbənd də daxil olmaqla Dağıstana qədər Şirvanın bütün şəhərləri və qalaları, o cümlədən də xəzinəsi bütünlüklə İsmayılın qoşunun ixtiyarına keçir. Cəbani vuruşunda Fərrux Yasarın ölümündən sonra Şirvanda hakimiyyəti onun oğlu Bəhram bəy ələ keçirir. Lakin bir ildən sonra o da vəfat etdiyindən bu dəfə də hakimiyyəti qardaşı Qazi bəy ələ keçirir. Amma hakimiyyətdə çox qala bilmir. Belə ki, bir neçə

aydan sonra oğlu Sultan Mahmud tərəfindən qətlə yetirilir. Cəbani döyüşündən sonra Gilana qaçmış Şeyxşah (Fərrux Yasarın oğlu) 1502-ci ildə II İbrahim adı ilə Şirvanşahlar taxtında oturur. Sultan Mahmud isə yardım almaq məqsədilə Səfəvilər sarayına gəlir. Qızılbaş qoşunu ilə Şirvana qayıdan (1505-1506) Sultan Mahmud məğlub olur və öz xidmətçisi tərəfindən öldürülür (77, 55; 128, 397; 115, v.33b, 47a; 1, 106; 156, 64-65).

Yerli sülalə üzvləri arasında hakimiyyət uğrunda gedən mübarizənin kəskinləşməsi Şirvanşahları zəiflətməklə Səfəvi dövlətindən asılılığını daha da gücləndirirdi. Əslində Fərrux Yasarın ölümündən (1500) sonra Şirvan öz müstəqilliyini itirərək Səfəvi dövlətinə tabe olmuşdu. Azərbaycanın şimal sərhədlərinin təhlükəsizliyi və eyni zamanda Şirvan vasitəsilə Avropa dövlətləri ilə iqtisadi-siyasi əlaqələrin saxlanmasının əhəmiyyəti nəzərə alınaraq tənzimlənsə də, bir müddət yerli sülalənin daxili müstəqilliyi bir növ saxlanılsa da, əslində Şirvanın hakimləri üzərinə ciddi nəzarət qoyulmuşdu. Belə ki, I İsmayıl tərbiyəçisi və yaxın tərəfdarı Hüseyn bəy lələ Şamlını bura canişin təyin etmişdi. Hüseyn bəy lələ isə Şirvanı tərk edən zaman yerinə xidmətçisi Şahgəldi ağanı qoyurdu. Şeyxşah Şirvanda hakimiyyəti ələ keçirdikdən sonra İsmayıla hədiyyələr göndərərək vergi ödəyəcəyini və sədaqətli olacağını bildirmişdi (156, 66-67; 47, 130).

Lakin Şeyxşah İbrahim sonrakı illərdə, xüsusilə Şah İsmayılın Xorasan səfərinə hazırlaşdığı vaxt xərac verməkdən imtina etdi. Elə buna görə də, 1509-cu ilin sonunda I Şah İsmayılın qoşunu Şirvana daxil oldu və Şeyxşah müqavimət göstərə bilməyib, Biğurd qalasında gizlənməyə məcbur oldu. Şah İsmayıl ikinci dəfə Şirvanı ələ keçirir və yenə də Hüseyn bəy lələni bura canişin təyin edir. Şah Şirvanın qalalarından yalnız Dərbənddə müqavimətlə qarşılaşmış, ancaq qala qısa vaxtda tutulmuş, qalanın kutvalları Yar Əhməd Ağa və Məhəmməd bəy də əsir götürülmüşdü. Dərbəndə Mənsur bəy Əfşar hakim təyin edilmiş, digər ulkalar isə Hüseyn bəy lələ Şamlıya verilmişdi. Çox maraqlıdır ki, h.923-də (1517) bütün günahlarına baxmayaraq Fərrux Yasarın oğlu Şeyxşah yenidən hakimiyyətdə saxlanılır. Şah İsmayılın göstərişi ilə həmin ildə Mir

Cəmaləddin Məhəmməd (sədr) və Mirzə Şah Hüseyn Şirvana gəlib bundan sonra sədaqətli qalacağı barədə Şeyxşaha and içdirirlər. Şeyxşah böyük oğlu Sultan Xəlili girov olaraq Təbrizə göndərir. Şah İsmayıl qızlarından Pərixan xanımı ona ərə verir. Şeyxşah özü isə 1521-ci ildə Marağaya gəlib Şahla görüşür və ona sədaqətlə xidmət edəcəyinə bir daha and içir (28, 42, 52; 128, 268; 108, 44; 1, 107-109; 121, Bn. v. 460).

Göründüyü kimi, I Şah İsmayıl nə birinci, nə də ikinci yürüş zamanı Şirvanşahların öz mülklərində irsi idarəetmə hüquqlarını ləğv etməmişdir. Lakin o, Şirvanşahların fəaliyyətini nəzarət altında saxlayırdı. İkinci səfərdən sonra Səfəvilərin Şirvan şahlığı üzərində nəzarəti möhkəmləndirməsindən bəhs edən Abbasqulu ağa Bakıxanov yazır: «Şah İsmayıl hökumətə dayaq olmaq və onu möhkəm saxlamaq üçün İranda yaşayan Bayat türklərindən bir hissəsini siyahı üzrə köçürüb Qərvənd və Şabranda yerləşdirdi» (1, 109).

1524-cü ildə Şeyxşah II İbrahim vəfat edir. Sultan Xəlil (II Xəlilullah) Şirvan hökmdarı olur. Sultan Xəlil 1535-ci ildə vəfat etdikdən sonra isə onun qardaşı oğlu Şahrux Şirvana hakim təyin edilir (77, 273). Bu barədə Şah Təhmasibin verdiyi yazılı fərman və xələt Şahqulu sultan Ustaclının oğlu Çuxur-Səd hakimi Məhəmməd bəy vasitəsilə Şirvana göndərilir (121, Bn., 91b, 118a; 1,. 111-112).

Şahruxun kiçik yaşlı olmasından istifadə edən Şirvan əmirlərinin mərkəzdənqaçma meyilləri daha da güclənir və Səfəvilər dövlətinə tabe olan Şirvan Şahlığı gündən-günə zəifləyir, nəzarəti altında olan bölgədə ixtişaşlar getdikcə artırdı. Həsən bəy rumlunun məlumatına görə 1537-ci ildə Salyanda peyda olan qələndər özünü Sultan Məhəmməd ibn Şeyxşah adlandırmış və Şamaxını tutmuşdu. Qələndərdən ehtiyat edən Şahruh Biğurd qalasına sığınmış, qiyamçılar Şamaxını tərk etdikdən sonra qaladan çıxıb onları təqib edərək məğlub edə bilmişdi (77, 282). Şahruhun adi bir qələndər qarşısında aciz qalıb qalaya sığınması, artıq Şirvanşahlar sülaləsinin hələ də özlərində saxladıqları şahlığın formal ünvan mahiyyəti kəsb etməklə mərkəzi hakimiyyət tərəfindən onlara verilmiş yeni statusu da yerinə yetirə bilmədiklərindən xəbər verirdi. Elə buna görə də Şah Təhmasib öz qardaşı Əlqas Mirzəni, Məntəşa sultan Ustaclı,

qorçubaşı Sevindik bəy və Qacar əmirlərini Qarabağ qoşunlarından ibarət 20 min nəfərlik qüvvə ilə 1538-ci ildə Şirvana göndərir. Qızılbaşlar Şamaxı, Surxab, Qəbələ, Gülüstan qalasını ələ keçirirlər. Beləliklə, Şahrux və Şirvan əyanları yenidən Qızılbaşlara təslim olurlar. Xacə Zeynalabidin Əli Əbdi bəy Şirazi yazır: «Bütün Şirvana yenilməz dövlətin rəhbəri (Şah Təhmasib) yiyələndi» (28, 83). Qalalar və xəzinənin açarları Əlqas Mirzəyə tapşırılır. Şirvan əyanlarından bir çoxu, o cümlədən də Şahruxun vəkili Hüseyn bəy edam edilir. Şahlıq ləğv olunur. Əlqas Mirzə Şirvan bəylərbəyi və Şamaxı hakimi təyin edilir (80, 81; 77, 286-289; 20, 68-71). Onun lələsi əvvəl Bədr xan Ustaclı (1538-1554) və ondan sonra Qazı xan Təkəli olmuşdu (28, 84, 85). 1538-ci ildə Şirvanşahların hakimiyyətinə son qoyularaq oranın vilayət elan edilməsi Azərbaycanın sonrakı iqtisadi-ictimai, siyasi və mədəni inkişafında böyük rol oynayır.

Əlqas Mirzə 1546-cı ildə Şaha qarşı çıxdı. Ancaq güclü Azərbaycan Səfəvi dövləti qarşısında tab gətirə bilmədiyini duyub iltimas üçün anası Xanbikə xanımı və böyük oğlu Sultan Əhmədi Şah Təhmasibin yanına göndərib, ildə 1000 tümən nəğd pul və 1000 nəfər süvari qoşun verəcəyini də vəd edir. 1546-cı ildə eşikağası Seyid Mənsur ibn Seyid Məhəmməd Kəmunə, divan əmiri Bədr xan Ustaclı, möhürdar Şahqulu xəlifə Zülqədər, qorçubaşı Sevindik bəy Əfşar, Şeyx Səfi astanasının mütəvəllisi Məsum bəy Səfəvi, qoşun qazısı Əmir Feyzulla Bağdadi də Xanbikə xanımla Şirvana göndərildilər. Onlar Cavadda Əlqas Mirzəyə itaətkar olacağına, dövlətə sədaqətlə xidmət edəcəyinə and içdirdilər. Sonralar vədinə yenidən xilaf çıxdığı üçün Qızılbaş ordusu Şirvana girəndə Əlqas Mirzə Osmanlı dövlətinə qaçır (28, 89, 90; 108, 72; 1, 113; 121, Bn., 14a, 155b; 118, 113b; 82, 406; 20, 72-73).

Şah Təhmasib 1547-ci ildə 10 yaşlı oğlu Əbumənsur İsmayıl Mirzəni Şirvana bəylərbəyi göndərir. Kiçik yaşlı olduğuna görə Gögcə Sultan Qacar Şahzadəyə lələ və naib təyin olunur. Onların tabeliyində Şirvana Qızızbaş-Türk əmirləri də göndərilir və orada onlara ulkalar verilir. Şah Təhmasibin fərmanı ilə Şirvandan ildə alınan min tümən də onlara «bağışlanılır». H.956 (1549)-cı ildə

İsmayıl Mirzə Şirvan bəylərbəyiliyindən çıxarılıb geri çağırılır və yerinə Şah İsmayılın bacısı oğlu Abdulla xan Ustaclı bəylərbəyi göndərilir. Abdulla xan Xan Məhəmməd Ustaclının qardaşı Qara xanın oğlu idi. (28,91; 77, 330, 331; 121, Bn. V.173a; 118, v. 132a-132b; 80, 81; 108, 75; 77, 238, 315).

Şirvana şahzadələrdən və yaxud Şahın yaxın qohumlarından bəylərbəyi təyin edilməsinin səbəbləri var idi. Şirvan strateji əhəmiyyətinə görə digər vilayətlərdən fərqlənirdi. Şimaldan Krım tatarları və Dağıstan ilə həmsərhəd idi. Keçmiş Şirvanşahların yenidən Şirvan şahlığını bərpa edib Səfəvi dövlətindən ayrılmaq təhlükəsi qalırdı. Şirvan əsas ticarət yolu üzərində yerləşdiyindən buranın ipəyi ölkənin iqtisdai həyatında mühüm rol oynayırdı. Məhz buna görə də, Səfəvi şahları həmişə Şirvanı «möhkəm əl» vasitəsi ilə idarə etməyə çalışırdı.

Abdulla xan Ustaclının Şirvana bəylərbəyi təyin edilməsi də daha çox burada baş verə biləcək mərkəzdənqaçma meyilləri ilə əlaqədar idi. Fəzli İsfahani yazır ki, Şirvanşahlar nəslindən olan Bürhan sultan Şirvana gəlib, Şirvanşahlar sülaləsini və hakimiyyətini bərpa etmək üçün Qızılbaş qoşunları ilə vuruşdu və məğlub oldu. Vəziyyəti belə görən Şah Təhmasib H.956-cı (1549) ildə öz bibisi oğlu Abdulla xan Ustaclını Şirvana bəylərbəyi təyin edir (118, v.134a, 141b). həsən bəy Rumlunun məlumatına görə Abdulla xan Şirvana çatdıqda Bürhan vəfat etmişdi. Qiyamçılar onun cəsədini gizlətmişdilər. Abdulla xanın göstərişi ilə Bürhanın cəsədi aşkar edilir və başı kəsdirilir. Qorxudan Xəzər dənizi sahilində adaya çəkilən qiyamçılar Abdulla xanın barış təklifini qəbul etmədiklərinə görə dənizə sıxışdırılıb məhv edilirlər (77, 330, 331). Abdulla xan Ustaclı tayfasının bir hissəsini Şirvana köçürüb öz hakimiyyətini möhkəmləndirdi. O, H.974-cü (1566) ildə vəfat etdikdən sonra yerinə Araz sultan Rumlu (Rey əyalətinin hakimi) Şirvana bəylərbəyi təyin olunur və 1578-ci ilə qədər fasilələrlə Şirvanda hökmranlıq edir. Fəzli İsfahani isə qeyd edir ki, Abdulla xan Ustaclı vəfat etdikdən sonra oğlu Sultanəli bəy (Şah Təhmasibin kürəkəni) Şirvana bəylərbəyi təyin edilir. H.978-ci (1570-71) ildə isə Sultanəli bəy Şirvan bəylərbəyiliyindən götürülüb, yerinə I Şah Təhmasibin oğlu

Sultan Mahmud Mirzə göndərilir. Ancaq şahzadə kiçik yaşlı olduğuna görə Şirvanı onun ləl əsi Araz xan Rumlu əmir əl-üməra rütbəsi ilə idarə edirdi. II Şah İsmayıl hakimiyyətə keçdikdən sonra Araz sultan Rumlu Şirvan hakimliyindən götürülüb Herata göndərilir (121, Bn. v. 226a-b, 275; 118, v.249; 128, 401-402; 181, 126). Qazi Əhməd Qumi h.985 (1577-78)-ci il hadisələrindən bəhs edərkən yazır ki, Bürhan Mirzənin bacısı oğlu Tavus Mirzə Şirvanda özünü Şah elan etmiş, ancaq bu vaxt Herata getməyə hazırlaşan Araz sultan Rumlu 600 nəfər mülazimi ilə Şabranın 2 fərsəhliyində (12 km) Tavus Mirzənin dəstəsini məğlubiyyətə uğradır (121, Bn. 28a, 300b, 301a). İsgəndər Münşinin verdiyi məlumatda II Şah İsmayılın hakimiyyəti dövründə Əbu Turab sultanın da qısa müddət ərzində Şirvanda hakimiyyətdə olduğu göstərilir. Sultan Məhəmməd (1578-1587) hakimiyyətə keçdikdən sonra isə Araz sultan Rumlu yenidən Şirvana qaytarılır. Şirvanın Ərəş mahalının idarəsi isə II Şah İsmayıl dövründə həbsə alınmış Ərdoğdu xəlifə Təkəliyə, Şəki əyaləti isə İsa xana tapşırılmışdı. Rumlu əmirlərindən bir neçə nəfərinə də Şirvanda ulkalar verilir (80, 216, 227).

Araz Sultan Rumlu Şirvana yenidən öz vəzifəsinə qaytarıldıqda, Əbubəkr Mirzənin başçılığı ilə qiyam baş vermiş və Osmanlı ordusu Şirvana hücum (1578) edib, Şamaxı, Qəbələ, Bakı, Şabran, Mahmudabad və Salyanı tutur. Şirvan bəylərbəyi Araz xan Rumlu müqavimət göstərməyin mənasız olduğunu bilərək Kür çayına doğru geri çəkilir. Hadisələrin sonrakı gedişi haqqında İsgəndər bəy Münşi yazır: «Rumlu tayfası neçə il Şirvanda tam rahat yaşayıb çoxlu mal-dövlət topladılar. Amma ruzigarın onlara gözü dəydi. Əksər yüksək rütbəli şəxsiyyətləri qətlə yetirildi, malları talan edildi. Araz xan Rumlu Şirvan döyüşlərində düşmən tərəfindən əsir alındı» (80, 232-235, 236; 156, 153, 157).

H.986 (1578) -cı il hadisələrindən bəhs edən Qazi Əhməd Qumi yazır ki, Şah Təhmasib dövründə Astrabad hakimi olan və Zülqədər tayfası arasında şücaət və mərdliklə şöhrət tapmış Məhəmməd sultan Hacılar Zülqədərə xan titulu verilib Şirvana bəylərbəyi təyin edilir. O, I Şah Təhmasibin hakimiyyətinin son ilində Astrabada hakim göndərilmiş, lakin bu vilayətdə Yaka Türkmənlər-

lə bağlı narazılıq baş verdiyinə görə Qəzvinə qayıtmışdı. Məhəmməd Xudabəndə onu Şirvana hakim təyin etdikdə, Şirvan mahallarının yeni Qızılbaş-Türk əyanları arasında bölünməsi, yəni onların mahal başçıları qoyulması haqqında buyruq verilmişdi. Bu məqsədlə Hüseynqulu Sultan Qacar və Cagirli, Qaramanlı əmirləri də onunla birlikdə Şirvana göndərildilər. İsgəndər Münşi isə H.988-ci (1580-81) il hadisəsindən bəhs edərkən həmin ildə Abdulla xan Ustaclının nəvəsi Salman xan Ustaclının Şirvana hakim təyin edildiyini və Ustaclı tayfasının bir çox əmirlərinə də əlavə titul verilib ora göndərildiyini yazır. Salman xanın atası Şahəli Mirzə I Şah Təhmasibin bacısı oğlu idi. Hakim sülaləyə qohum və həm də onun yaxın tərəfdarı olan Salman xan I Şah Təhmasibin qızı Şəhribanu bəyimlə evlənmişdi. Onların toyundan sonra Nəzər sultan Ustaclının oğlu Hüseynqulu sultan, Ustaclı elinin Çavuşlu obasından Əliqulu sultan, Ustaclının Şərəfli obasından Mustafa sultan, Mehdiqulu sultan Çavuşlu ilə yanaşı Qaramanlı, Cagirli və başqa türk oymaqlarından bir çox əyana əmir rütbəsi verilmiş, bəylərbəyi Salman xan ümməra-ye tabin olaraq Şirvana göndərilmişdi. Ancaq 1581-ci ildə Salman xan Ustaclı osmanlılarla müharibədə məğlub oldu və elə buna görə h.989-cu (1581-82) ildə tutduğu vəzifədən azad edildi. Peykər xan Ziyad oğlu Qacar Şirvana bəylərbəyi təyin olundu (80, 227; 121, Bn. V.314b; 128, 403, 404, 416, 561-562, 616-617).

Bu illərdə Osmanlı hərbi yürüşlərinin genişlənməsi ilə əlaqədar olaraq Şirvanın qorunması Qarabağın Qacar, Otuziki və digər ellərinə həvalə oulnmuş və vilayətin idarəsi isə Qarabağ bəylərbəyi İmamqulu xana tapşırılmışdı. Lakin İmamqulu xan bundan imtina etmiş və elə onun məsləhəti ilə Peykər Sultan Ziyad oğlu Qacar xan rütbəsi ilə Şirvana bəylərbəyi təyin olunur. Qacar əmirlərindən bir çoxuna da Şirvanda ulka verib Şamaxıya yola salınır. 1581-ci ildə Qızılbaşlar Şabran, Şəki, Qəbələnin Osmanlı ordusundan geri alarkən Peykər xan xəstəlikdən vəfat edir. Şahın əmri ilə Qaradağlı Xəlifə Ənsər Peykər xanın yerinə Şirvana bəylərbəyi təyin edilir. Lakin Xəlifə Ənsarın Şirvanda bəxti gətirmir və tezliklə vəfat edir. Bundan istifadə edən Osmanlılar Şirvanı yenidən ələ keçirirlər.

Şirvan 1585-ci ildən 1607-ci ilə qədər Osmanlıların hakimiyyəti altında qalır (129, 123, 146; 80, 264-271; 128, 639; 182, 240).

I Şah Abbasın qoşunu 1603-cü ildən Osmanlı dövlətinə qarşı müharibəyə başlayıb yerli əhalinin köməyi ilə 1607-ci ildə Şirvanı azad etdi. Həmin ildə Zülfüqar xan Qaramanlı Şirvana bəylərbəyi təyin olundu. Zülfüqar xan Qaramanlı I Şah Abbasın hakimiyyətinin əvvəllərindən 1598-ci ilə qədər Səfəvi ordusunun baş komandanı olmuş Qaramanlı Fərhad xanın qardaşıdır. İsgəndər bəy Münşi yazır ki, Allahverdi xan və bir neçə qulam əmiri Fərhad xanı öldürmək üçün çadırına girdikdə o, türkcə «beləmi oldu?» demişdi. Bu zaman Zülfüqar xan onu da sağ qoymayacaqlarını güman etsə də, ona toxunmamışdılar. Ancaq çox keçmədi ki, onu da ölüm cəzasına məhkum etdilər (1610). H.1019-cu (1610) ildə keçmiş Astrabad hakimi Yusif xan mirşikarbaşı Şamaxı və Qəbələdə bəylərbəyi vəzifəsinə göndərilmişdi. Ondan sonra isə Gilan darğası Qazaq bəy Çərkəz Şirvan bəylərbəyi və Şamaxı hakimi təyin edilir. İsgəndər bəy Münşi h.1036-cı (1626-27) il hadisələrindən danışarkən qeyd edir ki, Şirvan valisi Qazaq xan Çərkəz (1625-1627) Gürcüstanda əsir düşdü və o, əsirlikdə olduğu iki il ərzində Şirvanı onun canişinləri, yaxın adamları idarə etdilər. O, 1633-cü ilə qədər Şirvan bəylərbəyi və Şamaxının hakimi olmuşdur (80,585, 1040, 1060; 142, 102; 194, 94).

1633-cü ildə Dərbənd hakimi Fərrux sultana əmir əl-üməra hərbi rütbəsi və xan titulu verilmiş və o, Şirvanda Qazaq xanı əvəz etmişdir. Dərbəndə Siyavuş sultan hakim göndərilmişdi. Fərrux xan h.1042-ci ilin rəcəb ayında (yanvar 1633) Şamaxıdan bir dəstə qoşun ilə Zəyəmə gedib orada gürcülərlə vuruşmuş və çoxlu qənimətlə Şirvana qayıtmışdı. H.1045-ci il rəcəb ayında (yanvar 1636) Fərrux xan İrəvan vuruşmasında öldürülür (128, v.69b; 125, v.54).

Bu xəbər mərkəzə çatdıqda, dərhal imperiyanın şimal sərhədlərinin qorunmasını gücləndirmək üçün h.1045-ci ildə Şirvanın strateji əhəmiyyət kəsb edən Dərbənd mahalında Siyavuş sultan tutduğu vəzifədən azad edilmiş və bura Ustaclı əyanlarından eşikağası Şahverdi bəy hakim göndərilmişdi. (81, 160,161) Lakin Dərbənd qaziləri Şahverdi bəydən şikayət etdiklərinə görə o, 1638-

ci ildə tutduğu vəzifədən azad edilir. Dərbəndə yenə Ustaclı əyanlarından Bəhram bəy hakim göndərilir. Oğlu Bəyazid bəy isə ona naib və həm də Dərbəndə keşikçibaşı, hərəm eşikağası Ağabba Nuri isə tüfəngçiağası təyin edilir və qalaya tüfəngçi dəstəsi də göndərilir. Dərbəndə yeni təyinatlara aid fərmanda qala tüfəngçilərinin məvacibi Dərbənd mahalının mədaxili hesabına ödənilməli idi. (81, 228)

Fərrux xandan sonra Ərəb xan Ağzıvar oğlu Şamlı (keçmiş cəbbədarbaşı) Şirvana bəylərbəyi təyin edilir. Adam Oleari yazır ki, Ərəb xan Sərab mahalında yoxsul kəndli ailəsində anadan olmuşdur. O, İrəvan müharibəsində topçubaşı olmuş və döyüşlərdə qəhrəmanlıq göstərdiyinə görə, İrəvan mühasirəsində ölən Fərrux xanın yerinə Şirvan bəylərbəyi seçilmişdi. Ərəb xan 1645-ci ildə II Şah Abbasın göstərişilə hökumətin baş vəziri Mirzə Tağının qətlində iştirakına görə təqsirləndirilərək öldürüldü. Şahın əmri ilə İsgəndər bəy Qacar isə Şirvana Ərəb xanın oğlu Nəriman bəyi həbsə alıb, əmlakını müsadirə etmək üçün göndərilir. H.1055-ci il rəcəb ayının 12-də (3 sentyabr 1645) kökcə qulam olan Xosrov xan Şirvana bəylərbəyi təyin edildi. Bəylərbəyi vəzifəsinə keçməmişdən qabaq Xosrov xan Qarabağda Cavanşir tayfasının başçısı, sonra mirşikarbaşı vəzifəsi ilə yanaşı, Əbhər vilayətinin hakimi olmuşdu (139, 556; 128, v.181b; 194, 195).

Xosrov xanın Şirvan bəylərbəyi olması barədə h.1056-cı ildə (iyun 1646) hökm yazılmışdı. 1653 və 1654-cü illərdə Xosrov xanın Şirvanda xan olması haqqında başqa rəsmi sənədlər də vardır (46, 131). Rusların Səfəvi dövlətinin quzey sərhəddində bir neçə qala tikdirməsi barədə Şirvan bəylərbəyi Xosrov xan II Şah Abbasa məlumat vermişdi. Şahın fərmanı ilə Ərdəbil, Çuxur-Səd, Qarabağ, Astara və Azərbaycan bəylərbəyilərinə, eləcə də mahal başçılarına məktub göndərilir ki, qoşunlarını Şirvana gətirib bəylərbəyi Xosrov xanın rəhbərliyi altında ruslarla vuruşmağa getsinlər. Məhəmməd Yusif Qəzvini 1653-cü ildə baş verən bu hadisəni təfərrüatı ilə şərh etmişdir. Məhəmməd Yusif Qəzvini 1654-cü il hadisələrindən danışarkən yazır: «Bu ildə Şirvan bəylərbəyi Xosrov xan vəfat etdi. Qulaman-i xasse-ye şərifəni yüzbaşısı Bəxtan bəy bu vəzifəyə keçi-

rilib Mehrəli xan adlandırıldı» (128, v.221a-221b, 227b-228a; 125, v.204). Mehrəli xan öldürüldükdən sonra 1656-cı ildə Astrabadın keçmiş bəylərbəyi Hacı Mənuçöhr xan Şirvana bəylərbəyi təyin olunur. Hacı Mənuçöhr xan h.1069 (1659)-cu ildə Dağıstan qiyamçılarına qarşı döyüşə başçılıq etmişdir (128, v.252 b.). H. 1069-1070 (m.1659-1660)-cı ildə Şirvan bəylərbəyi Hacı Mənuçöhr xan Şaha Qaytaq hakimi Abbasqulu xan Usminin vəfat etməsi və oğlu Rüstəm Usminin yaramaz adamlara qoşulub pis işlər törətməsi barədə məlumat göndərdi. Şah bu zaman Kaxetdə qala inşası ilə məşğul olan sipahsalar Allahverdi xana göstəriş verdi ki, Mənuçöhr xanın yanına 15000 sipahi göndərsin, o bu ordu ilə Dağıstan, Saxur və Təbəristana yola düşüb qiyamçıları məhv etsin. Şah bu nahiyələrin əmirlərinə fərman göndərdi ki, onların hamısı Mənuçöhr xana tabe olsunlar. Hacı Mənuçöhr xan qiyamı yatırıb Rüstəm Usmini də ələ keçirib İsfahana göndərdi. (125a, 105)

Məhəmməd Yusif Qəzvini h.1070-ci (1660) il hadisələrindən bəhs edərkən qeyd edir ki, Şirvan bəylərbəyi Mənuçöhr xandan sonra Məhəmməd bəy bəylərbəyi təyin edildi (128, v.278b, 281b, 289a). Məhəmməd xan Siyavuş bəyin oğlu idi. Şirvan əhalisinin şikayəti nəticəsində o, vəzifədən götürülüb həbs edilir və əmlakı da müsadirə olunur. Məhəmməd Tahir Vəhid h. 1071-ci (1660-1661) il hadisələrindən danışarkən yazır: « Məhəmməd xan Şirvana daxil olduqdan sonra çoxlu şərab içir. Əhali ilə Allaha və xalqa yaraşmayan qaydada hərəkət edir, onları hər gün incidirdi. Ona görə Şah əmr edir ki, o camaata nə kimi zülm olunubsa, yoxlayıb ona məlumat versinlər. Bu iş üçün Fətəli bəy Şirvana göndərilir. Fətəli bəy Şirvana çatana qədər Məhəmməd xan şikayətçilərdən bir neçəsini tutub həbsxanaya saldırmışdı. Fətəli bəy onun hərəkəti haqqında Şaha məlumat verir. Şahın fərmanı ilə Məhəmməd xan həbs olundu. Əmlakı əlindən alındı və İrəvanın keçmiş hakimi Nəcəfqulu xan Şirvana bəylərbəyi təyin edildi». Nəcəfqulu xan Əfşar Əmirlərindən Qazaq xanın oğlu idi. 1667-ci ilin yazında vəfat etdi (125, v.270a-b; 194, 96).

II Şah Səfinin (Şah Süleymanın) 1691-ci ildə verdiyi yazılı fərmanda Şirvan bəylərbəyi Nəcəfqulu xanın adı çəkilir və əmir əl-

ümәra olduğu göstәrilir (46, 137). Ehtimal ki, o, 1656-1663-cü illәrdә Çuxur-Sәd, 1663-1667-ci illәrdә Şirvan bәylәrbәyi olmuş Nәcәfqulu xan Şamlının nәvәsi idi vә babasının adını ona qoymuşdular.

Şirvan bәylәrbәyi Xosrov xanın 1646-cı il hökmündәn aydın olur ki, Şahın h.1043-cü il sәfәr (avqust 1633) tarixli fәrmanı әsasında bәylәrbәyi özü dә hökmran olduğu vilayәtin daxilindә yazılı hökmlәr verә bilәrdi. Şahın qeyd olunan fәrmanı әsasında Şirvan bәylәrbәyi Xosrov xanın 1648-ci ildә verdiyi hökmdә deyilir ki, Kiş, Nuxu vә Şәkәrәnd kәndlәrinin üç tümәn gәliri Şәki mahalı tiyuldarının tiyulundan ayrılıb haman mahalın mәliyi Mәlik Sәfiquluya verilibdir vә Şahın h.1043-cü il sәfәr tarixli fәrmanı eynilә Xosrov xanın 1646-cı il hökmü ilә qüvvәdә qalır. Şәkinin hakim tiyuldarına göstәriş verir ki, oraya toxunmasınlar (46, 131).

Göründüyü kimi, o dövrdә Şirvanda çox güclü Qızılbaş tayfa aristokratiyası var idi vә bu vilayәtә bәylәrbәyilәr әsasәn onlardan tәyin olunurdu.

Sәfәvi dövlәtinin Şәrq әyalәti Herat, Mәşhәd, Qәndәhar vә Mәrv-Sistan adlı dörd bәylәrbәyiliyә bölünmüşdü.

Herat bәylәrbәyinә tabe olan mahal vә ulkalar Mәrucağ, Fәrah, Xaf, Cam, Bala-Murğab, Pәncdeh, Badqis, Kәrәc, Rudmi, Qur vә Tundan ibarәt idi (113, 79-80).

I Şah Tәhmasibin 1576-cı ilin may ayında vәfatından sonra şahlığa onun övladlarından kimin keçәcәyi üstündә әmirlәr arasında baş vermiş ixtilafda Ustaclıların әmirlәrinin çoxu Heydәr Mirzәnin atasına xәlәf (varis-Z.B.) olması tәrәfindә dayanmışdılar. Ancaq 1576-cı ilin avqust ayının 22-dә hakimiyyәtә I Şah Tәhmasibin İsa xan Mosullunun qızı Sultanım bәyimdәn anadan olan oğlu İsmayıl Mirzә keçdi. İsmayıl Mirzә şahlıq taxtına oturana qәdәr paytaxtda Ustaclı eli çox ciddi tәqiblәrә vә cәza tәdbirlәrinә mәruz qalır. İsmayıl Mirzәnin tәrәfdarlarının Qәzvindә Heydәr Mirzәni dәstәklәyәn Ustaclı әmirlәrinә qarşı hәyata keçirdiklәri cәza tәdbirlәri әyalәtlәrdәn dә yan keçmәdi. İsgәndәr bәy Münşinin «sәriştәli vә ağıllı türk» adlandırdığı Abbas Mirzәnin lәlәsi Ustaclı Yeqan Şahqulu bu zaman Herat hakimi idi. O, Qәzvindә baş vermiş hadi-

sələr barədə məlumat əldə etdikdə, dərhal silah götürməni, hərbi yürüşləri qadağan edib, intizarla Qəzvindən gələcək buyruqları gözləməyi qərara alır. Elə bu zaman Herat bəylərbəyinə tabe olan Fərah hakimi Hüseyn sultan Əfşar Herata hücum etdi və baş verən savaşda Ustaclı Yeqan Şahqulu öldürüldü. Sağ qalan Ustaclılar Heratı tərk etdilər. Onlardan bir çoxu Yeqan Şahqulu sultanın Sərəxs valisi olan oğlu İbrahim sultanın yanına qaçdı. II Şah İsmayıl bu hadisədən sonra Durmuş xanın nəvəsi Sultan Hüseyn bəy Şamlının oğlu Əliqulu bəyə xan titulu verib, onu Herat hakimi və Xorasan əmir əl-ümərası təyin etdi (80, 204; 128, 555; 67, 113, 114; 20, 118, 119). Burada əmir əl-ümərа inzibati-hərbi səciyyə daşıyır. Əliqulu bəy ona verilmiş rütbəyə müvafiq olaraq əmir-i bozorg (böyük əmir) statusu ilə Xorasanın bəylərbəyi olub (128, 687) vilayətin bütün hakimlərindən yüksəkdə dayanır, onların qoşunlarının da baş komandanı olub, fəaliyyətlərinə də nəzarət etməli idi.

Şah Sultan Məhəmmədin (1577-1587) hakimiyyəti dövründə də Herata Şamlı elindən Abbas Mirzənin lələsi Əliqulu xan bəylərbəyi təyin olunmuşdu. Bu zaman Şamlı əmirlərinin çoxu onun məiyyətində olub, onlara Herat vilayətində ulkalar verilmişdi. «Tarix-i alamara-yi Abbasi»də Xəvaf ulkasının isə Ustaclılardan Vəli xana aid olduğu qeyd edilmişdir (80, 227; 128, 604). Əliqulu xan Şamlı 1581-ci ildə xanlar-xanı titulunu qəbul edib, Abbas Mirzəni «şah» elan etmişdi və Xorasandakı bütün Ustaclı və Şamlılar onun ətrafında birləşmişdilər. Bu zaman Məşhədin, yəni Xorasanın yarısının bəylərbəyi olan Murtuzaqulu xan Pornak Türkman Əliqulu xanla hesablaşmırdı. Halbuki, o bütün Xorasanın valisi Abbas Mirzəyə, həm də onun lələsi və Herat əmir əl-ümərası Əliqulu xana tabe olmalı idi. Onların arasındakı narazılıqlar əvvəl qeyd olunduğu kimi Mirzə Salmanın təhriki ilə daha da artmış və 1582-1583-cü illərdə Ustaclı və Şamlılarla Türkman, Təkəlilər arasında savaşa səbəb olmuşdu. Bu çəkişmələrə son qoymağa çalışan Məhəmməd Xudabəndə də Herata gəlmiş və nahayət çəkişmələrə son qoyulmuş və Əliqulu xan Şaha itaət etdiyini bildirmişdi. Əliqulu xanın xahişinə görə Abdulla xan Ustaclının nəvəsi Salman

xan Məşhədə hakim təyin edilmiş və Murtuzaqulu xan Türkman Astrabada göndərilmiş, Damğan, Bistam, Hezarcərib də ona verilmişdir. Xorasanda Cam hakimi Şahqulu sultan Qarınca oğlu Ustaclı da Salman xana tabe idi (128, 602, 652, 677, 678).

1587-ci ildə Abbas Mirzə taxta oturduqda Əliqulu xan Şamlı hələ Herat hakimi idi. Bu zaman Özbək Abdullah xan Xorasana hücum edib Herat və Məşhədi zəbt etdi. Əliqulu xan təslm olsa da, o başda olmaqla Şamlılardan bir çoxu öldürüldü (80, 386, 399; 67, 145, 147). «Tarix-i alamara-yi Abbasi» də 1588-ci ildə Herata tabe olan Tunda Ustaclılardan Şahəli Mirzənin oğlu Salman Mirzənin hakim olduğu haqqında məlumata təsadüf edilir (80, 403).

1598-ci ildə I Şah Abbas Din Məhəmməd xana savaşlarda qalib gəlib Heratı geri aldıqdan sonra Qum hakimi Hüseyn bəy Şamlıya xan titulu verib Herata hakim və bütün Xorasana əmir əl-ümməra təyin edir (80, 942). Ustaclılardan Bektaş sultana da əmir rütbəsi verilib Maruçaq və Murğaba göndərildi. Tezliklə Bala Muğab da özbəklərdən geri alındı. Özbəklərdən geri alınan Xorasanın qalaları bərpa edilib, vilayət və mahallarına əmirlər təyin edilir (80, 576). 1603-cü ildə Qacarlardan Mehrab xan Xəvaf və Baxərz, Şamlı elindən Nəcəfqulu xan da Qainə hakim təyin olunmuşdu (80, 620). 1602-1603-cü ildə Əfşar İsmayıl xan Alplı Fərah hakimi idi. I Şah Abbasın hakimiyyətinin son illərində də Fərah hakimi Əfşarın Alplı obasından Ərdoğdu xan olmuşdu (80, 677, 1085). Ərdoğdu xandan sonra Fərah hakiminin Qacar elindən Xəndanqulu xanın olduğunu görürük (81, 196). II Şah Abbas zamanı Heratın Cam mahalında da hakimlər əsasən Qızılbaş-Türk əsilzadələrindən ibarət olmuşdu. 1663-cü ildə Cam hakimi Həsən xan Təkəli vəfat etmiş, onun yerinə Cam hakim Qələndər sultanın oğlu Abdal sultan Təkəli təyin edilmişdi (125a, 70).

İsgəndər bəy Münşinin yazdığına görə Hüseyn xan Şamlı iyirmi il darossəltəne-ye Heratın valisi və Xorasanın bəylərbəyi vəzifəsində ləyaqətlə xidmət etmişdir. O, öz əcəli ilə 1618-ci ildə vəfat edir. Onun vəfatından sonra oğlu Həsən xan Herat hakimi və Xorasan əmir əl-üməraəsı olmuşdu. Şahın buyruğu ilə Hüseyn xan

Şamlının qoşun və ulkası da oğlu Həsən xana verilmişdi (80, 942, 1042).

1641-ci ildə Həsən xan vəfat edir. Yerinə oğlu Abbasqulu bəy Herat hakimi olur (108, 259). Molla Kamal 1653-cü ildə Xorasanda Abbasqulu bəyin bəylərbəyi olduğunu qeyd edir (130, 107).

İskəndər bəyin yazdığına görə 1627(28) ci ildə müqəddəs saraya yaxın əmirlərdən Təhmasibqulu xan Tərxan Türkman Herata hakim təyin edilir, ancaq xəstələnir və növbəti il vəfat edir. Möhürdar Əmir xan Söklən (oba) Zülqədər Herat hakimi olur. (80, 1058)

Onu da qeyd etmək lazımdır ki, I Şah Abbasın zamanında Şamlıların böyük bir qismi əskidə olduğu kimi Xorasanda yaşayırdı. Xorasanda çox hallarda Şamlı obalarının yurdları onların bəylərinin hakim olduğu yerləri təşkil edirdi. (67, 173)

Seyid Hüseyn bin Murtuza Hüseyni Astrabadi yazır ki, I Şah Səfinin hakimiyyətinin ilk ilində Din Məhəmməd xanın oğlu Bəlx valisi Nəzər Məhəmməd Badqis istsqamətində hücum etmiş, Maruçaq qalasının ətrafında hərbi düşərgə salıb on iki gün Qızıl-başlarla savaşmış, ancaq ciddi müqavimətə rast gəlib geri dönmüş-dü. Belə bir vaxtda Heratda da qiyam baş qaldırmışdı. Müəllif bu hadisələrdən bəhs edərkən Həsən xan Şamlının Xorasan bəylərbəyi və sipahsaları olduğunu yazır. O Heratda baş vermiş qiyamı yatır-dıb, başçılarını da ələ keçirib mərkəzə göndərmişdi. Müəllif sözünə davam edərək yazır ki Xorasan bəylərbəyi Həsən xan Şamlı Maruçağda özbəklər üzərində qələbə çalıb, Heratda da qanun-qayda yaratdı (108, 238) . Müəllif 1634- cü il hadisələrindən bəhs edərkən Həsən xanın hələ Xorasan bəylərbəyi olduğunu qeyd edir (108, 249). 1653- cü ildə Xorasanda Abbasqulu xan bəylərbəyi olmuşdu (130, 120).

«Təzkirət əl-müluk» da Məşhəd-i müqəddəsə tabe olan mahal və ulkalardan Sərəxs, Nişapur, Turşiz, Abiverd, Azadvar, Nisə, Səbzəvar, Əsfərayin, Horuz, Yesaku ( ?), Dərun, Türbət, Bəzavendəkin adları çəkilir (132, 80-82).

II Şah İsmayıl hakimiyyətə keçdikdən sonra Məşhədə Türkman əmirlərindən Murtuzqulu xanı hakim təyin etmişdi. O,

Türkman elinin Pornak obasından idi. II Şah İsmayıl dövründə yüksələn ellərdən biri də Türkmanlar olmuşdu. II Şah İsmayılın anası Türkman elinin Mosullu obasından İsa bəyin qızı olduğuna görə Türkmanlar I Şah Təhmasib vəfat etdikdə (1576) İsmayıl Mirzənin tərəfində çıxış etmişlər. II Şah İsmayılın zamanında Türkmanlar Əcəm İraqında Qum, Kaşan, Savə və Azərbaycanda yaşayırdılar. Onların əmirlərinə bu bölgələrlə yanaşı Mazandaran və Astrabadda da ulkalar verilmiş və onlardan bir çoxu ölkənin müxtəlif yerlərində vəzifələrə təyin olunmuşdular (80, 212; 67, 115, 146). İskəndər bəy Münşi özbək Din Məhəmməd xanın oğlu Cəlal xanın 1577-ci ildə Xorasana hücumu, buradakı qətl-qarəti, onun məğlubiyyəti və Əmət bəy Ustaclı tərəfindən əsir götürülməsini geniş şəkildə təsvir etmiş, Türkman Mürtəzaqulu xan Pornakın Məşhəd-i Müqəddəsin bəylərbəyi olduğunu, onun özbəklərə qarşı müharibədə Qızılbaş ordusuna başçılıq etdiyini yazmışdır (80, 229-230).

Xorasanda Türkmanlarla yanaşı, Şamlı və Ustaclı obaları da məskun olub, Rumlulardan da bir bölüyü Nişapur mahalında yaşayırdı. Sultan Məhəmmədin 1578-ci ildə buyuruğu əsasında Ustaclı əmirlərindən Mürşüdqulu xana Xorasanda Bahərz, onun qardaşı İbrahim sultana Əsfərayin, Məhəmməd xan Sofi oğluna isə Tursiz ulka verilmişdi (80,227; 67, 143).

1581-ci ildə Xorasanda Qızılbaş əmirləri arasında baş vermiş çəkişmələri sakitləşdirmək mümkün olmadıqda Mürtəzaqulu xan tutduğu vəzifədən azad edilib, Astrabada göndərilmiş və Məşhədə Ustaclı Salman xan hakim təyin edimişdi. Bu zaman Səbzəvara Təkəli Əhməd sultan göndərilmişdi (67, 136). Məhəmməd Xudabəndə Xorasanı tərk etdikdən bir qədər sonra Mürşüdqulu xandan ehtiyat edən Salman xan da Məşhədi tərk edib Qəzvinə qayıdır. Mürşüdqulu xan Salman xanın tərəfdarlarının öldürdüyü (1581) əmisi Şahverdi Yeqan Ustaclının intiqamını almaq istəyi ilə Camı tutub, Xorasan hüdudlarında ulkaları olan Qara-Bayat və bir çox Cığatay oymaqlarını da özünə tabe edir (128, 688). O, Ustaclı Əliqulu xanla savaşda Abbas Mirzəni də ələ keçirib Məşhəddə mövqeyini daha da möhkəmləndirir (67, 137). 1587-ci ildə özbək

Abdulla xanın Heratı mühasirəyə aldığını eşitsə də, Abbas Mirzəni hakimiyyətə gətirmək onun üçün daha önəmli olduğuna görə Qəzvinə yola düşür. Bu zaman Astrabad hakimi Murtuzaqulu xan Pornak Türkman, qardaşı Bistam ağa, Məhəmməd xan Türkmanın oğlu Bektaş bəy Məşhədə gəlib Mürşüdqulu xana onunla eyni mövqedə olduqlarını bildirdilər. Fars, Yəzd və Kirmanda da bir çox əmirlər Məşhədə gəlib Mürşüdqulu xanla birləşdilər, ancaq Mürşüdqulu xan Türkmanlarla Ustaclılar arasındakı münasibətləri bildiyinə görə Murtuzaqulu xan Pornak Türkmandan ehtiyat edirdi. Ancaq Murtuzaqulu xanın vəfatı (1587) bu narahatlığa son qoydu. Mürşüdqulu xan nəhayət 1587-ci ildə siyasi vəziyyətə hakimlik edərək Abbas Mirzəni taxta oturtdu (128, 734-739).

I Şah Abbasın hakimiyyətinin (1587-1629) ilk illərində Xorasan uğrunda özbəklərlə müharibə zamanı Ustaclı elinin Qarasarlı obasından Əmət xan Köşək oğlunun Məşhəd hakimi olduğu göstərilir. O, 1589-cu ildə Məşhədə hakim təyin edilmişdi. Bu zaman I Şah Abbasın buyruğu ilə Mürşüdqulu xan və qardaşı İbrahim xanın alayları da Məşhədə köçürülmüş və onların hər ikisi öz qoşunları ilə Məşhəd hakiminin qulluğuna verilmişdir (80, 403, 408-415). İskəndər bəy Münşi 1589-cu ildə məşhur Ustaclı əmiri Mürşüdqulu xanın öldürüldüyünü və Məşhəd hakim olan qardaşı İbrahim xanın isə vəzifədən azad edilib cəzalandırıldığını yazır (80, 401). Elə həmin il Səbzəvar da Qubad xan Qacarın oğlu İmamqulu xandan alınıb Ustaclı Məhəmməd xan Çavuşluya verilmişdir (80, 408)

1588-ci ildə Nişapur hakimi Ustaclı Məhəmməd xan Sofi oğlu tutduğu vəzifədən azad edilir. I Şah Abbas Nişapura Ustaclı əmirlərindən Köşək oğlu Şahnəzər sultanı hakim təyin edir (80,407) Ustaclı qazilərindən bir çoxu da Nişapura gəlib yerləşdilər. Ancaq bu bölgə yenə özbəklər tərəfindən tutulur. I Şah Abbas 1593-cü ildə Nişapuru özbəklərdən geri alıb, ora mahalın əski hakimlərindən Dərviş Məhəmməd xan Rumlunu hakim təyin edib, şəhərdə tüfənkçilər də yerləşdirir. 1594-cü ildə özbəklərin Nişapura növbəti hücumu zamanı Dərviş Məhəmməd xan Rumlu onlarla savaşmış, ancaq döyüşü davam etdirməyin mənasız olduğunu gördükdə, on-

larla razılaşaraq qoşunu ilə şəhəri tərk etməyə məcbur olmuşdur (80,453; 67,158).

1589-cu ildən Məşhədin Əsfərayın mahalının hakimi Ustaclı elinin Çavuşlu obasından Mehdiqulu xanın qardaşı Əbumüslüm xan idi. Onların hər ikisi 1592-ci ildə özbəklərlə savaşda öldürülmüş, Əsfərayin digər qardaşları Həsən xana verillmişdir (80, 408; 67, 163). Əsfərayın 1593-cü ildə isə Baba İlyas Bayatın oğlu Məhəmməd Sultana verilir (80, 453). 1595-ci ildə isə Səbzəvar özbək Əbdülmömin xandan alınır və bura Budaq xan Qacar hakim təyin edilir ( 80, 512). 1594-1595-ci illərdə Ustaclı elinin Kəngərli obasından olan Mustafa sultan Xorasanda Tun və Təbəsin hakimi idi. O, özbəklərlə savaşda öldürülmüş, Təbəs Kəngərli obasından Teymur sultana verilmişdi. Ancaq özbəklərlə savaşda cəsarətsiz hərəkət etdiyinə görə Təbəs ulkasına ağıllı və igid Mehrab xan Qacar hakim olur (80,490). Tun və onunla bağlı bir neçə bölgə isə Süleyman Xəlifə Türkmana tapşırılır (80,488) 1598-ci ildə Təbəs hakimi Mehrab xan Qacarın özbəklərə qarşı Tun ətrafındakı qəhrəmanlığı Herata çatdıqda, Xəvaf və Baxərz hakimliyi də ona həvalə edilmişdi (80,576).

I Şah Abbasın hakimiyyətinin on dördüncü ilində Xorasanda Nisə və Abiverd əmiri Mərv hakimi Bektaş sultan Ustaclının oğlu Möhbəli sultan idi. O, 1629-cu ildə Xarəzm hökmdarı İsfəndiyar xanın hücumları zamanı öldürülmüşdü. I Şah Səfi dövründə (1629-1642) Ustaclılardan Nisa əmiri Kəlbəli sultanın adı çəkilir. O da İsfəndiyar xanın hücumu zamanı şəhəri tərk edib qaçdığına görə ölüm cəzasına məhkum edilmişdi (80, 605; 67,161).

1602-ci ildə Məşhəd hakimi Budaq xanın oğlu Yusifəli xan idi. Qardaşı Bayraməli sultana da Məşhəddə ulka verilmişdi. Elə həmin il Məhşəd hakimliyi Xəvaf hakimi Mehrab xan Qacara verilir. O, I Şah Abbasın hakimiyyətinin iyirmi birinci ilində də bu vəzifədə idi (80, 760).

1610-cu ildə Nişapur hakimi Baba İlyas oğlu Məhəmməd sultan Bayat vəfat edir. Onların hər ikisi ata-babaları kimi Xorasanda Qara Bayatların ağsaqqalları olmuşdular. Yaka Türkmən oymaqlarından olan Qara Bayatların yurtları Nişapur civarında

olub, Xorasandakı oymaqlar arasında Səfəvilərə ən sadiq oymaq idilər. Hələ Məhəmməd Xudabəndə dövründə Mahmud bəy Qara Bayat elinin əmiri mənsəbinə layiq görülüb ona sultan titulu verilmişdi. 1587-ci ildə Xorasan özbəklər tərəfindən tutulduqda Mahmud sultan və Qara Bayat elinin bir çox əmiri qətlə yetirilmişdi. I Şah Abbas zamanı adı çəkilən Məhəmməd sultan qulluğa götürülmüş, Qızılbaşlara sadiq olan Qara Bayatlar divan vergisindən azad edilib, sipahi zümrəsinə daxil edilmişdi. Məhəmməd sultan öncə Əsfərayin, sonra Nişapur hakimi olmuşdur. O, vəfat etdikdə Nişapur ulkası həmin eldən Bayraməli sultana verilir, o həm də Qara Bayat elinə əmir təyin olunur (108, 827-828; 67, 157).

1609-cu ildə Cam vilayətinin hakimi Təkəli Şahnəzər xan Məşhədə hakim təyin edilmişdi. O, 1618-ci ildə vəfat edir və qardaşı Qələndər sultan Məşhəd hakimi olur. Cam vilayəti də ona verilir (80, 942, 943).

Seyid Hüseyn bin Murtuza Hüseyni Astrabadi 1632-ci ildə Xorasana özbəklərin yeni hücumundan bəhs edərkən Mənuçöhr bəyin Məşhəd hakimi olduğunu yazır (108, 245, 250).

"Zeyl-i tarix-i alamara-yi Abbasi"də Mərkəzi Asiya xanları ilə münasibətlərdən bəhs edilərkən Məşhəd mahallarının hakimləri haqqında da məlumat verilir. Mənbədə göstərilir ki, Xarəzm hakimi Ərəb Məhəmməd xan ibn Hacəm xanın övladları arasında hakimiyyət uğrunda çəkişmədə məğlub olan böyük oğlu İsfəndiyar xan I Şah Abbasın yanına (1621) gəlir. O, I Şah Abbasdan hərbi yardım alıb, 1622-ci ildə Urgəncə qayıdıb qardaşlarını məğlub edərək hakimiyyətə keçir. Bir qədər sonra İsfəndiyar xan I Şah Abbasın ona hərbi yardımını unudub "Xorasan qiyamı" ndan istifadə edərək Mərv, Nisə, Abiverdi və Dərunu ələ keçirmək üçün qardaşı Əbülqazi xanla 1630-cu ildə Xorasana hücum edir. Bu zaman Nisə hakimi Ustaclı tayfasının adlı-sanlı əsilzadələrindən Bektaş xanın gənc və təcrübəsiz oğlu Möhbəli sultan, Dərun hakimi isə xassə qulamlarından iyirmi dörd yaşlı Uğurlu sultan idi. İsfəndiyar xan hər iki qalanı hakimlərinin təcrübəsizliyindən istifadə edərək ələ keçirə bildi (81,19, 20). Mənbədə Astrabad sərhəddindəki Səyin xanlı, Xorasandakı Qaradaş Cəlair, Salur türkmən tayfalarının

Səfəvilərə tabe olub, sədaqətlə xidmət etdikləri, Abiverddə isə dövlətin əsas dayağının Afşar türk elinin Əhərli obasının olduğu göstərilmişdir. İsfəndiyar xan Rəhmanqulu Qaradaşın simasında Türkmən əyanlarından bir neçə nəfərə əmir əl-üməra rütbəsi verib onları ələ alsa da, qızılbaşlarla savaşın gedişində ciddi məğlub olub Xorasanı tərk edir. İsfəndiyar xana qarşı müharibədə Çəpnilərdən Aşur xanın Mərv, Əhməd sultanın Səbzəvar, Bayat əmirlərindən Bayraməli sultanın Nişapur hakimi olduğunu görürük (81, 22). Eyni zamanda İsfəndiyar xana qarşı müharibədə adları çəkilən Gəraylı, Cəlair, Yaka türkmən obaları Səfəvi dövlətinə tabe idilər (81,22,23).

"Abbasnamə" də göstərilir ki, Türküstan hakimi İmamqulu xan 1642-ci ildə Mərvdən Məşhədə gəldikdə burada bəylərbəyi Mənuçöhr xanın oğlu Qarçıqay xan idi (125a, 20). H.1054(m.1644)-cü ildə Məşhəd bəylərbəyi Qarçıqay xan tutduğu vəzifədən azad edilir və yerinə Mərv bəylərbəyi Murtuzaqulu xan Qacar təyin edilir (125a, 31). Müəllif yazır ki, Hind elçisi Cannesar xan 1647-ci ildə geri döndükdə Mehrab xanın oğlu Murtuzaqulu xan Qacar Məşhəd bəylərbəyi idi. O, əvvəllər Mərvdə də hakim olmuşdu. Qeyd olunan ildə o, Qələmrou və Əlişəkərə göndərilir. Məşhədə isə yenə Qarçıqay xan hakim təyin edilir. Bu zaman Məşhəddən müqəddəs məzarın mütəvəllisi Mirzə Möhsün vəfat etmiş, bu vəzifə Mirzə Bağır Rezəviyə verilmişdir. (125a,41). H. 1074 (m.1663)-cü ildə Məşhədin yeni bəylərbəyi Mənuçöhr xan pis əməllərinə görə vəzifədən azad edildi və bura divanbəyi Səfiqulu bəy göndərildi (125a, 120). H.1077(m.1664)-ci ildə Məşhəd əhalisi Rüstəm xanın oğlu Səfiqulu xandan da Şaha şikayət etdilər. Nəticədə o həbs edildi və əmlakı da müsadirə olundu (125a, 122). Bu zaman Məşhədin Nişapur mahalında hakim türk Bayat elindən Bayraməli xan Bayatın olduğunu görürük. H.1063-cü ildə Bayraməli xan Bayatın xahişi ilə şah Nişapura hakim onun oğlu İbrahim bəy Bayatı göndərir (125a, 70).

«Təzkirət əl-müluk» da Zəmindavər və Quryan, Kuşəklə yanaşı Kəri və Lukə, Badqis, Teymuri, Əli Xacə, Mir Arif elləri ulkasının (132, 82) da Qəndəhar bəylərbəyiliyinə tabe olduğu qeyd olunmuş, ancaq sonuncu ellərin Bəluc aşirətləri kimi göstərilməsi

aydın deyildir. Ona görə ki, Teymuri və Kəri (Gəraylı) təmiz türk aşirətləri olduğunu inkar etmək mümkün deyildir (80, 1087). Göstərilən digər ellərin isə Bəlucla əlaqəsinə dair dövrün başqa qaynaqlarında məlumat verilmir.

Qəndəhar Səfəvi dövlətinin Moğol dövləti ilə sərhəddində hərbi-strateji vilayət olub, hər iki dövlət üçün iqtisadi-ticarət əhəmiyyəti kəsb edirdi. Vilayət Heratın teymurlu hökmdarı Sultan Hüseyn Bayqara (1470-1506) dövründə ona tabe idi. Məhəmməd xan Şeybani 1507-1508-ci illərdə teymurlu dövlətini məğlub edib, bütün Xorasanı və o cümlədən Qəndəharı da ələ keçirmişdi (133, c.1-11,273). Ancaq Mərv savaşında (1510) I Şah İsmayıl Məhəmməd xan Şeybani üzərində qələbə çalır. Xorasanı geri alır və Səfəvi dövlətinin şərq sərhədlərinin hüdudu Amu-Dərya çayına çatır (41, 68). Səfəvilər Xorasanı tutduqdan sonra Heratın teymurlu hakimlərinin mülkü olmuş Qəndəharı da öz irsi mirasları hesab edirdilər. Qızılbaş sərkərdələrindən Şahruh bəy Əfşar 1511-ci ildə Qəndəharı fəth etmiş və şəhərdə I Şah İsmayılın adına xütbə oxutmuş və sikkə zərb olunmuşdu. Ancaq Qəndəhar 1522-ci ildə Zahirəddin Babur tərəfindən işğal edilir və o, bu vilayətə oğlu Kamran Mirzəni hakim təyin edir (133, c. 1-11, 91).

Səfəvi dövlətinin Herat əmir əl-ümərası Xüləfa sultan Rumlunun I Şah Təhmasibin rəsmi buyruğu olmadan Qəndəhara hücumu onun məğlubiyyəti ilə nəticələnmişdi. Həmin ildə Heratın yeni valisi Ağzıvar xan Şamlının da Qəndəhara yeni hücumu baş tutumamış və o, burada cidid müqavimətlə qarşılaşıb geri çəkilməyə məcbur olmuşdu (28,93; 133, c.1-11, 91).

1537-ci ildə I Şah Təhmasibin özünün başçılıq etdiyi ordu Hilmend çayına yaxınlaşır və Şah Əmir sultan Rumlunun ordusuna Qəndəharın fəth edilməsi barədə buyruq verir. Qızılbaş ordusu 1537-ci ildə Qəndəharı Baburlardan geri alır. I Şah Təhmasib vilayətin torpaqlarını ərazi-ye divanın tərkibinə qatıb bura Qızılbaşlardan Budaq xan Qacarı hakim təyin etdi (28, 82; 133, c.1-11, 65,66). Ancaq Kamran Mirzə I Şah Təhmasibin geri qayıtmasından istifadə edib 1538-ci ildə Qəndəharı yenə fəth edir (108, 71; 133, c. I-II, 91). 1544-cü ildə I Şah Təhmasibin Böyük Moğol hökmdarı

Hümayuna (1530-1556) hərbi yardımı müqavilində o, Qəndəharı Səfəvilərə güzəştə gedir. Qızılbaş Budaq xan Qacar Qəndəhar hakimi oldu. Ancaq çox keçmədi ki, Hümayun Qəndəharı geri qaytarmaq şərti ilə Səfəvilərdən geri alır və bura hər iki tərəfə sədaqətli olan Bayram xan Türkman vali təyin edilir. Hümayun Qəndəhardan istinadgah kimi istifadə edib, Hindistanda itirdiyi torpaqları tutduqdan sonra Qəndəharı Səfəvilərə geri qaytarmğı vəd etmişdi. Ancaq Humayunun qəflətən vəfatı (1556) buna imkan vermədi və Qəndəhar tərəflər arasında mübahisəli bir məsələ kimi qaldı (133, c.I-II, 92,97). Elə buna görə də I Şah Təhmasibin Qızılbaş ordusu 1558-ci ildə Zəmindavər və Qəndəhara hücum edərək hər iki məntəqəni geri aldı. Şah Qəndəhara qardaşı oğlu Sultan Hüseyn Mirzəni hakim təyin edir. O, iyirmi ilə yaxın Qəndəharda hakim olmuşdu (133, c.I-II, 92). Bəhram Mirzənin oğlu Hüseyn Mirzənin Qəndəhar hakimi olması haqqında II Şah İsmayıl da fərman vermişdi (128, 541). Sultan Hüseyn Mrzə II Şah İsmayıl dövründə vəfat edir.

Səfəvi hökmdarı Məhəmməd Xudabəndə Sultan Hüseyn Mirzənin oğlu Müzəffər Hüseyn Mirzəni Qəndəhara və onun qardaşı Rüstəm Mirzəni də Zəminədavər və Gərmisərə hakim təyin edir. Həmzə bəy Zülqədər isə Şahın fərmanı əsasında Müzəffər Hüseyn bəyin lələsi və həm də vəkil statusu ilə Qəndəhara göndərilir. Rüstəm Mirzənin kiçik qardaşlarına da Zəmindavər bölgəsində ulkalar verilir. Müzəffər Hüseyn Mirzə və Rüstəm Mirzə ölkənin Şərq sərhədlərinin təhlükəsizliyini təmin etməli idilər. Bu zaman Sistanın sabiq valisinin soyundan olan Məlik Mahmud və yerli əmirləri, əyanları II Şah İsmayıldan sonra bura Qızılbaş hakimin göndərilməməsindən istifadə edib, sərbəst hərəkət etməyə başladılar və onların bu separatçı fəaliyyəti dövlətin Şərq sərhədlərinin təhlükəsizliyinin təminatı üçün qorxu yaradır (133, c.I-II, 487).

Moğol hökmdarı Cəlaləddin Məhəmməd Əkbər (1556-1605) 1589-cu ildə Qəndəharı tutmaq üçün hərbi hazırlığa başlayır. O, Qəndəharı bir həmlə ilə almaq istəyirdi. Bu məqsədlə hərbi əməliyyata rəhbərlik Əbdürrəhim xana tapşırılmışdı. O, Qəndəharı hiylə ilə tutmağı qərara alır. Çünki bilirdi ki, güc tətbiq edilsə,

şəhərin mühasirəsi uzansa, Qəndəharı idarə edən Səfəvi Mirzələri bu bölgəyə göz dikmiş özbəklərlə Moğollara qarşı müqavilə bağlaya bilərlər.

XVI yüzilin sonunda Səfəvi dövlətinin Şərq sərhədi Xorasanı qəsb etməyə çalışan özbək xanlarının fasiləsiz hücumlarına məruz qalmış, İran körfəzi sularında isə bir çox sahil liman və adaları ələ keçirmiş portəgizlər ağalıq edirdi. 1590-cı ildə Osmanlı dövləti ilə bağlanmış sərt sülh müqaviləsinə görə, Azərbaycan, Gürcüstan, Nəhavənd, Luristan, Şəhrizur da itirilmişdi. Belə bir vəziyyətdə I Şah Abbas Qəndəhardakı Səfəvi Mirzələrinə kömək edə bilməzdi. Çünki I Şah Abbasın başı dövlətin daxili və xarici problemlərini həll etməyə qarışmışdı. İsgəndər bəy Münşinin yazdığına görə bu zaman Zəmindavər hakimi Rüstəm Mirzənin qoşunu arasında bir tərəfdən təfriqə və pərakəndəlik baş vermiş, digər tərəfdən də özbəklərin arzuolunmaz hücumlarına məruz qalmışdı. Müzəffər Hüseyn Mirzə ilə də aralarındakı ziddiyyət daha da kəskinləşdiyi üçün o, Hindistana getməyə məcbur olmuşdu. Artıq siyasi vəziyyətin mürəkkəbləşdiyini görən və I Şah Abbasdan hərbi yardım ala bilməyən Rüstəm Mirzə Moğollara tabe oldu və Hindistana getdi. Səfəvi Şahı üçün önəmli olan Zəmindavər Moğolların təkrar hücumlarına davam gətirməyib işğal olundu. Rüstəm Mirzə Qəzneynin Moğol hakimi Şərif xanla müzakirələrə başladı və eyni zamanda Moğol sarayına tabe olması barədə xəbər də göndərdi. Rüstəm Mirzə 1593-cü ilin sentyabrında (1002-ci il məhərrəm) Moğol sarayına gəldi və orada layiqincə qarşılandı (80, 485-486; 133, c.I-II, 284-285).

Müzəffər Hüseyn Mirzə də mövcud çətin siyasi şəraitə dözmür və vəziyyətdən çıxış yolunu Hindistana getməkdə görürdü. Ancaq Müzəffər Hüseyn Mirzə qalanı Moğollara təslim etməkdə tərəddüd edirdi. Onun bu tərəddüdü çox davam etmir. Şahbəy xanın başçılığı altında 10.000 nəfərdən ibarət Moğol qoşunu Qəndəhara daxil olduğundan o, məcburi surətdə qalanı tərk etməli oldu. Moğollar 1595-ci il mart ayında Qəndəhara daxil oldular (80, 486-487; 135, c.IV-V, 1393-1395).

İsgəndər bəy Münşiyə görə I Şah Təhmasibin dövründə Qəndəhar əbədi olaraq Səfəvi məmləkəti tərkibinə daxil edilmişdi. Əvvəl qeyd olunduğu kimi, bu vilayətin hakimliyi Bəhram Mirzənin oğlu Hüseyn Mirzəyə tapşırılmış və o bir neçə il əmisinin fərmanı əsasında buranı sərbəst idarə etmişdi. Hüseyn Mirzə vəfat etdikdən sonra Sultan Məhəmməd Qəndəhara onun oğlu Müzəffər Hüseyn Mirzəni hakim təyin edir. Zəmindavərin idarəsi isə Hüseyn Mirzənin kiçik oğluRüstəm Mirzəyə tapşırılır. Məlum olduğu kimi, Şah Abbasın hakimiyyətinin ilk illərində Xorasanı özbəklər müharibə meydanına çevirmişdilər ki, bu zaman Qəndəhar və Hilmend ətrafı vilayətlərdə hakimiyyətdə olan iki nəfər Səfəvi şahzadəsi də, özbək xanlarının arası kəsilməyən hücumları qarşısında artıq özlərinin gücsüz olduqlarını hiss etdikdə, dəfələrlə Şaha müraciət etsələr də, hərbi yardım ala bilməmişdilər. I Şah Abbasın isə dövlətin şimal-qərbində Osmanlı dövləti ilə diplomatik danışıqlara başı qarışdığına görə şahzadələrin ondan kömək almağa heç ümidləri də yox idi. Onlar çıxılmaz vəziyyətdə qaldıqlarına görə Cəlaləddin Məhəmməd Əkbərə sığınıb Qəndəharı da ona tabe etdilər (80, 478-487).

I Şah Abbasın 1620-ci ildə Moğol sarayına göndərdiyi elçi Zeynal bəy Şamlı Qəndəhar məsələsi ilə bağlı danışıqlarda müsbət bir nəticə əldə edə bilmədi. Artıq I Şah Abbas da başa düşdü ki, Qəndəharın sülh danışıqları ilə geri alınması baş tutmayacaqdır (108, 218; 135, c.IV-V, 1400). O, elə buna görə də h. 1031 (1622)-ci ildə Xosrov sultanın Qızılbaş alayını Zəmindavərə göndərib Qəndəharı da mühasirəyə aldı. İsgəndər bəy Münşi yazır ki, I Şah Abbas Qəndəharı danışıqlarla - müharibəsiz tutub dağıntıya yol vermək istəmirdi. Ancaq Qəndəhar hakimi Əbdüləziz xan vəziyyəti düzgün qiymətləndirə bilmədiyinə görə I Şah Abbas savaşa başlamağa məcbur olmuşdu. Bu, Moğol hökmdarı Nurəddin Məhəmməd Cahangir (1605-1627) üçün çox gözlənilməz bir hadisə idi. Ona görə ki, I Şah Abbas həmişə ona dostluq, qardaşlıqdan söz açdığına görə o, I Şah Abbas tərəfindən hər hansı bir qorxunun, hücumun ola biləcəyindən heç şübhələnmirdi. Elə bu səbəbdən də Qəndəharda, yəni sərhəd vilayətlərində 5000 nəfər süvaridən çox

qoşun saxlamırdı. Nurəddin Məhəmməd Cahangir bu xəbəri eşitcək, çoxsaylı qoşun səfərbər edib and içdi ki, Qəndəharı geri aldıqdan sonra İsfahana qədər gedəcəkdir. O, qoşuna rəhbərliyi oğlu şahzadə Xürrəmə tapşırdı. Ancaq bu zaman Cahangirin sevgili xanımı Nurcahanla Xürrəm arasında düşmənçilik yarandı və şahzadə ixtiyaında olan qoşundan istifadə edib atasına qarşı çıxır və I Şah Abbasa məktub yazıb dostluq əlaqəsi yaradır. I Şah Abbas Qəndəhar qala bürclərini on yeddi gün ərzində top atəşi ilə dağıdır və qala hakimi, şəhərin böyükləri çarəsiz qalıb qalanı təslim etdilər. Zəmindavər də tutuldu. I Şah Abbas Qəndəharı tutduqdan sonra Heydər bəy yüzbaşı Qaradağlı və Mirvəli bəylə Nurəddin Məhəmməd Cahangirə məktub göndərdi. Bildirdi ki, Qəndəhara təyin edilmiş Moğol əmirləri iki ölkə arasındakı ənənəvi dostluq əlaqələrinə əməl etməmiş, onların hərəkətləri ayrılığa, biganəliyə səbəb olmuş, dostluq qapılarını bağlamışdır (108, 218,219; 135, c.IV-V, 1400, 1401).

Beləliklə, dövrünün görkəmli siyasi xadimi və diplomatı olan I Şah Abbas bu qələbələrlə hərbi strateji əhəmiyyətli qalaları tutub, ölkənin Şərq sərhədlərini möhkəmləndirməyə müvəffəq oldu.

Dehlidə Şah Cahan (1627-1658) hakimiyyətə keçdiyi gündən Qəndəharı Səfəvilərdən geri almaq fikrində olub, əlverişli fürsət gözləyirdi. Şah Cahan hətta 1636-cı ildə Qəndəharı tutmaq istəyi barəsində IV Sultan Murada (1623-1640) məktub yazıb, Osmanlı dövləti, Turan xanları və Moğolların üç istiqamətdən Səfəvi məmləkətinə hücum əməliyyatlarına başlamasını təklif edir. Bu vaxta qədər də Osmanlılarla Səfəvilərə qarşı danışıqlar aparılmış, müəyyən razılaşma əldə edilmişdi. Ancaq Şah Cahan hakimiyyətinin ilk günlərində Səfəvilərdən ehtiyat etdiyinə görə Qəndəharı müharibəsiz tutmağa üstünlük vermişdi. İsgəndər bəy Münşinin yazdığına görə bu zaman Qəndəhar hakimi Əlimərdan xan idi. O, atası Gəncəli xan vəfat etdikdən sonra soylarının Səfəvilərə sədaqət və xidməti nəzərə alınmış və bu vəzifəyə təyin olunmuşdu (80, 1041, 1086; 135,c.IV-V, 1395-1424). Mənbələrdə Əlimərdan xanın dövlətə sədaqətlə xidmət etməsi ilə yanaşı, onun hind tacirlərinə qarşı kobud rəftarına aid məlumatlara da təsadüf edilir. Tavernye yazır ki,

Hind tacirləri Qəndəhara gəldikdə Əlimərdan xan onları burada mümkün qədər ləngidir və nəticədə onların şəhər bazarında gündəlik tələbat mallarına xərclədikləri vəsaitdən xeyli gəlir götürür. (104, 698.) Sözsüz ki, keçid məntəqəsi olan Qəndəharda belə hallar yolverilməsi, Böyük Moğol-Səfəvi dövlətləri arasındakı iqtisadi əlaqə ilə yanaşı, diplomatik münasibətlərə də mənfi təsir göstərirdi. I Şah Səfi Əlimərdan xanı özbaşına hərəkətlərdən daşındırmaq üçün İmamverdi xan Şamlını 1630-cu ildə Qəndəhara göndərmişdi. Ancaq Əlimərdan xanın Hind sərhəddini öz ordusu ilə pozan Guşəng hakimi Şir xan Əfqana qarşı apardığı döyüş, çaldığı qələbə, Guşəngi tutub orada Qızılbaş alayı yerləşdirməsi (81, 74-76) İsfahan sarayında ona münasibəti xeyli dəyişir. O, illik xəracı vaxtında ödəyir, oğlunu da girov ünvanı ilə İsfahana göndərmişdi. Bu zaman Şah Cahan Əlimərdan xanın yanına gizlin elçi göndərmiş ondan Böyük Moğola tabe olmasını tələb etmişdi. Əlimərdan xan Şah Cahanın elçisini hörmətlə qəbul edib yola salsa da, hind elçisinin ardınca məktub göndərib onların təklifini qəbul etmədiyini bildirir. Bu hadisədən Səfəvi dövlətinin baş vəziri Sarı Tağı xəbər tutmuş, lakin, şaha Əlimərdan xan haqqında düzgün məlumat verməmişdi. Şah dərhal qullarağası Siyavuş xana Əlimərdan xanın paytaxta gətirilməsini əmr edir. Nəticədə I Şah Səfidən ehtiyat edən Əlimərdan xan Qəndəharı Şah Cahana təslim edib Böyük Moğol sarayına getməyə məcbur oldu (96a, 161-163) Səfəvilər Əlimərdan xanın xəyanəti nəticəsində 1637-1638-ci illərdə Qəndəharı yenə əldən verdilər (99, 85). Bu zaman Şah Səfi ölkənin qərb sərhədlərində yaranan nigarançılıqlara görə Qəndəhara hərəkət edə bilmədi. Ancaq 1639-cu il sentyabr ayında Osmanlılarla sülh bağladıqdan sonra Qəndəhara hücuma hazırlaşmağı əmr etdi. İki il tədarükdən sonra o, İsfahandan Qəndəharı fəth etmək niyyəti ilə yola düşdü. Lakin yolda xəstələnib, 1642-ci il may ayında Kaşanda dünyasını dəyişdi (31, 120). XVII yüzilliyin 40-50-ci illərində Qəndəhar üstündə Səfəvi-Moğol dövlətləri arasındakı hərbi münaqişəni Tavernye diqqətlə izləmiş və gündəliyində bu barədə məlumatlar vermişdir. O yazır ki, Qəndəhar vaxtilə I Şah Abbas tərəfindən fəth olunmuş və səssiz-sədasız nəvəsi I Şah Səfiyə

qalmışdır. Ancaq I Şah Səfinin dövründə Qəndəhar hakimi Əlimərdan xan şəhəri Böyük Moğol dövlətinə təslim edir. Şah Səfidən sonra hakimiyyətə keçən II Şah Abbas Qəndəharı 1648-ci ildə yenidən Moğollardan geri almağa müvəffəq olmuşdur (104, 698).

Hind hökmdarı Şah Cahan özbək Əbdüləziz xan, Osmanlı Sultanı IV Murad (1624-1640) və IV Məhəmmədlə (1648-1687) Səfəvilərə qarşı diplomatik əlaqə yaratmağa çalışmış, ancaq bunun heç bir əhəmiyyəti olmamışdı.

Mərv və Sistan bəylərbəyiliyinin «Təzkirət əl-müluk»da ikinci məqalədə adı qeyd olunmuş, ancaq mahal və ulkaları göstərilməmişdir (132, 82).

İsmayıl Mirzə 1576-cı ildə Ustaclılarla sərt rəftarından sonra Pirə Məhəmməd xan Ustaclının qızı ilə evlənmişdi. O, Ustaclıların damadı olduqdan sonra onlara şəfqətlə yanaşmış və Yeqan Şahqulu sultan Ustaclının oğlu Mürşüdqulu sultanı Sistana hakim təyin etmişdi. Bu görkəmli Qızılbaş əmirinə I Şah Abbas taxta çıxmaqda borclu olsa da, onu 1589-cu ildə öldürtmüşdü (80, 206; 67, 148). 1603-cü ildə Sistanda 900-cu ildən – 1405-ci ilə qədər bu bölgədə hakimiyyətdə olmuş Səfərilər sülaləsi nəslindən olan Məlik Mahmud hakimiyyəti ələ almağa çalışırdı. Onun dövlətə qarşı seperatist hərəkatlarının qarşısını almaq üçün I Şah Abbas əfşarlardan Cəfər sultanı Sistana hakim təyin edir (80, 487).

Ustaclı tayfasının Damlı obasından olan Bektaş xan Mürşüdqulu xan Ustaclının vəkili olmuş və 1601-ci ildə Heratda Maruçaq və Murğaba hakim təyin edilir, ancaq elə həmin il Mərvə bəylərbəyi göndərilir və 1609-cu ilə qədər, yəni vəfatına kimi burada hakimiyyətdə olur. 1609-cu ildə isə Məşhəd hakimi Mehrab xan Qacar Mərvə hakimi olmuşdur (80, 403-413).

"Zeyl-i tatix-i alamara-yi Abbasi" də göstərilir ki, 1632-ci ildə Buxara hökmdarı İmamqulu xanın (1611-1642), Cicitko hakimi Uraz bəy Bahadur, Bəlx hakimi Nadir Məhəmməd xanın orduları müxtəlif istiqamətlərdən Xorasana hücum edib bir çox qala və şəhərləri ələ keçirdilər. İmamqulu xanın ordusu Mərv əyalətinin yeni bəylərbəyi Aşur xan Çəpnin vəfatından istifadə edib Mərv

qalasına hücum etmiş, ancaq burada Qacarların çox ciddi müqaviməti ilə qarşılaşıb qalanı mühasirəyə alır.

Mərv əyalətində dövlətin əsas hərbi dayağı Qacarlar olduğuna görə I Şah Səfi Mehrab xan Qacarın Qəzvin darğası olan oğlu Murtuzaqulu bəy (xan) Qacarı bəylərbəyi təyin edib ora göndərir. Mənbədə Mərv ətrafında özbəklərlə kəskin döyüşlər getdiyi, Murtəzaqulu xanın ələ keçirilib Buxaraya aparıldığı ,onun anasının Din Məhəmməd xanın qızı olduğuna görə Buxarada yüksək səviyyədə qarşılanması, hətta özbək xanlarının bu qohumluğa görə Xorasanı tərk etməsi haqqında fikirlər səslənir. Əslində isə özbək xanları Xorasanda çox ciddi müqavimətlə qarşılaşıb çoxlu itki verərək geri çəkilməyə məcbur olmuşdular (81, 102-107). Mərkəzi Asiya xanları ilə savaşın gedişində Murtəzaqulu xan Qacar əsir götürüldükdə, Şah Şamlı əyanlarından Nəğdi bəyə xan rütbəsi verib, onu Mərvə bəylərbəyi təyin etmişdi. O, qısa müddətdə Mərvin köçürülmüş və qaçqın sakinlərini geri qaytarmış, tikinti-təmir və təsərrüfat işlərini qaydaya salmışdır (81, 107). Bu zaman Bəhram bəy Ustaclının da Sistan hakimi olduğunu görürük (81, 117). Murtəzaqulu xan Buxaradan geri qayıtdıqda faktiki olaraq Mərv bəylərbəyi olduğuna görə Məşhədə gəlir və bir neçə ildən sonra I Şah Səfi onun Buxara səfərində Səfəvi şahlığına xəyanət etmədiyini, sədaqətli olduğunu nəzərə alıb Mərvə öz vəzifəsinə göndərir (81, 250; 108, 246)

1643-cü ildə Murtəzaqulu xan Məşhədə, Xosrov xanın qardaşı Əliqulu xan da Mərvə hakim təyin edilir (130, 100). 1648-ci ildə Əliqulu xan öldürülmüş, Mərvə hakim onun oğlu göndərilmişdir (130, 113).

Göründüyü kimi, Sistan və Mərvdə də Səfəvi dövlətinin Qızılbaş-Türk elləri, obalarından ibarət güclü sosial bazası və hərbi dayağı vardı. Bu barədə dövrün Avropa ədəbiyyatında da məlumatlara təsadüf edilir. Pyetro della Vale Qızılbaş-Türk ellərindən Türkmən elinin Azərbaycanda, Osmanlı ərazisində yayılma arealı haqqında qısa məlumat vermiş və bu elin Sistan, Astrabadda da şəhərlərdə, kəndlərdə sakin olduqlarını və onların bir qisminin də köçəbə (yarımköçəri) olub, heyvandarlıqla məşğul olduqlarını,

özlərinin xanları, sultanları olduğunu, ancaq Şaha sədaqətlə xidmət etdiklərini yazmışdı (86,61).

Gəraylı eli ulkası, Hacılar eli ulkası, Cəlayir eli ulkası, Qaraçöp və Səhra üzü bölüyü, Göklən və Yomut mahal və ulkalarının «Təzkirət əl-müluk»da Astrabad bəylərbəyiliyin tərkibində olduqları qeyd edilir (132, 82-83). Türk Gəraylı tirəsi Astrabad əyaləti əhalisinin əsas hissəsini təşkil edirdi. Gəraylı obaları Xorasan ərazisində də müxtəlif bölgələrdə məskun idilər (103, 200; 67, 108). I Şah Səfinin hakimiyyətinin ilk illərində Əliyar xan və qardaşları Mənsur xanın, Şahsuvar xanın Gəraylı elinin əmirlərindən olduqlarını görürük (81, 148, 227). Boz Oxun Ağcalı obasına bağlı olan Hacılar adlı bir neçə oba isə Kəbud Məscid mahalında yaşayırdılar (103, 200; 67, 180). Ağcalı Qacar eli obalarındandır. "Xülasət üs-siyər"də göstərilir ki, Qarabağ bəylərbəyi Şahverdi sultan Ziyadoğlu Qacarın sağlığında böyük oğlu Xəlil xan Astrabada bəylərbəyi və həm də buradakı Qacar obasına əmir təyin edilmişdi (146, v.125b).Türkman Qaraçöp obası, Göklən eli, Yomut eli də Astrabad vilayətində məskun olub, Göğlən elinin ulkası Qorqanda, Yomut elinin ulkası isə Astrabadın şimal-şərqində idi (103, 201).

H. 955 (1548)-ci ildə Həmzə Sultan Qazaxın oğlu Şahqulu sultan Ustaclı Astrabad hakimi idi (108, 74, 75). F. Sümər yazır ki, Şahqulu sultan Ustaclı Kirman, Məşhəd, Çuxur-Səd əmirliklərində də hakim olmuş, 1567-1568-ci illərdə İstanbula elçi göndərilmişdi (67, 88). H. 957 (1550)-ci ildə Astrabada hakim Keçəl Şahverdi təyin edilmiş və o, elə həmin ildə də Yaka Türkmanlarla savaşda öldürülmüşdü (108, 75).

1577-ci ildə Sultan Məhəmmət tərəfindən Astrabada Zülqədər elinin Hacılar obasından İbrahim xanın əmisi oğlu Məhəmməd xan hakim təyin edilmişdi. O, 1578-ci ildə Şirvana bəylərbəyi göndərildiyinə görə Astrabadda tutduğu vəzifədən azad edilmişdi (80, 227, 239).

1581-ci ildə Herat hakimi Əliqulu xan Şamlı, Mürşüdqulu xan Ustaclı və Xorasanın bir çox Qızılbaş əmirləri Abbas Mirzəni şah elan etdikdə Sultan Məhəmməd Əliqulu xanla hesablaşmağa məc-

bur olub, Murtəzəqulu xanı Məşhəddə tutduğu vəzifədən azad edib Astrabada hakim göndərmişdi (67, 135, 136).

I Şah Abbasın dövründə Astrabadın Kəbud Came bölgəsində Zülqədər elinin Hacılar obasından Müstədam sultanın da hakim olması barədə mənbələrdə məlumat vardır (67, 180). İsgəndər bəy yazır ki, Şah 1588-ci ildə qorçubaşı Bədr xan Əfşarı Asrabad əyalət və mülkünə hakim göndərib, Xar və Simnan hakimi Əhməd sultan Zülqədəri də ona köməkçi təyin edir (80, 402). 1597-ci ildə Zülqədər elinin Eymur obasından olan Məhəmməd xan atası Əliyar xan vəfat etdikdən sonra Astrabad hakimi olmuşdu. O, Yaka Türkmənin Oxlu oymağı tərəfindən qətlə düçar olur və yerinə kiçik qardaşı Qılıc bəy təyin edilir (80, 545, 546). İsgəndər bəy Münşi yazır ki, I Şah Abbas tərəfindən Fulad xan öldürüldükdən sonra Astrabad hakimliyi Hüseyn xan Qacara (1598) verilmiş və o Qarabağın geri alınması uğrunda savaşa qoşulana qədər (1603-1604) burada hakim olmuşdur (80, 581; 67, 184).

I Şah Səfi (1629-1642) Astrabad bəylərbəyi olan Qara xan melanxolik olduğu üçün 1638-ci ildə intihar etmiş, bura nazir-i biyutat Hüseyn xan hakim təyin olunmuşdur (108, 258). Həmin ildə Astrabadda Gəraylı eli ulkası Əliyar bəyə verilir (108, 256). Bu zaman Yaka Türkmən boylarından olan Gəraylılar da Səfəvilərə tabe olub, onların bir bölüyü Astrabadda məskun idi.

1641-ci ildə Astrabad hakimi Hüseyn xan vəfat edir və bura Mehrab xan hakim təyin edilir. Mehrab xandan sonra Astrabadda 1653-cü ildə onun qardaşı Hacı Mənuçöhr xan hakim olmuşdu (130, 106, 119).

«Təzkirət əl-müluk»da Darolmərz (sərhəd bölgəsi) adı ilə qeyd olunan Gilan Biye-Pas (mərkəzi Rərşt şəhəri idi) və Biye-Piş (Lahican) adlı iki inzibati bölgədən ibarət olub, hər iki bölgəni Səfəvilərə tabe olan yerli sülalə idarə edirdi. Biye Pas hakimi Əmir Dibacın başçılığı altında 1535-ci ildə Səfəvi dövlətinə qarşı başlanan qiyam yatırıldıqdan sonra Şah onun malikanəsinin idarə olunmasını Biye-Piş hakimi Əhməd xana tapşırmışdı. Ancaq 1568-ci ildə Şah Biye Pası Əmir Dibacın oğlu Cəmşid xana qaytarmaq istədikdə, Əhməd xan Şaha qarşı çıxdı. Əhməd xan məğlub oldu və

hakimiyyətdən devrilib Şiraz yaxınlığındakı İstəhr qalasında həbs-xanaya salındı. Şah oğlu Mahmud Mirzəni Gilana canişin göndərdi və bu bölgə Ustaclı və başqa tükr ellərinin əmirləri arasında ulkalara bölündü (1570) (132, 83).İsgəndər bəy Münşi yazır ki, Əhməd xan həbs edildikdən sonra Lahican əyaləti və mülkü Allahqulu sultan İçikoğlu Ustaclıya ulka verilir (80, 113). Ancaq Şah Məhəmməd Xudabəndə Əhməd xanı həbsdən azad edib, onun Biye-Pişdə hakimiyyətini bərpa etmişdi (80, 113). O, mərkəzi hakimiyyətdən narazı olan yerli əyanları ərafına toplayıb hakimiyyətə qarşı çıxdıqda Şah İmamqulu Mirzəni Gilana Mahmud Mirzənin yerinə vali təyin edir. Allahqulu sultan İçikoğlu isə qiyamçılarla mübarizədə acizlik göstərdiyinə görə ulkası alınıb Pirə Məhəmməd xan Ustaclıya verilir (80, 114). Əhməd xan 1590-cı ildə Səfəvi dövlətinin zəifləməsindən istifadə edib, açıq şəkildə şahlıqdan ayrıldığını elan etmiş və Osmanlı sultanı ilə danışıqlara başlamışdı. Asi əmirlərə Gilanda sığnacaq vermiş Əhməd xan 1592-ci ildə vəkili Xacə Hüsaməddini Şirvan yolu ilə İstanbula Sultanın yanına göndərmişdi. O, elçi ilə Sultana çatdırdı ki, Gilan vilayəti onun irsi mülküdü və bu mülkün Osmanlı dövləti tərkibinə daxil edilməsinə razıdır. Elçi Sultanla danışıqlarda bildirir ki, əgər Şirvandakı əsgəri heyətdən bir alay Gilana göndərilsə, Lahican qalası onlara təslim ediləcək. Və belə olan halda Osmanlı ordusu Lahıcana çox yaxın olan Qəzvini və daha sonra İraqı da asanlıqla tuta bilər (80, 449-501 ). Ancaq Əhməd xan Şah ordusu tərəfindən məğlub edildi və hakimiyyətdən devrildi. I Şah Abbas 1592-ci ildə Gilanı xassəyə çevirdi (188, 261).

Pyetro dela Vale də yazır ki, vaxtilə Gilanın müstəqil hakimi olmuş, ancaq o, Şah Abbasa tabe olmayaraq ixtişaşa başladığına görə, bu ölkə Şah tərəfindən çətin savaşla tutulmuşdur. Artıq bu vilayət birbaşa Şahın nəzarəti altında idarə olunur. Xanı yoxdur. Ona aid işləri Gilan vəziri adlanan vəzir icra edir (86, 158, 159). Sanson da bu vilayətin iqamətgahı Rəşt şəhərində olan vəzir tərəfindən idarə olunduğunu yazmışdır (106, 60). Hər iki müəllifin qeydlərindən aydın olur ki, Gilan məmaliki məhrusə, yəni Şahın hakimiyyəti altında, ona tabe və qorunan ölkələrdən olub, 1592-ci ildən isə xassəyə çevrildiyinə görə, xan deyil, Şahın təyin etdiyi

xüsusi vəzir tərəfindən idarə olunurdu. "Zeyl-i tarix-i alamara-yi Abbasi"də I Şah Səfinin dövründə h.1047-ci il hadisələrindən bəhs edilərkən Gilan vəziri Mirzə Tağı Dövlətabadi İsfahanin tutduğu vəzifədən azad edilməsi, onun yanında sahibrəqəm vəzifəsində çalışan və İsgəndər bəy Münşi Türkmanın qardaşı oğlu olan Mirzə Saleh Türkmanın Gilana vəzir təyin edildiyi göstərilmişdir. (81, 208) «Təzkirət əl-müluk»da XVII yüzillikdə Gilanın Kəskər, Kəhdam, Ranku, Tənkabon (132, 83) mahallarından ibarət olduğu göstərilmişdir. Ancaq İsəgəndər bəy Münşinin əsərində Gilana vəzirlə yanaşı, hakim təyin edilməsi faktına da təsadüf edilir. Mehdiqulu xan Şamlı Gilana əmir əl-üməra təyin edilib, Lahican da ona ulka verilmişdi. Xacə Məsih Gilani isə Gilana vəzir təyin olunmuş. Ranqu Vəli sultan sufiyə ulka verilir. Biye-Pasa isə Əli xan hakim təyin olunur (80, 451). Bu zaman Oğuzun Çəpni oymağının bir çox obaları Gilanda məskun idilər. Ehtimal ki, onların əmirlərinin də Gilanda ulkaları vardı. İsgəndər bəy Türkmanın əsərində Çəpni əmirlərindən 1595-ci ildə Fumənə hakim təyin edilən Uğurlu sultanın adı çəkilir (80, 514-515). Heydər sultan Qoylahisarlı Rumlu XVII əsrin 30-cu illərində Tənkabon hakimi idi. Onun mənsub olduğu Qoylahisarlı obasının bir qismi Tənkabonda məskun olub, onlara bu mahalda ulkalar da verilmişdi. (81, 85) Özbəklər Nişapuru 1594-cü ildə yenidən tutduqda, buranın hakimi Dərviş Məhəmməd xan Rumlu Gilanda Lahicana (Biye Piş) əmir ül-üməra təyin edilir və o, burada çox böyük başarılar göstərmişdir (80, 501, 67, 158).

«Təzkirət əl-müluk»da adı qeyd olunan Kirman isə Güney-Doğuda olub, sərhəd vilayəti deyildi, xassə əmlakı tərkibinə daxil olub, sərkare xassey-i şərifə tərəfindən idarə edilirdi (132, 83; 103, 201).

«Təzkirət əl-müluk»da adı çəkilən İraq ayrıca vilayət idi (132, 83; 103, 201). Adam Oleari yazır ki, o birisi İraq iki ölkənin ortasında (Yəni Azərbaycanla Fars arasında – Z.B.) yerləşir və Farsla yaxud Persiya ilə həmsərhəddir. Birincidən fərqli olaraq o, Əcəm İraqı adlanır. Əhəmiyyətinə görə ən mühüm şəhəri İsfahandır.

Senkan, Kaşan, Savə, Rey, Həmədan, Qum, Şəhrizor, Dərəcəzeyn, Tehran və Qülpayeqan da Əcəm İraqındadır (139, 607).

«Təzkirət əl-müluk»da Qələmrov (tabe olan ərazi) bəylərbəyiliyinə tabe olan mahal və ulkaların Kərus, Zərinkəmər ulkası və Tğanmin (?), Həştadcüft ulkası, Hersin, Kəlhor, Xar və Simnan, Savə və Havə, Rey ulkasından ibarət olduğu göstərilmişdir (132, 74, 75). İsgəndər bəy Münşiyə görə Nəhavənd də Həmədana tabe olub, əhalisinin çoxu türk idi (80, 634). Həmədan Səfəvilər dövrünün qaynaqlarında Qələmrov adı ilə yazıya alınmışdır. Ancaq Qaraqoyunlular dövründə Həmədana Əlişəkər deyilirdi (103, 202).

İsmayıl Mirzə Təkəlilərdən xalasıoğlu Şərəfəddinin oğlu Müseyib xana Qələmrov-i Əlişəkərdə Rey ulkasını vermişdi (80, 213). Sultan Məhəmməd Xudabəndənin hakimiyyətinin ilk illərində Əcəm İraqı mahallarının çoxuna hakim saray əmirlərindən təyin edilmişdi. Sultan Məhəmməd Xudabəndə 1578-ci ildə Həmədan əyalətinə hakim Təkəli əmirlərindən Vəli xanı göndərir (80, 227; 128, 758). Həmədan əskidən Təkəlilərin doğma yurdu olub, onlar dövlətin hərbi-siyasi quruluşunda həmişə çox böyük rola malik olmuşdur. Elin Ərəşli obasının ulkaları əsasən bu vilayətdə idi. Ancaq Qələmrov-i Ələşgər əyalətində Təkəli əmirləri ilə yanaşı, digər Türk-Qızılbaş əmirlərinə də ulkalar bəxş edilirdi. Şah Sultan Məhəmməd tacqoyma mərasimindən sonra Rey ulkasını xalası oğlu Müseyib xan Təkəliyə, Xar və Simnanı Şahqulu sultan Beyt oğlu Zülqədərə, Sovucbulaq və Cuşqanı möhürdar Şahruh xan Zülqədərə, Qum ulkasını Heydər sultan Çabuq Türkmana, Savəni Əbülməsun sultan Tərxan Türkmana vermiş, Kaşana hakim dövrün qüdrətli əmirlərindən olan Əmir xan Türkmanın qohumu Məhəmməd xan Mosullu göndərilmişdi (80, 227). Bu zaman Türkman oymağının bir çox bölükləri Əcəm İraqında Qum, Kaşan və Savə bölgələrində məskun idi (128, 810). 1586-cı ildə Həmədan Vəli xan Təkəlidən alınıb, Pir Qeyb xan Ustaclıya verilsə də, ancaq çox keçmir ki, Həmədan Şahverdi xəlifə Şamlının adına yazılır. Buna baxmayaraq Pir Qeyb xan Həmədanı tərk etmir. Şahın buyruğu ilə İsmayılqulu xan Şamlı hərbi dəstə ilə Həmədana daxil olmuş və Pir Qeyb xan Həmədanı tərk etməyə məcbur olmuşdu

(128, 820, 821). Bu zaman Əliqulu sultan Zülqədər Qum hakimi idi (128, 832).

I Şah Abbas 1587-ci ildə Şamlı əmirlərindən Qorxmaz xanı Həmədana hakim təyin edib, vilayətin mahallarına da Qızılbaşlardan hakimlər göndərilməsi barədə buyruqlar verir. Bu zaman Qumun idarəsi Türkmanlardan Süleyman xəlifəyə tapşırılır (80, 381). 1590-cı ildə isə Qum hakimi Şamlılardan Hüseyn xan idi (80, 433). Elə həmin ildə (1590) Əfşar elinin Ərəşli obasından Təhmasibqulu xana Həmədan valiliyi verilib, ona Nihavəndin Osmanlılardan geri alması tapşırılır. Ancaq o, bu işi bacarmadığına görə 1591-ci ildə ölüm cəzasına məhkum edilir (80, 381). İsgəndər bəy Münşi yazır ki, 1591-ci ildə şahzadə Məhəmməd Bağır Mirzə Həmədan hakimi və Bağdada qədər bütün Qələmrov Əlişəkər vilayətinə əmir əl-üməra təyin edilib, buradakı Bayat eli də ona tapşırılır. Bayat elindən Uğurlu sultan onun vəkili statusu ilə Həmədana göndərilir (80, 440).

İsgəndər bəy Münşinin yazdığına görə 1597-ci ildə Qələmrou vilayətinə tabe olan Reydə Qacarlardan Hüseyn xan hakim olmuşdu (80, 533). Ancaq I Şah Abbasın hakimiyyətinin son illərində Şamlı elinin Bəydili obasından olan Zeynal xan həm Bəydili əmiri, həm də Rey hakimi idi (80, 1084). Türkman eli olan Şamlı farsdilli ədəbiyyatlarda Ətrak-i Şam, Türkman-i Şam adı ilə anılır. Şamlılar Azərbaycan, Xorasan və Reydə məskun idilər. "Zeyl-i tarix-i alamara-yi Abbasi"də h.1048-ci ildə yüzbaşı Sərxan bəy Əcirlinin əmisi oğlu söbət yasovulu Əlixan bəyin Şamlı elinin Əcirli obasının hakimi olduğu qeyd edilmiş (81, 227), ancaq bu obanın adı çəkilən hansı inzibati vahiddə sakin olduqları göstərilməmişdir. İsgəndər bəy Münşiin yazdığına görə Qarauluslu adlı türk eli də Qələmrov Əlişəkər vilayəti və Luristanda məskun olub, əsasən heyvandarlıqla məşğul olurdular (80, 470).

I Şah Abbasın hakimiyyətinin on yeddinci ilində Ustaclılardan Həsən xan Həmədan hakimi olmuşdu. Bu zaman Qızılbaş ordusu Bağdada yürüş etdikdə o, 12000 nəfərdən ibarət qoşunla onlarla birləşmişdi (80, 649). İsgəndər bəy Münşi 1616-cı ildə Qara Həsən xan Ustaclının Qələmrov-i Əlişəkər bəylərbəyi olduğunu yazır (80,

902). 1632-ci ildə Həsən xan edam edilmiş və onun yerinə Ustaclı Əbülqasım xanın oğlu Pir Qeyb xan təyin edilmişdir (130, 84, 93).

"Abbasnamə"də Hind elçisi Cannesar xanın vətəninə qayıtmasından bəhs edilərkən Həmədan əyalətində Mehrab xan Qacarın oğlu Murtuzaqulu xan Qacarın bəylərbəyi olduğu qeyd edilmişdir. 1655-ci ildə isə qulam əsilzadələrindən Qulucan bəy Həmədana bəylərbəyi göndərilir (125a, 41, 68). Bu zaman Həmədanın Simnan mahalında Cəmşid xanın, Rey mahalında isə eşikağasıbaşı Mehdiqulu xan Şamlının hakim olduğunu görürük. Ondan sonra Reyə hakim Mehdiqulu xan Şamlı təyin edilir və o, h.1074-cü ildə (m.1664) vəfat edir. Yerinə vəzifəyə oğlu Uğurlu xan göndərilir. (125a, 77, 118). H.1068 (m.1657-1658)-ci ildə Səfəvi sarayına gələn Hind şahzadəsi Sultan Bəlağanın qarşılanması Nəcəfqulu bəy Şamlıya tapşırılmışdı. (125a, 92). Mənbədə türk Şamlı elinin Biçərli obasından Murtuzaqulu xan Biçərlinin də Tehran hakimi olduğu qeyd edilmişdir. (125a, 21)

II Şah İsmayıl Kirman hakimi Əliqulu bəy Əfşarı tutduğu vəzifədən azad edib, onu qorçubaşı təyin etmiş, Kirmana isə Mahmud sultan Əfşar hakim göndərmişdi (80, 213). Sultan Məhəmməd Xudabəndə hakimiyyətə keçdikdə bura Əfşarlardan Vəli xan hakim təyin edilmişdi (80, 227). Abbas Mirzə hakimiyyətə keçdikdə Vəli xan Əfşar Kirman hakimi idi. I Şah Abbas 1588-ci ildə Astrabad hakimi Bədr xan Əfşarın oğlu Bektaş xanı Kirmana hakim təyin edir (80, 384, 402). O, Fars hakimi Zülqədər Yaqub xan tərəfindən hakimiyyətdən uzaqlaşdırılır. Yaqub xan Kirman hakimliyini Şahla razılaşmadan əski qorçubaşı Yusif xan Zülqədərə verdi. Ancaq I Şah Abbas 1591-ci ildə Farsa qoşun göndərdi. Yaqub xan İstəhr qalasına sığındı. Şah möhürdar Esləməs xan Zülqədərə İstəhrin tutulmasını tapşırdı, Qaramanlı Fərhad xan isə Kirmanı ələ keçirməli idi. Fərhad xanın alayı Kirmana yaxınlaşdıqda Yusif xan müqavimət göstərməyib təslim olur. Kirmana yenə Vəli xan Əfşar hakim təyin edilir (67, 189, 190). Ancaq elə həmin il I Şah Abbas Kirmanın idarəsini Bektaş xanın əmisi Abbas sultan Əfşara tapşırdı. Abbas sultan buradakı Əfşar ellərinə də əmir təyin edilir. Ancaq onu tezliklə Bektaş xan aradan götürdü (80, 419, 420).

Şah Abbasın hakimiyyətinin altıncı ilində Kirman hakimliyinə tir-kaman qorçusu Həsən xan Ustaclının namizədliyi irəli sürülmüş və Kirman hakimliyi ona verilmişdi. Əfşarlardan xeyli əhali Kirman bölgəsində məskun olub, I Şah Abbasın hakimyyətinin 6-cı ilində özbəklərlə müharibəyə gec gəldiklərinə görə cəzalandırılsalar da, sonrakı döyüşlərdəki qəhrəmaqlıqları nəzərə alınmış və nəticədə Şah onları əfv etmiş və Kirmandakı ulkaları özlərinə qaytarılmışdır (80, 457-458).

XVII əsrin əvvəllərində Kirman hakimi Zülqədərdən Rüstəm xan idi. O, 1603-cü ildə Osmanlılarla savaşda əsir götürülmüşdü (67, 179).

1626-cı ildə Təhmasibqulu xan Tərxan Türkman saray əmirlərindən olub, ona xan rütbəsi verilmiş və Kirmana hakim təyin olunmuşdu. O, 1627-ci ildə vəfat edir. Əmir xan Söklən Zülqədər həm möhurdar, həm də Kirmana hakim təyin edilir (80, 1058). I Şah Səfinin hakimiyyətinin əvvəllərində də Zülqədər elinin Söklən obasından olan Əmir xan Kirmanda hakim idi (130, 235). "Abbasnamə"də h. 1058 (m.1648)-ci ildə Kirman əyalətində qorçu-başı Murtuzaqulu xanın, h.1068 (m.1657)-ci ildə isə Abbasqulu xanın hakim olduqları barədə məlumat verilir. (125a, 49,95).

«Təzkirət əl-müluk»da Səfəvi dövlətinin qərb vilayətindən olan Kürdüstanın Xorxor,Cavanrud  və Urman mahallarından ibarət olduğu göstərilir (132, 85).

Luristan Feyli (Feyli-Lur tayfalarının adıdır) Kirmanşah və Həmədanın cənubunda olub, Bəxtiyarı və Bane mahalları ona tabe idi (132, 85). «Xolde-bərin»də II Şah İsmayılın Türk-Qızılbaş Təkəli elindən Solaq Hüseynə xanlıq titulu verilməsi və onun Luristan vilayətinə hakim təyin edilməsi qeyd olunmuşdur (128, 557).

Fars-Kuhgiluyə bəylərbəyilinə tabe olan ulka və mahallar Bəhreyn, Zeydabad, Duruğ, Sərvistan, Bəndər Abbas, Dəştistandan (132, 85-86) ibarət olub, Kuhgiluyə isə əslində Fars, Xuzistan, Bəxtiyari arasındakı ərazidir. Bu ərazi Səfəvilər dövründə Fars vilayəti tərkibinə daxil edilmiş və elə buna görə də, XVI-XVII yüzilliyin qaynaqlarında Fars vilayəti, bəzən Kuhgiluyə adı ilə

verilir. 1602-ci ildən Bəhreyn də Kuhgiluyə xanına tabe edilmişdi (103, 205, 206).

Səfəvilər dövründə Fars vilayətinin əhalisinin müəyyən hissəsini müxtəlif dövrlərdə burada məskunlaşmış türk elləri təşkil edirdilər. Hələ Səlcuqlular dövründə Türkmən Əfşar tayfasından xeyli əhali köçüb Kuhgiluyədə məskunlaşmışdı (103, 206). 1617-ci ildə İspaniya elçisi Don Qarsiya de Silva Larla Şiraz arasında dəfələrlə Türkman obaları ilə qarşılaşdığını qeyd etmişdir. Səfir Lar mahalında onları qarşılayan əsilzadələrdən Gülxanım adlı hündür boylu, donqar burunlu, iti və sərt baxışlı Türkman xanımı haqqında məlumat verir. O, Larda bir neçə kəndin ömürlük sahibi və həm də hakimi idi (105, 115, 122, 123, 125, 398). Məlum olduğu kimi Zülqədərlərin yurdu əskidən bəri Fars bölgəsi olub, onların bir çoxunun ulkası isə Əcəm İraqında idi (67, 45). I Şah İsmayıl Farsı fəth etdikdən sonra bir qayda olaraq Şiraz valiliyi Zülqədər əmirlərinə verilir və onların burada hakimiyyəti bu tayfanın əmirlərinin xüsusi imtiyazı olaraq irsi mahiyyə kəsb edirdi.

I Şah İsmayıl 1503-cü ildə Farsdakı uğurlu qələbələrindən sonra Şiraz vilayətini İlyas bəy Zülqədərə verib, Quma qayıtmış və bu zaman Xar, Simnan, Dəmavənd və Firuzkuh valisi Hüseyn Kiya Çəlavi Şahın Quma dönməsindən istifadə edib İlyas bəy Zülqədərə qarşı çıxmışdı. Onlarla savaşda məğlub olan İlyas bəy Zülqədər Vəramin qalasına sığınır. Ancaq qala Hüseyn Kiya Çəlavi tərəfindən mühasirəyə alındıqda, Reyə doğru hərəkət edir və Kəbud Məscid yaxınlığında savaşda öldürülür. Bu xəbəri eşidən Şah geri qayıdıb, Hüseyn Kiya tərəfindən tutulmuş Gülxəndan və Firuzkuh qalalarını geri alır. Hüseyn Kiya Çəlavi Osta adlı qalada yerləşib onun müdafiəsini möhkəmləndirsə də, Şah bu qalanı da aldı və Hüseyn Kiya Çəlavi ölüm cəzasına məhkum edildi (108, 37, 38; 28, 36, 37). 1505-ci ildə İlyas bəy Zülqədərdən sonra Şiraza hakim təyin edilmiş Süleyman bəy Zülqədər isə günahlarına görə tutduğu vəzifədən azad edilmiş və vilayətin idarəsi Əfşar elindən Mənsur bəyə tapşırılmışdı. Bu zaman Hüseyn bəy lələ də Yəzdə hakim təyin edilir (108, 39). Zülqədər elinin bir çox obaları Şiraz vilayətində məskun olduğuna görə, Əfşar əsilzadəsinin burada hakimiyyəti

uzun sürməmişdi. Əbdi bəy Şirazi yazır ki, Zülqədər qoşununun başçılığı elin Sarı Şeyxli obasından Ümmət Zülqədərə tapşırıldı və ona Sultan Xəlil adı verib, Şiraza hakim təyin etdilər (28, 38). Sözsüz ki, burada Zülqədər elinin Fars vilayətində məskun olan obalarından yığılan qoşun nəzərdə tutulur və Ümmət Sarı Şeyxlinin qoşun başçısı, həm də Şiraza hakim təyin edilməsi onun vilayətdəki Zülqədər elinə əmir olmasından da xəbər verir.

Şiraz hakimi Xəlil sultan Zülqədər Xorasanın özbək hücumlarından qorunmasında çox böyük qəhrəmanlıqlar göstərmişdi. 1513-cü ildə özbək ordusunun Xorasana yeni hərbi yürüşü zamanı Şahın göstərişi ilə Xəlil sultan Zülqədər öz qoşunu ilə dərhal Məşhəd istiqamətində hərəkət etmiş və onun kifayət qədər hərbi qüvvəyə malik oldğunu eşidən Übeyd xan Buxaraya, Teymur xan isə Səmərqəndə qayıtmağa məcbur olmuşdu (128, 226). Lakin o, 1514-cü ildə Çaldıran savaşına girməmiş və Şahın icazəsi olmadan Şiraza dönmüşdü. Elə buna görə də, savaşdan sonra Şah Xəlil sultanı cəzalandırmaq üçün qorçubaşı Kor Süleymanı Şiraza göndərmişdi. Kor Süleyman Şahın tapşırığını yerinə yetirib Xəlil sultanı öldürmüşdü (77, 152; 128, 249). Xəlil sultan öldürüldükdən sonra Şiraza hakim Zülqədərin Çiçəkli obasından qorçubaşı İzzəddin Zülqədər təyin edilir, ancaq çox keçmir ki, o da öldürülür və Şiraz hökuməti Əli bəy Zülqədərə verilir. O da tayfanın Çiçəkli obasından idi (77, 152; 128, 249). 1524-1525-ci illərdə Div sultan Rumlunun dəvəti ilə Əli bəy Zülqədər də paytaxta gəlmiş və ölkə daxilində əmirlərin çəkişməsinə qarışmışdı. O, 1525-ci ildə vəfat edir və Şiraza hakim qardaşı oğlu Murad sultan təyin edilir. Ancaq çox keçmədi ki, Şiraz hakimliyi Zülqədər elinin Camuslu obasından Həmzə sultan Zülqədərə tapşırıldı (108, 57; 77, 189; 56, 18). H. 939 (1532-1533)-cu ildə Həmzə sultan tutduğu vəzifədən azad edilir və Şiraza hakim Xəlil sultanın qardaşı Qazi xan göndərilir (108, 62). 1534-cü ilin payızında Azərbaycanda bərk qar və dolu yağdığına, havalar soyuduğuna görə Osmanlı ordusu qışlamaq üçün Bağdada çəkilərkən Kuhgiluyədə hakim Əlvənd xan Əfşar idi. O, bu zaman min nəfərlik hərbi dəstəsi ilə gəlib Şahın ordusuna birləşir (108, 63). Ancaq Əlvənd çox keçmir ki, itaətsizliyə yol verir və Şahın göstə-

rişi ilə xəbərdarlıq edilmədən ələ keçirilib öldürüldü. Kuhgiluyəyə hakim Mənsur bəy Əfşarın nəvəsi Həsən sultanın oğlu Məhəmməd bəy Əfşar göndərildi və ona Şahruh xan ayaması verildi (108, 66).

H. 946 (1540)-cı ildə Qazi xan Təkəli vəfat edir və Şiraza hakim Zülqədər elinin Hacılar obasından Keçəl bəyin oğlu İbrahim xan təyin edilir (77, 300). O, 1555-ci ildə Şirazdan Astrabada göndərilmiş və 1557-ci ildə özbəklərə qarşı savaşda öldürülmüşdü (108, 68; 67, 94). İbrahim xandan sonra Şiraz hakimi Tatı oğlu Əli sultan Zülqədər oldu (108, 95).

II Şah İsmayılın dövründə onun oğlu Şahşücanın atabəyi Zülqədər Qalxançı oğlu Vəli xan Şiraz əyalətində hakim idi (80, 213). Bu zaman Əfşarların böyük əmirlərindən Xəlil xan hakim olduğu Kuhgiluyədə deyil, mərkəzdə otururdu (67, 115; 128, 814).

Sultan Məhəmməd Xudabəndə hakimiyyətə keçdikdən sonra Şahruh bəy Tatı oğlu Zülqədərə xan rütbəsi verib, Şiraza vali təyin edir (80, 223). Sultan Məhəmməd Xudabəndənin hakimiyyətinin ilk ilində İsgəndər bəy Münşinin yazdığına görə Fars məmləkəti Zülqədər əmirləri arasında yenidən bölünüb, onların hər birinə burada ulkalar verilir. Ancaq Kuhgiluyə vilayətinə Əfşarlardan Xəlil xan hakim təyin edilir (80, 227). Məhəmməd Yusif Qəzvini yazır ki, özünü İsmayıl Mirzə adlandırmış bir nəfər yalançı qələndərin başçılığı altında 1580-ci ildə qiyam baş verən zaman Fars bəylərbəyi Əli xan Zülqədər idi. O, bu yalançı qələndərdən ehtiyat edərək üməra-ye tabinləri və Kirman hakimi Vəli xan Əfşarla birlikdə Azərbaycana gəlir (128, 617). Əli xan Zülqədər Şahın göstərişi ilə 1581-ci ildə geri qayıtmalı Fars və Xorasandakı ixtişaşların qarşısının alınması üçün göndərilmiş Qızılbaş ordusuna birləşməli idi. Ancaq bəhanələrlə əmri yerinə yetirmədi. Şah Zülqədər elindən Əli xan Zülqədərə tabe olan əmirlərin rütbə və titullarını ləğv edib, Ümmət bəy Zülqədərə xan titulu verib Farsa əmir əl-ümara təyin etdi. Zülqədər elindən bir çox bəylər yüksək titul və rütbələrlə təltif edilib, Ümmət xanla Farsa göndərilir (128, 658).

1580-ci ildə Kuhgiluyədə Lurlar arasında özünü II İsmayıl adlandıran qələndərin başçılığı altında (128, 639) mərkəzdənqaçma hərəkatına qarşı müharibədə Xəlil xanın oğlu Rustəm xan, sonrakı

savaşlarda Xəlil xan özü də öldürüldü. Xəlil xanın yerinə Kuhgiluyəyə digər oğlu Mahmud xan hakim göndərilmiş və yalançı İsmayılla savaşda o da qətlə yetirilmişdi. Şah Kuhkiluyədə Əfşarlardan yeni ordu yaradıb, yalançı İsmayıl hərəkatına son qoymağı Xəlil xanın Şüştər hakimi olan oğlu Əli sultana tapşırır. Ancaq Əli sultan da vilayətə daxil olan kimi Seyid Mübarək tərəfindən öldürülür. Sultan Məhəmmədin fərmanı ilə Kuhgiluyəyə yenə də Əfşarlardan Xəlil xanın qardaşı oğlu İsgəndər xan hakim təyin edilir. Bu zaman Fars bəylərbəyi isə Zülqədər Ümmət xan idi. Sultan Məhəmmədin hakimiyyətinin son illərində mərkəzi hakimiyyət daha da zəifləmiş, Kuhgiluyədə yalançı İsmayıla qarşı döyüşlərdə Əfşarlar pərişan olmuşdular. Əfşar Xəlil xanın oğlu Şahqulu bu vəziyyətdən istifadə edib Əfşarları ətrafına toplayır, əmisi oğlu İsgəndər xanı məğlub edib Kuhgiluyədə hakimiyyəti ələ alır. Bu zaman onun yaxın qohumu Əbdüllətif bəyin oğlu Həsən bəy Əfşar da Kuhgiluyə hakimi olmaq istəyirdi. Onların arasındakı qarşıdurmada Həsən bəy Şahqulu xanı məğlub edərək öldürdü və o, bu qələbədən sonra I Şah Abbasın fərmanı ilə xan titulu alıb, Kihquliyədə 1595-ci ilə qədər hakim oldu (80, 274, 433; 128, 641-644). F.Sümərin yazdığına görə II Şah İsmayıl və Sultan Məhəmməd dövründə Kuhgiluyədən başlayaraq İsfahan, Kirmandan Heratın güneyindəki Fərah və Əsfərayinə qədər geniş bir ərazidə Əfşarlar məskun olub, onların yaşadıqları geniş bir arealda kifayət qədər ulkaları vardı (67, 146).

Şah Abbasın hakimiyyətinin 8-ci ili Həsən xan öldürüldü və Fars əyalətinin Kuhgiluyə vilayəti Kazerun hakimi Əmir xan Əfşara verildi. Kazerun ulkasına isə Əfşarın Alplı obasından olan İsmayıl xan təyin edilir (80, 504). Şah Abbasın hakimiyyətinin onuncu ilində Əfşarın Ərəşli və Gündüzlü obaları ona qarşı çıxıb Xəlil xanın nəvələrindən Əbülfəthi xan elan edib hakimiyyətə gətirərək, əslində dövlətə qarşı çıxdılar. Kuhgiluyə də Fars hakimi Allahverdi xana verilir (80, 524, 525).

Seyid Hüseyn bin Murtuza Hüseyni Astrabadinin əsərində 1632-ci ildə Nəqdi xan Şamlının Kuhgiluyə hakimi olduğunu yazır. O, 1638-ci ildə Bağdad savaşında Osmanlılar tərəfindən əsir

götürülüb İstanbula göndərilmiş və bu vilayətə oğlu Zeynal xan bəylərbəyi təyin olunmuşdu (108, 247, 256, 257; 81, 279).

H.1054 (m.1644)-cü ildə baş vəzir Sarı Tağı ayamalı Mirzə Məhəmməd Tağının oldürülməsində iştirak edən sabiq Kuhgiluyə hakimi Nağdi xan Şamlının oğlu Mehdiqulu bəy bu zaman atasının əvəzinə həmin vilayətin bəylərbəyi idi. O, baş vəzirə qarşı təşkil edilmiş qəsddən xəbərdar olub bu barədə vaxtında məlumat vermədiyinə görə həbs edilmiş (125a, 35) Kuhgiluyəyə bəylərbəyi qullarağası Siyavuş bəy göndərilmişdi. (125a, 35,49). O, h.1059 (m.1649)-cu ildə vəfat edir, qullarağası vəzifəsi və Kuhgiluyə hökuməti Allahverdi xan mirşikərbaşıya tapşırılır. (125a,53). Azərbaycan bəylərbəyi və sipəhsalar Əliqulu xan həbs edildikdən sonra (m.1655) sipəhsalar hərbi vəzifəsi də ona verilir. (125a, 67) H.1054 (m.1644)cü ildə Fars-Kuhgiluyənin Durux mahalının hakimi Mehdiqulu sultan, onun canişini isə Xəndanqulu sultan idi. (125a, 31). Mehdiqulu sultandan sonra bu mahalda hakim olmuş Şahverdi sultan işində nöqsanlara yol verdiyinə görə h. 1065 (m.1655)-ci ildə vəzifəsindən azad edilmişdir. Mahala Bəndər Abbas hakimi Pirbudaq xan Pornak göndərilmişdi. (125a, 82) . H.1074 (m.1663)-cü ildə isə Duruxda hakim Gədalı bəy Qacar idi. Elə həmin ildə onun yerinə Duruğa hakim Kuhgiluyə bəylərbəyi Zaman bəy göndərilir. O, Mənuçöhr xanın qohumu idi. Ancaq o da elə həmin il vəfat etmiş və bura hakim Novruz bəy təyin edilmişdir. (125a, 120, 121, 122)

Sultan Məhəmmədin hakimiyyətinin son illərində Farsda Zülqədər əmirləri iki qrupa bölünmüş və onların arasında çəkişmə başlanmışdı. Mənbələrdən əldə edilən məlumat təhlil edildikdə məlum olur ki, Farsda Qızılbaş əmirləri arasında baş vermiş bu çəkişmədə vaxtı ilə baş vəzir olmuş Mirzə Salmanın oğlu Mirzə Abdullanın da əli olmuşdu. Bu zaman Fars bəylərbəyi Zülqədər elinin Şadıbəyli obasından Əli xan idi. Ona qarşı çıxan əmirlərə yenə də Zülqədər elinin Şadıbəyli obasından olan Mehdiqulu bəy başçılıq edirdi. Ara savaşlarında bəylərbəyi Əli xan Zülqədər öldürüldü (128, 814, 815, 816). Vəzir Mirzə Məhəmməd tərəfindən Şiraz hakimliyinə Şahqulu xəlifə Zülqədər və Əli xan Zülqədərin

oğlu Təhmasibqulu sultanın namizədliyi irəli sürülsə də, onlardan heç biri Şirazda Zülqədər əmirləri arasındakı hadisədən ehtiyat edib, Farsa getməmişdi (128, 816). Bu zaman Məşhədi tutub faktiki olaraq mərkəzə tabe olmayan Mürşüdqulu xan Ustaclı və onun yanındakı Mirzə Abdulla tərəfindən Mehdiqulu xan Zülqədərin adına Fars hakimi olması barədə fərman göndərilir (128, 816). I Şah Abbas hakimiyyətə keçdikdə Şiraz əyalətin hakimi Mehdiqulu xan Zülqədər idi. Fəqət o, Abbas Mirzə və Mürşüdqulu xana qarşı birləşən əmirlərdən olduğu üçün onu Zülqədər elinin Hacılar obasından olan Yaqub bəyə öldürtmüşdülər. Yaqub bəyin atası İbrahim xan vaxtilə Şiraz hakimi olmuşdu. Yaqub bəy isə hələ 1586-cı ildə Xorasana getmiş Abbas Mirzənin mülazimi olmuşdu. Abbas Mirzə hakimiyyətə keçdikdən sonra onu Şiraza əmir əl-üməra təyin edib, Mehdiqulu xanın bütün sürsat və əmlakını da ona vermişdi. İsgəndər bəy Münşinin yazdığına görə o, 1589-cu ildə xan titulu da almış, bütün Fars əyalətinin əmir əl-ümərası idi. Ancaq müvazinətsiz bir şəxsiyyət olub, Şahın əmirlərini dinləmədiyinə görə tutduğu vəzifədən kənar edilməsi qərara alınmışdı (80, 381, 384, 418; 67, 181). Bu zaman Yaqub xanla Zülqədər tayfa ağsaqqalları arasında narazılıq olduğu üçün ağsaqqallar onun hakimiyyətinə tabe olmurdular. Nəticədə, 1592-ci ildə Yaqub xan tutduğu vəzifədən kənar edildi (80, 420, 421; 67, 181).

Yəzd, Kirmana özbaşına hərbi yürüşlər edib, əslində mərkəzlə hesablaşmayan Yaqub xan ortadan götürüldükdən sonra Şiraza hakim və Farsa əmir ül-ümərа Zülqədərin yüzbaşı silkindən Bünyad xan təyin edilir (80, 432).

Zülqədər tayfası uzun illər idi ki, Farsda məskun olub bu vilayətə onların əmirləri hakimlik edirdi. Ancaq I Şah Abbas hakimiyyətinin 6-cı ilində özbəklərlə savaşarkən onlar az əsgər gətirdiklərinə görə cəzalandırıldılar. Fars ölkəsi Bünyad xan və digər Zülqədər əmirlərindən alındı və Şiraza hakim Hüseyn xan Qacarın namizədliyi irəli sürüldü. Elə həmin il o, Şiraz hakimi oldu. Ancaq Zülqədər əmirləri ölkəin qorunması və idarə edilməsində üzərlərinə böyük öhdəlik götürdüklərinə görə növbəti il Şiraz hakimliyi və Farsda ulkaları yenə özlərinə qaytarılır (80, 458).

I Şah Abbas Avropa dövlətləri arasındakı çəkişmədən bacarıqla istifadə edib Hörmüz və Kişi portəgizlərdən geri almağa (1622) müvəffəq oldu. Hadisələrin sonrakı gedişindən də görünür ki, o bu siyasətini davam etdirib İran körfəzi və onun sərhəd məntəqələrində Səfəvi imperiyasının mövqeyini möhkəmləndirib, Orta Şərqdə onun hərbi-siyasi güc sahibi olduğunu təsdiq edir. Ancaq onu da qeyd etmək lazımdır ki, körfəzin adaları və sərhəd məntəqələrində Xorasanda olduğu kimi güclü yerli dayaqlar yaratmadan, xüsusilə Bəndər Abbas və Hörmüzə inanılmış, bacarıqlı əmirlərdən hakim təyin etmədən əldə edilmiş uğurların itirilməsi qorxusu vardı. Bu səbəblə əlaqədar olaraq, 1638-ci ildə İmamqulu xan aradan götürülüb və Farsda Zülqədərlər yenidən hakimiyyətə gətirilir, ulkaları özlərinə qaytarılır. Hörmüzə isə Səfiqulu bəy və Polad xan hakim göndərilir. Onlar təsadüf nəticəsində öldürüldükdə qorçubaşı Əmir xan Söklənin qardaşı Qara xan ora hakim göndərilir, 1640-cı ildə isə Bəndər Abbas və Hörmüzə qorçubaşı Əmir xan Söklənin oğlu Ümmət bəy hakim təyin edilir. (81, 235, 239)

I Şah Abbasın dövründə Zülqədərin Kavurqalı, Söklən, Şəmsəddinli, Eymur, Hacılar adlı obalarının Sərəxs, Kirman, Qarabağ və Astrabada köçürülməsi onların əmirlərinə bu vilayətlərdə, mahallarda vəzifə, ulka verilməsi ilə bağlı olub, bunu Zülqədər elinə vurulan zərbə kimi qəbul etmək doğru olmazdı. Əksinə, I Şah Abbas ellərin, obaların əmirlərinin yerlərini dəyişməklə vilayət və mahallarda bir nəsil üçün hakimiyyətin irsi imtiyaza çevrilməsinin, mərkəzdən qaçma hallarının, separatizmin qarşısını almış, dövlət hakimiyyətini və onun yerli dayaqlarını möhkəmləndirmişdir. I Şah Abbasın hakimiyyətinin son illərində, I Şah Səfi dövründə Şəmsəddinli obalarından birinin Axıskada sakin olduğunu, bu obanın əmirlərindən Səlim xan və oğlu İsmayıl xanın Axıskaya hakim təyin edildiklərini görürük.(81, 37, 38, 82).

I Şah Abbasın dövründə Əfşar elinin Gündüzlü obasının da bir bölüyü Kühgiluyə və Xuzistanda məskun idi. Sonralar onların bir qismi Xorasanın Abiverd mahalına, bir qismi də Urmiya bölgəsinə köçürülmüşdü. Ehtimal ki, Urmiya bölgəsində yaşayan İnallılar da onlardan idi. Əfşarın İsalı obası isə Sultan Məhəmmədin hakimiy-

yətinin son illəri və I Şah Abbas dövründə İsfahan tərəflərində yaşayırdı. Əfşarın Qəzvin bölgəsində məskun olan Ərəşli obasının bir bölüyünü də I Şah Abbas Abiverdə köçürmüşdü (67, 190, 191). İsgəndər bəyin yazdığına görə I Şah Abbasın dövründə Ərəşli obasının çoxu Kuhgiluyədə məskun olmuşdu (80, 409). Alplı obası da Kuhgiluyə Əfşarlarının bir qolu olub, onların bir qismi Kirmanda sakin idi (67, 190, 191).

«Təzkirət əl-mülük»da Ərəbistan valiliyi və Farsla İsfahan arasındakı Simrum (132, 86) hakimliyinin yalnız adları qeyd olunmuş, mahal və ulkaları barədə məlumat verilməmişdir.

## §2 İdarəetmə sistemi

Vilayətləri şahzadələr və türk tayfa əyanları içərisindən seçilib, bəylərbəyi səlahiyyəti ilə təyin olunan hakimlər idarə edirdi. Bu hakimlərin hər biri təyin olunduqları vilayətin bəylərbəyi olmaqla yanaşı, həm də burada sakin olan türk tayfalarından birinin əmiri, ağsaqqalı və başçısı idi, onun mülki-inzibati hakimiyyəti həm də hərbi mahiyyət kəsb edirdi. 1578-ci ildə Azərbaycan vilayətinə bəylərbəyi təyin edilmiş Əmir xan həm də vilayət ərazisində əhalinin çoxluğunu təşkil edən Türkman elinin əmiri idi. Əmir xandan sonra Şahın fərmanı ilə Ədhəm sultan Türkman tayfasının ağsaqqalı təyin edilir və ona «xan» titulu verilir (121, Bn.v. 369, ab, 370b). Göründüyü kimi, hakimin tayfa ağsaqqalı olması əsas şərt idi. Tayfa ağsaqqalı həm də tayfanın irsi idarə hüququna malik əmiri hesab olunurdu. Ərəb sözü olan «əmir» əsasən hərbi rütbə idi (181, 96-98) və Şahın fərmanı ilə verilirdi.

Vilayətə hakim xan, sultan titulu, əmir əl-üməra, yaxud bəylərbəyi rütbəsi ilə təyin olunurdu. Dövrün qaynaqlarında I Şah Təhmasibin hakimiyyətinin ilk illərinə qədər bəylərbəyiyə nisbətən daha çox əmir əl-üməra termini işlənmişdi. Əmir əl-üməra I Şah İsmayılın dövründə fərdi qaydada sırf hərbi rütbə kimi də verilirdi. Ancaq bu hərbi rütbəni daşıyan əsilzadə hər hansı vilayətə hakim

təyin edilərsə, onda əmir əl-ümərа hərbi rütbəsi bəylərbəyi ünvanına sinonim olur və mülki-inzibati mahiyyət kəsb edirdi.

Vilayətin hakimi həm də buradakı tayfanın başçısı olan əmir öldükdə və ya öldürüldükdə onun yerinə həmin tayfanın mötəbər şəxslərindən başqa biri o tayfaya ağsaqqal (əmir) seçilir, ona sultan və ya xan titulu verilib, bəylərbəyi təyin edilirdi. Məsələn, h.910-cu (1504-1505) ildə Zülqədər tayfasının başçısı I Şah İsmayılın əmri ilə öldürülmüş, qoşunu Ümmət bəy Sarışıxlı Zülqədərə verilib, Sultan Xəlili ləqəbi ilə Şiraz əyalətinə hakim vəzifəsinə göndərilmişdi. H.926-cı (1520) ildə isə Kor Süleyman I Şah İsmayılın əmri ilə Şirazın yeni hakimi Sultan Xəlil Zülqədəri ölüm cəzasına məhkum etmişdi. Bu hadisədən sonra Zülqədər qoşunu Əli sultan Çiçəkli Zülqədər təxəllüsü ilə məşhur olan İzəddinə verilir və o Şiraz əyalətinə hakim təyin edilir (28, 51).

XVI yüzilliyin 30-cu illərinə kimi vilayət hakiminə, yəni bəylərbəyiyə «sultan» titulu Şah Təhmasib və onun xələflərinin dövründə isə «xan» titulu verilirdi. Bəylərbəyi haqqında Enqelbert Kempfer yazır ki, vilayət hakimləri bəylərbəyi rütbəsinə və ünvanına malikdir. Onun mənası ağaların-ağası, bəylərin-bəyi deməkdir (96, 161; 181, 27).

V.Minorski İsgəndər bəyin «Tarixi alamara-yi Abbasi» əsərində I Təhmasibin hakimiyyəti dövründə vilayət başçısının «hakim» ünvanı ilə qeyd olunmasına istinad edib, bəylərbəyi istilahının I Şah Abbas zamanı yaranmasını güman etmişdir (103, 163, 186; 156, 271). İ.P.Petruşevski isə yazır ki, Səfəvi vilayətlərində I Şah Abbasa qədər bəylərbəyi vəzifəsi mövcud olmuşdur. O.Əfəndiyev də İ.P.Petruşevskinin fikrini müdafiə edir (183, 247; 181, 118; 156, 271). H.Zərinəzadə isə «bəylərbəyi» istilahının Səfəvilərin hakimiyyəti dövründə yarandığını qeyd edir (59, 199). Halbuki hələ XIV əsrdə bəylərbəyi istilahı vəzifə kimi işlənmişdir. «Tarix-i Vəssaf» əsərində deyilir: «Baydu xan Tığacar Noyana bəylərbəyilik verdi» (48, 155). Bundan əlavə, «Tüzukat-i Teymuri» əsərində Teymurun adı ilə deyilir: «313 adamdan 4 nəfərinin bəylərbəyi və bir nəfərin əmir əl-ümərа təyin edilmələrini buyurdum…» (22, 73). Göründüyü kimi, Səfəvilərə qədər Elxanilər və Teymur dövründə bəylər-

bəyi termini işlənmişdir. Qaraqoyunlu, Ağqoyunlu və I Şah İsmayılın hakimiyyəti dövründə isə bəylərbəyi istilahına təsadüf edilmir. Yalnız Şah Təhmasibin hakimiyyətinin ilk dövrlərindən başlayaraq əyalətlərə təyin olunan başçılara bəylərbəyi ünvanı verilmişdir. Ancaq bəylərbəyi ilə əmir əl-ümara Səfəvilərə qədər sinonim kimi işlənilməyib.

I Şah İsmayıl dövründə qüdrətli tayfa başçısı olan əmirlərə «sultan» titulu verilməklə müəyyən vilayətə hakim təyin edilirdisə, I Şah Təhmasibin hakimiyyətinin ikinci yarısından başlayaraq həmin tayfa başçılarına əmirlik rütbəsi və «xan» titulu verməklə, vilayətlərə bəylərbəyi təyin olunurdular (181, 99-100). E.Kempferə görə «xan» titulu ölkənin yüksək dərəcəli şəxslərinə, vali və hakimlərə verilirdi. O, sözünə davam edərək yazır: «Valilər, hakimlər özlərinin tutduqları vəzifə və hakim olduqları vilayət və şəhərlərin əhəmiyyətinə görə müxtəlif dərəcələrə bölünürlər. Bu dərəcələrə uyğun olaraq onların titulları vardır: bəylərbəyi, xan, vali, sultan (ikinci dərəcəli hakim), vəzir (xassə əmlakı rəisi)» (96, 157, 159). Fransız səyyahı Sanson yazır ki, Səfəvi dövlətində altı cür hakim vardır ki, onlar vali, bəylərbəyi, qolbəyi, vəzir, sultan və darğadan ibarətdir. Valilər ölkələri Səfəvi Şahı tərəfindən tutulub zorla tabe edilmiş sultanların sağ qalmış övladları, qohumları idilər. Nahiyələrə çevrilmiş ölkələrdə hakimiyyəti vali ünvanı ilə yerli sülalədən olanlar idarə edirdilər. Sansona görə valilər dövlət şurasının iclaslarında, rəsmi qonaqlıqlarda dövlətin əsas dayağı olan altı vəzirdən sonra əyləşir, Şah mehmanlarının imtiyazlarından istifadə edir, Şahla bir süfrədə əyləşir və onlara şahzadə gözü ilə baxılırdı. Ancaq sonralar Şah valilərin sayını azaldıb, onları bəylərbəyi ilə əvəz edir. Nəticədə Kirman və Luristan valiliyi ləğv edilmiş, Gürcüstan valiliyi isə ciddi təzyiqlərə məruz qalmışdır (106, 58-59).

Sansonun səyahətnaməsində Səfəvi dövlət quruluşunun forması haqqında elə məlumat vardır ki, ona dövrün unikal qaynaqlarında təsadüf edilmir. Səyyah yazır ki, şəhristan və kiçik nahiyələri (mahal-Z.B.) idarə edən xanlar «Qolbəyi» adlanırlar. Sansona görə Qolbəyi qol, arxa (dayaq), yaxud xanın (bəylərbəyinin - Z.B.) köməkçisi mənasını ifadə edir. Belə ki, xan (bəylərbəyi) göstəriş

verdikdə qolbəyilər öz hərbi hissələrini dərhal onun sərəncamına göndərməli idilər (106,60). Dövlət böyükləri arasında sultan titulu ilə yüksək mövqeyi olan iki nəfər vardır ki, onlardan biri Təbriz bəylərbəyiliyinin tərkibindəki Sultaniyyədə və digəri isə Xürrəmabad vilayətində bir mahalda hakim olurdular (106, 60). E.Kempferə görə də az sayda sultan vardır ki, onlar xanların deyil, birbaşa Şahın nəzarəti altında işləyirdilər (96, 162).

Engelbert Kempfer yazırdı ki, xanın vəzifə və mövqeyinin qüdrəti onun hökmranlıq etdiyi ərazinin genişliyi ilə ölçülür. Bəzi hallarda isə onların hökmran olduqları ərazi böyük olmur. Bu halda kiçik ərazini idarə edən xan daha qüdrətli xana tabe olur. Qüdrətli xanlar isə öz növbələrində Şaha tabedirlər (96,161). Əslində burada müəyyən bir vilayətin tərkibindəki mahala xan titulu ilə hakim təyin olunması və bu hakimin isə öz növbəsində həmin vilayətin bəylərbəyinə tabeçiliyi nəzərdə tutulur. Ancaq belə hallara çox az təsadüf edilirdi.

Engelbert Kempferin yerli hakimlərin vəzifə və titullarına görə tərtib etdiyi siyahıda xassə əmlakı olan şəhər və vilayətə vəzir və darğanın hakim statusu ilə təyin olunmasına işarə də edilir. O qeyd edir ki, vaxtilə bəylərbəyilər tərəfindən idarə olunan məntəqələrin çoxu bu gün xassə əmlakıdır. Bu əmlakı idarə edən vəzirlər birbaşa Şaha tabe olub, öz vəzifələrini onun nəzarəti altında yerinə yetirirlər (96, 157, 158). Sanson isə yazır ki, iki nəfər vəzir, yaxud canişin vardır ki, onların biri əski İran Şahlarının mərkəzi olmuş Şirazı, digəri isə Rəşti, yəni bütün Gilanı idarə edirdi (106, 60). Xassə əmlakına hakim statusu ilə təyin olunan vəzir, yaxud darğanın hüquq və səlahiyyəti divan ərazisi tərkibindəki vilayət hakimlərinin hüquqları ilə müqayisədə daha məhdud idi. Cemelli Kareri bu barədə qeyd edir: «Xanın vəzirdən fərqi o idi ki, xan bir, yaxud bir neçə hərbi alayın başçısı olub, vilayətdə həm də məhkəmənin sədri kimi cinayət işlərinə də baxırdı. Ancaq xassə əmlakında hakim olan vəzirin xan qədər səlahiyyəti yox idi və hətta o səlahiyyətinə aid olan məsələdə çətinliyə düşdükdə yaxınlıqdakı vilayətin xanından məsləhət alırdı» (89, 140).

Əksər mənbələrdə Şahzadələrin iri vilayətlərə hakim təyin edilməsi barədə də məlumat vardır. Belə ki, 1538-ci ildə Şirvanda yerli Şirvanşahlar sülaləsi devrildikdən sonra I Şah Təhmasib qardaşı Əlqas Mirzəni Şirvana vali təyin etmişdi. O, Şaha qarşı çıxıb, Osmanlı dövlətinə qaçdıqdan sonra Şirvana kiçik yaşlı şahzadə İsmayıl Mirzə bəylərbəyi təyin olunur (118, v.102a, 104b, 132a).

Vilayətlərə Qızılbaş əsilzadələrindən hakim təyin edilməsi barədə Don Juan ayaması almış məşhur Qızılbaş əyanı Oruc bəy Bayat yazır: «İndi İranda 32 qəbilə, ya əşrəf ailəsi vardır. Onlar yüksək ixtiyarata malikdirlər. Onlardan biri də Türkman tayfasıdır. Əmirlər, sərdarlar və qoşun başçıları Türkman tayfasından olurdu» (79, 67-69). Bir sözlə, İranda (Səfəvidə-Z.B.) hökumət bu 32 tayfa əsilzadələrinin əlində cəmlənmişdir. Onların arasından çıxan şəxslər ayrı-ayrı şəhər və vilayətlərə hakim təyin olunurdu. Dövrün mənbələrini nəzərdən keçirdikdə məlum olur ki, Türkman tayfası ilə yanaşı, digər Türk-Qızılbaş tayfa ağsaqqalları və əmirləri də dövlət aparatında yüksək vəzifələr tuturdular. Lakin vilayətlərə bəylərbəylər Şahın fərmanı ilə təyin olunur və şah istədiyi vaxt onları tutduqları vəzifədən azad edə bilərdi (96,162). Oruc bəy Bayat yazır ki, xanlıq irsidir və xanlar titullarını özlərinin mütləq mülkü kimi qoruyub saxlayırlar. Ancaq onlar Şaha xidmət etdiklərinə, yəni ona tabe olduqlarına görə nöqsanları olduqda, Şah dərhal onları tutduqları vəzifədən azad edə bilərdi (79, 67-69). XVI yüzilliyin sonu- XVII yüzilliyin əvvəllərində imperatorluğun cənub və cənub-şərq bölgələrində mərkəzdənqaçma hərəkatlarının yenidən genişləndiyi bir vaxtda, vilayət hakimlərinin tutduqları vəzifə, daşıdıqları titul və rütbəni öz varislərinə irsən ötürmə maraqlarının daha da artması I Şah Abbasın mərkəzləşdirmə siyasətinə ciddi zərbə vururdu. Pyetro Della Valle yazdığı kimi, çoxları xanlıq ünvanını nəsildən-nəsilə ötürür və elə adamlar da vardı ki, iki yüz il idi ki, xan tituluna irsən sahib idi. Ancaq bu qayda Şaha məqbul deyildi və o istəyirdi ki, bu məsələni müəyyən həddə yoluna qoysun. Onun fikrincə xanların ixtiyarları vilayətlərdə həddini aşmışdır. Və o, hakimiyyətinin ilk illərində, yəni gənc yaşlarında onlardan çox zərər görmüşdü (86,55). Məhz elə buna görə, I Şah Abbas mərkəzdən-

qaçma hərəkatlarının güclü olduğu bəzi vilayətlərdə yerli sülalələrin hakimiyyətini ləğv edib, onları xassə əmlakına çevirmiş və həmin vilayətlərə hakim statusu ilə darğa və çox nadir hallarda isə vəzir təyin etmişdi. Bununla yanaşı, I Şah Abbas bir çox vilayətlərə yeni hərbi aristokratiya nümayəndələrindən də bəylərbəyi təyin etmişdi. O, əhalisinin mütləq əksəriyyəti Zülqədər türklərindən ibarət olan Fars vilayətini faktiki olaraq Allahverdi xana ömürlük bağışlamışdı. Allahverdi xandan sonra bu vilayətdə hakimiyyət onun oğlu İmamqulu xana verilir. Vilayətdə hakimiyyətin atadan sonra onun oğluna verilməsinə baxmayaraq Don Qarsiya de Silvanın yazdığı kimi, yerli hakim nöqsana yol verdikdə, I Şah Abbas nəinki həmin şəxsi yerli hakimiyyətdən uzaqlaşdırır, həm də ona verilmiş tiyullar da əlindən alınırdı. Allahverdi xan ona Fars vilayətində verilmiş hüquq və imtiyazların müqabilində zəruri olduqda Şahın hərbi qulluğuna piyada və süvaridən ibarət 10 min nəfər əsgər göndərməli idi (105, 156).

İ.Petruşevskinin qeyd etdiyi kimi, I Şah Abbas yeni hərbi aristokratiya nümayəndələrindən də bəylərbəyi təyin etmişdi ki, bu I Şah Abbas və onun xələflərinin bəylərbəyilərin irsi hakimiyyətini ləğv edib, vilayətlərin mərkəzi dövlət asılılığını daha da möhkəmləndirmək istəyindən irəli gəlirdi. Lakin onlar buna qismən bir neçə əyalətdə nail ola bildilər (181, 118). Səfəvi hökmdarları Qızılbaş tayfa əmirlərinə sarsıdıcı zərbə endirə bilmədilər. Əslində Səfəvi hökmdarları onlarla hesablaşmağa məcbur oldular. Qızılbaş ellərinin dövlətin cənub və cənub-qərb vilayətlərində də üstünlüyü, onların əmirlərinin böyük nüfuza, hərbi qüvvəyə malik olması ilə əlaqədar olaraq şahlar bu vilayətlərə də onlardan bəylərbəyi təyin etmək zorunda idilər.

Qeyd olunduğu kimi, ayrı-ayrı vilayətlər xassə əmlakına çevrildikdə oraya bəylərbəyi deyil, hakim statusu ilə darğa, yaxud vəzir təyin edilirdi. H.940-cı (1533-34) ildən h. 985-ci (1577) ilə qədər Təbriz xassə əmlakı olduğu zaman bu vilayət bəylərbəyi deyil, darğa tərəfindən idarə olunmuşdu. Təbriz 1577-ci ildə yenidən divan ərazisi tərkibinə daxil edildikdən sonra Səfəvi hökmdarı

Sultan Məhəmməd Əmir xan Türkmanı Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin edir (121, Bn.v.300b).

Vilayət hakimləri eyni vaxtda inzibati vahidin mərkəzi olan şəhərlərin də «hakim»i hesab olunurdular. Bu qayda təkcə Azərbaycana aid deyildi. Qarabağ bəylərbəyi Gəncə, Şirvan bəylərbəyi Şamaxı, Çuxur-Səd bəylərbəyi İrəvan «hakim»i hesab olunurdu.

Dövrün mənbələrini diqqətlə nəzərdən keçirdikdə tam aydın olur ki, XVI-XVII əsrlərdə Səfəvilərin demək olar ki, bütün vilayət və mahallarında Qızılbaş türk tayfa əmirləri hakimiyyətdə olmuşdular. Məsələn, Qarabağ və Astrabadda Qacar, Azərbaycanda Təkəli və Türkman, Çuxur-Səddə Ustaclı, Farsda Zülqədər, Kirmanda Əfşar, Həmədanda Təkəli, Heratda Şamlı əmirləri bəylərbəyi olurdular (181, 121; 156, 272). Nadir hallarda yeni hərbi əsilzadələrdən bəylərbəyi təyin edilsə də, bu təcrübə özünü doğrultmamışdır.

Dövlət başçısı tərəfindən geniş hüquq və səlahiyyətlərlə təmin edilən vilayət hakimləri onlara verilmiş bu səlahiyyətlərdən istifadə edərək Engelbert Kempferin qeyd etdiyi kimi, vilayət mərkəzində Şah sarayına uyğun dəm-dəsgah yaradırdılar. Yerlərdə də şah sarayına uyğun saray və onun idarə orqanları, məmurlar aparatı vardı. Xanlar da Şahlıqda olduğu kimi saraylarına xüsusi musiqi sədaları altında girib-çıxır və şahlıqdakı kimi təmtəraqlı ziyafətlər təşkil edirdilər. Xan vilayətdə ədalət məhkəməsinin sədri olub, onun hökm və qərarları mərkəzdəki divanbəyi tərəfindən çox nadir hallarda ləğv edilirdi. Faktiki olaraq xan vilayətdə vəzifə və idarə səlahiyyətinə görə Şahdan sonra ikinci yerdə dayanırdı. Səyyahın yazdığına görə, xanlar, ancaq Şahın onlardan üz döndərməsindən çox ehtiyat edirdilər. Şah Süleyman istədiyi anda, istədiyi xanı hakimiyyətdən uzaqlaşdırıb, əsli-nəcabəti olmayan bir nəfəri onun yerinə təyin edə bilərdi (96, 159).

Səfəvi hökmdarları vilayətlərə təyin etdikləri xan və sultanlara bayraq, təbil, xüsusi xələt təqdim olunurdu. 1693-cü ildə Səfəvilər məmləkətində olmuş Venesiya səyyahı Cemelli Kareri bu barədə yazır ki, Şah xan təyin edərkən ona ipəkdən uzun üst paltarı, qızıl belbağı (kəmər), zərli çalma, bayraq və təbil verilirdi (89, 142). Və

hər il Şahın adından xanlara xüsusi xələtlər göndərilirdi. 1636-1639-cu illərdə Azərbaycanda olmuş Adam Oleari Şah elçisinin Şamaxıya gəlməsi, xanın elçini qarşılaması, onların arasında türk dilində gedən söhbət və Şahın göndərdiyi xələtin təqdim olunması münasibəti ilə Şirvan qazısı və sədrinin Şaha dua etmələri barədə məlumat vermişdir (139, 884).

Vilayətlərin hərbi qüdrətini möhkəmləndirmək üçün Şah bəylərbəyi təyin edərkən onun mənsub olduğu tayfa əyanları ilə yanaşı, bəzən başqa Qızılbaş tayfalarından bir neçə əmirlə birlikdə onu həmin vilayətə göndərirdi. Onlar bəylərbəyiyə tabe əmirlər (ümare-ye tabin) adlanırdı. İsgəndər bəy Münşi  yazır ki, Əmir xan Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin olunarkən (1577) özünün məsləhəti ilə qardaşları İsmayıl sultan, Şahqulu sultan, oğlu Sultan Murad xan və İbrahim sultan Piyadə Türkman əmirlik rütbəsi ilə təltif olundu və onlar Azərbaycanda ulkalarla da təmin olundular (80, 227).

Dövrün yerli idarəetmə qaydalarına uyğun olaraq Şah xanın rəyi əsasında onun mənsub olduğu tayfa əsilzadələrinə əmirlik rütbəsi verir və onları vilayətin mahallarında hakim vəzifəsinə qoyurdu. Ancaq Şah tərəfindən mahallara əmirlik rütbəsi ilə təyin olunan bu hakimlər bəylərbəyiyə tabe idilər.

İtaliyalı səyyah Pyetro della Valle Səfəvi dövlətinin bir çox vilayətlərini gəzmiş və şəxsi müşahidələri əsasında vilayət hakimlərinin hüquq və səlahiyyətləri haqqında ətraflı məlumat toplaya bilmişdir. O yazır ki, Səfəvi dövlətində xan titulu bütöv bir vilayətin hakimi mənasını ifadə edir. Xanın səlahiyyəti geniş olub, hakimiyyəti altındakı vilayətin bütün mülki və hərbi məmurları ona tabedirlər. Vilayəti necə istəyirsə, o cür idarə edir və Şahdan başqa heç kimi özündən böyük kimi qəbul etmir. Ona tabe olan vilayətin idarə işlərində sərbəst olub, yalnız Şahın buyruqlarına əməl edir (86, 54).

Oruc bəy Bayat vilayət hakiminin hüquq və vəzifələrindən bəhs edərək yazır: «Məmləkətin bütün siyasi xətti-hərəkətində fəal iştirak etməklə bərabər, həm də hərbi işlərdə Şahın məşvərətçisidir. Onlar əyalətlərdə mühüm məsələlərin həllində Şahın naibi kimidi-

lər. Xan Şahın naibi kimi fövqəl ixtiyara malikdir» (79, 67). Bəylərbəyi vilayətin silahı qüvvələrinin baş komandanı, yəni əmir əl-ümərası idi. İsgəndər bəy Münşi yazır ki, Sultan Məhəmməd Təbrizə gələrkən Əmir xanın qardaşları, qohum və başqa əmirlərinə tabe 12 min nəfərə qədər mülazimi var idi (80, 227). Lakin mənbələrdən aydın olur ki, sərhəd bəylərbəyinin sırf özünə tabe daimi silahlı qüvvələrinin sayı 2-3 min nəfərdən çox olmurdu. Şah da bəylərbəyinin daimi silahlı qüvvələrinin sayını bir neçə mindən çox olmasını istəməzdi. Ona görə ki, bəylərbəyinin daha çox əsgəri qüvvəyə malik olması, onun hərbi qüdrətinin həddindən çox artması, onda mərkəzdənqaçma meyli ilə nəticələnə bilərdi.

Qazi Əhməd Quminin h.993-cü (1585) ildə İmamqulu xan Qacarın Qacar tayfası və Qarabağda yaşayan digər oymaqlardan ibarət 2 min nəfər qoşunla Təbrizin 24 km-də yerləşən Nəhənd adlı yerdə Sultan Məhəmmədin xidmətinə gəlməsi və həmin ildə Çuxur-Səd bəylərbəyi Məhəmməd xan Ustaclının 3 min nəfər mülazimini götürüb Osmanlı ordusu ilə vuruşmaq üçün Araz çayını keçərək Ərzuruma getməsi haqqında qeydləri hər iki bəylərbəyinin 2-3 min nəfərdən ibarət daimi əsgəri qüvvə saxladığını göstərir (121, Bn. V.381a, 377 a). Azərbaycan bəylərbəyinin əsgəri qüvvəsi isə XVII əsrin ortalarında 3 min nəfərdən ibarət idi (113, c.II, 421).

Bəylərbəyinin müəyyən sayda hərbi qüvvə saxlaması, ölkə sərhədlərinin qorunması və vilayətdə daxili intizamsızlıqların qarşısının alınması zəruriyyətindən irəli gəlirdi.

Xanın Şah qarşısında əsas hərbi öhdəçiliyi müharibə zamanı müəyyən sayda qoşun hazır edib mərkəzə, yaxud da birbaşa savaş meydanına göndərməkdən ibarət idi (78, 454). Lakin bu barədə Şahın xüsusi göstərişi olmalıydı. Məsələn, XVII əsrin I yarısında Səfəvi-Osmanlı müharibəsi zamanı h.1024-cü (1615) ildə Şah Abbas əmr edir ki, Qarabağ bəylərbəyi Məhəmməd xan Ziyad oğlu Qacar Tiflisə gedib orada sakin olsun və osmanlılarla vuruşmağa hazırlaşsın (80, 887).

Bəylərbəyi birbaşa Şaha tabe olub, mərkəzi dövlət aparatının məmurları ilə hərbi məsələlərdə hesablaşmırdı. Hətta sipahsalar bəylərbəyiyə tabe olan hərbi qüvvədən Şahın xüsusi göstərişi olma-

dan təhlükəli vaxtlarda belə istifadə edə bilməzdi. Məsələn, Şah Səfi (1629-1642) Rüstəm xanı Van üzərinə hərəkət edən əsgəri qüvvəyə başçı təyin edən zaman o, Çuxur-Səd bəylərbəyi Təhmasibqulu xandan öz əsgəri qüvvəsi ilə gəlməyi və birgə hücum etməyi tələb etmişdi. Təhmasibqulu xan isə ona kəskin cavab verərək bildirmişdir ki, əvvəla osmanlılar, gürcülər, kürdlər İrəvanı təhlükə qarşısında qoyduqları bir vaxtda, ikinci isə Şahın xüsusi fərmanı olmadığına görə sizin xidmətinizə gələ bilmərəm (206, 86).

Məlum olduğu kimi, bəylərbəyi vilayətin mülki, inzibati rəisi olmaqla bərabər, həm də silahlı qüvvələrinin baş komandanı, yəni əmir əl-ümərası funksiyasına sahib idi. Bütün Səfəvi silahlı qüvvələrinin komandanına isə sipəhsalar rütbəsi verilirdi. Əksər vaxtlarda Səfəvilərin silahlı qüvvələrinə baş komandan sipahsalar rütbəsi ilə Azərbaycan bəylərbəyi təyin olunurdu. Bu barədə mənbələrdə kifayət qədər məlumat vardır. 1664-cü ildə Səfəvilər məmləkətində olmuş fransız səyyahı Şarden yazır ki, Təbriz və onun ətraf mahalının hakimi Səfəvilərin birinci hökumətlərindən hesab olunurdu. Azərbaycan bəylərbəyi və Təbriz hakimi təyin edilmiş hər bir əmir eyni zamanda dövlətin hərbi qüvvəsinin baş komandanı olur və qoşunun bütün ixtiyarı ona həvalə edilirdi (113, c.II, 421). Şərəfxan Bidlisi h.988-ci (1580-) ildə Azərbaycan bəylərbəyi Əmir xan Mosullunun Səfəvi qoşunlarının baş komandanı təyin olunması barədə ətraflı məlumat vermişdir (114, c.II, 260). 1693-1694-cü illərdə Səfəvilər ölkəsinə səyahətə gələn C.Kareri də Azərbaycan əmir əl-ümərasının sipəhsalar olduğunu göstərərək yazır ki, Səfəvi qoşunun baş komandanı Azərbaycan vilayətinin hakimidir. Onun həmin vəzifəni öz naibinə (naibi əl-hökumə) tapşırmağa da ixtiyarı vardı (89, 26).

Mənbələrdən aydın olur ki, XVI-XVII yüzilliklərdə Azərbaycan Səfəvilərin birinci dərəcəli bəylərbəyiliyi olub, Azərbaycan bəylərbəyiləri bütün sərhəd bəylərbəyiliklərin təhlükəsizliyini təmin etməli idi. Azərbaycan bəylərbəyinə geniş hərbi hüquqlar verilməsi Azərbaycanın hərbi-strateji, ictimai-siyasi və iqtisadi baxımdan Səfəvilər dövlətinin mərkəzi, dayaq məntəqəsi və metropoliyası olmasından irəli gəlirdi. Səfəvilər dövlətinin siyasi qüdrəti sərhəd

bəylərbəyiliklərinin və xüsusilə də Azərbaycanın hərbi imkanlarından çox asılı idi.

Bir sıra Şərq və Avropa ölkələrindən Səfəvi dövlətinə gələn ticarət karvanları, səfirliklər sərhəd bəylərbəyiliklərinin ərazisindən keçirdilər. Buna görə də sərhəd bəylərbəyiliklərinə əyalətin xarici müdaxilədən qorunması və s. ilə yanaşı, xaricdən gələn ticarət karvanları və səfirliklərin təhlükəsizliyinin təşkil olunması sahəsində də geniş ixtiyarlar verilmişdi. Məsələn, 1618-ci ildə Şah sarayına göndərilmiş rus elçisi M.M.Baryantinski yazır: «Yusif xanla söhbət zamanı bildirdi ki, sizin böyük hökmdarın ticarət adamları bizim Şah Abbasın vilayətlərinə gələrkən birinci olaraq Şamaxıya daxil olurlar. Sizin ticarət adamlarınızı da Şahınkı kimi qoruyuram. Bütün təbələrimə əmr edirəm ki, ticarət adamlarınızı incitməsinlər» (192, 216).

1561-ci ildə Səfəvi dövlətinə gəlmiş Moskva ticarət kompaniyasının nümayəndəsi ingilis A.Cenkinson 1563-cü ildə geri qayıdarkən Şirvan bəylərbəyi Abdulla xan onunla bərabər bəzi işlərdən ötrü rus padşahı İvan Vasilyeviç Qroznının hüzuruna elçi göndərmişdi (192, 119). O cümlədən 1634-cü ildə İrəvan bəylərbəyi Təhmasib xanın Osmanlı Sultanının hücum istiqamətini öyrənmək üçün Əmircan adlı bir nəfəri Osmanlı ölkəsinə göndərməsi, yaxud həmin ildə İrəvana gələn yunan taciri ilə yenə həmin mövzuda söhbət aparması (206, 109-110) sərhəd bəylərbəyilərin həmsərhəd ölkələrlə iqtisadi və hərbi-siyasi mövzularda diplomatik danışıqlar aparmaqda və əlaqələr saxlamaqda geniş hüquqlara malik oduqlarını təsdiq edir.

Vilayət daxilində bəylərbəyilərə geniş maliyyə hüquqları da verilmişdi. Ancaq bəylərbəyilərin maliyyə məsələlərində hüquqları müxtəlif dövrlərdə azalıb-artmış və bütün vilayətlərdə eyni olmamışdır. Vilayətlərdən alınan dövlət vergiləri bir qayda olaraq divan dəftərində qeydə alınırdı. Ancaq bəzi hallarda vilayət vergiləri divan dəftərində qeyd olunmur və şah bəylərbəyiyə vergiləri toplamaqda tam sərbəstlik də verirdi. Qazi Əhməd Quminin yazdığına görə h.953 (1546) -cü ildə Şirvan bəylərbəyi Əlqas Mirzə şaha yüz tümən verməyi öhdəsinə götürmüşdür ki, bu da Şahlıq

qızılı (zəri şahlıq) adlanırdı. H.954 (1547)-ci ildə Şah divan dəftərindən bu pulu sildirib həmin vilayətin yoxsullarına bağışlayır. Həmin ildə Şah Şirvanın bütün vergilərini (darai-ye təmam an vilayət-ra) Əlqas Mirzəni əvəz edən İsmayıl Mirzəyə verir (121, Bn.v.158b). Yəni Şahlıq qızılı da daxil olmaqla divan dəftərində qeydə alınan vergilərin hamısı onun nəzarəti altında yığılmalı idi.

Göstərmək lazımdır ki, vilayətlərdən vergilər Səfəvilər hakimiyyətinin ilk illərində Uzun Həsən «Qanunnaməsi» əsasında toplanırdı. H.963-cü (1555-56) ildən isə Sədr Mir Zeynəddin sədrlik işinə başlarkən məmləkətin idarə olunması və vergilərin toplanılması, miqdarı və qaydası haqqında «Dəstur-ül-əməl» tərtib etmişdi. Artıq 1556-cı ildən vergilər ölkə miqyasında qeyd olunan bu təlimat əsasında alınırdı.

I Şah Təhmasib və I Şah Abbasın dövründə vilayətlərdə maliyyə məsələləri ilə məşğul olan vəzirlərin də hüquqları genişləndirilmişdi. Lakin bu vəzirlər yenə də bəylərbəyinin yaxın qohumlarından olmaqla, onun məsləhəti ilə işə qəbul olunur və işdən götürülürdü. Məsələn, 1693-1694-cü il hadisələri barədə məlumat verən C.Kareri yazır ki, Azərbaycan vəziri Mirzə İbrahim buranın bəylərbəyi Mirzə Tahirin atası idi (89, 34-35).

Dövlətin bəylərbəyilərin hüquqlarını məhdudlaşdırmağa cəhd etməsinə baxmayaraq onlar vilayət daxilində maliyyə məsələləri ilə əslində sərbəst məşğul olurdular. Belə ki, əhalinin siyahıya alınması, vergilərin toplanması və digər işlərdə hətta I Şah Abbasın islahatlarından sonra da onların səlahiyyəti faktiki olaraq əvvəllərdə olduğu kimi qalırdı.

K.Zəkəriyyənin əsərində bu barədə ətraflı məlumat verilir. O yazır ki, Çuxur-Səd bəylərbəyi Əmirgunə xan Qacar (1605-1625) Aslan ağa adlı bir nəfəri amil təyin etmişdi. Vergi toplamaq üzrə məsul məmur olan amil xanın göstərişi ilə kişiləri siyahıya almalı və əmlaklarının həcmini müəyyənləşdirməli idi. Şahqulu bəyi isə vergi üzrə nəzarətçi və hesabdar təyin etmişdi (206, 87-89).

E.Kempfer isə yazır ki, xanın hökmdar olduğu ərazilərdən əldə edilən gəlir onun şəxsi malı kimidir və onun özünün ixtiyarındadır. Xan Şahın müəyyən sayda qoşununu öz məntəqəsində saxla-

malı və ya onun hökmranlıq etdiyi ərazidən kənarda olan əsgərlərin xərcini verməlidir. Eyni zamanda, hökmranlıq etdiyi ərazi kiçikdirsə oranın məhsullarının müəyyən miqdarını Şahın aşbazxanasına göndərməlidir. Lakin ərazisi genişdirsə bir ay ərzində qoyun, göyərti, meyvə ehtiyatı toplayır və ona növbə çatanda saraya göndərir. Bundan əlavə, yeni ilin birinci günü o, Şaha peşkəş də göndərməyə borclu idi. Peşkəşin miqdarı qabaqcadan müəyyən olunurdu. Peşkəşin bir hissəsi nəqd pul, digər hissəsi isə xalça, xalı, pərdə, çini qablar, ipək, pambıq, yun, at, dəvə, qatır, quş, qulam formasında göndərilirdi. Şah bunun müqaibilində xana mehribanlıq əlaməti olaraq 12 tümən miqdarında xalat verirdi (96, 160; 104, 586).

Göründüyü kimi, vilayətin maliyyə məsələlərində bəylərbəyi sərbəst olsa da, Şaha, baş vəzirə peşkəşlər göndərməli, saray xərclərinin müəyyən hissəsini ödəməli, qoşunun bir qismini təmin etməli idi. Ancaq bunun müqabilində XVII yüzilliyin 80-ci illərində Engelbert Kempferin və Tavernyenin yazdıqlarına görə xanın özünün şəxsi gəliri 7-8 min tümından az olmurdu (96, 161; 104, 585).

Dövrün Avropa ədəbiyyatı ilə müqayisədə «Təzkirət əl-müluk» da vilayət bəylərbəyi, mahal və ölkə hakimlərinin illik gəliri haqqında aşağıdakı ətraflı məlumatlar verilmişdir (132, 82-86):

Vilayət hakimlərinin illik gəliri haqqında

| | ümən | Dinar |
|---|---|---|
| **Azərbaycan bəylərbəyi və ona tabe olanlar** | 34234 | 4906,5 |
| Mədaxil | 2337 | 8317 |
| Astara hakimi | 5052 | 5357 |
| Marağa və Müqəddəm eli hakimi | 3729 | 7450 |
| Əfşar eli ölkəsi hakimi | 7390 | 3747 |
| Qaracadağ hakimi | 828 | 4200 |
| Çors hakimi | 1168 | 9640 |
| Kavərd hakimi | 257 | 7050 |
| Qapanat hakimi | 822 | 5560 |

| | | |
|---|---|---|
| Vərgəhan hakimi | 195 | 9500 |
| Gərmərud hakimi | 136 | 890 |
| Adərba eli hakimi | 310 | 2550 |
| Həştrud və Tabtaba hakimi | 119 | 6532 |
| Mədək hakimi | 729 | 3709 |
| Lahican hakimi | 874 | 5390 |
| Dünbülü eli hakimi | 319 | 9096 |
| Ucarud hakimi | 510 | 2095 |
| Abdallı hakimi | 87 | 5723 |
| Sərab hakimi | 845 | 1706 |
| Şəqaqi eli hakimi | 326 | 2022 |
| Zünuz və Qarnıyaq qalası hakimi | 455 | 5280 |
| Meşkin hakimi | 136 | 9856 |
| Muğanın əkin yerləri (çaylar) ölkəsi hakimi | 2202 | 2222 |
| Peşək qalası hakimi | 57 | 5090 |
| Salmas Lək sultanlığı hakimi | 349 | 3748 |
| Qaraağac hakimi (Talışda) | 216 | 8352 |
| İnallı Şahsəvən hakimi | 1130 | 980 |
| Sultaniyyə və Zəncan hakimi | 1660 | 2059 |
| **Çuxur-Səd bəylərbəyi və ona tabe olanlar** | 25910 | 6326 |
| Bəylərbəyi | 20539 | - |
| Naxçıvan tüməni hakimi | 3461 | 4346 |
| Maku hakimi | 580 | 2888 |
| Zəruzbil hakimi | 438 | 4675 |
| Sədərək hakimi | 65 | 4358 |
| Bayəzid qalası hakimi | 306 | 3487 |
| Şadili hakimi | 20 | - |
| Dünbülü eli hakimi | 10 | - |
| Mağazberd hakimi | 115 | 6572 |
| **Qarabağ bəylərbəyi və ona tabe olanlar** | 24726 | 978 |
| Bəylərbəyi | 28614 | 9435 |
| Zəyəm hakimi | 5998 | 5980 |
| Bərdə hakimi | 3792 | 2735 |
| Axınabad (?) hakimi | 852 | 5930 |

| | | |
|---|---|---|
| Cavanşir hakimi | 2102 | 8000 |
| Bərgüşad hakimi | 341 | 2750 |
| Qaraağac hakimi | 636 | 5434 |
| Lori və Pəmbək hakimi | 1545 | 8434 |
| Arasbar və Bayəzidli eli ölkəsi hakimi | 601 | 8345 |
| Suma ölkəsi və Tərkəvər | 300 | 2945 |
| **Şirvan bəylərbəyi və ona tabe olanlar** | | |
| Bəylərbəyi | 21983 | 9033 |
| Salyan | 3342 | 3845 |
| Quba | 7700 | - |
| Ərəş və Şəki hakimi | 8476 | 2465 |
| Dərbənd hakimi | 6487 | 3955 |
| Alpout hakimi | 8084 | 4727 |
| Badkubə (Bakı) hakimi | 500 | - |
| Çəmişkəzək və Ağdaş hakimi | 1002 | 6195 |
| **Xorasan-Herat bəylərbəyi və ona tabe olanlar** | | |
| Herat bəylərbəyi | 15277 | 6034 |
| Marucağ hakimi | 3267 | 5531 |
| Fərah hakimi | 4989 | 6873 |
| Xaf hakimi | 1434 | 2624 |
| Cam hakimi | 1682 | 220 |
| Bala-Mürğab hakimi | 883 | 3466 |
| Pəncdeh hakimi | 958 | 4673 |
| Badqis hakimi | 109 | 6151 |
| Kərəc hakimi | 442 | 3737 |
| Rudmi hakimi | 450 | 7091 |
| Qur hakimi | 103 | 1600 |
| Tun hakimi | 1290 | 3100 |
| **Məşhəd-i müqəddəs bəylərbəyi və ona tabe olanlar** | | |
| Bəylərbəyi | 7443 | 9195 |
| Sərəxs hakimi | 2099 | 3024 |
| Nişapur hakimi | 2170 | 8600 |
| Turşiz hakimi | 994 | 2972 |

| | | |
|---|---|---|
| Abiverd hakimi | 3588 | 7828 |
| Azadvar hakimi | 139 | 3533 |
| Nəsa hakimi | 2812 | 337 |
| Səbzəvar hakimi və ümumi Xorasan vəziri | 1302 | 1151 |
| Əsfərayin hakimi | 918 | 7208 |
| Horuz vəYesaku hakimi | 216 | 7353 |
| Dərun hakimi | 2923 | 3329 |
| Türbət hakimi | 379 | 4701 |
| Bəzavendək hakimi | 117 | 1287 |
| **Qəndəhar bəylərbəyi və ona tabe olanlar** | | |
| Bəylərbəyi | - | - |
| Zəmindavər və Quryan hakimi | 2015 | 306 |
| Kuşək hakimi | 1847 | 8920 |
| Kəri, Lükə, Badqis, Teymuri, Əli Xacə, Mir Arif, Bəluc elləri hakimi | 30 | |
| **Mərv və s.bəylərbəyi** | | |
| Mərv bəylərbəyi | 7193 | 6140 |
| Sistan hakimi | 1291 | 4980 |
| **Astarabad bəylərbəyi və ona tabe olanlar** | | |
| Bəylərbəyi | 10553 | 4860 |
| Gəraylı ölkəsi hakimi | 1406 | 145 |
| Hacılar hakimi | 659 | - |
| Cəlayir hakimi | 72 | 7000 |
| Qaraçöp və Səhra üzü bölüyü hakimi | 200 | - |
| Göklən və s. hakimi | - | - |
| Yomut hakimi | - | - |
| **Darolmərz (Gilan) və s.** | - | - |
| Kəskər hakimi | 5052 | 5354 |
| Kəhdom hakimi | 1207 | 4943 |
| Ranku hakimi | 3903 | 6947 |
| Tünükabun hakimi | 2142 | 5040 |
| **Kirman** | - | - |
| **İraq** | - | - |
| **Qələmrov bəylərbəyi və ona tabe olanlar** | - | |

| | | |
|---|---|---|
| Qələmrov bəylərbəyi | 7779 | 9755 |
| Kərus, Zərrinkəmər ölkəsi və Tığanmin (?) hakimi | 973 | 9917 |
| Həştadcüft ölkəsi hakimi | 227 | 4740 |
| Hersin hakimi | 328 | 399 -dən bir az artıq |
| Sayir müstəqil (tabe olmayan) əmirlər | - | - |
| Kəlhor hakimi | 3271 | 4000 |
| Xar və Simnan hakimi | 2180 | 2015 |
| Savə və Havə hakimi | 1309 | 2093 |
| Rey ölkəsi hakimi | 1862 | 7550 |
| **Kürdüstan və s.** | | |
| Bəylərbəyi | - | - |
| Xorxor hakimi | 362 | 7000 |
| Cavanrud hakimi | 1100 | - |
| Urman hakimi | 1100 | - |
| - hakimi | 2300 | - |
| **Luristan-i feyli** | - | - |
| Bəxtiyari | 3370 | 3320 |
| Bane ölkəsi hakimi | Məbləğ göstərilməyib | |
| **Fars (Kuhgiluyə) bəylərbəyi və ona tabe olanlar** | - | - |
| Bəylərbəyi | 12000 | - |
| - hakim (?) | 6747 | 7562 |
| Bəhreyn hakimi | 3839 | - |
| Zeydabad hakimi | 1833 | 5313 |
| Sərvistan hakimi | 1343 | 5002 |
| Duruğ hakimi | 5877 | 7450 |
| **Mübarək Bəndər Abbası və s. hakimi** | | |
| Bəndər hakimi | 4860 | - |
| Dəştistan hakimi | 2000 | - |
| **Ərəbistan valisi** | - | - |

| | | |
|---|---|---|
| Simirum hakimi | 1045 | 6108 |

Bəylərbəyilər bir qayda olaraq hərbi xərcləri vilayət ərazisindəki dövlət əmlakı hesabına ödəyirdilər. Bastani Parizi bununla əlaqədar olaraq yazır ki, vilayətdə olan dövlət əmlakı yerli hakimlərin ixtiyarında olub, onlar bu əmlakı ya öz qulluqçularının tiyuluna həvalə edir və ya onlardan əldə edilən gəliri toplayıb öz idarə xərclərini, xüsusilə vilayətdə olan qoşunun xərcini ödəyirdilər (89, 69).

Vilayət ərazisində Şah tərəfindən fərmanla verilən tiyul və soyurqalların, vəqf əmlakının maliyyə işlərinə bəylərbəyi birbaşa qarışa bilməzdi. H.947 (1540-41)-ci ildə Salyan və Mahmudabad Qazi xan Təkəliyə tiyul verilmiş və bu zaman hər iki mahal inzibati ərazi bölgüsünə görə Şirvanın tərkibində idi. Qazi xan Təkəli həm də həmin mahalların hakimi təyin edildiyindən tiyulun maliyyə işləri də elə ona tapşırılmışdı. Tiyulun maliyyə işlərində onun müstəqilliyinə baxmayaraq, Salyan və Mahmudabad Şirvana daxil olduğuna görə o, Şirvan hakimi Əlqas Mirzəyə tabe idi. Vilayət daxilindəki soyurqalların sahibləri isə tiyuldardan fərqli olaraq daha geniş hüquqlara malik olurdular. Məsələn, 1647-ci il fərmanı ilə II Şah Abbas Arandakı gəliri 45350 dinar olan Xaçın mahalını qorçubaşı Göycə bəyə soryurqal verərək göstərir ki, həmin əyalətin kətxuda və rəiyyəti vücuhat və malcəhəti ona versinlər və hakim, darğa onun işlərinə qarışmasınlar (121, Bn.v.294b; 187, c.1,h.II, 385). Vilayət daxilində mahal tiyul və ya soyurqal şəklində kiçik hakimə verildikdə belə burada xüsusi qayda hökm sürürdü.

Mahallarda torpaq və vergi işləri ilə əlaqədar mübahisəli məsələləri Şahın göstərişi ilə bəylərbəyi həll edirdi. Məsələn, Şəki haqqında I Şah Səfinin 1633-cü il oktyabr tarixli fərmanından aydın olur ki, Şəki hakimi Aslan Sultan rəiyyətin torpağını tutub, özü əkdirdiyinə və eyni zamanda onlardan malcəhət də aldığına görə onlar Şaha şikayət etmişlər. Şahın göstərişi ilə Şirvan bəylərbəyinin vəkilləri bu işi yoxlamalı, şikayət düz olarsa, rəiyyətin torpaqları geri qaytarılmalı və onlardan ancaq malcəhət alınmalı idi. 1650-ci ildə Şah tərəfindən verilən fərmanda isə Qax, Şeşpara, Qaraca sakinləri vergi vermədiyinə görə, Şirvan bəylərbəyi Xosrov xandan

Şəki hakimi Səfiquluya vergini toplamaqda kömək etmək tələb olunurdu (46, 66-67; 164, 11). Bu fərmanlar mahal hakimlərinin iqtisadi baxımdan bilavasitə bəylərbəyiyə tabe olduqlarını təsdiq edir.

Vilayətlərə təyin olunan bəylərbəyilərə Şah tərəfindən tiyul da verilirdi. Həmin tiyulun maliyyə işləri ilə bilavasitə bəylərbəyi özü məşğul olurdu. Lakin onlar vəzifədən azad edildikdə tiyul əllərindən alınırdı. Sanson bu barədə yazır ki, bütün məmləkətin torpağı Şaha məxsusdur. Ancaq torpaq və əmlak əmirlər və ölkənin yüksək rütbəli şəxsiyyətlərinin ixtiyarındadır. Onlara bunu Şah bağışlamışdır. İstədiyi vaxt həmin torpaq və əmlakı onların əlindən ala da bilər (106, 133). Sansonun bu qeydindən məlum olur ki, bir halda ki, hərbi xidmət müqaibilində verilən torpaqları Şah istədiyi vaxt geri ala bilir, deməli, Səfəvilər dövründə irsən verilən tiyul üzərində də tiyuldarın sahibkarlıq hüququ faktiki olaraq formal xarakter daşıyırdı.

Vilayətin xarici hücumlardan qorunması, burada sakitliyin gözlənilməsi bilavasitə bəylərbəyinin xidməti fəaliyyəti və bacarığından asılı olduğuna görə, onların maliyyə işlərində hüquqlarına ciddi şəkildə toxunulmurdu. Bəylərbəyi vilayətdə dünyəvi və şəri idarələrinə başçılıq və nəzarət edirdi. E.Kempfer yazır ki, xan özünün idarə etdiyi vilayətdə ən yüksək hüquqi bir şəxsiyyətdir. Çox nadir hallarda onun çıxardığı qərar və hökm dəyişdirilir (96, 159).

Vilayətlərdə ürfi və şəri hüquqa aid məsələlərin həllində hakim böyük rola malik olub, ruhanilərin ixtiyarında olan şəri hüquqi məsələlərin həllində də özü şəxsən iştirak edirdi. Bu halda şəri məsələlər ya hakimin hüzurunda həll olunur və ya məsələ şəri məhkəmədə müzakirə olunduqdan sonra hakim o məsələyə baxıb qərarını bildirirdi. Bir sözlə, vilayətdə işləyən dini məhkəmə işçiləri vilayət hakimindən asılı olub, şəri məsələlər barədə qərar çıxararkən onunla razılaşırdılar. Ümumiyyətlə, hakim bütün şəri mübahisəli məsələlərə şəxsən qarışırdı. Ancaq şəri məhkəmədə xırda məsələlərə baxıldıqda, o, bura darğanı öz tərəfindən nümayəndə göndərirdi. Darğa məhkəmədə hakimi icra məmuru kimi təmsil edirdi.

Vilayətlərdə ürfi hüquqa (cinayət) aid olan məsələlərin həllinə də bəylərbəyi səlahiyyətli şəxs kimi qarışırdı. Sanson yazır ki, vilayətləri idarə edən xanlar burada həm də cinayət məhkəməsinin sədri hesab olunurdu. Xanın məhkəməsində çıxarılan hökmə ancaq divanbəyi məhkəməsində yenidən baxıla və dəyişdirilə bilərdi (106, 210). Xacəki İsfahanının qeydləri bunu bir daha təsdiq edir. O yazır ki, Qarabağ vilayətində «ehdase ərbəə» (ürfi hüquqa aid dörd cinayət işi - gözü kor etmə, adam öldürmə, namusa təcavüz, diş sındırma) işlərini Şah Təhmasib oranın bəylərbəyi Şahverdi Sultan Ziyad oğluna tapşırmışdı (126, 125).

Bəylərbəyi hakimi olduğu vilayətin ərazisindən keçən karvan yollarının qorunmasına da nəzarət edir və bu sahədə dövlət qarşısında çox ciddi məsuliyyət daşıyırdı. Qazi Əhməd Qumi yazırdı ki, I Şah İsmayılın hakimiyyəti illərindən 1578-ci ilə qədər və I Şah Abbasın dövründə vilayətlərin ərazisindən keçən yollar ciddi qorunduğuna görə tacirlər, səyyahlar rahat, əziyyətsiz, təhlükəsiz səfərə çıxardılar (121, Bn.v.260a).

Lakin Sultan Məhəmmədin hakimiyyəti dövründə (1578-1587) yollar olduqca qorxulu və təhlükəli olmuşdu. Yollarda tez-tez ticarət karvanları soyulurdu. Yalnız I Şah Abbasın islahatı nəticəsində yolların təhlükəsizliyi yenidən təmin olundu. Şahın əmri ilə yollarda oğurlanmış mallar müəyyən olunmuş vaxt ərzində tapılıb sahibinə çatdırılmalı idi. Bu məsələdə məsuliyyət daşıyan bəylərbəyi oğurlanmış malı vaxtında tapmadıqda, onun dəyərini sahibinə özü ödəməli idi. Artıq vilayətdə oğurluqla əlaqədar cinayət məsələləri ilə bəylərbəyi şəxsən özü məşğul olurdu. XVII yüzilliyin ortalarında dövlətin xarici aləmlə qarşılıqlı iqtisadi əlaqələri daha da genişləndiyinə görə, Tavernyenin şəxsi müşahidələri əsasında yazdığı kimi, vilayətlərin ərazisindən keçən karvan yollarının təhlükəsizlik tədbirləri gücləndirilmiş, yolboyu müəyyən məsafələrdə qarovulçu məntəqələri yaradılmışdı. Bu qarovulçular ayıq-sayıq adamlar olub, oğurluğa imkan vermir və şübhəli şəxslərlə rastlaşdıqda onları tutur vilayətin hakiminin yanına aparır və sorğu-sualla kimlikləri dərhal aydınlaşdırılırdı (104, 608, 609). Cemelli Karerinin yazdığına görə, XVII yüzilliyin 90-cı illərində karvan yollarında yolçu

çox olduğu üçün yolkəsənlərə, oğurlara az təsadüf edilirdi. Ancaq hər hansı vilayətin ərazisindən keçən karvan yolunda oğurluq hadisəsi baş verdikdə, həmin yerin xanı qırx gün ərzində oğrunu tapmalı və zərər çəkənin malını qaytarmalı idi. Oğru tapılmadıqda xan zərəri öz şəxsi əmlakı hesabına ödəyirdi. Ona görə ki, xanlar onların ərazisində baş vermiş belə hadisənin Şaha çatmasından ehtiyat edirdilər. Elə buna görə də, çox vaxt oğurlanmış malın dəyərini bəribaşdan zərər çəkənə ödədikdən sonra təhqiqata başlayırdılar (89, 138). Yollarda oğurluq hadisəsi baş verdikdə tacirə dəyən zərərin miqdarı onun andı və xüsusi qeyd dəftəri əsasında müəyyən edilirdi (104, 610). Xanlar Şardenin yazdığı kimi, hakimlik etdikləri vilayətlərdə kiçik padşahlar olub, onların da Şah kimi, sarayı və mühasibat divanı vardı. Ancaq onların arasındakı fərq xanın eli və gəlirinin Şahın idarə etdiyi ölkənin əhalisindən və gəlirindən çox az olmasında idi (112, c.III, 1167). Vilayətdə xandan sonra başqa hakimlər də vardı ki, onlar xana tabe idilər. Onlar vilayət tərkibindəki mahalların hakimi olub, vəzifəyə Şah tərəfindən təyin edilir və yalnız Şahın əmri ilə vəzifədən azad olunurdular. Bu hakimlər silkinə sultan deyirlər. Onlar işlərində nöqsana yol versələr və bu dövlət, hökumət işi ilə bağlı olsa, xan dərhal Şaha hesabat verir və hadisə barədə Şahın əmrini gözləyirdi. Və əgər təqsir intizamla əlaqədar olsa, xan özü bu məsələni həll edib onları yerində otuzdurur. Bir qism üçüncü dərəcəli hakimlər də vardır ki, onları Asəf (ağıllı müşavir) adlanırlar. Onlar vilayətlərdə padşahın naibləridirlər. Vilayət hakimlərinin də qulluqçuları, məmurları vardı. Xanların sarayı təxminən Şah sarayı böyüklüyündə olub, əyalətlərin gəliri əsasən yerlərdəki məmurlara sərf edilir, yalnız müəyyən miqdarı saraya göndərilirdi. Elə buna görə də, Şah vilayətlərdəki artıq xərclərə qənaət edərək bu hesaba dövlət mədaxilini artırmaq üçün vilayətlərin bəzisində xanlıq məqamını ləğv edib, onların yerinə «Asəf» təyin etdi. Şah Abbasın nəvəsi Şah Səfi birinci şəxs idi ki, bu fikrə düşmüşdü. O, öz xəzinəsini doldurmaq üçün bəzi xanlıqları vəqf əmlakı etmişdi. Bu işə xanları içərisində ən qüdrətlisi olan Fars vilayətinin hakimi İmamqulu xandan başlamışdı (104, 586). I Şah Abbas, xüsusilə I Şah Səfi dövründə həyata keçirilən aqrar siyasət

əsnasında ayrı-ayrı şəhərlər, mahallar, hətta Xorasan kimi bütöv vilayətlər xassə əmlakına çevrilmişdi. Yeni aqrar siyasətlə Səfəvi Şahları xəzinənin gəlir qaynağını artırmaq məqsədini güdürdülər ki, bu kiçik bir zaman kəsiyində uğur gətirsə də, çox keçmədi ki, dövlətçiliyin də böhranına səbəb oldu.

Vilayət daxilində olan mahallar ulka verildikdə, ulka hakimi bəylərbəyiyə tabe olduğu halda, xassə əmlakı olan mahalların başçıları, yəni darğa, vəzir birbaşa Şaha tabe olub, vilayət bəylərbəyi ilə hesabşalmırdılar. Bəylərbəyi yalnız vilayət ərazisində tiyul, soyurqal verilmiş yerlərə nəzarət edirdi.

Yarımköçəri tayfalara dolanışıq üçün irsən bəxş olunmuş torpaqlar faktiki olaraq onların irsi başçılarının (mir-i el) hakimiyyəti altında olurdu. Belə torpaqlar bir qayda olaraq yaylaq və qışlaqlarla yanaşı, əkin yeri, bağ, üzüm sahələrindən, yəni oturaq əkinçilərin də yaşadıqları mahallardan ibarət idi. Ancaq tayfalara verilən bu torpaqlar, şəxsən tayfa əmirlərinə verilən tiyul və soyurqallardan əlbəttə ki, fərqləndirilməlidir (181, 81). Tayfa başçısı (mir-i el) yalnız öz tayfalarını idarə etmirdi və o çox hallarda Şah tərəfindən onlara dolanışıq üçün verilmiş mahalın irsi sahibkarı olurdu. Şahın tayfa başçısına dolanışıq üçün bəxş etdiyi torpaqlar yurt (monq), ocaqlıq (türk), ca – o – məqam (fars-ərəb) adlanırdı. Tayfa başçılarına dolanışıq və idarə üçün torpaq bəxş etdikdə, onlar bunun müqabilində lazım olanda Şahın xidmətinə müəyyən sayda qoşun göndərməli idilər. Yarımköçəri tayfaların «yurtlarına» rəiyyətin torpaqlarından başqa, dağlarda (yaylaq) və düzənlərdə (qışlaq) onlara verilən örüşlər də daxil idi. Bu torpaqlar formal olaraq tayfalara verilsə də, faktiki olaraq tayfa başçılarının sərəncamında idi. Ancaq əmirlər həmin torpağı sata, yaxud öz şəxsi mülkiyyətlərinə çevirə bilməzdilər (188, 256). Şah tərəfindən şəxsən əmirə, yaxud tayfaya müəyyən məqsəd və xüsusi şərtlərlə bəxş olunan ərazi türk dilindəki «ulka» termini ilə ifadə olunur və Azərbaycan türkcəsində isə «ölkə» kimi tələffüz edilir. Səfəvilər dövründə ulka ümumi termin olmaqla müxtəlif şərtlə müvəqqəti (xidmət dövründə), yaxud ömürlük verilən tiyulu, irsi sahibkarlıq və tam vergi immuniteti (maaf) hüquqi ilə verilən soryurqalı, nəhayət,

vergi immuniteti olmadan idarə üçün verilən ərazini göstərir. Axırıncı halda ulka sahibi hakim - yerli hökumət adlanır. Dolanışıq və idarə üçün müəyyən əmirə tayfa başçısı kimi verilən ərazi də ulka adlanırdı. O bu halda otlaqları tayfa əsilzadələri arasında bölməkdə tam sərbəst olurdu. Eyni zamanda tayfa əmirinin ailəsi ulkanın irsi sahibi olurdu. Ancaq burada irsiliyin bir xətlə davam etməsi o qədər də vacib deyildi. Lakin Şah tərəfindən onların bu hüququ fərmanla təsdiq olunmalı idi (181, 102-103). Belə tiyullarda tiyuldar vergi yığmaqda sərbəst olub, ölüm cəzası istisna olmaqla onların rəiyyət üzərində çox geniş ağalıq hüquqları vardı. Hətta bu cür tiyullar Şahın müvafiq xidmətçilərinin nəzarətindən getdikcə uzaqlaşır, onlar tiyullara öz şəxsi əmlakları kimi baxırdılar. Bu dövrdə «yurt», «ocaqlıq», «ölkə» tiyuldan faktiki olaraq fərqlənmirdi. Əslində tiyul kimi, ölkə də xidmət müqabilində verilirdi. XVII yüzillikdə divan ərazisi hesabına tiyulların sayı artır və əraziləri də getdikcə genişlənirdi. Ancaq ölkənin verilməsi şərtindən asılı olmayaraq onlar divan ərazisi hesab olunurdular. Mənbələrdəki materialları nəzərdən keçirdikdə aydın olur ki, ulka ayrı-ayrı əmirlərə, müvəqqəti, yaxud daimi olaraq onun məişət və güzəranı, dolanışığı üçün, həm də dövlətə işləyib, az miqdarda qoşun saxlaması şərtilə verilirdi.

"Zeyl-i tarix-i alamaray-i Abbasi" də qeyd edilir ki, Marağa I Şah Abbas tərəfindən Müqəddəm obasına iqta hüququ ilə verilmiş və bu oymağın əsgəri xidmətdə bacarıqları, müharibədəki igidlikləri nəzərə alınaraq çobanbəyi və digər divan vergilərindən azad edilmişdilər. Burada iqta əslində dolanışıq və idarə statusu ilə bəxş edilən ulka mənasını ifadə edir. Mənbənin verdiyi məlumatlardan da aydın olur ki , Ağa xan XVI əsrin əvvəllərində Müqəddəm obasının əmiri olmaqla bərabər Marağanın da hakimi idi. Ağa xan vəfat etdikdə Marağa hakimliyi böyük oğlu Qazi sultana verildi və o, Ağa xan sani adlandırıldı(81, 282). Faruk Sümər bir çox Türk elləri, obaları kimi Müqəddəm oymağının da Şərqi Anadoludan Ərzurum-Pasin arasından köç edib Marağada yerləşdiyini yazır (67, 154). Ancaq dövrün bir çox mənbələrində o cümlədən "Zeyl-i tarix-i alamaray-i Abbasi"də də Müqəddimin Qarabağ vilayətindəki

otuziki elinin obası olduğu və Qarabağdan Marağaya köçdükləri qeyd edilir (81, 282). Məsələyə tarixi gerçəklikdən yanaşdıqda görürük ki, XVI-XVII əsrlərdə Xəzərlə Kayseri , Sivas arasında məskun olan Türkmən el və obalarının bu doğma yurd yerlərində bir bölgədən başqasına miqrasiyası təbii və qeyri-təbii hadisələrlə bağlı olmuş, Batıdan Doğuya və Doğudan da Batıya köçlər olmuşdur.

Səfəvilər dövründə ayrı-ayrı vilayətlərin tərkibindəki bəzi mahallar kimi müqəddəs ocaq olan Ərdəbil xüsusi statusa malik olub, ərazi baxımından Azərbaycan vilayətinə daxil olsa da, oranın bəylərbəyiliyinə tabe deyildi. Ərdəbil mahalının hakimi Şeyx Səfi məzarı vəqfinin qəyyumu olmaqla İsfahan sarayı tərəfindən təyin olunur və birbaşa ora tabe olurdu (194, 89). Bu deyilənlərə onu da əlavə etmək lazımdır ki, Şeyx Səfi məqbərəsinə görə Ərdəbil vəqf olsa da, bəzən bura xassə əmlakı tərkibinə daxil edilmiş, oraya hakim deyil, mütəvəlli ilə yanaşı, vəzir-i xassə və darğa da təyin edilmişdi. Mənbələrdə mütəvəllinin həmin şəhər və onun ətraf bölgələrinin vəziri olması hallarına da təsadüf edilir. Ərdəbil vəqfləri də şəriət ehkamları əsasında tərtib olunmuş vəqfnamə əsasında Şahın təyin etdiyi mütəvəlli adlı məmur tərəfindən idarə olunurdu. Məqbərədə mütəvəllinin başçılığı altında mükəmməl idarə orqanı fəaliyyət göstərirdi. Burada vəqf əmlakı hesabına maliyyələşdirilən xidmətçilər işləyir və gündəlik nəzirləri qeydiyyata alan müşriflər isə mütəvəllinin nəzarəti altında çalışan maliyyə orqanının məmurları idilər. Məzarın idarə aparatında onun təsərrüfatını idarə edən başqa məmurlar, din xadimləri, gözətçilər, aşbazlar da fəaliyyət göstərirdilər. Ərdəbil xassə olduğu vaxtlar bura əsasən şahzadələr hakim təyin olunurdu. Məsələn, Sam Mirzə 12 ildən artıq Ərdəbil hakimi olmuşdur (121, Bn.v.240b). Bəzən isə Sərab ilə Ərdəbilə bir nəfər hökmranlıq edirdi. Məsələn, İsgəndər bəy Münşi H.1037-ci (1616-1617) il hadisələrindən danışarkən Şikari Sultanın Ərdəbil və Sərab hakimi olduğunu yazmışdır (80, 1085). "Zeyl-i tarix-i alamara-yi Abbasi"də isə h.1048-ci ildə darülirşad Ərdəbilin hakimi Kəlbəli xanın vəfatı və Zülqədər elinin Söklən obasından Nəzərəli bəyin bura hakim təyin edildiyi göstərilir. (81, 228) Şah Təhmasibin

hakimiyyətinin ilk illərində Məsum bəy Səfəvi ibn Xacə Əhməd ibn Xacə Məhəmməd ibn Sultan Şeyx Cüneyd neçə il Ərdəbilin mütəvəllisi olmuşdur (121, Bn.v.173a). Mirzə Məhəmməd Kirmani də Şah Təhmasib dövründə bir müddət Ərdəbil dar ül-irşadının mütəvəllisi vəzifəsində işləmişdir (121, Bn.v.300b). Sultan Məhəmməd hakimiyyətə keçdikdə Ərdəbil mütəvəllisi Əmir Əbdülvəli İncu idi. O, h.987-ci (1579-80) ildə tutduğu vəzifədən azad edilmiş və qoşun qazısı təyin olunmuşdu (121, Bn.v.301a-b, 308b, 225a).

Ərdəbil şəhərindəki Şeyx Səfi məzarı böyüklüyü və gəlirinə görə xüsusi əhəmiyyət kəsb edirdi. I Şah Abbasın dövründə Səfəvi ölkəsində olan italiyalı Pyetro della Valle yazır ki, Xalxalın beş fərsəhliyində yerləşən Tacıbəxş adlı kəndin yaxınlığında bir su dəyirmanı və ətrafında bir çox kəndlər Şeyx Səfi məqbərəsinin vəqf əmlakıdır (86, 364). Adam Oleari isə məzarın varidatının bir neçə milyon olduğunu və bunun müəyyən hissəsinin Şahın bu məzara hədiyyələri, adi gəlirlər və gündəlik nəzirlərdən ibarət olduğunu bildirir. O qeyd edir ki, məzarın nəqd varidatı, hətta Şahınkından da çoxdur (139, 501). Cemelli Kareriyə görə Şeyx Səfi məzarının illik gəliri 40000 qızıl lirədən ibarət olmuşdur. O, müqəddəs məzara aid olan bu vəqf haqqında yazırdı ki, Qaflankuh dağının ətəyindəki kəndlər Ərdəbil məscidinin vəqfi olduğu üçün, Şaha vergi ödəmirdilər (89, 42). Elə müqəddəs məzarın gəlirinin çox olması məzarın bütün vəqflərinin dövlət vergilərindən azad olmasından irəli gəlirdi. Adam Oleari müqəddəs məzarın gəliri haqqında yazır ki, onun bir neçə milyon nəqd pul vəsaiti, çoxlu evləri, mülkləri, gəlirini gündəlik artıran ziyarətçiləri vardır. Müqəddəs Məzarın külli miqdarda təmiz puldan əlavə Ərdəbildə 200 evi, 9 hamamı, 8 karvansarası, Qeysəriyyə adlanan böyük qübbələri, taxtavanları olan dükanlar kompleksi, ətrafında dükanları, zirzəmiləri olan bütöv meydan və həmçinin burada onlardan başqa 100 dükan, mal, taxıl, duz, yağ bazarları vardı və meydanda açıq səmada alver edənlərin hər biri də ona xüsusi vergi ödəyirdilər. Ərdəbil ətrafında 13 kənd, Sərabda 5 kənd, Təbriz şəhərində 60 ev, 100 xırda dükan və şəhərin alt tərəfində 2 kənd, Qəzvin şəhərində bir neçə karvansara və hamam

eynilə bu qədər Gilan və Astara diyarında, Muğanda Aşur (Aschur) və Eleşur (Eleschur), Xalxal, Həştrud və Gərmrud hər birinin təxminən yarısı da, tatar və hindlilərin mülkiyyətləri istisna olmaqla, Məzara aid idi (139, 591). Oleari Adamla yanaşı hollandiyalı Yan Streysin də gündəliyində Ərdəbilin vəqf əmlakının miqdarı haqqında müfəssəl məlumatlar vardır. Ancaq Adam Olearidən fərqli olaraq hollandiyalı səyyahın gündəliyində Şeyx Səfi vəqfinə Ərdəbil ətrafında 33 kəndin və Təbrizdə isə 100 evin aid olduğu göstərilmişdir (197, 294). Məlum olduğu kimi, Yan Streys A. Olearidən xeyli sonra, yəni 1671-ci ildə Ərdəbildə olmuş və sözsüz ki, bu müddət ərzində qeyd olunan məzarın vəqf əmlakında müəyyən dəyişikliklər baş verə bilərdi.

Məzarın qeyd olunan tərpənən və tərpənməz (daşınan və daşınmaz) əmlakından əlavə, başqa gəlir qaynaqları da mövcud olmuşdur. Bu barədə A. Oleari yazır ki, «Bundan əlavə, onların çox geniş yayılmış bir adəti var, onlar uzaq səfərə çıxanda və ya mühüm bir tədbir həyata keçirəndə, həmçinin xəstəliyə düçar olanda və ya digər bəla baş verəndə, Şeyx Səfiyə nəzir vəd edirlər və əgər onların istəyi həyata keçirsə, dediklərini dəqiq və könüllü yerinə yetirirlər. Onlar ibadətə gələrkən də xüsusi ehtiramla könüllü hədiyyələr gətirirlər. Hətta bəzən Məzara öz əmlaklarını (mülk) vəsiyyət edirlər. Məhz buna görə hər gün pul, atlar, eşşəklər, dəvələr, qoyunlar və b. məhsullar bura gətirilir» (139, 592).

Adam Olearinin gündəliyində göstərilir ki, bəxşişlər qəbul etmək üçün xüsusi seçilmiş iki adam ayrılmışdı ki, onlara «Nessüytriaht» (nəzir yığan) deyilir. Və bu ərəb dilində «nəzir» sözü olub - and mənasını verir. nəzir qəbul edənlər hər gün məqbərənin həyətində xüsusi yerdə dayanırlar və onların arasında qırmızı məxmərlə örtülmüş, dairəvi pul sandığı yerləşir. Sandığın üstündəki deşikdən nəzir edilmiş pulları onun içərisinə atırlar. Hədiyyə edilən dəvələr, atlar və eşşəklər həmin an satılır və təmiz pula çevrilib məzarın büdcəsinə daxil edilir. Qoyunların və öküzlərin bir qismini kəsib kasıblara paylayırlar. Göstərilən nəzir yığanları firavan saxlamaqdan ötrü Şah İsmayıl şəhərdən 1 mil aralıda yerləşən Sultanabad adlı kəndi onlara hədiyyə etmişdir (139, 592).

Ərdəbildəki Şeyx Səfi məzarının əmlakı vəqfi ammə olub, dövrün qaynaqlarında gəliri dövlət büdcəsinin mədaxili ilə müqayisə olunmaqla, ümumi xeyriyyə işlərinə sərf olunurdu.

XVI yüzilliyin 40-cı illərindən etibarən mahal hakimlərinə əsasən sultan titulu verilirdi. Ancaq dövrün qaynaqlarında mahallara bəy, çox nadir hallarda isə xan titulu ilə təyin edilmiş əsilzadələrə təsadüf olunur. Pyetro della Valle yazır ki, bütün qızılbaşlar bəy tituluna malik olub, onların rəislərinin hər biri yüz əsgərə başçılıq edir və onlar yüzbaşı adlanırlar. Yüzbaşılar öz növbəsində sultanlara tabedirlər. Qoşun başçılarına, şəhər və inzibati vahidlərin başçılarına sultan deyirlər. Sözsüz ki, səyyah burada vilayət tərkibindəki mahal hakimi, onun daşıdığı titulu nəzərdə tutur və aşağı rütbələrin yuxarı rütbələrə tabe olması qaydasını, yəni faktiki olaraq Səfəvi dövlətində ierarxiya sistemini şərh edərək sultanların da xanlara (burada vilayət hakimi nəzərdə tutulur) tabe olduğunu yazır (86, 54). Yuxarıda qeyd olunduğu kimi, qaynaqlarda mahal hakimləri arasında xan titulu daşıyanlar haqqında da məlumatlar vardır. Ancaq mahal hakimi titulunun böyük və kiçikliyindən asılı olmayaraq, vilayət hakiminə tabe olub, ierarxiya qaydalarını poza bilməzdi. XVI yüzilliyin 30-50-ci illərində Şirvan bəylərbəyinə tabe olan Şəki hakimi Dərviş Məhəmməd mahalı xan titulu ilə idarə edirdi. 1551-ci ildə Dərviş Məhəmməd öldürüldükdən sonra Şəkiyə sultan titulu ilə Tuyqun bəy Qacar hakim təyin olunmuşdu (118, v.147a-b; 121, Bn.v.176a). 1577-ci ildən 1578-ci ilə qədər Şəkini Şamxal adlı şəxs sultan və 1578-ci ildə isə onu əvəz edən İsa adlı əsilzadə xan titulu ilə idarə etmişdir (121, Bn.v.273b, 300b; 80, 227). Qaynaqlarda Bakının da xan titulunu daşıyan əsilzadə tərəfindən idarə edilməsi barədə məlumata təsadüf edilir. Şirvan şahlığı ləğv edildikdən sonra vilayətdə Bakının əhəmiyyəti nəzərə alınaraq 1538-ci ildə bura Qazi xan Təkəli hakim təyin olunmuşdu (121, Bn.v.14a). 1540-1541-ci illərdə Bakı, Salyan, Mahmudabad ona tiyul verilir və mərkəzdən çoxlu hədiyyələr də göndərilir. Ancaq çox keçmir ki, Qazi xan Təkəli Şirvanın valisi Əlqas Mirzəyə tabe olmaqdan boyun qaçırdığına görə, I Şah Təhmasibin əmri ilə h.950-ci (1543-1544) ildə öldürülüb, qoşunu, ulkası Əlqas

Mirzəyə verildi (118, v.112b, 113a-b). Mənbələrdə mahal hakiminə titulla paralel rütbə də verilməsi haqqında məlumatlar az deyildir. Qazi Əhməd Qumi h.986-cı (1578-1579) il hadisələrindən bəhs edərkən Əbülqasim bəyə əmir rütbəsi, sultan titulu, təbil, bayraq, qoşun, tiyul verildiyini və onun Ordubada hakim vəzifəsinə göndərildiyini yazmışdır (121, Bn.v.308b).

Mahallara hakim təyin edilərkən bu barədə Şahın verdiyi fərmanda mahalın ərazisi, sərhədləri göstərilir və fərmanda bəzən mahalın qorunması, inkişaf etdirilməsi, burada bərpa, tikinti-təmir işlərinin aparılması da əks olunurdu. Qaban xanın Urmiya hakimi göndərilməsinə aid verilmiş fərmanda qeyd edilirdi ki, Saruqarqan hüdudundan tutmuş Qavərd və Salmasa qədər bütün əmirlər, hakimlər ona tabe olub sözündən çıxmamalı, məsləhətinə qulaq asmalı idilər. Qaban xana mülazimlərinin xərci üçün nəğd min tümən qızıl verilmiş və Dümdümə qalasının bərpası da ona tapşırılmışdı (80, 84).

Vilayətlərdə olduğu kimi, bəzi mahallarda da hakimlik bəzən irsi xarakter daşıyırdı. Məsələn, İsgəndər bəy Münşi 1611-ci il hadisələrindən bəhs edərkən yazır ki, Marağa ulkası və onun ətrafı həmişə yüksək rütbəli Qızılbaş əmirlərindən birinə verilirdi. 1611-ci ildə isə bu mahal Mukri tayfasının rəisi Şeyx Heydərə tapşırılmışdı. O, Osmanlılarla vuruşmada ölmüş və Şah Abbasın əmri ilə onun ulka və qoşununu kiçik yaşlı oğlu Qubad xana vermişdilər. Mukri eli ağsaqqallarına da tapşırılır ki, uşağa tabe olub, böyüyənə qədər onun Qızılbaş əyan qızı və ağıllı qadın olan anasının sözündən çıxmasınlar (80, 811). Buradan göründüyü kimi ata öldükdən sonra onun kiçik yaşlı oğlu xan titulu ilə mahala hakim təyin edilmiş, ancaq o yaşa dolana qədər mahalın idarə olunması onun anasına tapşırılmışdır. Ölkədə bu təcrübə davam etməkdə idi. Ancaq qeyd olunduğu kimi, mahallara hakimlər daha çox «bəy» və «sultan» titulu ilə təyin olunurdu. 1607-ci ildə Mənuçöhr bəy və ondan sonra isə Çıraq «sultan» titulu ilə Dərbənd hakimi göndərilir (80, 671; 131,315, 377). H.1029-cu (1619-1620) ildə isə Qarabağa tabe Şəmsəddin hakimi Məhəmməd sultan Şəmsəddin xəstələnib ölür və

bura Şəmsəddinli elinin əmirlərindən qardaşı Səlim «bəy» titulu ilə hakim təyin olunur (80, 955).

Mahal hakimləri bəylərbəyilər tərəfindən deyil, birbaşa Şah tərəfindən təyin olunurdular. I Şah İsmayıldan başlayaraq Səfəvilərin hakimiyyətinin bütün dövrlərdə, o cümlədən XVII əsrdə də bu qaydaya ciddi əməl olunmuşdur. Tavernye yazır ki, xandan sonra vəzifə və rütbə cəhətdən kiçik hakimlər də vardır ki, onlar xana tabe idilər. Ancaq onlar Şahın fərmanı ilə vəzifəyə qoyulur və vəzifədən çıxarılırdılar. Belə xırda vəzifəli hakimlərə sultan deyilirdi (104, 586).

Engelbert Kempfer yazır ki, onlar ikinci dərəcəli hakimlərdir. Bunlara ona görə ikinci dərəcəli hakim deyilir ki, onlar vilayətlərə deyil, mahallara hökmranlıq edirlər. Sultanların özü Şahın nəzarəti altında olub, əksəriyyəti vilayət hakimlərinə tabedirlər. Engelbert Kempferin yazdığına görə, mahal hakimi olan sultanlar idarçiliklə bağlı bütün məsələlərdə xanla məsləhətləşir, xan baş vəzirin qarşısında məsuliyyət daşıdığı kimi, onlar da xan qarşısında məsuliyyət daşıyır, ona hesabat verirlər. Onlar öhdələrində olan qoşunu təmin edir və vəzifədə qalmaq üçün Şah Süleymana hər il peşkəşlər göndərməliydilər (96, 162).

Sultanlar hökmranlıq etdikləri mahalda geniş hərbi və iqtisadi hüquqlara malik idilər. Onlar mahalları özlərinə tabe olan yerli məmurlar vasitəsilə idarə edirdilər. Hərbi sahədə sultanın müavini hesab olunan naibin səlahiyyəti xüsusilə geniş idi. Məsələn, h.1015-ci (1607) ildə Çıraq Sultan Dərbənd və Şabrana hakim, Şahnəzər bəy Təkəli isə ona naib təyin edilmişdi. Şahnəzər bəy Təkəliyə əmr edilir ki, Çıraq sultan Ustaclının müavini kimi sərhədi qorumaqla məşğul olsun (80, 735, 752). Dərbəndlə yanaşı, Bakı sultanlılğında da naib vəzifəsi vardı. Bu barədə P.Q.Butkov yazır ki, Bakı şəhərinin sultanı Şamaxı xanına tabedir. Dərbənddə olduğu kimi Bakıya da naib, yaxud komendant təyin olunur (153, c.1, 46). A.Bakıxanov isə Bakı sultanının naibi və onun vəzifə borcu haqqında daha dəqiq məlumat vermişdir. O yazır: «Məmləkət naibi həmişə yerli əhalidən olub, qalanın mühafizəsi onun öhdəsində olardı» (1,151). Artıq XVII yüzilliyin ortalarında Dərbənddəki 700, XVIII

əsrin birinci rübündə isə Bakıdakı 700 nəfərlik qarnizona da naiblər rəhbərlik edirdilər (65, c.III, 303; 196, 166; 173, 30).

Mənbələrdəki materiallardan məlum olur ki, mahal mərkəzi ilə yanaşı, hətta qəsəbə və kəndlərdə də hakim və kətxudaların tabeçiliyində müəyyən sayda qoşun saxlanılırdı. Bu barədə Sansonun məlumatı daha maraqlıdır. Sanson yazır ki, mahal və kəndlərdə də süvari qoşun vardır. Adətən mahalı polkovnikə və bir neçə kənd qarnizonunu kapitana tapşırırdılar. Bu şərtlə ki, onlar öz tabeliyində olan süvari qoşunların (hər bir süvarinin illik xərci 100 ekuya bərabər idi) xərcini başçılıq etdikləri inzibati vahidin hesabına ödəməli idilər (106, 137).

Müharibə vaxtları mahal ərazisində yaşayan ellərdən, obalardan isə qeyri-nizami əsgəri qüvvə toplanılır və cəbhəyə göndərilirdi. Məsələn, 961-ci (1533-34) ildə Gürcüstan vuruşmasında Qarabağ bəylərbəyi Şahverdi Sultan Ziyad oğlu Qacarla yanaşı, Bərdə hakimi Xanəli Sultan Baharlı, Arran hakimi Pərtaloğlu iyirmi dörd qoşunları ilə iştirak edirdi (118, v.181a).

Sanson yazır ki, mahallarda hökmranlıq edən xanlara «qolbəyi» (yəni vilayət xanın qolu) deyilir. Bəylərbəyi əmr etdikdə, onlar dərhal qoşunlarını səfərbər edib, bəylərbəyinin sağ və sol cinahlarında yerləşirdilər (106, 60). Mahalda geniş hərbi funksiyaya malik olan hakimin müharibə vaxtları öz qoşunu ilə bəylərbəyinin xidmətində olması, onların arasında xüsusi qaydalarla tənzimlənən tabeçilik münasibətlərindən irəli gəlirdi. Bəylərbəyi vilayətinin ərazisindəki bütün mahalların silahlı qüvvələrinin əmir əl-ümərası, yəni başçısıydı. Başqa sahədə olduğu kimi, hərbi sahədə də kiçik hakimlər ona tabe idilər.

Mahalların iqtisadi işləri ilə yerli hakimlər (sultanlar, bəylər) məşğul olurdular. Onlar mahallarda vergiləri toplayır və bunun bir hissəsi dövlət büdcəsinə daxil olurdu. Adı bilinməyən fransalı səyyah yazır ki, təkcə Bakı sultanı Şah xəzinəsinə hər il 700 tümən göndərməli idi ki, bu Fransa pulu ilə 42000 livrdir (191,7). Mənbələrdə vergilərin yerli hakimlər tərəfindən toplanıldığı və ümumiyyətlə, mahal daxilində iqtisdai məsələlərdə onların geniş hüquqlara malik olduğu göstərilir. Məsələn, Adam Oleari yazır ki, Xalxal

Azərbaycana tabe olub, Bayandur xan tərəfindən idarə olunur və buranın bütün vergisini də o toplayır (139, 598).

A.P.Volınski isə səfəvi dövlətinə 1715-1717-ci il elçiliyi zamanı Şirvan barədə danışarkən yazır: «Bu vilayətin birinci şəhəri bəylərbəyinin başçılıq etdiyi Şamaxıdır. Qalanlarında kiçik hakimlər vardır. Bakı, Quba, Dərbənd, Ağdaş Şirvan vilayətinə daxildir. Onların gəliri xüsusi qayda ilə toplanır, ancaq onlar Şamaxı xanının fərmanına itaət edirlər» (192, 375). Göründüyü kimi, iqtisadi məsələlərdə mahal hakimləri müstəqil olmasına baxmayaraq müəyyən mənada bu sahədə də bəylərbəyi onlara nəzarət edirdi.

Şah tərəfindən təyin olunan mahal hakimlərinə hərbi-inzibati və polis funksiyası verilirdi. Mahal hakimi mahalın daxili sakitliyini təmin etməli, kiçik qoşun dəstəsi saxlamalı, vergi və mükəlləfiyyətləri vaxtında toplamalı, müharibə vaxtları öhdəsində olan qoşunla tabe olduğu bəylərbəyinin xidmətinə gəlməli idi. O, Şahın illik peşkəş və hədiyyələrini də vaxtında göndərməliydi. Bir sözlə, mahal hakimi nə qədər özünün hökmranlıq etdiyi sahədə müstəqil və geniş ixtiyara sahib olsa da, mühüm məsələlər barədə bəylərbəyi ilə məsləhətləşməklə birbaşa ona tabe idi.

# NƏTİCƏ

Səfəvi dövləti Azərbaycan cəmiyyətinin mükəmməl bir siyasi təşkilatı kimi meydana çıxmış, mərkəzi hakimiyyət orqanları təşkil edilmiş, onların arasında səlahiyyət bölgüsü həyata keçirilmiş və inzibati-ərazi bölgüsü prinsipləri əsasında yerli idarə orqanları yaradılmış və nəticədə ali hakimiyyətin bütün ölkə ərazisində həyata keçirilməsi təmin olunmuşdu. Azərbaycan Səfəvi dövlətinin qurulmasında ona arxa, dayaq olmuş Azərbaycan türklərindən ibarət hərbi-siyasi qüvvələr həm mərkəzdə, həm də yerlərdə dövlətin özülünə çevrilmişdir ki, bu da əslində xalqımızın əski çağlardan mövcud olan dövlətçilik ənənələrindən irəli gəlirdi. Səfəvi dövlətinin idarəçilik və dövlət quruluşunun forması əslində XV əsrdə Azərbaycanı idarə etmiş Baharlı və Bayandurlu sülalələrinin hakimiyyəti dövründəki idarəçilik sistemindən fərqli olmamışdır. Səfəvilərin qədim türk dövlətçilik təcrübəsindən geniş şəkildə bəhrələndiyi və zaman-zaman Orta Asiya və Osmanlı dövlətçilik ənənələrinə də əsaslandığı açıq şəkildə müşahidə olunur.

Səfəvi sülaləsinin hakimiyyətə gəlməsi ilə formalaşan və cəmiyyətin sosial-iqtisadi durumuna uyğunlaşan Azərbaycan Səfəvi dövləti əslində klassik müsəlman dövləti olub, burada dini hakimiyyətlə dünyəvi hakimiyyət vəhdətdədir. Onları mövcud şəraitdə və xüsusən sülalənin hakimiyyətinin ilk illərində bir-birindən ayırmaq mümkün deyildi. Xətainin "Mənəm həm pirü, həm soltani-aləm», «Əzəldən Şah bizim sultanımızdır, Pirimiz, müridimiz, xanımızdır»- beytləri nəzəri cəhətdən Şahlıqla ruhani hakimiyyətin birlikdə mövcudluq ideologiyasının təcəssümü olub, dövlətin teokratik prinsipə dayandığını əsaslandırır. I Şah İsmayıl Xətai dünyəvi başçı olmaqla yanaşı, ruhani-mənəvi təsisatlarda nəzarətçi və həm də mürşid-i kamil vəzifəsini özündə saxlayırdı.

Hakimiyyətin irsi xüsusiyyəti və hökmdarın qeyri-məhdud səlahiyyəti ilə yanaşı, mərkəzi idarə sistemində məşvərətçi orqan olan Məclisi əla (ali məclis) da fəaliyyət göstərirdi. Dövlət əhəmiyyətli mühüm məsələlərin on iki nəfər üzvü olan bu məclisdə müzakirəsinə baxmayaraq son sözü Şah deyir, yəni onun rəyi əsa-

sında qərarlar qəbul ounurdu. Müqavilə bağlamaq, müharibə elan etmək, ölkə qanunlarında dəyişikliklər Şahın qeyri-məhdud səlahiyyəti olub, bu məsələlərdə onun qarşısında heç bir maneə yox idi.

Səfəvilər dövlətinin yaranmasında Azərbaycan türk etnosu həlledici rol oynamış və bu dövlətin «konqlomerat imperiya» kimi təqdim olunması doğru deyildir. Ona görə ki, Fars, Yəzd, Kirman, Xorasan, Astrabad, Mazandaran və Gilanda aralarında çəkişmələr olan yerli sülalələrin hakimiyyəti devrilib, inzibati ərazi bölgüsü prinsipləri əsasında vilayətlər yaradılmışdır. Səfəvi dövlət quruluşunun formasına uyğun olaraq mərkəzlə yerli idarəetmə aparatı arasında qarşılıqlı münasibətlər milli deyil, inzibati-ərazi bölgüsü prinsiplərinə dayanırdı. Digər tərəfdən ölkə daxilində əmtəə-pul münasibətləri başlıca iqtisadi əlaqə forması olub, valilik və vilayətlər vahid iqtisadi-siyasi mərkəz ətrafında birləşmişdi. Səfəvilər siyasi hakimiyyət uğrunda mübarizədə hələ XVI yüzilliyə qədər bir sıra təşkilatı tədbirlər həyata keçirib idarə orqanları ilə yanaşı, xəlifə institutu da yaratmışdılar. Hər bir Qızılbaş tayfa sufilərinin (qazıları) rəhbəri xəlifə və onların ümumi rəhbəri isə xəlifət əl-xüləfa adlanırdı. Xəlifələri Ərdəbildə Səfəvilər cəmiyyətinin əsas məmuru olan xəlifət əl-xüləfa təyin edirdi. Səfəvilər hakimiyyətə keçdikdən sonra bu institutun mahiyyəti bir qədər dəyişilir. Doğrudur, xəlifət əl-xüləfa və onun xəlifələri Azərbaycan və onun hüdudlarından kənarda dövləti möhkəmləndirmək baxımından əvvəlki kimi təbliğati işləri davam etdirirdilər. Lakin bununla yanaşı, artıq onlar XVI-XVII yüzilliklərdə dini mərasimləri təşkil edir, məscid, mədrəsə binalarını təmir etdirib, ümumən əhalinin dini vəzifələri yerinə yetirməsinə nəzarət edirdilər. Qaynaqlardan aydın olur ki, Şah tərəfindən ayrı-ayrı yerlərə xəlifət əl-xüləfa və xəlifələr bəzən hakim də göndərilirdi. Xəlifət əl-xüləfa bir qayda olaraq Qızılbaş əsilzadələri içərisindən təyin olunurdular. Ancaq Şahlıq hakimiyyətinin getdikcə güclənib dünyəvi mahiyyət kəsb etməsi ilə paralel, xüləfa institutunun da statusunun getdikcə ciddi dəyişikliklərə uğraması və dövlət quruluşunda nüfuzunun azalması müşahidə edilir.

Qaraqoyunlu və Ağqoyunlu hərbi təşkilatı Səfəvilər dövründə də az dəyişikliklərlə qalırdı. Ordu dövlət (vilayət hakimləri qoşunu,

qorçular) və Şah qoşununa bölünürdü. Bir qayda olaraq Səfəvi silahlı qüvvələrinin baş komandanı, yəni sipahsalar Təbrizin bəylərbəyi olurdu. I Şah Abbas hərbi islahat keçirib qulamlar, tüfəngçilər topçular adı ilə məlum yeni hissələrlə ordunun daha da təkmilləşdirmişdi. Lakin XVI yüzillikdə olduğu kimi, qorçuların nüfuzu XVII yüzilliklərdə də zəifləmir, yenə də orduda əsas yeri qorçubaşı, ikinci yeri qullarağası, üçüncü yeri tüfəngçibaşı tuturdu.

Vilayət ərazisində mühüm şəhərlərdə Azərbaycan türk əhalisindən ibarət tüfəngçi və topçular da vardı. Ümumiyyətlə, ölkənin topçubaşı vəzifəsinə də bir qayda olaraq, təbrizli hərbi əyanlarından təyin olunurdu. 1619-cu ildə isə təbrizli Məhəmmədtağı min nəfərdən ibarət Təbriz tüfəngçisinə rəhbərlik edirdi. Təbrizlə yanaşı, Dərbənd və sair şəhərlərin də tüfəngçiləri vardı.

XVI-XVII yüzilliklərdə vilayətləri Şah tərəfindən təyin edilən hakimlər - bəylərbəyilər idarə edirdilər. Şah Təhmasibin (1524-1576) hakimiyyətinin ortalarına qədər vilayət hakimləri sultan və bu vaxtdan sonra isə xan titulu daşıyırdılar. Beləliklə, vilayətə hakim xan, sultan titulu və əmir əl-əmərа, yaxud bəylərbəyi rütbəsi ilə təyin olunurdu. I Şah Təhmasibin hakimiyyətinin ilk illərinə qədər bəylərbəyiyə nisbətən əmir əl-ümərа daha çox işlənilmiş, lakin bu vaxtdan sonra bəylərbəyi rütbəsinə daha çox təsadüf olunur. Əslində isə hər iki titul sinonim olmaq etibarı ilə XVI-XVII yüzilliklərdə yanaşı işlənirdi.

I Şah Abbasın dövründən qulamlardan ayrı-ayrı vilayətlərə bəylərbəyi təyin edilməsi təcrübəsi özünü doğrultmamışdı. Yarımköçəri türk aristokratiyanın adət-ənənələrini, islam dinini, türk dilini qəbul etmiş qulam bəylərbəyi təyin olunarkən müəyyən bir Qızılbaş türk tayfasına, obasına başçı qoyulurdu ki, bu da çox davam etmir və onların ayrı-ayrı vilayətlərdə qısa müddətli hakimiyyətləri dövlətin milli mahiyyətini dəyişə bilməmişdir.

Bəylərbəyi vilayətin silahlı qüvvələrinin baş komandanı olduğuna görə əmir əl-ümərа rütbəsi daşıyır, Şah tərəfindən ona bayraq və təbil verilirdi. Bəylərbəyinin daimi silahlı qüvvələrinin sayı adətən 2-3 min nəfər olur, bununla bərabər, vilayət ərazisindəki mahal hakimlərinin silahlı qüvvələri də ona tabe idi. Özünün 2-3

minlik hərbi qüvvəsi ilə yanaşı, 12-15 min nəfərdən ibarət mahal naiblərinin qoşununa komandanlıq edən bəylərbəyi təhlükəli vaxtda vilayət ərazisində yaşayan tayfa və oymaqlardan əlavə hərbi qüvvə səfərbər edə bilərdi. Şah həmişə bəylərbəyilər də mərkəzdənqaçma meylinin yaranacağı ehtimalı ilə bağlı onun daimi silahlı qüvvələrinin bir neçə mindən çox omasına imkan vermirdi. Bəylərbəyilər vilayət daxilində sakitliyi, ölkə sərhədlərini qorumalı, təhlükəli vaxtlarda bir dəstə qoşunla mərkzə gəlməli və Şahın göstərişi ilə bir-birinə hərbi yardım etməli idilər. Hərbi sahədə bəylərbəyi Şaha tabe olmaqla başqa dövlət məmurları və hətta ölkənin silahlı qüvvələrinin baş komandanı ilə hesablaşmırdı. Baş komandan yalnız Şahın xüsusi göstərişi olduqdan sonra vilayət hakimlərinin silahlı qüvvəsindən istifadə edə bilərdi. Ölkənin silahlı qüvvələrinin baş komandanı vəzifəsinə əksər vaxtlarda Azərbaycan bəylərbəyi təyin ounurdu. Azərbaycan bəylərbəyilərinin Səfəvilər qoşununa baş komandan təyin edilməsinin əsas səbəbi onun dövlətin metropoliyası olması, həm də hərbi strateji və iqtisadi baxımdan çox böyük əhəmiyyətə malik olmasından irəli gəlirdi. XVI yüzillikdə olduğu kimi, XVII yüzillikdə də Azərbaycan ölkənin əsas dayağı idi.

Bəylərbəyilər vilayət daxilində sakitliyi, sərhədləri qorumalı, vilayət ərazisindən keçən ticarət karvanları və xarici elçilərin təhlükəsizliyini təmin etməli idi. 1563-cü ildə Şirvan bəylərbəyi Abdulla xanın Rusiyaya, 1634-cü ildə isə İrəvan hakiminin Osmanlı dövlətinə elçi göndərməsi, sərhəd bəylərbəyilərinin qonşu ölkələrlə sərbəst iqtisadi hərbi-siyasi əlaqələr saxlamaq hüquqlarının da olduğunu göstərir.

Vilayətlərin vergiləri XVI əsrin ortalarına qədər Uzun Həsənin Qanunnaməsi, bu vaxtdan sonra isə Sədr Mir-Zeynəddinin hazırladığı «dəstur-ül-əməl» əsasında toplanılırdı. I Şah Abbas dövründə vilayətdə maliyyə məsələləri ilə məşğul olan vəzirlərin hüquqları genişləndirilmişdi. I Şah Abbasın məhdudlaşdırma siyasətinə baxmayaraq başqa məmurlar kimi vilayət vəzirləri də bəylərbəyinin yaxın adamlarından onun məsləhəti ilə işə götürülür və işdən çıxarılırdı. O, vilayətdə əhalinin siyahıya alınması barədə vaxtaşırı mərkəzə hesabat verir, vilayət daxilində mülki münaqişəli

və vergi işləri ilə bağlı mübahisəli məsələləri həll edirdi. Geniş iqtisadi hüquqa malik bəylərbəyilərin mərkəzdənqaçma meyllərini dövlət həmişə nəzarətdə saxlayırdı

Vilayət ərazisində Şah tərəfindən başqa əyanlara verilmiş tiyul, soyurqal, vəqf əmlakı bir növ vergi immuniteti hüququna malik olduqlarına görə bəylərbəyi onların maliyyə işlərinə qarışmırdı. Məsələn, 1647-ci ildə Aranda Xaçın mahalının qorçubaşı Göycə bəyə verilməsi haqqında fərmanda yerli məmurlar və hakimin onun işlərinə qarışmaması qeyd olunur.

Bəylərbəyi vilayət ərazisində bütün dini və dünyəvi idarələrə də başçılıq edirdi. Onun və yaxud nümayəndələrinin iştirakı olmadan cinayət və mülki mübahisəli məsələlər həll olunmurdu. Bir sözlə, vilayətlərdə şəri və ürfi hüquqa aid məsələlərin həllində onun mhüm rolu vardı. Bəylərbəyi ruhanilərin ixtiyarında olan hüquqi məsələlərin həllində iştirak edə bilmədikdə, şəri məhkəmənin nəticəsini yoxlayıb qərar çıxarmalı idi. Xırda məsələlərlə əlaqədar məhkəməyə isə darğanı öz nümayəndəsi kimi göndərirdi.

Azərbaycan Səfəvi dövlətinin ictimai-siyasi, iqtisadi inkişafı ilə əlaqədar olaraq yerli idarəçilik sistemi də təkmilləşir və möhkəmləndirilirdi. Vilayətdə bəylərbəyindən sonra ən nüfuzlu məmur vəzir idi. Maliyyə məsələləri ilə məşğul olan vilayət vəzirlərinin Şah tərəfindən təyin olunmasına baxmayaraq onlar bəylərbəyiyə tabe olurdular. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan vəziri daha nüfuzlu olmaqla, çox hallarda Şirvan, Qarabağ və Çuxur-Sədin də maliyyə işləri ona tapşırılırdı. Bəzi vaxtlarda vilayət vəziri həm də orada mustoufi funksiyasına da malik olurdu. Məsələn, Şah Səfinin hakimiyyətinin əvvəllərində Məhəmməd İştəharidi Azərbaycanın həm vəziri, həm də mustoufisi idi.

Xassə elan edilən mahal, şəhərlər və vəqflər xüsusi qayda əsasında idarə olunurdu. Belə ki, adı çəkilən bölgələri Şah tərəfindən təyin edilən vəzir, darğa və ya mütəvəlli idarə edirdi ki, onlar bəylərbəyiyə deyil, birbaşa Şaha tabe idilər.

Vilayətlər mahallara bölünürdü. Mahalları sultan, bəzən də bəy titulu daşıyan Qızılbaş - türk əyanları idarə edirdilər. Mahal hakimlərini Şah təyin edir, ancaq bəylərbəyiyə tabe olurdular.

Mahalda hakimlər çox geniş hüquqlara malik idilər. Hakim həm də mahalın silahlı qüvvələrinin baş komandanı olurdu. O, mahalın maliyyə məsələləri ilə məşğul olur və vergi toplanmasına da nəzarət edirdi. Bəylərbəyiyə tabe olmasına baxmayaraq bu sahədə onlara çox geniş hüquqlar verilirdi.

Mahal hakimlərinin naibləri bir qayda olaraq yerli əhali içərisindən seçilir və mahal mərkəzinin mühafizəsi ona tapşırılırdı. Mərkəzdəki qarnizona da o başçılıq edirdi.

Azərbaycan Səfəvi dövlətinin möhkəmlənməsi dini idarələrin təkmilləşməsinə də təsir göstərmişdir. Vilayət mərkəzləri ilə yanaşı, oranın digər şəhərlərinə sədrin təklifi və Şahın fərmanı ilə şeyx ül-islamlar, qazılar təyin olunurdu. Onların hər ikisi təyin olunduğu vilayətdə bəylərbəyiyə tabe olmalarına baxmayaraq, divan əs-sədarə tərəfindən vəzifədən azad oluna bilərdilər.

Vilayət və şəhərlərdəki vəqfləri divan əs-sədarənin təklifi ilə təyin olunan mütəvəllilər idarə edirdilər. Onu Şah və ya sədr vəzifədən azad edə bilərdi. Bəzən müqəddəs yerlərin yerləşdiyi şəhər və ya mahalın da idarəsi ona tapşırılırdı. Mütəvəlli ilə hakim vəzifəsi bir nəfərə tapşırıldıqda, o təyin olunduğu mahal, yaxud şəhərdə teokratik idarə hüququna malik olurdu. Göstərilən vəzifələrin bir nəfərə tapşırılması Səfəvilər dövründə daha qabarıq şəkildə Ərdəbildə müşahidə olunur.

Başqa müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda da bir sıra mülki və cinayət məsələləri şəri qayda-qanun əsasında həll olunurdu. Ürfi hüquqa aid məsələlərlə divanbəyi, hakim, darğa, şəri hüquqa aid məsələlərlə isə başda sədr olmaqla şeyx ül-islam və qazı məşğul olurdu. Lakin bəzi şəri məsələlərin həllində divanbəyinin də rolu böyük idi. Vilayətlərdə ürfi hüquqa aid məsələlərə bəylərbəyi və darğa baxırdı. Ürfi hüquqa aid ən ağır cinayət ölüm hadisəsi idi. Adam öldürən bir qayda olaraq ölüm cəzasına məhkum olunurdu. Şəri məsələlərin həllində darğa və yaxud onun nümayəndəsi iştirak edirdi.

## Заключение

Сефевидское государство возникло, как государственное образование с централизованной властью. Здесь существовала распределение полномочий, и на основе принципов административно-территориального деления были созданы органы местного управления. Благодаря этому, централистическая власть распространилось на всю империю. Определенная роль в создании Сефевидского государства принадлежала азербайджанскому этническому элементу, который как в центре, так и на местах играл господствующую роль, что свидетельствует существующих с древних времен традиций государственности. Формы государственного устройства и государственного управления Сефевидского государства мало чем отличались от тех, какие существовали во время династий Вахарлы и Байандурлы, правившие страной в XV в. Явно прослеживается стремление Сефевидов пользоваться древними тюркскими традициями государственности. Временами они опирались на государственные традиции османов и стран Центральной Азии.

Возникшее с приходом к власти династии Сефевидов Азербайджанское Сефевидское государство являлось, по существу, классическим мусульманским государством. Сефевидские шахи воплощали в своем лице высшую духовную власть, как наследственные главы Ардебильского дервишского ордена, так и светскую власть.

В сложившейся обстановке и особенно в первые годы правления династии их нельзя было отделить друг от друга. В лице шаха Исмаила Хатаи воплотились качества пророка и имама, который пришел в этот мир как «совершенный руководитель», абсолютная истина, требующих у своих приверженцев поклонения, обожания и повиновения.

Хотя Сефевидские шахи имели огромную власть, которая носила наследственный характер, при шахе на совещательных правах состоял Высокий меджлис (меджлис-и Али). Несмотря на то, что важнейшие государственные вопросы решались в Меджлисе из 12 человек, последнее слово оставалось за шахем.

На заседании Совета, на основе его мнения, принимались решения. В вопросах объявления войны и заключения мира, изменения законодательства страны он имел неограниченные полномочия.

В создании Сефевидского государства Азербайджанский тюркский этнический элемент сыграл определяющую роль, и поэтому нельзя согласиться со взглядами, трактующими Кызылбашское государство в качестве империи – конгломерата. Свергнув соперничавших в Фарсе, Йезде, Кирмане, Хорасане, Астрабаде, Мазендаране и Гиляне власть местных династий, Сефевиды создали здесь провинции. В соответствии с формами Сефевидского государственного управления взаимоотношения центрального и местного управления основывались не на национальном, а на географические деления. С другой стороны, товарно-денежные отношения являлась основной формой экономических связей в пределах империи. Поэтому провинции создавались вокруг экономико-политических центров. Глава каждого из знатнейших кызылбашских эмиров именовался хулафе, а общий руководитель хулафе ал-халифа. Халифов назначал и контролировал основной чиновник Сефевидского ордена в Ардебиле халифат ал хулафа. Придя к власти, Сефевиды несколько видоизменили суть этого института. Действительно, халифат ал-хулафа и его халифы в Азербайджане и за его пределами по-прежнему проводили большую пропагандистскую работу по укреплению Сефевидского государства. Вместе с тем, они в XVI-XVII вв. также занимались религиозными мероприятиямиями, восстанавливали здания медресе, мечетей, в целом контролировали религиозную жизнь правоверных. Источники свидетельствуют, что шах направлял в отдельные провинции хулафат ал-хулафа и халифов, а также суфиев. Хулафат ал-хулафа, как правило, назначались из привилегированной знати кызылбашских племен и были тюрками. Однако, по мере укрепления централистской политики шахской власти, усиления светского характера государства, статус института хулафа подвергся серьезному

изменению и превратился просто в «секретариат по делам суфиев».

Военное ведомство Кара Коюнлу и Ак Коюнлу в сефевидский период мало изменилось. Войска Исмаила были организованы по тому же племенному принципу, что и войска Ак Коюнлу. Сефевидское войско подразделялось на государственное, войска областных правителей, горчии и шахское. Как правило, командующий сефевидскими вооруженными силами, т.е. сипахсалар, являлся бейлербеком Тебриза. Результатом военных реформ шах Аббаса I явилось создание различных родов войск – гуламов, туфенкчи, горчиев, действия которых принесли Кызылбашскому государству внутреннее спокойствие и успехи во внешний политике.

Однако, как и в XVI столетии, влияние и роль горчиев не уменьшилась. По-прежнему в войсках преобладали гурчибаши, на втором месте гулпар агасы, третье место занимал туфенгибаши.

В значительных провинциальных городах среди топчу и туфенкчи были азербайджанские тюркские этнические элементы. В цело, на должность горчибашы страны как правило назначались представители тебризской военной знати. В 1619-м году во главе Тебризских туфенгчи из тысячи человек находился Мухамедтаги. Наряду с Тебризом, в Дербенде и в других городах имелись туфенгчи.

В XVI-XVII столетиях провинции управлялись назначаемыми шахом беглярбеками, соединявшими в своих руках административную и военную власть. До середины правления Тахмасиба (1524-1576) правители областей носили титул султан, а после этого титул хан. Таким образом, правители областей назначались на свои должности с титулами хан, султан, эмир ал-умара или бейлербейи. В первые годы правления Тахмасиба, по сравнению с бейлербейи в обращении чаще встречаются эмир ал-умара. Однако, впоследствии титул бейлербей начинает превалировать. В сущности, оба эти

термина, будучи синонимами, в XVI-XVII столетиях использовались одновременно.

Со времен шаха Аббаса I практика назначения из шахских гуламов, удостоенных звания хана и султана, правителей различные областей империи себя не оправдал. Приняв язык, религию, традиции полукочевой тюркской аристократии, потеряв родственные связи, забыв происхождение, назначенные бейлербеками гуламы, становились главами кызылбашских племен. Это продолжалось надолго и их кратковременное правление областями не могло изменить этническую Идентичность государства.

Бейлербеки назначались из числа кызылбашской феодальной знати, и, являясь главнокомандующий вооруженными силами провинции, носили титул эмир ал-умара. Они получали от Шаха знамя и тюрбан. Бейлербеки распологали постоянными вооруженными силами до 2-3 тыс. человек. Находившиеся в введении магальных хакимов данной области вооруженные силы также подчинялись ему. Командуя своими военными силами, войсками подвластных магальных наибов, численностью в 12-15 тыс., бейлербеки должны были держать при себе в боевою готовности достаточное количество воинов из числа местных племен, которые при возникновении военной опасности составили бы ядро вооруженных сил этой области.

Шах Аббас I и его преемники стремились уничтожить наследственность бейлербеков, но в конечном счете добились лишь частичных результатов. Зато Сефевидские шахи в XVII в. Для ограничение огромной власти бейлербеков, окружили их разными гражданскими сановниками. Ведя борьбу с центробежными силами, Сефевидские шахи не позволяли им иметь при себе значительный воинский контингент. И все же власть бейлербеков была достаточно велика.

Они располагали своим двором, созданным по образцу шахского двора и своими вассалами. Бейлербеки были практически независимы от центральной власти в своих внутренних делах. Они выплачивали шаху определенные налоги, соби-

раемые у населения, держали при себе вооруженные силы, состоящие из соплеменников и обязаны были по приказу шаха принимать участие в военных экспедициях, охране границ, в подавлении народных восстаний. В качестве главнокомандующего вооруженными силами, в основном, выступали бейлербеки Азербайджана, что объясняется военно-стратегической и экономической значимостью Азербайджана в системе Сефевидского государства. Областные сборы с податного населения до середины XVI в. Взимались, руководствуясь уставом (Канун-наме) Узун Гасана, а после этого, законоположением «Бастур ал атал», подготовленным Садр Мир Зейнаддином. Во время шаха Аббаса I прав визиров, ведавшими финансовыми вопросами областей, были значительно расширены. Несмотря на ограничительные меры Аббаса I, областные визири, как и другие чиновники местной администрации, по рекомендации бейлербека, могли назначать на должность и близких ему людей. Он периодически отчитывался перед центром о численности населения области, решал в пределах области спорные гражданские и податные вопросы.

Государство все время подавляло центробежные устремлениями бейлербеков, располагавшими значительными военными силами и большими земельными угодьями. Так как в пределах областей местным чиновникам шахом были пожалованы тиюльные, союргальные, вакфные иммунитет, обладавшие налоговым имуществом, беглербеки не могли вмешиваться в их финансовые дела. Так, в 1647 году в фирмане на имя горчибаши Хачинского магала Гекче бека местным чиновникам и хакимам предписывалась не вмешиваться в их дела.

Бейлербеки осуществляли руководство светскими и религиозными учреждениями на территории вилайетов. Все спорные гражданские и уголовные дела решались с их ведома или с участием их представителей.

В связи с общественно-политическим и экономическим развитием Азербайджанского Сефевидского государства системы местного управления совершенствуются и укрепляются.

В провинциях после беглербеков самым влиятельным чиновником являлся визир. Ведение финансовых дел, вопросов налогообложения, забота об обеспечении интересов государственной казны в каждой крупнейшей административной единице входили в прерогативы визира. Он назначался шахом, подчинялся беглербеку, и считался рангом ниже его. Однако он действовал независимо и самостоятельно.

Следует отметить, что так как азербайджанские визиры были очень влиятельными, во многих случаях финансовые вопросы Ширвана, Карабаха и Чухур - Саада поручались им. В отдельных случаях областные визиры также обладали функциями мустоуфи. Так, в начале правления шаха Сефи Мухаммед Иштахариди одновременно являлся визиром, и мустоуфи Азербайджана.

Магалы, города и вакфы, управлялись по особому порядку. Так указанные области управлялись, назначенным шахом визирем, дарга или мутавалли. Они подчинялись непосредственно шаху, а не бейлербеку.

Вилайеты разделялись на округа (магалы). Под видом последних нередко существовали ольке, принадлежавшие наследственным владетелям. Магалы управлялись представителями тюрекской кызылбашской знати, которые носили титулы султан или бек. Магальных наибов назначал шах, но подчинялись они бейлербеку. Магальные наибы обладали широкими полномочиями. Хаким являлся одновременно командующим военными силами магала. Он занимался финансовыми вопросами и контролировал сбор налогов. Несмотря на то, что деятельность этих чиновников протекала под строгим надзором бейлербека, они владели обширными правами в этой области. Магальных наибов выбирали, как правило, из местного населения и им поручалась охрана магальных центров. Ему подчинялся, также местный гарнизон.

Усиление Азербайджанского Сефевидского государства оказывало серьезное влияние на совершенствование управление религиозными учреждений. Наряду с областными

центрами, в другие значительные города по представлению садра шахским указам назначались шейх-ул-ислам, гази.

Областным и городским вакфным имуществом управляли назначенные по представлению диван ас-садага мутаваллий. Его могли освободить от должности шах или садр. В отдельных случаях ему поручалось управление магалами или священными местами в городах. В случае, если должность муталли и хакима поручалась одному лицу, то управление данным магалом или городом приобретало теократический характер. Поручение указанных должностей одному лицу в сефевидский период особенно ярко проявляется на примере Ардебиля.

## Conclusıon

Safavid state emerged as a perfect political organization of Azerbaijan society. The central authorities that carried out as division of responsibilities between them were organized here. Local authorities were created based on the administrative-territorial division and higher authorities was eventually implemented throughout the country. A certain role in the establishment of the Safavid state owned Azerbaijani ethnic elements, which both in the center and locally played the dominant role that the existing evidence from ancient times statehood traditions. Form of state structure and state government of the Safavid state not much different from those, which existed at the time of dynasties Bakharlu and Bayandurlu, who ruled the Azerbaijan in the XV century. Safavids was widely used in ancient Turkish experience. At times, they relied on the state traditions of the Ottomans and the countries of Central Asia.

The Azerbaijan Safavid state, which formed with Safavid dynasty and adaptable to the socio-economic situation of society, was in fact a classical Muslim country, where secular and religious authorities was unity. They were not able to distinguish between the early years of the reign of dynasty. The couplets of Shah Ismail Khatai, which begins sentence "I am either sacred man or the leader of the world", were embodiment of the spiritual kingdom with the availability ideology of government and shows basic principle of theocratic state.

Although the Safavid shahs had enormous power, which had the hereditary character, under the Shah on the advisory rights was the high Majlis (Majlis-i Ali). Despite the fact that the most important state issues were dealt with in the Majlis of 12 people, Shah gave the final decision. In matters of declaring war and making peace, changes in the legislation of the country shah had unlimited powers.

Azerbaijani Turkic ethnic element played a decisive role in the creation of the Safavid state, and therefore cannot agree with the views, which deal Kyzylbashs state as an empire - a conglomerate.

Overthrowing rival in Fars, Yazd, Kirman, Khorasan, Astrabad, Mazendarane Gilan and the power of local dynasties, the Safavids established here provinces. In accordance with the forms of the Safavid state management relations central and local government were not based on national and geographic division. On the other hand, commodity-money relations are the main form of economic relations within the empire. Therefore, the provinces were created around the economic and political centers. The head of each of the Kyzylbash nobles was called khulafa and the general director of khulafa al Khalifa. Khulafas appointed and supervised khulafa al Khalifa that was the main official of Safavid society in Ardabil. The essence of this institution changed a bit after the Safavid power. It is true that khulafa al khalifa and his khulafas continued the propaganda work Azerbaijan and beyond as before in terms of the strengthening of the state. However, they XVI-XVII cc. also engaged in religious ceremonies, restored building madrassas, mosques, generally controlled the religious life of the faithful. Sources indicate that the Shah sent in separate provinces khulafa al khalifa and his khulafas, as well as the Sufis. Khulafa al khalifa usually appointed from privileged elite Kyzylbash tribes, which were Turks. However, with the strengthening of the centralist policies of the Shah's government, strengthen the secular character of the state, the status of the institute khulafa undergone a major change and become simply a "Secretariat for the Sufis."

The military department of Kara Koyunlu and Ak Koyunlu dynasty has few changed in the Safavid period. The military divided to the government (provincial judge’s troops, gorchues) and shah forces. As a rule, the commander of the armed forces Safavid, i.e. sipahsalar, was beylerbeyi of Tabriz. The result of military reforms Shah Abbas I was the creation of various types of troops - Gulams, tufenkchies, topcues, whose actions brought Kyzylbash State inner peace and success in foreign policy. However, in XVII century the authority of the army didn`t weak as in the XVI century.

In large provincial cities among topcues and tufenkchies were Azerbaijani Turkic ethnic elements. In general, as a rule the position

of topcubashi were appointed Tabriz military nobles. In 1619, the head of Tabriz`s tufengchi of thousands of people was Mohamed Taghi Tabrizi. Along with Tabriz, Darband and other cities were their tufenkchies.

In XVI-XVII centuries, province ruled by beylerbeyi, which appointed the Shah, unite in their hands administrative and military authorities. Until the middle of the reign of Tahmasp (1524-1576), regional rulers bore the title of Sultan, and then the title of Khan. Thus, regional rulers were appointed to their posts with titles Khan, Sultan, Emir al-Umara or Beylerbeyi. In the early years of Tahmasp I, compared with Beylerbeyi in circulation are more common Emir al-Umara. However, later the title of Beylerbeyi begins to dominate. In fact, both of these terms being synonymous, in XVI-XVII centuries were used simultaneously.

Since the time of Shah Abbas I, practice of appointing the Shah's Gulams awarded the title of Khan and Sultan rulers of the various regions of the empire has not justified itself. By adopting the language, religion, traditions Turkic aristocracy lost family ties, forgetting origin, destination beylerbeyi called as Gulams, becomes head Kyzylbash tribes.

Beylerbeyi appointed from among Kyzylbash feudal nobility, and, as commander in chief of the armed forces of the province, bore the title of Amir al-Umara. They received from the Shah Banner and turban. Beylerbeyi has permanent armed forces up to 2-3 thousand person. Commanding their military forces, forces subservient mahals` naibs, numbering 12-15 thousand, Beylerbeyi had to keep to themselves in readiness sufficient number of soldiers from the local tribes, which in case of danger of war would have been the core of the armed forces in the area.

Shah Abbas I and his successors sought to destroy the heredity beylerbeyi, but ultimately achieved only partial results. To limit the enormous power beylerbeyi, surrounded by their various civilian dignitaries. Leading the fight against the centrifugal forces, the Safavid shahs did not allow them to carry a significant military contingent. However, the power beylerbeyi was large enough.

They possessed his palace, modeled after the royal palace and his vassals. Beylerbeyies were almost independent from the central government in its internal affairs. They paid Shah certain taxes collected from the population, kept a military force composed of tribesmen and had by order of the Shah to take part in military expeditions, border security and the suppression of popular uprisings. As chief of the armed forces, mostly serving Beylerbeyies of Azerbaijan, due to the military-strategic and economic importance of Azerbaijan in the Safavid state. Provincial taxes collected based on the "Dastur-ul-Amal" prepared by Sadr Mir-Zeynəddin, from the middle XVI century. During the period of Shah Abbas I finance officials` areas of the right of viziers were greatly expanded. Despite the restrictive measures Abbas I, regional viziers, as well as other officials of the local administration, on the recommendation of beylerbeyi could appoint and dismissed to him. He periodically reported to the center of the region's population, has decided within the scope of the controversial civil and taxable questions. According to centrifugal tendencies, the state are always supervised of beylerbeyi, which had wide economic rights.

Tiyul, wakf and soyurgal property, which was issued by Shah to other nobles, Beylerbeyi didn`t interfere with their financial affairs in the province. Because they have the right to tax immunity. For example, in 1647, in the name of the order about giving the mahal of Khachin to the gorchibashi Gokcen bey was noted that local officials and hakims ordered not to interfere in their affairs.

Beylerbeyies provide leadership secular and religious institutions in the territory of the provinces. All contentious civil and criminal cases were solved with the consent or participation of their representatives.

In connection with the socio-political and economic development of Azerbaijan Safavid state system of local governance improved and strengthened. In the provinces after Beylerbeyies, most influential official was viziers. Financial management, taxation issues, concern for safeguarding the interests of the state treasury in each administrative division is the

prerogative of the viziers. He was appointed by the Shah, but obeyed beylerbeyi and was considered a rank below him. However, he has acted independently and on their own. It should be noted that since the Azerbaijani viziers were very influential in many cases financial issues Shirvan, Karabakh and Chukhur - Saad entrusted to them. In some cases, regional vizier also feature mustoufi. So, at the beginning of the reign of Shah Mohammed Safi Ishtaharidi simultaneously was vizier and mustoufi Azerbaijan. Mahals, cities and wakfs, governed by special order. Since these areas are controlled vizier, dargha or mutavalli, which was, designated by Shah. They report directly to the shah, not to beylerbeyi.

Vilayets divided into districts (Mahals). Mahals administered by representatives Turkish – Kyzylbash nobles who wore the title of Sultan or Bey. Naibs of mahals appointed by Shah, but they obeyed beylerbeyi. Hakims have broad powers in mahals. Hakim was both commander of the military forces of the mahals. He was engaged in financial matters and supervised the collection of taxes. Despite the fact that the activities of these officials proceeded under the strict supervision beylerbeyi, they owned extensive rights in this area.

Naibs of mahals chosen, as a rule, from the local community and it was entrusted with the protection of mahals centers. He obeyed, and the local garrison.

Strengthening Azerbaijan Safavid state was profoundly influencing improving management of religious institutions. Along with regional centers in other major cities, Sheikh-ul-Islam and Gazi were appointed on the proposal Sadr and Shah's decrees.

Wakfs managed mutavallies whose appointed to submit Divan as-Sadara in the the regional and city property. He could dismiss the Shah or Sadr. In some cases, he was instructed to control mahals or sacred places in the city. If a post Mutallim and hakim entrusted to one person, the management of this mahals or city acquired the theocratic character. Order these posts one person in the Safavid period is particularly evident in the example of Ardabil.

As in other Muslim countries, also in Azerbaijan, a number of civil and criminal issues were resolved based on Sharia law and

order. Divanbəyies, hakims and darghas were engaged with issues of urfi law. Sheikh-ul-Islam and Gazi were engaged with issues of sharia law. Beylerbeyies and darghas were engaged with issues of urfi law in the provinces.  The most serious crime was death attributable to the urfi law. As a rule, were sentenced to death for killing a man.

# BİBLİOQRAFİYA

*a) Azərbaycan dilində*


1. Abbasqulu ağa Bakıxanov. Gülüstani-İrəm. Bakı: «Mömin» intişaratı, 2001, 287 s.
2. Azərbaycan ədəbiyyatı tarixi. c. 1, Bakı: Azərbaycan SSRİ Elmlər Akademiyası nəşriyyatı, 1960, 590 s.
3. Azərbaycan tarixi. Uzaq keçmişdən 1870-ci ilə qədər. Redaktor: tarix elmləri doktoru, professor, əməkdar elm xadimi Süleyman Əliyarlı, Bakı: «Azərbaycan» nəşriyyatı, 1996, 872 s.
4. Azərbaycan tarixi. 7 cilddə, III c, Bakı: Elm, 1999, 584 s.
5. Azərbaycan tarixi üzrə qaynaqlar. Professor S.S.Əliyarlı və dosent Y.M.Mahmudovun redaktəsi ilə, Bakı: Azərbaycan Universiteti nəşriyyatı, 1989, 328 s.
6. Baxşəliyev A.B. Səfəvi dövlətinin sosial-iqtisadi həyatı və beynəlxalq əlaqələri. Bakı: ADPU-nun mətbəəsi, 2009, 274 s.
7. Bayramlı Z.H. Azərbaycan Səfəvi dövlətinin idarə quruluşunun bəzi məsələləri Tavernyenin səyahətnaməsində// Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2004, №1, s.131-144.
8. Bayramlı Z., Əzizli B. Azərbaycan Evliya Çələbinin 1654-cü il «Səyahətnamə»sində. Bakı: «Azərbaycan» nəşriyyatı, 2000, 174 s.
9. Bayramlı Z.H. Jan Şardenin «Səfərnamə»sində Səfəvilər dövlətində dini divanın təkamülü ilə bağlı bəzi məsələlər// Bakı Universitetinin xəbərləri, Humanitar elmlər seriyası, 2004, №4, s.163-172
10. Bayramov Z.H. Azərbaycan bəylərbəyilikləri və onun statusu// Azərb. EA-nın xəbərləri, Tarix, Fəlsəfə və Hüquq seriyası, Bakı, 1984, №4, s. 30-36
11. Bayramov Z.H., Cəfərli N. Çuxur-Səd bəylərbəyliyi// Elm və həyat, 1990, №6, s. 15-16

12. Bayramov Z.H. Səfəvilər dövründə daruqə və şəhər idarə sistemində rolu// Azərb. EA-nın məruzələri, Bakı: «Elm» nəşriyyatı, 1984, №6, s. 80-84
13. Bayramov Z.H. Səfəvilər dövləti sistemində Azərbaycanda yerli və şəhər idarəçiliyinin qaynaqlarda öyrənilməsi təcrübəsindən: Azərbaycan tarixi üzrə qaynaqların öyrənilmə problemləri, Bakı: ADU, 1988, s. 106-116
14. Bayramov Z.H. Qarabağ bəylərbəyliyi// Elm və həyat, 1989, №5, s.9-10
15. Bayramov Z.H. Səfəvilər dövlətinin idarə quruluşunda Xəlifət əl-xülafə vəzifəsi// Azərbaycan tarixinin problemləri (məqalələr toplusu), Bakı, 1993, s. 131-144
16. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. Azərbaycan dilinə çevirənlər akademik Z.M.Bünyadov və tarix elmləri namizədi N.R.Ağayeva, Bakı: «Elm» nəşriyyatı, 1999, 160 s.
17. Dəlili H.Ə. Azərbaycan-Rusiya münasibətləri Fars və Azərbaycan dilli sənədlərdə. Bakı: «Elm» nəşriyyatı, 1976, 107 s.
18. Evliya Çələbi. Səyahətnamə. Türk dilindən işləyəni və şərhlərin müəllifi tarix elmləri doktoru, professor Seyidağa Onullahi, Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1997, 87 s.
19. Əbu Əli Həsən ibn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Farscadan tərcümə R.Sultanovundur, Bakı: «Elm» nəşriyyatı, 1987, 208 s.
20. Əfəndiyev O.A. Azərbaycan Səfəvilər dövləti. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1993, 301 s.
21. Əliyarov S. Azərbaycanda bidətçilik hərəkatına dair ədəbi mənbələrin araşdırma təcrübəsindən// Azərbaycan filologiyası məsələləri, I buraxılış, Bakı: «Elm», 1983, s. 179-204
21a. Əliyarlı S. Tariximiz açıqlanmamış mövzuları ilə. Bakı 2012.
22. Əmir Teymurun vəsiyyətləri. Özbəkcədən tərcümə edən Məti Osmanoğlu, Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1992, 112 s.
23. Əsgərova Ş.K., Əfəndiyev O.Ə. Qazi Əhməd Qumi və onun «Xülasət ət-təvarix» əsəri haqqında. Azərbaycan EA xəbərləri, Tarix, Fəlsəfə və Hüquq seriyası, Bakı, 1976, №3, s. 38-46

24. Fərzəliyev Ş.F. Azərbaycan XV-XVI əsrlərdə. Bakı: «Elm» nəşriyyatı, 1983, 150 s.
25. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlər Hüsaməddin Məmmədovundur, Bakı: «Şuşa» nəşriyyatı, 2000, 576 s.
26. Hacıyev T.İ. Azərbaycan ədəbi dili tarixi. Bakı: ADU nəşri, 1976, 152 s.
27. Hacıyev T.İ., Vəliyev K.N. Azərbaycan dili tarixi. Bakı: «Maarif» nəşriyyatı, 1983, 186 s.
28. Xacə Zeynalabdin Əli Əbdi bəy Şirazi. Təkmillətül-Əxbar. Fars dilindən tərcümə Əbülfəz Haşım oğlu Rəhimlinindir, Bakı: Elm, 1996, 200 s.
29. İbrahimov C. Azərbaycanın XV əsr tarixinə dair oçerklər. Bakı: APİ nəşriyyatı, 1958, 209 s.
29a. İsgəndər bəy Münşi Türkman. Tarix-i alamara-yi Abbasi. (Abbasın dünyanı bəzəyən tarixi). I cild, Farscadan tərcümənin, ön sözün, şərhlərin və göstəricilərin müəllifləri AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor Oqtay Əfəndiyev, tarix elmləri namizədi Namiq Musalı, Bakı: "Təhsil", 2009, 792 s.
30. Kərimov Q. Şəriət və onun sosial mahiyyəti. Tərcümə edən A. Qəhrəmanov, Bakı: Azərnəşr, 1987, 222 s.
31. Kruşinski Y.T. Xristian səyyahın tarixi. Farscadan tərcümə edəni Ş.Fərzəliyev, Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1993, 105 s.
31a.Qarabağnamələr. Tərtib edəni və çapa hazırlayan A.Fərzəliyev, birinci kitab, Bakı, 1989.
31b. Qarabağnamələr. Tərtib edəni və çapa hazırlayanı Prof.Nazim Axundov, ikinci kitab, Bakı, 1991.
32. Qızılbaşlar tarixi. Tərcümə və şərhlər M.Ə.Məhəmmədindir, Bakı: «Azərbaycan» nəşriyyatı, 1993, 48 s.
33. Qurbani (tərtibçi, ön söz, qeyd və izahların müəllifi prof. Q. Kazımov). Bakı: Bakı Universiteti Nəşriyyatı, 1990, 280 s.
34. Mahmudov Y.M. Səyyahlar Azərbaycana gəlir.Bakı:«Gənclik», 1977, 138 s.

35. Mahmudov Y.M. Odlar yurduna səyahət. Bakı: «Gənclik», 1980, 119 s.
36. Mahmudov Y.M. Səyyahlar, kəşflər, Azərbaycan. Bakı: «Gənclik», 1985, 184 s.
37. Mehmed Solak-zade. Tarix. Türk dilindən tərcümə edəni akademik Z.M.Bünyadov, Bakı: «Elm» nəşriyyatı, 1992, 82 s.
38. Məhəmmədəli Tərbiyət. Daneşməndani-Azərbaycan. Tərcümə edənlər İsmayıl Şəms, Qafar Kəndli, Bakı: Azərnəşr, 1987, 464 s.
39. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı: «Elm» nəşriyyatı, 1977, 157s.
40. Məmmədov S.A. Azərbaycan tarixi. Bakı: Çaşıoğlu, 2004, 291 s.
41. Məmmədova Ş. Xülasət ət-təvarix Azərbaycan tarixinin mənbəyi kimi. Bakı: Elm, 1991, 120 s.
42. Məmməd Dadaşzadə. Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti. Bakı: «Elm» nəşriyyatı, 1985, 213 s.
43. Mirzə Abbaslı. Şah İsmayıl Xətainin ömür yolu miniatürlərdə. Bakı: «İşıq» nəşriyyatı, 1981, 45 s.
44. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, 1965, 131 s.
45. Musəvi T.M. Bakı tarixinə dair orta əsr sənədləri. Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, 1967, 142 s.
46. Musəvi T.M. Orta əsr Azərbaycan tarixinə dair farsdilli sənədlər (XVI-XVII əsrlər). Bakı: «Elm» nəşriyyatı, 1977, 237 s.
46a. Namiq Musalı. I Şah İsmayılın hakimiyyəti ("Tarix-i alamara-yi Şah İsmayıl"əsəri əsasında). Bakı, "Elm və təhsil", 2011, 482 s.
47. Nemətova M.X. Şirvanın XIV-XVI əsrlər tarixinin öyrənilməsinə dair. Bakı: Azərbaycan SSR EA-nın nəşriyyatı, 1959, 142 s.
47a. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında). Bakı: Çaşoğlu, 2012, 604 s.

48. Onullahi S.M. İran burjua alimlərinin əsərlərində Azərbaycan dili tarixinin saxtalaşdırılması// Azərbaycan tarixi və mədəniyyətinin burjua saxtalaşdırıcılarına qarşı. Bakı: «Elm» nəşriyyatı, 1978, s. 141-158
49. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı: «Elm» nəşriyyatı, 1982, 278 s.
50. Petruşevski İ.P. XV əsrdə Azərbaycan dövlətləri// Azərbaycan SSR Elmlər Akademiyası Tarix və Fəlsəfə İnstitutunun əsərləri, c.I, Bakı:Azərb. EA-nın nəşriyyatı 1951, s. 49-108
51. Piriyev V.Z. Azərbaycanın tarixi coğrafiyası. Bakı: «Araz» nəşriyyatı, 2002, 152 s.
52. Piriyev V.Z. Azırbaycan XIII – XIV əsrlərdə. Bakı: «Nurlan» nəşriyyatı, 2003, 453 s.
53. Selaniki Mustafa Əfəndi. Tarix-i Selaniki. Osmanlı türk dilindən tərcümə edəni akademik Z.M.Bünyadov, Bakı: «Elm» nəşriyyatı, 1992, 74 s.
54. Seyidağa Onullahi, Yaqub Mahmudov. Paniranistin «kəşfi» və ya Xətai şair «deyilmiş»!! «Azərbaycan» jurnalı, 1988, №2, s. 79-92
55. Şah İsmayıl Xətayi. Keçmə namərd körpüsündən: şerlər və poemalar. Bakı: Yazıçı, 1988, 344 s.
56. Şah Təhmasibin təzkirəsi. Fars dilindən tərcümə və müqəddimə Ə.H.Rəhimovundur. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1996, 128 s.
57. Şeyx Səfiəddin Ərdəbili. Qara məcmuə (Şeyx Səfiəddin Ərdəbilinin şerləri, sözləri, öyüdləri və mənqəbələri). Doktor Hüseyn Məhəmmədzadə Sədiqin hazırlayıb nəşr etdirdiyi mətn əsasında (Tehran-2001-ci il) transliterasiya edib çapa hazırlayan, ön söz, izah və şərhlərin müəllifi f.e.n. İslam Qəribli, Bakı: Cavidan-T, 2004, 139 s.
58. Venesiyalar Şah Təhmasibin sarayında (Mikell Membre və Vinçenso Alessandri). İngilis dilindən tərcümə, ön söz, giriş və şərhlər AMEA-nın müxbir üzvü Oqtay Əfəndiyevindir, Bakı: Təhsil, 2005, 112 s.

59. Zabil Bayramlı. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə sistemi, Bakı: ADPU, 2006, 258 s.

*b) türk dilində*

59a. Abdüllatif Kazvini. Safevi tarihi. Çeviren ve notlandıran Hamidreza Mohemmednejad, Ankara: Cantekin Matbaasi, 2011, 132 s.
59b. Ahmed bin Mahmud. Selcuk-name.Hazırlayan Erdoğan Merçil, İstanbul.1977.
60. Erol Güngör. Tarihte türkler. İstanbul: Ötüken neşriyyat A.Ş., 1990, 425 s.
61. Evliya Çelebi. Seyahatnamesi (Giriş). Ankara: Başbakanlık Basımevi, 1983, 350 s.
62. Evliya Çelebi. Seyahatnamesi. kitab I. Ankara: Başbakanlık Basımevi, 1982, 411 s.
63. Evliya Çelebi. Seyahatnamesi. II cild, İstanbul, 1314, 466 s.
64. Evliya Çelebi. Seyahatnamesi. Yeddinci kitab, İstanbul: Kardeş matbaasi, 1970, 335 s.
65. Evliya Çelebi. Seyahatnamesi. Üçüncü kitab, İstanbul: Kardeş matbaasi, 1972, 320 s.
66. Evliya Çelebi. Seyahatnamesi. Beşinci kitab, İstanbul: Kardeş matbaasi, 1970, 336 s.
67. Faruk Sümer. Safevi devletinin kuruluşu və gelişmesinde Anadolu türklerinin rolu. Ankara: Türk Tarih Kurumu Basımevi, 1977, 263 s.
68. Hoca Sadeddin Efendi. Tacüt-tevarih. c.3-4, İstanbul: Milli Egitim basımevi, 1979, 399 s.; 407 s.
69. İslam ansiklopedisi. X cild, İstanbul: Milli Egitim basımevi, 1966, 785 s.
70. Osmanlı devleti ilə Azərbaycan türk hanlıkları arasındakı münasebetlere dair arşiv belgeleri. Karabağ-Şuşa, Nahçivan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy (1578-1914). c.1, Ankara, 1992, 427 s.

71. Osmanlı devleti ilə Azərbaycan türk hanlıkları arasındakı münasebetlere dair arşiv belgeleri. Karabağ-Şuşa, Nahçivan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy (1578-1914). c.II, Ankara, 1993, 483 s.
72. Yılmaz Öztüna. Başlanğıçtan zamanamıza kadar Türkiye tarihi. c.V. İstanbul: Hayat yayınları adına tdruk matbaaçilik sanayii, 1964, 337 s.
73. Peçevi İbrahim Efendi. Peçevi tarihi. c.I, Hazırlayan prof. Bekir Sitki Baykal. Ankara: Başbakanlıq matbaasi, 1981, 356 s.
74. Valter Hins. Uzun Hasan və Şeyx Cuneyd. XV yuzyılda İranın milli bir devlet halına yükselişi. Çevireni Tevfik Bıyıkoğlu, Ankara: Türk tarih kurumu basımevi, 1948.

*c) fars dilində*

75. ابو القاسم سحاب، تاریخ زندگی شاه عباس کبیر، تهران، چاپخانه علمی، 1325، 309 ص.
76. ابو القاسم طاهری، تاریخ سیاسی و اجتماعی ایران (از مرگ تیمور تا مرگ شاه عباس اول)، تهران، 1347، 399 ص.
77. احسن التواریخ، تألیف حسن روملو، به سعی و تصحیح چارلس نارمن سیدن، تهران: از انتشارات کتابخانه صدر، 1342، 541 ص.
78. احمد تاجبخش، ایران در زمان صفویه، تبریز: چاپخانه شفق، 1340، 416 ص.
79. اروج بیگ بیات، دون ژوان ایرانی، ترجمه مسعود رجب نیا، تهران، 1338
80. اسکندر بیگ ترکمان، تاریخ عالم آرای عباسی، جلد 1-2، تهران، چاپ گلشن، 1350، ص. 1-607؛ 607- 1235
81. اسکندر بیگ ترکمان و محمد یوسف مورخ، ذیل عالم آرای عباسی، بتصحیح آقای سهیلی خوانساری، تهران،چاپخانه اسلامیه، 1317 ۳۲۰ ص
82. امیر محمود بن خواندمیر، ایران در روزگار شاه اسماعیل و شاه طهماسب صفوی، تهران، چاپخانه نقش جهان، 1370، 506 ص.
83. امین بنانی، دارلی دران، دوبروین، سیوری لکهارت، نیومن، کری ولش، صفویان، ترجمه و تدوین دکتر یعقوب آژند، تهران: چاپخانه ایران مصور، 1380، 375 ص.
84. باستانی پاریزی، سیاست و اقتصاد عصر صفوی، تهران: چاپخانه کاویان، 1348، 533 ص.
85. بوداق قزوینی، جواهرالاخبار،

M. E. Saltıkov-Şedrin adına Sankt-Peterburq Dövlət Kütləvi Kitabxanasının Əlyazmalar Şöbəsi, B. Dorunun kataloqu, N: 288
86. پیترو دلاواله، سفرنامه پیترو دلاواله، ترجمه و حواشی از شعاع الدین شفا، تهران: شرکت انتشارات علمی و فرهنگی، 1348، 483 ص.
87. تاریخ بیجن، نسخه موزه بریتانیا
88. تاریخ حبیب السیر فی اخبار افراد بشر، تالیف غیاث الدین بن همام الدین الحسینی المدعو به خواند امیر، جلد چهارم، تهران، انتشارات دانشگاه، 1333، 796 ص.
89. جملی کارری، سفرنامه کارری، ترجمه دکتر عباس نخجوانی و عبدالعلی کارنگ، تبریز: چاپخانه شفق، 1348، 206 ص.
90. حسن جوادی، ایران از دیدگاه سیاحان اروپایی (از قدیم ترین ایام تا اوایل عهد صفویه). جلد اول، تهران: نشر بوته، 1378، 250 ص.
91. حسین میر جعفری، فرمان شاه طهماسب صفوی، مجله بررسیهای تاریخی// تهران، 1353، شماره 2، ص. 96-106
92. حمدالله بن ابی بکر بن محمد بن نصر مستوفی قزوینی، نزهة القلوب، تهران: ناشر کتابخانه طهوری، 1336، 245 ص.
93. خانبابا بیانی، تاریخ نظامی ایران در دوره صفوی، تهران: از انتشارات ستاد بزرگ آرتشداران، 1353، 593 ص.
94. خواند امیر، نامه نامی،
MEA M. Füzuli adına Ədəbiyyat İnstitutunun arxivi, inv. № M-209/3583
95. خورشاه بن قباد الحسینی، تاریخ ایلچی نظام شاه، نسخه خطی موزه بریتانیا
96. در دربار شاهنشاه ایران، تالیف انگلبرت کمپفر، ترجمه کیکاووس جهانداری، تهران: شرکت سهامی افست، 1350، 312 ص.
96a دکتر ریاض الاسلام. تاریخ روابط ایران وهند ( در دورة صفویه و افشار). ترجمه محمد باقر آرام – عباسقلی غفاری فرد. انتشارات امیر کبیر، تهران ۱۳۷۳ ، ٤۲۷ص
97. دستور الملک میرزا رفیعا، به کوشش محمد تقی دانش پژوه، مجله دانشگاه ادبیات و علوم انسانی// تهران، 1347، شماره 65-66 و 67، ص. 62-93؛ 298-322
98. راجر سیوری، ایران عصر صفوی، ترجمه : کامبیز عزیزی، تهران: نشر مرکز، 1374، 390 ص.
99. راجر سیوری، در باب صفویان، ترجمه ی رمضان علی روح الهی، تهران: نشر مرکز، 1380، 334 ص.

100.رحر برن، نظام ایلات در دوره صفویه، ترجمه کیکاووس جهانداری، تهران: چاپخانه بهمن، 1349، 247 ص.
101.رشید الدین فضل الله، جامع التواریخ، جزو اول از جلد اول، متن علمی و انتقادی به سعی و اهتمام آ. آ. روماسکویچ، ل. آ. ختاقوروف، ع. ع. علی زاده، مسکو: انتشارات دانش، 1965، 578 ص.
102.روضة الصفویه، تالیف میرزا بیک پسر حسن حسینی جونابادی، Azərbaycan MEA A.A. Bakıxanov adına Tarix İnstitutu arxivi, inv. № 2614 (4), fotosurət.
103.سازمان اداری حکومت صفوی یا تعلیقات مینورسکی بر تذکرة الملوک، ترجمه مسعود رجب نیار، تهران: انتشارات امیر کبیر، 1368، 340 ص.
104.سفرنامه تاورنیه، ترجمه: ابوتراب نوری، اصفهان: چاپخانه پروین، 1346، 719 ص.
105.سفرنامه دن گارسیا د سیلوا فیگوئروآ، ترجمه غلامرضا سمیعی، تهران: چاپخانه کتیبه، 1363، 530 ص.
106.سفرنامه سانسون، وضع کشور شاهنشاهی ایران در زمان شاه سیلمان صفوی، ترجمه دکتر تقی تفضلی، تهران، 1346، 237 ص.
107.سفرنامه ونیزیان در ایران (شش سفرنامه)، ترجمه دکتر منوچهر امیری، تهران: شرکت سهامی، انتشارات خوارزمی، 1349، 450 ص.
108.سید حسین بن مرتضی حسینی آسترآبادی، تاریخ سلطانی از شیخ صفی تا شاه صفی، تهران: چاپخانه بهمن، 1358، 311 ص.
109.شاه اسماعیل صفوی، اسناد و مکاتبات تاریخی همراه با یادداشت های تفصلی، به اهتمام دکتر عبدالحسین نوائی، تهران: انتشارات فرهنگ ایران، 1347، 419 ص.
110.شاه طهماسب صفوی، اسناد و مکاتبات تاریخی همراه با یادداشت های تفصلی، به اهتمام دکتر عبدالحسین نوائی، تهران: انتشارات فرهنگ ایران، 1350، 546 ص.
111.شاه عباس صفوی، اسناد و مکاتبات تاریخی همراه با یادداشت های تفصلی، به اهتمام دکتر عبدالحسین نوائی، جلد اول، تهران: انتشارات فرهنگ ایران، 1352، 374 ص.
112.شاردن، سفرنامه شاردن، ترجمه اقبال یقمائی، ج. 1-5، تهران: چاپخانه حیدری، 1372-1374، ص. 464، 464-912؛ 912-1308؛ 1308-1656؛ 1656-1952.
113.شاردن، سیاحتنامه شاردن، ترجمه محمد عباسی، ج. 2-4، تهران: انتشارات امیر کبیر، 1335-1336، ص. 301؛ 470؛ 510.

114.شرف خان بن شمس الدين بدليسى، شرف نامه، ج. 1-2، پطربورغ: دارالطباع اكادميه امپراطوريه، 1860-1862، 397؛ 432 ص.
115.صدرالدين سلطان ابراهيم الامينى، فتوحات شاهى، Azərbaycan MEA A.A. Bakıxanov adına Tarix İnstitutu arxivi, inv. № 4105
116.عالم آراى صفوى، به كوشش يدالله شكرى، تهران: انتشارات اطلاعات، 1363، 688 ص.
117.عبدى بيگ شيرازى، تكلمة الاخبارى، Azərbaycan MEA A.A. Bakıxanov adına Tarix İnstitutu arxivi, inv. № 5067
118.فضلى اصفهانى، افضل التواريخ، نسخه خطى از موزه بريتانيا
119.قاضى احمد بن شرف الدين الحسينى الحسين القمى، خلاصة التواريخ، ج. 1-2، تهران: موسسه انتشارات و چاپ دانشگاه، 1363، ص. 1-614؛ 614-1200.
120.قاضى احمد غفارى، تاريخ جهان آرا، تهران: انتشارات دانشگاه، 1343، 392 ص.
121.قاضى احمد قمى، خلاصة التواريخ، نسخه خطى از كتابخانه مهدى بيانى (تهران) و نسخه خطى برلين.
122.لمبتون، آن. ک. س. سيرى در تاريخ بعد از اسلام، ترجمه يعقوب آژند، تهران: انتشارات امير كبير، 1381، 336 ص.
123.محمد احمد پناهى سمنانى، شاه سلطان حسين صفوى، تهران: چاپخانه سلمان فارسى، 1373، 340 ص.
124.محمد جواد مشكور، نظرى به تاريخ آذربايجان، تهران: چاپخانه بهمن، 1349، 970 ص.
125.محمد طاهر وحيد قزوينى. شرح زندگانى ٢٣ ساله شاه عباس ثانى ( ١٠٥٢-١٠٧٣ ). به تصحيح و تحشيه آقاى ابراهيم دهگانى. اراگ، ١٣٢٩، ٣٥٣ ص. همچنين رجوع شود به نسخه خطى پتربورق.
125a.محمد طاهر وحيد قزوينى. سر گذشت شاه عباس دوم. به كوشش ستار عودى تهران: ناشر موسه فرهنگى اهل قلم ١٣٨٤، ١٢٤ص.
126.محمد معصوم ابن خواجگى اصفهانى، خلاصة السير. M. E. Saltıkov – Şedrin adına Sankt-Peterburq, Dövlət Kütləvi Kitabxanasının əlyazmalar şöbəsi, B. Dorunun kataloqu 303, Azərbaycan MEA A. A. Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivi, inv. № 4876 (2), Fotosurət.
127.محمد هندوشاه نخجوانى، دستورالكتاب فى تعيين المراتب، جلد دوم، مسكو: اداره انتشارات دانش، 1976، 649 ص.

128.محمد یوسف قزوینی، خلد برین، تهران: چاپخانه شیرین، 1372، 900 ص.؛ همچنین رجوع شود به نسخه خطی موزه بریتانیا
129.محمود بن هدایت الله افوشته نطنزی، نقاوة الآثار فی ذکر الاخبار، تهران: چاپخانه بهمن، 1350، 649 ص.
130.ملا کمال بن جلال الدین محمد منجم، زبدة التواریخ، نسخه خطی؛ همچنین دو کتاب نفیس از مدارک اولیه تاریخ صفویان، خلاصة التواریخ – تاریخ ملا کمال، اراک، 1334، 127 ص.
131.ملا جلال الدین محمد منجم یزدی، تاریخ عباسی یا روزنامه ملا جلال، تهران: انتشارات وحید، 1366، 498 ص.
132.میرزا سمیعا، تذکرة الملوک، به کوشش دکتر سید محمد بیر سیاقی، تهران، انتشارات امیر کبیر، 1368، 140ص.
133.نصر الله فلسفی، زندگانی شاه عباس اول، ج. 1-2، تهران: چاپخانه مهارت، 1364، ص. 309-738
134.نصر الله فلسفی، زندگانی شاه عباس اول، ج. 3، تهران: چاپخانه مهارت، 1364، ص. 738-1254
135.نصر الله فلسفی، زندگانی شاه عباس اول، ج. 4-5، تهران: چاپخانه مهارت، 1364، ص. 1254-2102
136.نصر الله فلسفی، سیاست خارجی ایران در دوران صفویه، تهران: شرکت سهامی، 1337، 320 ص.
137.نظام الدین مجیر شیبانی، تشکیل شاهنشاهی صفویه، تهران: چاپخانه دانشگاه، 1346، 273 ص.
138.یحیی بن عبداللطیف قزوینی، لب التواریخ، تهران: انتشارات بنیاد و گویا، 1363، 429 ص.

*ç) rus dilində*

139. Адам Олеарий. Подробное описание путешествия Голштинского посольства в Москвию и Персию в 1633, 1636 и 1639 годах. Пер. с немец. П.Барсова, Москва: Университетская типография, 1870, 1033 с.
140. Алиев Ф.М. Миссия посланника русского государство А.П. Волынского в Азербайджане. Баку: Издательство «Элм», 1979, 120 с.

141. Английские путешественники в Московском Государстве. Перевод с английского Ю.В.Готье. Ленинград: Соц. ЭСКИЗ, 1937, 308 с.
142. Аракел Даврижеци. Книга историй. Перевод с армянского Л.А.Ханларян, Москва: Изд. «Наука», 1973, 623 с.
143. Армянская анонимная хроника 1722-1736 гг. Перевод с турецкого и примечания академика Буниятова З.М. Баку :Изд. «Элм», 1988, 62 с.
144. Ашурбейли С.Б. «Саяхат-наме» Эвлия Челеби как источник по изучению социально-экономической и политической истории городов Азербайджана в первой половине XVII века// XXV Международный Конгресс востоковедов. Доклады делегации СССР. Москва: Изд. Востоная Литература, 1960, 11 с.
145. Ашурбейли С.Б. Очерк истории средневекового Баку (VIII- начало XIX вв.). Баку: Изд.АН Азерб. ССР, 1964, 344 с.
146. Ашурбейли С.Б. Государство Ширваншахов (VI-XVI вв.). Баку: Изд. «Элм», 1983, 342 с.
146a. Ашурбейли С.Б. Экономические и культурные связи Азербайджана с Индией в средние века. Баку: "Элм", 1990, 150 с.
146b. Бартольд В.В. Сочинения. Т.1, Москва: Из-во вост.лит., 1963
147. Бартольд В.В. Сочинения. т.2, ч.1, Москва: Из-во вост. лит., 1963, 1020 с.; т.VII, Москва: «Наука», 1971, 663 с.
148. Байрамов З.Х. Местное и городское управление в Азербайджане в системе государства Сефевидов. Автореферат канд.дис., Баку, 1985.
149. Босворт К.Э. Мусульманские династии. Пер.с.англ. П.А.Грязневича, Москва: Издательства «Наука», 1971, 323 с.
150. Бушев П.П. История посольства и дипломатических отношений Русского и Иранского государств в 1586-1612 гг. (по русским архивам). Москва: «Наука», 1976, 478 с.

151. Бушев П.П. Посольство Артемия Волынского в Иран в 1715-1718 гг. Москва: Изд. «Наука», 1978, 286 с.
152. Бушев П.П. История посольства и дипломатических отношений Русского и Иранского государств в 1613-1621 гг. (по русским архивам). Москва: Изд. «Наука», 1987, 286 с.
153. Бутков П. Материалы для новой истории Кавказа с 1722 по 1803 г., ч.1, Спб:Изд.АН, 1896, 548 с.
154. Джидди Г.А. Средневековый город Шемаха IX-XVII века. Баку: Изд. «Элм», 1981, 174 с.
155. Эфендиев О.А. Образование Азербайджанского государства Сефевидов в начале XVI века. Баку: Изд.АН Азерб.ССР, 1961, 206 с.
156. Эфендиев О.А. Азербайджанское государство Сефевидов в XVI веке. Баку: Изд. «Элм», 1981, 307 с.
157. Есаи Хасан-Джалалян. Краткая история страны Албанской (1702-1722 гг.). Перевод с древнеарм. языка Т.И.Тер-Григоряно, Баку: Изд. «Элм», 1989, 45 с.
158. Эвлия Челеби. Книга путешествия (извлечение из сочинения турецкого путешественника XVII века). Выпуск 3, Москва: Издательство «Наука», 1983, 375 с.
159. Хожение Купца Федота Котова в Персию. Москва: Изд. Восточной Литературы, 1958, 110 с.
160. Ибрахим Эфенди Печеви. История. Перевод с турецкого языка З.М.Буниятова, Баку: Издательство «Элм» 1988, 100 с.
161. Иванов М.С. Очерк истории Ирана. Москва: Государственное Издательство Политической Литературы, 1952, 467 с.
162. Иванов М.С. История Ирана. Москва: Издательство Московской Университета, 1977, 487 с.
163. Какаш Стефан и Тектандер. Путешествия в Персию через Московию 1602-1603 гг. Пер.с.немец. на русск. А. Станкович, Москва: Университетская типография, 1896, 62 с.

164. Каграманов Дж.В. Описание Археографических документов. Баку: Издательство «Элм», 1969, 100 с.
165. Книга Орудж-бека Байата дон-Жуана Персидского. Перевод с английского, введение и коментарии д.и.н. Октая Эфендиева, к.и.н. Акифа Фарзалиева, Баку: Язычы, 1988, 216 с.
166. Корнелий де Брюин. Путешествия. Перев. с.франц. Я.Абезгуз, Azərb. MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi arxivi, inv..№480.
167. Куция К.К. Центральная власть и эволюция института садра в Сефевидском государстве// Духовенство и политическая жизнь на Ближнем и Среднем Востоке в период феодализма. Москва: Изддательство «Наука», 1985, с. 122-128
168. Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку: Изд. АН Азерб. ССР, 1967, 200 с.
169. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: Изд. «Элм», 1982, 280 с.
169а. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв.: Баку, Изд. "Элм", 1987, 210 с.
170. Гусейнов Ш.С. Последствия налоговой политики шаха Султан-Гусейна и Надир-шаха для экономики Азербайджана// Известия Академии Наук Азерб.ССР, Серия общественных наук, 1961, №4, с.11-23
171. Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Баку: Издательство Бакинского Университета, 1991, 263 с.
172. Мамедов С.А. Исторические связи Азербайджанского и Армянского народов (вторая половина XVII в и первая треть XVIII в.). Баку: Изд. «Элм», 1977, 261 с.
173. Мельгунов Г.В. Поход Петра Великого в Персию// Русский Вестник, т.11, Москва: Университетская типография, 1874, с. 5-60

174. Месхиа Ш.А. Города и городской строй феодальной Грузии XVII-XVIII вв. Тбилиси: Изд. Тибилисского Государственного Университета, 1959, с.439
174а. Мехтиев Р. Шах Исмаил Сефеви: портрет правителя и воина. Ч. 1. Баку, 2014, 256с
175. Миклухо-Маклай Н.Д. Шиизм и его социальное лицо в Иране на рубеже XV-XVI вв. Памяти акад. И.Ю. Крачковского// Сборник статей, Ленинград; Изд. Ленинградского Университета, 1958, с. 338-355
176. Новосельцев А.П. Города Азербайджана и Восточной Армении в XVII-XVIIIвв// «История СССР», Москва, 1959, №7, с. 87-108
176а. Павлова И.К. Хроника времен Сефевидов (Сочинение Мухаммад-Масума Исфахани "Хуласат ас-сийар"), Москва: "Наука", 1993, 120с.
177. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. Под.ред. Н.И.Веселовского, том.1, С.Петербург: Товарищество Паровой Скоропечатии Яблонский и Перотть Лештуков, 1890, 453 с.
178. Памятники дипломатических и торговых сношений Московской Руси с Персией. том.2. С.Петербург: Лештуковская паровая Скоропечатня П.О.Яблонского, 1892, 445 с.
179. Петрос Гиланенц. Дневник осады Испаганы афганцами в 1722 и 1723 годах. Перев. К.П.Патканова, Спб.1870, 57 с.
180. Петрушевский И.П. Вакфные имения Ардебильского мазара в XVII веке// Труды Института Истории им. Бакиханова, т.1, Баку: Изд.АН Азерб.ССР, 1947, с. 24-41
181. Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI начале XIX вв., Ленинград: Издательство ЛГУ, 1949, 379 с.
182. Петрушевский И.П. К истории института сойургал// Советское Востоковедение, №6, М-Л., Изд. АН СССР, 1949, с.227-246

183. Петрушевский И.П. Азербайджан в XVI-XVII вв// «Сборник статей по истории Азербайджана», вып.1, Баку: Изд. АН Азерб. ССР, 1949, с. 225-229
184. Петрушевский И.П. Восстание ремесленников и городской бедноты в Тебризе в 1571-1573 гг:// «Сборник статей по истории Азербайджана», вып.1. Баку: Изд. АН Азерб.ССР, 1949, с. 214-224
185. Петрушевский И.П. Ислам в Иране в VII-XV веках. Ленинград: Изд. Ленинградского Университета, 1966, 400 с.
186. Персидские документы Матенадарана (XV-XVI вв). Указы, т.1, вып.1, Составил А.Д.Папазян. Ереван: Изд. АН Армянской ССР, 1956, 295 с.
187. Персидские документы Метанадарана (1601-1650 гг.). Указы, т.1, вып.2. Составил А.Д.Папазян. Ереван: Изд. АН Армянской ССР, 1959, с.296-565
188. Пигулевская Н.В., Якубовский А.Ю., Петрушевский И.П., Строева Л.В., Беленицкий А.М. История Ирана с древнейших времен до конца XVIII века. Ленинград: Изд. Ленинградского Университета, 1958, 390 с.
189. Письма незуитских миссионеров. Перев. с франц. Я.Абезгуз, Азерб.МЕА А.А.Бакыханов адына тарих Институтунун Елми Архиви,. инв. №471.
190. Полиевтков М.А. Европейские путешественники XIII-XVIII вв. по Кавказу. Тифлис: 1-я тип. Сахелгами, 1935, 217 с.
191. Путешествие анонимного миссионера. Перев. с франц. Я.Абезгуз, НАИИ АН Азерб. Рес. инв. №474.
192. Путешественники об Азербайджане. т.1, Составил З.И.Ямпольский, Баку: Изд. АН Азерб. ССР, 1961, 497 с.
193. Рахмани А.А. «Тарих-и алам арай-и Аббаси» как источник по истории Азербайджана. Баку: Изд. АН Азерб. ССР, 1960, 102 с.
194. Рахмани А.А. Азербайджан в конце XVI и в.XVII веке. Баку: Издательство «Элм», 1981, 237 с.

195. Симеон Ереванци. Джамбр. Перевод С.С.Малхасянца, Москва: Издательство Восточная Литература, 1958, 399 с.
196. Соймонов Ф.И. Описание Каспийского моря и чиненных на оном российских завоеваний. Спб: Изд. Академии наук,1763, 380 с.
197. Стрейс Я.Я. Три путешествия. Пер. с. немец. на русск. Э.Бородиной, Москва: ОГИЗ-СОЦ ЭКГЗ 1935, 415 с.
198. Строева Л.В. Русские источники по истории Ирана второй половины XVIII века// Вестник Ленинградского Университета, вып.4, №20, Ленинград: Изд. Ленинградского Университета, 1974, с. 67-75
199. Стори Ч.А. Персидская литература. Библиографической обзор. Перевод с англ., перераб. и доп. Ю.Э.Брегель, ч.I-II-III, Москва: Изд. «Наука», 1972, с. 693-694-1314; 1315-1384
200. Сургуладзе Н.И. Из истории государственного строя Сефевидского Ирана (чиновники финансового ведомство). Автореферат канд.дис., Тбилиси, 1979.
200a. Рашид ад-Дин, изд. Али-заде — Фазлуллах Рашид ад-дин, Джами' ат-таварих (Сборник летописей) ,т. III. Составитель научно-критического текста на персидском языке А. А. Али-заде. Перевод с персидского языка А. К. Арендса, Баку, 1957.362-727 с.
200b.Шабиев Б.Ш. Внешняя политика Узун Хасана (Взаимоотношения с Османской империей). Баку, Типография АзТУ, 2012, 253 с.
201. Шахмалиев Э.М. Дипломатические отношения Испании с Сефевидским государством во второй половине XVI века// «Ученые записки» АГУ им. С.М.Кирова, 1955, №7, с. 117-127
202. Шахмалиев Э.М. Англо-венецианские торговые противоречия на Переднем Востоке во второй половине XVI века// «Ученые записки», АГУ им. С.М.Кирова, 1957, №12, с. 113-120

202a.Шахмалиев Э.М. Об англо-русских торговых противоречиях на Переднем Востоке второй половине XVI века // «Ученые записки», АГУ им. С.М.Кирова, 1958, №5, с. 103-112
202 b. Шахмалиев Э.М. О сотрудничестве армянского торгового капитала с Венецианским с позднее средневековые (XVI век). // «Ученые записки», АГУ им. С.М.Кирова, серия общественных наук, 1961, №1, с. 51-55
203. Шахмалиев Э.М. Донесение папского посла Векьетти о Сефевидском государстве// «Ученые записки» АГУ им. С.М.Кирова, серия история и философия, 1977, №4, с.31-37
204. Шпаковский А.Я. Торговля Московской Руси с Персией в XVI-XVII вв// Сборник статей, Киев, 1915, выпуск VII, с.1-54
205. Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. Москва: Изд. «Наука», 1982, 188 с.
206. Закарий Канакерци. Хроника, Перевод с армянского М. О. Дарбинян-Меликян, Москва: Изд. «Наука»1968, 320 с.
207. Закарий Акулисский. Дневник. Ереван: Изд. Армяского филиала АН СССР, 1939, с. 159

*d) fransız dilində*

208. Estat de la Perse en 1660 par le P.Raphael du Mans, Superieur de la mission des capucins d'ispanan. Paris: Publie Avec Notes et Appendice Par CH Scheffer, 1890, 464 s.

*e) alman dilində*

209. Fekete L. Einführung in die persische palaographie 101 persische dokumente. Budapeşt: Akademıaı Kıado, 1977, 594 s.

*ə) ingilis dilində*

210. Roger Savory. İran under the Safavids. London: Cambridge University Press, 1980, 277 s.
211. Roger M.S. The office of khalifat al-khulafa under the safavides// Journal of the American Oriental Society. Vol.85., n.4, Baltimore, 1965, s. 497-502

# X Ə R İ T Ə L Ə R

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (ŞAH İSMAYIL DÖVRÜ,1501-1524-cü illər)






Şah İsmayıl döyüşdə.
Divar şəkli. İsfahan, XVII əsr.

*İsmayılın rəhbərliyi altında qızılbaşlar 1500-cü ildə Şirvanşah Fərrux Yasarı Çobani döyüşündə, 1501-ci ildə isə Ağqoyunlu Sultan Əlvəndi Şərur döyüşündə məğlub etdilər. Təbrizə daxil olan İsmayıl şah elan olundu və Azərbaycan Səfəvi dövləti yarandı. Şah İsmayıl 1503-cü ilin iyununda Almaqulağı döyüşündə Sultan Muradın ordusunu məğlub etdi və Səfəvilər tərəfindən İranın Kirmana kimi əksər vilayətləri ələ keçirildi. 1506-1508-ci illərdə Ərəb İraqı, 1510-cu ildə isə Mərv döyüşündə Məhəmməd Şeybani üzərində qələbədən sonra Xorasan vilayəti Səfəvi dövlətinə birləşdirildi. Azərbaycan Səfəvi imperiyası şərqdə Şeybanilər, qərbdə isə Osmanlı imperiyası ilə həmsərhəd oldu. Dövlətin sərhədləri şimalda Dərbənd şəhərindən cənuba doğru - Fars körfəzinə, qərbdə Fərat çayından, şərqdə Amudərya çayına kimi uzanırdı.*

*1514-cü ildə Çaldıran döyüşündən sonra Şərqi Anadolu və Şimali İraq əraziləri Osmanlı dövlətinə verildi.*

1499-1504-cü illərdə Şah İsmayılın mərkəzləşdirilmiş Azərbaycan dövləti yaratmaq uğrunda mübarizəsi

1507-1508-ci illərdə Şah İsmayılın Ərəb İraqına yürüşləri

1510-cu ildə Şah İsmayılın Xorasana yürüşü

1514-cü ildə Sultan Səlimin Azərbaycana yürüşü

Səfəvilərin Çaldıran döyüşündən sonra itirilmiş əraziləri

Portuqaliyanın işğal etdiyi ərazi

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ ( ŞAH TƏHMASİB DÖVRÜ, 1524-1576-cı illər)






Azərbaycan miniatürləri. XVI əsr.
Saray bağçasında musiqi məclisi.

*Şah Təhmasib 1538-ci ildə Şirvanşahlar dövlətinin, 1551-ci ildə isə Şəki hakimliyinin müstəqilliyinə son qoyaraq həmin əraziləri Səfəvi imperiyasına birləşdirdi. Şah Təhmasib dövründə Azərbaycan Səfəvi dövləti özünün şərq vilayətlərini Şeybani dövlətinin və Moğol imperiyasının hücumlarından müdafiə etsə də, Osmanlı Sultanı Süleyman Qanuninin 1534-1554-cü illərdə Azərbaycana 4 hərbi yürüşü nəticəsində dövlətin qərb torpaqlarını itirdi.*

*1555-ci ildə Amasiyada imzalanan Səfəvi-Osmanlı sülhünə görə, Səfəvilər Şərqi Anadolunu, Ərəb İraqını və Qərbi Gürcüstan torpaqlarını Osmanlı dövlətinə güzəştə getdilər.*

- 1538-1551-ci illərdə Səfəvi ordusunun yürüşləri
- 1534-1554-cü illərdə Osmanlı Sultanı Süleyman Qanuninin Azərbaycana yürüşləri
- 1526-1528-ci illərdə Şeybani ordusunun yürüşləri və məğlubiyyəti
- 1538-ci ildə Moğol ordusunun Qəndəhara yürüşü və məğlubiyyəti
- 1555-ci il Amasiya sülhünə görə Azərbaycan Səfəvi dövlətinin itirdiyi ərazilər
- Portuqaliyanın işğal etdiyi ərazi

# AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİ (I ŞAH ABBAS və SƏLƏFLƏRİ DÖVRÜ,1587-1736-cı illər)




Bərdə şəhəri. İmamzadə məscidi, XVII əsr

*I Şah Abbas dövründə güclü nizami ordunun yaradılması Səfəvi dövlətinə itirilmiş ərazilərini geri qaytarmağa imkan yaratdı. 1599-cu ildə I Şah Abbas Şeybanilər üzərində qələbə qazanaraq Xorasanı yenidən Səfəvi imperiyasına birləşdirdi. 1603-1607-ci illər Səfəvi-Osmanlı müharibəsində qalib gələn I Şah Abbas itirilmiş Azərbaycan torpaqlarını geri qaytardı və Osmanlılarla növbəti müharibələrin gedişində imperiyanın sərhədlərini qoruyub saxladı.*

*1620-ci ildə vaxtı ilə Portuqaliyaya güzəştə gedilən Hörmüz geri qaytarıldı. 1622-1624-cü illərdə Osmanlı ordusu üzərində qələbədən sonra Ərəb İraqı da Səfəvi imperiyasına birləşdirildi. Səfəvi imperiyasının sərhədləri bərpa edildi. Lakin Şah Səfi dövründə osmanlılarla 1636-1639-cu illər müharibəsinin gedişində səfəvilər məğlub oldu və tərəflər arasında bağlanmış Qəşri-Şirin müqaviləsinə görə Ərəb İraqı Osmanlı imperiyasının tərkibində qaldı.*

Nəşriyyatın direktoru
*Şöhrət Səlimbəyli*

Texniki redaktor
*Mail Xəlilov*

**Zabil Həsrət oğlu Bayramlı**

**AZƏRBAYCAN
SƏFƏVİ DÖVLƏTİNİN QURULUŞU VƏ
İDARƏ OLUNMASINDA
TÜRK QIZILBAŞ
ƏYANLARININ ROLU**

Yığılmağa verilib: 12.01.2015
Çapa imzalanıb: 29.01.2015
Format: 60x84 16/[1]
21 ş.ç.v
Tiraj:500

*«AVROPA»nəşriyyatı*